almaz
ülvi



# Müharibə ağrılarım

Sənədli publisistik qeydlər,
ədəbi düşüncələr

**Almaz ÜLVİ**

# MÜHARIBƏ AĞRILARIM

**(Sənədli publisistik qeydlər, ədəbi düşüncələr)**

**I kitab**

**Bakı –- 2005 .**

**Redaktoru : Nazim Süleymanov**

Almaz Ülvi. Müharibə ağrılarım (Sənədli publisistik qeydlər, ədəbi düşüncələr) I kitab. - Bakı, “Nurlan” nəşriyyatı – 2005. 546 səh.

**_4702000000__Qrifli nəşr**
**N – 098 – 2005**

Bu kitabda Azərbaycan azadlığı mübarizəsindən, Azərbaycanın ərazi bütövlüyü uğrundakı döyüşlərdən, böyük Azərbaycan sevgisindən bəhs edilir.

**© Almaz Ülvi, 2005**

*Mən qorxmuram uzaq yola çıxmaqdan!*
*Bu yolun,*
*şaxtasından, soyuğundan*
*mən qorxmuram.*

*Mən qorxmuram uzaq yola çıxmaqdan!*
*Bu yolun,*
*acısından, ağrısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram!*

*Yollar saysız,*
*Yollar sonsuz,*
*Yollar ötür,*
*Dünənimdən,*
*bu günümdən,*
*sabahımdan ötür keçir.*

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Çünki,*
*dünyadakı bütün yollar,*
*Anamın təndir evinin*
*qabağından*
*ötür keçir.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan!*

*Ülvi B.*
*1989*



***Bu kitabı müqəddəslərim -***
***atam Qasım müəllimə və***
***anam Güləbətin xanıma***
***ithaf edirəm***

## Azərbaycan Eşqi - Azərbaycan Ağrısı

*(ön söz əvəzi)*

Mən istəməzdim ki, bu kitaba ağrı-acı, dərd-ələm toplusu kimi baxılsın. Faciəvi günlər, dərd dolu talelər, müharibə dəhşətləri səhifələrdə görünsə də, əslində söhbət böyük bir hadisə ətrafında cəmlənib.Bu da Vətən – Azərbaycan taleyi məsələsidir. Deməli, bu kitab mənim Azərbaycana, torpağımıza məhəbbət simvolum,can yanğımdır.

Sovet sistemi çərçivəsində 1985-ci ildən başlayan yenidənqurma siyasəti ilə Azərəbaycanın başı üzərində qara, kölgəli buludlar görünməyə başladı. 1988-ci il fevralın ilk günlərində birdən-birə Xankəndində "Qarabağ" şüarlı mitinqlər başladı. Sən demə, ermənilər illərlə bu hadisəyə hazırlaşırmışlar. Qorbaçovun köməkçisi Şahnazaryanın Fransadakı "Qarabağ tezliklə Ermənistana birləşdiriləcək" fitvasından iki-üç gün sonra Xankəndində bu məsələnin əks-sədası eşidildi. Yadımdadır, hamı təəccüb içində idi: sovet sistemində də mitinq olarmı? Axı bu sistem zəhmətkeşlərin qurduğu dövlət idi. İndi bu nə özbaşınalıq, nə hay-küydür – heç nə başa düşülmürdü. Bu azmış kimi Qarabağla Azərbaycanın digər rayonları arasındakı qarşılıqlı iqtisadi əlaqələr pozulurdu. (Şəki inək kombinatının fəaliyyəti xammal ucbatından dayandı və s.) Amma hamı bu məsələnin iki-üç günə sovuşacağını düşünürdü. Elə bu zaman "Sumqayıt faciəsi" baş verdi. Erməni məkri ilə çox incə düşünülümüş qırğın, dağıntı əxlaqsızlıq törədildi. Fevralın 26-sı gecə başlayan bu hadisədə – vuran da, vuruşan da erməni daşnakları idi. Amma sübh tezdən, dünyaya car çəkildi ki,

Sumqayıtda türklər erməniləri öldürüblər, yandırıblar. Burada bir məsəl yada düşür: "Adımı sənə qoyaram, səni də yana-yana". Hələ bunlar başlanğıc imiş. Ermənilər dediklərində israrlı dayanmışdılar – "Qarabağ Ermənistanın tərkibinə qatılmalıdır". Qanmaq istəmirdilər ki, bu bir ovuc qum-əşya deyil, bu torpaqdır, namusdur. Torpaqdan, namusdan isə pay olmaz. Beləcə hər gün yeni bir tonqal çatılırdı. Azərbaycan xalqı isə ümid edirdi ki, Sovet hökuməti ermənilərin ağzından vurub yerində oturdacaq. Bilmirəm niyəsə görmürdük ki, elə bu hadisələr oradan – Qızıl Kremldən başlayır. Türk oğlu Heydər Əliyev SSRİ rəhbərlik sistemindən istefaya göndəriləndən cəmi bir neçə gün sonra bu məsələ qaldırıldı və davam edirdi. Azərbaycanda hökumət başçısı dəyişdirildi. Azərbaycanda doğulan, amma Azərbaycandan xəbəri olmayan təsadüfi birisi Respublika rəhbəri təyin oldu. Bu o ərəfədə idi ki, Ermənistandan bütün azərbaycanlılar evlərindən, yurdlarından, qovulurdular – sovet əsgərlərinin süngüləri ucunda gecəykən əhalini vertolyotlara doldurub Azərbaycan ərazisinə daşıyırdılar. İllərlə qazandıqlarını, əmlaklarını erməniyə qoyub evlərindən çıxarılırdılar. Mənim də ailəmi gecəykən vertolyotda çıxartmışdılar. Evindən çıxarılan insanlar üz tutdular Qarabağ torpağına. Lakin "təsadüfi başçı" bu məsələni eşidən kimi gecəykən "İkarus" avtobuslarla həmin əhalini Mil, Muğan düzünə daşıtdı. Erməni basqısından, sovet süngüsündən can qurtaran əhali – dağ adamları iqlimə dözməyərək aran düzündə qırılmağa başladılar. Bu yandan isə Qarabağ torpağı əldən gedirdi. 1988-ci ilin axırlarında bütün türklər Ermənistandan çıxarıldı. Axırıncı daşınmadan cəmi bir saat sonra Ermənistanda dəhşətli zəlzələ baş verdi. Bu zülmü isə nə Allah götürdü, nə də yer-göy. Ulu türk torpağı o murdarların ayaqlarına dözmədi. Yer yarıldı, hər şeyin altı üstünə çevrildi. Hələ bu məqam bir hadisəni də xatırlayaq: ermənilər türkləri dədə-baba torpağından axırıncı nəfərinəcən qovdu, biz isə humanistlik edib, üstündən heç bir gün ötməmiş erməniyə kömək məqsədiylə bir təyyarə dolusu – 70-ə qədər

cavan oğlan göndəririk ki, ermənini torpaq altından xilas etsin. Gör erməni nə etdi?! – həmin təyyarəni yerə enməyə bir sutka imkan yaratmadı, sonra isə təyyarəni göydəcə partlatdı. Bir nəfərdən başqa hamı yanıb külə döndü.

Qarabağ harayı səngimirdi. Ermənilər Qarabağ meşələrini yandırıb tökürdülər.

Bakıda 1989-cu ildə "Topxana meşələrinin qırılmasına etiraz mitinqləri" keçirilməyə başladı. Bir neçə gün davam edən çoxminli, bəlkə də milyonlarla insanların toplaşdığı mitinqlər sovet süngüsü ilə dağıdıldı. Bakıda isə ermənilər hələ də keflə yaşayırdılar. Elə bu vaxt bundan yeni bir istifadə üsulu seçildi. 1990-cı il .13-14 yanvar günləri – Bakıda talanlar, ölümlər baş verirdi. Ermənilərə qarşı növbəti bir "qırğın" planı hazırlandı. Əslində rus – erməni siyasəti ilə Azərbaycan xalqını qorxudub Qarabağı təslim etmək istəyirdilər. Sovet imperiyası 1923-cü ildə Ermənistan dövləti yaradarkən sorğu-sualsız Göyçəni, Zəngəzuru, Zəngibasarı erməniyə pay vermişdi. İndi isə zaman başqa cür idi. Səssiz-ünsüz baş tutmayan bu işi qorxuyla, ölümlə, hədəylə həyata keçirirdilər.

Yanvar "talanlarının" qarşısını almaq üçün Bakının dörd tərəfinə sovet qoşunlarından ibarət silahlı sədd quruldu. Cəmi bir həftə sonra isə o silahlı quldurlar Bakıya hücum etdilər. Bakının yüzlərlə sakinini öldürdülər, yaraladılar, tank tırtılları altında cavan insanları – uşaqları, qadınları, qocaları, alimləri əzdilər, torpağa qatdılar.

1990-cı ilin qara 20 yanvar gecəsi qırmızı qan içində sübhə açıldı. Amma dünyaya yayıldı ki, Azərbaycanda ekstremistlər Sovet hökumətini yıxmaq üçün mitinqlər keçirirdilər, sovet ordusu onun qarşısını almağa cəhd göstərib. Hələ bunlar harasıdır – az vaxt ötməmiş Qarabağ bütünlüklə azərbaycanlılardan təmizləndi. Sonra ətraf rayonlar – Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Ağdam... işğal olundu. Şəhərlər, kəndlər talan olundu, yandırıldı. Xatın misallı Xocalı faciəsi törədildi. Çox sonralar bilmişəm ki,

Böyük Vətən Müharibəsi illərində Xatın kəndini almanlar yox, sovet imperiya siyasəti sovet qoşunları yandırıblar – əhalisi ilə birlikdə səbəb o olub ki, bu vəhşiliyə görə dünyanın almanlara qəzəbi  artırsın. Xocalı əhalisi də, şəhəri də eləcə Xatın kəndi – əhalisi kimi yandırıldı, yerlə-yeksan oldu. Cəmi Qarabağ ətrafı ərazilərin əhalisi çöllərə töküldü. Çadır şəhərcikləri salındı. Bu yandan Qazax, Tovuz, Gədəbəy hücumlara məruz qaldı. Müharibə od-alovu yeri-göyü başına götürmüşdü. Amma nə acı ki, dünyada bizdən başqa heç kəs nə top-tüfəng səsi eşidirdi, nə insan qırğınını, nə də çadır şəhərciklərini görürdü. Azərbaycanın dərdinə şərik çıxan, köməyinə yetən yox idi. Erməni fitvaçıları ermənini güclü etmişdi.

1991-ci ildə Sovet sistemi bütünlüklə içindən çökdü, bütün respublikalar müstəqilliklərini elan etdilər. Azərbaycan da 1991-ci il 18 oktyabr tarixində öz müstəqillik aktını imzaladı.

Xronoloji sıra ilə, qısaca – milyon dəfə qısaldılmış bu tarixi hadisələrə nəzər salmaqda məqsədim odur ki, bir daha deyim bu qədər faciələr törədilməsinə səbəb ilk gündən Qarabağın erməniyə təslim olunmaması idi. Amma onu da bir daha deyim ki, torpaqdan-namusdan pay olmaz. Kişi düşmənə torpaq verməz.

Bax, indi məqamdır, deyim niyə bu kitab dərd-ələm toplusu deyil. Bu kitab torpaqlarımız uğrunda mübarizələrimizin müəyyən məqam əksidir, qəhrəmanlıq yolumuzun yazılı anlarıdır. Neçə-neçə igid oğul-qızlarımız məhz torpaq – Qarabağ torpağı, Azərbaycan azadlığı, müstəqilliyi uğrunda şəhid olublar. Sabahkı nəsil görsün ki, mübarizəsiz dayanmamışıq. Satqınlarımız da çox olub. Amma mübarizlik ruhumuza qalib gələ bilməyiblər – nə düşmən, nə də sapı özümüzdən olan baltalar. Şəhidlər xiyabanı buna sübutdur.

Bir vaxtlar Cənub həsrətindən yana-yana yazırdıq. O hay-küylər içində – 20 yanvara az qalmış Cənubi Azərbaycanla sərhəd məftillərimiz, dirəklərimiz söküldü, yandırıldı. Həsrət insanlar – qardaş-bacılar, ana-balalar görüşdülər. Faciəvi cənub söhbətinin

sonu çatmışdı. Bir yandan Günəş çıxırdısa, bir yandan da gecənin qaranlığı sürünüb gəlirdi.

Bütün bunları həyatımızda yaşamışıq. Cəmi bir neçə günün içində tarixi formasiya dəyişirdi, sərhədlər dəyişirdi, müharibələr gedirdi, igidlər şəhid olurdu, top-avtomat, qrad, mərmi partlayışları adi hala çevrilmişdi – heç nə olmamış kimi...

1993-cü ildə atəşkəs elan olundu. O vaxtdan hər gün eşidirik: sərhəd bölgələrində nisbi sakitlikdir, atışma qeydə alındı, yaralanan var, ölən var, tək-tək atışma eşidilir, nöqtələr, nöqtələr….

Atam-anam 70-65 yaşında yurd didərgini oldular. Atam uzun illər öz-özünə pıçıldadı ki, bilmirəm arı yeşiklərinin ağzını açdım, yoxsa yox. Açsam arıları soyuq qıracaydı, açmasam da acından qırılacaqdılar. Bütün ömrünü şərəfli bir işə – müəllimliyə həsr edən insan bir sual qarşısında ovuna bilmirdi. Anam uzun illər özümü bağışlaya bilmədi ki, çörəyi bişirdim, içini çəksin deyə süfrəyə düzmüşdüm. Macal edib çörək tavağına yığammadım. Üstü açıq qaldı – çörək üstüaçıq qalanda günahdır. Beləcə, hər gün bir şeyin ağrısına ağrıdılar. Bacım Fənar dağ-daşımızdan ötrü göynədi, dözə bilmədi, cavankən öldü. Evimizin görpəsi Ülvi Azərbaycan azadlığı uğrunda 20 yaşında şəhid oldu. Bacım-qardaşlarım vətən əsgərinə döndülər. Vətən eşqlərini nəfslərindən çox-çox ucada saxladılar.

Bəli, belə bir vətən sevgisi coşğunluğu timsalında bu toplunu oxucularıma yetirmək istədim. 25 ildir ki, mətbuatda çalışıram. Minlərlə insanlarla – ən müxtəlif peşə sahibləri ilə görüşmüşəm, söhbətlərini yazmışam. Böyük alimlərlə, yazıçı-şairlərlə, yaradıcı şəxsiyyətlərlə, əməkçi ilə,iqtisadçı ilə... müsahib olmuşam. Müxtəlif iqtisadi – siyasi – mədəni hadisələrə münasibətimi bildirmişəm. Elmi işlə maraqlı olmuşam. Amma bu topluda ancaq vətən – Azərbaycan uğrunda mübarizəyə həsr olunmuş yazıları toplamışam. Müxtəlif illərdə mətbuatda çap olunmuş publisistik məqalələr, qeydlər, düşüncələr, ağrılar, qəhrəmanlıqlar, məğrur anlar, ölməzlik... Böyük ziyalılarımız vətən şəhidi olublar – biri fəlsəfi

düşüncələriylə, biri qələmiylə, biri həsrətiylə, biri canıyla, biri...

Bütün bunları gördüyümdən, şahidi olduğumdan müharibənin od-alovlarına atılmışam. Heç nədən qorxmamışam. Baş redaktorumuz, sevimli şairimiz N.Həsənzadə "uşaqlar, sərhəd bölgələrinə getmək lazımdır, müharibədən yazmaq lazımdır" – deyən kimi ilk olaraq yola düşmüşəm, Qərib əllərdə qalmış torpağımızın, evimizin, şəhidimizin intiqamı məni mətin əsgərə çevirmişdi. Nə erməni gülləsindən qorxurdum, nə də yandırılmış, məhv edilmiş kənd-kəsəklərdən. Oradan salamat gələn kimi xəstəxanalarda güllə yarası almış xəstələrə baş çəkirdim. O mövzuda yazılmış kitablara, qeydlərə münasibətimi yazardım. Ruh coşğunluğu xatirinə böyük şəxsiyyətlərin həyatından yazılar yazardım. Ədəbi düşüncələrimi qeyd edərdim. Saza-sözə tapınırdım. Amma hamısı həm də sağlamlığı itirə-itirə başa gəlirdi.

Qazağın Bağanis-Ayrımdakı erməni vəhşiliyini görən günü özümə gələ bilmədim. Səhər oyananda bədənimin başdan-başa bir tərəfi öz hissiyyatını itirmişdi. Redaksiyaya qayıdanda utandığımdan dərdimi demədim, heç evdə də bildirmədim. Gənc idim deyə canım dözürdü. "Canını  çox istəyir" – deyəcəklərindən çəkinib içimə salırdım hər şeyi. İndi bu qeydləri edərkən o ağrılardan az qala ağlım başımdan çıxsın. Bir də qulağı, burnu, əlləri, barmaqları kəsilmiş yurddaşlarımızı görəndə bu ağrılar bir anda məndə peyda oldu.

Əlimə buz kimi silah alıb soyuq tankla erməni sərhədinə tərəf gedəndə içimdə vətən sevgisi qaynayırdı. Tankı sürən mən olsaydım düz Kəsəmənə – Göyçəyə yol alardım.

Bu kitabdakı vətəndaşlıq pasportuma çevrilə biləcək eşqimi duya bilən olsa nə dərdim. Tariximizi vərəqlədim – qəhrəmanlıq tariximizin ilk məqamlarınacan... getmək istədim.

Atillada – Avropa və Asiyanı fəth edən Hun imperatoru – bütün dünyanı ilk dəfə türk dilində danışdıran Atillada dayandım. Oxucum o yazını oxuyanda görsün ki, biz dünyanı fəth etməyə qadirik.

Qan-qada, müharibə-qırğın görsək də, dünyanın bir sevgi gözəlliyi də var. Təbiət eşqli, vətən məhəbbətli, ilıq duyğulu sevgi anlarına dalmaq insanlığın ən uca zirvəsidir.

O zirvədə dayanıb Göyçə, Qarabağ uğrunda mübarizəyə Allahdan xalqıma bir dəfə də Atilla gücü diləyirəm. Ya Rəbbim eşit bizi, kömək ol bizə. Türkə məğlubluq yox, məğrurluq yaraşır.

Müstəqil Azərbaycanımızın həmişə döyüşən əsgəri, vuran qəlbi, düşünən beyni olmağa cəsarətliyəm.

*Bakı, 2005*



# Göyçəm...

## Göy Çiçəyim

* * *

*Göyçə gölü yaraşıqdı qoynuna,*
*Sərin mehli, buz bulaqlı kəndimiz.*
*Şah dağları mirvaridir boynuna,*
*Uca dağlı, göy yaylaqlı kəndimiz.*

*Koroğlutək igidlərin vətəni,*
*Həcər kimi gözəllərin məskəni.*
*Ələsgərin sazı, sözü səslənir,*
*Hər bir evdə, saz yığnaqlı kəndimiz.*

*Yaxın idin, bir vaxt mənə xeyli sən,*
*Hüsnünə baxdıqca yorulmazdım mən.*
*Necə oldu biz ayrıldıq qəflətən,*
*Sən nəğməli, xoş novraqlı kəndimiz?*

*Ülvi B.*
*1985*

**İTİRİLMİŞ YURDUM:** *Kiçik Qafqaz sıra dağları – Şahdağın ətəklərində yerləşən Göyçənin tarixi soraqları Dədə Qorqud dastanlarından gəlir. Göyçənin etnoqrafiyası bir daha adamı inandırır ki, ilk türk yurdunun binəsi Göyçədən başlayıb. Göyçə yaranışı, təbiəti, adət-ənənəsi ilə bütövlükdə milli foklor nümunəmiz idi. Yaraşıqlı dağlar əhatəsində olan Göyçəyə Göyçə gölü bir ayrı gözəllik verirdi. Elə bil bir cüt sona idilər – Göy otlar və Göy dəniz. Göyçə gölü ətrafında yerləşən ərazi Göyçə mahalı adlanırdı. (Kəvər, Qaranlıq, Çəmbərək və Basarkeçər rayon əraziləri).*

Basarkeçər –mənim doğulduğum yurd bu ərazilərin ən böyüyü idi. Rayon bütün kəndləriylə birgə, digər rayonların isə cəmi bir neçə kəndi mahalın tərkibindəydi. Bu yurdun sazı təsdiq edir ki, yaşı bilinməz, zirvəsi görünməz tarixi var.

1150 kv. km sahəsi əhatə edən Basarkeçər rayonu Gədəbəy və Kəlbəcərlə dağ qonşuları – həmsərhəddir. Rayonun bütün əhalisini türklər təşkil etsələr də çar hökumətinin 1828-ci ildə İran ilə bağladığı Türkmənçay və 1829-cu ildə Türkiyə ilə bağladığı Ədirnə sülh müqaviləsinə əsasən həmin ölkələrin ermənilərinin xeyli qismi Göyçə gölü ətrafında yerləşdirilmişdi ki, bununla da Göyçəyə murdar erməni nüsxələri atılmışdı.

Ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq iddiaları ilə Göyçə həmin vaxtdan deportasiyalara məruz qalıbdır. Bir neçə dəfə çar imperiyası azərbaycanlıları öz köçürülmə siyasətləri ilə yer-yurdlarından didərgin etdilər. 1918-1919-cu illərdə qəddar Andronikin açıq terroru göyçəlilərin yaddaşından tarix ötsə də silinməmişdi. (Bu hadisə Ülvinin "Hələ səbr edirəm" tarixdə öz əksini aydın ifadə etmişdir.) Həmin terrorla Göyçə əhli yurdundan pələsəng olmuşdu. Rus imperiyası çar şinelini çıxarıb sovet şinelini geydi. Ermənistanda sovet hakimiyyəti qurulanda suveren (guya) respublika ərazi qurmaq üçün Göyçə, Zəngəzur, Zəngibasar mahallarını və s…torpaqlarımız qeyd-şərtsiz erməni ərazisinə çevrildi. Onda 1923-cü il idi. Ancaq bununla kifayətlənməyən impe-

riya sovet siyasəti ilə 1948-53-cü illərdə Ermənistandan, o cümlədən Göyçədən azərbaycanlıları yenidən köçürməyə başladılar. Bu köçürülmə siyasəti tarixdə "ağ genosid" adlanır.

1985-ci ilin "yenidənqurma"sı növbəti köçürülmə siyasəti – nə başladı. Ermənistanda, o cümlədən Göyçədə bir nəfər də azərbaycanlı qalmadı. Rus-erməni silahlı birləşməsi ilə 1988-ci ildə əhali bütünlüklə məcburi olaraq yurdundan çıxarıldı. Nəhayət, 1988-ci il dekabrın 10-da Ermənistanı "türklərsiz respublika" elan etdilər. Basarkeçər rayonu – Göyçə bütünlüklə erməniyə qaldı.

1969-cu ildə Basarkeçər rayonu Vardenis, 1978-ci ildə isə Kəsəmən kəndini Bahar adıyla (bu proses bütün kəndlərin adında baş verdi) əvəzlədilər. Burada erməni məqsədi toponimi məhv etmək, qədim adların izini itirmək, yeni süni tarix yaratmaq olubdur.

Axırıncı illərin məlumatına görə, Basarkeçərdə 34 kənd var idi. 24 türk, 7 erməni, 3 qarışıq, 60 min nəfər əhalinin 40 mini türklər idi. Bir faktı da bu məqam desəm yerinə düşər. Bizim əhaliyə Göyçədə ermənilər türk deyirdilər, bu tərəfə – Azərbaycana keçən kimi azərbaycanlı olurduq. Ona görə bu yazımda Göyçə kəndlərindəki əhaliyə türk deyə üz tutmuşam. Bilmirəm kim haqlıdır?

Mən bilmirəm indi o mahalda kimlər yaşayır. Erməni Şahdağı silsiləsindəki qayaların, çəmənlərin, otların,çiçəklərin, dərələrin adlarını bilmir. İnanıram ki,biz o dağlar-daşlar üçün darıxdığımız kimi, o cansız-dilsiz, amma ruhu olan dağlar daşlar, qayalıqlar bizim üçün darıxırlar. Adları çəkilmədikcə həsrət-həsrət əriyirlər. Biz gedib çıxmasaq dərddən dağlar iki yerə bölünəcək – hər şey torpağa gömüləcək. Bax, onda Göyçənin qiyamət günü olacaqdır. Hələ ki, bizi gözləyirlər.

Göy çiçəkli göyçək Göyçəm gözlə, biz bir məqam axtarır, fürsət gözləyirik. Bir də gördün budu haa… dağına-daşına səpələnmişik, qucaq-qucaq gülündən-çiçəyindən dərmişik.

Sənə türk oğlu – türk qızı yaraşır, Od yurdum.

*"Xalq qəzeti" 12 iyun 2005*

**HƏLƏ SƏBR EDİRƏM**

Göyçənin keçmişi müdhiş olubdu,
Əgər araşdırsan qoca tarixi.
Köhnə daşları var, üstü yazılı,
Gah alban hərfi, gah da ki, mixi.

Hələ oxunmayıb onların biri,
Bəlkə də oxunub, sonra gizlənib.
Amma yaddaşlarda qalan tarixdən,
Görürəm həmişə Göyçə gizlənib.

Bir tarix danışdı bir yaşlı kişi,
Uşaq yaddaşıma hopdu su kimi,
Onun söhbətləri indi də belə
Qalıb qulağımda bir yuxu kimi.

…O vaxt bir general Selikov adlı,
Göyçəni quldurtək çalıb-çapırdı.
Yazıq göyçəlilər hara qaçsa da,
Selikov axtarıb, gəzib tapırdı.

"Mənim şanlı ordum, müzəffər ordum,
Gərək ərzaqdan da korluq çəkməsin.
Ordu tanımıram, mənim önümdə
O təslim olmasın, o diz çökməsin".

Zodda oturmuşdu o quldur daşnak,
Dinənin boynunu vururdu dərhal.
Göyçə qan içində çabalayırdı,
Matəm içindəydi bu qədim mahal.

Bax, onda yığışdı hamı bir yerə,
Hamı ürəyində bir and içirdi.
Fikirli gəzirdi Məşədi İsə,
Fikirində yüz ölçüb, bir də biçirdi.

Sonra ehtiyatla açdı fikrini,
Qorxmaz oğullardan seçdi köməkçi.
Getdi generalın yanına birbaş
Soldatla doluydu həyətin içi.

Nələr düşünürdü bu çətin anda,
Gəldi göz önünə eli-obası.

Axı bu yurdda qorxaq olmayıb,
Belə danışıbdı ata-babası.

Oturdu söhbətə Məşədi İsə,
Deyəsən general ona inandı,
Söhbət qurtaranda istədi onu,
Durub yola salsın birdən dayandı.

Deyirlər general bic adam idi,
Hamının qəlbini görürdü guya.
Amma dayanmadı: çıxdı həyətə -
Baxdı məğrur-məğrur ulduzlu göyə.

Həyət boşalmışdı, yəqin soldatlar,
Yatmağa getmişdi, gecə yarıydı.
Onlar dayandılar qapı ağzında,
Həyətin dörd yanı qəlbi barıydı.

Bu axsaq qocaya hardan güc gəldi ,
Bir anda hoppanıb barını aşdı.
General özünə gəlməmiş gördü
Gözündən od çaxdı, ildırım şaxdı.

Zoddular qəflətən üstünü alıb,
Kəsdilər başını – qan çanağını.
Ona göstərdilər qisas gününü,
Ona göstərdilər Göyçə dağını.

Beləcə məhv oldu qanlı general,
Susdurmaq olmazmış haqqın səsini.
O olub qalsa da o uzaq gündə,
Yenə eşidirəm xalqın səsini.

Bəlkə unudubdu Zori Balayan,
Qan içən babası qanda boğulub.
Başqa torpağına göz dikən zaman,
Bax onda, bax onda, boğulub.

Hələ ulu Göyçə bir vaxt gələcək,
Cavab istəyəcək tutub yaxandan.
Haraya qaçsan da məzar olacaq,
Qarabağ sənə də "hinger Poqosyan".

Bax, onda gedəcəm Göyçə elinə,
Qanlı tarixini yazacam bir-bir.
Yəqin çatacağam o xöşbəxt günə,
Hələ səbr edirəm, mən hələ səbr.

***Ülvi, 1989***

**GÖYÇƏ ELİM, YURD YERİM:** Göyçə obalarının, kəndlərinin söykənəcəyi dağlar idi: vüqarlı, əzəmətli, etibarlı dağlar. İndi o dağlar inanın ki, ətəyindəki obaların viran qalması xiffətindən əriyir. 1988-ci il "fırtına"sı günü-gündən artıb son həddə yetişsə də, imperiya siyasətindən baş açmayan körpələrin qəlbi", üz-gözləri kədər buluduyla kəlgələnsə də, oba toy-düyünündən qalmırdı: qarı düşmən acığına. Cavanlar toylarda, bayramlarda beləcə biri-birinə qarışıb sevinərdilər, oynayardılar. Hamısı bir yurd işığına cəmlənib, Allaha xoş gedən günlər keçirərdilər. Çoxdan bəri marıqda dayanan şər-şeytan imkan axtarırdı – bu xoşbəxt həyatı çilikləməyə. Şər, şeytan imkan tapdı obaları dağıdıb, balalarını didərgin edib, pərən-pərən saldı. İndi Allah bilir, kim haralardadır. Yəqin əl içi boyda olan bu şəkil onları o bəxtəvər günlərinə qaytaracaq, doğma, sevgili üzləri görcək sevincək olacaqlar, ağlayacaqlar: həsrət-həsrət.

***

Ermənilərin Qarabağda torpaq iddiasının əleyhinə olaraq 1988-ci ilin 15 iyun günü Göyçədə etiraz mitinqləri başladı. Mitinqlər bir neçə gün davam etdi.

*"Ədəbiyyat qəzeti" 4 iyun 1992-ci il*
*"Ədəbi Göyçə" səh.-dən*
*"Ədəbiyyat qəzeti" 6 mart 1992-ci il*




**GÖYÇƏ SEVGİLİ DÜYĞULARLA BAŞ-BAŞA …**
***Yaxın bir neçə ilin söhbətidir. İşlədiyim "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında "Ədəbi Göyçə" səhifəsi hazırlayıb nəşr etdirmək istəyimi Baş redaktor, sevimli şairimiz Nəriman Həsənzadəyə bildirdim.***

Artıq çapa hazır olan "Ədəbi Göyçə" fikrinin davamı kimi "Ədəbi Təbriz", "Ədəbi Borçalı", "Ədəbi Dərbənd" səhifələri hazırlanıb "Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrini bəzədi.

Məqsədimiz qədim Odlar yurdu AzərbaycanIn Gəncə kimi, Şuşa kimi, Əsgəran kimi, Kəlbəcər, Naxçıvan Şəki kimi əzəli torpaqlarının bir hissəsi olan artıq qəribləşdirilmiş, özgələşdirilmiş bu bucaqların – ocaqların mənəvi, tarixi köklərini bir daha oxuculara yetirmək idi. Gözəllər gözəli, göyçəklər göyçəyi Göyçənin Ermənistan torpağı, onun sakinlərinə ermənistanlı deyilməsi fikrini hər dəfə eşitdikcə adam varından yox olur. Göyçə Azərbaycan torpağının ən gözəl, şirin bir balasıdır. Göyçə Azərbaycanın bir

bucağı, bir parçasıdır. Allah göstərməsin ki, birdən Şuşalıya da ermənistanlı deyərlər, necə ki, Dədə Aşıq Ələsgər yurduna deyirlər. İrəvan da, Zəngəzur da, Dərbənddə, Borçalı da, Təbriz də Azərbaycanın bir parça əzəli torpaqlarındandır. Dədə Qorqud bu obada boy boylayıb, soy soylanıb. Şah İsmayıl Xətai hələ 500 il bundan əvvəl şahlıq etdiyi doğma Azərbaycanın hər guşəsini gəzib dolanmaq, sakinlərinin dolanışıq vəziyyətini öyrənmək məqsədiylə Ulu Göyçəyə, Ozanlar beşiyi Göyçəyə də yön salır. Miskin Abdalın necə böyük mənəviyyat adamı olduğuna heyran qalır. Ona hədiyyələr verir. Bütün bunlar Azərbaycanın keçmişidir. O keçmişi bərpa etmək yenidən qanımızla cilalayıb bütövləşdirmək üçün hər cür imkanlardan istifadə etmək, mübarizə etmək lazımdır. Cavanların, gənclərin, körpələrin qanına, canına, iliyinə yeritməliyik – o bütövlüyü

“Ədəbi Göyçə” səhifəsinin qalib mükafatçısını da elan etməyi nəzərdə tutmuşuq. Orijinal hədiyyə və fəxri diplomdan ibarət həmin mükafat dünyanın ən gənc-şəhid-şairi Ülvi Bünyadzadənin şərəfinə “Ülvi Mükafati” adlanır. Qalib mükafatçı yaxın belə məclislərimizin – "Ədəbi Göyçə" adına yığışdığımız görüşlərimizin birində bildiriləcəkdir. Mükafatın təqdim olunma mərasimi isə “Ülvi Bünyadzadənin xatirə muzeyində” keçiriləcəkdir. Növbəti məclisimizin ədəbi portreti “Gənclik Dünyasının” qələmdaşları olacaqdır. Fürsətdən istifadə edib bütün gənclərdən, o cümlədən Göyçə ruhlu yazıb-yaradan ədəbi gənclərdən xahiş edirik ki, özlərinin ən layiqli poeziya, nəsr, publisistik əsərləri ilə birgə “Ədəbi Göyçə"ylə əlaqə saxlasınlar. “Gənclik dünyasının” ədəbi portretini bu əlaqələr vasitəsilə müəyyənləşdirəcəyik.

Respublikada "Azərbaycan ədəbiyyatı Folklor muzeyi" yaradılmasına hamımız sevindik, bu təklifi ürəkdən alqışladıq. Ədəbiyyat sevgisi dünya qədər olan folklor muzeyinin direktoru Asif Rüstəmli ilə bu hadisədən az sonra “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında görüşdük, muzeyin tərtibi və açılışı münasibətilə sevincinə şərik olduğumu dedim və xahiş etdim ki, bir künc

də “Göyçə folkloru guşəsi”nə ayırsın.  O, muzeyin ən gözəl, ən ürəyə yatan yerində bu guşəni açmağa hazır olduğunu bildirdi, təki belə bir iş görmək istəyinin  yerinə yetirilməsini istədi. Bu işi yaxın günlərdə təşkil etmək üçün Göyçə ruhlu bir çox ədəbiyyat həsəkarlarına, o cümlədən Eldar İsmayıla (Qaçqınlar cəmiyyətində ideoloji məsələlərə baxdığından imkanlarının böyük oğludunu yəqinləmişdim) müraciət etdim. Az müddət sonra bildim ki, Eldar İsmayıl bu işi çox tezliklə başa çatdıra bilib. Və beləliklə Azərbaycan folklor muzeyində artıq Göyçə folklor guşəsi fəaliyyətdədir. Dəyərli yaddaş, unudulmaz tarix salnaməsidir. Eldar İsmayıla bu zəhmətinə görə sağ ol deyir, Asif Rüstəmliyə isə minnətdarlığımızı bildiririk.

Göyçə dağlarında qaynayan sısqa bulaqlardan ovuclayıb su içməyi  hər birimizə arzulayıram.



# ATİLLA



Türk dünyasının qüdrətli hökmdarları, sərkərdələri sırasında Atillanın adı şöhrəti tarixin yaddaşında xüsusi iz qoyub. Atillanın hökmdarlığı dövründən 16 əsrdən çox vaxt ötməsinə baxmayaraq bu adın ilkin şahanəliyi, qüdrəti, məğrurluğu, yenilməzliyi, əzəməti öz təravətini-təbiiliyini itirməmişdir. Bu adı eşitsək adamın içində qəribə ılıq bir duyğu yaşanır – türk qəhrəmanlığı, türk gücü dünya fəthinə qadirdir.

Qərbi hun Hökmdarlığının tarixinə nəzər yetirək;422-ci ildə imperiya hun hökmdarları ailəsindən olan dörd qardaşın – Rüa, Muncuk, Aybars və Oktarın idarəsində idi. Aybars və Oktar imperiyanın ayrı-ayrı ərazilərinə başçılıq edirdilər. İmperiyaya xaqanlıq edən Muncuk isə erkən öldüyündən və övladları (Atilla və Bleda) kiçik yaşlı olduqlarından hakimiyyətə rəhbərlik Rüaya nəsib olmuşdu. Muncukun övladları da Rüanın yanında yaşayıb böyüyürdülər. Öz ağlı, fəhmi ilə qardaşından seçilən Atilla əmisinin sevimlisi idi. O, əmisi Rüanın yanında, onun nəzarəti altında xaqanlığın gələcəyi üçün yetişmişdi.Atilla hökmdarla birlikdə səfərlərə yollanmış, müxtəlif tayfa və qəbilələri yaxından tanımaq şansına yetmiş və bu məqamlarda da dövlət işlərini və siyasi əlaqələri öyrənmək fürsətini qaçırmamışdı. Beləliklə, Atilla hökmdar ailə -

sinə layiq bir oğul kimi yetişmişdi. Atilla 395-453-cü illərdə yaşamışdır.

Qeyd etmək istərdik ki, Atilla adı qədim mənbələrdə müxtəlif şəkil-lərdə yazılıb: Atillas, Atilas, Attelas, Attila, Attula, Atil, Autala, Atıla, Etbela, Ezzilo, Etzel, Ettel, Hettel, Aetla, Atli, Etele, Etbele, Atbila, Atilla və b.

434-cü ildə imperator Rüa vəfat etdi və Atilla qardaşı Bleda ilə birlikdə dövlətə hökmdarlıq şansına çatdılar. Ancaq Bleda daha çox əyləncələrə baş qatdığından, zəif iradəli olduğundan imperiyanın işlərinə bütövlükdə Atilla nəzarət edirdi. Ordu, dövlət və siyasət məsələləri tamlıqla Atillanın əlində idi. Digər əmiləri Aybars və Oktar əzəlki yerləri idarə etdiklərindən hökmdarlığın içində heç bir ədavət yox idi. Bleda 445-ci ildə – on bir il qardaşına qulluq etdikdən sonra – öz əcəli ilə vəfat etdi. Bəzi mənbələrdə göstərilir ki, guya onun ölümünə bais qardaşı Atilla olmuşdur. Lakin faktlarla sübuta yetmişdir ki, bu heç də belə olmamışdır. Atilla hun hökmdarlığının başına keçdiyi za-man 40 yaşında idi. O, bu yaşında artıq sərkərdəlik gücü, möhkəm və sərt xarakteri, dünya-görüşü,iti fəhmi,siyasi məsələləri çevikliklə həll edə bilmək bacarığı ilə qardaşından fərqlənirdi. Ümumiyyətlə, hökmdarlıq üçün lazım olan şəxsi keyfiyyətlərə qadir olduğundan Hun imperiyasına Atillanın simasında layiqli varis qismət olmuşdu. Hələ əmisi imperator Rüa öləndə bizanslılar bu ölümə çox sevinmişdilər. Lakin Atillanın hakimiyyətə gəlişi ilə bu sevincləri çox çəkmədi.

Atilla əmisinin yanında olarkən Bizans imperatorluğu ilə aparılan siyasi müha-ribənin şərtlərinə bələd idi. İndi isə Atil-lanın tam nəzarətində olan ərazi Bizansla həmsərhəd yerləri əhatə edirdi. Bizanslılar yeni hökmdara elçilərini göndərib əzəlki müqavilələri dəyişmək və barışmaq fikrini bildirdilər. Atilla bütün bunları tamamilə rədd etdi və əvvəlki müqavilənin şərtlərinə bir də nəzər yetirdi. Bizans dövləti Hun imperiyası himayədarlığından qaçanları geri qaytarmalı; onlara sığınacaq verməməli,

sərhədyanı yaşayış məntəqələrində ticarəti inkişaf etdirməli, illik verginin miqdarını 350 librdən 700 librədək çatdırılmalı  və s. Bu addım Atilla adının Avropada dəhşətlə anılmasına səbəb oldu və Avropanı lərzəyə saldı. Bundan sonra Atilla aylarla sürən uzun səfərlərə çıxaraq imperiyanın  bütün sərhədlərini dolaşdı, əzilən tayfa və qəbilələri müdafiə etdi. Hökmdarlığa qarşı çıxan qəbilələrə isə divan tutdu ki, daha heç kəs belə bir risqə dola bilmədi. İmperiyanın  Qərb sərhədinin mərkəzi Dunay sahilində, Şərq qanadının mərkəzi isə Dnepr hövzəsində qurulmuşdu.  Xatırladaq ki, 430-cu illərdə Hun hökmdarlığı altında bu tayfalar yaşayırdılar: germanlar, slavyanlar, iranlılar, finlər və türklər. Bu tayfaların da içərilərində ayrı-ayrılıqda müxtəlif qəbilələr var idi. Təxminən əlliyə yaxın belə tayfa və qəbilə  türk  dövləti sistemində birləşmişdilər, digər yad qəbilə və zümrələr isə ancaq kralları, başçıları vasitəsi ilə imperiyaya  bağlı idilər. Onlar Atillanın itaətindən çıxmağa cürət etməzdilər.Zəbt  olunmuş bütün ölkələr ona vergi verir,qulluğunda müntəzir idilər.

440-cı ildən sonra Atillanın səbr kasası daşdı. Bizans kralının hun qaçqınlarına yer verməsi Atillanı özündən çıxarırdı. Ticarət əlaqələrində də yunan tacirləri hunları aldadırdı. Eyni zamanda Şimalı Afrikadakı Vandal kralı Atilladan Bizansa qarşı yardım istədi. Bütün bunlar Atillanı qəzəbləndirmişdi. Bu ara bir kənd çobanı torpaqdan çıxardığı qılıncı – "Tanrı qılıncı"nı gətirib Atillaya vermiş və bu qılıncla hunların dünya fatehi olması yozumunu onun nəzərinə yetirmişdi. Atilla bu əfsanəyə inanmışdı və bu inam onda olan ilahi güc-qüvvəni birə-beş artırmışdı.

Bizans imperiyasına qarşı yol alan Atilla öz qoşunları ilə irəli-ləyərək Trakiyanı (Türkiyədə şəhər) işğal etdi və İstanbulun iki addımlığında dayandı.  O, burada Bizans elçilərini qəbul etdi.

Danışıqlara əsasən, illik vergini üçqat artırdı və Bizans imperatorluğu 6.000 librə döyüş haqqı ödəmək vergisiylə yükləndi.  Beləliklə, Bizans imperatorluğu illik vergini ödəmək ağırlığın-

da əzilirdi. Hər il üçün bu qədər vergini toplamaq imperiyanın gücünü tükəndirirdi.

Bizans imperatoru bu ağır vəziyyətdən qurtarmaq üçün Atillaya qarşı sui-qəsd hazırlamaq fikrini qətiləşdirdi. Onlar hun imperiyasına göndərilən elçilər heyətinə bu işi yerinə yetirəcək bir nəfər də əlavə etmişdilər. Lakin Atilla bu sui-qəsd niyyətini aşkarladığından niyyətləri həyata keçmir. Atilla isə atası Muncukdan irsən keçən alicənablıq hissinə dolaraq həmən sui-qəsdçiyə toxunmadı. Amma Bizans imperatoruna məktub göndərərək həmin planın sahibinin – Bazans sarayının iri rütbəli şəxslərindən olan Krisaphiosun başını istədi. Bizanslılar isə Atillanın bu istəyini yerinə yetirməyə məcbur olurlar. Məsələnin bu cür "asan" həll olunmasının digər bir tərəfi də var idi. Çünki həmin ərəfədə Atilla Qərbi Roma imperiyasına qarşı hücuma hazırlaşırdı. Bizanslıların bu cür hərəkətlərinə o qədər ciddi əhəmiyyət verməməsinə səbəb də bu idi. Hunların xarici siyasəti getdikcə dəyişirdi.

Atillanın hökmdarlığı dövründə hun imperiyasının ərazisi Qara dənizdən Reyn çayına, Makedoniyadan Baltik dənizi adalarına qədər uzanırdı. Müasir coğrafiyaya nəzər saldıqda bu ərazinin Şərqi Rusiya, Rumıniya, Yuqoslaviyanın şimal hissəsi, Macarıstan, Avstriya, Çexiyavə Slovakiya, Cənubi və Mərkəzi Almaniya dövlətlərini əhatə etdiyini görürük. İmperiyanın mərkəzi isə bu günkü Macarıstan olub. Tarixi mənbələrdə deyilir ki, mərkəzin burada seçilməsi Atillanın bir macar qızına olan sevgisi ilə bağlı olmuşdur.

434 və 441-ci il Bizans qaynaqlarında Atilladan bu cür bəhs edirlər. Atilla hakimiyyətinin ilk dövrlərində hun tayfaları arasında mərkəzləşmə apardığı üçün bu Bizans imperiyasını narahat etmirdi. Lakin Atilla hun qəbilə və tayfalarını vahid mərkəzdə birləşdirdikdən sonra diqqətini Bizansa, sonra isə Qərbi Roma İmperiyasına yönəltmişdi.

Atilla 448-ci ilə qədər Qərbi Roma İmperiyasının dostu və müttəfiqi idi. Ancaq bu tarixdən etibarən vəziyyətin dəyişdiyini

göstərən bəzi əlamətlər üzə çıxır. Atilla üzdə dostluğu davam etdirməklə yanaşı birdən-birə Romanın düşmənlərini dəstəkləməyə başlamışdı. “Qalliya kəndli” hərəkatının başçılarından birinin Atillaya sığınması və ya Ripuar Frank kralının ölümündən sonra taxt mübarizəsində kralın böyük oğlunun Atilladan, kiçiyinin isə Aetiusdan (Roma imperatorluğundan) kömək istəməsi yaxşı əlamət sayılmamışdı. Bu arada Atilla Qərbi Roma imperiyasına (Ravenna sarayına) qarşı da, Bizansa qarşı da yürütdüyü sərt və təhdidedici vəziyyətdə idi və onlara ağır təkliflər vermişdi. Eyni zamanda Atilla başqa bir fürsət də tapmışdı. Qərbi Roma imperatoru III Valentinianusun bacısı, Honoriya – onun uşaqlarının Valentiniausun uşaqlarına qarşı taxt-tac rəqibi olaraq çıxmaması üçün – ailəsi tərəfindən ərə getməməyə məhkum edilmişdi. Honoriya ehtimal ki, ailəsinin qiısasını almaq üçün o vaxtlarda taxta çıxan Atillaya bir nişan üzüyü göndərmişdi. Ancaq Atilla şahzadəyə heç bir cavab verməmiş və iş yavaş-yavaş unudulmuşdu. Bir müddət sonra bu məsələ başqa formada yenidən qaldırıldı, lakin Atilla həmin işin dərinliyinə getməyib Ravina sarayı ilə yenidən yaxşı münasibətlər qurmağa çalışmışdı.

Eyni zamanda Qərbi Roma İmperiyasının baş sərkərdəsi Aetius hunların dəyişən siyasətlərini izləyir və bir hun savaşına hazırlaşırdılar. Aetius bunun üçün öz qəbilələri ilə danışıqlar aparmışdı. Atilla da həmçinin öz müşahidələrini bu istiqamətdə genişləndirirdi. Roma imperatorluğu ilə yanaşı barbarlarla da vuruşacağına əmin olan Atilla bu döyüşə ciddi hazırlaşırdı. İki illik tam hazırlıqdan sonra o Romaya qarşı siyasi addım atdı. Roma şahzadəsi Honorianın evlənmə təklifini qəbul etdiyini, bunun qarşılığında isə Honorianın azad buraxılmağını,gələcək arvadının mirası olaraq imperator Konstantiusun şəxsi malının və Qərbi Roma İmperiyasının yarısını istəmişdi. Ravina sarayı isə Atillanın bu istəyini təbii olaraq rədd etmiş və Honorianı tez evləndirmişdi. Əlbəttə, qeyd etdiyimiz kimi, bu iş Atilla tərəfindən növbəti siyasi oyun idi. Bu məsələdən az sonra hunlar bir

Roma səfərinə yollandılar. 451-ci ilin yayında Macarıstandan qərbə doğru yola çıxan iki yüz min Hun ordusunun yarısı türk, digər yarısı isə ayrı-ayrı tayfalardan toplanmış əsgərlər – döyüşçülər idi. Romaya doğru gedərkən keçdikləri yerləri zəbt edərək irəliləyən hun orduları Paris yaxınlığında Orleanda çatdılar. Atillanın planı Roma ordusu çatmazdan qabaq Qərb qotlarını yox etmək, ondan sonra da Roma sərkərdəsi Aetiusu Alp dağının keçidində gözləmək idi. Bunun üçün Cənuba qayıtmış və mayda strateci baxımdan sərfəli olan Orleanda –Qərbi Qot krallığına çatmışdı.

Atillanın hücumu Aetiusu hazırlıqsız tutmuşdu. Aetius Roma ordusunu yığmağa başladığı zaman Atilla artıq Qalliyada irəliləyirdi. Muzdlu əsgər almaq üsulu və 450-451-ci illərin qışında İtaliyanı bürüyən qıtlıq, ordunun yığılmasını gecikdirirdi. Romalıların ən çox kömək göstərdikləri Qərb qotları əvvəl bitərəf qalmaq istədilər, ancaq sonra təhlükəni anlayanda Aetiusla birləşdilər. Hun orduları Orleanda yetişdikdə Roma ordusu ilə sərkərdə Aetiusda buraya çatdı. İki ordunun qarşılaşması çox ağır nəticələrlə üzləşdi. Dünya tarixində Katalaunum meydan döyüşü adıyla xatırlanan bu böyük və qanlı vuruşma bir gün sürdü və hər iki tərəf ağır itkilərlə üzləşdi, bu savaşda kimin qalib olduğu isə bilinmədi.  Qərb tarixçilərinin indiyəcən olan araşdırmalarında hun ordusunun bu savaşdan sonra geri çəkil-dikləri deyilirdisə, son araşdırmalarda bu savaş günün sonunda Roma ordusunun dağıldığı və sərkərdə Aetiusun mühasirədən güclə çıxdığı bildirilir.  Qotlar və franklar da bu döyüşdən çəkildilər.

Atilla Qalliyanın içərilərinə irəliləyərək Roma ilə Qalliyanın əlaqəsini də kəsmişdi.  Roma ordusunu darmadağın edən Atilla bir aydan sonra imperiyanın  mərkəzinə dönmüşdü.  Roma sərkərdəsi isə artıq gözdən düşmüşdü.  Bir il sonra (452) yenidən Roma üzərinə gedərkən artıq romalıların Atilla qoşunu ilə üz-üzə dayanacaq orduları qalmamışdı. O, yoluna çıxan ilk şəhəri yerləyeksan etmişdi, bir neçə şəhəri də zəbt etdikdən sonra yüz minlik ordu ilə Vənədik bölgəsinə endi. Roma sarayı təşvişə düşdü və

barışıq qərarına gələrək elçilərini Atillanın hüzuruna göndərdi. Şöhrəti ilə tanınmış Roma Papası, Leo iki keçmiş konsulu ilə birlikdə Atilladan barışıq istəmək üçün onun yanına gəldilər. Atillanın qərargahı Po ilə Mincio çayının birləşdiyi yerdə – Romaya gedən yolun içərisində idi. Hun ordusu içindən də yenilməz hökmdarı Romanı işğal fikrindən çəkindirməyə çalışırdılar.

Bu arada hun ordusunu aclıq və xəstəlik bürümüşdü, bundan başqa Hun ölkəsinə Markianosun hücumu xəbəri də gəlmişdi. Bütün bunlar əsas olaraq Atilla Roma Papasını dinlədi. Papa bütün xristianlıq dünyası adından Romanın bağışlanması üçün Atillanın qarşısında diz çökdü. Atilla illik vergi ödənilməsi şərti ilə geri çəkilməyi qərarlaşdırdı. Son olaraq Honoria ilə onun payını verməyəcəkləri halda, yenidən Roma üzərinə gələcəyini söyləyərək geri dönmüşdü. Lakin o, Şərqi Roma kimi, Qərbi Roma İmperiyasını da öz dövlətinə qatacağına əmin idi.

İndi növbə Sasani dövlətinə çatmışdı. Bu dövlətin də Hun imperiyası əsarəti altına alınması ilə artıq hunların dünya hegemonluğuna yiyələnməyi gerçəkləşə-cəkdi.Lakin Atilla 453-cü ildə İtaliyadan gətirdiyi İldeko adlı şahzadə qızla evlənmiş, ancaq toy gecəsi burnundan qan açılaraq ölmüşdür. Xatırladaq ki, qardaşı Bledanın ölümü də belə baş vermişdi.Yuxarıda qeyd etdiyimiz səfər də beləcə baş tutmamışdı.

Arvadı Arikandan doğulan üç oğlu – İlək, Dəngizək və İrnək Atillanın yerini verə bilmədilər. Atilla dünya tarixində tanınan ən böyük ordu başçılarından və dövlət təşkilatçılarından biri və Çingiz xandan əvvəl dünya hegemonluğu fikrinin ilkin təmsilçisidir. Atillada hər kəsi özünə çəkən, fövqəladə, sözə sığışmayan bir qüvvə var idi. Onu gördükcə ətrafındakıları səssiz bir titrəyiş sararmış. Böyük oğlu İlək belə atasının gözünə baxmağa cəsarət etməzmiş. Sarayına gələn müxtəlif kral və qəbilə başçıları da onun əmrlərini saray əyanları imiş kimi gözlər və Atilla gözləriylə işarə etdimi, səs çıxarmadan, həm də qorxu və təlaş içində

hüzuruna gəlib onun əmrlərini yerinə yetirmişlər. Bununla bərabər bu bir kimsənin amansız və zalım hökmdara qarşı duyulan qorxusu yox,  insanların böyük bir şəxsiyyətə, yenilməz fatehə, dini adət-ənənəyə dərin ehtiramı, diqqəti inamı idi.  .

Böyük oğlu İmperator İlək tapdanan german tayfaları ilə döyüşdə həlak olmuş, İmperiyanın  yenidən birliyi üçün vuruşan Dəngizək bizanslının qılıncı ilə öldürülmüş, İrnək isə qardaşlarının ölümünü görüncə bu döyüşlərə qatılmamış və hunların böyük bir qismi ilə Qara dənizin qərb sahillərinə dönmüşdür. Beləliklə, Atillanın ölümündən sonra hunların geriləməsi  başlamış, tabeçiliyində olan qəbilələr, tayfalar, ərazilər ayaqlanmış və hunlara qarşı yeni birliklər yaranmışdır. Demək, gücü-qüvvəsi ilə Qərb dünyasını lərzəyə salan Hun İmperiyasının  ərazilərini genişləndirən böyük Türk İmperatoru Atillanın cismani itkisi ilə tez bir zamanda bu İmperiyanın  çökməsi başlamışdır.

Atillanın dəfni üçün təntənəli bir mərasim hazırlanmışdır. Tarixi mənbələrə istinad edilərək həmin mərasim haqda belə söylənilir: Atillanın cənazəsi kral sarayının önündə qurulan böyük ipək çadırda katafalka üzərinə qoyulmuşdur. Bir neçə gün davam edən dəfn mərasimi say-seçmə hun igidlərinin döyüş oyunları ilə başlamışdır. Eyni zamanda hun şairləri mərhumun şəninə gözəl şeirlər söyləyirdilər. Çadırın ətrafında dairəvi döyüş oyunları keçirən Hun döyüşçüləri bunları kədərli səsləriylə təkrar edirdilər. Mərasim bitdikdən sonra Atilla torpağa basdırılmışdır. Onun nəşi iç-içə yığılmış üçqat qızıl, gümüş və dəmir qutulara qoyulmuşdur. Gecə qaranlığındakı dəfn mərasimindən sonra çayın məcrası qəbrin üzərinə yönəldilmişdir. Rəvayətə görə, bu mərasimdə iştirak edən əsgərlər qəbrin yeri bilinməsin deyə öldürülmüşdür.

Beləliklə, dünyanı lərzəyə salan Atillanın qəbrinin yeri hələ də dəqiq bilinmir. Bu məzar Avropanın müxtəlif ölkələrində – Macarıstan, Avstriya, Şimali İtaliya, Fransa və b.yerlərdə axtarılmışdır.  Hər halda bu hun hökmdarlığının mərkəzi şəhəri Macarıstan ərazilərində olduğunu nəzərə alsaq, məzarının da orada olması

düşünülə bilər. Ancaq bu konkret tarixi fakt deyil, əfsanəvi yozumdur. Tarixi mənbələrə əsasən ,övladları belə onun məzarının yerini bilməyiblər.

Atilla döyüşçü-fateh hökmdar olmaqla bərabər mədəniyyəti, sənəti yüksək dəyərləndirmişdir. Savadlı insanlara böyük diqqət yetirmiş, hətta onların bəzilərini özünün güvəndiyi adamlarının sırasına qəbul etmişdir. O, cəhd edərmiş ki, gözəl şəhərlər, mədəniyyət abidələri, sənət əsərləri mənasız yerə dağıdılmasın. Qotlar və vandalar kimi, Romanın bir addımlığına qədər qoşunla gəlsə də şəhəri dağıtmaqdan çəkinmişdir.

Onun böyük ziyafətlər üçün qurulan sarayı hökmdar adına layiq bir ehtiramla, dəbdəbə ilə bəzədilmişdir. Eyni zamanda bu zənginlik içində Atilla sadəliyi daha çox sevib. Ziyafət mərasimlərində qonaq-qarası üçün cürbəcür ən ləziz yeməklər gümüş qablarda süfrəyə düzülsə də, özü taxta qabda, həm də ancaq ət yeyib. Geyimi də sadə, səliqəli olub. Atının yəhəri isə digər hunlarınkı kimi altun və bərbəzəkli deyildi. Bu sadəlik Atillanın ən gözə çarpan xarakter cizgisi idi. O, həyatın eyş-işrətinə çox yer ayırmazdı. Ziyafətlərdə hətta çoxları kimi deyib-gülməzmiş . O, məclislərdə ozanların söylədikləri Hun qəhrəmanlıq dastanlarını məğrur bir məmnunluqla dinləyər, digər əyləncələrə qatılmazmış. Bütün bunlarla belə, təəssüf ki, xurafata çox inanırmış.Ətrafına xeyli falçılar toplamış, hətta ən kiçik bir işi fal açdırmadan görməzmiş. Falçıların sözüylə kiçik oğlunu digər iki oğlundan həmişə üstün tutmuşdur ki, bu da Atillanın ölümündən sonrakı illərdə imperatorluğun çökməsində əsas rol oynamışdır.

Oğullar arasındakı çəkişmələr böyük türk İmperiyasının süqutunacan gedib çatdı. Bu inanc onun iradə zəifliyinə güclü təsir göstərmişdir. Onların sözlərinə əsaslanaraq bir addımlığınacan getdiyi Roma və İstanbulu tam təslim etməkdən çəkinmişdir. Bir meydan savaşı öncə o, yenə fal açdırmışdı, falçılar isə onun yeniləcəyini söyləmişdilər. Bu inanc onu zəiflətmişdir. Atillanın yenilməzlik əks-sədası hər kəsi qorxu ilə titrədəcək qədər müdhiş

idi. Ən kiçik bir inciklik onu çox qızışdırarmış və həmən də savaşa əl atarmış. O, hədə-qorxular etməkdən belə çəkinməzmiş. Və bununla istədiyi bir çox şeyləri savaşsız da əldə edərmiş.

Atilla hökmdara xas sərt (müstəbid) olmaqla bərabər səmimi və adil olub. Necə deyərlər, bir əlində qılınc, bir əlində sülh quşu olub. Yoxsa, təkcə öz qövmlərinin deyil, həm də kənar qəbilələrin sədaqət və sevgisini necə qoruya bilərdi. Ədalət duüğusu qəlbinə həmişə hakim olmuşdur. Hətta ona qarşı qurulan bir sui-qəsdin kim tərəfindən olduğunu aşkarlayanda belə, qəlbindəki ədalət duyğusu özünü göstərmişdir.

O, dünyaya sonsuz bir qürurla baxarmış. Atilla ömründən olan bu hadisə həqiqətmi, ya əfsanəmi? Hər halda möcüzəvi və maraqlıdır: Bir çoban heyvanlarını otarırkən torpağa kömülü qılıncın ucunu görür. Qılıncı torpaqdan çıxarırkən qılınc alov saçır. Bir az ötmüş alov səngiyir və çoban qığıncı torpaqdan çıxarır. Həmin qılıncı çoban Atillaya verir. Atilla bu möcüzəli qılıncda bir çox əlamətlər görür və öz fəhmi ilə dünya hegemonluğunu Allahın verdiyini duyur, həmən qılıncı isə qanadı sanır. Atilla "Tanrı qılıncı"nın onun əlində olmasına çox sevinmişdir.

Xurafata inanan Atilla günahlara batmış xristianlıq dünyasını cəzalandırmaq üçün "Tanrı qılıncı"nın məhz ona yetdiyi inamında olmuşdur. Qərblilərə görə, Tanrı Atillanı yalnız günahkar xristianları cəzalandırmaq üçün göndərmişdir və onu "Tanrının qırmanc"ı adlandırmışdılar. Tanrının ona olan tapşırığı yerinə yetiriləndən sonra ona ilahidən kömək olmamış və adi bir səbəbdən ölmüşdür.Atillanın həyatı – əfsanəvi ömürlüyü ədəbi əsərlərin müxtəlif janrlarında yazıya alınaraq uğur qazanmışdır. İtaliya, İspaniya, Fransa, İngiltərə, Almaniya, Türkiyə yazarlarının əsrlərdən, illərdən bəri məhəbbətlə qələmə aldıqları Atilla mövzusu həm tarixi, həm də qəhrəmanlıq nöqteyi-nəzərindən həmişə aktual görünmüşdür. Macar yazarları isə Atillanı öz ataları saydıqlarından bu mövzuya daha çox yer ayırmışlar, macar

ədəbiyyatında Atilla məzmunlu şah əsərlər daha önəmli yer tutmuş tutmuşdur.

Atilla obrazı bədii ədəbiyyat səhifələrinə köçürülməmişdən qabaq müxtəlif xalqlar arasında yüzlərlə əfsanələr dolaşmağa başlamışdı. Hun, bizans, alman, astriya, italyan, german, macar, qot əfsanələri Atillanı əfsanəvi qəhrəman – fateh kimi bir daha insanlara tanıtdırmışdır. Maraqlıdır ki, bu əfsanələrin çoxu Atilla-nın sağlığında yaranmışdır. Bu, daha çox onun əfsanəvi gücü, qəhrəmanlığı, fateh olaraq dünyanı lərzəyə gətirməsi ilə bağlı idi.

Atillanın fövqəladə həyatı rəssamlara da ilham vermişdir. Roma Papasının sifarişi ilə Vatikandakı Heliodoros salonu üçün böyük italyan rəssamı Raffaello Santinin, alman rəssamları P.Korielius və Y.Karlsfeldin, Vilhelm Kaulbaqın “Hun savaşı”, macar rəssamları Van Morun Budapeştdəki “Fiqaro” konsert sara-yındakı “Atillanın ziyafəti” və P.Ferencin “Atillanın toy gecəsi” rəsmləri daha məşhurdur.

Böyük hun imperiyasının dövlət dilini tarixçilər türk dili ola-raq qəbul etmişdilər. Bu dildə bəzi Çin və Monqol yazıları da var-dır. Qərb hunları isə köçəri həyat yaşadıqlarından dilləri qarışıq olmuşdur. Asiyadan Avropanın içərilərinə qədər gələrək böyük bir imperiya yaratmış hunlar, köçəri adət-ənənələrindən əl çəkmədik-ləri üçün bir neçə yüz il sonra gəldikləri kimi də getmişdilər, yəni Avropada oturaq həyat qura bilməmişdilər. Amma bütün dünyada, başlıca olaraq Avropada Hun türklərinin Atilla adlı hökmdarı əsrlər ötsə də unudulmur, yenilməz fateh kimi tarixin yaddaşında yaşayır.

*"Xalq qəzeti" 28 mart 2003-cü il*
*"Atilla"№1,səh.1-13. 2004-cü il*



**ÜLVİ DÜNYA**

*20 yanvar 1990 – cı il faciəsi*
*qanlı şənbə gecəsində şəhid*
*olanların əziz xatirəsinə*

## ÜLVİLƏŞƏN ÜLVİM

"Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm; bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm.

Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim.

**İmza: B.Ülvi. 10.09.1989".**

Bu And təsadüfən yaranmamışdı. İki ildir ki, quduzlaşmış qarğa-quzğunlar doğma torpağımız üstündə fır-fır fırlanır, yararlı tikə kimi Qarabağı caynaqlarına keçirmək istəyirlər. Qarabağın sahibi olan Azərbaycan xalqı isə buna heç vaxt, nəyin bahasına olursa-olsun razı ola bilməz və ola da bilməyəcəkdir. Bu xalqın qeyrətli, namuslu, igid oğul-qızları bir qarış torpaqlarından belə keçməyəcəklər. Ülvinin Andı da belə bir qeylü-qallı dövrdə müqəddəs duyğusundan yarandı. O, ürək Andını xırdaca bloknota köçürüb, heç kəsə göstərməyib, heç kəsə oxumayıb. Bu onun özünün özünə olan Andıdır. Vicdanının səsidir. "Özümlə söhbət" şeirində dediyi kimi, –

*– İnsan nədir?*
*– Sinəsində ovuc boyda*
*Ürək saxlayan bir varlıq...*
*– Vicdan nədir?*

*– O ürəyi ürək kimi*
*Çırpındıran bir ucalıq.*
*Vicdan – ucalıq, ucalıq!...*
*Vicdan – ömür kələfinin*
*Kövrəkdən kövrək ucudur.*
*Vicdan – hər kəsin özünə*
*Olan borcudur, borcudur.*

Və əbədiyyət dünyasınacan Andına sadiq qalıb. 19 yanvar 1990-cı ilin qaranlıq müdhiş gecəsində toplu-tüfəngli quldurların şəhərimizə düşmən kimi girmələrinə dözə bilmədi. Atasının dili ilə desək, –

*O, bir ərən igid oldu,*
*O, tarixə şahid* oldu.
*Ülvi balam şəhid oldu*
*El yolunda* öldü getdi.

Sən mərd idin. Haqq dediyin sözdən dönən deyildin, arzusu, niyyəti ülvi idin.

*Atama oğul deyiləm,*
*Anama oğul deyiləm*
*Bu ocağın kor çırağı –*
*Yanmayacaq işığıyam.*
*Atam, anam zəmanədir,*
*Mən zəmanə uşağıyam.*

Bu misraları mənə pıçıldayanda insafsızlıqda qınadım səni. "Yaxşı, biz heç, niyə özünə kor çıraq deyirsən, necə yəni yanmayacaq işığam, – elə demə, bibin sənə qurban olsun" – deyə yalvardım. Öpdün məni, "sən mənim tər-təmiz ürəyimsən", – dedin. Bəs o ürəyi niyə çiliklədin?

Ülvim mənim, ömrüm mənim – düz iyirmi gündür ki, səni evdə həmişəki kimi ütələk-ütələk dolaşan görmürəm. Hissi-duyğusu kövrək Ülvim, sən ki, heç vaxt bizi, ya bir kimsəni narahat qoymazdın, incitməzdin. Təbiətin belə idi. Hər gün evdə hamını öpərdin, əzizlərdin, "qadanızı alaram" – deyə sevələrdin, – o kör-

pə təbəssümlü nəvazişlərin üçün darıxmışıq, gözümüz yolda, qulağımız səsdə qalıb. Səhərlər gözlərini ovuşdura-ovuşdura durub demirsən ki, "Ay uşaq, Ülvinin şirin çayı hazırdırmı?" Axşamlar qapını açıb "Ay əssəlam-əleyküm" deyib içəri keçmirsən. Axı, nənən narahatdır, baban girib-çıxmaqdan yorulur, bibilərinin qəlbini qana döndəribsən. Rauf əmin fikir-xəyaldan qopa bilmir. Sən evə gəlmirsən deyə heç kəs ürək edib gecələr qapını bağlamır. Axı evdən çıxaqda nənəni qucaqlayıb deyibsən ki, "Qurban olum, ay cici, arxayın ol, tez qayıdıb gələcəm". Bəs niyə gəlmirsən? Sən ki, yalan danışan deyildin.

Gözlərimi yumuram ki, xəyalən görüşək. Mənə baxıb gülən görürəm. "Gözucu da olsa sevgili qızlardan birini behləmişəm, amma ürəyimdədir – deyirsən". Üzündəki bir dalğınlıq isə hələ də ötüb keçməyib.

Əsgərlikdə olanda tez-tez mənə məktub yazardın. Təhsil aldığın institutdan tutmuş, havaların necə keçməsinə qədər narahat dolu suallar verərdin. Cavabını gecikdirən kimi, – "Məni yaddan çıxarmaq üçün məktub yazmamağın düzgün deyil. Sən ürəyinə qulaq asma, o adamı çox vaxt aldadır, beyninlə işlə – yalan sözdür ki, şairlər ürəkləri ilə yazırlar, əksinə, şeir də beynin məhsuludur. Bax, onda görərsən ki, Ülvini unutmaq o qədər də çətin deyil və görərsən ki, Ülvini unutmaq lazım da deyil, ən yaxşı yol ona məktub yazmaqdadır, çünki Ülvi də yazıqdır axı, onun da dayağı ancaq sənin məktublarındır", – deyə giley-güzar yazardın. Məni özünə təkcə bibi yox, həm də ürək dostu, sirr yoldaşı, həmyaşıdı sanan igidim, Ülvi ünvanlı məktublarımı vaxtaşırı yazacam. Bu həyatda mənim ən müqəddəs işim olacaqdır.

Qorxmaz balam, nə sənin sözün-söhbətin tükənəndir, nə də mənim ürək yanğım, Ülvi harayım. Sevgili qəlbinin sözünü həm şirin misralarınla deyərdin, həm də titrək barmaqlarınla pianonun dilləri üstə düzərdin, indi üstünə səpələnmiş qərənfillər kimi. Yazdığın şeirlər yarımçıq, böyük həvəslə girişdiyin tərcümələrin yarımçıq, ürəyindən axıb gələrək barmaqlarında köklənən nəğmə-

lərin yarımçıq, ali məktəbdə aldığın təhsilin yarımçıq, yarımçıq, yarımçıq, cəmi iyirmi illik ömrün yarımçıq. Yarımçıq ömrün nişanəsiz qalan igidim!

Sibirdən – əsgərlikdən göndərdiyin bir şeirindəki vətən çırpıntısı həmişə ürəyimi coşdurur.

*Bizim yerdə günəş gülümsəyəndə,*
*Torpaq da öz al rənginə bələnir.*
*Bizim yerdə qar gözləri üşütmür,*
*Bizdə qar da çiçək kimi ələnir...*

Bizə təzə bir ünvan tanıtdın. Şəhidlər Xiyabanı. O Xiyabanı neçə-neçə sənin kimi igid ülvilər yaratdı. Öz al-qanlarıyla, müqəddəs duyğularıyla, qəhrəman vüqarlarıyla, dönməz əqidələriylə. Həmişə hansı nəvəmiz bizə qonaq gələrdisə, anam sevincək deyərdi "Ülvilər gəldi. Onlara yemək hazırlayın". İndi daha nəvələrə də baxmır, ağlar gözünün yaşı qurumur, hər gün deyir: Gedəyin Ülvilərin ziyarətinə, ürəyimizin qanı ilə boyadığımız güllərdən də düzək ülvilər ziyarətgahına!

İyirmi yaşlı igidim, rahat yat, laylam sənindir.
Arzuları, xəyalları ülviləşən Ülvim!

*"Ədəbiyyat və incəsənət",*
*16 fevral 1990-cı il*

## "ÜLVİ DUYĞULARIMA" SÖZÜM

Qanlı 20 yanvar gecəsindən bəri Ülvimin ancaq ruhu-vicdanı mənimlədir. İndi o vaxtdan nə sözüm-söhbətim, narahatlığım, zarafatım, ağrım-acım, arzum-diləyim varsa, Ülvimin vicdanı-ruhu ilə ürəyimdəcə söhbətləşir, dərdləşirik. Dərdin ağırlığı altında əziləndə üz tuturaq "Ülvilər ziyarətgahına – Şəhidlər Xiyabanına". Ülvimin cismini qoruyan torpağa üz sürtüb "yüngülləşənəcən" də orada "əylənirik". Və beləcə-beləcə günləri ötürürük.

İki ildən çox idi ki, uydurma "Dağlıq Qarabağ" problemindən xalqımızın, torpağımızın vəziyyəti təsəvvürə gəlməyəcək dərəcədə çətinləşmişdi. Bir vətəndaş kimi Ülvim də buna laqeyd ola bilməzdi. Onda əsgəri xidmətdə olarkən məktublarının birində yazmışdı: "Bu saat yaxşı bir müsahibə ehtiyac duyuram. Əvvəlki məktubumda da səni bu dialoqa dəvət etmişdim". Bir xeyli respublikadakı narahatçılıqlara dair söhbətlərlə (və sözsüz ki, hər məktubunda mənə şeir göndərməsi şərtilə) məktublaşdıq. Sonra Ülvim birdən-birə yazdı: "Almaz, məndən şeir tələb edirsən, maraqlı ədəbi söhbətlər tələb edirsən. Bu saat, vallah, ömrümün ən durğun dövrünü yaşayıram, özünü dərketmədə dönüş dövrünü. Bəzən ilhamlananda da qələmdən uzaq qaçıram".

Ömrünün dönüş dövrünü yaşayan Ülvim əslində qələmdən qaçmadı. "And"ını yazdı, ömrünün mənasını təsdiqlədi. Özünə konkret həyat yolu seçən balam "And"ıyla, şeirlərindəki, bütün yazılarındakı duyğularıyla özünü tanıdı: "bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam: Azərbaycan torpağının qürurundan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam... Nəyin bahasına olursa-olsun öz "azərbaycanlı" "mən"imi" təsdiq edəcəyəm" – dedi. Ülvim axırda özünə belə bir yol seçdi. Kişi qeyrətli balam sözü bütöv, mərd yaşadı ömrünü. Əsgər məktubuna cavabını gecikdirən kimi: "Ülvi də yazıqdır axı, onun da dayağı sənin məktublarındır" – yazdı. Məktublarını gecikdir-

mədim. Sonra özü gəldi. Üzünə doyunca baxmamış xalq yolunda şəhid oldu. Təsəllim məktublarını, yazılarını oxumaqdır.

Taleyin işinə bax, Ülvimin ilk kitabı özüylə adaş oldu: "Ülvi duyğularim". Heç vaxt ağlıma gəlməzdi ki, balamın ilk kitabının tərtibçisi, ön söz yazanı, üstəlik bu topluya ad seçəni mən olacağam. Doğrudur, özü həmişə deyərdi ki... Bir dəfə yenə Ülvimi təzə şeirlər yazmamaqda, hətta heç olmasa yazdıqları ilə mətbuatda çıxış etməməkdə təqsirləndirdim. Bərk mübahisəmiz düşmüşdü. (Adətən ən səmimi söhbətlərimiz nədənsə mübahisəsiz ötüşməzdi). Söhbətimizi başqa səmtə yönəltmək üçün, özünəməxsus qəti tərzdə, ütələk-ütələk dedi:

"Birdəfəlik yadında saxla. Mən heç vaxt şair olmaq arzusunda olmamışam. Bu çox çətin sənətdir. Əzizim, bildinmi? Nə yazıramsa əsəblərimi sakitləşdirmək naminə yazıram. Və goruрəm ki, bu da səni çox maraqlandırır. Onsuz da bunların çap işi, yığıb-yığışdırmaq işi sənin öhdəndədir, bütün məsuliyyəti ilə (!) İstəyirsən indidən başla, istəyirsən də... nə isə öz işindir, bir də bu mövzuya qayıtmayaq", – beləcə dedi Ülvim. Onda heç nədən xəbərimiz yox idi. Mən də Ülvimin bir neçə şeirini çantama qoydum ki, hansısa redaksiyaya təqdim edərəm. Götürdüm və tez də çıxarıb yerinə qoydum. Qıymadım Ülvimə. Qıymadım ki, axı Ülvimə nə olub ki, şükür allaha, qoy öz işini özü görsün. Zəhmətinin bəhrəsini dadanda şirin olsun. Amma... Sən demə mənim, bir dəfə də olsun artıq-əskik danışmağa yol verməyən müdrikim nə dediyini bilirmiş. Öz diliylə bu məsuliyyəti qoydu boynuma, sanki ən adi bir iş kimi. Ülvim APXDİ-də oxusa da, Azərbaycan tarixçisi olmaq istəyirdi. Ərəb, fars, latın dillərini sərbəst öyrənmişdi. Və bunların köməkliyi ilə də tariximizə aid xeyli yazılı mənbələrlə tanış olmuşdu. Xüsusi qeydlər, konspektlər dəftəri tutmuşdu. Səliqə-səhmanlı. Oxuduğunu, yazdıqlarını bir yana çıxarmamış, bir səmtə yönəltməmiş yarımçıq qoyub getdi. Bəlkə də gələcəkdə ən sanballı bir tarixi əsərin bünövrəsi idi bu qeydlər. Mən buna qəti inanıram. Ülvimin ruhu da bunu

təsdiq edər, onun təhsil aldığı institutdakı bütün yoldaşları da.

Ülvi Yusif oğlu Bünyadzadə 1969-cu il sentyabr ayının 23-də qədim Göyçə mahalının Kəsəmən kəndində dünyaya göz açmışdı. Beş yaşından yazıb oxumağı bacarırdı. İlk şeirini altı yaşında yazmışdı. O günkü sevinci hələ də gözümün qabağındadır. Və dedim ki, Ülvimə heç vaxt uşaq kimi baxa bilməmişik. Bunu öz qeyri-adi söhbətləriylə, düşüncəsiylə, istedadıyla, davranışıyla, hərəkətiylə, hər şeyə müdrik baxışıyla aşılamışdı bizə. Adi bir şey: Mən X sinifdə oxuyanda Ülvim I sinifdə oxuyurdu. Mən onda da "Ülvimin bibisi" olmağımla sinifdə də, məktəbdə də fəxr edirdim. Hamının diqqətini cəlb etmişdi. "Son zəng" günü sinfimizdəki 39 şagirdin hamısı Ülvimə böyük hörmətlə hədiyyə – kitab bağışladılar. Bapbalaca boylu Ülvimin hədiyyələri qucağına sığmadı. Köməyinə mən çatdım. Həyatın işinə bax. Ülvimin ən narahat anlarında imdadına çatan, ürəyinə yatan köməkçisi mən olmuşam. Tək bircə dəfə gecikdim. Onda da Ülvimin qaynar həyatını itirdim. Əbədilik.

Ülvim poeziyanı çox sevirdi. Dünya ədəbiyyatında nə qədər əzbər şeirlər bilirdi. Dağlara daha çox vurğun idi. Taleyinə, ömrünə oxşar izləri təbiətin qoynundan seçərdi, özünə bənzədərdi. Və bütün bunlardan aldığı zövqü, məhəbbəti sözbəsöz misralara, misralardan bəndlərə, bəndlərdən də şeir karvanına düzərdi, nəğməyə çevirərdi.

İbtidai təhsilini Kəsəmən kəndində, orta təhsilini Daşkəsən şəhərində almışdı. 1987-ci ildə APXDİ-nin ingilis dili fakültəsinə daxil oldu. Birillik təhsildən sonra əsgəri xidmətə yollandı. Bir il üç aydan sonra təhsilini davam etdirmək üçün yenidən Bakıya qayıtdı. Bakıda mitinqlər keçirildiyi bir vaxt idi. Dərs əlaçısı, fəal ictimaiyyətçi, səmimi münasibətli, gülərüzlü, mərd xarakterli idi mənim Ülvim. Cəmi 20 bahar, 20 yay, 20 qış, 21 payız görən Ülvimin yazıb qoyduqlarını yığıb-yığışdırmaq nə qədər çətindir, mənim üçün. 200-dən çox şeiri, bir poeması, bir povesti, bir neçə hekayəsi, nə qədər publisistik məqalələri, ingilis

dilindən etdiyi xeyli tərcümələri, hekayələri və s. Bütün bunları toplayıb seçmək, ən yaxşı variantını üzə çıxarmaq, səliqəyə salmaq böyük və dəhşətli dərəcədə ağır məsuliyyətdir. Çünki son dərəcə ehtiyat edirəm ki, Ülvimin ruhuna toxunan ani bir hərəkət olmasın. (Elə şeirləri var ki, altı-yeddi variantda işləyib). "Bu vurğun könüldən..." şeirini həm azərbaycanca, həm rusca, həm də ingilis dilində yazıb. Üstəlik nota da köçürüb. Gözəl musiqi duyumu vardı. Bütün alətlərdə ustalıqla çala bilirdi. Ülvim haqqında o qədər danışaram ki, günlər çatmaz, o qədər yazaram ki, kağız yetişməz. Mənim Ülvim belə igid idi, qorxmaz idi.

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Bu yolun*
*şaxtasından, soyuğundan mən qorxmuram.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan.*
*Bu yolun acısından, ağrısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram.*

Bir neçə kəlmə də o gecədən... O gecə Ülvimin düşmən gülləsinə tuş gəldiyi anı bildim. Mən bunu görməsəm də, dəqiq deyə bilərəm ki, "qanlı ordu" xalqımın üstünə yeridiyi vaxt Ülvim qollarını açıb düz tankın qabağında durub ki, "Dəymə mənim xalqıma, onlar əliyalındır, düşmən mövqeli deyillər. Qırmayın mənim xalqımı..." Və bu sözlərini yarımçıq qoyub Ülvimi susdurublar. 20 yaşlı Ülvim haqq dünyasına nakam köçdü.

*Anam da, övladlarım da,*
*Məni qəmgin xatırlasın.*
*Qoy ən əziz dostlarımsa*
*Həmişəlik* yadırğasın.

Ülvimin həyatda yeganə arzusu, məqsədi bu idi ki, xalqının özü də, torpağı da bütövləşsin. Onu da bilirdi ki, "Azad, Bütöv Azərbaycan" yaratmaq üçün xalqı nə qədər çətin yoldadır. Çünki xalqının düşməni də çoxdur, gözü götürməyəni də saysız.

Böyük həyat eşqi olan Ülvimin ömründən qalan izləri "Ülvi duyğularım" oxuculara çatdırır. Ülvidən xəbərsiz olan bu

görüş qoy oxuyanın könlünü xoş, Ülvimin, bütün şəhidlərinin ruhunu şad etsin. "Ülvi duyğularım"a sözüm qurtarmasa da, nöqtə qoyuram. (Nöqtəni bu yazıya qoyuram, Ülvi ömrünə yox).

*"Ülvi duyğularım" kitabından,*
*Bakı, Gənclik, 1990. səh. 3-8.*
*"Vətən səsi" 18 yanvar 1991- ci il*





Анд
Мән, Бүнјадзадә Үлви Јусиф
оғлу, ~~һәјатымда илк~~ сон дәфә өз
виҹданым гаршысында анд
ичирәм: бир елин, бир милләтин
адыны тәмсил етдијими һеч
заман унутмајаҹағам; Азәрбајҹан
торпағынын [illegible], [illegible]
јоғрулмуш адыны мүгәддәс тутаҹаг,
бу ада ләкә вурмаг истәјән бүтүн
үнсүрләрә гаршы дураҹағам; өз азәр-
бајҹанлы варлығыма, виҹданыма,
[illegible], [illegible], [illegible]
[illegible] олан азәрбајҹанлы [illegible]
лајиг оғул олаҹаг, горхаглығы, ал-
чаглығы, јалтаглығы өзүмә јахын
бурахмајаҹағ, нәјин бахасына
олурса олсун өз Азәрбајҹанлы
„Мән“ими тәсдиг едәҹәм.
Әгәр вәдими хилаф чыхсам, гој ана-
мын сүдү, [illegible] [illegible] мәнә һарам
олсун, [illegible] [illegible] [illegible].
Имза: Б.-зә Үлви 10.09.89.

## ÖMRÜM SƏNİN EŞQİNDİ...

Sən demə, o qara gecədən 9 il keçir. Necə də tez ötüb bu 9 il. Deməli, düz 9 ildir ki, Ülvim, sənə doğru qaçıram. Qaçıram sənə çatam və deyəm ki, neylədin sən, ömrüm mənim? Özün yerə-göyə sığmayan bir dünya idin, qadan alım, indi havama, suyuma, oduma, torpağıma dönmüsən. 9 ildir ikimiz bir ömrə calanmışıq. Yaşamağımız, yanmağımız, sevinməyimiz, düşünməyimiz, yazı-pozumuz birgədir. Dünyanın eninə, uzununa dolanan yollarını birgə yoruruq. Gözümə tez-tez cəbhə xəttində dəyirsən. Duyursanmı, əsgərlər sənin "Ülvi duyğularım", "Bir ölümün acığına" kitablarını sonsuz sevgiylə oxuyurlar. Şeirlərini əzbərdən bilirlər. Təzə bir kitabın da çıxıb – "Ömrüm sənin eşqindi..." Adına da təzə bir kitab bağlanıb: "Ülviləşən Ülvim". Məktəblilərə payladım, yaman həvəslə, ürəkdolusu məhəbbətlə oxuyurlar.

"And"ın Azərbaycan xalqının milli azadlıq mübarizəsində əzəmətli himndir. 20 il yaşadın. Kişi kimi yaşadın, kişi kimi getdin. Sən bu xalqın azadlıq mübarizəsi yolunda əyilməz bayrağı oldun. Qəhrəmanlıq tarixi oldun. Bu torpağın çörəyi halalın olsun! Adına "Allah evi" kimi müqəddəs saydığım bir muzey açmışıq: Ülvi muzeyi.

Sənin sevib-sevələdiyin kasıbyana əşyalarını, qələmini, yazı dəftərini, kitablarını, hamıdan gizlətdiyin – "cızma-qara" dediyin şeirlərinin, hekayələrinin, ingiliscədən tərcümələrinin əl-yazmalarını – bütün ədəbi irsini orada saxlayıram. Mənim çiçək Ülvim, 9 ili ötən "qara bayramının" aydınlığı yetsin sənə, mənə, cəmi Azərbaycana, bir də

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*

– deyən eşqinə.

Bu məktubu dostun, sirdaşın, bibin kimi sənin ruhuna ünvanlamışam, əziz Ülvim. Sənin adın dilə gələn kimi "And"ın

qulaqlarımda eşidilir. Ülvi, hansı duyğular ovqatında yaşadığın bu möhtəşəm "And"ından bəllidir. Dediyin mənada yaşamaq hər oğulun işi deyil, axı! İllah ki, dünyanın bir-birinə çırpılan vədəsində. Düşmən gülləni gözünə sıxdığı məqamda da, lap "ölüm" anında da. Onda bir şeirini xatırlamamaq olmur:

*Mən qorxmuram uzaq yola çıxmaqdan.*
*Bu yolun,*
*şaxtasından, soyuğundan mən qorxmuram.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan.*
*Bu yolun,*
*acısından, ağrısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram.*
*Yollar saysız,*
*Yollar sonsuz,*
*Yollar ötür –*
*dünənimdən,*
*bu günümdən,*
*sabahımdan*
*ötür keçir.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan.*
*Çünki,*
*dünyadakı bütün yollar,*
*Anamın təndir evinin qabağından*
*ötür keçir.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan.*

Bu şeirini 1989-cu ildə hərbi xidmətdə olduğum uzaq, soyuq Sibirdə yazmısan, "Xətai" dərnəyi yaratdığın şəhərdə. Azərbaycan milli-azadlıq mübarizəsi tarixində bu duyğularınla, düşüncələrinlə, qətiyyətinlə, Şəhid adınla öz yerin var, Ülvi! Özü də ən uca yerdə, ən ülvi nöqtədə! 1969-cu ildə göz açdığın dədə-baba ocağın – Göyçə mahalın, Kəsəmən kəndin düşmən tapdağında qalanda dözmədin. Ürəyin qan ağladı. Qarabağda müharibə qığılcımları közərəndə coşdun. Bir vaxtlar sovet ordusunun

Əfqanıstan torpağına təcavüzünü, bizim o müharibəyə yollanan oğullarımızın nakam aqibətini gözlərin önünə gətirdin. Topxana meşəsinin ağacları doğrananda Əfqanıstan dağlarının əks-sədası qəlbinə doldu: "Ömür yolu" poemanı yazdın, hər sətir üstə titrədin:

*Yox, yox,*
*ulu torpaq,*
*Sənin uğrunda*
*həmişə,*
*hər yerdə*
*mərd olacağıq.*
*Sənin hər qarışın*
*ocaq yeridi.*
*Qan töküb o yeri biz*
*alacağıq.*

Qərib bir ruhun səsi uzaq Sibirdə hoyuna yetdi:

*Aman, qardaş,*
*doğrudurmu, deyirlər,*
*Gecə-gündüz*
*qan tökülür yurdumda.*
*Qarabağın tarixini*
*danırlar,*
*Məscid uçur,*
*dam sökülür yurdumda.*
*Qarabağdı mənim dinim-imanım,*
*o torpağın*
*nişanəsi, iziyəm.*
*Məni belə aciz görmə qəbirdə.*
*Qəbirdə də*
*Qarabağın özüyəm.*

Beləcə, Vətən duyğulu, yurd sevgili misraların, şeirlərin çoxdur. Bu şeirlərini, eləcə də "Qansızlar" povestini, bir çox hekayələrini, tərcümələrini oxuyanda gözlərim önündə poladdan tökülmüş sərt baxışlı bir əsgərə dönürsən. Ciddiliyindən, sərtliyindən, qətiyyətindən, cəsarətindən min ilin tökmə kişilərinə bənzəyirsən.

Amma, sən demə, Ülvim mənim, sənin həm də çiçək qəlbin, şehli sevgi hisslərin varmış. Gözəllərə biganə qalmayan qaynar baxışların varmış. Başına dönüm sənin, demə eşq girdabında çırpınan ürəyin varmış:

*Bir qız gördüm od baxışlı,*
*Orta boylu, uzun saçlı.*
*Mənə baxıb güldü, qaçdı –*
*Belə gülüş görməmişdim.*

*Dağ döşündən bir gül dərdi,*
*Ləçəyinə üz söykədi.*
*Dodaqları titrəyirdi –*
*Belə öpüş görməmişdim.*

*Dedim, tutaq, gəl əl-ələ,*
*Varaq, gedək bizim elə.*
*Mənə söydü... gülə-gülə –*
*Belə söyüş görməmişdim.*

Baxışı sənin qəlbini titrədən o bəxtəvər qız indi neynir, görəsən? Ömrünün köç karvanını qurmamış sevdiyin o gözələ yoxsa öz əlvidanı da demişdin?

*Deyirəm, vüsalın nə azmış ömrü,*
*Gedirəm, əlvida, gözəl, əlvida.*
*Gəlmişəm son dəfə biz qoşa gəzək,*
*Bizdən qalan qoşa izə əlvida.*

*Bu yerlərdən bahar çağı keçərdik,*

*Çiçəklikdən sənə çiçək seçərdik.*
*Ovuc-ovuc bir çeşmə su içərdik,*
*Ağ suyunda üzən buza, əlvida.*

*Mən Ülviyəm, ülvi sözə aşiqəm,*
*Saf ürəyə, büllur üzə aşiqəm.*
*Gözlərintək ala gözə aşiqəm,*
*Sevdiyim o ala gözə əlvida.*

Ülvim belə Ülvi idin. Çiçək zərifliyiylə tərpəşən şehli misraların hər kəsin ürəyində yox yerdən sevgi hissləri oyadır. Bax, onda, Ülvim, elə bəxtəvər olursan ki, –

*Titrəyən dodağın şeir istəyir,*
*Baxıb təmənnana, ay həsəd çəkir.*
*Yanır ürəyində elə bir od ki,*
*Bu oda, atəşə yay həsəd çəkir.*

*Küsəndə gözlərin elə baxır ki,*
*Səni küsdürəni elə yaxır ki,*
*Sıx qulac saçların elə axır ki,*
*Şəlalə duruxur, çay həsəd çəkir.*

*Sənə şərqi qoşum, şeir nədir ki?*
*Ovunsun ürəyin, ovunsun təki,*
*Sən özün şeirsən, elə şeir ki,*
*Ş airlər heyrətdən ay həsəd çəkir.*

Səndən ayrılmaq olmur, Ülvi, səndən doymaq olmur. Nə yaxşı sən dünyamızda olmusan, indi də varsan, sabah da varsan. İnan, sən buna, Ülvi. Çünki gələcək nəsil səni oxuyur, Səndən örnək götürür. Kök sənsən, budağın sabahkı nəsil. Sən Azərbaycan Azadlığı uğrunda ömrünü, torpağını qızıl qanına boyadın. Qızıl qanına boyandın ki, gələcək nəsil azadlıq xoşbəxtliyini yaşasın. Bax, heç olmasa o xoşbəxtlikləri üçün səni anacaqlar, Səni sevəcəklər Ülvim. Di, hələlik –

*Anam da, övladlarım da,*
*Məni qəmgin xatırlasın.*
*Qoy ən əziz dostlarımsa,*
*Həmişəlik yadırğasın,*
*Bir ocağın ətrafında*
*Mənə ehsan paylasınlar,*
*Qoy lap məni "bəxtsiz" deyə*
*Bənzətsinlər bir yazığa.*
*Ancaq gözlə, gəlməliyəm,*
*Bir ölümün acığına.*

Qayıt, ömrüm-günüm, bənövşə ömürlü Ülvim, qayıt...

Hə, qoy onu da deyim, sözümü bitirim. Bir şeirin heç canımdan gen durmur. Doqquzda oxuyanda yazmısan, ey, – "Bənövşə bayatıları". O şeirin yaman xoşuma gəlir. Sənin də xoşuna gəlirdi –

*Bahar nə şirin şeymiş,*
*Ətri bənövşədəymiş.*
*Ömrüm sənin eşqindi,*
*Eşqin də bənövşəymiş.*




*"Xalq qəzeti"*
*17 yanvar 1999-cu il*

## "YANIRSAN, MƏNİ DƏ YANDIRMAQ ÜÇÜN"

"Bakıda xüsusi hərbi vəziyyət elan edilmədən 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı cinayətkarlıqlar törədilmiş və respublikamızın suveren hüquqlarını qəddarcasına tapdalamış, qanlı müsibətlərdə həlak olanlardan biri də keçmiş SSRİ-nin 50 illiyi adına APXDİ-nin ingilis dili fakültəsinin tələbəsi, M.Ə.Rəsulzadə adına BDU-da fəaliyyət mərkəzi seçilən Şimali Azərbaycan Azad Tələblər İttifaqı (ŞAATİ) idarə heyətinin üzvü, vətənpərvər şair Ülvi Yusif oğlu Bünyadzadə idi.

Naməlum qara qüvvələr tərəfindən Bakıda 18-19 yanvar günlərində törədilən qətllər və qarətlər zamanı Ülvi Bünyadzadə AXC-nin Nəsimi rayon şöbəsindən olan cəbhədaşları ilə birlikdə həmin ərazidə ictimai-siyasi sabitliyin qorunması keşiyində dayanmışdı. Nəsimi rayonunda törədilən qətllərin və qarətlərin qarşısını almaq məqsədilə yanvarın 18-dən həmin ərazi, rayon şöbəsinin idarə heyəti tərəfindən dayaq dəstələri arxasında bölüşdürülmüş və APXDİ dayaq dəstəsinə 4-cü mikrorayondakı "Pioner" kinoteatrı qərargah müəyyənləşdirilib və bu işə rəhbərlik etmək Ülvi Bünyadzadəyə tapşırılmışdır. O, bu tapşırığın öhdəsindən məharətlə gəlmiş və yanvarın 18-də, 19-da bütün küçələri, binaları nəzarət altında saxlanan həmin ərazidə qətllərə və qarətlərə yol verilməmişdi. Yanvarın 19-da saat 24 radələrində Ülvi Bünyadzadə "Pioner" kinoteatrından güllə səsini eşidib XI Qızıl Ordu meydanına tərəf getmiş və bir daha geriyə qayıda bilməmiş, həmin meydanda həlak olmuşdur.

XI Qızıl Ordu meydanı tərəfdən güllə açıldığını eşidən Ülvi Bünyadzadə özüylə qərargaha apardığı "səsucaldanı" götürüb bayıra çıxır. Qərargahın istifadəsində olan maşına minərək meydana tərəf sürdürmüş və oradan "səsucaldanla" sovet əsgərlərinə tərəf qışqırır. "Qırmayın mənim xalqımı. Onlar əliyalındırlar, silahsızdırlar. Burada qadınlar, uşaqlar var. Çəkilin, atmayın tankınızı, topunuzu". Maşın meydana çatmamış, səs gələn

tərəfə tuşlanan tankdan atəş açılır. Ülvinin ağzına yazın, sol çənəsindən güllə keçir, içini doğrayıb tökür və arxa tərəfdən – ürəyindən dəlib çıxır. Bu an yanvarın 20-nə keçən 20-ci dəqiqədə baş verir. Azadlıq eşqilə şeirlər qoşan mübariz şair Ülvi müstəqil Azərbaycan uğrunda şəhid olur. Vətən təəssübü ilə şəhid olan Ülvi Bünyadzadə cəmi 20 illik həyatıyla Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində hansı izləri qoymuşdur? Bu sualın cavabı olaraq onun həyat və yaradıcılıq fəaliyyətini araşdıraq.

**Həyatı:** Ülvi Bünyadzadə ustad aşıq Ələsgər yurdunun – qədim Göyçə mahalının Kəsəmən kəndində ziyalı ailəsində 1969-cu ilin 23 sentyabrında dünyaya göz açmışdır. Beş yaşından yazıb-oxumağı bacaran Ülvi altı yaşında ilk şeirini yazmışdır:

*Yavaş-yavaş qar yağır,*
*Yerə çökür ağır-ağır.*
*Hər tərəfi qar bürüdü,*
*Uşaqlar xizəyə yüyürdü.*

Ülvinin körpə könlünün ilk poetik pıçıltısı, ilk zümzüməsidir bu misralar. Gördüklərini, yerli-yerindəcə düzüb-qafiyələndirib. Bunlar hələ qafiyənin nə olduğunu bilməyən altı yaşlı Ülvinin ilk şeir tapıntısıdır.

Ülvi Bünyadzadə ibtidai təhsilini Kəsəmən kəndində, orta təhsilin isə Daşkəsən şəhərində almışdır. (Ülvinin on yaşı olanda valideynləri Kəsəmən kəndindən Daşkəsən şəhərinə köçmüşdür). Onda poeziyaya həvəs ötəri olmamışdır. Əksinə, bu qəlbində getdikcə artan tələbata çevrilmişdi. O, 13 yaşında öz yaşıdlarına ithaf etdiyi şeirində yazırdı:

*Döyüşlərdə yoğrulmuşuq,*
*Gələcəyə qaranquşuq.*
*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*

Bu şeir Ülvinin poetik yaradıcılığının özül daşıdır. Orta məktəbdə oxuduğu illərdə Ülvi ədəbiyyata və elmi biliklərə son

dərəcə böyük maraq göstərmişdir. 12-13 yaşlarından sonra, ümumiyyətlə, bütün şagirdlik həyatı boyunca vaxtaşırı olaraq şeirləri, müxtəlif səpgili bədii və publisistik yazıları ilə mətbuatda (rayon qəzeti "Daşkəsən"də) çıxış etmişdir. Eyni zamanda rayonda fəaliyyət göstərən "Qoşqar" ədəbi birliyinin üzvlüyünə qəbul edilmişdir. Orta məktəbdə oxuduğu illərdə Ülvi həm də yeddillik musiqi təhsili almışdır. 1986-cı ildə sənədlərini ADU-nun şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə vermiş, imtahanlarını müvəffəqiyyətlə versə də, müsabiqədən keçməmişdir. Sonra o, Daşkəsən şəhərinə qayıdaraq rayon təmir-tikinti idarəsində rəngsaz işləmişdir. Elmə, sənətə son dərəcə böyük həvəs göstərən Ülvi 1987-ci ildə APXDİ-nin ingilis dili fakültəsinə daxil olmuşdur. Təhsilə bağlandığı ilk günlərdə aydın fikirliliyi, həyata nikbin baxışlarıyla dərhal müəllim və tələbələrin dərin rəğbətini qazanmış, qrup nümayəndəsi seçilmişdir. Dərs əlaçısı və fəal ictimaiyyətçi kimi tezliklə bütün institutda tanınmışdır. İnstitut qəzetində dərc edilən yazılarını müəllim və tələbələr hörmətlə qarşılayırdılar. 1987-1989-cu illər Ülvi Bünyadzadənin qısa ömrünün ən məhsuldar dövrü olmuşdur.

1988-ci ilin iyun ayından 1989-cu ilin sentyabr ayına qədər hərbi xidmətdə olmuşdur. Ülvi əsgəri xidmətini yüksək səviyyədə yerinə yetirdiyinə görə hərbi hissədə Sov.İKP üzvlüyünə qəbul edilmişdir. Oradan göndərdiyi məktublarında, şeir və qeydlərində vətənə məhəbbətini bildirirdi.

1989-cu ilin sentyabr ayında SSRİ Müdafiə Nazirinin həmin dövrdəki qərarına əsasən o, tələbə olduğu üçün vaxtından 9 ay əvvəl hərbi xidmətdən tərxis olundu və APXDİ-nin II kursunda təhsilini davam etdirmək üçün Bakıya qayıtdı. Bu vaxt Bakıda mitinqlər keçirdi. Sentyabr ayının əvvəllərində Kanskdan Bakıya qayıdan Ülvi həmin gün mitinqdə iştirak etmiş və uydurma "Dağlıq Qarabağ probleminin" xalqı üçün yaratdığı sıxıntıların, iztirabların, gərginliklərin daha da dərinləşdiyinin şahidi olmuşdur. 1989-cu il sentyabr ayının 10-da Ana torpağı, doğma

xalqı qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə yerinə yetirəcəyini vicdani borc bilərək öz müqəddəs "And"ını yazmış və onun həyatını həmin "And"dan ayrı təsəvvür etmək olmaz.Sov.İKP-nin bütün sovet xalqlarının həyatında oynadığı mənfi rolu başa düşərək Bakıya qayıtdıqdan sonra Azadlıq meydanında (dekabr) mitinq zamanı kommunist biletindən imtina etdiyini bildirmiş, elə oradaca ovcunun içində nümayişkaranə yandırmışdır. O dövr üçün bu çox böyük risq idi. ("Xalqı bu mübarizədə gedilən yoldakı qələbəyə inandırmaq üçün lazım olsa, bütün cismimizi yandırmağa hazır olmalıyıq" demişdi. Yanvarın 19-da gecə Bakıya girən işğalçı, rus ordusunun yolunu kəsmiş, dinc piketin güllləbaran edilməsinə dözməyərək, sinəsini xalqına tuşlanmış gülləyə sipər etmişdi. Yanvarın 20-də axşamüstü cəbhə dostları, tələbə yoldaşları və müəllimləri onun cəsədini Semaşko adına xəstəxanadan tapdılar.

Ülvi Bünyadzadə Bakıda Şəhidlər Xiyabanında (40-cı qəbr) dəfn olunmuşdur.

O, həyatını Azərbaycan xalqının, Azərbaycan torpağının azadlığı uğrunda qurban vermişdir.

**Yaradıcılığı:** Ülvi Bünyadzadənin ilk yaradıcılıq fəaliyyəti poeziya aləmi ilə bağlı olmuşdur. Uşaq yaşlarından bu sənətə öz duyğusu, hissi, duyumu ilə meyl etmiş və getdikcə həyati müşahidələri, düşüncələri ilə buna daha da bağlanmışdır. Ülvinin bütün şeirləri, yazıları onun xarakteri ilə bir vəhdətdə birləşir, bu, vətənə, torpağa, elə məhəbbət hissiylə əlaqədardır. Ülvi ədəbi fəaliyyəti üzərində ciddi işləmişdir. Həmin illərin bəhrəsi olaraq bu gün əlimizdə onun zəngin, rəngarəng və Orijinal ədəbi irsi qalmışdır. Ülvinin əsərlərində ana xətt – vətən müqəddəsliyi, azadlıq duyğusu və qeyrətli vətəndaş oğul obrazının tərənnümü əsas yer tutur. Şair qəlbində baş qaldıran Milli Azadlıq eşqinin müqəddəs yolda çarpışmaqla məşələ dönəcəyinə inanır. Bu, 70 il ərzində gəldiyimiz "hamarlanmış yol" yox, milli mənliyini təsdiqləyən, vətən şərərini ucaldan yol, cığır olmalıdır. "Həyat

üçün doğulmuşuq, Vətən üçün ölməliyik" idealı ilə yaşayan şair 15 yaşında ikən Vətənə üz tutub:

*Sən mənim yolumda bir məşəl kimi,*
*Yanırsan, məni də yandırmaq üçün.*
*Döyünən qəlbimin yatan səsini,*
*Yuxudan oyatmaq, çaxdırmaq üçün.*

*– misralarını yazsa da,*

*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*

- deyə mübarizə yolunu seçdi. Bu, Ülvinin milli vətəndaşlıq mövqeyini, qətiyyətini sübut edirdi. "Qoşqar" ədəbi birliyinin sədri, şair Namazalı Paşayev 1987-ci ildə Ülvinin ali məktəbə daxil olması münasibətilə "Daşkəsən" qəzetində dərc etdirdiyi **"Ülvi"** məqaləsində yazmışdır: "Ülvini lap çoxdan tanıyıram. Tez-tez rayon qəzetində məqaləsini oxuduqca hiss edirdik ki, o, istedadlı oğlandır. Yaxşı yadımdadır, "Qoşqar" ədəbi birliyinin növbəti məşğələlərinin birində bir məktəbli oğlan çıxış etdi. Həmin ciddi şeirlərin müəllifi məlum oldu ki, imzasına rast gəldiyimiz Ülvi Bünyadzadədir. Dərnəkdə Ülvi özünün təhlil və mühakimə qabiliyyəti ilə fərqləndi. O vaxtdan onunla dostlaşdıq. Redaksiyaya birgə gedib-gəldik, tapışırıqlar aldıq. Qəzetin növbəti nömrələrinin birində onun yazılarını oxuduqca bilirdim ki, bu gün məktəbli olan Ülvi sabah özünə aydın yol seçməyi bacaracaqdır. O, həmişə arzu edirdi ki, gələcəkdə tərcüməçi olsun. İngilis dilindən tərcümə etdiyi kiçik hekayələr də, yumorlar da həmin arzunun təsirindən idi. Ülvi ingilis dili dərslərindən fərqlənər, əla qiymətlər alardı. Ümumiyyətlə, dil öyrənməyə çox böyük həvəsi vardı".

Ülvi ərəb, fars, latın, özbək dillərində (sərbəst öyrənməklə) yazıb-oxumağı, ingilis, rus dillərini isə mükəmməl bilirdi. Və bunların köməkliyi ilə də tariximizə aid xeyli yazılı mənbələrlə tanış olmuşdu. Xüsusi qeydlər, konspektlər dəftəri tutmuşdu. Bu

qeydlər bəlkə də gələcəkdə ən sanballı bir tarixi əsərin bünövrəsi idi.

Ülvi müəllimləri, yoldaşları tərəfindən həmişə böyük hörmətlə, məhəbbətlə sevilmişdir. Məktəb illərində hazırlanan bütün tədbirlər Ülvinin təşkilatçılıq və ssenarisi əsasında aparılırdı. O, yoldaşları arasında, özünü bədii yaradıcılıqla ciddi məşğul olan bir şair-yazıçı kimi qabarıq büruzə verməzdi. Hamının könlünü ürəyindən gələn qaynar hərarətli 3-4 misra şeirlə alardı. Sərbəst mühakiməli, yüksək təfəkkürünə görə yoldaşlarından qeyri-adi dərəcədə fərqlənərdi. Bədii sənət haqqında söhbətlərini isə atası yaşda olan kişilərlə, "Qoşqar" ədəbi birliyinə toplanan şair və yaradıcı ziyalılarla edərdi. "Bir tikə məktəb uşağı" olduğu halda, çəkinmədən onlarla ciddi mübahisələr edər, oxuduqları yazılara öz tənqidi münasibətini bildirərdi.

Ülvinin ilk şeiri "Qoşqar"ın təqdimatıyla mətbuatda dərc olunmuşdur. Şeir dodaqdəyməz şəklindədir: lirik, gözəl, bir az kövrək, bir az titrək, bir az həssas və yanıqlı hisslərdən ibarətdir.

*Səyyaddan sayalanan,*
*Ahlı-nalalı ceyran.*
*Gəldi səyyada sarı,*
*Qaldı yaralı ceyran.*

Onda musiqi duyumu güclü idi. Və təsadüfi deyil ki, bir çox milli musiqi alətlərimizdə gözəl ifaları ilə məktəbdə keçirilən ayrı-ayrı yığıncaqlarda, görüşlərdə müəllim və şagird kollektivinin dərin rəğbətini qazanmışdı. O, qarmon, tar, saz, piano, kamança  və s. musiqi alətlərində çalmağı bacarırdı.

Ülvinin musiqi istedadına heyranlığını Naxçıvan Televiziya və Radio Şirkətinin sədri, şair Elman Həbib bir məqaləsində belə bildirir: "Ülvi. Onunla qardaşımgildə tanış olmuşduq. Qardaşımla Ülvinin əmisi Hüseyn həkim qonşu idi. Ad günündə, xudmani məclisimizdə hərə öz sözünü deyirdi... kimsə dedi ki, Ülvi pianoda bir xalq mahnısı çalsın. O, utancaq-utancaq qalxıb piano arxasına keçdi. Ülvi həmin andan yaddaşımda yaşamağa başladı.

18 yaşı vardı. Qonur gözləri, çatılmamış, qartal qanadları kimi gərilmiş qara qaşları ağbəniz çöhrəsinə bir qədər kölgə salanda qəribə ciddi görkəm alardı. Məclis boyu ağzını açıb bir kəlmə kəsməyən bu gəncin sinəsi altında necə sirli xəzinə varmış, allah. Bizim aşıq musiqisi, el havacatları pianoda necə səslənərmiş, ilahi. Bayaqdan dillənməyib susub duran bu Ülvi balanın ürəyi nə imiş, Tanrı. Barmaqları nə oyun eləyirdi, "Göycə gölün"dən başladı, "Divanidən adladı", "İrəvan çuxurunda" ayaq saxladı. "Sarı telləri" bir-bir saydı, "Ayaq sarıtel", "Orta Sarıtel", "Baş Sarıtel", "Yanıq Kərəmi", "Naxçıvani"... Aşıq havaları pianoda dəyişdikcə ovqatımız da dəyişdi. O vaxt dəfələrlə gövrəldim. Çalırdı, yorulmaq bilmirdi, qəlbinin həyəcanı tükənmirdi. Ülvi yadımda beləcə qalıb. 18 yaşında, bığ yeri yenicə tərləyən bir cavan, yeniyetmə kimi, bir də xalqımızın dərdini müdrikcəsinə ürəyinin dilində danışan istedad sahibi kimi. O vaxt məclisdə heç birimiz bilmirdik ki, Ülvi həm də şairdir".

Millətimizin müstəqil Azərbaycan dövləti yaratmaq mübarizəsi yolunda Ülvi bütün fikrini bir səmtə yönəltdi: fəal, sıravi cəbhədaş oldu. Bütün ali məktəb tələbələri arasında böyük nüfuz qazandı. 1989-cu il idi, əsgəri xidmətdən yenicə qayıtmışdı.

Gənclər arasında azadlıq və milli müstəqillik uğrunda təbliğat aparan Ülvi bir qrup fəal, qeyrətli, Vətən sevgili tələbələrlə BDU-da tanış oldu. Az sonra həmin qrup (müxtəlif ali məktəb tələbələrini təmsil edən) BDU-da ŞAATİ-nin təsis konfransını keçirdilər. İttifaqın Proqramı və Nizamnaməsini Ülvi bir gecəni yatmayıb səhərəcən işlədi, sabah tezdən isə səliqəylə üzünü çıxarıb konfransa apardı. Bu iş əslində onun üçün yeni deyildi. Hələ əsgəri xidmətdə olarkən qulluq etdiyi raket hissələrinin birində yaratdığı "Kətan" təşkilatının Proqram və Nizamnaməsini də təkbaşına hazırlamışdı və müzakirə zamanı onlar təşkilatın üzvləri tərəfindən bəyənilmişdi. Təşkilatın yaradıcısı və rəhbəri olan Ülvi qulluq etdiyi hərbi hissədə xeyli tərəfdar toplamış və məqsədlərini onlara açıqlamışdır. Üzvlərin məqsəd və vəzifələri

Azərbaycanda gedən hadisələri İttifaq fonunda dərindən və hərtərəfli təhlil edərək həmin hərbi hissənin və digər hərbi hissələrin əsgərləri arasında kütləvi təbliğat apararaq bütün respublikalara vətənimiz barədə, onun öz suveren hüquqları uğrunda mübarizəsi haqqında, torpağımıza uzanan qara əllərin təhrikçiləri barədə həqiqətləri anlamaq, xalqımızın dostcanlı, qonaqpərvər və sülhsevər bir xalq olduğunu anlatmaq, Azərbaycanın tarixi barədə müəyyən təsəvvür yaratmaqdan ibarətdir. Bu haqda Ülvi məktublarının birində yazır: "Daha bir hadisə barədə. Burada xidmət edən azərbaycanlılar (mənim təşəbbüsümlə) "Xətai" adlanan bir dərnək təşkil ediblər. 20 nəfər üzvü var, namizədlər yenə az deyil. Məqsədimiz Azərbaycanda baş verən hadisələri, ümumiyyətlə, onun dərdlərini, çatışmazlıqlarını müzakirə etmək, qərar çıxarmaq, şuramızın adından müəyyən ölçülər götürməkdir... Özümüzün Proqram və Nizamnaməmiz var. Hamımız təntənəli surətdə and içmişik. Görək bu böyük işimizin axırı nə olacaq. Məni şuramızın sədri seçiblər".

Bunlar Ülvinin uzaq Sibir torpağından Vətənimiz sarıdan keçirdiyi nigarançılıqlarının əks-sədasıdır, vətəndaş qayğısıdır. Respublikada baş verən bütün hadisələrə öz münasibətini məktubları vasitəsilə hökmən bildirərdi. Hər xırda şey haqqında olan narahatçılıqlarını öyrənməyə çalışırdı. Başqa respublikalarda gedən ictimai-siyasi prosesləri izləyir, müqayisə edir, bir vətən fədaisitək soyuq Sibir torpağında çırpınırdı. Vətən ağrılarını daim içində, könlündə gəzdirən Ülvi başqa bir məktubunda qayğılı-qayğılı yazdı: "Xeyli vaxtdır ki, məktub almadığıma məyus olmuşam. Mən burada, Pribaltikada yaranan milli cəbhənin, Belorusiyada yaranan xalq Cəbhəsinin, Beynəlmiləl cəbhənin (bundan bəlkə də xəbərin yoxdur), Ermənistan tələbələr İttifaqının proqramları ilə yaxından tanış olmuşam. Təsəvvür elə ki, Estoniya iyunun 1-dən təsərrüfat hesabına keçir. Bu, artıq respublikanın öz siyasi suverenliyini qazanmağın inamını artırır. Onu nəzərə alaq ki, bu iqtisadi müstəqilliyin ardınca siyasi

müstəqillik gəlir. Çox təəssüf edirəm ki, bu cür cəbhə-ittifaqlar, müstəqil qələbə qrupları və s. hələ də bizdə yoxdur. Bu günkü tələblərimiz dünənkilərdən çox da irəli gedə bilməyib. Doğrudur, Topxana uğrunda 20 günlük mitinq özü böyük hadisədir. Ancaq mitinqlər daha çox hisslərlə, emosiyalarla oynayır, qazanılan isə çox az şey olur. Məsələn, qonşu respublikada tələbə İttifaqı (SAS) mübarizə forması kimi mitinqlərdən imtina edir, dil, mədəniyyət, iqtisadiyyat müstəqilliyi uğrunda mətbuat mübarizəsi edir, qeyd edirlər ki, SSRİ-nin bütün paytaxt şəhərlərində (o cümlədən, Moskvada) nümayəndəlikləri (mənim sözümlə konsulluğu) olmalıdır. Bu açıq-aşkar SSRİ-dən ayrılmağı bir tələb kimi qarşıya qoymur, ancaq məntiq aydındır. Mübarizə forması isə mitinqlər yox, mətbuatda ideoloji təbliğatdır. SAS-ın öz qəzeti var. Erm. KGİ MK buna yardım göstərir. Bu tələblər qarşıya elə şəkildə qoyulub ki, etiraz eləməyə heç bir əsas qalmır.

Müharibədən sonrakı illəri, xüsusən 70-80-ci illəri "durğunluq" dövrü adlandırdılar. Ancaq əslində bu dövr "Milli oyanış – özünü dərketmə" illəri idi. Milli ideologiyada baş verən bu inqilabi inkişaf ilk dəfə ədəbiyyatda – "altmışıncılar" deyilən nəslin fəaliyyətində də təzahür etdi. Nəsrdə də, poeziyada da "kökə qayıdış" hiss olunmağa başlayırdı. Bu vəziyyət təkcə Azərbaycanda deyil, SSRİ-də yaşayan bütün qeyri-rus millətlərin yaşadığı torpaqlarda yetişmişdi. Ümumittifaq siyasi böhranı, inqilabi partlayışı gözlənilirdi ki, bu da indiki Rumıniya hadisələrinə bənzər bir çevriliş ola bilərdi. Lakin bu vaxt Qorbaçov hakimiyyət başına gəldi. O öz "yenidənqurması", "aşkarlığı" ilə bu partlayışın qarşısını müvəqqəti olaraq aldı, bolşevizmə mələkə donu geyindirməyə çalışdı. Lakin bunun üstü tez açıldı və hamı "durğunluq" dövrünün "Qorbaçov bataqlığı" dövrü ilə əvəz olunduğunu dərk elədi. Ümumxalq hərəkatımızın məqsədi bu "bataqlığı" yox eləməkdən, ən son nəticədə Azad, bütöv Azərbaycan Xalq Cümhuriyyəti qurmaqdan ibarət idi."

Həmin zamanın qarışıq, ictimai-siyasi böhranlı günlərində

əsgərlikdən qayıdan (1989, sentyabr) Ülvi Bünyadzadə Xarici Dillər İnstitutunda Azərbaycan Xalq Cəbhəsinin dayaq dəstəsinin və Şimali Azərbaycan Azad Tələbələr İttifaqının yaradılmasında fəal iştirak edirdi. O, AXC-nin institutdakı dayaq dəstəsinin fəaliyyət proqramını hazırlayanlardan biri olmuşdur. İnstitutda tələbələrin təhsil şəraitinin yaxşılaşdırılmasında və tədris proqramında xalqımızın mənəviyyatına və psixologiyasına yabançı olan qalıqların, tör-töküntülərin çıxarılması uğrunda fəal mübarizə aparmışdır.

Onun Azadlıq mübarizəsi meydanlarında, yığıncaqlarında dərin məzmunlu, yüksək məntiqli çıxışları həm tələbələri, həm müəllimləri, həm də bütün iştirakçıları heyran edərdi. Xalqa yabançı ünsürlərə qarşı barışmaz mövqe tutaraq həmişə, hər yerdə öndə olmağa can atardı. "Ülvi bütün varlığı ilə xalqına, torpağına bağlı idi. Onun sinəsində döyünən vətən idi. Damarlarında çağlayan xalqının qeyrəti, ləyaqəti idi. Ayrı-ayrı musiqi alətlərində çalanda da, yüzlərlə bədii əsərlərini yazanda da, ürəyindən axıb gələrək barmaqlarında köklənən nəğmələrini nota köçürəndə də, günün aktual məsələlərinə toxunanda da xalqının, torpağının köksünə sığınar və bu təmasdan doğan ilhamla çalırdı, yazıb-yaradırdı". (M.Nəbiyev).

"Əlbəttə, təəssüflənirəm ki, o, hadisələrin Bakıda canlı şahidi olmamışam. Digər tərəfdən isə hadisələr kənardan daha obyektiv şəkildə müşahidə olunur. Bax, elə buna görə də deyirəm ki, çox şeydə başqa millətlərdən geridə qalırıq. Azərbaycanda "Türk gəncləri ittifaqı"nı, "Tələbələr cəmiyyəti"ni, xüsusilə "Cənubi Azərbaycanla birləşmək uğrunda mübarizə cəmiyyəti" və s. yaratmaq vaxtı çatıb. Bu məsələlər ancaq aşağıdan başlamalıdır, yuxarılar isə öz köməyini (mətbuat və s.) onlardan əsirgəməməlidir. İran Sovet İttifaqı ilə əlaqədan imtina edir. Ancaq mənə elə gəlir ki, müstəqil şəkildə yuxarıda adlarını çəkdiyim cəmiyyətlər İranla bir millətin adından çıxış edib Cənubi Azərbaycan barədə bəzi məsələləri həll edə bilər. Nə isə, fikirləşdikcə adam çox də -

rinliklərə gedib çıxır...".

Ülvinin bu məktubunun yazıldığı tarix, məzmunundan göründüyü kimi, ermənilərin Qarabağ torpağını "qamarlamaq" istədikləri dövrün ilk vaxtlarına təsadüf edir. Və təbii ki, Ülvi uzaq Sibir torpağında olsa da Vətənin başına açılan oyunlara biganə qala bilmirdi. Arayırdı-axtarırdı, mübarizədə iştirak etmək üçün yollar seçirdi. Düşmən olan ermənilərin sirlərini, mübarizə formalarının üstün cəhətlərini öyrənirdi. Hələ o vaxtlar Azərbaycanı iki yerə bölən tikanlı məftillərin ağrısı Ülvinin sanki ürəyindən keçirdi. Ülvi – Azadlıq fədaisi olan bir şair yarı bölünmüş Azərbaycanın dərdindən kənarda qala bilərdimi?

*O taydan Savalan, bu taydan Qoşqar,*
*Buludlar başından körpü salıbdır.*
*Bu mənfur dirəklər, acı tikanlar,*
*Bilmirəm heç kimdən miras qalıbdır."*

Ülvi duyumuna görə tarix o dirəkləri, "acı tikanları" salanların qəbirlərini də mühakimə edəcəkdir. Daşkəsənin kəsilib tökülən meşələrindən də, Əfqanıstanda həlak olan oğullarından da o, eyni ürək yanğısıyla danışır. Bu mübarizədə gəncləri real, qüvvətli, cəsur və güclü qüvvə təki görürdü, gözünü onların gücünə dikirdi. Hələ "cəbhə", "birliklər" yaranmadığı bir dövrdə də bunlar Ülvinin könlündən keçən planlar idi. "Ancaq bir yerdə birləşib mübarizə aparmaqla qalib gəlmək olar" – deyə məktublarında da, publisistik yazılarında da, şeirlərində də, nəsrində də ancaq bu cür duyğularla yaşayırdı. 1990-cı ilin 10 yanvar tarixində qələmə aldığı bir publisistik məqaləsində yazmışdı: "Azəri xalqının milli müstəqilliyi və demokratiya uğrunda apardığı mübarizə bu gün özünün tarixə qanla yazılacaq, əbədi həkk olunacaq günlərini yaşayır. Günü-gündən mövcud hərbi-polis reciminin iç üzü açılıb tökülür, onun birdəfəlik dağılması üçün zəmin hazırlanır. O da aydın olur ki, azərilərin indi tam çılpaqlığı ilə görünən milli faciəsi on ilin, iyirmi ilin deyil, bir neçə əsrin bəhrəsidir...

*"Meydan" 04,16,25 may, 06 iyun 1995-ci il*

## "MƏN QORXMURAM UZAQ YOLA ÇIXMAQDAN"

Ülvi yazdığı Andından təkcə özünün xəbəri olub. Özü özünü bir daha inandırmaq üçün içib bu andı. Sonra kağıza köçürüb, ürəyinin başında gəzdirib. İnd bu təkcə Ülvinin yox, bütün şəhidlərimizin müqəddəs Andıdır. Həm də təkcə şəhidlərinmi? Həssas qəlbli, kövrək duyğulu, təmiz nəfəsli idi Ülvi. Və bütün bu xüsusiyyətlər onun vətənə, torpağa, el-obaya məhəbbətiylə birləşmişdi.

Bir qış günündə totuq əlləri donmuş halda (amma üzündə, gözlərində böyük bir həyəcan vardı)yanıma gəldi."Almaz ,(bibi yox, adımı deyərdi), əyil qulağına bir söz deyim". Əyildim. "Almaz, şeir yazmışam". Güldüm. Fikirləşdim ki, yəqin atasının hərdənbir yazdığı şeirlərindən öyrənib, indi onu deyir. Sonra paltosunun cibindən bir kağız parçası çıxarıb mənə uzatdı. "Oxu, heç kimə demə. Birdən mənə gülərlər". Oxudum. Ürəyim dağa döndü. Balaca Ülvim gördüklərini olduğu kimi, şirin bir ləhcəylə misralandırmışdı. O vaxt onun cəmi 6 yaşı vardı. 5 yaşından yazıb-oxumağı bilirdi.

Ülvim 20 yaş yaşadı. Amma çox şeylər bacarırdı. Gözəl musiqi duyumu vardı. Ürəyində olan ən həzin duyğularını notlara köçürərək, pianonun dilləri üstə səpələrdi. Həmin anlar Ülvim özünə ayrıca bir dünya seçər, orada bir özü olardı, bir də saf, kövrək duyğuları.

APXDİ-nin ingilis dili fakültəsinin ikinci kursunda təhsil alırdı. Əlaçı idi. İngilis və rus dillərindən başqa, sərbəst olaraq bir nçeə dil öyrənmişdi. Ərəb, fars, latın, özbək dillərində artıq yazıb-oxumağı, danışmağı bacarırdı. "Hər şeyi ona görə öyrənməyə can atıram ki, vətənimə, xalqıma yararlı olum. Vətən mənim üçün əvəzolunmazdır". 13 yaşında yazdığı bir şeirində dediyi kimi:

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*

Bütün bu hisslər Ülvimin ürəyində köklənərək damarlarından axan qanına keçmiş, varlığına hakim kəsilmişdi.

19 yanvar 1990-cı il. Həmin gün imtahandan “beş” alıb, sevincini babasına-nənəsinə çatdırmaq üçün evə tələsmişdi. Sonra gedim, görüm nə var, nə yox! Tezcə gələcəm, ay cici, qurban olum sənə" – deyə nənəsini öpüb evdən çıxıb. Və bir daha... O gündən deyib-gülən, qaynar nəfəsli, gülər gözlü Ülvimi axtarıram. Hər yana, hər tərəfə üz tuturam, tapmıram ki, tapmıram. Axtara-axtara gəlib onun şeir dünyasına düşmüşəm, özünü axtarırdım, izini tapmışam.

Qanlı yanvar gecəsində düşmən gülləsi Ülvimin ömrünə nöqtə qoydusa da, uzaq yola çıxan vətən sevgisinin həyatda qoyduğu izləri heç vaxt silə bilməyəcək...

*“Gənclik” jurnalı, N-5.1990*



## YAMAN DARIXIRAM, ÜLVİ!

Artıq yeddi ilə yaxındır ki, mübarizələrlə dolu narahat, qayğılı günlər yaşayırıq. Bu müqəddəs yolda hələ ki, yorulan yoxdur. Çünki bu yol Vətənin azadlığı, müstəqilliyi, böyük vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs ideal torpaqlarımızın yad tapdaqlarından xilası yoludur. Bu yolda çox şəhidlər vermişik. Amma 20 Yanvar təkcə faciənin böyüklüyünə görə yox, həm də məğrurluq və milli həmrəyliyimizlə xalqımızın yaddaşından heç vaxt çıxmır. Həmin günlərdə milyonlarla insan imperiyanın qaniçən əsgərlərindən qorxmayaraq Bakının küçələrinə axışdı, öz qəhrəman oğul və qızlarını qərənfil "yağışı" içində dəfn etdi. 40 gün şəhidlərimizə yas saxladı.

20 Yanvarda 134 nəfər şəhidlik zirvəsinə ucaldı. Onların biri də şair Ülvi Bünyadzadə idi. O, hələ faciədən on gün əvvəl yazmışdı: "Azəri xalqı milli müstəqillik və demokratiya uğrunda apardığı mübarizədə bu gün özünün tarixə qanla yazılacaq, əbədi həkk olunacaq günlərini yaşayır. Bugünkü ümumxalq hərəkatımızın məqsədi "Qorbaçov – imperiya bataqlığını" yox eləməkdən, ən son nəticədə azad, bütöv Azərbaycan Xalq Cümhuriyyəti qurmaqdan ibarətdir".

Bu, azadlıq inamıdır, qarmaqarışıq günlərdə qaynar Ülvi qəlbinin əks-sədasıdır. Ülvi başlanmış mübarizənin yekununu belə görmək niyyətində idi. Ona görə də "Vətən azadlığı mübarizəsində, lazım gələrsə, bütün cismimizi yandırmağa hazır olmalıyıq" deyirdi.

Düşmən, imperiya ruhlu top-tüfənglilər Bakımızı, Vətənimizi, yenicə cücərməyə başlayan Azərbaycan azadlığını boğmağa gələrkən Ülvi qorxmadı, eşqi dünyalarca, göylərcə müqəddəs olan ürəyini bir zərrə işıqla əvəz eləməkdən çəkinmədi. Şəhid oldu, bilə-bilə özünü Vətənə qurban verdi. Çünki bilirdi ki, arxadan gələn saf, pak gənclikdir. Azadlığı ala biləcək, qoruya biləcək Vətən oğulları çoxdur.

Azərbaycan milli dövlətinin yaradıcısı M.Ə.Rəsulzadə 28 May İstiqlal günü münasibətilə gəncliyə vəsiyyətində inamla demişdir: "Ey gənclik! Sənin öhdəndə rəmzi yaratdı, onu min müşkülatla yüksəldərək dedi ki, bir kərə yüksələn bayraq bir daha enməz! Əlbəttə ki, sən onun ümidini qırmayacaqsan, bu gün parlaman binası üzərində azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi, ya şəhid olacaqsan". Rəsulzadənin gələcək nəslə etimadını azadlıq mübarizlərimiz şəhid olub doğrultdular. 20 yaşlı Ülvi Bünyadzadənin "And"ı bugünkü gəncliyin Rəsulzadə müraciətinə cavab nidası kimi səslənir.

Ülvi həqiqi mənada torpağını, Vətənini ürəkdən sevən oğul idi. Şair qəlbi var idi, sevən könlü var idi. Hamının ürəyini ovundura biləcək sözü var idi. Gözəl idi, yaraşıqlı idi, qürurlu yerişi var idi.

Ülvinin milli azadlıq mübarizi, azadlıq cəngavəri kimi, Azərbaycan ədəbi tarixində də özünəməxsus yeri vardır. Onun bu gün əlimizdə 200-ə yaxın şeiri, 5 pyesi, bir poeması, bir povesti, çoxlu hekayələri, publisistik və ədəbi məqalələri, ingilis dilindən xeyli şeir və hekayə tərcümələri, məktubları və s. vardır.

Ülvi ocağının dostları, qədirbilənləri min-milyonlardır. Bu ocaq böyük məktəbdir,milli tərbiyədir,bəşəri sevgidir.

Ülvi Bünyadzadə zəngin dünyagörüşü, nadir istedadı, yorulmaz və qaynar ürəyi ilə nəyə qadir olduğunu bilirdim. Onu da bilirəm ki, Ülvi o gecə elə-belə yol üstünə çıxmayıbmış. Məhz Azərbaycan demokratiyası və azadlığı uğrunda ağılla, şüurla mübarizə apararaq Vətənə o anda gərək oğul kimi şəhid olub...

Ölüncə səni anacam, səndən yazacam. Ülvim mənim! Bu ömür ikimizin payımızdır, yaşayırıq, Azərbaycanımız sevgimiz olar, Ülvim mənim, gəncliyim mənim!

*"Həyat"*
*20 yanvar 1996-cı il*

## ÖLÜMÜN ACIĞINA

Torpağının, xalqının azadlığı uğrunda canını fəda vermiş Ülvi Bünyadzadə həm də xeyli ədəbi irs müəllifidir. Onun özünəməxsus dəsti-xətti var. Ülvinin bütün yaradıcılığı – istər poeziyası, istər nəsri, istərsə də digər əsərləri mübarizlik və ümumbəşəri ideyalar üzərində köklənmişdir. Bu əsərlərdə Vətən müqəddəsliyi, milli azadlıq duyğusu və qeyrətli vətəndaş-oğul obrazının tərənnümü ana xətti təşkil edir.

Vətən, Göyçə hissləri Ülvinin poetik təxəyyülündə daha istidir. Ülvinin yaradıcı qəlbini riqqətə gətirən Vətən sevgisi doğulduğu evindən, kəndindən, ulu Göyçəsindən başlayır. Bütün əsərlərinə ruhundan qopan məhəbbət yanğısı hopub. Onun "Kəndimiz" şeiri pünhan sevgidən doğan lirik gözəlliyə layiqli misaldır. Bu qəbildən xeyli poetik nümunələr sadalamaq mümkündür. Milli varlığı həyatının gerçək yaşantısında axtaran Ülvi "Novruz bayramı gəlir" şeirində daha bəxtəvər görünür. Bu şeir onun milli həyəcanının lirik tərcümanıdır:

*Yeriyir min naz ilə göylərin şamı gəlir,*
*Ay ellər, pişvaz edin, Novruz bayramı gəlir.*
*Hanı yaşıl səməni, deyin,pişvaza çıxsın,*
*Hanı qızıl kəməri, belini bərk-bərk sıxsın,*
*Deyin, gülün, bu gün hey,kədər nədi, qəm nədi?*
*Qarı nənəm aş asıb, köz üstündə dəmdədi,*
*Göylər durulan gündü,sular bulanan gündü.*
*Tonqallar ulduz kimi bir-bir qalanan gündü.*

Meydan hərəkatından iki il əvvəl – 1986-cı ildə incə bir ruhla qələmə alınan bu şeir Azərbaycan xalqının əsrlər boyu müqəddəs saydığı milli bayramına həsr olunub. Bu, o bayramdır ki, xalq həmin vaxt yerin-göyün sevincinə bələnir, Tanrısına qovuşur, hamıdan güclü olur, hamıdan uca görünür. Ülviyə görə, milli bayramlar Azadlıq eşqinin əlifbasıdır.

Azadlüq mübarizəsi meydanında ömrünü Azərbaycanın

azadlığı, milli müstəqilliyi ilə bölüşdürməyə hazır olan "lirik məni" minbir bəlalı, ağrılı-acılı, demokratiya və milli müstəqillik uğrunda mübarizə yolundan çəkindirən elə bir qüvvə yoxdur. Əksinə, qarşıdakı bütün sədləri vurub-dağıdan əzəmətli şeir-hekayətlər, məqalələr, əlinin qılıncı, qəlbinin qalxanı olur .

Vətənini doğrayıb sökməyə can atan düşmənlərinə qarşı nifrəti ölçüsüz-biçisizdir. Azərbaycanın azadlığını boğmaq istəyən quduzların murdar nəfsini bütün dünyaya hayqırır, bəşəriyyəti, yer üzünün cəmi insanlarını obasının, dağının, düzünün, bəxtikəm torpağının xilasına səsləyir. Azərbaycanın ağır günlərində qərib bir yurda dönmüş, ulu Dədə Qorqudun boy boylayıb, soy soyladığı ozanlar ocağı qədim Göyçəsinin ötən taleyi xəyalında giziltiyə çevrilmiş, o giziltilər misralara düzülərək "Hələ səbir edirəm" şeirinə-dastanına köçürülmüşdür. Onun poeziya yaradıcılığını təşkil edən 200-ə yaxın şeirinin çoxu, lap çoxu beləcə bir ruhla köklənib.

Ülvinin qaynar Vətən eşqi bir anlıq da olsa insan ruhunu göylərə uçurur. Vətən azadlığından, müstəqilliyinin öz poetik dünyasında cizgilərini yaradan şair təbii ki, yaşadığı dövrün ədəbi-ictimai mühitində də qərib görünür: həm zahirən, həm də daxilən bu mühitə zidd fikirlərlə yaşayır. "Ömür yolu" poeması, "Qansızlar" povesti buna bariz nümunədir. Bu əsərlər Əfqanıstan torpağında aldanıb ölən oğullarımızın ruhuna ithaf olunub.

Hamımızın şahidi olduğumuz, yaşadığımız həyat həqiqətlərini Ülvi səmimi, axıcı bir dillə 1988-ci ildə bu povestdə qələmə almışdır. Bu, zamana zidd qələm idi. Ülvinin nəsr yaradıcılığını 40-a yaxın tamamlanmış və yarımçıq qalmış hekayələr təşkil edir. Bu hekayələrin çoxunda canlı insan taleyi görünür. Bu hekayələrindən birini də "Tale" adlandırıb. 1986-cı ildə yazılıb. Qəribədir ki, Bakının qaranlıq bir gecəsində millətinin və özünün başına gələcək faciəni olduğu kimi, vəhcdən gəlmiş təki qələmə alıb. Əsərin on dəfədən çox işlənmiş əlyazma variantları var. Ancaq heç birində hekayə tamamlanmayıb.

"Bir məhəbbətin manifesti", "Uğursuz məhəbbət", "Dilqəm", "Dədə Qorqud", "Bir papağın sərgüzəşti" pyesləri müxtəlif mövzuları əhatə etsə də, hamısında yüksəkdə dayanan aşiqanə həyatdır.

Onun arxivində maraqlı, aktual məzmunu ilə diqqətdə dayanan xeyli məktubları var. Bu məktublar aspirant dostu, şair Məhəbbət İlhamlıya, qrup yoldaşı Cavidə, gözəl qızlara ünvanlanıb. Nə vaxtsa oxuculara yetəcək bu məktubların hamısı əsgəri xidmətdən göndərilmişdir.

Respublikada baş verən ictimai-siyasi hadisələr Ülvini bir publisist kimi düşündürməyə vadar etmişdir. Aktual və tarixi faktlara söykənən maraqlı yazılarıyla, xüsusən, "Partiya bizə lazımdırmı?", "Əziz oxuculara", "Dayaq dəstəsi" məqalələrində o, öz narahat hisslərini, onu düşündürən məsələləri izah etməyə çalışmışdır. Milli müstəqillik və demokratiya uğrunda mübarizədə bir publisist kimi öz sözünü 1990-cı il yanvar ayının 10-da yazdığı "Əziz oxuculara" məqaləsində deyir: "Bu gün azəri xalqı tarixə qanla yazılacaq günlərini yaşayır". Ülvi fəhmi yanılmamışdı. O tarixi Ülvi öz qanıyla yazdı. Yaşadığımız və keçdiyimiz zaman – ictimai-siyasi hadisələrin içərisində qəhrəmanlıq, vətənpərvərlik duyğuları, əməlləri konteksi Ülvi "AND"ı ilə izah oluna bilər. Çox güman ki, bütün bunlar Ülvi Bünyadzadənin demokratiya və milli müstəqillik uğrunda mübarizə tarixində xüsusi yeri olacaq səhifələridir.

Azərbaycan tarixi, milli müstəqilliyi, demokratik həyatı uğrunda şəhid olan Ülvi Bünyadzadənin milli hisslərlə zəngin olan ədəbi yaradıcılığı, inqilabi fəaliyyəti qibtə olunası ömür qismətidir.

Ülvinin ağır, qəmli bir vida nəğməsi ilə bu yazıya son vermək istəyirəm:

*Anam da, övladlarım da,*
*Məni qəmgin xatırlasın.*
*Qoy ən əziz dostlarımsa,*

*Həmişəlik yadırğasın.*
*Bir ocağın ətrafında,*
*Mənə ehsan paylasınlar.*
*Qoy lap məni "bəxtsiz" deyə*
*Bənzətsinlər bir yazığa.*
*Ancaq gözlə, gəlməliyəm,*
*Bir ölümün acığına.*

Ülvi həyatımıza, günümüzə, yaşadığımız saata belə gəlib. Ruhun sevinsin, Ülvi.

*"Naxçıvan"*
*2 avqust 1995-ci il*






## "HƏYAT ÜÇÜN DOĞULMUŞUQ, VƏTƏN ÜÇÜN ÖLMƏLİYİK":

Ülvinin Vətən sevgisi doğulduğu kənddən ulu Göyçədən başlayır. Yazılarında Vətəninə – Göyçəsinə bağlılıq sadəcə bağlılır deyil, yurd-yuva yanğısıdır. Ömrünü Azərbaycan azadlığı, milli müstəqilliyi ilə bölüşdürməyə hazır olan gənc şairin yazılarındakı başlıca ölçü budur.

Yer üzünün bütün insanlarını obasının, dağının, düzünün, səmasının, bəxtikəm torpağının xilasına səsləyir.

*Bizim yerdə günəş gülümsəyəndə,*
*Torpaq da öz al rənginə bələnir.*
*Bir yerdə qar gözləri üşütmür,*
*Bizdə qar da çiçək kimi ələnir.*

Ülvinin nəsr yaradıcılığını 40-a yaxın tamamlanmamış və yarımçıq hekayələr təşkil edir. "Tale" adlı bir hekayəsi var. 1986 -cı ildə yazılıbdır. Qəribədir bu hekayədə Bakının qaranlıq bir gecəsində millətin və öz başına gələcək faciəni olduğu kimi qələmə alıb. Hekayə on dəfədən çox işlənsə də müxtəlif variantlarda tamamlanmamış qalıbdır.

Onun arxivində maraqlı aktual məzmunu ilə seçilən xeyli məktublar da var. Bu məktublar müxtəlif adamlara ünvanlanıbdır.

Yaşadığımız və keçdiyimiz zaman Ülvinin "AND"ı ilə izah oluna bilər. Çox güman ki, bütün bunlar Ülvinin milli müstəqillik yanğısından bəhrələnən səhifələrdir. Bu səhifələrin hər birisində qalın-qalın dastanlara sığası ümidlərin işartısı görünür. Bu günün, sabahın və gələcəyin işartısı.

*"Müstəqil qəzet"*
*19 yanvar 1996-cı il*

## "BİLİN, DAŞDAN DEYİL ÜRƏYİM MƏNİM!":

Ülvi Bünyadzadənin ilk yaradıcılıq fəaliyyəti poeziya aləmi ilə bağlı olmuşdur. Uşaq yaşlarından bu sənətə öz duyğusu, hissi, duyumu ilə meyl etmiş və getdikcə həyati müşahidələri, düşüncələri ilə buna daha da bağlanmışdır. Ülvinin bütün şeirləri, yazıları onun xarakteri ilə bir vəhdətdə birləşir: bu vətənə, torpağa, elə məhəbbət hissiylə əlaqədardır.

*Sən mənim yolumda bir məşəl kimi,*
*Yanırsan, məni də yandırmaq üçün.*
*Döyünən qəlbimin yatan səsini,*
*Yuxudan oyatmaq, çaxdırmaq üçün.*

– misralarını yazsa da,

*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*

– deyə qələbəni mübarizə yolunda seçdi.

Ülvi milli varlığı həyatın gerçək yaşantısında axtarır. Baharın ilk torpaq ətrindən xoş duyğularla təravətlənən şairin qəlbi "Novruz bayramı gəlir" şeirində daha bəxtəvər görünür.

*Yeriyir min naz ilə göylərin şamı gəlir,*
*Ay ellər, pişvaz edin, Novruz bayramı gəlir.*
*Hanı yaşıl səməni, deyim pişvaza çıxsın.*
*Hanı qızıl kəməri, deyin belini bərk-bərk sıxsın,*
*Deyin, gülün, bu gün hey, kədər nədi, qəm nədi?*
*Qarı nənəm aş asıb göz üstündə dəmdədi,*
*Göylər durulan gündü, sular bulanan gündü,*
*Tonqallar ulduz kimi bir-bir qalanan gündü.*

Haqq dediyi sözdən dönməyən şair sanki sərkərdə tək azadlıq mübarizəsi meydanında ömrünü Azərbaycanın azadlığı, milli müstəqilliyi ilə bölüşdürür. Söz yox ki, bu şərəfli yoldan keçən minbir bəlalı, ağrı-acını, qada-qorxunu duyur, dərk edir, lakin bütün bu məşəqqətlər onun demokratiya və milli mübarizlik əzmini qıra bilmir. Bu yoldan onu çəkindirən heç bir qüvvə yoxdur.

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Bu yolun*
*Şaxtasından, soyuğundan mən qorxmuram.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan*
*Bu yolun*
*ağrısından, acısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram.*

Ülvinin vətəni doğrayıb tökməyə can atan düşmənlərə nifrəti ölçü-biçisizdir.

*Siz ay qara qanlara,*
*Susayan ağ murdarlar*
*Eşidin! Bu obalar,*
*Bu ulduzlar, bu göylər,*
*Çaylar, dənizlər, göllər,*
*Sülh, azadlıq istəyir,*
*Eşidin, ey insanlar.*

Azərbaycanın ağır günlərində qərib bir yurda dönmüş, ulu Dədə Qorqudun boy boylayıb, soy soyladığı ozanlar ocağı qədim Göyçəsinin ötən taleyi xəyalında giziltiyə çevrilmiş, o giziltilər misralara düzülərək "Hələ səbr edirəm" şeirinə-dastanına köçürüldü. Göyçəsinin taleyi Ülvinin qəlbən hər an yaşadığı həsrət idi. "Hələ səbr edirəm" şeiri isə Azərbaycan milli azadlıq mübarizəsinin başladığı ilk günlərdə, Qarabağın qara günündə yarasını təzədən qanatdı.

1918-ci il tarixdə Göyçəni quldur tək çalıb-çapan general Selikovun əlindən yazıq taleli kənd camaatı hara qaçsalar da axtarıb tapılır və minbir faciəylə öldürülürdülər. Mahalın Zod kəndində binə salmış daşnak başçı Göyçəni qan dənizinə, matəm məclisinə çevirmişdi. Artıq bu qədər zülm-iztiraba dözməyən igid nərlər düşmənə qarşı mübarizədə birləşməyə and içdilər. Tarixən bu yurdda-Göyçədə qorxan olmayıb, ata-babası onun yanında belə danışıbdı. Az vaxt ərzində mahalın igidləri generalın üstünü alır və qan çanağının başını bədənindən üzüb atırlar.

Beləcə "ona qisas gününü, Göyçə dağını göstərirlər."İndi də Qarabağ torpağını işğal edən qüvvələrə, onların başçılarına şair həmən tarixi xatırladaraq üz tutur:

*Bəlkə unudubdu Zori Balayan,*
*Qan içən babası qanda boğulub.*
*Başqa torpağına göz dikən zaman*
*Bax onda, bax onda, onda boğulub.*

"Dövran belə getməz" el hikmətinə arxalanan şair deyir ki, "vaxt gələcək Göyçə də, Qarabağ da "Hinger daşnakların" yaxasından tutub cavab istəyəcək.

Uzaq Sibir çöllərində hərbi qulluqda olarkən o yerlərin hərarətsizliyi, yadlığı Ülvini heyrətə gətirir.

*"Bu torpağa Allah qarğıyıb nədir,*
*Günəşi buz, adamları buzdu, buz."*

– deyə Odlar yurduna, Azərbaycanına ruhuyla bir sevgi çələngi göndərir. Ülvi onu tanıyıb-bilənlərə qəmli-vida nəğməsi oxuyur. Ülvinin şeirlərindəki bu hiss-ölümün yaxınlaşdığını duyan duyğular təkcə oxucu marağıyla anlanan mənadır. Əsil həqiqət isə budur ki, Ülvi yaradıcılığındakı "ölüm" laylası-ölümə oxunan meydanda ölümün məhvi, uğursuzluğudur.

Hissi, duyğusu kövrək Ülvidən Vətən ağrısı yan keçə bilərdimi?

O, Azərbaycan torpağının qürurdan, qeyrətdən yoğrulmuş adının müqəddəsliyini qorumaq naminə vətən keşikçisinə dönmüş, "gecəsi nə, gündüzü nə" bilinmirdi.

*Verirlər yadlara az nemətimi?*
*Payız nemətimi, yaz nemətimi.*
*Yaltaqlar yurdumun naz-nemətini,*
*Uduzub istəyir cura, ağlaya.*

Azərbaycan müstəqilliyi uğrunda mübarizə meydanında çalışıb vuruşan oğullar bütün varlıqlarını, ideallarını ancaq bir məsləkə, bir amala həsr etmişdilər: Vətəni düşmən caynağından xilas etmək!

Bu gün yağı tapdağında qalan torpağının xilası naminə onun ruhu cəngavərlik meydanında dolanır:

*Yox, yox, ulu torpaq!*
*Sənin uğrunda həmişə,*
*hər yerdə mərd olacağıq,*
*Sənin hər qarışın ocaq yeridi,*
*Qan töküb o yeri biz alacağıq.*

*"Ədəbiyyat qəzeti "*
*19 yanvar 1997-ci il*



## GƏNC ŞAIR ÜLVI BÜNYADZADƏNIN 26 YAŞI...:

Ülvinin qəlbini riqqətə gətirən vətən sevgisi doğulduğu evindən, kəndindən, ulu Göyçəsindən başlayır. Bütün əsərlərində Vətəninə – Göyçəsinə ruhundan qopan məhəbbət yanğısı alovlanır.

Azadlıq mübarizəsi meydanında ömrünü Azərbaycanın azadlığı, milli müstəqilliyinə qurban verməyə hazır olan lirik "mən", söz yox ki, həmişə bu şərəfli yoldan keçib min bir bəlalı, ağrı-acılı, demokratiya və milli müstəqillik uğrunda mübarizənin bəhrəsini dada bilmir.

Ülvinin Vətənini doğrayıb tökməyə can atan düşmənlərinə qarşı nifrəti ölçü-biçisiziydi. O, Azərbaycanın azadlığını boğmaq istəyən quduzların murdar nəfsini bütün dünyaya hayqırır, bəşəriyyəti obasının, dağının, ulduzunun, bəxti kəm torpağının xilasına köməyə səsləyirdi.

Yaşadığımız və keçdiyimiz zaman ictimai-siyasi hadisələri içərisində qəhrəmanlıq, vətənpərvərlik duyğuları, əməlləri konteksi Ülvi "AND"ı ilə izah oluna bilər. Çox güman ki, bütün bunlar Ülvi Bünyadzadənin demokratiya və milli müstəqillik uğrunda mübarizə tarixində xüsusi yeri olacaq səhifələrdir.

Azərbaycan tarixi, milli müstəqilliyi, demokratik həyatı uğrunda Şəhid olan Ülvi Bünyadzadənin milli hisslərlə zəngin olan ədəbi irsi, inqilabi fəaliyyəti qibtə olunası ömür qismətidir.

*"Zaman"*
*23 sentyabr 1995-ci il*

## ÜLVIM MƏNIM, GƏNCLIYIM MƏNIM:

Artıq neçə illərdir ki, milli mübarizələrlə dolu qayğılı günlər yaşayırıq. Bu müqəddəs yolda hələ ki, yorulan yoxdur. Çünki bu yol Vətənin Azadlığı, müstəqilliyi, torpaqlarımızın yad tapdaqlarından xilası yoludur. Bu yolda çox şəhidlər vermişik. Amma 1990-cı il 20 yanvar günü təkcə faciə böyüklüyünə görə yox, həm də məğrurluq və milli həmrəyliyimizlə xalqımızın yaddaşından heç vaxt çıxmır. Həmin günlərdə milyonlarla insan imperiyanın qaniçən əsgərlərindən qorxmayaraq Bakının küçələrinə axışdı, öz qəhrəman oğul və qızlarını qərənfil "yağışı" içində dəfn etdi. 40 gün şəhidlərimizə yas saxladı.

20 yanvarda 134 nəfər şəhidlik zirvəsinə ucaldı. Onlardan biri də şair Ülvi Bünyadzadə idi. O, hələ faciədən on gün əvvəl bir publisistik məqaləsində yazmışdır: "Azəri xalqı milli müstəqillik və demokratiya uğrunda apardığı mübarizədə bu gün özünün tarixə qanla yazılacaq,bədii həkk olunacaq günlərini yaşayır. Bu günkü ümumxalq hərəkatımızın məqsədi "Qorbaçov – imperiya bataqlığını" yox etməkdən, ən son nəticədə azad, bütöv Azərbaycan Xalq Cümhuriyyəti qurmaqdan ibarətdir."

Bu, azadlıq inamıdır, qarmaqarışıq günlərdə qaynar Ülvi qəlbinin əks-sədasıdır. Başlanmış milli mübarizənin yekununu Ülvi belə görmək niyyətində idi. Ona görə də "Vətən azadlığı mübarizəsində, lazım gələrsə, bütün cismimizi yandırmağa hazır olmalıyıq" deyirdi.

Düşmən, imperiya ruhlu ton-tüfənglilər Bakımızı, Vətənimizi, yenicə  cücərməyə başlayan Azərbaycan azadlığını boğmağa gələrkən Ülvi qorxmadı, eşqi dünyalarca, göylərcə müqəddəs olan ürəyini bir zərrə işıqla əvəz eləməkdən çəkin-mədi. Şəhid oldu, bilə-bilə, görə-görə özünü Vətən azadlığına – Bakıya qurban verdi. Çünki bilirdi ki, arxadan gələn saf, pak gənclikdir. Azadlığı ala biləcək, qoruya biləcək Vətən oğulları  çoxdur.

20 yaşlı Ülvi Bünyadzadənin, "And"ı bu günkü gəncliyə

həyat dərsi,vətənpərvərlik tərbiyəsidir. Bu “And” öz mənası, məntiqi, fəlsəfəsi ilə dolğun bir əsər tutumundadır, bir məktəbdir- ÜLVİ MƏKTƏBİ.

Ülvi həqiqi mənada torpağımı, Vətənini ürəkdən sevən oğul idi. Şair qəlbi, sevən könlü var idi. Hamının ürəyini ovundura biləcək sözü var idi. Gözəl idi, yaraşıqlı, yapışıqlı idi, qürurlu əsgəri yerişi var idi.

Ülvinin milli azadlıq mübarizi, azadlıq cəngavəri kimi, Azərbaycan ədəbi tarixində də özünəməxsus yeri vardır.

Ülvi Bünyadzadə zəngin dünyagörüşü, fitri istedadı, yorulmaz və qaynar ürəyi ilə nəyə qadir olduğunu bilirdim. Onu da bilirəm ki, Ülvi o gecə elə-belə yol üstünə çıxmayıbmış. Məhz Azərbaycan demokratiyası, azadlığı uğrunda ağılla, şüurla mübarizə apararaq Vətənə o anda gərək oğul kimi şəhid olub.

Ölüncə səni anacam, səndən yazacam - Ülvim Mənim, Gəncliyim Mənim!

*"Azərbaycan mədəniyyəti və incəsənəti"*
*20 yanvar 2005-ci il*

## GÜNƏŞİNƏ QOVUŞAN ÜLVİM

Var qoca dünya, gəldi-gedər dünya, bir də eşq dünyası. Bu dünyaların doğulduğu bir dünya da var ki, onu nə görürük, nə də bilirik. Təkcə onu bilirik ki, Tanrının işinə qarışmaq olmaz. Özü bilən məsləhətdir.

Qoca dünya min-milyon ildir ki, yerin yeddi qatına kök, göyün yeddi qatına boy atıb dövran sürür. Hələ "bu dünyanın" sahibitək gəldi-gedər dünyanın da işini yönləşdirir. Yaxşı-yaman əməllərini saf-çürük "edir".

Yaxşıları hansı nöqtəsinəsə tac edir, yamanlarısa atır yeddi min arşın dərinliyindəki zülmət quyusuna. Bir həqiqəti də anlayıram ki, nə qoca dünya gəldi-gedər dünyadan, nə də gəldi-gedər dünya qoca dünyadan baş tapmır, baş tapmayacaq da.

Bir də var eşq dünyası. Günəşi köksünə sığışdıran dünya sahibləridir eşq dünyasında doğulanlar. İlahi düşüncələrlə, poetik duyğularla, nağıllı-nəğməli duyumlarla yaşayan eşq dünyası talelilərin elə bil heç bu qoca dünyayla işləri yoxdur, az qala cismani varlıqlarını da unudurlar.

Hər kəs gördüyünü, eşitdiyini öz dünyası yönümündə anlayır. Eşq dünyasında doğulanların taleyini, duyğusunu vərəqlərsənsə, onu dərk etmək sevgisində dolanarsansa öz gəldi-gedər dünyan həmin andaca çiliklənər. Ancaq özünlə doğulan dünyanı da dəyişmək Tanrı əmridir.

Günəşdən bir çınqı ayrılıb və eşq dünyasıyla təzədən doğulan bir işıq – taleyin pərvanəsiyəm. Ömür gün payımı çilikləyib, sevgimlə, ürəyimlə onun ilahi qüdrətinə baş əyirəm. Uğuruna həmişə sevinmişəm, uğursuzluğuna isə üzülmüşəm. Bu, mənim Ülvimin taleyidir. Eşq dünyasıyla doğulan Ülvimin 1001 gündür taleyinin 40-cı qapısını açmışam və mat qalmışam: eşqinin gücünə, saflığına, ucalığına, ilahiliyinə. Bir belə qüdrət sahibi olan eşqin qarşısında dünyamı unutmuşam.

Çöldə qar yağanda qar dənəciklərinin nazlana-nazlana uç-

masına baxıb sevinərdik. Əlindən tutduğumuz altı yaşlı Ülvi isə qarı uçan “görməzdi”.

*Yavaş-yavaş qar yağır,*
*Yerə çökür ağır-ağır.*

– deyərdi. Çəkisi, ağırlığı, olmayan qar dənəcəyi də ağır-ağır çökərmi? Bu sayaq dərkinə varmadığımız hadisələrə üz tutub eşq dünyası sahibinin “poetik baxışına” fikir verməzdik. Körpəcə Ülvi üzümüzə baxıb gülərdi. Sonralar o cür gülməklərinin mənasını anladım:

*Həyat üçün doğulmuşuq,Vətən üçün ölməliyik!*

nəğməsini qoşanda eşqini – Göyçə obasını qucardı, gözlərindən – Göyçə gölündən öpərdi, əl atıb başındakı duvağını – dağlarının üzünü bürümüş ağappaq dumanı dağıdardı və bütün bu gözəlliklər qarşısında, bu ilahi sevginin əbədiliyi naminə Yurd Şəhidi olmaq istərdi. Şəhidlik sevgisini, 13 yaşında yazdığı bu misralarda belə sadə, bəzək-düzəksiz qəbul edib.

Novruz bayramı gələndə, elə bil kənd isti ocağa dönərdi:

*Yeriyir min naz ilə göylərin şamı gəlir,*
*Ay ellər, pişvaz edin, Novruz bayramı gəlir.*

*Hanı yaşıl səməni, deyin, pişvaza çıxsın,*
*Hanı qızıl kəməri, belini bərk-bərk sıxsın.*

*Deyin, gülün, bu gün hey, kədər nədi, qəm nədi?!*
*Qarı nənəm aş asıb köz üstündə dəmdədi.*

*Göylər durulan gündü, sular bulanan gündü,*
*Tonqallar ulduz kimi bir-bir qalanan gündü.*

Uşaqlığıyla ətrafda deyilənlərdən anlayardı ki, bu isti ocağın közünü də kül etmək istəyirlər:

*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*

Ancaq Ülvi özünü bizdən fərqləndirmək, bizdən ağıllı göstərmək üçün duyğular dünyasını açıb tökməzdi qabağımıza. Öz dünyasında düşündüklərini xəlvətcə kağıza köçürürdü; eləcə ürəyini boşaltmaq üçün. Ülvini yaşıdları, hamı çox sevərdi: şirinliyinə, ağlına, gözə gəlimliyinə, səliqəsinə, nikbin və sevgili olduğuna görə. Körpəliyində çox ağlardı. Elə bil dünyasını dəyişik salmışdı.

Həmişə bapbalaca bildiyim Ülvi bir gün dedi ki, tay-tuşlarımın hamısının "qızı" var. Bir "5-6-sı"nı da mən sevmişəm. Amma zalım balalarının həndəvərinə dolana bilmirəm ki, heç olmasa birinə ürəyimi açım.

Əyin-başının səliqəsinə həddən artıq diqqət yetirəndə gülərdim:

*– Xeyir ola?*

*– Qızlara "dağ" çəkmək üçün. Zalımların hamısı bir-birindən gözəldir.*

Sevgisi dərindən-dərin, saf olan Ülvim əlbəttə, bunları zarafatla deyirdi, amma sözaltı bildirirdi ki, gözaltı eləməyin vaxtı-vədəsidir. Öz dünyası qəlibində sevgili görüşləri də olmuşdu: amma and vermişdi ki, hələ heç kəsə açma... Mən də susuram hələ.

Orta məktəb yoldaşlarının söhbətlərindən: IX sinifdə oxuyurduq. Mayın 25-i onuncuların "Son zəng"ini təbrik üçün Ülvinin təşəbbüsüylə Səməd Vurğunun "Vaqif" dramını hazırlayırdıq. Rejissorluq işini boynuna çəkən Ülvi bütün rolları bölüşdürdü, Qacar rolunu özünə götürdü.

Hamımız bir nəfər kimi etiraz etdik ki, yox, Ülvi ancaq Vaqif ola bilər. Ülvi dediyindən dönmədi. Biz isə Ülvini o qədər çox istəyirdik ki, əsərdəki qaniçən Qacar rolunu ona yaraşdıra bilmirdik, Qacarın sözlərini Ülvinin ifasında eşitmək istəmirdik. Nə isə, bir ay məşqlər keçdi. "Son zəng" günü tamaşanı verdik. Zal dolu idi və tamaşa başlamamış təəssüf hissli pıçhapıçlar gedirdi: "Qacarı Ülvi oynayacaq".

Ancaq Ülvi Qacarı elə oynadı ki, hamı Şah Qacara elə bil yaxşı mənada diqqət kəsildi. Ülvini o qədər öpdülər ki.O, isə utandığından qalmışdı qırıla-qırıla. Bilmirəm Qacarı oynayan Ülvi olduğundanmı Qacara düşmən kimi baxılmadı, rəğbətlə qarşılandı, yoxsa…Nə isə. Bu sirri təkcə Ülvi bildi və tamaşaçıların Qacarı qəbul etməyinə sevindi, şirinlik payladı: hərəmizə bir şeir ithaf etdi. Bizim əziz Ülvimiz belə oğlan idi.

Ülvi şeirlə yanaşı hekayədə də gücünü sınayıb. Nəsr qovluğunda "Bəla", "İnsan", "Dünyaya qış gəlibdi", "Köhnə otağın nağılı", "Məktub", "Etiraf"... 40-a yaxın hekayə əlyazması və bir povesti var. Hekayələrin yarıdan çoxu "yaralı"dı. Yazacağı hekayələrin bəzisinə plan qurub, ad seçib, bir az işləyib, sonrasını saxlayıb ki, dünya qaçmır ha, bir azdan işləyərəm. Qələmini yerə qoyub, təzədən əlinə götürəndə başqa bir yazı üzərində işləyib. O da qalıb yarı-yarımçıq, yaralı.

Sonra 16 yaşında yazdığı "Tale" adlı yarımçıq hekayəsindəəsərin qəhrəmanının 20 yaşı olanda Bakının qaranlıq bir gecəsində millətinin və öz başına gələcək faciəni olduğu kimi qələmə alıb. Oxuyanda adama qarabasma gətirir, vahimələndirir. Hələlik bütövlükdə "yaxın düşə bilmədiyim" "Nəsr qovluğu"nu bir gün nizamlayacağam.

Pyeslər qovluğundan bu kitaba daxil etmədiyim, əfsanəvi Göyçə gözəli Həcər xanımla bağlı qəribə və mənalı hadisələri əks etdirən "Bir papağın sərgüzəşti" pyesi, özünəməxsus üslubda səhnələşdirdiyi xalq dastanlarından – "Dədə Qorqud" haqqında danışmaq bir ayrıca söhbətdir.

Tərcümə etdiyi hekayələr, şeirlər və bir pyes Ülvi qəlbinin dünya ədəbiyyatına olan sevgisidir və öz eşq dünyasının kəhkəşanında bəzədiyi topa ulduzlardandır.

Məktubları isə Ülvi ruhundan qaynayan dupduru bulaqlardır. Bir ocaq başında böyüsək də – bu otaqdan o biri otağa, stolun bu başından o biri başına, Göyçədən Daşkəsənə, Bakıdan Sibirə məktublaşmışıq. İstəkli, qaynar sətirli o məktubların

çoxunu saxlamışam. Çoxunun imza yerindən yazardı ki, "oxu, cır at, Rauf (kiçik qardaşım – A.Y.) oxusa bizə gələcək və sonra da gəl onun lağ-lağı atmacalarından qurtar, görüm necə qurtarırsan".

Bütün bunlarla, Ülvi evdə, yoldaşları arasında özünü bədii yaradıcılığa bağlayan bir şair-yazıçı kimi qabarıq şəkildə büruzə verməzdi. Ədəbiyyat haqda söhbətlərini atası yaşda olan kişilərlə, şairlərlə, üzvü olduğu Daşkəsən rayon"Qoşqar" ədəbi birliyində edərdi. "Bir tikə məktəb uşağı" olduğu halda, o boyda kişilərlə "razılaşmazmış" və çəkinmədən onların oxuduqları yazılara öz tənqidi münasibətini bildirərmiş. "Qoşqar" ədəbi birliyində özünün oxuduğu ilk şeiri "Ceyran" "Qoşqar"ın təqdimatıyla (1986) rayon qəzetində dərc edilmişdi...

Millətimizin müstəqil dövlət yaratmaq mübarizəsi yolunda Ülvi bütün fikrini bir səmtə yönəltdi – fəal, sıravi cəbhədaş oldu. Tələbələr arasında böyük nüfuz qazandı. 1989-cu ilin son ayları idi. Bakı Dövlət Universitetində (özü APXDİ-də təhsil alırdı) Şimali Azərbaycan Azad Tələbələr İttifaqı (ŞAATİ) təsis etdilər. Proqram və Nizamnaməsini bir gecəni səhərəcən yatmayıb işlədi, səhərə yaxın səliqəylə üzünü çıxarıb apardı (Sonralar ŞAATİ üzvləri Qoşqar, Rüstəm, Mülayim və başqaları bunu heyranlıqla xatırladılar). Meydanda "millətimizin başını pambıqla üzən" partbiletini ağappaq ovcunun içindəcə yandırdı. Gələndə gördüm ovcunun içi yanıb. *"Xalqı bu mübarizədə gedilən yoldakı qələbəyə inandırmaq üçün lazım olsa, bütün cismimizi yandırmağa hazır olmalıyıq"* – üzümdə sezdiyi narahatçılığıma belə cavab verdi Ülvi.

Gələcəyin ən dərin bir şairi kimi görmək istədiyim Ülvi bədii yaradıcılıqdan elə bil uzaqlaşdı. Hərçənd ki, məzmunca əvəzsiz saydığım "Qansızlar"ı və "Ömür yolu"nu həmin illərdə yazdı.

Bir dəfə ona verdiyim "sərt ultimatum"uma xeyli güldü.

*– Qələmindən uzaqlaşma. Kim sənə deyir hərəkatdan gen*

*get. Əksinə, elə bugünkü hadisələri isti-isti bədii əsərə köçür.*

*– "Başa düşmürəm, sən niyə mənim "məşhur yazı-pozu əhli" olmağımı arzulayırsan. Lap dünyanın düz vaxtı olsaydı da, mənim başqa planlarım var, icazə ver, qoy bildiyimiz kimi yaşayaq. Sənin xəyalınınsa inam közərtisinə bircə ümid var: Nizami Gəncəvi Yusif bəy, Səməd Vurğun da Yusif bəy adlı kişilərin oğlu olublar və mənim dədəm də Yusif bəydir. Sən əlacını və niyyətinin közərməsini təkcə ona bağla"* – deyə zarafata salıb, söhbətin çəmini dəyişərdi.

Ülvinin inqilabi hərəkatda gördüyü işlərin də şahidiyəm, hər addımını bilmişəm və bu çox geniş, örnək kimi yaşanmalı bir taleyin söhbətidir: olduğu kimi nə vaxtsa bunları da yazacam.

Dərsə ciddi hazılaşardı: ingiliscə danışıb səsini kassetə yazardı. Pozardı, yenə yazardı: nitqini, sözlərin ifadə tərzini dəqiqləşdirmək üçün.

*– Ay bala, gəl bir az öz dilində danış, sevdiyin qızdan-zad-dan, institutunuzdan.*

*– Cicim, (anama belə deyirik –A.Y.) bura bax, əvvəla qız-qızdır, zad nədir. Sonra da lap belə, ayıb olmasın, indi gedib qıza deyəcəyim sözləri əzbərləyirəm.*

*– Əzbərlə də, qurban olum, amma öz dilində əzbərlə, qoy görüm nə deyəcəksən, razı olacaqmı?*

*– O zalım gözəl öz dilimizdə bilmir axı.*

*– Kimlərdəndi ki, a bala?*

*– İngiltərə ingilisdir. Tetçerin nəvəsidir və ya o nəsildəndir.*

*– Bay, onun ayıbını Allah örtsün. O vaxt bizimkiləri öl-dürdükləri bəs deyil (məşhur "26-lar"ı nəzərdə tuturdu) düşməni hələ bir evimə gəlin də gətirəcəm. Yox, üçətən tövbə, qoymaram.*

Ülvi özünü saxlaya bilmirdi daha. Gözləri yaşarınca gü - lərdi, cicimi qucaqlardı, bağrına basardı, öpərdi.

*– Yox, ay cicim, qadan alaram sənin, zarafat edirəm. Sən kimi desən gəlinin o olacaq.*

Ülvinin o qədər işi, arzusu var idi.

– Heç bilmirəm çatdıra biləcəmmi düşündüklərimi? Ömür qısa, iş çox. Ömrümü uzatmaq istəmirəm, işlərimi də azaltmaq (özünə ən uzağı 29 yaş həddi qoymuşdu – A.Y). Özüm ölüm, dediyimdən paraca gün də o yana yaşamaram. Bəsimdi. Mən mənalı həyat və mənalı ölüm istəyirəm.

Əlbəttə, bütün bunlar xoş dünyalı vaxtımızda, bütün bunlar zarafatlı anlarımızda idi. Bütün bunlar 20 yanvaracan idi. 1990-cı ilin 19-dan 20-nə keçən gecəyəcən idi. Sonra... günəşdən qopub eşq dünyasıyla gələn çınqı gur işığa – alova dönüb qayıtdı öz yerinə, zərrə kimi yaşamaq istəmədi, qayıtdı Günəşinə qovuşmağa.

– Mən ölüm, həmin gün “Sənsiz”in səsini Allahın yanına çatınca zilə qaldırın. Özü də 7 dəfə. Siz “Ülvi, vay” deyib soraqlayanda mən Tanrı hüzurunda noğul-badam yeyəcəm. “Sənsiz”i eşitcək öldüyümü duyacam və enəcəm düz yanınıza. Görüm, kim neynir. Bax bu Ülvi ölsün ki, Almaz, əgər ürəksiz – filan ağlasan, fitə basacam sənin yalanını.

– Mən isə köç günümdə sazın səsiylə torpaq öyümə üz qoyardım. Oxay, elə dincələrdim, həm də sənin bu dəli-dəli sözlərinin əlindən canım qurtarardı.

Belə zarafat qarışıq “vəsiyyətlər” tez-tez edərdik. Zarafatla desək də, fikrimizin mənasında ciddilik, səmimiyyət də var idi. Nə isə.

... O gün, ayın 20-də axşam saat, deyəsən, 6-7 arası olardı. Ülvimi yoldaşları tapıb gətirdilər evə (bütün günü hamımız şəhəri alt-üst etmişdik, tapa bilməmişdik. Təkcə ora – “morq” deyilən yerə) baxmamışdıq, ürəyimiz gəlməmişdi. Axşama yaxın hamımız dizi qırılmış təki yollarda, tinlərdə qaldıq (mənim daha qulaqlarım eşitmirdi, gözlərim də qaraltını güclə seçirdi). Allah, eşitdiyimiz dəhşəti qəbul edə bilmirdik. Ayılanda ağlıma gəldi ki, bəlkə heç Ülvi deyil içəri gətirilən. Təkid edib üzünü açdırdım. Özüydü. Sol tərəf üzündə təzə “xal” gördüm. Ağ, yaraşıqlı sifətinə qan çilənmişdi. Dodaqları həmişəki tək

qıpqırmızı idi. Qucaqladım. Bağrıma basıb doyunca öpdüm. Kimsə ayırdı məni ondan. Əlim-üzüm, üst-başım Ülvinin qanına boyanmışdı. Elə o an ağlıma gələn fikirlə ərzaq yığdığımız dama yönəldim. Axtardığımı tapıb başıma çəkincə, içəridən Ülvinin açıq-aydınca qışqırığını eşitdim: "Almaz, eləmə, bəs mən neynərəm".

Eşitdiyim səsə diksindim, əlimdəki düşüb çilik-çilik oldu. Ayaq altına atılmış tül parça-paltarı yandırdı. Elə bildim Ülvim ayılıb. Tələsik evə qayıtdım təzədən. Gördüm ki, yox, Ülvimi anam qıpqırmızı bəy-gəlin gərdəyiylə boya-boy bəzəyib.

– "Bala, Yusifə nə cavab verəcəm, niyə özünü puç, məni peşiman etdin". Qardaşı Şövqi isə *"ay cici, milləti qoruyanlar, tarix yaradanlar ölümə beləcə hazır olurlar"* – deyə onu sakitləşdirirdi.

Sonra eşitdim deyirlər ki, dünən gecə güllələnənlər ölməyiblər. Şəhid olublar! Şəhid olublar!

Qardaşım Hüseynə Ülvinin "Sənsiz" arzusunu bildirdim. Razılaşdı. Bir anlıq içimdə "Sənsiz"ə qulaq asdım. Yox, yox, lazım deyil "Sənsiz". Deməli, Ülvi "elə olub" ki, "Sənsiz"i səsləndirməliyik. Ülvim Şəhid olub –Azadlıq uğrunda, Torpaq uğrunda.

Şəhid olmaq – ölmək deyil. Ülvinin səsiylə gecə eşitdiyim çağırış fikrimdən dağılmırdı.

Ayın 21-i axşama yaxın Yusif mənə bir şeir oxudu:

*O, bir ağır elli idi,*
*O, dəsmallı güllü idi,*
*Mənim balam dilli idi,*
*Niyə dilsiz oldu getdi?*

*O, bir təzə çiçək idi,*
*O, topqara birçək idi,*
*Mənim balam göyçək idi,*
*Niyə rəngi soldu getdi?*

*O, bir ərən igid oldu,*
*O, tarixə şahid oldu,*
*Ülvi balam şəhid oldu,*
*El yolunda öldü, getdi.*

Atasının yazdığı şeiri içəriyə keçib (22-sinə keçən gecə) Ülviyə də pıçıldadım. Sonrakı günlər dəfələrlə evə dolub-boşalan camaata Ülvinin şeirlərini, "And"ını, yazılarını oxudum.

Bir neçə gün sonra şair Nəriman Həsənzadə onları məndən alıb "Ədəbiyyat və incəsənət"də çap etdi. Bu, Ülvinin yenidən həyata qayıtmağına cığır açdı. Şair Hidayət isə "Ülvi duyğularım"la həmin cığırı yola çevirdi. İstəyirdim ki, hamı bilsin ki, Ülvi təkcə o gecə tankın, topun qabağına əliyalın Kişi kimi gedib deyə igid deyil. Ülvi gözünü dünyaya açandan millətinin azadlığı yolunda Şəhidliyə hazırlanıb. Əməliylə, qəlbiylə. Meydana kor-koranə yox, düşünüb gedib. Şəhid olmağa gedib.

20 Yanvara bir neçə gün qalmışdı. Ülvi axşam mənə bir "vəsiyyətnamə" şeir verdi ki, oxu. Oxudum və tikə-tikə cırıb atdım. Heç nə demədi. Gözləri doldu, başını yellədi, getdi yatmağa. Səhər dərsə gedən vaxt həmin "Vəsiyyətnamə"ni yenə verdi və dedi ki, saxla bunu. Hirslə dedim ki, "Yaxşı, biz heç, niyə özünə "kor çıraq" deyirsən, necə yəni yanmayacaq işığam? Elə demə, bibin sənə qurban olsun – deyə yalvardım. Öpdün məni. "Sən mənim tərtəmiz ürəyimsən" – dedin. Bəs o ürəyi niyə çiliklədin. Amma bunu da cırıb atdım. İndi özümə bağışlaya bilmirəm. Sonralar həmin "Vəsiyyətnamə"nin cəmi 6 misrasını tələbə yoldaşının cib dəftərçəsindən yazdım.

*Atama oğul deyiləm,*
*Anama oğul deyiləm.*
*Bu ocağın kor çırağı,*
*Yanmayacaq işığıyam.*
*Atam-anam zəmanədir,*

*Mən zəmanə uşağıyam.*

Eh, ruhuna, torpağına qurban olum, nə sənin sözün-söhbətin tükənəndi, nə də mənim Ülvi yanğım. Ağır da olsa toxtaqlıq tapıram ki, məqsədini, niyyətini, arzunu tamamlaya bilmisən. Eşqini, İlhamını,Torpaq,Vətən, Millət uğrunda mübarizəni tarixləşdirən şah əsərini yazmısan, şəhid adınla əbədiləşdirmisən. Bütün bunları – bu nəhəng dünyanı cəmi 20-cə illik ömrünə sığışdıra bilmisən! Çiçək şəhidim!

1001 gecə oturub 1001 yarpaq ülviləşən Ülvimdən yazaram, yenə də sinəm od içində çırpınar. Çırpınıb külə dönsəm də Ülvi ömrünün,torpaq,vətən, millət, milli azadlıq uğrunda şəhid olmuş Ülvi taleyinin şairanə mənasını gələcəyimizə tarix üçün yazacam. Bir də gəncliyənümunə üçün, sabahımız üçün. Allah imkan versə!

1001 gecə oturub 1001 yarpaq ülviləşən Ülvimdən yazacam. Ülvimin günəş taleyinin əbədi nur saçması xatirinə.

*2005-ci il*

## ÜLVİ ÜNVANLI MƏKTUBLAR

### ÜLVİNİN ŞEIRLƏRİ :

*Ancaq gözlə, gəlməliyəm*
*Bir ölümün acığına.*

Bir ölümün acığına! Həyatı duyduğu andan sən demə, ölüm Ülvinin ömür qismətiylə yanaşı addımlayıb: fürsət gözləyib, fürsət axtarıb: ürəyi gur işıqlı, milli heysiyyatı, əzəmətli torpağını, Vətənini anadan da əvvəl ana bilən Ülvini öz caynağına keçirmək üçün. Və bir qara yanvar gecəsi özünü yetirdi.

Ülvimin ikinci kitabının adı da öz misralarından olacaq: "Bir ölümün acığına!" Ora şeirlərini, hekayələrini, pyeslərini, yarımçıq nağıllarını, dodağında donmuş nəğmələrini, neçə-neçə yarımçıq qalmış bircə misralarını, ad qoyub özünü yazmadığı hekayələrinin planlarını, tərcümələrini, daha nələrini, nələrini, nələrini daxil edəcəyəm. Qismət olsa! O qovluqları aça bilmirəm, açanda bağlaya bilmirəm. İçindəkiləri oxuyanda bu dünyadan, gördüyüm, yaşadığım mühitdən təcrid oluram. Qovluğu örtəndə fikirləşirəm. İlahi, görəsən bütün günü gözümüzün qabağında olan Ülvi hansı aləmdə yaşayırmış, hansı duyğular, burulğanlar qoynunda dolanırmış?... Əcəl bizdən güclü oldu. Özünü o gecə apardı, fikri, duyğusu, qəlbi, adı bizimlə qaldı, tarixə yadigar üçün, tarixi yaşatmaq üçün, həyatı davam etdirmək üçün!

*"Azərbaycan müəllimi"*
*17 yanvar 1992-ci il*

## "XALQ ORDUSU" QƏZETİNİN YARADICILARINA

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təsis etdiyi "Xalq Ordusu" qəzetinin həyata vəsiqə alması, bu ağrılı-acılı günlərimizdə nəşrə başlaması ürəyimizcə oldu. İnanırıq ki, "Xalq Ordusu" öz məqsədi, məramıyla xalqımızın qəlbində işıqlı yer tutacaq, seviləcək, qorunacaq. Və bir də "Xalq Ordusu"nun "başı üstə" Ülvimin hələ 13 yaşında ikən yazmış olduğu,

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik!*

– misralarını görcək yerə-göyə sığmadım. Bu mənim kədər qarışıq sevincimi Ülvimin ruhu dolaşdığı müqəddəs zirvəyə qaldırdı. O zirvədə körpə Ülvimi könlümə sıxıb öpdüm. Qəlbiylə qəlbimizə qiblə olduğuna görə, əhdinə yetdiyinə görə: "Bu dünyanın dəhşətləri içində dolaşarkən torpağıma, xalqıma bircə anlıq da olsa gərək olduğumu hiss etsəm, duysam, bax, təkcə o anı ömrümün mənası bilərəm, sən buna inan". Ülvimin qətiyyətinə inandığımdan bu inamına da inandım.

*Məni belə aciz görmə qəbirdə,*
*Qəbirdə də Qarabağın özüyəm.*

O, bu misralarının səmimiyyətini özünə əyanlaşdırmaq üçün "AND" içdi. "And" içdi və torpağına düşmən ayağı dəyməsin deyə Şəhid oldu.

Ülvi əməlləriylə ülviləşən Ülvi ömrünü "Xalq Ordusu" dəyərli tutursa, qəlbini başı üstə bayraq edirsə, ömrü uzun, səhifələri işıqlı, xoş xəbərli, el qəlbinə həyanlı olsun! Qoy, ülvilər müqəddəsliyinin məsuliyyətini daim qorusun! Hamınıza şərəfli, namuslu uğurlar diləyirəm.

Allah Amanında!

*"Xalq ordusu"*
*17 mart 1992-ci il*

## “SƏKSƏN DÖNÜB YÜZ OLACAQ”:

On il bundan əvvəlin xoş bir anı bu günlər fikrimdən heç ötmür. Sevimli şairimiz Səməd Vurğunun anadan olmasının 80 illik yubileyilə əlaqədar hər yerdə ədəbi-bədii gecələr keçirilirdi. İşlədiyim M.F.Axundov adına dövlət kitabxanası da belə bir məclis keçirməyə ciddi hazırlaşırdı. Çıxış edənlər siyahısında mənim də adım var idi. Bir axşam çıxışımın mətnini yazmağa hazırlaşarkən Ülvi qəribə (kövrək) bir həyəcanla dedi ki, “çox istərdim Səməd Vurğunun bu əziz günlərində mən də bir söz deyim. Şairin 80 yaşına bir şeir yazmışam. Oxuyuram, xoşuma gəlmir. Şeir ürəyimcə alınmadığından uşaqlıqda şahidi olduğum bir hadisəni xatırlayıb balaca bir hekayə quraşdırdım. Nə isə, hələ ki, nə şeir, nə də hekayəm babat deyil”.

Gördüm ki, doğrudan da, Ülvi ürəkdən istəyir ki, şairə olan ehtiramını nə iləsə bildirsin. Yazdığı şeiri istədim. Çox minnətdən sonra üzə çıxardı. Şeir o qədər səmimi, o qədər duyğulu yazılmışdı ki, heç bir kəm-kəsir gözə dəymirdi. Və elə oradaca dedim ki, sabahkı tədbirimizdə bu şeirlə çıxış edərsən. Kitabxanamızın oxucusu kimi sənə bu imkanı yaratmaq olar. Nə qədər elədim, razı olmadı.

– Nə danışırsan, bu şeirin üstündə xeyli işlənməlidir, – dedi.

Hekayəsinə də baxmaq istədim.

– Daşkəsəndəki kağız-kuğuzlarımın içindədir, – dedi.

Beləcə söhbətimiz qurtardı. Mən isə sabahkı çıxışımın mətnini Ülvinin elə həmin şeirinin birinci bəndi üstündəcə köklədim.

Ülvini tədbirə dəvət etdim. Və mənim çıxışımda öz şeirini eşidəndə sevinci yerə-göyə sığmadı. Keçib yanında oturanda “Əla, çox sağ ol. Gərək bu şeirin bəzi yerlərinə əl gəzdirəm. Yaman sevindirdin məni”, – söylədi (amma bu şeirə o, daha qayıtmadı).

Ülvi ilə sonralar kitabxanamızın bəzi tədbirlərində əməkdaşlıqlar elədik. Bir neçə dəfə radio üçün verilişlər hazırlananda kütləvi tədbirlər şöbəsinin müdiri Natella xanım Musayeva deyərdi ki, Ülvini çağır gəlsin. Savadlı, şirin çıxışlar edir. Ülvi M.F.Axundov kitabxanasının daimi oxucusu və işçilərin çoxunun sevimlisi idi. 20 Yanvar hadisələrindən sonra ona dövlət kitabxanasının fəxri oxucusu adının verilməsi təsadüfi olmadı.

Həmin şeir və hekayəni mən onun arxivindən tapıb götürdüm (S.Vurğuna ehtiram olaraq yazılmış bir çox şeirləri var).

İmkan olarsa, əziz şairimiz S.Vurğunun 90 illik yubileyi ərəfəsində Ülvinin indi təqdim etdiyim həmin əsərlərini çap edəsiniz. On il bundan əvvəl Ülvinin ürəyini dilləndirən sətirləri. Ruhun şad olsun, Səməd Vurğun! Ruhun şad olsun, Ülvim mənim!

*"Panorama"*
*1996-ci il*

## “MƏNİM ÜLVİ DÜNYAM BİR AYRIDIR”:

– 20 Yanvar gecəsinin 20 yaşlı şəhid şairi kimi tanıdığınız Ülvi Bünyadzadə mənim qardaşım oğludur. Doğulduğu gündən həyatımın bir parçası bilmişəm. Onunla öyünmüşəm, qürurlanmışam. İndi də elədir, həm də ürəyimin, duyğularımın ən yuxa yeridir. Ülvisiz çox çətin yaşayıram. Bir anlıq dərk edəndə ki, o artıq cismən yoxdur, ağrıdan ölürəm, elə ağrıyıram ki, dünya gözümdə solur, heçə dönür. Ülvi kimi oğulun dərd yükünü çiynində şax saxlamaq... İllah da, tez-tez eşidirsən ki, elə bir oğulun adı-sanı, şərəfi, igidliyi, məğrurluğu bəxtəvərlikdir və sən də bu bəxtəvərlikdən öyünməlisən, sevinməlisən, xoşbəxt olmalısan... Açığı, hələ o dərd yükündən sıyrılıb belini dikəldə bilmirsən ki, o xoşbəxtliyi görəsən, bəxtəvərliyi dadasan. Nə isə, mənim Ülvi dünyam bir ayrıdır. Çox vaxt elə hiss edirəm ki, mən bədəncə Almaz, ruhən Ülviyəm. Mən belə yaşayıram. 20 yaşlı Ülvinin duyğular dünyasında saf, tər-təmiz, sapsağlam, sevgili gorunurəm, onda yaşamaq mənə asan olur.

Ülvinin şeirlər kitabı, “Ömrüm sənin eşqindi” toplusu onun üçüncü kitabıdır. “Ülvi duyğularım” (1990), “Bir ölümün acığına” (1993), nəhayət... Ülvi hələ çox çap olunacaq. Zaman ötdükcə, Ülvi dünyası dərk olunduqca, ona ehtiyac duyulacaq, aranacaq, axtarılacaq. İndi yaşdaşımızdır deyə, yenə deyirəm, zaman baxımından indiki siyasi-ictimai-ədəbi mühitin bir addımlığında olduğundan, o qədər, yəni, Ülvini bütünlüklə duyacaq, dərk edəcək səviyyədə tanımırıq. Ya özümüzü o yerə qoymuruq, ya da elə yuxarıda dediklərimdir. Amma mən əminəm, ki, Ülvi milli dünyamız, türk dünyamız yaşadıqca, yaşayacaq, heç qocalıb ölməyəcək, 20 yaşında Dədə Qorqud müdrikliyində illərə, zamana, tarixə dolacaq. Onun bir vərəqlik “And”ı böyük bir dastandır. Milli tariximizin qəhrəmanlıq səhifəsidir. Böyük bir məktəbdir, ibrətdir, tərbiyədir. O ki, qaldı şeirləri, hekayələri, poema və povesti, tərcümələri, pyesləri, məqalələri, ədəbi düşüncələri,

siyasi düşüncələri... Ülvi dərin bir dəryadır. Hər oğulun işi deyil, o dəryaya baş vursun. Neçə illərdir söhbət gedir ki, təhsil aldığı ali məktəbə – Xarici Dillər İnstitutunda Ülvi Bünyadzadənin adı verilsin. Hamı bu işə ikiəlli razıdır. Və hamı bu işə gücü çatdıqca mane olur. Mən isə deyirəm ki, ….

Çünki Ülvi diri bir ruhdur, milli ruhdur. Orada təhsil alan tələbələr dərk etsələr ki, oxuduqları təhsil ocağı kimin adınadır və o, kimdir, nəçidir, hansı mənəviyyat sahibidir, bu bəsdir. Beşillik təhsilə bərabər bir hadisədir. Nə isə, deyəsən, mətləbdən çox yayındım. Üzr istəyirəm, Ülvidən həyacansız, məhəbbətsiz, ağrısız danışa bilmirəm. Onda söz də, fikir də itir, qarışır bir-birinə. Amma kaş məni Ülvi barədə tez-tez dindirən olaydı...

*"Millət"*
*1997-ci il*

## "ULDUZ"A MƏKTUB

*Hörmətli "Ulduz", mumkunsə, Ülvinin təqdim etdiyim bu tərcumə əsərlərini cap etsəniz, sizə çox - çox minnətdar olaram.*

1990-cı il 20 yanvar gecesi şəhid olan yuzlərdən biri də Ulvi Bünyadzadə idi.Ulvi Azərbaycanın azadliq mubarizəsinə qoşulan gənclərdən idi və bu cəbhədə vətəndaşlıq borcunu layigiincə ödəməyə calışırdı.Ulvi ömrünün uşaqliq dövrünü tamamlayib gəncliyinin şehli caglarını yaşamağa başlamışdı.

Cəmi 20 il ömür payı oldu.

Bu 20 illik ömrunu səhifələyirəm: orta məktəb və Daşkəsən rayon "Qoşqar" ədəbi birliyinin üzvü, institut həyatı və ictimai işlərdə təşkilatcı,hərbi qulluq və Uzaq Sibirdə "Xətai" dərnəyinin yaradıcısı, milli azadliq hərəkatının təşkilatçısı və Şimali Azərbaycan Azad Tələbə Ittifaqının gurucularından biri,200 -ə qədər şeirin,bir poema və bir povestin, çoxlu hekayələrin,beş pyesin,xeyli sayda ingilis və rus ədəbi numunələrindən Orijinal tərcümələrin,müqəddəs vətəndaşlıq "AND"-ının müəllifi, çoxlu publisistik məqalə və ədəbi qeydlərin, bütün musiqi alətlərində çalmağı bacaran həvəskar musiqiçi, geniş dünyagorüşlü və dünya ədəbiyyatından zəngin mutaliəli, bir neçə xarici dil bilicisi, gözəl natiqlik qabiliyyəti olan bir gəncin yaşadığı tale payıdır - bütün bunlar.

Adamı vahimə basır. 20 ilə bu qədər iş görmək nə ağla,nə də təfəkkurə yerləşmir. Amma Allah öz eşqinin gücündən bir kəsin qəlbinə işıq salanda, sən demə hər şey olarmış.

*P.S. Ömrümə-günümə işıq Ulvi, sənsiz yaman darıxıram, özü də çox, lap çox darıxıram.*

*Bu günlərdə sənin əlyazmalar qovluqlarını yenı araşdırırdım. Əlinin hənirtisini, körpə ürək döyüntünü səhifələrində duyurdum. Nakamlığın ürəyimi şan-şan etdi.Nə isə. Tərcumələrin diqqətimdə dayandı (Yox, daha doğrusu butun əlyazmalarını sistemləşdirib, internet saytini acmaq niyyətində olduğumdan*

*qovluqlarını bir-bir yenidən nəzərdən kecirirdim) Elə bu ərəfədə tərcumələr govlugundaki Oskar Uayldin "Bülbül və qızilgül" əsərini oxudum.Coxdan idi ki,bu qədər maraqlı əsər əlimə kecməmişdi.Həmin hekayəni bilirdim ki,hörmətli yazici,jurnalist Elcin Şıxlı tərcümə edib və nəşr olunub.Amma sənin tərcümən məni bir ayri ovqata köklədi.Öz taleyinə oxşar obrazlarin həyatını yazmısan:Sən torpaği qanına boyadın,bulbul isə gülün ləcəklərini,Sən bulbul,Vətən isə qızlgül.Bir də sənin "Mənim ağ göyərçinim" hekayəni xatırladım.Sənin t ərcüm ələrin hamısı Orijinaldan edildiyindən,az qala öz əsərlərin kimi qəbul edirəm.*

*Ulvi, iki-üç tərcuməni "Ulduz"a təqdim etmək istədim. Allah sənə rəhmət eləsin Ülvim.*

*Ruhumuz görüşənədək.*

*Sənin Almaz bibin.*

*"Ulduz" jurnalı*
*2005. №3. səh.22-25*

## NƏNƏMİN NAĞILI-TARİXİN NAĞILI

Nənəmin 110 yaşı vardı. Hər gün özünə ölüm diləyirdi. İgid oğul anası bu qədər yaşamaz. Niyə allah mənə belə zülm edir? "Nənəmin bu fikri ilə razılaşa bilmirdim. Görəsən yaşamaq niyə zülm olarmış? Belə gözəl dövranda da, həm də işıqlı həyatda ölüm nənəmin nəyinə lazımmış? Onu bilirdim ki.... Nənəmin əfsanəyə oxşar doğruçu nağıllarından bilirdim ki, atası və 15 yaşlı igid, gözəl-göyçək bir oğlu, 1918-ci ildə erməni davasının qurbanı olmuşdular. Və o vaxtdan ta rəhmətə gedən günəcən (1975) nənəm ağı deyib ağlardı. Ağısı ağı olduğuna ağıydı, ağlamağı isə gözündən yaş gəlmədiyindən ağlamağa oxşamırdı. Amma belə izah edirdi ki, bala, daha gözümün yaşı quruyub. Onunçun belə ağlayıram. Nənəmin belə gülməli" ağlamağı, bayatı-ağıları ürəyimi didirdi, yandırıb-yaxırdı. Amma dərdini o qədər də dərindən, nənəm qədər yaşaya bilmirdim. "Erməni - müsəlman davasında ölən oğlumun adı MƏSİM idi. Sonra bu dərdi sinəmdə göynədə-göynədə düz 28 il gəzdirdim. Nəhayət, ilk oğul nəvəm dünyaya gəldi. Sevindim. Elə sandım oğlum yenidən doğuldu. Oğlumun adını nəvəmin adına yaraşdırdım. Oğul kimi açıb-bələdiyim körpəni nəvə kimi sevdim. Övladdan şirin gəldi mənə. Qorxdum. Birdən adını adına yaraşdırdığım nəvəmin taleyi də igid balamın taleyinə oxşar. Yox, yox, allah eləməsin. Bir gün oğluma tapşırdım ki, get, nəvəmin adına kitabda başqa ad yazdır. O gündən nəvəmin adı kağızda-kitabda YUSİF, evdə-eşikdə, dildə-ağızda MƏSİM çağrıldı. Qoy nəvəmin öz taleyi, öz adı olsun, adıyla böyüsün, igid oğul-uşaq yiyəsi olsun. Nənəm Yusifi beləcə də gördü. Yusif nəvəsini xoş gün-güzaranlı; iki oğulvə bir qız atası kimi görəndən sonra dünyasını dəyişdi. Ədəbiyyat dünyasına, nəhayət 57 ildən sonra oğlunun yanına köçdü. Amma deyilənə görə, yəni müdrik bilməcələr dəryası olan nənəm deyərdi ki, bala, ona yanıram ki, haqq dünyasında ana-bala görüşü qismət olmur. Elə

bil o dünyadan gəlmişik kimi nənəmizə ürək-dirək verərdik, yox, ay nənə, elə şey ola bilməz, yalandır; Siz hökmən görüşəcəksiniz.

Hə, orada qaldım ki, nənəm Yusif nəvəsini xoş günlü, xoş ovqatlı görüb dünyasını dəyişdi. Və bilmədi ki, aradan daha on beş il keçəcək, nəvəsinin Ülvi adlı balası da onun oğlu kimi eldə-obada sayılan igid oğullardan biri olacaq. Və tələsəcək haqq dünyasına. Yox, o tələsməyəcək. Düşmən tələsinə düşəcək, torpağına hücum edən yağı düşmənə sinəsini sipər edəcək. Nənə -min irəlilərdə söylədiyi əfsanə-həqiqət ağrıları bircə-bircə yadıma düşdü. Ağrıları olduğu kimi yenidən kağıza köçürmək istədim. Yadıma 1990-cı ilin 19 yanvar günü gündüzdən makina-dan çıxardığım bir yazı düşdü. Həmin yazını götürüb bu yazının davamı kimi oxumağa başladım. Görəsən niyə məhz 19 yanvar günü mən o yazını yazmışam. Başqa gün ola bilməzmişdimmi, yəqin o da ilahinin işidir.

Ötən xatirələri dindirmək həmişə mənim üçün maraqlı olmuşdur. Özümün bu marağımı isə ürəyimin hökmü bilmişəm və bu hökmə də tabe olmağa çalışmışam. Hər günün xatirəsini – elə günün tarixi, o tarixi də dövrün tarixindən bir damla sanmışam. ...Rəhmətlik nənəmlə /100-nə yaxın ömür sürdü./ "dostluğum" da deyəsən onun xatirə-nağılları ilə başlamışdı.

Bir dəfə bilmirəm söhbət ha istiqamətdən düşdüsə, – nənəm bir az uşaqlığından, cavanlığından danışdı. Acılı-şirinli xatirələrinin kələf ucundan tutub çözələyirdi. Onun söylədiyi dəhşətli müsibətlərdən biri isə uşaq qəlbimi lap parça-parça etdi, məni elə sıxdı ki, o başkəsənlər əlimə keçsəydi onlara nə divan tutacağımı... bir Allah bilirdi.

Həmin dəhşətli dövrün, dəhşətli bir xatirəsini belə danışırdı: "Elə bil dünyanın axır günlərini yaşayırdıq , sakitcə oturduğumuz adi dolanışığımızla baş qatdığımız günlərimizin birində "qonşularımız" davaya qalxdılar. Hər yeri yandırıb tökür, adamları öldürür, ətlərini sanki şişə çəkirdilər. Adamların başını kəsməkdən sanki həzz alırdılar. Hadisələrin ağırlığına dözmək

çətin idi. Hər yandan, hər şeydən, hər kəsdən imkansız bir gündəydik. Əlimizdə özümüzü müdafiə edəcək bir şey yox, kisəmizdə qızılımız yox, boxçamızda ehtiyat dənimiz-urvamız yox, arxamızda duranımız yox. Hadisələr isə getdikcə qızışırdı. Yeganə pənahgahımız ancaq dağlar idi. Hamı üz tutub dağlara çəkilmişdi. Atamı da o irəli öldürdülər. Kəndxuda baba idi. Ermənilər gözümüzün qabağındaca atamın başını kəsdilər. /Nənəmin o irəli dediyi vaxt – 1918-ci ilə təsadüf edirdi. Aradan düz 55 il keçmişdi, amma o illər, o günlər, o anlar nənəm üçün hələ də "o irəli" deyilən bir gün idi./

...Baban bir gecə məni, bibini (5 yaşı vardı), əmin Məsimi (12 yaşı vardı) və qucağımda körpə olan (cəmi 10 günlük) atanı götürüb Şiştəpə dağına tərəf yönəldik. Dan üzü ağaranda artıq xeyli yol getmişdik. Aclıq – yorğunluq bir yandan, körpələr bir yandan işimizi lap çətinləşdirmişdi. Günəş bir boy qalxınca yolumuza davam etdik. Daha dözmək olmurdu. Dizlərimiz taqəti kəsilmişdi. Qucağımdakı körpəm isə həm acından, həm yorğunluqdan, həm də bütün bu dəhşətləri duyubmuş kimi səsini kəsmirdi. Ağlayır, ağlayır, az qala bağrı yarılırdı. Bu vaxt baban birdən geri döndü. Qucağındakı qızı yerə qoydu və sərt, gözləri böyümüş taqətsiz bir halda mənə yaxınlaşdı. Qucağımdakı körpəni aldı, üzümə baxmadan yanımızdakı qayanın üstünə qoydu. Deyəsən uşağın üzünü açıb bir dəfə də baxdı. Uşaq isə artıq səsini xırp kəsmişdi. Sonra mənə sarı gəlib qolumdan tutdu, ağır-ağır, "neynək dedi, – gedək. Bu ikisi sağ qalsa bəsimizdir". Mən heç nə duymadan, düşünmədən, eşitmədən yoluma davam etdim. Hamı yüngül addımlarla sakitcə gedirdi. Yüz metrə qədər yol getdim, ürəyim sakit, qolumun üstü boş, amma... Baban isə elə bil yolu ləngiyirdi. Hərdən də onun gözaltı dönüb tez-tez arxaya baxdığını görürdümsə, nəsə fərqinə varmırdım. Lakin bir dəfə də onun arxaya baxdığını görəndə elə bil birdən ayıldım. Var gücümlə qışqırdım, hanı balam, hanı körpəm. Qollarımı göyə açıb ilahidən kömək istədim. İnan, bala, hər heyi

unutmuşdum. Qətiyyən ağlıma gəlmirdi ki, axı uşağı biz yolda atdıq. Onunçün bu qədər yolu yüngül gəlmişəm. Yorğunluğum da sanki alınıb, indi duymuşam dünyamı. Harayımı eşitcək hamı donub qaldı... Balaca qızım əllərimdən tutub yalvardı ki, "Qayıt, qaqaşımı götür. Axı, o, tək qaldı orada". Məsim də - ana, get götür o bədbəxti, öləndə qoy hamımız bir ölək". Baban isə onsuz da ayaq üstə ölmüşdü:

“Axı sən gələ bilmirsən. Bu boxçayla qızı mən qucağımda ancaq götürə bilirəm. Bəs onu... Onsuz da bir oğlumuz, yurdumuzda çıraq yandıranımız, düşmənə çəpər görünən oğlumuz var, – gəlin gedək. O lazım deyil, – gedəyin." Mən artıq heç nə eşitmirdim. Yalın o üzündə qalan qayanı sanki indi gördüm. Balam da üstündə məni çağırırdı. Yerimdən qopdum, geriyə, o gəldiyim yolları quştək uçdum. Balama yetdim. O, doğrudan da hələ də ağlamırdı (elə bil qılığına şeytan girib başını qatırdı). Göydə, üstündə 3-4 qarğa-quzğun da dolaşırdı. Əlimi atıb uşağı götürmək istəyəndə başımın üstündən onu götürdülər. Bir anlıq dəhşətli fikirlə yuxarı, heç nə görmədikdə isə çönüb arxaya baxdım. Körpə babanın qucağında idi. Biz yenidən yolumuza davam etdik. Gəlib uşaqlara çatdıq. Onlar fürsətdən istifadə edib, tanıdıqları-tanımadıqları pencər-otlardan yığıb yeyirdilər. Biz çatcaq hər ikisi gəlib uşağın üzünü açıb baxdılar. Ürəkləri toxtamış halda üzünə baxıb gülümsəmək istədilərsə heyləri yox idi. Baban isə: "Nə yaxşı körpəni götürdük. Yoxsa ömrüm boyu..."

Şamxorun Morul kəndində yerləşmişdik. Aradan 4 il keçdi. Vəziyyət yavaş-yavaş düzəlirdi. Yəni, öz ev-eşiyimizə qayıtmaq üçün şərait yaranmışdı. Sovet hökuməti deyilən hökumət bizi qoruyacağına təminat vermişdi. Ermənilər də bizdən ayrı dolana bilmədiklərini etiraf etmişdilər. Düşmən "barışıq" elan etsə də, əlinə keçən hər bir azərbaycanlını öldürür, qanını su kimi ciyərlərinə çəkirdilər. Amma... hələ də yollar da, izlərdə qalmış naəlac adamlar qorxa-qorxa, tək-tək öz yurdlarına qayıdırdılar. Qayınlarım da qayıtmışdılar. Biz isə iri külfətliydik deyə, hələ ki,

tərpənə bilmirdik. Bir gün qaynım bizə dəyməyə gəldi. Qayıdanbaş böyük oğlumuzu da özü ilə aparmaq istədi. Heç birimiz razı olmadıq. Uzun söz-söhbətdən sonra, "Ana, qoy gedim, ürəyimə damıb, elə bil torpaq çəkir məni, kəndimizi, tanış doğma evləri, məhəllələri ürəiym istəyir".

Qulaqlarım tutuldu. Bu nə deyir? Artıq 14 yaşlı igid bir oğuldu. Ürəyimdə köz bağlamış yaralarıma məlhəm sandığım oğlum nə sayıqlayırdı? – "Yox, ey, ana. Zarafat edirəm ki, ürəyin yumşalsın, qoy mən gedim. Ev-eşiyi sahmana salım, qayıdıb sizi də köçürərik. Getdi. Və bir neçə aydan sonra doğulduğu torpaqdaca özünün bu dünyadan qəflətən köçüylə bizi yurdumuza köçürtdü. Biz yığışıb gəldik köhnə, dağılmış evimizə. Yan-yörəsini düzəldib girdik içinə. Oğlumun əvəzi isə... ancaq bu sözləri eşitdim. Son nəfəsində dediyi sözləri... Ağlama ana, "torpaqdan yaranmışıqsa, torpağın da qucağında uyumalıyıq. Mən öz halal torpağımın ağuşuna köçürəm. "Erməni-müsəlman davasının qurbanı olan balam beləcə ölümün gözünə dircə baxa-baxa köçüb haqq dünyasına. Nənəsinin yanında əmanət qalan oğlumun bir də son nəfəsinə çatmışdım. (Ülvi də nənəsini beləcə peşiman qoydu. – A.B.)

Nənəmin bu nağılına az qala birnəfəsə qulaq asırdıq.

– Ay nənə, bəs atanın başını niyə kəsdilər?

– Ay nənə, yolda niyə yorulurdunuz?

– Ay nənə, ac idinizsə, niyə heç olmasa pendir-çörək yemirdiniz?

– Ay nənə, uşağı-atamı bəs niyə atmaq istədiniz?

– Ay nənə, nə yaxşı ki, qayıdıb atamı götürdünüz?

– Ay nənə, niyə payi-piyada yollanırdınız?

– Ay nənə, əmimi torpaq niyə çəkirdi, hara çəkirdi?

– Ay nənə, o ermənilər indi də dururmu?

Bütün suallarımı o, izah edirdi. Bir danışdığını yenə də danışdırırdıq. Axırıncı sualımıza isə duruxdu. Yox, ay bala, o ermənilər indi durmur. Onlar hamısı öldülər. Bu qonum-

qonşumuzdakı ermənilər yaxşı adamdırlar. Haya yetən, qonşuya əl tutandılar. Həm inandıq, həm də yox. Axı, heç vaxt bizə demirdilər ki, bunlarla biz tarixən özlərinə düşmən sanırlar, ehtiyatlı olun və s. Yox, əttövbə. Onunçün alayarımçıq inandıq. Amma, ürəyimiz isə top-tupdaydı. Eşidirdik bir cür, görürdük başqa cür.

Və nənəmdən 12 yaşımda eşitdiyim o xatirəli acı günlər indi bir də mənim üçün çözələndi.

Həmin yazı buradaca qırılır. Davamı ...davamı odur ki, 19 yanvar axşamı gəldim ÜLVİMİ evdə tapa bilmədim. Heç vaxt evdən icazəsiz heç yana getməyən ÜLVİMİ namərd dostu-namərd taleyi götürüb aparmışdı. O da o niyyətlə getmişdi ki, gecə şəhərə soxulan düşmən top-tankını sinəsiylə saxlasın. Saxlaya bildimi? Saxladı, bəli. Şəhidlər Xiyabanı sübutdur. Qalan günahları isə yəqin on-on bir aydır ki, şəhəri şəhid qanına boyamış top-tüfəngləri "ərköyün bala" kimi şəhərdə əzizləyən başbilənlərimizin boynundadır.

Qoy şəhidlərimizin müqəddəs ruhları bizi, diri şəhidləri bağışlasın, bu üzdəniraq "qonaqpərvərliyimizə" görə? Onlar kimi bizdə əliyalınıq deyə, heç nə edə bilmirik.

*"şəxsi arxivdən"*

## ALMAZ

*“...bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam”.*

*“And”. Ülvi Bünyadzadə".*

*“...20 yanvar gecəsindən sonra Ülvi adlı bir şəhid şairin... diri ruhu mənim qəlbimdədir”.*

*Almaz Ülvinin məktubundan*

*Ülvi bircə dəfə Almaz deyəydi,*
*doyunca içəydi bu səsi Almaz.*
*Bu daş abidənin günahı nəydi, –*
*daş heykəl Ülvidi, nəfəsi Almaz.*

*O gecə bir köynək qana boyandı,*
*köynəyin qırılan düyməsi, Almaz.*
*Vətənə and içib, vətən Qurandı,*
*Quranın ən ülvi ayəsi, Almaz.*

*Ülvi yatır deyə Almaz oyaqdı,*
*qəbristan yeridi, tək durma, Almaz.*
*Ülvini gəzirsən – Ülvi çıraqdı, –*
*çırağı çıraqla axtarma, Almaz.*

*Millət tabut əkir indi torpağa,*
*şəhidlər düzülüb iki sırada.*
*İki qatar –beşaçılan darağı,*
*millətin çiynindən düşüb,gör harda?!*

*Qulaq as, gör kimdi, mahnı oxuyur,*
*nəğməyə çevrilib hünər yolları.*
*İndi Ülviləri tək ana doğmur,*
*indi vətən doğur mərd oğulları.*

*Qatil,sən bundan qorx,sevinmə zalım!*
*canımız qurbandı gedən canlara.*
*Qəbristan üstündən qəbristan salıb*
*biz vətən deyirik qəbristanlara.*

*Almaz, qarasaçlım, qara geyinmə,*
*dəyiş əynindəki yas paltarını.*
*Qəm yükü ağırdı, şax dur, əyilmə,*
*gizlət düşmənindən yas paltarını.*

*Ülvinin "And"ını oxudum, Almaz,*
*gördüm ki, danışan bayaq, Ülvidi.*
*Bəlkə həyatımız yuxudu, Almaz.*
*bəlkə yataq bizik,oyaq Ülvidi?!*

# QARABAĞ DƏRDİ –
# MƏLHƏMİMİZ QARABAĞ TORPAĞIDIR

## FƏXRƏDDİN ƏFSANƏSİ

**1989-cu il 11 Dekabr – Ermənistanın** Spitak rayonunda baş vermiş dəhşətli zəlzələyə Azərbaycanın köməyi erməni xəyanəti ilə faciəylə nəticələndi. Təyyarədə olan 70 nəfərin 69-u yanıb külə döndü.Yalnız bir nəfər mözücə kimi sağ qaldı. Tarixi faciənin yeganə şahidi – Fəxrəddin Balayev idi.

*Oljas SÜLEYMANOV*

*Bu qaynar mövzular üzrə xüsusi seriyalarla məcmuələr nəşr etmək lazımdır. Bu məcmuələrdən... ağır günündə qonşularının köməyinə uçub zəlzələdən zərər çəkənlərə kömək göstərmək üçün Bakı təyyarəsində 50 nəfər azərbaycanlı (əslində bu rəqəm 67-dir)hərbi döyüşçü haqqındakı məlumatı daxil etmək lazımdır. Bu gənclər dostluğun bərpası üçün əllərindən gələni etmək istədilər və bacardıqlarını etdilər də – öz canlarını qoydular. Onlara abidə qoyulmadı, mətbuatda adları çəkilmədi,həlak olmalarını analarından başqa heç kəs bilmədi*

Bəzən ürəyində olan ən incə, kövrək məhəbbət dolu duyğuları dindirməkdə çətinlik çəkirsən. Yəni bilmirsən ki, ilk əvvəl hansı hissin təsirindən o duyğuları oyadasan. Fəxrəddin

Balayev haqda olan düşüncələrimi, qeydlərimi kağız üzərinə köçürəndə də beləcə duruxub qalıram. Onu bilirəm ki, Fəxrəddinin adı, şərəfi – elə bil azəri ocağı yoxdur ki, orada anılmasın, çəkilməsin, uca tutulmasın. İndi o, hər bir ailənin fəxri üzvüdür. Bu əfsanəni Fəxrəddinin öz hekayəti ilə, həyat yoldaşı Güldanə xanımın və Elçinin fikri ilə söyləmək istəyirəm.

*Hekayətdən:* – "Dekabrın 8-i axşam tərəfi işdən qayıtdım. Evdə atam mənə Abşeiron rayon hərbi komissarlığının çağırış vərəqəsini verdi. Vərəqədə belə bir əmr yazılmışdı: "18 saat ərzində rayon hərbi komissarlığında olmalısınız". Deyim ki, həmin günlərdə bütün xalqımız kimi mən də səksəkədə idim. Səbəb aydındır. Uydurulmuş "Dağlıq Qarabağ problemi" dönüb olmuşdur doğrudan da əsl problem... Səhəri gün saat 9-da rayon hərbi komissarlığına getdim. Elə oradaca hərbi paltar geyinib Biləcəri hərbi komissarlığına "yollandıq". 4-5 nəfər idik. Biz oraya çatanda artıq xeyli ehtiyatda olan hərbçi toplamışdılar. Bakı şəhər hərbi komendantı general Tyaqunov və respublika hərbi komissarı general Ə.Qasımov çıxış edib bildirdilər ki, qonşu respublika fəlakətə uğrayıb, kömək etməliyik. Elə oradaca bizi hərbi aerodroma göndərdilər. Lakin nə həmin gün, nə də səhəri biz uçmadıq.

*Sözarası:* – Çünki Leninakan onları qəbul etmirdi. Biz "canqardaş" deyib haraylarına getmək istəsək də yasa batmışların kin-küdurətini bir andaca qaralmış dünyalarını dəhşəti belə silib aparmamışdılar. Bu faciə əksinə onlar üçün göydəndüşmə "qazanc mənbəyi", murdar niyyətlərini bütün dünyaya yaymaq üçün "yaşıl işıq", əlverişli üsul yolu kimi əllərinə keçdi. Təmiz niyyətli bir xalqın köməyini isə insani duyğularını itiriblərsə, qəbul etmək səviyyəsində ola bilməzdilər.

*Hekayətdən:* – Dekabrın 11-i səhər saat 5-də uçuş əmrini aldıq. Sənədlərimizi bir daha yoxladılar. Sonra cibimizə qoyub təyyarəyə tərəf getdik. Biz üç nəfər – Nəzərxan, Nəsrəddin və mən – lap axırıncı mindik. Üçümüz də lap axırda, – yük yerinə

yığılan maşınların üstündə yan-yana oturduq və yola düşdük. Yolboyu təbii olaraq söhbət də etdik, zarafatlarımızdan da qalmadıq. Mənzil başında təyyarənin enməyini, lakin yenidən havaya qalxdığını da bildik. ...Və bir də onu hiss etdim ki, əlimin üstü yanır. Sən demə əlimin üstü qəzaya uğramış təyyarənin qırılıb düşmüş bir parçasına – közərmiş dəmir qırıntısına toxunur. Yanğının təsirindən ayıldım, əlimi yerə dayaq verib qalxmaq istədim. İndi də əlimin içi yapışdı o qızmar dəmir parçasına. Bu dəfəki yanğının təsirindən huşum tam üstümə gəldi. Durub Nəzərxan... Nəsrəddin... – deyə qışqıra-qışqıra yanan təyyarəyə tərəf qaçdım. Nə qədər qışqırdımsa hay verən olmadı.

*Ana ürəyinin nidası:* – Elə həmin an balamın harayını ürəyim eşitdi. Möcüzə saymayın, bu qəlbimin duyğusu ana həssaslığı idi. Fəxrəddinin səsinə ayıldım. Lakin onu Leninakana getdiyini xatırladım. Bütün günü bir qərar tuta bilmədim. Balamın qəzayla əlbəyaxa olduğunu duymuşdum.

*Sözarası:* – Mən ürəyimdə bunu ananmın narahat qəlbini hissə qapılması ilə əlaqələndirmək istədim. Lakin Fəxrəddini qətiyyətlə "bəli, anam məhz mənim qışqırdığım an səsimi eşidib, hay verib" – deməsi ilə fikrimdən daşındım.

*Güldanə xanımın əlavəsi*: – Dekabrın 11-də gecə saat 1-də telefon zəng etdi. Xəttin o başında iki nəfərin (hələ də o azərbaycanlıların kim olduğunu bilmirik) həyəcanlı pıçıltısını eşitdim. Fəxrəddinlə əlaqədar nəsə deməkdən çətinlik çəkdiklərini, böyük tərəddüdə qaldıqlarını duydum. Sonra oğlanlardan biri dedi ki, bəs Fəxrəddin sağ-salamatdır, ancaq ağır yaralanıb Yerevan xəstəxanasında yatır, hökmən arxasınca gedin. Uzaqdan eşidilən naməlum xəbərlə qaynanamın bütün gün ərzində keçirdiyi ağır həyəcanlar üst-üstə düşdü, huşum başımdan çıxdı. Üzüqoylu düşmüşəm yerə... O gecəni sübhəcən çimir eləmədik. Bayıra çıxıb harasa gedə də bilməzdik.

*Sözarası:* – Həmin günlər respublikamızın bir çox ərazisində qadağan saatı qoyulmuşdu. Bu da ona görə idi ki, indi köməyinə

tələsdiyimiz qonşu respublikanın elə o günlərdə qovulmuş iki yüz mindən artıq azərbaycanlı, "qəzəblənib" respublikamızda olan "qardaş" erməni xalqının "yazıq nümunələrinin" "xətrinə" dəyə bilərdilər. Onları birdən heç olmasa, "sözləsə" də təhqir edərdilər. "Qadağan saatı" bütün bunların qarşısını ala biləcək "ən gözəl müdafiə vasitəsi" idi. Əlləri dolu avtomatlı əsgərlər bu "zavallıların" gecə-gündüz keşiyində idilər.

*Güldanə xanımın əlavəsi*: – Di səhərəcən yerində partla. Səhər rayon hərbi komissarlığına qaçdıq. Gəlişimiz heç də onların ürəyincə olmadı. Bir gecənin içində dərddən bükülmüş qaynanamı komissar otaqdan qovdu. Bizə qəti şəkildə bildirdi ki, gedin evinizə, elə şey olsa əvvəl biz bilərik, sonra da lazım olsa sizə deyərik. Üz tutduq Tyaqunovun qəbuluna. Orada da dedilər "hörmətli general" Yerevana gedib düz altı gün ora-bura qaçdıq, bir xəbər tuta bilmədik ki, bilmədik.

*Hekayətdən:* – Partlayış olacağını duyub qaçmağa başladım. Yaxınlıqda bir kənd görünürdü. O an fikrimdən keçdi ki, hadisələrin belə od-alovlu günlərində onlar məni qəbul edərmi?... Özüm də bilmədən yolumu əks tərəfə çevirmişəm. Dəhşətli ağrılar içində qovrulsam da son gücümlə özümü yaxınlıqdakı iri qayaya çatdırdım ki, partlayışdan qopan qəlpələr mənə dəyməsin. Qayaya çatdım və bir anda yer-göy lərzəyə gəldi. Az sonra yanan təyyarəyə tərəf getdim. Heç kəs yox idi. 10 dəqiqə ötmüş maşınla iki erməni gəldi. Öz dillərində nəsə dedilər. Mənsə onların anlayacağı dildə dedim ki, mən bu təyyarədən olanlardanam. İnanmadılar. Sonra bir vertolyot gəldi, məni Yerevan hərbi xəstəxanasına apardılar.

*Güldanə xanımın əlavəsi*: – Evdə yas məclisi qurulmuşdu. Daha o müsibətləri dilə gətirmək mümkün deyil. Heç kəsdən hələ ki, bir xəbər tuta bilməmişdik. Televizorda hərbi təyyarənin qəzaya uğradığını eşitdik. Ancaq ağlımıza belə gəlmədi ki, Fəxrəddin və yoldaşları həmin təyyarədə olarmış... "Köməyə tələsdirən" yoldaşlardan bir haray çıxmadığını görüb üz tutduq

xalqın illərdən bəri inam gətirdiyi ağsaqqalların məsləhətinə. Müqəddəs Qurana pənah gətirdik.

*Sözarası:* – Quran xalqımızın əsrlər boyu inam məbədgahı olub. Ən dar günümüzdə ona əl aparmışıq, daha doğrusu Quranın müqəddəs kəlamlarıyla ümid yolu seçməyə çalışmışıq. Sınaqdan həmişə doğru çıxıb.

*Güldanə xanımın əlavəsi*: – Quran açdırdıq. Quranı açan qaynanama, – "oğlunuz dəhşətli müsibət içindədir, allaha şükür edin ki, salamat gələcək, evdən ağlaşmanı kəsin, qoy ağrıları ona daha çox əzab verməsin", – dedi. Biz necə inandıqsa evə qayıdıb yas əlamətlərini yığışdırdıq. İçin-için yansaq da, üzdə özümüzü təmkinli aparırdıq (sanki şeytan aldadırdıq). Səhəri isə (6 gündən sonra) doğrudan da komissarlıqdan xəbər verdilər ki, zərərçəkmişlərə köməyə gedərkən qəzaya uğrayan təyyarədə yeganə sağ qalan şəxs oğlunuz Fəxrəddin Balayevdir.

*Sözarası:* – Bütün bu danışıqları dinləmək asan iş deyildi. O an bütün faciəni təzədən yaşamalı olursan. Özünü onlarla birgə hadisə yerində görürsən. Boy-buxunlu, yaraşıqlı oğullarımıza bir-bir nəzər salıram. Üzlərindəki saf niyyəti, duyğunu gözlərindəki işıqlı baxışlardan görürəm. Səksən nəfər tələsir ki, bir daş altda qalanı çıxarsın, bir ağrı içində qovrulanın yarasını bağlasın, bir ağlar gözlü anaya təskinlik versin, bir beli sınmış atanın dizini dikəltsin. Gedirdilərsə, kömək ümidli gedirdilər, mən bunu xalqıma xas olan əlamət kimi qiymətləndirirəm.

*Hekayətdən:* – Doqquz gün Yerevan hərbi qospitalında yatdım. Moskvadakı Burdenko adına qospitalın baş cərrahı Ponomarenko məni müalicə edirdi. Təəccüblü gəlməsin, gündə dörd-beş dəfə palatamı dəyişirdi. Çünki hər gün xəstəxananın qabağında böyük bir nümayişçi qrupu toplaşaraq məni tələb edirdilər ki, "ürəklərindən tikan çıxarda biləcək" bir oyun açsınlar başıma. Həkim bir dəfə məni iki qoca qadın yatan palataya köçürdü. Nümayişçilərə isə bildirdi ki, xəstə artıq gedib. Doqquz gündən sonra Moskvaya, Burdenko adına qospitala göndərildim.

Yerevanda olarkən bir kimsə yanıma gələ bilmədi. Bir halda ki, mən boyda adamı ermənilərdən iynə kimi gizlədirdilərsə, orada kimsəsiz qalmağım aydındır. Moskvada isə necə deyim el-gün hamı yanımda oldu. Tanımadığım yüzlərlə azəri oğul, qız, ata, ana mənim sağalmağımda böyük qüvvə oldular. Onların bu əməyini ömrüm boyu unutmaram.

*Güldanə xanımın əlavəsi*: – Evinə Novruz bayramı ərəfəsində gəldi, Fəxrəddin. Özü boyda ümid gətirdi ailəsinə, özü boyda sevinc gətirdi körpələrinə.

*Sözarası:* – Şirin-şəkər, toppuş balalar – Aygün və Pərvanə bayaqdan bu söhbətlərdən tutulmuşdular. Ananın axırıncı sözü ilə üzləri işıqlandı, kefləri kökəldi və öz uşaq dünyalarına qayıtdılar. İftixarla atalarının üzünə baxdılar.

*Güldanə xanımın əlavəsi*: – Xəstəxanadan sonra Nəsrəddinin atasıgilə getmişdik. Ailədə heç kəs Nəsrəddinin ölümünə inanmır. Həyətdə ağaca iri bir qoç bağlamışdılar. Atası deyir ki, Nəsrəddin gələndə qurban kəsəcəm, ona saxlayıram bu qoçu. Balamı bağrıma basıb doyunca öpəcək, sonra diri-diri oğlumun adına olan qəbrə girəcəyəm.

*Sözarası:* – Fəxrəddin öz hekayətini danışdıqca başını yerdən qaldırmırdı. Son dərəcə abırlı-həyalı, boy-buxunlu, pəhləvan cüssəli Fəxrəddin duyğusuna hakim kəsilmiş dəhşətli andan qopa bilmirdi. Hekayət isə başa çatmırdı.

*Hekayətdən:* – Kaş o igidlərin adına burada – Bakıda bir abidə olaydı. Bir ayağımı ordan kəsməzdim. Ürəyimizə toxdaqlıq, şərəflərinə hörmət naminə bunu edə bilsəydik...

*"Ədəbiyyat və incəsənət"*
*16 yanvar 1990-cı il*

# GÖYNƏKLİ GÜNÜMÜZDƏN

O dəhşətli səs-sədanı hər gün ömrümdə yaşayıram. İstəsəm də, istəməsəm də məni özündən kənara buraxmayan o an daim ürəyimdə göynəyir. Və onu da bilirəm ki, o göynərti təkcə mənim yox, bütün xalqımın qəlbindədir. Xeyirxahlığa tələsən 79 igid – yarı yoldakən əbədiyyətə qovuşdu. İgid-igid nərlər cənnət quşu kimi dünyamızdan uçub getdilər. Xoş xatirələri ilə, kağız üzərindəki cansız əksləri ilə bu dünyada qaldılar, bir də ata-analarının, qardaş-bacılarının, ismətli gəlinlərinin, gizli sevgilərinin, dost-qohumlarının, qonum-qonşularının, cəmi azəri xalqının ürəyində, duyğusunda, hər anında yaşayacaqlar.

11 dekabr hadisəsindən sonrakı araşdırmadan məlum oldu ki, Abşeiron rayonundan da altı oğul öz dünyasını dəyişənlər içindəymiş. Əzizov Nəzərxan, Əlimov Əliməddin, Əliyev Nəsrəddin, Salayev Novruz, Dadaşov İntiqam, Yusifov Əyyub.

Həlak olanların dəfn mərasiminin dördü rayon ərazisində, – Goradildə, Güzdəkdə və Xırdalanda, – biri Tovuzda, biri isə Şamaxıda keçirilirdi. El-oba urvatıyla yola salınan bu qara məclisə hamı kömək əlini uzatdı. Həm maddi, həm də mənəvi cəhətdən. Rayon komsomol komitəsi də, necə deyərlər öz imkanında olan köməkliyini qətiyyən əsirgəmədi. Elə hüzr günü də, sonralar da, ildönümündə də. Əlaqədar təşkilatların birgə köməkliyi ilə məzarlara qəbirüstü daşlar qoyuldu. Rayon hərbi komissarlığının göstəriş məktubu ilə Tovuz rayonunda da bu iş öz yoluna qoyuldu. Şamaxı rayonunun Nobur kəndində dəfn olunmuş Nəzərxan Əzizovun məzarına isə əl də dəyməyib. Bu haqda iki dəfə rayon İcraiyyə Komitəsinə, Partiya Komitəsinə və Hərbi Komissarlığa məktub göndərilsə də nəticəsiz qalıb.

Həlak olanların ailəsinə orta əmək haqqı məbləğindən təqaüd kəsilib. Ümumi əmək haqqından qalan fərqi isə işlədikləri müəssisələr ödəyir. Elə bilirəm ki, bu iş haçansa ləngiyə bilər, unudula bilər. Ona görə də hərbi qulluqçu kimi həlak olan bu

şəxslərin cəmi əmək haqqı məbləğində təqaüd kəsilməsi məsələsi bir vəzifə kimi, borc kimi, qanun kimi respublika Hərbi Komissarlığını narahat etməlidir.

Rayon komsomol komitəsi yanında olan "Beynəlmiləlçi döyüşçülər şurası"nın maliyyə fondu açılıb. Bütün idarə və təşkilatların, müəssisələrin, komsomol iməcilikləri hesabına həmin fonda pul köçürüləcək. Məqsəd – 1990-cı ilin axırınacan rayon ərazisində şərəfli bir abidə ucaltmaqdır. Abidə Əfqanıstanda və qonşu respublikanın Leninakan şəhərinə köməyə gedərkən yolda həlak olan oğullarımızın xatirəsinə açılacaqdır.

Dünyanın qəribəliyi də çoxdur. Bu bədbəxtlik nədənsə ancaq yetimlərin, təkoğullu ailələrin, hərbi xidmətdə oğul itirən anaların, kasıb-kusub ailələrin alnına yazılıbmış. Qoy Respublika Hərbi Komissarlığı məndən inciməsin. "Zaman"nın bu təsadüfünü, "tale təsadüfü" kimi yozmazdım. Axı hamının anası anadır. Ağır da olsa bir hadisədən yan ötə bilmirəm. Güzdəkdə bir ana bu xəbərə inanmır, gətirilən tabuta yaxın durmur, məzara ağlamır. O ana oğlunu gözləyir. Onun adını həlak olanlar siyahısında görmək istəmir.

Ananın yollara baxaraq çəkdiyi fəryad, ah-haray, asimana yetib. Yeri-göyü dilə gətirib. Oğlanlarının (cəmi iki oğulun biri Əfqanıstandan qayıtmayıb, biri də Leninakandan) sağ-salamat gəlməsini gözləyir və o, buna inanır. Yurdundan-yuvasından qovulan oğul təzədən o yurda – onu çöllərə atanlara xeyirxah köməyə gedib. Bütün bunlar insan həyatına qəsd, laqeydlik, biganəlik deyilmi?

Balayevlər ailəsinin tək oğlu Fəxrəddinin salamatlığı o dəhşətli gündə bizə toxtaq oldu, ürəyimizə təskinlik oldu. Üzlərdəki kədərli qırışıqları açdı, ağlar dolu ürəklərə sü çilədi – təsadüfi ömür sağlığı bahasına, Qoy Allah onu hər qada-baladan hifz eləsin, necə ki, eləyib.

Həmin gün sanki gecə öz qaranlığını təmiz süpürüb apara bilməmişdi, səhər oyanmış günəş nurunun əl-ayağına dolaşaraq

dünyamıza bir toranlıq gətirmişdi, dünyanın həmin gündüzü toran bir gün kimi də yaddaşımda qalacaqdır. Məni gah qəhərləndirəcək, gah da xoş niyyətli igid oğullar yaşıdı kimi məğrur bir simaya çevirəcəkdir. O gecə toranlığının qalığı günəş nurunu tam boğa bilməmişdi. Həmin toranlıqda parlayan o nur Fəxrəddin Balayev imiş.

*"Ədəbiyyat və incəsənət"*
*16 fevral 1990-cı il*

Aman qardaş,
      doğrudurmu deyirlər,
Gecə-gündüz
      qan tökülür yurdumda.
Qarabağın tarixini danırlar,
Məscid uçur,
      dam sökülür yurdumda.
Qarabağdı mənim dinim –imanım,
O torpağın
       nişanəsi,
              iziyəm.
Məni belə
      aciz görmə qəbirdə,
Qəbirdə də
      Qarabağın özüyəm.

## UNUDULMAZ TARİXİ YARALARIMIZ

1813-1828-ci illərə qədər Azərbaycanın sahəsi ≈ **410.000kv. km.**
1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri:
İran əsarətindəki Cənubi Azərbaycanın sahəsi ≈ **280 min kv.km.**
Rusiya əsarətindəki Şimali Azərbaycanın sahəsi ≈**130 min kv.km**
1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığının sahəsi **- 9 min kv. km.**
Rusiya əsarəti altındakı Dərbənd xanlığının sahəsi **- 7 min kv.km**
1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi ≈ **114 min kv. km.**
Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı – cəmi sahəsi **- 27,4 min kv. km.**
1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – **86,6 min kv. km.**
Azərbaycanın 1988-1994-cü illərdə işğal edilmiş əraziləri cəmi: - **13,110 kv.km .**
Keçmiş Dağlıq Qarabağ (Şuşa,Xankəndi,Xocalı, Əsgəran, Xocavənd,Ağdərə, Hadrud) işğal tarixi – (1988-1994-cü illər) sahəsi **- 4400 kv. km.**

Şuşa - (08 may 1992-ci il)
Laçın - (18 ma1 1992-ci il) - 1835 kv. km.
Kəlbəcər - (3-4 aprel 1993-cü il) - 936 kv. km.
Ağdam - (23 iyul 1993-cü il) - 1094 kv. km.
Cəbrayıl - (23 avqust 1993-cü il)- 1050 kv. km.
Fizuli- (23 avqust 1993-cü il)- 1386 kv. km.
Qubadlı - (31 avqust 1993-cü il) - 802 kv. km.
Zəngilan - (30 oktyabr 1993-cü il)-707 kv. km.

Beləliklə, Azərbaycanın deyildiyi kimi **– 20% yox,** təxminən **– 80 % ərazisi** hərbi – siyasi **işğal** altındadır.

Sərhəd rayonları: VƏZİYYƏT MÜRƏKKƏB OLMAQDA DAVAM EDİR:Qazaxdan müxbirimiz Almaz BİNNƏTOVA və rayon partiya komitəsinin katibi İradə Çəndirli telefonla bildirmişlər ki, rayonun Bağanis-Ayrım,Barxudarlı,Sofulu,Bala Cəfərli və s. kəndlərində vəziyyət mürəkkəb olaraq davam edir – kəndlərə erməni quldurları tez-tez (xüsusilə gecələr) atəş açırlar: yerli əhali böyük narahatlıq keçirir,onların həyatı hər an təhlükə altındadır Həmimn kəndlərin silahlı qüvvələr tərəfindən təminatlı müdafiəsinə ehtiyac vardır. Rayon əhalisi qəti şəkildə tələb edir ki,Ermənistan tərəf ağlını başına yığana qədər onunla hər cür əlaqə,o cümlədən dəmir yolu əlaqəsi kəsilsin.Görəsən ,erməni terroruna kim nə vaxt son qoyacaqdır?

*"Ədəbiyyat və incəsənət"*
*6 aprel 1990-cı il*

# QAZAX: TORPAQ NAMUSUMDUR

Qazağa səhər saat 7-8 arasında çatdım. Redaksiyamızın tapşırığı ilə gəlmişdim. Rayon Partiya Komitəsinə getdim. Növbətçidən başqa heç kim yox idi. Rassiya xətti ilə 5-10 dəqiqədən bir xəbər tuturdu ki, vəziyyət yaxşıdır. (Sonra bildim ki, onsuz da boşalmış kəndlərdə insan ölümü yoxdursa, deməli vəziyyət "yaxşıdır". Atışma səsi adi şeydən başqa heç nə imiş). Bəli, hadisə yerinə, sərhəd kəndlərinə getməyimə kömək eləməklərini xahiş etdim. Bu arzuma rayon DİŞ-də işıq yolu açıldı. Belə ki, Bakı şəhər Xətai rayonu DTK bölmə rəisi Hacı-kərimov Şirin, sahə milisi Sadıqov İlyas, televiziya əməkdaşla-rından Alı Mustafayev və Rövşən Hüseynov, Azərinformun fotomüxbiri Yaşar Xəlilov və mən - birlikdə tanka minib ilk səfərə, Barxudarlı kəndinə yollandıq. Yarlı-yaraqlı tankın içində oturub bu evimizdən o biri evimizə gedirdik. (Dünyanın belə işləri də varmış). Bu cür "təmtəraqlı" gediş isə quldurların nahaq gülləsinə tuş gəlməmək üçün idi. Martın 31-i. Bu elə vaxt idi ki, ölkə prezidentinin seçilməsindən cəmi 16 gün keçirdi. Bəli, çatdıq Barxudarlıya. Kənd dörd tərəfdən ermənilərin ərazisi ilə həmsərhəddir. Onlar da fürsət varkən bir belə də torpaq buradan ələ keçirmək məqsədilə quldurluq mübarizəsindədirlər. Kənddə qadın-uşaq tayfası yox idi. Hamısı müvəqqəti olaraq köçürülüb. Bizi kənddə qalmış bir neçə kənd sakini, bir neçə əsgər, DTK əməkdaşlarından ibarət bir qrup qarşıladı. Daha doğrusu, bir ocaq başına yığışmış bu adamların yanında tankdan düşdük. Görüşüb, dövrələmə kötüklərin üstə oturduq. Vəziyyət göz qabağındaydı. Kəndin üst tərəfində yerləşmiş Sofulu kəndi də eyni kökdə, eyni güzərandadır. Şirin müəllim kənddə baş verən hadisələrdən danışmağa başladı.

İlk dəfə 19 avqust 1989-cu il tarixdə bu kənddə hadisə törənib. Və rayon milis şöbəsində qeydə alınıb. Tədbir isə... Sonra dalbadal faciəli hadisələr; mal-qoyun oğurluğu, ev-eşik

talançılığı, bir evdən üç nəfərin girov aparılması (ikisi ağır halda xəstəxanada yatır) iki nəfərin qətlə yetirilməsi, nəhayət, kənd əhlinin güllləbaran edilməsi və heyvani hərəkətlərlə onları kənddən qaçaq salmaları ürək ağrıdır. Şəhid Avtandil Quliyevin atası kədər içində üzülmüş halda deyir: balamı quldurlar günün-günortaçağı yolun kənarında güllələyiblər. Üç güllə vurublar. O, yaralı halda üç kilometr yolu qaçıb, özünə imdad edən axtarıb. 10 gün xəstəxanada yatdı, sonra... Aprelin 2-də qırxıdır. (Bakı şəhidlərinin qırxından düz bir ay sonra). Kəndin 49 yaşlı sakini Məhərrəmov Səhlədar da oğlumla bir yerdə güllələnib. Ay balam, niyə bu hökumət bir çarə tapmır. Bax, o, deyir təmkinli, səbrli olun, başınıza döysələr də nikbin dayanın. Biz də dediyini edirik, bəs o, nə fikirləşir. Bu hökumətin məqsədi nədir? Axı, mənim balam niyə ölməliydi, günahı nə idi? Təzə açılmış qönçəydi.

Hər yan çiskin, duman, qan ağlayırdı təbiət. Təbiətin bu cür halının bir özgə gözəlliyini bilirdim. Amma indi mənə elə gəldi ki, hər yan ağlayır, haray çəkir. Kənd sakini Süleyman Məhərrəmov deyir: 1988-ci il fevral ayından açıq-aşkar bu gündəyik. Xalq zülmdən cana gəlib. Kimə deyək, kimə üz tutaq? Belə də iş olar? Aparılan söhbətlər içində çıxış yolları axtarılırdı.

- Respublika Nazirlər Sovetinin təsdiqi və RPK büdcəsi hesabına xalq drucina dəstələri yaransın. Qoy onlar silahlansın və torpağının müdafiəsinə qalxsın (DTK-nın əməkdaşı).

– Dinc danışıqlar yolu ilə razılığa gəlib barışmalıyıq. (guya, biz vuruşmaq istəyirik, indi barışırıq və ya əks tərəf bizi eşidib qulaq asmaq istəmirsə, onda necə?- A.Ü.) (DTK-nin əməkdaşı).

– Bütün Azərbaycan xalqı səfərbərliyə alınsın. Torpaq namusunu qorumaq üçün (kənd əhalisi).

– Vəziyyət mürəkkəbdir. Ancaq bununla belə bu vəziyyəti ordu yox, xalq özü yox etməlidir (sıravi əsgər).

Orada əks tərəfin, yəni ermənilərin bir mövqeyini də öyrəndim. Deyildiyinə görə döyüşdə iştirak edən hər nəfər bir ayda 6-

8 yüz manat pul alır, bir azərbaycanlı öldürmək 10 min, bir ev yandırmaq 5-6 min, kəndə girib atəş açmaq isə 2-3 min manatdır. Atılan güllələr xaricdə istehsal olunub və s.

**Bağanes-Ayrım faciəsi.**

İki nəfər milis işçisilə birgə maşınımız daşnakların hücum məqsədilə gizləndikləri şaftalı bağlarının arası ilə keçərək sağ-salamat Bağanes-Ayrıma çatdıq. Kəndə girər-girməz (səhər saat 11 olardı) itlərin hürə-hürə bizə doğru qaçdığını gördüm. Bu hal düzü, məni heyrətləndirdi. Klubun yanında maşından düşdük. Dəhşətdən sarsıldım. Davalı kinolarda gördüyüm kimi hər yan darmadağın, ətraf güllə qəlpələri ilə doluydu. İtlər isə yan-yörəmizdə sakitcə dayanıb diqqətlə üzümüzə baxırdılar. Mən indi aydınca dərk etdim ki, kənd bomboşdur. Bizdən başqa bir ins-cins, allah bəndəsi yoxdur. Yan-yörəmizdəki bu itlər də diqqətlə üzümüzə baxıb yiyələrini axtarırdılar. Allah, belə də zülm olar? Yəni "kommunizmə doğru" irəliləyən bir nəsil də belə şeylər görərmiş. Elə bu vaxt qabaq-qənşər dağların təpəsindən erməni quldurları görsənməyə başladılar. Milis işçiləri birtəhər təhlükədən sovuşub təcili qayıtmağımızı məsləhət bildilər və qayıtdıq. Aşağı Əskipara kəndinə könülsüz qayıtdığıma bərk əsəbiləşmişdim. Yəni bura qədər gələsən və heç nəyə dəqiqliyi ilə baxmadan qayıdasan. Kəndə çatan kimi orada olan 15-20 kişi başımıza toplaşdı. Gözləri yorğunluqdan, zülmün acısından, sonu görünməyən narahatçılıqdan süzülmüş halda idilər. Hərə bir sual, hərə bir giley-güzar, hərə bir ürək ağrısını, dərd yükünü, müsibətin hədəsini, söyüşünü, min bir sual dolu baxışını tökdü üstümüzə. Nə deyəydim, hamısı haqlıydı. Yəni partiyaya, hökumətə inanırıqsa, hanı bu dəhşətin sonu, bu fitnəkarların cavabı, cəzası? "Yox, hökumət yoxdursa, bildirsinlər, biz də başımızın çarəsini özümüz qılaq". Bu sözləri adi kənd adamları, üst-başları tökülmüş sadə camaat deyirdi. Ailələri dərbədər dağılmış Bağanes-Ayrım, Aşağı Əskipara, Yuxarı Əskipara kəndinin imkansızları deyirdilər. Daşnak krossvordunun

hökumətinmi, ya özlərinin tərəfindən açılmasının cavabını istəyirdi bu biçarə xalq. Söhbətimizin "şirin" yerində rayon hərbi komissarı gəldi və təzədən Bağanes-Ayrım kəndinə yola düşdük. Tankın müşayiəti ilə üç maşında bir qrup adamla kəndə daxil olduq. Maşınımız yanmış bir evin yanında dayandı. Hamımız düşdük, sonra bir-bir yanan evlərin hamısına baxdıq. Komissar Aslanov yanıb kül olmaş iri bir talanın yanında hüznlü (onsuz da hamı kədər içində boğulurdu) təmkinlə dedi: gördüyün bu kül böyük ot tayasının yeridir və burada da Almәmməd adlı bir kişini diri-diri yandırıblar. Başqa yanmış evə isə qara bir itin "bələdçiliyi" ilə getdik. İkimərtəbəli ev yanıb külə dönmüşdü. Həyətdə alçaq bir dam da var idi. İt həmin damın qapısı ağzında dayandı və quyruğunu qısıb yazıq-yazıq bizə baxdı. Sən demə, dilsiz-ağızsız heyvan sahiblərinin müsibət yerini bizə göstərirmiş. Evin 5 nəfər üzvü bu damda yanıb külə dönüblər. Dünyanın gündüz qaranlığı da olarmış! Ürək lazımdır ki, bu zülmətin şahidi olsun. Olsun və dözsün. Dözsün, yoxsa, o qaranlığı məhv etməyə çalışsın?

Bağanes-Ayrımda 11 ev yanıb, külü göyə sovrulub. Qalan salamat evlər isə bomboşdur. Demə, quldurları dünyaya gətirən analar da quldurmuş. O kənddə dünyanın çox üzünü gördüm və duydum. Bəli, o gecə Bağanes-Ayrımda bir vur-çatlasın var imiş ki, gəl-görəsən. Hadisə belə başlayıb:

Martın 23-də Aşağı Əskiparada səhər saat 6-da bir nəfəri Məmmədov Məhərrəmi güllə ilə vurub ağır yaralayıblar. Və bu "igidliklərinin" əks-sədasını görmədikdə 24-nə keçən gecə saat 3-də hücuma keçiblər. Gülləni yağış kimi töküblər kəndə. Kənddə isə iki nəfər silahlı milis işçisi – Zirəddin Əhmədov və Məcid Əhmədov, 2 avtomatla iki səmtdə hücuma keçmiş Noyanberyan magistral yolu və "Kəkil" adlanan səmtlərdə böyük və güclü quldur dəstəsindən bir kəndin əhalisini müdafiə etməli olublar. Ağır və çətin döyüş meydanı. Rayon mərkəzindən heç bir köməkçi, filan olmayıb. Səhərə yaxın Məcidi arxadan

vurublar. 25 yaşlı daha bir qardaşımız şəhid oldu. Ancaq səhər saat 7-də bir neçə milis işçisi köməyə gəlib. Hər şey bir az səngiyənə yaxın. Saat 10-da atışma qurtarıb. Orada gördüklərimi nə danışıb, nə də yazıb qurtara bilərəm.Dünya boyda zülm dənizində adam boğulurdu. Bu nə dərəbəylikdir ? Ölkəmiz niyə başsız qalıb? O kənddən qayıdanda rayonda yerləşmiş sakinlərlə görüşmək istədim. 30 ailə Qazaxda təzəcə tikilmiş istifadəsiz binada, 30 ailə Ağstafada, 15 ailə qohumlarının evində, 15 ailə haralarda isə yerləşiblər. Söhbətlərdən bir neçəsi: Xasayeva İzafət: – 80-90 kiloqram ağırlığında olan yeznəmin əl-qolunu bağlayıb diri-diri atdılar həyətdə çartaçartla yanan ot tayasının üstünə, o yandıqca vəhşiləşmiş, quduzlaşmış ermənilər tonqalın ətrafında dövrə vurub oynayırdılar. O boyda kişidən yarım vedrə sümük ələ gəldi.

İmamquliyeva Xataya – Evimi əvvəlcə talayıb, mal-qoyunumu, qızımın-gəlinimiz cer-cehizini maşınlara yükləyən erməni qadınlarını (bunlara qadın demək olardımı), sonra benzinlə evin daş divarını "sulayıb" od vuran erməniləri tanıyıram. Onların bütün gördükləri işləri gizləndiyim yerdən, ot tayasının altından görürdüm və dünyanın bu zülmünü törədənlərə min lənət deyirdim. Bir işə bax, Alməmmədin oğlu Vidadi Sovet hökumətini əsgəri xidmətdə qoruyur, atasını isə evində diri-diri yandırırlar və heç kəsi narahat etmir, kefini də pozmur.

Məmliyeva Qaratel: – Atamı-anamı, bacılarımı (Alya və Hava xanım) və körpəsi Hafizi bir tonqalda yandırdılar. Tonqal deyəndə hamısını güllə ilə yarımcan edib üst-üstə yığdılar, benzin töküb od vurdular. Qaratel danışdıqca, Bağanes-Ayrım kəndindəki qara itin nişan verdiyi ev gözlərim önünə gəldi: mərhumların yandıqları yer, o yanıqdan qalan "iz" – bir tərəfə axıb kölməçələnmiş insan yağı). Kəndin çox hissəsini gəzdik: bizi diqqətlə süzən it sürüsü, tək-tək görünən toyuq-beçələr, zəncirdə ölmüş itlər, yanmış evlər və nəhayət, bəni-insanı

çəkilmiş zülmət kənd – ürəkaçan heç nə yox, ürək ağrıdan hər şey var idi. Təpələrdən bizi diqqətlə izləyən erməni quldurların sayı getdikcə çoxalırdı. Biz tankın müşayiəti ilə geriyə – Aşağı Əskipara kəndinə qayıtdıq. Hələ Barxudarlıda olarkən DTK əməkdaşı Fuad İbrahimovun dedikləri xəyalımda canlandı: "o gecə, 24-ü gecəsi Camalla birgə Bağanes-Ayrımda qalmalı olduq. 70-75 ailəlik bir kəndin yeganə sakinləri biz olduq. Axşam tərəfi bir hadisə məni lap sarsıtdı. Mal-qoyun örüşdən qayıtdı və hər evin heyvanı öz yiyəsinin qapısına getdi. Sahibsiz qalmış heyvanları səhər erməni quldurları yığışdırıb aparmışdı. Pələngə oxşar itləri zəngirdən açanda əllərimizi yalayırdılar. İnan, bacı, həmin gecə o kəndin müsibətinə biz də ağladıq, qoyunlar da, mal-qara da, it-pişik də". Qayıdanbaş nədənsə ancaq fikrimə bu gəldi. Komissar Aslanov kimilərinin qeyrəti, cəsarəti bu kəndə çıxış yolu aça biləcək yeganə vasitədir.

Çaylı gənclərinin aqibəti : Saniyev Xaqani (1962), Əmrahov Kamran (1959), Əmrahov Bəxtiyar (1961). Xaqaninin anası rəhmətə gedibmiş. Bakıdan xalası oğlanları Bəxtiyarla Kamran hüzrə gəliblər. Mərhumun üçü çıxıb, səhəri Bağanes-Ayrım faciəsi başlayıb. Haraya çatmaq istəyiblər. Yolda ermənilər onları atəşə tutublar və maşın qarışıq ("84-57 AQŞ" markalı Ciquli) itsiz-tozsuz yoxa çıxıblar.

O səmtdə 6 kənd birləşib bir sovxoz olub. Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrımlı, Məzəm, Quşçu Ayrım, Bağanes-Ayrım. Hamısı da hər tərəfdən ermənilərin əhatəsindədir. Ayrı-ayrılıqda bu kəndlərə nəzər salaq.

*Yuxarı Əskipara:* – kənd sakinləri ilə görüşdüm. Kənddə qalan kişilərin əlləri qoynunda, dəhşətli qorxu içində gözləri yolda qalıb. Özlərini müdafiə edəcək silahları yox, nə də onları müdafiə edib qoruyan qüvvə. Kəndin qayğıları: telefon xətləri qırılıb, əlaqə yox, radio xətti yox, qaz yox, meşədən odun qıra bilmirlər. Əmək haqqlarını ala bilmirlər, yol yox, körpü yox. Hər gün də ermənilər tərəfdən mal-qaraları, qoyun-quzuları

oğurlanır. Hamısı işsizdir və deyirlər ki, əlimizi əlimizin üstə qoyub gözləyirik, görək ermənilər nə vaxt gəlib bizi qıracaq.

*Aşağı Əskipara*: – Sovxoz idarəsi burada yerləşir. Xeyli hərbçi var. Kəndin xeyli hissəsi, o cümlədən qadınlar və uşaqlar köçüblər Qazağa. Sovxoz direktoru, kənd sovet sədri və başqa "nüfuzlu şəxslər" oturublar burada. Bir neçə milis işçisi və hərbçilər onları müdafiə edir. Qəribədir, o birisi kəndlərə heç ayaq da basmaq istəmirlər bunlar. Bağanes-Ayrımda yanğın olarkən kənd əhalisi nə qədər ağlayıb yalvarsalar da, hərbçilər köməyə getməyiblər.

*Quşçu Ayrım:* – Xalq narahatdır. Bayırda sazaq, adamların içindəsə təhlükə qorxusu! Yolumuz ermənilərin şaftalı bağlarının arasındandır, heç olmasa Güləmirdən Fərəhliyə gedən yolu düzəltsələr çıxış yolumuz olar. Üst tərəfdən üç erməni kəndi ilə əhatədəyik. Xoşkotan, Şavarşavan, Baqanes kəndləri. Hər gecə dağın başında çaqqal kimi ulaşırlar.

*Xeyrımlı:* – Hamı bayırda, sanki bizim gəlişimizi gözləyirdilər. Sevindilər. Ay bala, niyə bizi yiyəsiz qoymusunuz. Rafiq İsmayılov adlı kənd sakini dedi: – var-dövlət, ev-eşiyi ata bilərik. Amma ata-babalarımızın qəbristanlığını qoyub gedə bilmirik. Yol üstədir. Burdan həmişəlik köçüb getsək, onlar bizi qınayar. Axı, onlar qeyrətli olublar. Hərbçilər 75 yaşlı bir qoca erməni tutmuşdular. Cırıq-cındır üst geyiminin cibindən bir parça çörək, çörəyin altında isə iki qumbara tapıldı. Görən kimin evinə fürsətləyib atacaqmış. Balayan televiziya ilə çıxış edib deyib ki, Kamo, Azad kənd əhalisini ancaq bu kəndlərdə yerləşdirmək lazımdır. İçməli suyumuzu qadınlar gedib erməni üzümlüyünə yaxın yerdən gətirirlər. İki qadın suya gedibmiş, bunları birdəfəlik qorxudub geri qovmaq üçün çaya qumbara atmaq istəyirlər, fitilə od vurub gözləyir ki, qadın yaxınlaşsın, lakin qumbara əlində partlayıb, erməninin özünü öldürür.

*Məzəm*: – Xalq yolda, hasar, dükan dibində boynu bükük nəsə gözləyirdi.

Bir erməni kəndi haqqında: – Voskipara. Bu kənd Aşağı və Yuxarı Əskipara kəndlərinin arasında yerləşir. Daha doğrusu, qədim Əskipara kəndinin ortasında olan Alban kilsəsinin başına bir xaç qoyub ediblər erməni kilsəsi. O kilsənin də "hörmətinə" yan-yörəsindən xeyli torpaq sahəsi ayırıb vermişik ermənilərə. Onlar da bir kəndin özülünü qoyublar. Voskipara kəndi belə dünyaya gəlib. Kənddə üç tank var idi. Birinin lüləsi Aşağı Əskiparaya tuşlanıb, o birisi isə Yuxarı Əskiparaya tuşlanıb. Digəri isə kilsənin xaçını qoruyur.

Xalq cəbhəsinin üzvləri ilə də görüşdüm. Və aydınca gördüm ki, onlar hər şeydən əvvəl qeyrətli, vətən, namus təəssübü çəkən mərd oğullardır. Onlarla olan görüşlərimin birində yadımda qalan belə bir fikir hər an beynimdə fırlanır. Erməni quldurları dövlət səviyyəsində, müxtəlif institutlar səviyyəsində böyük siyasətlə bizə təcavüz edirlər. Biz isə heç olmasa xalq səviyyəsində müdafiə olunmaq istəyirik.

Rayonda 4 ən təhlükəli nöqtə olduğunu bildirdilər. Kəmərli –İncə dərəsi; Köhnə Qışlaq–Tatlı; Bağanis-Ayrım–Əskipara; Barxudarlı. Mən ancaq iki təhlükəli nöqtəni müşahidə edə bildim. Və onu da deyim ki, boş qalmış bu kəndlərin müdafiəsində igid oğlanlarımızın hamısının adını çəkmək mümkün deyil. Hamısına bir söz deyə bilərəm. Qoy elin çörəyi, anaların südü halalları olsun.

Azərbaycanın sərhəd rayonlarında vəziyyət gərgin olaraq qalır. *Tovuz rayonunun Əlibəyli və Ağdam* kəndlərində də oldum. Əlisilahlı erməni quldurları yenə də basqın edirlər. Dinc camaatı hər dəfə səksəkə içərisində saxlayan bu dəstələr cəzasız qalıb bir daha vəhşiləşirlər. Vahimə içərisində yaşayan adamlar geri çəkilməyə məcbur olurlar. Belə hallar erməni irticaçılarını bir daha ruhlandırır. Elə adamlar da var ki, ölümlə üz-üzə dursalar da, torpaq təəssübü onları geri çəkilməyə qoymur. Məsələn, İbrahimova Bağdad lap Ermənistana bitişik kənddə yaşayır. Onun qorxmazlıq şücaəti haqqında indi kənddə xüsusi söhbət gedir.

Yazımın axırında oxuculara Qazax rayonunun 1990-cı il şəhidlərinin siyahısını çatdırmaq istəyirəm: 1. Quliyev Aftandil – 17 yaş, Barxudarlı.2. Məhərrəmov Səhlədar – 49 yaş, Barxudarlı. 3. Əsliyev Dadaş – 75 yaş, Bağanes-Ayrım. 4. Əsliyeva Bakizər – 63 yaş, Bağanes-Ayrım. 5. Əsliyeva Alya – 22 yaş, Bağanes-Ayrım. 6. Əsgərova Havaxanım – 31 yaş, Bağanes-Ayrım. 7. Adıgözəlov Hafiz – iki aylıq körpə, Bağanes-Ayrım. 8. Əhmədov Məcid – 25 yaş, Pirili. 9. Məhərrəmov Alməmməd – 48 yaş, Bağanes-Ayrım. 10. İsgəndərov Mehdi – 35 yaş, Qazax. Allah sizə rəhmət eləsin, şəhidlər. Allah bizə də dözüm versin ki, bu dərd-bəlanı törədən quldurların əlini yaxamızdan qopara bilək. Sizin ruhunuzu şad etmək üçün. Torpaq namusumuzu qorumaq üçün.

*"Ədəbiyyat və incəsənət"*
*12 aprel 1990-cı il*

**P.S.** Yuxarı Əskiparaya zirehli maşının köməkliyi ilə gedirdik. Kəndə giriş bir maşın sığası yol enində idi. Dedilər ki, bu yol da iki-üç gündür ki, açılıb. Yəni ki, kəndə giriş yolunu ermənilər daş-torpaqla bağlayıblarmış. İndi də hər an quldurların qəflətən hücumu gözlənilə bilirdi. Üstəlik uçuq bir körpü üstündən keçdik. Şükür ki, hər iki "təhlükədən" sovuşaraq kəndə yetişdik.Kənd dörd tərəfdən Ermənistan torpaqlarının əhatəsindədir. Əslində bütün bu torpaqlar orta əsr yaşayış məntəqəsi sayılan Əksipara kəndinə məxsus idi. Qədim kənddə olan V, XV, XVI və s. əsrlərə məxsus memarlıq abidələri bütün bunlara ən əsaslı sübutdur. Əksipara – köhnənin bir parası. Təəssüf ki, növbəti "ürəyiaçıqlığımız" sayəsində bu qədim kəndin düz ortasından ermənilərə Voskipara kəndi bəxş etmişik. Bəli, tarixi abidələrə, yerlərə qayğı göstərməkdənsə, "hədiyyə" edirik.

# GORANBOY

Ötən beş ildə elə bil baharı ilk dəfəydi ki, görürdüm. Dünyamız qarışdığından nə baharından xəbərimiz olur, nə qışından, nə payızından, nə də yazından. Günümüzü, ayımızı itirmişik. İlk dəfə gəldiyim yerdə – Goranboyda təbiətə-bahara ürəyimi açmaq istədim. Onu da dərdli, kədərli gördüm.

Bağ-bostan işləri, əkin sahələri, üzüm bağları insan qayğısı istəyir. Ancaq düşmənin dolu kimi yağdırdığı güllələrin altında bu işləri görmək mümkün deyil. Yaz da gəldiyinə elə bil peşimandır, adamlar da peşimandır, qayğı istəyən torpaqdan xəcalətlidir. Goranboy rayonu dünya şöhrətli Naftalan şəhərinin bir addımlığında yerləşir. 85 mindən yuxarı əhalisi, 1790 kv km. ərazisi, 44 min hektar əkinə yararlı sahəsi var. Əhalisinin əsas məşğuliyyəti pambıqçılıq, üzümçülük, heyvandarlıqdır. Lakin indi Goranboy haqda ancaq cəbhə xəbərləri eşidirik: Goranboy rayonunun Şəfəq kəndi bütün gün ərzində aşətə tutulub; Zeyvə kəndi düşmən tərəfindən darmadağın edilib; Tapqaraqoyunlu kəndi Mardakertin Talış kəndindən top atəşi altındadır və s. hamısı kədərli xəbərlər, hamısı yaslı xəbərlər, hamısı acı xəbərlər. Bəs Goranboyun müdafiəsi bu gün necə təşkil olunub? Respublikanın mərkəzində gedən hərc-mərcliklər uzanıb Coranboyadamı çatıb? Düşmən qarşısında əliyalın qalan xalq, kənd camaatı hansı vəziyyətdədir? Ağır iqtisadi vəziyyət qarşısında qaldığımız vaxtda müharibə zonasında yaşayan əhali necə dolanır? Körpələrin, qadınların, qocaların təhlükəsizliyi təşkil olunubmu? Milli Ordu döyüşçülərinə komandanlıq nə vəziyyətdədir? Azərbaycan əsgəri vuruşa bilirmi? Çoxpartiyalılıq şəraitində çəkici bir yerə vurmaq mümkündürmü? Mümkündürsə, yollarını açıqlamaq sirr deyil ki? Yaralıların aqibəti necə olur? Şəhid ailələrinə, toxtaqlıq verməyə imkan olurmu?... Müharibəni qələbəylə sona vura biləcəyikmi?

Ürəyimizdə yara bağlayan bu və bir çox narahatçılıqlarla

Goranboydayam. Rayonun "N" sahəsindən milli hərbi batalyonun yerləşdiyi ağ bina gülllədən deşik-deşikdir. Həmin güllələri Gəncədəki sovet hərbi hissələrin birindən əmr alaraq basqına gəlmiş qırx soldat atmışdır. Məqsəd Goranboy Milli Ordu dəstəsini tərksilah edərək, düşmən qarşısında tamam əliyalın qoymaq imiş. Ancaq igid oğullar təslim olmurlar. Quldur soldatları geri oturdulur. 33 yaşlı fizika müəllimi hazırda hərbi batalyon komandiri Məhəmməd Həsənov rayon milli ordu hissələri haqda kifayət qədər məlumat verdi. Düşmənlə sərhəd kəndlərdə milli əsgərlərimizdən ibarət müdafiə postları təşkil etmişik. Texnika, silah cəhətdən də, müəyyən qədər imkan əldə olunub. Qeyrətli oğullarımız var. Hərbi nizam-intizam yaratmışıq, hamı bir nəfər kimi bu qaydalara tabedir. Müharibə şəraitinə uyğun olaraq siyasi rəhbərimiz rayon xalq cəbhəsinin sədri, xalq deputatı Maşallah Abdullayevdir. Döyüşlərdə sayılan-seçilən oğullarımız da əskik deyil. Bax, elə bu yanımızda oturan rayon mərkəzi xəstəxanasının təcili yardım sürücüsü Arif Salahov əsl xalq qəhrəmanı kimi iş yarıdır, yaralıları daşıyır, lazımi şərait üçün məlumatları bizə yetirə bilir. Onlarla nümunə çəkə bilərəm. Batalyonda hamı bir-birini tanıyır, bilir ki, kim-kimdir? Və hər kəs vaxtında öz qiymətini alacaq. Yazın gəlişiylə bağlı təsərrüfatlarda əkin-səpin işinə müəyyən köməkliklər göstəririk.

Rayon icra hakimiyyətinin başçısı İrşad Əliyev də, Rayon Daxili İşlər Şöbəsinin rəisi Cavanşir Babayev də rayon Xalq Cəbhəsinin sədri Maşallah Abdullayev də (hər üçü Azərbaycan Ali Sovetinin deputatıdır) bütün qüvvələri bir istiqamətə – rayonun müdafiəsinə yönəldiblər. Sözdə, əməldə hamısı birdir. Xeyirxah məqsədli maddi yardımlar da çoxdur. Ən əsas işimiz Goranboyu tezliklə düşmən gülləbaranından qurtarmaq, düşmənləri geri oturtmaqdır.

Batalyon komandirinin ürəklə dediyi bu sözlər müharibə odu-alovu içində ürəyimdə bir közərti oldu: Rayonda bütün hamı umu-küsünü kənara qoyub var qüvvəylə düşmənə qarşıdır. Allah

köməyiniz olsun! Qərargah rəisi Vaqif Quliyev Goranboy ərazi özünümüdafiə batalyonuna müəssisə və təşkilatlar tərəfindən edilən yardımın uçot dəftərini vərəqləyir.

– Gəncə şəhəri Cəfər Cabbarlı adına 6 saylı orta məktəbin müəllim və şagirdləri on altı min manatlıq siqaret, kibrit, şpris, corab, konfet, əlcək, kartof və s. şeylər və 20 min manat nəqd pulu göndəriblər.

Bakı şəhəri Xətai rayonunun 63 saylı orta məktəb kollektivi, Gəncə, Kürdəmir. Bakı şəhərinin müxtəlif idarə və müəssisə kollektivləri yardım ediblər. Məmmədov Fəxrəddin, Əkbərov Ağa və bir çoxları bu təşəbbüsə qoşulublar. (Vaqif bəy bildirir ki, bu yardımları qəbul etməyimiz haqda gətirən şəxsə xüsusi qəbz yazıb veririk.)

Rayon icra hakimiyyətinin məsul işçisi İsfəndiyar Həsənov xeyirxah bir iş haqda da razılıqla məlumat verdi: "Bakıda və Gəncədə "Goranboy" cəmiyyəti yaradılmışdır. Cəmiyyətin prezidenti tarix elmləri doktoru, M.F.Axundov adına rus dili və ədəbiyyatı İnstitutunun professoru Vahid Çıraqzadədir. Cəmiyyətin məqsədi rayonun müdafiə qüdrətini artırmaq, Goranboydakı xərclərin bir qisminin ödənilməsinə, həlak olanların ailələrinə maddi yardım göstərilməsinə, başsız ailələrə, tənha şəxslərə kömək göstərməkdir. Cəmiyyətin 500-dən çox üzvü var. Goranboy Səhmdar Aqrar Sənaye bankında artıq xeyli məbləğ toplanmışdır."

**Zeyvə kəndi.** Kəndə girər-girməz Manas kəndindən güllə səsləri eşidilməyə başladı. Bütün gün Zeyvə beləcə atəşə tutulur: Kəndin içindlə dolaşarkən dəhşətli mənzərələrdən sarsılmamaq mümkün deyildi. Kasıb kəndlinin dişiylə-dırnağıyla topladığı, tikib qurduğu evi darmadağındır. Kənddə təxminən 60-70 evi, ictimai binaları ermənilər mərmilərlə yerlə-yeksan ediblər. Zeyvədə Milli Ordu döyüşçüləri müdafiə mövqelərində dayansalar da tək-tək adamlar gözə dəyirdi. Həyətyanı sahələr bellənməyib, üzümlüklərdə işin qızğın çağı olsa da ancaq bir neçə yerdə

işləyirlər. Sovxozun aqranomu Qabil Məhərrəmov və Allahverdiyeva Xalidə xalanın ailəsi öhdəliklərindəki üzüm sahəsində budama və bağlama işləriylə məşğul idi. Güləş üzlü Xalidə xala dedi ki, bala, neynək çörəyimiz bu torpaqdadır, dolanışığımız bu torpaqdadır. Dünən nömrəsiz bir vertolyot kəndin üstündən fırlanıb düz bizim üstümüzə şığıdı. Ailəvi iş başındaydıq, hamımız yerə oturduq. Böyük oğlum Sadəddin körpəsini bağrına basıb ağzıüstə torpağa uzandı ki, güllə qoy körpəsinə yox, ona dəysin. Bir az müddət də olar ki, özünün ayağından top gülləsi dəymişdi. Allah üzümüzə baxdı – nəydi, tez də istiqamətini dəyişib müdafiə postlarına tərəf yönəldi. Oranı gülləbarana tutub aradan çıxdı. Aqronom Qabil dedi ki, indiyəcən sovxozun 120 hektar üzüm bağından 20 hektarında iş görülüb, kütləvi iş aparmaq mümkün deyil. Görək işi başa çatdıra biləcəyikmi?

**Tapqaraqoyunlu kəndi.** Rota komandirinin müavini Yusif bəy bildirdi ki, qəti iş görmək anı yetişib. Ancaq əlimizdə lazımı silahlarımız yoxdur. Uşaqlara milli hərbi geyim çatışmır. Bu kəndin iki min əhalisi var. Kənd hər gün Mardakertin Talış kəndindən, öz ərazimizdə olan Manasdan, Qaraçinardan atəşə tutulur. Atəşlərin, hücumların ardı-arası kəsmir, əksinə artır, evlər dağıdılır, şəhidlər verilir. Sovxoz direktoru Alim Qarayevin həyətindəki tut ağacının başına düşən top mərmisi ailənin üç uşağının üçünün də – (7-ci, 8-ci, 9-cu siniflərdə oxuyurlarmış) Habilin, Ramilin və Lalənin dünyasını dəyişib. Ailənin ocağı sönüb, Körpə şəhid balaların qəbrlərini ziyarət etdik. Üç körpə fidan torpağa vaxtsız üz qoyub – əbədilik. Başqa bir həyətdə isə üç qonşu uşaq oynadığı vaxt atılan top mərmisi onları ağır yaralayıb. Uşaqların biri Gəncədə müalicə olunur, ikisi isə rayon mərkəzi xəstəxanasında.

Yaralılara baş çəkərkən rayon mərkəzi xəstəxanasının baş həkimi Vəliyev Müzəffərlə görüşdük. Bildirdi ki, yanvarın 1-də 31 ağır yaralımız olub. Onlardan altı nəfəri rəhmətə gedib.

Qalanı isə sağalıb evlərinə gedib. İndi cəmi üç xəstəmiz var. İki körpə uşaq (məhsəti türklərindən olan doqquz yaşlı Aslan Bayramov və 7 yaşlı Nurəddin Bayramov əmioğludurlar) Tapqaraqoyunlu kəndində mərmi yarası alıblar. Vəziyyətləri babatdır. Bir nəfər yaralı isə – 22 yaşlı Kərimov Namiqin isə (Balakürddəndir) boynuna Şəfəq kəndində hücumun qarşısı alınan döyüşdə qəlpə dəyib. Şükür ki, ağır cərrahiyyə əməliyyatı uğurlu oldu. İndi vəziyyəti yaxşıdır. Həkimlərimizdən İlqar Musayev, Faiq Abdullayev və deyim ki, bütün həkimlərimiz var qüvvələriylə işləyirlər. Feldşeir Məmməd Məmmədov ağır bir yaralını Bakıya yola salarkən elə aeroportdaca çoxlu qan itirən xəstəyə öz qanından 200 qram verib sonra aparıb. Bakıda rahatlayıb geri qayıdıb. Təcili yardım sürücüsü Arif Salahova igidliyinə görə Respublika Səhiyyə Nazirliyi iki min manat mükafat verib. Tibb avadanlıqları cəhətdən korluğumuz yoxdur. Yerlərdə tibb məntəqələri təşkil edirik.

Goranboyun gözləri yollara, yollardan obalara, obalardan haradasa bir ocaq başına dikilən qaçqınları var. Ermənistandan yurdu talan olub qovulmuş azəriləri, Özbəkistandan təzəcə çatılmış ocaqları düşmən hiyləsiylə dağıdılmış türkləri burada yerli əhali yüksək insani hisslərlə qəbul etmiş torpağında onlara şərait yaratmışlar. Goranboy 1443 didərginə beləcə əl uzatmış, ocaq çatdırmış, süfrə açdırmışdır. Azğın quldurlar Goranboyun dinc əhalisini də öz torpağından didərgin salmışdır.

Neçə goranboylu öz torpaqlarının müdafiəsində şəhid olubdur. İlk şəhid ünvanları 1990-cı ilin yanvarında Mənəşid və Todan vuruşlarında müqəddəsləşdi. O ruhlar bu yurdu göynətdi. Sonra Camal, Knyaz, Bəhlul, Azər, Nəcəf, Məhərrəm, Namiq, Əcdər, Məhyəddin, Nofəl, Yaşar, Dilqəm, İman, İlqar, Xıdı, Akif və düz 55-cən şəhid adı qəlblərdə əbədiləşdi. Şəhidlər bu yurdun basılmaz səngəridir. O səngəri düşmən tapdağından qoruyan oğullarımıza milli döyüşçülərimizə zəfərlər diləyib ayrılıram.

Cəbhəçilərlə, rayon icra aparatının məsul işçiləriylə, kənd

lilərlə, tibb işçiləriylə olan görüşlərdə yorulmazlıq da gördüm, gözlərində ümid işartıları da gördüm. Etiraf edim ki, həmin kiçicik işartı mənə ürəyimə böyük təskinlik doldurdu, qələbəmizə inam yeri açdı. Bakıdan apardığım yorğuqlarımı, korşalmış əsəblərimi nizamladı. Doğrudur, çox-çox ağır itkilərimiz, dağıntılarımız sayagəlməz oldu, amma yorulmadıq, hər faciədən sonra xalq sanki bir boy da qalxdı: qəzəb, nifrət dalğası boyunca.

Səfərimin son günündə rayonun nüfuzlu, səlahiyyətli şəxsləriylə – deputatlarıyla görüşdüm. Onlardan üç nəfəri ilə söhbət etdim. Söhbətləri olduğu kimi qələmə almırdım. Yadımda qalanları nizamlayıb oxuculara yetirmək ehtiyacını duydum. Həmin tanışlıq-müsahibələrdən müəyyən hissələrin qeydi belədir: Rayon Daxili İşlər Şöbəsinin rəisi, milis polkovniki Cavanşir Babayevin ötən illərki cəsarətli fəaliyyəti və iştirakı ilə Daşkəsəndən, Xanlardan erməni kəndləri boşaldıldı ki, Ermənistandan qovulmuş azərbaycanlılar – didərginlər yerləşdirilsin. Əvəzində isə onu birdən-birə milis sistemindən çıxartdılar. O, bir il işsiz qaldıqdan sonra yenidən işinə bərpa edildi və 1991-ci il 3 iyun tarixindən Goranboya DİŞ-nə rəis təyin olundu. Özünün dediyinə görə səhər saat 9-dan axşam saat 11-ə kimi iş üstündə olur.

– Maşallah bəy, rayonun siyasi-ictimai durumu Xalq Cəbhəsinin sədri kimi sizi qane edirmi?

– Ermənistan-Azərbaycan müharibəsində (mən müharibə deyirəm buna, çünki bu qədər qaçqın, bu qədər itki ancaq müharibə şəraitində ola bilər.) Goranboyun üstünə böyük yük düşüb. Ermənilərin məskunlaşdığı Şaumyandan başlayaraq dinc əhaliyə güclü ziyanlar vurulub. Başqışlaq, Ballıqaya kəndləri yerlə-yeksan olub. Bu kəndlər iki ildir ki, yoxdur, yandırılıb tamam məhv edilib. Həmin kəndlərin əhalisi qaçqındır. Bu gün Zeyvədə cəmi bir neçə ailə işləyə bilir. Ağrı-acılı günlər keçirsələr də, Goranboy camaatı gözləyir və inanır ki, çətin günün sonu yaxınlaşır. Bizim bildiyimizə görə Ortakənddə (keçmiş Şaumyanda) əhali xeyli azalıb. Qaraçinar, Manas, Qaxtut tamam

boşalıb. Əlimizdən nə gəlirsə, qələbəmiz üçün edəcəyik. İnşallah həmin gün o qədər də uzaqda deyil. Yaraqlılar da möhkəm dayanıblar. Onların əsas döyüşçü dəstələri – Sumqayıtdan, Gəncədən, Bakıdan köçüb gedən ermənilərdən toplanmış qisasçılardan ibarətdir.

– Goranboy hərbçiləri müharibə meydanında hansı əhval-ruhiyyədədirlər?

– Batalyonda nizam-intizam yaxşıdır. Bəzi rayonlarda olmuşam. Oralarda təəssüf ki, müxtəlif dəstələrdə vuruşurlar. Vahid komandanlıq qələbə üçün hər şeydir. Özümüzü müdafiə etmək üçün kifayət qədər qüvvə toplamışıq. İlk günlərdən rayonda vəziyyətin ciddi olduğunu görüb xalq cəbhəsi üzvləri bütün işlərini kənara qoyub hərbi cəbhəyə toplaşdılar. Rayon müdafiə şurasının üzvü seçildim. Ötən günlərdən birində Todan kəndinə ermənilər hücum edərkən Sumqayıtdan gəlmiş döyüşçülər qayıdıb gedirlər. Öz döyüşçülərimiz xüsusən Tağıyev Rahib və Məhəmməd bəy mərdliklə döyüşə girirlər. Orada bir nəfər, Balakürddən olan döyüşçümüz yaralanır, düşmən isə böyük itkiylə geri oturdulur. 200 təsərrüfatlı kəndi Məhəmməd və Rahib azad edirlər.

Rayona müharibə şəraiti ilə əlaqədar xeyli yardımlar daxil olur, ancaq müxtəlif xətlərdə toplanır. İstərdim ki, həmin yardımlar döyüşən ordumuz, zərərçəkən camaatımıza ədalətlə, insafla çatdırılsın.

– Maşallah bəy, sizinlə söhbətlərimizdən qeydlər götürə bilmirəm. Hər şeyi, daha doğrusu Goranboyun ağır günləri haqda olan faktları günləri dəhşətləri haqsızlıqları eşitmək, görmək mənim üçün çox çətindir, illah ki, bir-bir qələmə alasan. Hər halda ürəyimin ağrılarından, qəlb narahatçılıqlarımdan xilas olmaq üçün cəbhə zonasına baş çəkməyim mənəvi tələbatımdır. Daha nə demək istərdiniz?

– Hər şeydən əvvəl, mart ayının 5-6-da Ali Sovetin qabağına yığılan xalq qarşısında baş əyirəm. Bir də bilirsinizmi uşaqlıqdan çox, lap çox haqsızlıqlar görmüşəm. Adi bir fakt danışım:

Məktəbdə oxuyarkən sentyabrın ilk günündə təsadüfən mən lap qabaqda oturdum. Qış gələndə mən oturan partanın yanına peç qoyuldu. Elə səhəri günü məni yerimdən qaldırıb lap arxaya voenkomun oğlunun yerində oturtdular, voenkomun oğlunu isə mənim yerimdə. Nə isə qışı bir təhər başa vurduq. Havalar isinməyə başladı, gün öz yandırıcı şüaları ilə sinfə doldu. Mənim yerim kölgəlik oldu. Yenə də səhəri gün məni qaldırıb peçin yanındakı yerimdə, voenkomun oğlunu isə mənim yerimdə oturtdular. Deməli yayda gündöyən, qışda isə kölgəlik olub yerim. Bax, istərəm o haqsızlıqları doğuran meyllər, qüvvələr özündən razı, layiqi olmayan ünsürlər meydandan silinsin, yeni yaşayacağımız tarixi dövrdə o mənfiliklər itsin-batsınq. Heç kəsin mənliyi tapdanmasın. İşbilməzlər iş başında oturmasın. Əlbəttə, bu gün yeganə işimiz düşməni məhv etməkdir, torpaqlarımızı tapdaqlardan xilas etməkdir. İnşallah o gün yetişər.

– İrşad müəllim, burada bildim ki, cəmi bir ildir bu rayonda işlərsiniz. Goranboy ərazisi erməni quldurlarının məkrli niyyətlərini həyata keçirmək istədikləri ən qaynar nöqtə olduğunu bildiyiniz halda bura rəhbər vəzifəyə təyin ediləndə tərəddüd etmədiniz ki? Xalqın indi, necə deyərlər, ağı qaradan seçə bildiyi bir dövrdə bu böyük risq deyildimi?

– Doğrudur, Çaykənd, keçmiş Şaumyan rayon ərazisində yerləşən erməni quldurlar əvvəldən böyük azğınlıqlar edirdilər. Onların bu torpağa tutduğu divanı ilk günlər bəlkə də heç harada tutmayıblar. Başqa rayonda işləsəm də hər gecə postlara gedirdim. O vaxtlar gənclər arasında müdafiə çox zəif idi. Görüb duyduqlarıma biganə qala bilmirdim. Çaykənddə quldurların geniş meydan açan dövründə altı azərbaycanlı milisin, iki bacının, Ermənistandan qovulmuş qeyrətli oğul Gürzalının, onun sürücüsünün və başqalarının ölümlərindən sarsıldım. Faciələr günü-gündən artsa da, rəhbərliyin konkret bir addımı yox idi, əksinə bəlkə də məsələni dolaşdırdı. Dinc camaatın rahatlığı pozulmuşdu. Naəlac qalanların yurdu tərk etməsinə yol vermək isə ermənilərin əl-

qolunu açmaq demək idi. Həmin vaxtlar Ucarda birinci katib işlərkən iqtisadi və mədəni sahələrdə az-çox iş aparmışdım. İqtisadi sahədə daha çox irəliləyişə nail olduq. Orada işləri yeni bir axara saldığım, burada isə düşmən tərəfdən üstələndiyimiz bir dövrdə sizin sual təbiidir. Şəxsi mənafe baxımından götürsək, bu təklif heç də məqbul görünmür. Lakin mənə bu təklifi edəndən çox razıyam. Bu haradasa iş bacarığıma böyük etibar idi, avans olsa da böyük qiymət idi. Edilən təklifə razı qaldım və aprelin 13-dən (1991) bu rayona rəhbərlik səlahiyyəti mənim üstümdədir.

– Müharibə şəraitində ərazi rəhbəri kimi ilk işinizi nədən başladınız?

– Vəziyyət çox ağır idi. Həmin günlər mərkəzdə bizim səsimizi heç kəs eşitmirdi. Məcbur olub on nəfəri Moskvaya göndərdik. Ali Sovetin sessiyasında, xalq deputatları sovetlərin qurultayında, DİN-də, DTK-də qəbul olundular. Həmin qrupa mərhum Tofik İsmayılovköməklik edirdi. Bu "blokadanı" yarmaq üçün, deputatlarla görüşdük. Dərdimizi bildirdik. Daha sonra Daxili İşlər komendaturasını Şaumyandan çıxarmaq üçün rayon sovet orqanlarında respublika rəhbərliyi qarşısında tələb qoyduq. (çünki onlar ancaq ermənilərə xidmət edirdi.) Əhalinin təhlükəsizliyini təmin etmək üçün müəyyən işlər görüldü. Todanda, Gürzallarda, Şəfəqdə, Zeyvədə hərbi mövqelərimizi yaratdıq. Uzun çək-çevirlərdən sonra yerli ermənilərlə tək qaldıq. Ancaq Ermənistandan Moskva-Yerevan birgə siyasəti ilə vertolyotlarda quldurlar, silahlar daşındı.

– Bəs müdafiə işlərinizi vaxtında təşkil edə bildinizmi?

– Bu sahədə DİN-nin XTMD, DTK-nın vətənpərvər işçiləri və başqa rayonlardan gələn qüvvələr də yaxından iştirak etdilər. Sonra müəyyən qədər texnika əldə edə bildik, az sonra isə daha mükəmməl tədbirlər keçirməyi lazım bildik. Müdafiə mövqeləri yerin relyefinə uyğun hərbi əsaslarla quruldu.

Burada ümumi iş birliyi gördüm... Bu çox sevindirici haldır.

- Sessiyada bu haqda ətraflı danışmışam, izah eləmişəm. İndiki dövrdə bizim problemlərimizə keçmiş SSRİ rəhbərliyi indi isə RSFSR rəhbərliyi Ermənistanın ayrı-ayrı qurumları, Dağlıq Qarabağ rəhbərliyi müxtəlif mövqelərdən yanaşırlar. Dünya erməni mafiyasından həm ideoloji, həm də başqa yöndə istifadə olunur. Biz təklənmişik. Ona görə də belə ağır şəraitdə öz vəziyyətimizi dərinləşdirməməliyik. Qarşıdurma yarada bilmərik. Kadrların yaxşı, pisini ayırd eyləməliyik. Peşəkar hərbçilərin, bacarıqlı adamların iş təcrübəsindən istifadə etməliyik. Rayonda sakitlik varsa, işimizdə birlik görürsünüzsə bunun özü uğurumuzdur.

– İrşad müəllim, Azərbaycan əsgəri döyüşə hazırdımı?

– Əsgərlik keçirən uşaqlarımızın hərbi komissarlıqdakı sənədlərinə əsasən xidmət sahələrini ayırd elədik. Nəticədə gördük ki, kim həmin dövrdə tank sürürmüşsə, indi tanka yaxın dura bilmir. Dilini, sirrini anlayammır və s. Yəni elə də hərbi təlim və elmləri yox idi. Hərbi hissələrin birində bir ay dərs keçməli olduq. Onlar artilleriyanı, müxtəlif silahlardan istifadəni öyrəndilər. Müdafiə Nazirliyi bu gün də həmin yöndə ciddi iş görməlidir. Hər kəs özünü döyüşə hazır eləməlidir.

Goranboy cəbhəçilərinin ehtiyacları ilə maraqlandım. Öyrəndim ki, əsas ehtiyacları mənəvi cəhətdəndir. Torpaq keşikçilərinə, müdafiəçilərinə çəkilən qayğı ana südü kimi halaldır.

*aprel, Goranboy*
*"Ədəbiyyat qəzeti"*
*1 may 1992-ci il.*

## ÇAYKƏND : HAQQ YERİNİ TUTUR

Aprelin 30-da 30 yaşlı Aydın Hacıyev igid ömrünü ölümə girov qoyaraq sovet hərbçilərinə bələdçilik etmək üçün Çaykəndə yollandı. Təpədən-dırnağacan silahlanmış erməni quldurlarının hərbi bazalarının (xarici və sovet silahlarının hər cür növündən olan) təxmini olsa da, yerini hərbçilərə göstərmək üçün. On üç hərbçinin və Aydının olduğu zirehli maşın Qarabulaq (Martunaşen) kəndinin dar yollarında mühasirəyə alınaraq girov götürüldü. Vəziyyət anbaan ağırlaşırdı. Həmin gün, aprelin 30-da SSRİ DİN, Azərbaycan DİN, Sovet Ordusu döyüşçüləri pasport recimini yoxlamaq üçün kəndə daxil olmaq əmri almışdılar. Gözlənilmədən erməni quldurları tam döyüş vəziyyətində hər tərəfdən daxili qoşun hissələrinə hücuma keçdilər. Quldurların top-tüfənginə döyüşçülər top-tüfənglə cavab verməli olurlar. Özlərindən başlanmış bu müharibədən vahimələnərək, – son anda da olsa, aldandıqlarını görən, – kənd erməni əhalisi, arvad-uşaqlar çığırışaraq "boyevik"lərə, saqqallılara etiraz etmək istəyiblər. Belə bir məqamı ağıllarına gətirməyən erməni millətçiləri evlərə od vurmaqla, kənd erməni əhalisini atəşə tutmaqla döyüş meydanını daha da qızışdırırlar. Çaykənd və Qarabulaq (Martunaşen) kəndlərində od-alov göyə qalxır. Bütün günü atışmayla hərbi döyüşçülər kəndi saqqallılardan və "boyevik"lərdən azad edirlər. Ələ keçmək təhlükəsi qarşısında qalan bu "millət qəhrəmanları" son anda sıx meşələrə çəkilərək aradan çıxırlar.

Həmin günlərdən bir müddət əvvəl: "Erməni quldur dəstələrinin yaratdıqları dözülməz şəraitlə əlaqədar olaraq bizi, – Çaykənd və Qarabulaq kənd sakinlərini respublikadan kənara köçməyinə kömək etmənizi xahiş edirik. Eyni zamanda bizim kənddən təhlükəsiz köçməyimizi təmin etmək üçün hərbi hissə təşkil etmənizi və biz köçüb qurtarana qədər bir azərbaycanlının bu kəndə girməməsini tələb edirik". Kənd əhalisinin əksəriyyətindən Xanlar Rayon İcraiyyə Komitəsinin ünvanına təxminən bu

məzmunda ərizələr daxil oldu. Ərizələrlə daha yaxından və ətraflı tanış olmaq üçün ora gedən daxili işlər şöbəsinin əməkdaşlarından beş nəfəri – Məmmədəli Əhmədov, Səhrəddin Əliyev, Şərif Məmmədov, Sənan Ağayev və Rafiq Məmmədov (30 noyabr 1990-cı il) quldurlar tərəfindən güllələndi. Onu demək kifayətdir ki, üç ildir Göygölümüzə, cənnət guşə kimi dünyada tanınan Hacıkəndə və onlarla digər kəndlərimizə getmək mümkün deyildir. Yollarda baş verən ölüm-itimin, oğurluqların, quldurluqların sayı günü-gündən artırdı. Rayon milis şöbəsində 1991-ci ildə baş vermiş hadisələrin bəzilərinə nəzər yetirirəm:

28.01.91 tarixdə saat 16.00 radələrində Pənahlılar kənd sakinləri F.Almazovun avtomaşınında Nüsrət Sarıyev, Sədaqət Sarıyeva və Amalya Rzayeva ilə Sarısu kəndindən gələrkən ermənilər avtomat silahdan atəş açmış, hər üç sərnişin ölmüş, sürücü yaralanmışdır.

20.02.91 tarixdə səhər saat 9.00 radələrində Quşçu Armavir kəndində "Vaqif" sovxozunun direktoru Gürzalı Musayev və onun sürücüsü İmanov Daşdəmir erməni quldurları tərəfindən öldürülmüşdür.

03.04.91 tarixdə – Gəncə-Kəlbəcər yolunda gedən avtomaşınlar atəşə tutulmuşlar. Dörd nəfər ağır yaralanaraq xəstəxanaya düşmüşdür.

Günahsız oğullar itkisi ilə dolu olan bu siyahını çox uzatmaq olar. Nəhayət, son günün şəhidi Aydın Hacıyev. Mayın 1-də Çaykəndin qocaları ağ bayraqla kəndin kənarında yerləşən hərbçilərin yanına gəldilər. Onların təhlükəsiz köçmələri üçün şərait yaratmağı yenidən xahiş etdilər. Hərbçilər ilk növbədə, bir gün əvvəl girov götürülmüş zirehli maşını və hərbçiləri istədilər. Qocalar cavab üçün kəndə qayıtdılar. Bir gün sonra, mayın 2-də on üç rus hərbçisini və Aydının meyidini qaytarırlar. Əvəzində girov götürülmüş 27 erməni sağ-salamat geri qaytarılır. Avtobazanın sürücüsü, qorxmazlığı, çevikliyi ilə və əsl xalq-torpaq fədaisi kimi tanınan Aydını görən ermənilər

alıcı quş kimi üstünü kəsiblər. Ağlagəlməz qəddarlıqla öldürdükləri, – qollarını güllə ilə biçdikləri, diri-diri ürəyini çəkib çıxardıqları Aydın şəhid ünvanı ilə Allah dərgahına ucaldı. Və nə yaxşı ki, o igid ömrü xatirinə Çaykənd və Qarabulaq (Martunaşen) kəndləri artıq quldurların əlindən azad olunmuşdur. İndi onun müqəddəs ruhu o yerlərdə yəqin ki, şad dolanır, arabir evdən "ata, ata" – deyə onu soraqlayan iki körpəsinin – Turalla Fəridin başı üstə fırlanır, anasının qəlbini nər oğul qeyrəti ilə toxdadır. Sonasının könlünü xoş xatirəsi ilə doldurur, bacı-qardaşlarının göynər ürəklərini igidliyi ilə vüqarlandırır.

Xanlar Rayon İcraiyyə Komitəsinin təşkil etdiyi "Köç komissiyası" və döyüşçülər Çaykənd və Qarabulaq ermənilərinin təhlükəsizliyini qoruyaraq onları xüsusi hərbi vertolyotlarla özlərinin istədikləri yaşayış yerlərinə yola saldılar. RİK sədr müavini, "Köç komissiyası"nın sədri V.Mahmudov bu kəndlərin kütləvi köçü üçün onlara göndərilmiş ərizələrin yazılma səbəbini belə izah etdi: "Yaranmış vəziyyətlə əlaqədar olaraq erməni quldurları Xanlar rayonunun Quşçu, Sarısu, Kamo, Azad və Əblək kəndlərini də mühasirəyə almaq, dinc azərbaycanlı ailələrini silah gücünə ordan qovmaq, həmin kəndləri isə Şaumyana (indiki Goranboya) birləşdirmək və "Böyük Ermənistan" xülyasının növbəti bir planını həyata keçirmək məqsədində idilər. Yerli ermənilər bundan cana gələrək, torpaq iddiaçılarının əllərindən baş götürüb qaçmağı qərarlaşdırdılar.

Axır üç ildə 61 nəfər azərbaycanlını (səkkiz nəfəri milis işçisi), yolda-izdə günahsız yerə, qəflətən pusqudan çıxaraq öldürmüşlər. Son anda da hamının gözü qabağında onlarla ən yaraşıqlı evləri, inzibati binaları yandırıb külünü göyə sovurdular. Evsiz-eşiksiz qalan ermənilər yenə də azərbaycanlılardan kömək istədilər. Biz isə öz xeyirxah xarakterimizlə onlara cavab verdik. Belə ki, erməni quldurlarının, saqqallılarının əlindən salamat qalmış səkkiz yüz otuz altı erməni ailəsini mayın 1-dən 6-na kimi təhlükəsiz şəraitdə istədikləri yerə göndərdik".

"OMON"çular, hərbçilər, rayonun milis işçiləri və bütün xeyirxah niyyətlilər bu işdə öz köməklərini əsirgəməyiblər.

"Köç komissiyası"nda iştirak edən Nağı Əbdüləzimovun söhbətindən bir neçə epizodu da qeyd etdim:

– Qoca bir erməni yazıq görkəmdə etiraf etdi ki, Azərbaycan xalqından heç bir gileyimiz yoxdur. Çox illər bundan qabaq bax elə bu torpaqda bizə sığınacaq veriblər. Kefimiz kök yaşayırdıq. Ancaq erməni daşnak proqramçıları bizi bağlandığımız bu torpaqdan qovdular, yaman günə qoydular. Dörd ildir ki, erməni millətçiləri bizə göz verib, işıq vermədilər, nəticədə ev-eşiyimizi yandırıb, özləri isə aradan çıxıb qaçdılar.

– Erməni cavanları isə etiraf edirdilər ki, bizi bu işə ən çox qocalarımız, yaşlılarımız təhrik edirdilər.

Xanlar Rayon DİŞ-in sədr müavini, mayor Faiz İsmayılovla söhbət edərkən, o, bütün milis işçilərinin son on gündə çəkdikləri zəhməti xüsusi qiymətləndirirdi. Çaykəndin ən uca yerində torpağa sancılmış ağ bayraq yellənirdi. Bu, ermənilərin təslim bayrağı idi. Axı, onlarla heç kəs dava etmək fikrində olmadığı halda, görəsən öz murdar əməllərinəmi, niyyətlərinəmi təslim bayrağı sancıblar? Yoxsa – kimə, nəyə?

Bir maraqdan da ötə bilmədim. Görəsən, azərbaycanlıların "blokada"sında olan "qaragünlü" kənd ermənilərinin dolanışıq tərzi necəymiş? Ərzaq dolu, silah dolu anbarlar, zirzəmilər bütün görənləri, o cümlədən söhbət etdiyim hərbçiləri, "OMON"çuları, yerli sakinləri mat-məətəl qoymuşdu. Xarici markalı yeşiklərdə düyü, konservlər, müxtəlif ölçülü geyim-keçimlər, daha nələr, nələr. Maraqlıdır, "blokada"da olan bir kənd fransız, italyan, amerikan firmalı bu məhsulları yeşik-yeşik hardan alıbdır? Fitvaçıların bax belə yağlı "importnı tikələrinə" aldanaraq kefdamaqlı günlərinə əlvida deyən ermənilər görəsən indi nə fikirləşirlər?

Hələ aprelin 30-dan bir neçə gün əvvəl saqqallılar Çaykənd və Qarabulaq sovxozlarının yüz səksən baş mal-qarasını,

qoyun-quzusunu qabaqlarına qatıb Şaumyana aparmışdılar. Yüz iyirmi baş mal-qaranı isə elə diri-diri tövlə qarışıq od vurub yandırmışlar. Ümumiyyətlə, son bir neçə gündə erməni millətçilərinin Çaykənd və Qarabulaq kəndlərində törətdikləri ağılagəlməz vəhşilikləri adam dilinə gətirə bilmir.

Hazırda rayonda daimi yaşayış yerlərini məcburən tərk etmiş şəxslərlə məşğul olan dövlət komissiyasının sədri F.Mustafayevin rəhbərliyi ilə 22 nəfərdən ibarət xüsusi komissiya fəaliyyət göstərir. Ermənilərdən boşalmış Çaykənd və Qarabulaq kəndlərində Ermənistandan qovulmuş azərbaycanlı ailələr, – dörd ildir ki, Bakıda, Gəncədə, Sumqayıtda, Xanlarda heç bir dolanışıq şəraiti olmayan didərginlər yerləşdiriləcəkdir. Son bir-iki gündə hər iki kənddə ciddi təmizlənmə işləri gedirdi. Erməni "boyevikləri"nin zirzəmilərdə, həyətyanı sahələrdə yerləşdirdikləri minaları zərərsizləşdirirlər.

Şahnazaryanların, manukyanların, qriqoryanların... yan-yanların doğulduqları, çörəyi ilə böyüdükləri, bu gün isə öz qara əməlləri ilə yandırıb-dağıtdıqları Azərbaycan ünvanlı bir kəndin qismən də olsa rahat nəfəs alan gününə çatdım. Ülvimin şəhid ruhu ilə kəndi gəzdim. Elə duyğularımızlaca bir-birimizə təsəlli verirdik.

– Yaman günün ömrü az olar.

*Çaykənd.*
*"Ədəbiyyat və incəsənət"*
*13 may, 1991.*

## FÜZULİ:TORPAQ SEVGİSİ–HƏYATDIR

Dağlar gördüm – köynəmindən qan göyə fışqırırdı: inləmirdi, dözürdü. Ətəyindən əl üzməyən igidlərə göz dikib, ağrısını içindəcə çəkirdi. Məqam gözləyirdi xilasına, Gözlə, dağlar görmüş dağım. Burada – qarlı dağlar ətəyində düşmənlə bircə addımlıqda üz-üzə, göz-gözə dayanıb oğullarımız. Dəhşətli tüğyanın qopmasına bir göz qırpımıca fürsət lazımdır. Ələ keçirilmiş Peykanlı yüksəkliyindən tuşlanmış Dördlər kəndinə gedən yol gözlə qaş arasındakı məsafəni xatırladırdı. Elə bu yolla ötüb Dördlər kəndinə gəldik. Bir boxça şeir, nəğmə, qaynar istək, xoş duyğular götürüb görüşünə gəldiyimiz qeyrətli əsgərlərimizin ovqatlarını nikbinliklə təzələdik. Şair Tofiq Qaraqaya böyük Nazim Hikmətdən, Dədə Ələsgərdən, "Qəzəlxan" filminin baş qəhrəmanı Loğman Kərimli Əliağa Vahiddən, "Yol" ədəbiyyat qəzetinin baş redaktoru Əlisəmid Kür, şair Umud Rəhimoğlu və digər şairlər öz şeirlərindən bəzəkli bir süfrə açdılar. Və tanışlıqdan aydın oldu ki, burada qulluq edən əsgərlərin hamısı qonşu Beyləqan rayonunun 3 nömrəli sovxozundandırlar. Hamısı torpaq qeyrəti çəkən kasıb balalarıdır. "İki nəfər tort yeyənimiz var idi, onlar da tezcə qayıtdılar". Bu atmacadan yan ötə bilmədik. Söhbət kələfini çözələdik, sorğu-sual genişləndi. Mirzəyev Qurban ağır xəstə halında buraya xidmətə göndərilib və ya kiminsə "gül balasını" əvəz edib. Daha bir ağır xəstəylə, ayaq üstə durmağa macalı olmayan əsgərlə görüşdük. Və o dəqiqə bir gün əvvəl Dilağardada gördüyüm beyləqanlı Elxan Bağırovun ağrıdan doğranan üz-gözündəki üzgünlüyü xatırladım. Beyləqan hərbi hissə rəisinin döyüş meydanına göndərdiyi əsgərlərinə son dərəcə biganə münasibətindən, onların sonrakı taleləri ilə maraqlanmadığından, heç olmasa, könül xoşluğu naminə bayram günlərində ərzaq payı göndərməyi belə adına "yaraşdırmadığından" giley-güzar etdilər. (Qeyd etmək istərdim ki, olduğumuz bütün hissələrdə beyləqanlı uşaqların şikayətləri,

narahatlıqları eynilə üst-üstə düşürdü.) Üzündə, könlündə bir uşaq kövrəkliyi, həssaslığı duyulan Füzuli rayon AXC məclisinin sədri Osman bəy əsgərləri narahat edən məsələləri, qayğıları yerindəcə aydınlaşdırır, lazımi qeydlər götürürdü.

Beləcə xeyli çəkən görüşümüzü yekuşlaşdırıb geriyə qayıtdıq. Yolboyu o uşaqların – əsgərlərin hamısı bircə-bircə yenidən gözümdə dolaşdı. Təmiz vicdanlı, düşmənə sinə gərən bu əsgərlərlə söhbətimiz heç bilmirəm niyəsə məni kövrəltmişdi. İçimdə gizlətdim bu sızıltını. Təki salamat olsunlar – düşmənə çəpər oğullar. Yolda "N" hərbi hissəsinin qərargah rəisinin müavini Mirqiyas Rüstəmov yenicə çapdan çıxmış "Cəbhəçi" qəzetiylə bizi tanış etdi. "Torpaq uğrunda can qoyan oğullarımızı, heç olmasa, bir xoş kəlməylə, öyünüləsi, tarixə yazılası qəhrəmanlıqlarıyla yad etməyə bilmərik. Bu, bizim biri-birimizə borcumuzdur."

145 kilometr sərhəd zolağı müharibə meydanına çevrilmiş Füzuli rayonuna səfərimizin axırıncı günü bu kənddə başa çatdı: Dördlər kəndində. Və bu yazını da o kənddən başlamağım ağrılı tale payındandır. Bakıya dönən günün səhəri Dördlərin işğal olunduğunu eşitdim. Dəhşətli bir sarsıntı keçirdim. Neçə gün özümə gələ bilmədim. Gördüyüm, tanıdığım oğulların aqibəti gözümdən çəkilmir. Və orada müxtəlif hissələrdə görüşdüyüm əsgərlərin həyatlarından yaddaşıma köçürdüyüm müəyyən anları, fikrimdə tutduğum səviyyədə bir yazı yaza bilməyəcəyim ağrısıyla yaşadım.

Dağlar gördüm, bağrı doğram-doğram doğransa da, baxışı üzgün deyildi. O nurlu baxışları Füzulidə, gedişimizin ilk günündə Qacarda gördüm. Qacarda vuruşan igidlərdən – "əfqan"çı Qədiri balalarından torpaq ağrısı qoparıb buraya gətirib. "Qardaş, dözə bilmədim, evdə oturmağa. Düşməni düz qapısınacan qovmuyunca, külünü göyə sovurmuyunca qayıdan deyiləm uşaqların yanına. Qoruduğumuz Qacar mövqeyi – təpəliyi buradan Yevlaxacan olan hissənin qapısıdır. Bu qapını can bahasına qoruyacağıq". İkinci dərəcəli əlil Aydın kişi kənddən çəkilib gedən Qacar cavanlarını

kəndə çağırdı. "Qoy gəlib öz ocaqlarını, kor ocaqlarını qorusunlar" dedi. Şəhid Yasir Qarayevin anası övlad dağından yanmış sinəsini açıb tökdü: "Yaman ağırdır övlad dağı, bala. Amma neynək, təki sonu salamatçılıq olsun". Kənd əhliynən söhbətimiz adamı dağ başına qaldırırdı. Toplu-tüfəngli ermənilərin üstünə ilk günlər qadınlarımız yava-dırmıqla çıxdılar. Qorxaq düşmənlər bu cəsarətdən, bu mərdlikdən heyrətə gəldilər, üz çevirib qaçdılar.

Beynəlxalq Avrasiya Mətbuat Fondu xətti ilə başlanmış xoş məramlı bu səfər Qacardakı əsgərlərimizin ürəyini açdı. Tarixə nümunə olacaq oğullarımızla keçən söhbətlərimiz nə vaxtsa yazılacaq kitabların bir səhifəsi idi. Fondun həmsədrləri münaqişə nöqtələrində baş verən hadisələri, həqiqətləri, dünyanın bir çox ölkələrinə birbaşa yayacaqlarını bildirdilər. Hər halda atılan hər addım qabağadır, ümidlidir. Qacardan ayrılalı qəribə duyğularla yaşadım. Əsgərlər tərtəmiz, ülvi hisslərlə bircə amalla vuruşurdular. Ermənini torpağımızdan axır nəfərinəcən qovmaq, qovmaq, qovmaq! Onlar bundan özgə heç nə düşünmürdülər. Və bu ali düşüncələr qarşısında kövrəlməyə bilmirsən.

Uryandağ ətəklərində yerləşən Dilağarda da əsgərlər erməni ilə üzbəüz dayanıblar. Rota komandiri Adil bəyin baxışları zəhmli, qaşları düyünlü idi. "Bilirsinizmi, əsgərlərimizin yaşayış şəraiti çox pisdir. Soyuqdan tez-tez xəstələnirlər." Haqlı narazılıq idi. Rayonlardan sahibsiz, xəstə uşaqları göndərirlər, plan doldurmaq xatirinə və s.

İlk növbədə xırda-para görünən bu qüsurlar işdə böyük maneçiliklər törədir, sözün kəsəsi deyilsə, əməlli-başlı əngəl olur. Və bəlkə də bu qüsurları yazmaq da elə xırda görünə bilər. Amma canlarını, həyatlarını hər an ölümə qurban verən bu talelərə biganə qala bilmirsən. Döyüşən əsgər, soyuq-sazaqda vuruşan əsgər meydanında olan həkim qardaşlarımı düşünürdüm.

Orada Yusif Abbasov adlı bir döyüşçü tanıdım. Qolunun birini döyüşlərdə itirib. Yarası sağalanda yenə hissəyə qayıdıb.

Eləcə də Adil bəy ağır yara alıbmış, tam sağalmamış təzədən döyüşə gəlib. Bunları görəndə fəxrdən adamın ürəyi dolub-daşır. Əsgərlər danışmaq həvəsində olmadılar. "Qələbəmiz hələ yoxdursa, sözümüz də yoxdur."

Gorazallıda Əli bəy bildirdi ki: "Bizim əsgərlərimizin igidliyindən danışsaq, bir-iki kəlməylə iş bitmir,

Əlli yaşlı ağsaqqal Salman Haşımov "Bizi ad eləyib gəlmisiz, çox sağ olun" dedi. Özü də ürəkdən dedi. Quruca gedişimizi dağdan ağır sayan əsgərlərimiz elə bil bir boy ucaldılar. Sevincdən yerə-göyə sığmadılar. "Deməli, bizim qayğımızla narahatçılıq keçirənlər var, biz xatırlanırıq" deyə mənən şad hisslərlə yaşadılar.

Müharibə qan-qadadır, ölüm-dirimdir. Torpaq sevgisi isə həyatdır, yaşamaqdır. Əsgərlərimizhəyat olurlar, kişi olurlar. Amma ölmürlər. İrəli atılan hər addım üçün yüzlərlə, onlarla şəhid verirlər. Amma ölmürlər. Həyat üçün qabağa can atırlar.

Füzulidə görüşdüyümüz yüzlərlə əsgər ancaq torpaq uğrunda tərtəmiz vicdanla vuruşurdular. Arxada körpə övladlarını, ana-bacılarını qoyub, düşmən əlinə keçmiş torpaqlarımızı geri almaq üçün vuruşurdular. Görüşdüyümüz bir neçə kəndin camaatı da bir şər şeytanın ortaya atdığı qaramatdan can qurtarmaq üçün bacardıqları köməklikləri edirdilər, vuruşurdular. Uşaq, qoca, qadın – hamının yurdumuzu basmış düşməndən qorumaq həsrətiylə yuxuları ərşə çəkilib.

Dağlar gördüm – od tutub yanırdı: nə tüstüsü, nə alovu görünürdü. O odu söndürməyə bütün xalq ayağa qalxmalıdır. Müharibə odunda yanan 30-dan artıq müxtəlif kəndlərdə olmuşam. Elimin bu ağır günündə nə isə bir şey görmək istəyi ilə o yerlərə getmişəm. Viran qalmış ev-eşikləri, isti oba-oymaqları görəndən sonra keçirdiyim sarsıntıdan uzun müddət özümə gələ bilməmişəm. Sümüklərim üşüyüb. Bir də cəbhədə balası, qardaşı vuruşanların sümüyü üşüyür. Bir də millət qeyrəti çəkənlərin. Amma istərdim Qarabağ uğrunda müharibə qurtaranacan hamının sümükləri üşüsün. Bax, onda biz qalib gələcəyik. Azadlıq uğrun

da hamı ayağa qalxıb mübarizə etdi. Qalib gəldik. İndi də hamı ayağa qalxmalıdır. Hamının ən böyük silahı düşmənə nifrət hissi olmalıdır. Bax, onda qalib gələcəyik!

Dördlər faciəsindən bir neçə gün sonra Beynəlxalq Avrasiya Mətbuat Fondu bəyanatla çıxış edərək həqiqəti olduğu kimi bütün dünyaya yaydı. Hərə bir xeyirli addım atsa, onda qalib gələcəyik. Elə həmin gün Londondan alman-türk qarışığı olan dostum Kristina zəng etdi ki, səni burada TV – də gördüm. Orada_sizlərdə nə ağır faciələr törədilir. Dünyanı köməyinizə çağıra bilmək hüququnuz var…

Qaibanə səda ilə axırıncı bomboz düzə enmişdim. Və qəribəsi də bu idi ki, həmin bozluqda çiçəklik arayırdı gözüm, çatdaq-çatdaq olmuş təpəliklərdən, çağlar bulaq gözəlliyi hayındaydım. Rəngi itmiş göylərdən Günəş işartısı sezməyə çalışırdım.

Qovhaqovla ötürdüyümüz bu günlər, anlar sanki min illik əzabla keçir – qanımızdan, canımızdan. Bir gün bu da sona yetəcək. Nikbin günlər axarına düşəcəyik. Son günlər belə duyğular göyərir qəlbimdə. Ürəyimdən keçən çox vaxt başıma gəlir. Təki bu da başımıza gəlsin. Ürəyimizə axan qaibanə nikbinlik həyatımıza, yurd-yuvamıza, ev-eşiyimizə gəlsin.

*"Ədəbiyyat qəzeti"*
*16 fevral 1993-cü il*

## BORÇALI MAHALINDA NARAHATÇILIQLAR YERDƏN-GÖYƏCƏNDİR

Bizim Tbilisiyə, eyni zamanda Borçalı mahalına olan səfərimizdə əsas məqsədlərimizdən biri də bu ərazidə yaşayan xalqımızın vəziyyətilə maraqlanmaq idi. Getdik, gördük... Gördük ki, evindən-eşiyindən yenicə ayrı düşmüş azərbaycanlılar boynubükük vəziyyətdə necə Rayon İcraiyyə Komitəsinin qabağında var-gəl edirlər. Əlbəttə, bu bir azərbaycanlı kimi bizi həyəcanlandırmaya bilməzdi. Odur ki, yazımızda bu məsələləri aydınlaşdırmağa çalışdıq. Məqalə gec dərc olunur. Bu müddət ərzində yəqin ki, hadisələrin üstünə yeni-yeni hadisələr gəlib. Elə bu günlərdə Gürüstan parlamentində Qamsaxurdiyanın rəhbərlik etdiyi Azad Gürcüstan partiyasının qələbəsi mühüm hadisələrdəndir. Bu bizdə qədim qonşuluğumuzu əmin-amanlıq şəraitində davam etdirmək ümidini doğrulda bilər və ya... Əlbəttə, ümid yaxşı şeydir...

İndi isə gördüklərimizdən:

Torpağı qorumaq özünü qorumaqdır. Torpağa həyan olmaq öz varlığına cavabdehlikdir. Torpağa bağlılıq öz kökünə, öz soyuna bağlı olmaqdır. Torpaq o vaxt vətən olur ki, Müdhət Kamal demişkən: "Uğrunda  içinə çəkməli, özündə yaşatmalıdır. Əks təqdirdə bizə torpaq qoyub gedən babalarımızın lənətinə gələrik, qorumadığımız, qoyub gəldiyimiz ruhlar göylərə üz tutub bizi qarğıyar.

Hər hansı bir şey üçün zəhmət çəkməsən, onun qədrini də bilməzsən. Dişləriylə, dırnaqlarıyla ev tikdiklərindəndir ki, Xancığazov Məmməd, onun ömür-gün yoldaşı Güllər Xancığazovanın evlərinə dörd dəfə dinamit atsalar da, həyət-bacalarından, ev-eşiklərindən əl çəkə bilmirlər. Bolnisi rayonunun mərkəzində yaşayan bu ailə beləcə durub kədərlə tamaşa edir, vurulub dağıdılmış evlərinə.

Biz Borçalı mahalının Bolnisi rayonunda belə hadisələrin çox şahidi olduq. Kazreti qəsəbəsindən Məmmədova Nurqayıt

bütün dünyaya car çəkmək və bu nə işdir başımıza gəlir, – deyə soruşmaq istəyir. Niyə bizim əlimizin duzu yoxdur, niyə bizi hər tərəfdən sıxışdırırlar? Niyə bizi yurdumuzdan, yuvamızdan didərgin salırlar?

Bizə danışdılar ki, Bolnisinin özündə 950 azərbaycanlı ailəsindən 25-27 ailə qalıb, ya qalmayıb. O da hamısı kasıblardır. Yol boyu düşünürdük. Allahın da qəribə bölgüləri var. Milli heysiyyəti kasıblara,milyonlarısa xalqa, torpağa gəlir mənbəyi kimi baxanlara verir. Tək-tək adamlar olur ki, hər iki cəhəti özündə birləşdirir. Bəli, onda belə adam şəxsiyyət olur. Özü də tarixi şəxsiyyət, cılızlıqdan uzaq, böyük hisslərə, böyük amallara bağlı. Torpağının ətrini dünyaya dəyişə bilməyən, millətinin qoturunu da sevən, alisini də. Bəli, belə şəxsiyyətlər öz ətrafında minləri, milyonları birləşdirə bilər. Belə vaxt etiraz səsin də yüksəkdən gələr. Belə bir şəxsiyyətə indi bizim nə boyda ehtiyacımız var!

Ruslarda yaxşı bir misal vçar: "Balıqçı balıqçını gendən başa düşər". Həmin o "balıqçı"lardır ki, Bakıya gəlib özləri kimilərini tez tapırlar. Pasport stollarında qeydiyyatdan keçə bilirlər. Nə bu soruşur ki, a qardaş, o torpaqlarınızı kimin üçün qoyub gəlirsiniz bura, nə o fikirləşir ki, hər dənəsində bir bahar yatan, hər dənəsindən bir çiçək ətri gələn vətən torpağını laləzarə çevirməkdənsə bu ana torpağı kimin üçün qoyub qaçıram Bakıya?

Bolnisidə küçədə Rayon İcraiyyə Komitəsinin qabağında eləcə ayaqüstə dayanıb ev satmaq, ev dəyişmək istəyən azərbaycanlılara yaxınlaşdıq. Bərk kövrəlmişdik. Burada Tanrıverdiyeva Bəyaz bizə danışdı ki, yayda uşaqları da götürüb anasıgilə – Qoçulu kəndinə gedibmiş. Qayıdıb özünün Bolnisidə yaşadığı evində nə görsə yaxşıdır. Qapılarını sındırıb girib oturublar evlərində. Deyirlər, yaxın gəlsəniz, öldürərik sizi, rədd olun gedin burdan. Şikayətə gedirlər. Rayon İcraiyyə Komitəsinin sədri evlərinə qiymət qoyur. Əllərinə də müqavilə verir. Bu günə qədər it də gedib, ip də. Nə evlərindən çıxırlar, nə də onlara pul

verən var. Elə beləcə günləri bax, bu Rayon İcraiyyə Komitəsinin qabağında keçir. Bolnisililər bizə danışdılar ki, elə ki, axşam olur, içib keflənib küçələrdə bizə "tatar" – deyə qışqırırlar. Camaatı ələ salırlar. Bəlkə də bunları edənlər gürcü familiyası qəbul etmiş ermənilərdir. El arasında onlara "üç manatlıq erməni" deyirlər. Onlar gürcü şovinistləri ilə birləşib bunları edirlər. Kütləvi surətdə camaatı işdən çıxarırlar.

"Qələbə bayrağı" qəzetinin adını dəyişib "Bolnisi" ediblər. Məsələ adda deyil, qəzetin əməkdaşlarını işdən kənar ediblər. Rayon İstehlak Cəmiyyətində səksən faiz azərbaycanlı işləyirdi. İndi nümunə üçün orada azərbaycanlı tapmazsan. Rayonun xəstəxanalarında qırx faizdən çox azərbaycanlı tibbi heyət var idi. İndi isə burda bir nəfər də olsun azərbaycanlı yoxdur. Kazreti qəsəbəsində 8 illik məktəbdə bu il birinci sinfə ümumiyyətlə uşaq götürməyiblər. Bəhanələri də budur ki, müəllim yoxdur.

Bir gün əvvəl "Azadlıq" radiosunda məlumat verilirdi ki, Gürcüstanda vəziyyət ağırdır. Rustaveli küçəsindən atışma səsləri gəlir, adam oğurluğu halları olub.

Bizim Tbilisidə əvvəlcə getdiyimiz yer "Sovet Gürcüstanı" qəzeti oldu. Burda hardasa sakitlik, əmin-amanlıq, bir sözlə, hər şeyin öz məcrasında olduğunu eşitdik. Və buna tez də sevindik. Elə bu əhval-ruhiyyə ilə də Borçalı mahalına yola düşdük. Yol yoldaşımız "Sovet Gürcüstanı" qəzetinin əməkdaşı Əzim İsmayıllı ilə Marneuli rayon maarif şöbəsinə gəldik. Bizi rayon maarif şöbəsinin müdiri, Vaqif Mustafayev qarşıladı. Elə buradaca maarif şöbəsinin metodisti Rövşən Əyyubovla da tanış olduq.

Vaqif Mustafayevin ürəyi dolu idi: Bilirsiz, Marneuli şəhəri Marneuli rayonu ilə birləşdirildi. Deyim ki, Marneulidə 88 məktəbimiz var. Bunlardan 60-a yaxını Azərbaycan məktəbidir. Bu da rayonun 80 faizdən çox azərbaycanlı olması ilə bağlıdır. Demək lazımdır ki, 88 məktəbdən 27 məktəb müasir tələblərə cavab verə bilir. Qalan məktəblər çatışmazlıqlarla doludur. 1991-95-ci illərdə otuz dörd məktəb və uşaq bağçasının müasir

tələblərə cavab verə biləcək yeni tipli inşası nəzərdə tutulub, Azərbaycandansa şikayətimiz lap çoxdur. Azərbaycandan dərsliklər ala bilmirik. Əyani, texniki vəsaitlər, didaktik materiallarımız heç yoxdur və ya yox dərəcəsindədir. Şairlərin öz səsləri ilə çıxışlarına, lent yazılarına uşaqlarımız möhtacdır. Yaxşı yadımdadır, Rəsul Rzanın güzarı bu yerlərdən düşmüşdü. Bilmişdi ki, uşaqlarımızın dərsliklərə, bədii kitablara ehtiyacı var. Çox çəkmədi (bu, 1972-73-cü illərdə olmuşdu) bizə – Qaracalar kəndinə neçə min kitab göndərildi. Bu qayğı hələ də yadımızdan çıxmır. Biz dəfələrlə Maarif Nazirliyinə müraciət etmişik. Dəfələrlə Azərbaycanın məsul işçiləri qarşısında məsələ qaldırmışıq, xeyri olmayıb ki, olmayıb. Azərbaycanda yaxşı bilirlər ki, burda biz hər cürə sıxışdırılırıq. Belə vaxtı da bizə əhəmiyyət verən tapılmır.

Rövşən Əyyubov haqlı olaraq gileylənirdi. Bakılılar Bakıda oturub buranın ağacını silkələyirlər. Bizə boş söhbət lazım deyil. Əməli kömək lazımdır.

Bir vaxt Tbilisi bizim mədəniyyət mərkəzlərimizdən biri olub. İndi Gürcüstanda bir dənə də olsun, mədəniyyət mərkəzimiz yoxdur. Gimnaziyamız olub Tiflisdə. Azərbaycanın teatr ulduzları yetişib burda. Niyə bəs onlar öz torpaqları, öz camaatları üçün narahat deyillər. Məgər pis olardı ki, bir tamaşa da Borçalı camaatına göstəriləydi. Bizim Borçalı aşıqlarının səsi uzaqlardan gəlir və şükür ki, uzun gecikmədən sonra Borçalı Aşıqları Birliyimiz yaradılıb. Zarafat deyil, 700 min azərbaycanlı gürcü ilə çiyin-çiyinə Gürcüstanın suverenliyi, birliyi naminə, iqtisadiyyatının, mədəniyyətinin inkişafı naminə gecə-gündüz çalışır, özününsə bir birliyi belə yoxdur. Qoy Borçalıda Abdulla Şaiq günləri keçirilsin. Azərbaycandan qonaqlar gəlsin. Bəlkə bu minvalla da olsa, bizi başa çıxan tapılsın. İndi tək-tək gələn varsa da, ayrı-ayrı şəxslərin qonağı olur. Bir də xəbər tuturuq ki, artıq filan şair və ya yazıçı gəlib də, gedib də.

Bir məsələ bizi lap çox narahat edir. Belə ki, xarici

ölkələrlə dostluq əlaqələri yarada biliriksə, niyə özümüz haqqında düşünmürük. Azərbaycan Dostluq Əlaqələri Cəmiyyətinin sədri Gürcüstan Dostluq Əlaqələri Cəmiyyətinin sədri ilə goruşüb birlikdə rayonlarımızı, kəndlərimizi gəzsələr, məktəblərimizin qonağı olsalar, onların dostluqlarının rəhni yerli camaata da sirayət edər. Vallah deyərdim ki, yazıçının, şairin səsi bir ordunun gücünə bərabərdir. İndi əgər adamlarımızı bu torpaqlardan qaçırdırlarsa və ya özləri torpaqlarını tərk edib gedirlərsə, buna uzaqdan-uzağa təəssüflənmək lazım deyil. Ağılla düşünmək lazımdır, nə edək ki, belə olmasın, Gürcüstanda ikinci Ermənistan yaranmasın. Mətbuatın susması şovinistlərin daha da əl-qol açmasına imkan yaradır. Qəribədir, bütün hallarda su altımıza çıxana kimi susuruq. Daha onun qabağını almaq, gözlənilən hadisəni qabaqcadan dərk etmək haqqında heç fikirləşmirik də.

Yolumuz davam edirdi. Biz Ermənistanın Ləmbəli kəndi ilə sərhəd olan Sadaxlı kəndinə gəldik. Kənd boyu adamlarla görüşdük. Camaat rayon milis şöbəsinin rəisiindən şikayət edirdi. Deyirdilər ki, ermənilər bizim başımıza min oyun gətirir, bax, gördüyünüz bu Ləmbəli kəndilə bizim kəndin arasını tutmuşuq ki, gediş-gəliş olmasın, qulağımız dinc olsun, buna baxmayaraq, bu aradan heç adamlar keçir bu tərəfə - alış-verişə. Burda bu yaxınlarda hələ bir ölüm hadisəsi də baş vermişdi. Erməni quldurları bir azərbaycanlını iş yerində odlu silahla öldürmüşdülər. Ondan sonra Ləmbəli ilə Sadaxlının arasına çəpər çəkdilər. Camaatın bu çəpərin yanında keşik çəkməsinə baxmayaraq rəis öz kefi üçün erməniləri buraya buraxır. Daha fikirləşmir ki, sabah daha bir hadisə baş verə bilər. Danışanın da ağzına vurur.

Kirovka (Mamey) kəndinə gəldik. Bu kənddə Gürcüstan milli konqresinə deputatlığa namizəd göstərilmiş, əgər keçərsə, Gürcüstan Ali Soveti parlamentinin üzvü olacaq, rus dili üzrə orta məktəbdə metodist müəllim Zahid Musayevlə görüşüb söhbət etdik. O, dedi ki, biz Marneulidə hələ ki, dostluq şəraitində

yaşayırıq. Bizi Azərbaycanda unutmasalar, hər iş yaxşı gedər. Axı, ancaq öz inamımıza, öz iradəmizə arxayınçılıq tək əl deməkdir. Ümidimiz sizədir. İstər mədəniyyət sahəsində, istər maarif sahəsində bizi əyani vəsaitlərlə Azərbaycan təmin etməlidir. Mənən bizə ruh vermək isə heç unudulmamalıdır.

Hadisələr qarışıqdır. Belə ki, bir tərəfdə azərbaycanlılar sıxışdırılırsa, o biri tərəfdə hər iki xalq mehriban, həmrəy, həmfikirdirlər.

...Səhərdir, axşam Bakıya yola düşəcəyik...

İndi isə Gürcüstan Milli-Demokrat Partiyasının nəzdində Azərbaycanın Xalq Birliyi Partiyası yaranır. Bəli, bu gün bura təsis iclasına yığışıblar. Biz də bu hadisənin iştirakçısıyıq. Azərbaycan Xalq Birliyi partiyası Marneulidə "Qeyrət" cəmiyyətini, Qardabanidə "Ozan" cəmiyyətini öz ətrafında birləşdirəcək. Onların işlərində siyasi, əməli köməyə, varlığa çevriləcək.

Bolnisidə azərbaycanlıların başına gətirilmiş müsibətləri açıq-aşkar görəndən sonra təsis iclasında iştirak edən Gürcüstan Milli-Demokrat Partiyasının lideri Çanturianı görüb ona sual vermədən keçinmək olmazdı. Sualımız bu oldu:

– Yoldaş Çanturia, niyə istər Azərbaycanda, istərsə də Gürcüstanda yaşayan azərbaycanlılar, sizinlə həmrəy olduğu halda Bolnisidə, Dmanisidə bu xalqın nümayəndələri hər vəchlə sıxışdırılır, əsrlər boyu yurd-yuva salmış, bu yerlərdə məskunlaşmış camaatın evlərinə dinamit qoyulub partladılar. Ev-eşiklərindən didərgin salınırlar. Kütləvi surətdə işdən qovulurlar? Georgi Çanturia bizə cavab verdi ki, siz haqlısınız. Bu sadəcə olaraq vəhşilikdir, faşizmdir. Bəli, belə şeylərin qabağını kəsmək üçündür ki, biz bu gün bu cəmiyyətin təsis iclasına yığışmışıq. ...Biz o günü axşam Bakıya yola düşəndə bildik ki, Azərbaycan Xalq Birliyi Partiyasının sədri "Sovet Gürcüstanı" qəzetinin əməkdaşı, yazıçı Əzim İsmayıllı seçilib. (Məqalə Kamilə NEMƏT-lə birgə yazılmışdır).

*"Ədəbiyyat qəzeti" 1991-ci il*

## XOCALININ DİRİ TARİXİ

### ƏZİZ SƏRİYYƏ MÜSLÜMQIZINA MƏKTUB!

Xocalı faciəsini bilən andan gözümdən çəkilmədin. Heç kəsdən soruşmağa ürək etmədim. "Günahkar mənəm" – hissindən qopmadım. Qəzetləri, xüsusən "Qarabağ"ı izlədim. Bir neçə gündən sonra imzanı gördüm və adını öpüb gözümə qoydum. Amma yazını oxuya bilmədim. Başına gələn fəlakətləri bilməyə cürətim çatmadı. Sonra televiziyada gördüm səni. Ananı haraylayırdın, soraqlayırdın. Qoca anan yurd şəhidi olmuşdu. Amma Səriyyə, qurban olum sənə, nə yaxşı ki, yenə qürurlu idin, təmiz idin, gözəl idin. Dərddə yanıx verdiyini duyurdum, görürdüm. Hər kəsin işi deyil o vüqarı saxlamaq.

Uzaq olmayan günün söhbətindən: O gün iş otağıma ("Ədəbiyyat qəzeti" redaksiyasında) zərif, dalğın baxışlı bir qız gəldi. "Xocalının səsi" qəzetinin müxbiriyəm, – dedi. Çoxdan səninlə tanış olmaq istəyirdim." (Səriyyənin bu istəyinin əziz Ülvimlə bağlı olduğunu bildim). Deyirdi ki, bir də nə bilim, qismət olub buralara gələcəyəmmi? " Düz beş aydır ki, Xocalı dörd tərəfdən mühasirədədir. Heç bir yandan, heç bir kimdən köməyi yoxdur. Günləri, dəqiqələri izləyirik ki, görək ermənilər nə vaxt gəlib yiyəsiz, əliyalın qalmış Xocalı əhalisini qıracaq, yandıracaq.

Yeddi-səkkiz min əhalisi olan Xocalının aqibəti indi tükdən asılıdır. (Səriyyə bunları danışdıqca həyəcanlansa da, özünü təmkinli aparırdı). Ona yanıram ki, böyüyümüz ola-ola, böyüksüz qalmışıq. Heç kəs bizi düşünmür." Sonra Səriyyə özü söhbəti dəyişdi. Ülvimdən söz açdı. Dərdimə şərik çıxmağa gəlmişdi, Səriyyə. Deyirdi ki, sabah Xocalıya qayıdıram. İnanmıram daha sağ qalaq. O dəhşəti, o ölümü Səriyyə görürdü. Görə-görə də gəlmişdi ki, mənim şəhidimin ruhu qarşısında öz borcunu versin, vicdanını rahatlasın.

Sənin yazını indi götürüb oxuyuram. "Qələmimi yerə qoyuram" – deyə etirazını bildirirsən. Yox, Səriyyə bacım, bu da dəhşətdi, bu, qüruruna yaraşmaz. Götür qələmini, yaz. Sən indi Xocalının özüsən. Mən inanıram ki, sən o yurda qayıdacaqsan. O vaxt uzaqda deyil. Sən öz qələminlə Xocalını yaşatmalısan. Sən Xocalının diri tarixisən. Götür qələmini ananı yaşat, səni böyüdən ananın aqibətini yaz. Anan tarixə döndü. O şəhid cocuqlardan, şəhid ağbirçək-ağsaqallardan, igid oğullardan yaz. Allah hamısına rəhmət eləsin. Amma yazma ki, Xocalıda qız-gəlinlərimizin namusu, qeyrəti necə ayaqlandı. Onu yazma, Səriyyə. Bizə o ad yaraşmır.

Onda Xocalıya dəvət etdin məni. Gedə bilmədim. Gec də olsa, Xocalıya gələcəm. Sən buna inan. Mənim də kəndim, dağlarım, buludlarım, Göyçə gülüm, otum, çiçəyim, yurdum-yuvam indi düşmən əlindədir. Mən belə bir inamla yaşayıram ki, biz o torpaqları, yurd-yuvamızı düşmən əlindən xilas edəcəyik. Görürsənmi Səriyyə, hamımız eyni ağrılarla yaşayırıq. Ona görə də sənin mənəvi aclıq etməyə haqqın yoxdur. Götür qələmini əlinə, "Xocalının səsi" qəzetinin müxbiri Səriyyə Müslümqızı!

*"Ədəbiyyat qəzeti" 14 mart 1992-ci il*
*"Qar üstündə qan" kitabından 1994-cü il*

# AĞDAM: NİGARAN GÖZLƏR

*və ya baxışlarımızda bircə niyyət heykəlləşdi:*
*Ağdamda görüşənədək*

A.Bakıxanov adına tikiş fabrikinin həyətinə daxil olanda ora körpəcə uşaqlarla doluydu. Hamısı solğun bənizli, çəlimsiz, ətrafa biganə, narahat baxışlı, kövrək duruşlu idi. Bəlkə də hansınsa yaxınlaşıb dindirsək dolmuş bulud kimi töküləsiydi. Şirin təbəssümlü, gözləri nigaran gülüşlü, balaca bir uşaq qəti, ürəkli addımlarla qabağa gəldi. Yanımıza çatacaq gülümsədi. Adını soruşduq. "Adım Əlidir, Ağdamdanam", – dedi.

Əlinin verdiyi konkret cavabdan az qala çaşdıq:

– Bəs burda neynirsən?

– Orada həmişə, hər gün atırlar. (Əli uşaq dünyasında tapdığı bu sadə ifadəylə bir faciəni – Ağdamın ermənilərin əlinə keçməsini sanki bizdən gizlətdi. Bir də nə atdıqlarını heç soruşmadıq. Çünki biz də bilirdik atılan nədir, Əli də).

Əlinin sifəti kölgələndi. Artıq bu vaxt başımıza xeyli adam toplaşmışdı: uşaqlı-böyüklü. Əksəriyyəti cavan, gənc gəlinlər idi. Baxışlarından elə bil hamısını görmüşdüm, tanıyırdım. Min dəfə dərdləşib-söhbətləşdiyim adamları xatırladırdılar. Səhv etməmiş-dim. Artıq 5 ildən çoxdur ki, odundan-ocağından məcbur ayrılmış belə cavan, qucağı körpəli gəlinlərlə, toy həsrətli qızlarla görüşü-rəm. Hamısına qarşı qəlbimdə həmişə qaynar bir istək, məhəbbət duymuşam. Azərbaycan qadınları mərd, namuslu, qeyrətli, vic-danlı, abır-həyalı olublar. Ən ağır günlərində evlərindən ayaq-yalın, başıaçıq didərgin olanda da dodaqlarından həya yaşmaq-larını geri çəkməyiblər. Başımıza toplaşan qız-gəlinləri harada gördüyümü heç fikirləşmədim. Üzü 1988-ci ildən bəri – Ermənistan torpağından, ulu Göyçə mahalından qovulmuş 207 min əhalinin, yollarda-izlərdə yiyəsiz-sahibsiz qırılan yüzlərlə adamların arasında görmüşdüm bu həsrətli, bulud kimi dolu

baxışları. Azadlıq meydanında "Azadlıq" – deyə, gecə-gündüz mübarizə aparanlar sırasında, 1990-cı il martın 24-ü Bayram axşamı başdan-ayağacan od vurulub yandırılaraq, ikinci "Xatın" taleyini "yaşayan" Bağanis-Ayrım kəndinin yollara-izlərə səpələnmiş dəhşətli vahimə keçirən sakinlərində, Tovuzun Əlibəyli kəndində gecəni yaraşıqlı evlərində yox, çöldə-həyətdə keçirən kənd camaatında, Çaykənd, Goranboy, Füzuli və s. onlarla göydən od yağdırılan doğma obalarımızın ocaqdaşlarından, Bolnisi, Dmanisi, Marnueli əhalisinin tanrıya dikilən gözlərində... və Şəhidlər Xiyabanında rastlaşmışdım beləcə kədərli, tanış gözlərlə.

Amma bütün bunlarla belə 5 ildən çox ötən bu ağrı-acılara öyrəncəli olmamışam. Hər dəfə, hər gün, hər saat təzə müsahiblərimlə görüşəndə qeyri-adi sarsıntı keçirmişəm. İndi də həmin hisslər, həmin duyğular sarsıntısı içində kövrəldim. Nə yaxşı ki, oturmağı təklif etdilər. Oturduq, hamı oturdu və yurd ağrıları bir hovur yüngülləşmək xətrinə bir-bir dərdlərini, yanğılarını deməyə çalışdılar.

İndiki görüş-tanışlıq məclisimiz nə göydən qradlar yağan cəbhə bölgəsində, nə də haradasa uzaq bir kənddə yox, A.Bakıxanov adına tikiş fabrikinin sanatoriyasının həyətində oldu. Burada 23 iyul 1993-cü il tarixdə ermənilərin işğal etdiyi Ağdam şəhərinin qovulmuş camaatının yerləşdiklərini bilib gəlmişdik. Dövlət Əmlak Komitəsinin əməkdaşları adından komitənin işlər müdiri Aslan Nəsibov və iqtisadçı mütəxəssis İqbal Rüstəmovla birgə. Gəlmişdik ki, bir-iki isti kəlməylə ürəklərini qızdıraq, könüllərini alaq, bir sözlə, qısa da olsa nikbin anlar bağışlayaq onlara. Və komitə əməkdaşlarının əmək haqqlarından könüllü topladıqları 10.000 manatı dar günlərində onlara yardım edək.

Fabrikin keyfiyyət üzrə direktor müavini Mirsiyab Mehrəliyevlə orada tanış olduq və necə deyərlər, ev sahibi tək bələdçimiz oldu. Bildirdi ki, burada hazırda 45 ailədə 250 nəfərə yaxın adam yaşayır. 8 ailə Şuşa, Kəlbəcər və Füzulidən, qalan 37 ailə isə Ağdamdan gəlib. İmkanımız çatan yerdən kömək edirik.

Ancaq bu heç də onların tam rahatlığı deyil. Hər kəsə öz ev-eşiyi, yavan da olsa təknəsindən bir loxma çörəyi lazımdır. Bunları isə biz, heç kim heç nəylə əvəz edə bilməz.

Müsahibimiz xeyirxah insan təsiri bağışlayırdı. Yaxşı ki, qaçqınlar belə səmimi adamlara tuş olublar. Qaçqınların A.Bakı-xanov adına tikiş fabrikinin rəhbərliyindən, yerləşdikləri binanın komendantlığından və fabrikin bütün əməkdaşlarından razılıqları yerdən-göyəcən idi. Giley-güzar etdikləri əlaqədar təşkilatlar haqqında oldu. Müharibə çətinliklərinə dözmək ağırdı. İllahdakı bu ağrı düz ürəyindən keçsin. İndi didərgin ağdamlıların bu kövrək narazılıqları bəlkə də haqlı idi. Nə isə...

Sonra ayrı-ayrı ağdamlılarla dərdləşdik:

Cəfərova Nuridə: Seyidli kəndindənəm. 6 nəfər ailə üzvümlə 2 aydın ki, buradayam. Yoldaşım qospitalda xəstə yatır. Böyük oğlum 22 yaşlı Namiq ordudadır. Ağdam erməni əlinə keçəndən sonra 2 dəfə gecə xəlvətcə məhləmizə gedib. İncil ağacının başına çıxıb həyətimizdəki erməniləri izləyib ki, görsün nə edirlər, nə danışırlar. Nuridə xanım oğlundan ürəkdolusu, fərəhlə danışırdı. "Bir kəlmə də oğlumdan yazın" – deyə xahiş etdi. Amma elə vuruşan oğullar haqqında bir kəlmə yox, hansısa bir milli əsgər demişkən, diricə bir qəzet yazılsa da, bəs etməz onların şücaətinə.

Füzulidən ağbirçək ana yana-yana danışdı. 7 aydır ki, nəvə-nəticəmlə buradayam. Evimi qrad darmadağın etdi. İndi çöllərə düşmüşük – deyib kövrəldi.

Darıxma ana, dünya xali deyil, vaxt gələr, hər şey öz əzəlki yerinə qayıdar, sən də nəvə-nəticənlə öz ocağına. Neynim, düşməni xar olsun. Nə bu dünyasından, nə də o dünyasından yarımasınlar.

İyul ayında heç milli əsgər paltarını əyninə geyməmiş şəhid olan Nurəddin Quliyevin boynu bükük, ağlar gözlü bacısı gəlib yanımızda dayandı, doluxsundu. Ürəyinin sözünü isə qardaşı arvadı Mahirə xanım dedi. Subay, gənc qaynı Nurəddinə heç

olmasa bircə dəfə ehsan vermək arzusundadırlar. Maddi imkanları çatmır. Özləri də buna görə rahatlıq tapıb ovuna bilmirlər.

Qiyaslı kəndindən Tahirə xanım üzgün xəbər söylədi. Atam-anam, qardaş-bacımdan xəbərsizəm. İyulun 21-i Ağdamdan çıxandan sonra görüşməmişik. Səhər bir yerdə olmuşuq, axşam ayrılmışıq. İndi bir-birimizin yer-yurdundan xəbərsizik.

Darıxma, Tahirə bacım, xeyirxah insanlar çoxdur. İnşallah görüşərsiniz, sevinərsiniz. Sevincimiz yaxın olsun, daim olsun.

Gülnara Tağıyevanı ailə qayğısının narahatçılığı lap təntidib. 21 iyulda Ağdamdan çıxıb bura gəlmişik. Bu üç balamla bircə diləyimiz var: Ağdamımız qaytarılsın. Ağdamın külünü istəyirəm. Gedib ailəmlə, balalarımla, qonşularımla, elimlə şenəldəcəm o yurdu. Gülnara xanım Cəmilə, Mətanət və Əli adlı övladlar böyüdür. – Oğlum ağır qəlpə yarası almışdı. Öldü ölümdən qayıtdı. Üstündə bir neçə dəfə cərahiyyə əməliyyatı aparıldı. İndi-indi özünə gəlir. İstəyirsiniz çağırım göstərim. Və bayaq bizi gülərüzlə qarşılayan Əlini yanına çağırdı. Qarın nahiyəsində necə şırımlanmış yer göstərdi. Ana dolmuşdu. Bir himə bənd idi... Əli isə heç nə olmamış kimi gülürdü.

– Əli, bayaq heç bizə deməmişdin yaralandığını?

– Eh nə olsun ki, böyüyəndə bütün düşmənlərimizi – erməniləri qıracağam.

Bu 7 yaşlı Əlinin mübarizə eşqi idi.

Belə hüzn dolu, ağrı dolu söhbətləri saatlarla uzatmaq olar, ancaq söz qurtarmazdı.

Xudahafizləşib ayrılarkən baxışlarımızda, ürəyimizdə bircə niyyət heykəlləşdi: Ağdamda görüşənədək.

*"Vaxt" qəzeti,*
*09 sentyabr 1993-cü il*

## ŞƏKİ – HÜSNÜN GÖZƏLSƏ...

Şəkiyə redaksiyanın tapşırığı ilə gedirdim. Gedəcəyim günü təsadüfi seçməmişdim – 28 may, bazar ertəsi. Həmin gün, bu iləcən qətiyyən yaxşı mənada xatırlamaq "istəmədiyimiz", indi isə bütün respublika miqyasında rəsmən bayram etdiyimiz Azərbaycan Cümhuriyyətinin 72-ci ildönümü idi. İllərlə həsrətini ürəyimizdə çəkdiyimiz günü -–indi gör hansı ağrıyla keçirməli oluruq. Yeri gəlmişkən, həmin gün Ülvi Şəhidlərimizin ruhlarını təbrik etməkdən savayı xəyalıma kimsə gəlmədi.

Lap uzaqdan -–zirvəsi qarlı, əzəmətli, aşağıdan -–boy-boya çatılmış yamyaşıl, məğrur dağlar qucağına sığınmış Şəki bu görkəmi ilə necə də kəndimizə oxşadı... İlk andaca sevdim səni, Şəki.

*Xan sarayı* - kimi gözəl bir milli mədəniyyət abidəmizi görmək qismətimdə varmış. Həyəti tör-töküntü içində olsa da ilk baxışda əzəmətinə heyran kəsildim. Bu da iki məşhur "təbii şərq çinarları". Pasportları da yanında: Yaşı – 400 il.Diametri – 2m.10sm. Hündürlüyü – 37 metr.

Ölməz Nazim Hikmətin – "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi" – sözləri fikrimdə ikən içəri keçdik. Xan sarayının fotoqrafı Kamal Kərimovun bələdçiliyi ilə sarayın sirləri ilə tanış oluruq. Dünyanın min bir sirri rənglərin izi ilə divarlara həkk olunmuşdu. Üst-üstə çəkilmiş rəngli boyalar, gözəl ornamentlərlə işlənmiş buxarılar, venetsiya şüşəli şəbəkəli pəncərələr, izaha gətirə bilmədiyim min bir gözəlliklərlə dolu sənətkarlıq işləri, nəhayət, binanın tikilmə üsulu: adi taxtadan geydirilmə, mıxsız, palçıqsız, daşsız qurulmuş bəzəkli bir imarət. Həmişə hər şeydə, hər kəsdə ancaq gözəllik, yaxşılıq əlamətlərini seçməyə çalışıram və görürəm. Pisi görə bilmirəm. Gözəlliyə məhəbbət hissi məndə daha güclüdür. Nə isə. Ancaq Xan sarayının bu qədər gözəllikləri içində min bir də qüsur gördüm. Gördüm və ürəyimdən qara

qanlar axdı ki, göz görəsi saray "əriyir". İlk əvvəl onu deyim ki, sarayın özü qədər qiymətli olan xalçaları Rusiyanın Ermitac muzeyində daha "etibarlı əldə qorunduğundan" yerə döşənmiş xalçalar saraya qətiyyən uyğun gəlmir. Divarlar məktəblilərin qarmaqarışıq yazıları, xətləri ilə doludur. O uşaqların ünvanına yaxşı-yaman sözlər eşitdim. Amma bununla razılaşa bilmədim. Axı o məktəbli uşaqlar haradan bilsinlər ki, bu kimin tarixidir, biz kimik, yəni bizim də tariximiz, kökümüz olub ki, mədəniyyətimiz, mədəniyyət abidələrimiz olsun? Bir də milli tarixi bilmək o qədər də vacib deyil, çünki biz beynəlmiləlçiyik. O uşaqlar, sonra, çox sonralar böyüyüb az-çox bir şey dərk edəndən sonra biləcəklər ki, bu saray nədir, tarix nədir və vaxtilə bu divarları nahaq yazıblar. Bir-bir otaqları gəzirik. Otaqlardan birinin divar naxışının "gözəlliyinə" lap heyran qaldım. Burada 8 guşəli ulduzlar bir-birinə elə "mehriban bağlanıblar" ki, onların birləşmələrindən xaçvari nişanlar yaranıb – dini beynəlmiləlçilik ideyası gözəl həyata keçirilib. Naxışlara elə yaralar vurulub ki, çətin düzələ. Bütün bunlar 1958-1968-ci illər əsaslı təmirindən "doğulub". Yaxşı ki, bərpaçı əlindən "salamat qalmış" yerlərdə 8 guşəli ulduzların əzəlki birləşməsini tapdım. Bu isə tamam başqa şeydir. Hər bir nöqtəsi millilik təcəssümü ilə seçilir. 1958-68-ci il bərpasının ən ağır yarası – taxta geydirməli, naxışları qaymaq, yumurta sarısından çəkilmiş binanın üstünə həmin illərdə betonlanmış dəmir tir bağlamalar döşənib. Binanın üst hissəsi xeyli çökəlib. Naxışlarda çatlar əmələ gəlib. Böyük təhlükə qarşısında olan saray bilmir dərdinə dərman kimdən umsun. Otaqların birində, dövlət məsələləri həll olunan otaqda bir rəsm daha maraqlı idi. Nəhəng şir, başında şahlıq tacı – quyruğunun ucundakı ilan başı belinin üstündən taca doğru çalmaq niyyəti ilə əyilib. Şirin belində iki qanad, qanadların birinin üstündə isə gözəl bir qadın başı. Kamal bunu belə izah etdi ki, hakimiyyət hər kəs üçün müvəqqətidir, lakin dövlətin sirrini başçı öz qadınına, ailəsinə verməməlidir. Yoxsa, başqa şəkildə göstərildiyi kimi, tac

artıq şirin ayaqları altında, şirin taclı başını isə qadın başı əvəz edir. İlan isə öz işindədir, ölkəyə divar tutur.

**Qədim Şəki** – yaxşı ki, qoruq kimi saxlanılır. Yoxsa təzə Şəkinin gününə düşər. Qədim tarixi, xanlıqlar məskəni olan Şəki adına gəlib heç nə görməzlər. Tarix – diyarşünaslıq muzeyində Şəkinin flora-faunası, etnoqrafiyası, sənətkarlıq nümunələri, tarixi, bugünü, görkəmli şəxsiyyətləri haqda məlumat və s. – dörd mindən artıq eksponat öz əksini tapmışdır. Ucqar yerdə yerləşdirildiyindən ona baxış, xalqla əlaqəsi çox zəifdir. Muzey yaşıllıqla əhatələnib. Arxa hissəsində təzə bağ salınıb, təzə bulaq tikilib. Muzeyin direktoru Firidun Zamanov bağın tarixi haqda danışdı: 20 yanvar zülmət gecəsində şəhid olanların hər birisinin adına burada bir ağac əkilib. Adları da üstünə yazılıb. O körpə ağaclar artıq hamısı torpaqda tutuşub. Təzə yarpaqlar töküblər. "Ülvilər bağı"nda Ülvimi "tapdım". Ürəyimin göynərtisi ilə bir qoşa ovuc su tökdüm. Ülvi boy-buxunlu körpə çinara. Onlar tarixin şəhid şahidləri kimi muzeyin canlı eksponatları idilər.

*"Ədəbiyyat və incəsənət"*
*20 iyul 1990-cı il*

## EL-ELƏ QOVUŞAR:

Şəki rayonunda yerləşdirilmiş didərginlərlə görüşmək məqsədilə ora getdim. Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədr müavini, köçkünlərə köməklik məqsədilə yaradılmış qərargahın sədri Sosu Usubovla görüşdüm. Sosu müəllim ilk növbədə, necə deyərlər, "durduqları yerdə işə düşdüklərini" qeyd etdi.

– Ermənistandan qovulmuş azərbaycanlıları yerbəyer etmək üçün böyük çətinliklərlə üzləşməli olduq. Hər bir ailə ilə ayrıca məşğul olmuşuq. İlk növbədə onların mənzil problemini həll etdik. Gələnləri kəndlərdə yerləşdirməyi daha münasib saydıq, hər bir ailəyə torpaq sahəsi ayırdıq. Yemək, geymək qayğılarını yerli kənd əhalisinin birgə köməkliyi ilə aradan götürdük. Ali təhsilləri ixtisaslarına uyğun işlə təmin etdik. İlk yardım üçün 220 min manat pul ayırdıq, uşaqları məktəbə qoyuldu, səyyar səhiyyə briqadası təşkil edildi, mənzillərə qaz çəkildi. İnzibati-hüquq mühafizə orqanları ilə birgə doğma yurdlarında qalmış əmlaklarının miqdarını rəsmiləşdirərək sənədləri Nazirlər Soveti yanındakı komissiyaya təhvil verdik. Vətəndaşlıq hüquqlarını təsdiq edən sənədlərini sahmana saldıq, xüsusi norma əsasında gələn gündən səhiyyə, məişət, ticarət fondu ayrılıb, – Sosu müəllim danışdıqca adama elə gəlirdi ki, qaçqınların daha heç bir qayğıları, ehtiyacları yoxdur, başları da işə-gücə qarışıq dinc, adi həyat ahəngində işləyir, yaşayırlar. Çox təəssüf ki, yerlərdə olarkən bu danışıqlarla görülən işlər arasında böyük fərq gördüm. Nə qədər özü-özünü aldatmaq olar?

Rayon mədəniyyət şöbəsinin müdiri R.Məmmədov və RPK məsul işçisi G.Salamova ilə rayondan 40 km. aralıda yerləşən Şəki sovetliyinin üzümçülük sovxozundayıq. Sovxozun idarə binasında sovetlik həmkarlar təşkilatının sədri bizi qarşıladı. Gəlişimizin məqsədini – sovxozda yerləşdirilmiş didərginlərlə görüşüb söhbət edəcəyimizi bildirdik. Az sonra sovxozun direktoru, kənd sovetinin sədri də gəldi. Qaçqın ailələrin həyat

tərzi ilə yaxından tanış olmaq məqsədilə idarəyə yazı x bir evə getdik. Ailənin ağsaqqalı bizimlə salamlaşanda yerimdə donub qaldım. Kənddə böyük mülk, bağ-bağat sahibi olan Davud əmi, həyat yoldaşı – atamın xalanəvəsi Bəyaz xala və uşaqları bizim başımıza toplaşdılar Neçə vaxtdır ki, yer-yurdlarından xəbər tuta bilmədiyimiz qohumlarımı gör gəlib harada, hansı şəraitdə görürəm? İxtiyarsız gözlərim yaşardı. Belə hadisələrə artıq vərdiş etsəm də özümü ələ ala bilmirdim.

– Bəyaz xala, necəsiniz, nə var, nə yox? – deyəndə bir anlığa yanımdakılar da, ev sahibləri də çaşdılar. Bəyaz xala indi tanıdı məni. İlk, həm də üsyankarcasına sözü bu oldu:

– Ülviyə kim qıydı? Bəs, Qasım müəllim onun düşmənlərini tapa bilmədimi? Ömrünü xalqın balaları yolunda girov qoyan kişinin də balasına qıyarlarmı? – deyə haray çəkdi. Hamı ağladı. Mən özümü ələ alıb, bu müsibətləri sadə əmək adamına, dünyanın fırıldaqlarından hələ də baş aça bilməyən Bəyaz xalaya izah eləməliydim. Onu yoxlamağa gəlmişdim, o isə mənim dərdimə şərik çıxırdı. Ülvimin sinif yoldaşı, ailənin qızı Veneranın gözləri üzümdə qalmışdı. Hamı cavab gözləyirndi. Mən isə onlara izah etməliydim ki, bu yüzlərlə ülvilərin müsibəti oldu. Necə deyəydim ki, bizim sabiq rəhbərliyin günahı üzündən xalqımızın başına bu bəla gəldi. Mən onlara təkcə onu deyə bildim ki, haqq olan Allah hər şeyi ayırd edəcək.

Qonşular da gəldilər. Bircə kəndçimiz Dilbər xalanı və qızlarını tanıdım. O birilər isə Göyçənin başqa kəndlərindən idilər. Hamı misgin görkəmdə, hamı zillət içərisində idi. Göyçədəki gün-güzəranı xatırladım...

Davud Qasımov 10 nəfər ailə üzvü ilə birlikdə 1988-ci ilin dekabrında bu sovxoza gəlib. İndiyəcən bir "koma qaralda" bilib. "Tikinti materialları tapılmır, tapılanda da od qiymətinə. Yağ, pendir, digər ərzaq məhsulları sarıdan çəkdiyimiz korluq isə bütün kənd əhlinə aiddir", – dedi Davud kişi. Həyətdə nə bir toyuq-cücə, nə mal-qoyun görünürdü. Evdə 2-3 körpə vardı. (Bura gələrkən

yolda mağazaya girib baxmışdım. Ərzaq adına heç nə yox idi). Adamı dəhşət götürür ki, bərəkətli Azərbaycan torpağında yaşayasan, dükanlar boş, bazar isə od qiymətinə ola. Dilbər xalanın balaca evinə getdim. Kənddə olan evi böyük bir imarət idi, tərtəmiz, hər cür ev əşyaları da içində. İndi isə bir neçə yataq dəstindən başqa heç nə yox idi. Yəni didərgin ailələrinin hamısı belədir? Ailənin başçısı, 50 yaşlı Səfər əmi bu kəndə gələndən az sonra rəhmətə getmişdi. Ürəkaçan heç nə yox idi.

Xəlilov Qaranın ailəsi Yeğeqnadzor rayonunun Ələyəz kəndindən gəlib. Dilbər xalanın qonşuluğundakı sahə onundur, iki maşın daş töküb. Tikinti materialları tapa bilmədiyindən hələ də 8 nəfər ailə üzvü ilə birlikdə onun-bunun qapısında qalır.

Ənvər Quliyev dedi:

– Bu sovxozun hökumətə üzüm haqq-hesabına görə bir milyon yeddi yüz manat borcu var. (Vaxtilə camaata sırınmış "pripiska" əməliyyatından olan borcu nəzərdə tuturdular.) Biçarə xalq bu borcu neçə ilə verəcək ki, dolanışığını yaxşılaşdırsın? Səhər o başdan axşam şər qarışanacan hər gün üzüm sahəsində işləyir, bir ayda bu qədər zəhmətin qabağında aldığı isə 30-40 manatdır. (Adama ağır gələn odur ki, dözülməz gün-güzəranımızı boynumuza almaq istəmirik. Bürokratiya azarı isə rəhbər işçilərin çoxusunun qanına-iliyinə işləyib).

Rəsulov İxtiyar (sovxoz mədəniyyət evinin müdiri): – Kənd yerlərindən gənclərin baş götürüb getməsi heç də onların günahı deyil. Doğulduqları kənddə torpaq sahəsi ala bilmir ki, ailə qursun, ev-eşik sahibi olsun. Bir iş yoxdur ki, işləyib başını saxlasın. Budur, bir milyon manatlıq smeta dəyərində layihə hazırlanıb ki, mədəniyyət evi tikilsin. Lakin əməlli-başlı bir tikinti idarəsi yoxdur ki, işə başlasın.

Kənd məktəbinin dam-divarı rütubət içində idi. Uşaqların hansı şəraitdə oxumaları adamın ürəyini göynədir. Kənd soveti sədri Hidayət Kərimovun fikrincə, adam uşaqlıqdan hər çətinliyə öyrəşməlidir(?).

Ənvər Quliyev təklif etdi ki, qonşuluqdakı hüzr yerinə dəyək, nədənsə, heç kəsin gözləmədiyi bir halda, kənd sovetinin sədri etiraz etdi. Sən demə, bu səbəbsiz deyilmiş.

Qaçqın Səbanın yoldaşı vaxtsız rəhmətə gedib. Sovxoz direktoru Əhməd müəllim hüzr vaxtı lazım olan köməkliyi edib. Bəs başsız qalmış bu gənc ailəyə, 4 uşaq anası Səba xanıma kənd soveti necə kömək edib? Adi qayda üzrə hamıya, didərginlərə paylanan torpaq sahəsini belə 4 yetim körpəyə qıymayıb. Səba xanım ağlayaraq dərdini izah etməyə çalışırdı. Son dərəcə abırlı-həyatı gəlin: – Utanıram, atam evi olanda nə olar ki, qardaşlarım özləri ailə-uşaq sahibidir, bu yandan da mən. Nə vaxtacan yer-yurdsuz qalmaq olar? – dedi.

Kənd soveti sədrinin bura gəlmək istəməməsinin səbəbi mənə aydın oldu. "Ancaq sənin xatirinə" – deyə Hidayət kişi böyük bir minnətlə özündən razı halda bu işi düzəldəcəyinə söz verdi. Sosu müəllimə bu vəziyyəti bildirəndə izah etdi ki, H.Kərimovun özbaşınalığından hamının xəbəri var. Amma növbəti seçkini gözləməliyik. Əcəb məntiqdir.

Nisyə olan şad xəbərə Səba xanımın da, 4 körpəsinin də üzü gülürdü.

Qayıdanda yolboyu kəndin köhnə sakinlərindən olan Cahan xalanın bir sözü ürəyimə sakitlik gətirdi. "Ay bala, hər şeyə öyrəşəcəklər, həyat şəraitini də düzəldəcəklər. Biz bir-birimizə qız alıb-veririk, qaynayıb-qarışırıq. Birini də mən oğlum üçün gözaltılamışam", – Cahan xalanın ürəkaçıqlığı ilə dediyi bu sözlər hamımızı ağır təəssüratlar qoynundan çıxarıb xeyli nikbinləşdirmişdi.

*"Vətən səsi"*
*13 iyun 1990-cı il*

## BEYLƏQAN – YURD HİKMƏTİ

Mil düzündə olarkən iki şəhər gördüm. Biri əbədiyyət yuxusunda ikən xarabalıq abidəsinə çevrilmiş, o biri isə təzə pöhrələnmişdir. Hər iki şəhərin adı Beyləqan idi. Birinin ömür tarixi neçə yüz illəri ötüb, bəlkə də min ildir ki, "yaşayır". O birinin isə cəmi əlli yaşı var. Orada olarkən ürəyimdən keçən bir duyğu oldu. Gənc Beyləqan qoy hər gün böyüsün, ucalsın, pöhrələri daim artsın və xaraba qalmış Beyləqanı – Örənqalanı şenliyinə qatsın. Əlli yaşın mübarək olsun! Dönüb yüz olsun, min olsun! Amma həmişə abad olsun!

**"Peyğəmbər"i ziyarət** *:* İlk səfərim "Peyğəmbər"i ziyarətlə başladı. "Həzrəti Cərciz Peyğəmbər" türbəsi rayonun yaxınlığındakı "Peyğəmbər" qəbiristanlığında yerləşir. Türbə 1328-ci ildə tikilib. Əsrlər boyu baxımsızlıq üzündən bərbad hala düşüb, dağılıb-sökülmüşdür. 1911-ci ildə isə yerli Hacı Qulu öz vəsaiti ilə bu müqəddəs ocağı bərpa etmişdir. "Həzrəti Cərciz Peyğəmbər" türbəsinin divarlarında dini rəvayətlərlə bağlı yağlı boyalarla işlənmiş rəsmlər təsvir olunmuşdur (Qurban bayramı və s.). Quranda göstərilir ki, Həzrəti Cərciz Peyğəmbər yüz iyirmi dörd min peyğəmbərin yetmiş birincisi olmuş, Məhəmməd Peyğəmbərdən 400 il əvvəl yaşamışdır. Cərciz Peyğəmbərin atasının adı Şöüb olmuşdur. Həzrət Davud peyğəmbərin qardaşıdır. Azərbaycan ərazisində olan yeganə peyğəmbər qəbridir. Azərbaycan Mədəniyyət Nazirliyinin bu nadir tarixi eksponata münasibəti barədə danışmaq istəməzdim. Belə ki, abidə Mədəniyyət Nazirliyinin qeydində olsa da, heç yadına da düşmür. O, ciddi elmi bərpa vəziyyəti qarşısındadır. El sınağından çıxmış "Ziyarətgah"a, heç olmasa türbənin qabağına peyğəmbərin şəxsiyyəti haqqında mərmər lövhə vurulsun və s.

**"Atatürk qəsəbəsi""də** *görüş :* Onun üzündə elə bir yanğı var idi ki, bunu görməmək və düşünməmək mümkün deyildir. Bu, həsrət yanğısı idi, yurd yanğısı idi, illacsızlıq yanğısı idi və

indi də bizim gəlişimizlə kədər, dərd dolu o çöhrəsinə şuxluq, səmimiyyət qatmaq istəyirdi. Gəlişimizi ürək açıqlığı ilə qarşıladı:

– Xoş gəlib, səfa gətirmisiniz, qurban olum sizə.

– Çox sağ olun, əmi, kefiniz-halınız, cəmi el-oba darıxmağa qoymur bizi.

Ümumi gün-güzəranları ilə yaxından tanış olmaq üçün Hümmət kişinin "qonaq olun, çörəyimizi kəsin, suyumuzu için" təklifini məmnuniyyətlə qəbul etdik. Nurani bir ana "xoş gəldin" elədi. İçəriyə keçdik. Adını eşitdiyim, amma görmədiyim, – üstünə xalça-palaz döşənmiş, bəzək-düzəkli döşəkçələrlə dövrələnmiş taxt üstündə bardaş qurub oturduq. Süfrəyə pendir, çörək, şəkər, çay gəldi. Baba həniri, nəvə səmiri ilə təzəcə isinən bu evin bəlkə də ən əziz qonağı sanıb, Hümmət kişi bir qəmli hekayət danışdı. 1944-cü ildə, 13 yaşında olarkən öz ata-baba yurdundan, əcdadlarının uyuduğu torpaqdan, Gürcüstan SSR-in Adıgen rayonunun Xarcam kəndindən qovulub. Elliklə hamısını çöllərə atıblar, tale aparıb çıxarıb Özbəkistanın Fərqanə düzlərinə. Təzəcə dolanışıq yolu tapıb uyuşmaq istəyirmişlər ki, yenidən köçhaköç başlayıb. "Tanrıya min şükür, qoy bu elin işığı həmişə gur olsun, yanar olsun. Ən ağır günümüzdə bizə arxa oldu, xilaskarımız oldu".

Dünyamalılar kəndinin kənarında təzə salınmış bu qəsəbəyə yurd olmaq üçün Fərqanədən 18 türk ailəsi gəlmişdir. Artıq hamısı evli-eşikli idi. Hərəsi bir işin qulpunda el-obaya qaynayıb-qarışırdı. İndi el həmin qəsəbəyə böyük Atatürkün adını vermək istəyirdi.

Yolboyu bu ağsaqqal kişinin hər kəlməsi içimdə təzədən səslənirdi. "Hamının qayğısı, diqqəti bizədir. Ömrümüz boyu duaçıyıq bu xalqa". Hümmət kişinin hər qayğıya uşaq tək sevinməsi məni kövrəltmişdir.

**Mədəniyyət... Mənəviyyat...** *:* Məlum məsələdir ki, respublikada kitabxanaların xüsusi binalarda yerləşdirilməsi olduqca pis, yarıtmaz vəziyyətdədir. Bu haqda dəfələrlə söhbət getsə

də, Mədəniyyət Nazirliyinin konkret bir təklifinə və ya göstərişinə hələ ki, rast gəlməmişik. Bu sahənin işçilərinin də maaşı aşağı olduğundan ali təhsilli kadrlar öz peşələrindən çox tezliklə uzaqlaşırlar. Ona görə də respublikada kitabxana işi hələ də öz yüksək səviyyəsini tuta bilməyib. Beyləqan rayon kitabxanaları ilə də maraqlandım. Bir neçə kənddə oldum. Əksəriyyəti xüsusi binalarda yerləşdirilib. Rayonda, vahid kitab fondu 308,2 min olan mərkəzi kitabxana sistemi fəaliyyət göstərir.

**Örənqala :** Azərbaycan! Keçmişinlə həm fəxr edirəm, həm də yanıram sənə. Ona görə fəxr edirəm ki, dünyaya Nizami, Babək, Xətai, Vaqif kimi oğullar bəxş edibsən, ürəyim də yanır ona görə ki, həmişə yad gözlər sənə dikilib, yad ayaqlar səni tapdayıb, yad atların iti cırnaqları sinən üstünə çalın-çarpaz dağ çəkib. Hər şəhərin, hər kəndin ta yaranışından bu günə qədər neçə dəfə dağıdılıb, neçə dəfə tikilib, heç kim deyə bilməz. Amma bu yerdə – Örənqalada sanki tək bircə dəfə döyüş olub. Son, qəti, amansız bir döyüş. Bir anlığa özümü bura gələn ilk adam, məhz  XIII əsrdə hiss etdim və mənə belə gəldi ki, monqol döyüşçüləri ilə olan bu döyüş indicə başa çatıb və onlar elə indicə gediblər buradan, hansısa başqa bir şəhəri mühasirəyə almağa, yerlə-yeksan etməyə. Qulağımda qılınclar, qalxanlar şaqqıltı qopardı, atlar kişnədi. igidlər nərə çəkdi. Azərbaycan övladları heç vaxt düşmənə arxa çevirməzlər. Üzbəüz ölümü hər şeydən üstün tutarlar.

Örənqala – qədim Beyləqan şəhərinin xarabalıqlarıdır. Şəhər Sasani padşahı I Qubadın dövründə salınıbmış, sahəsi 40 hektardan artıqmış. Xalqın canı və qanı bahasına yaradılan, əsrin ən gözəl mədəniyyət incisi sayılan Mil-Minarə ətrafa xüsusi gözəllik bəxş edərmiş. Mil düzünün adı da Mil-Minarə ilə əlaqədardır. Beyləqanın iqtisadiyyatında maldarlıq, bağçılıq, sənətkarlıq üstünlük təşkil etmişdir. O, Bərdə-Ərdəbil ticarət yolu üstündə yerləşmişdi ki, bu da bir çox ölkələrlə iqtisadi əlaqələrin möhkəmlənməsinə müsbət təsir göstərmişdir. Burada

olan arxeoloji qazıntı zamanı çoxlu maddi-mədəniyyət abidəsi aşkara çıxarılmışdır. Daş, metal, saxsı və şüşə əşyalar, sikkələr, qala darvazası, qala divarları, təsərrüfatda və məişətdə işlənən alətlər, sənətkarlıq emalatxanaları və s. Bütün bu nümunələrdən ibarət elə həmin xarabalıq yerindəcə şəhər tarix-diyarşünaslıq muzeyinin kiçik bir filialını açmaq mümkündür ki, bura gələn kəs də dəqiq, ətraflı məlumat əldə edə bilsin. Orada olduğum üç gün ərzində tarix-diyarşünaslıq muzeyinin açılması müşkül məsələyə çevrildiyi üçün Örənqalanın muzeydə necə təmsil olunduğunu görə bilmədim.

Örənqala xarabalığından geri qayıdanbaş belə bir lövhə diqqətimi cəlb etdi: "Tariximizin sirlərini abidələrimizlə öyrənək".

**Eləmi, Vətən yaxşı!...** *:* Ayrı-ayrı kəndlərdə olarkən Ermənistandan qovulmuş azərbaycanlı ailələrlə də görüşürdüm. Tanış olduğum bütün ailələrdə onları narahat edən məişət qayğılarından çox, yer-yurdlarından günahsız qovulmaları, təhqir olunmalarıdır. İllər uzunu qazandıqlarını itirmələridir. Və ən dəhşətlisi də budur ki, bütün bu vəhşiliklərin səbəbkarları dindirilmir, günlər bir-bir arxada qalaraq aylara çevrilmiş, nəhayət, budur, il tamam olur. Quduzlaşmış ermənilərdən isə bu haqda bir kəlmə də söz soruşan yoxdur. Son dərəcə ağır vəziyyətdə bura üz tutan ailələrin əksəriyyəti ev-eşiklə, təsərrüfatda işlə, maddi təminatlarla qismət rahatlanıblar. Elə bilirəm ki, az müddətə maddi ehtiyacın nə olduğunu yenə unudacaqlar. Əvvəlkindən də yaxşı dolanışacaq tapacaqlar. Təkcə bir nisgili ürəkdən çıxarıb ata bilməyəcəklər.

*Mən aşıq, Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı.*

Kim deyibsə, yaxşı deyib, haqq söz deyib.

*Beyləqandan Göyçəyə : Rayonun birinci katibi* Mürşüd Əzimovla görüşdük. Səmimiyyətlə "xoş gəldin" elədi. Rayonda

gəzdiyim yerlərdən, görüb-bildiyim problemlərdən, eşitdiyim razılıqlardan, narazılıqlardan söhbət etdik. Rayonun ərazisinə gəlmiş didərginlərdən, onların yerbəyer edilmələrindən, ehtiyaclarının ödənilmələrindən, ümumiyyətlə, onlara göstərilən hərtərəfli qayğılardan danışıldı. Söhbətarası bildirdim ki, aran torpağına ilk dəfədir ki, gəlirəm. Yaxşı, dəyərli, ibrətamiz çox şey gördüyümü dedim. Və gözlənilmədən söhbətimiz tamam başqa bir axara yönəldi:

– Qızım, yəqin dağ balasısan ki, həmişə dağlar səmtə meyl etmisən?

– Göyçə torpağındanam, – dedim.

Göyçə adını eşidəndə müsahibimin bir az kövrək, bir az sevincək hiss keçirdiyini duydum. Elə bil yorğun gözlərinə rahatlıq axdı. Bir anlığa hər şeyi unutdu. Ötənləri xatırladı:

– Bu rayondan olsam da, anamın südünü o dağlarda, o eldə dadmışam. Uşaqlıq oylağım, gənclik sirdaşım, cavanlıq günüm olub Göyçə. Ağyoxuşu, İnəkdağını, Kəsəməni, Çaxırlını, Məzrəni, Şişqayanı, Zodu, Sarıyaqubu (indi o kəndlərin adı bambaşqadır – A.B.) neçə dəfə gəlmişəm, Canəhməddən Qoşqar dağlarına sarı boylanmışam. Hər dağı, hər dərəsi sirdaşım olub. Camaatını əzizim, doğmam bilmişəm. Cəmi Azərbaycan xalqına xas olan ən gözəl, ən dəyərli adət-ənənəni Göyçədə görmüşəm. Qonaqpərvər, mehriban, xoş duyğulu, təmiz qəlbli idilər. Heyf, çox heyf o torpaqlardan. Vaxt gələr, bir də dönərik oralara. O dağları ki, mən tanıyıram, indi gözü yolda, fikirdə-xəyaldadır. Əmim oğlu, kənd təsərrüfatı nazirliyinin məsul işçisi Məşdi ilə xysusi tanışlıqlarını və dostluqlarından danışdı.

O, danışdıqca mən də xəyalən o dağı-daşı qarış-qarış gəzdim, minbir gözlə qaynayan bulaqlarının bumbuz sularından ovuclayıb içdim, quzuqulağı, yemlik, şirin tikan özəyi, yarpız daddım, toppuz tikanları əlimi daladı, kəkotu, sarıçiçək dərdim, heç vaxt solmayan Solmaz çiçəyinin ətrini duydum. Hər şey əvvəlki kimi idi. Bütün kənd camaatıyla görüşdüm.

Müsibətlərimizi yana-yana xatırladıq.

İlk dəfə ayaq basdığım Mil düzündən – qədim Beyləqan torpağından min bir duyğuyla qayıdırdım. Hikmət dolu, qayğı dolu bu yurdun üç günüylə birgə oldum.

*"Ədəbiyyat və incəsənət"*
*10 noyabr 1989-cu il*

.

# DAŞKƏSƏN: ÜLVİ MƏKAN

Daşkəsənin dəmir filizi, kobaltı, mərməri, aluniti və s. kimi faydalı qazıntıları, xammalı vardır. Demər olar ki, şəhəri əhatə edən bütün dağlar zəngin filiz yataqlarıdır. İlk dəfə gördüyüm mərmər zavodunun "tikilişi"nə heyran qaldım. Nə bir çimdik torpaq-qumu, nə də başqa daş-çınqılı olmayan hündür bir dağ ancaq nəhəng mərmər yatağıdır. Dağın başından ta dibindəki çayın qırağınacan lay-lay səliqəylə kəsilmiş mərmər yatağı kənardan o qədər gözəl görünür ki, sanki bəzəkli gəlindir. Burada işləyənlərə ürəyimdə bəxtəvər də dedim. Və bu "bəxtəvərlərlə" görüşüb söhbət etmək istəyində oldum. Nahar vaxtı idi. 9-10 fəhləylə görüşdüm. Gördükləri işin müqabilində aldıqları əmək haqqının dəyərini, onları bu işə bağlayan maraqlı, qeyri-adi hissi öyrənmək istədim. Sən demə... onlar üçün nə gözəllik var orada, nə də ləzzət. Dolanışıq çətin, maaş az, qayğı çox, maraq yox. Cavan bir oğlan dilləndi:

"Elə miqdarda maaş alırıq ki, nə urvatdı bir geyimə çatır, nə də kifayət qədər yeməyə. Yəni aldığın maaşı ancaq ya geyməyə, ya da yeməyə xərcləməlisən.

Bəs belə tozlu, açıq havada işləyirsinizsə, hansı əlavə güzəştlərlə təmin olunursunuz?" – sualıma oğlan güldü.

– "Heç nə. Baxın, toz-torpaq içində işləyirik, necə deyərlər, "vredni" iş sahəsidir. Amma nə olsun, imtiyazlarından istifadə etmirik. Heç bilmirik bu kimin günahıdır".

Respublikadakı siyasi vəziyyətlə bağlı maraqlarını soruşdum. "Hər cürə üsuldan istifadə edib bizi aldatdıqlarına görə inciyirik. Erməni kimdir ki, nədir ki, ondan dörd ildir həzər çəkirik. Hökumət yoxdur, olsa, biz azəri oğulları o ermənidi, nədi, bir neçə günə oturdarıq yerində. Amma bax ki, başaçılmaz başbilənlərimiz nə qədər qırğınlar törədir, qarşısını almırlar".

– Respublikada gedən demokratik hərəkata münasibətiniz?

– Bu haqda heç nə bilmirik. Radio-televizor hər şeydən

danışır, təkcə əsil demokratiyanı pünhan saxlayır, az-çox bu barədə qulağımız bir şey çaldığından, televizorda gedən verilişlər bizə süni görünür".

Bu oğlan o qədər səmimi, saf, qeyrətli, kövrək hisslərlə danışdı ki, qəlbən qürur hissi keçirməyə bilmirsən. Adını soruşdum. İki oğul atası olduğunu dedi. Allah səni də, oğullarını da bu xalqa, ata-anana gözüdolusu versin, mərmərçıxaran oğlan.

Söz yox ki, bu sorğu-suallarda məqsədim müasir mərhələdə gedən ictimai-siyasi şəraitdə milli təfəkkürün inkişaf səviyyəsini, milli təəssübkeşlik hissinin nə dərəcədə özünə yer tutmasını öyrənmək marağımdan irəli gəlirdi. İstər bir çox ziyalılarla, istərsə də fəhlələrlə olan söhbətlərimdə yəqin etdim ki, bu cür oğullarla dağı dağ üstə qoymaq olar. Elə isə, axı dörd ildir ki, niyə igid-igid oğullarımız təkbətəkdə ermənilərin güdazına getməlidir? Nə isə. Bu zavod fəhlələrinin etdiyi giley-güzar söz yox ki, o biri sənaye obyektlərində də - Gəncədə də, Bakıda da, Şəkidə də, hər yerdə, respublikamızın hər nöqtəsində var. Bunları bilirik, amma...

1930-cu ildə əsası qoyulmuş Daşkəsən rayonu 1956-cı ilədək Dəstəfur rayonu adlandırılmışdır.

"İşıq üzünə həsrətik. Deməli, onda radio-televiziyadan da xəbərimiz yoxdur. Ayda bir dəfə poçtla qəzet-jurnal alarıq, ya almarıq. Amma bu o da demək deyil ki, bütün bunları elə özümüz istəmirik. Əsla yox, hamı kimi biz də istəyirik bilək, dünyada nə var, nə yox. Qonşu rayonlarda, doğma Bakımızda, Şəkimizdə, Gəncəmizdə vəziyyət nə haldadır. Bəlkə xalqımızın bu dar günündə baş verən hadisələrə bizim də köməyimiz vacibdir. XXI əsrin astanasında, 70 ildi əl çaldığımız İliç lapmalarına elə 70 ildir ki, həsrətik..." – bütün bu giley-güzarları isə Xoşbulaq kəndinin sakinləri etdilər.

**Haşiyə:** Rayonun bütün kəndlərində poçtun vəziyyəti olduqca ağırdır. Camaat nə maraq göstərdiyi mətbuat orqanına yazıla bilər, nə də yazıldığını əldə edə bilir. Görəsən bu məsələ nə vaxtacan üstüörtülü qalacaq. Respublikamızın rayonlarının əksər

kəndlərində mətbuata münasibət bu cürdür. Kənd camaatı abunə olduğu qəzet - jurnalı ya almır, ya da həftədə, yarım aydan bir alır. Yaxşı olar ki, hər kəs öz işinə vicdanla, qeyrətlə yanaşsın. Bəlkə onda heç bu qədər üst-üstə yığılmış problemlər olmazdı.

Xoşbulaq kəndindən keçib Şair Cavad ocağına ziyarətə gedirdik. Bu müqəddəs yurdu, rayonda görüşüb söhbət etdiyim, sazın-sözün qədir-qiymətini sayan, ədəbiyyat dostu, qəlbi şeir məhəbbətli Nəbi Quliyev nişan vermişdi. Biləndə ki, "Ədəbiyyat qəzeti"ndə Daşkəsənlə bağlı material hazırlamaq fikrindəyəm, şair Cavad hikmətindən, onun el arasındakı hörmətindən, zəngin ədəbi irsindən, dildə-ağızda söylənən dastanlarından söz saldı. Və istəyi də bu oldu ki, şair Cavadın şeirlərinin çap olunmasında, onun adının əbədiləşdirilməsində qəzetimiz rayon ictimaiyyətinin həmfikri-köməkçisi olsun. Şairə Zivər xanım Əzizqızı ilə Təzəkəndə, şairin doğulub boya-başa çatdığı kəndə getdik. Cavad ocağında bizi onun 62 yaşlı oğlu Qələndər Bayramov qarşıladı. Gəlişimizin məqsədini biləndə sevindi, gözləri yaşardı. "Atamı unutmayan eli var olsun", – dedi.

Qələndər kişinin dediklərindən:

– Şair Cavad 1898-ci ildə elə bu kənddə anadan olmuşdur; kasıb dolanışıqlı bir ailədə böyüyüb. Dörd oğul, üç qız, 75-ə qədər nəvə-nəticə yurdunda çıraq yandırır. O, əvvəllər molla yanında oxuyub, ərəb-fars dillərini öyrənib, bu dillərdə yazıb-oxuyub, möhkəm dini savad alıb. Sonralar ikiillik rus dili təhsili alıb. Şair təbli bir kişi idi. Şeirlərinin çoxunu bədahətən deyərdi. Xalq içində şair Cavad deyə, tanınıb, məşhurlaşıb. Dəyərli, xeyirxah məsləhətləri ilə elin xeyir-şərində başda oturub. Cavadın şeirlərinin əksəriyyəti dini mövzudadır.

*Ya Əli, zəhmətim özün itirmə,*
*Mərdə əl ver, namərdə əl yetirmə.*
*Üzüqara haqq divana gətirmə,*
*Xəcalətlik müşkül işdi dünyada.*

Şair Cavadın şeirlərində mənəvi saflıq, tərbiyəvi-əxlaqi

məzmun, ibrətamiz nəsihətlər, yurda, elə məhəbbət hissi daha qabarıq əks olunmuşdur. Şair Cavad gözəl aşıq imiş. Saz çalmağı, qıfılbəndlər söyləməsi, Ələsgərin bağlamalarını açması xəbəri Göyçə elinə yetir. Bu xəbər Növrəs İmanda maraq oyadır. Və şair Cavad demişkən, xuda onların görüşünü yetirir. Təsadüfi deyil ki, Növrəs İman da haqqa-dinə iman gətirən bir şair olub. O da sazla söz qapısı açarmış. Minbir sirli dünyanı gəşt edərmiş, dolanarmış, qəlbən xudaya pənah gətirərmiş və öz bilgilərini telli sazın sehri ilə başına yığışmış camaata, elata söylərmiş. Onlar ilk görüşdən dostlaşırlar, saz tutub deyişirlər:

Növrəs İman: –

*Yaxşı bəyənmişəmMiskin Abdalı,*
*Cəm imiş başında huşu-kamalı.*
*Vaqif qarışdırıb çox qeylü-qalı,*
*Sözlərində gəlin-qız gəlib,gedib.*

Şair Cavad: –

*Firdovsi elmi də asan olubdu,*
*Nizami, Xaqani dərin dalıbdı.*
*Qumru cəm şairdən üstün olubdu,*
*Kəlməsi bir gövhər söz gəlib, gedib.*

Şair Cavadın şeirlərindən məlum olur ki, onun saz-söz diyarı qədim Göyçə mahalı ilə əlaqəsi çox olub. Onda bir cür də möcüzəlik, elə bir əyanlıq elmi varmış ki, dolaşıq düyünlər açarmış, sirlər bəyan edərmiş. O tez-tez təklifə dalarmış. Onun bu tanrı vergisi artıq el içində ciddi sınaqlardan keçmişdir, hamı ona güman gətirirdi. Şair Cavadın şeirləri ilə yanaşı, bir neçə dastanı da var. "Növrəs İmanla Şair Cavadın deyişməsi", "Şair Cavad və Xurda xanım", "İskəndərin Bərdə səfəri", "Sonalar bulağı", "Şair Cavadın Gədəbəy səfəri", "Şair Cavad və Tamara", "Şair Cavadın Göyçə səfəri", "Həzrəti Əlinin vuruşması", "Rüstəmi-Zal dastanı" və s. Bu dastanlar mətbuat üzü görməsə də el içində aşıqlar tərəfindən söylənilib, oxunub. "Şair Cavad və Xurda xanım" dastanını aşıqlar üç gecəyə söylərmişlər. Xurda xanım şairin butası olur.

Lakin varlı ailənin qızı Xurdanı kasıb Cavada vermirlər. Sonralar şair Cavad oğul-uşaq sahibi olandan sonra, yaşlı vaxtında butası ilə görüşmək fikrini başından qova bilmir. 1936-cı ildə aşıq libasında şamxorlu Xurla xanımın qapısını döyür. Aşığı evə dəvət edirlər. Xurda xanım onu o dəqiqə tanıyır. Sirri açmır, ürəyində sevinir. Aşığı doyunca görməkdən, səsini eşitməkdən ötrü o gecəni səhərəcən məclis qurulur. Şair Cavad Xurda xanımın qəlbində hələ də yaşadığına sevinir. Elə bir məclis aparır ki, hamı heyran kəsilir. Və yaşlı butalardan başqa o gecənin sirrini heç kəs bilmir. Cavadın ən böyük məhəbbəti, inamı anasına imiş. Şair 25 il kolxoz sədri, kənd soveti sədri, kənd soveti katibi vəzifələrində işləyib. Gecə məktəblərində azsavadlılara dərs deyib. Lakin heç kəs ona – nə sədr, nə katib, nə də müəllim deyə müraciət etməyibdir. Uşaqdan tutmuş qocayacan hamı "Şair Cavad" – deyə çağırıb. Dini, allahı heç vaxt qəlbindən, söhbətlərindən çıxarmadığına görə xalq onu sevirmiş. Repressiyalar dövründə şairi bu bəladan xilas etmək üçün onun adına "allahsız bileti" yazıb verirlər. Səməd Vurğun, Məmməd Səid Ordubadi ilə dostluq edərmiş. O, 1969-cu il 19 martda vəfat edib.

Şair Cavadın doğulub, yaşadığı evi ziyarət etdik. Qayıdan baş Zivər xanım şair Cavad haqqında el içində olan söyləmələrdən çoxlu danışdı. Onu da əlavə etdi ki, bu yurdun hər daşına, torpağına yazdığı şeirləri ilə Cavad xatırlanır, yaşayır. Hər yurdun, hər obanın-zamanın, xalqın sınağından çıxmış müqəddəsləşmiş, müdrikləşmiş, xeyirdə-şərdə qəlbinin paklığına üz tutulan bir qibləgahı – söz Xiridarı olur, əziz tutulur. Nəbi müəllim şair Cavad yaradıcılığını, müqəddəs bir şəxs kimi ona olan xalq məhəbbətini, əsas tutaraq bir neçə təklifi həyata keçirmək məqsədində olduqlarını bildirdi:

Şairin doğulub yaşadığı Təzəkənd Cavadkəndi adlandırılsın; Həmin kənddə şair Cavadın büstü qoyulsun; Rayon mərkəzindəki küçələrdən birinə şairin adı verilsin; Şairin irsi toplanıb müxtəlif mətbuat səhifələrində işıqlandırılsın; sonra kitab halında çapdan

buraxılsın. Söz yox ki, axırıncı təklif ədəbiyyatçıların və hər hansı bir nəşriyyatın üstünə düşür. İlk üç təklif isə rayon ictimaiyyətinin, daha səlahiyyətli şəxslərin üzərinə düşür.

Rayonda fəaliyyət göstərən "Qoşqar" ədəbi birliyi üzvlərindən Zivər xanım Əzizqızı, Vaqif Vüqar, Ramiz Təmkinlə görüşdüm. Mədəniyyət, ədəbiyyat tariximizin qədir-qiymətini bilən, yaşatmağa can atan səmimi ziyalılardır. "Qoşqar" ədəbi birliyi 20 ilə yaxındır ki, fəaliyyət göstərir. Hazırda ona cavan şair Vaqif Vüqar rəhbərlik edir. Birliyin üzvləri tez-tez ədəbi söhbətlər, maraqlı təşəbbüslərlə gecələr keçirirlər. 1987-ci ildə "Qoşqar"ın nəzdində "Poeziya teatrı" yaradılıb. Burada səhnələşdirilmiş tamaşalarla çıxışlar olur.

Rayonda mədəniyyət işləri son dərəcə diqqətdən kənardadır. Bu ictimai bəla isə kadrların düzgün yerləşdirilməməsi ilə bağlıdır. Müti, düşüncəsiz "bəli", "baş üstə" deyən şəxslər heç vaxt öz işinin yaradıcısı, məsuliyyətini duyan ola bilməz.

Aldığım məlumata görə rayonda bir neçə küçənin adı dəyişdirilməlidir. "Lenin", "Marks", "Oktyabr", SSRİ-nin 30, 40, 50 illikləri adına "Xalqlar dostluğu" və s. Hazırda dəbdə olan adlarla əvəz olunacaq. Kütləvi qoyulmuş adlar indi yeni kütləvi adlarla əvəz olunur. Sözün açığı, bu cür kütləvi ad dəyişdirmələrin eyni ssenari üzrə aparılmasının tərəfdarı deyiləm.

Tutaq ki, Azərbaycanda bəlkə 100-dən çox Təzəkənd adında kənd var. Biri də Daşkəsəndə Cavad yurdu. Yuxarıdakı fikrə qüvvət, əlbəttə, o kənd şair Cavad adına daha məntiqə uyğun olar. Bundan əlavə, Daşkəsənin tarixi ilə bağlı maraqlı xatirə ilə anılan, o yerin tarixi ilə bağlı olan, o yerin tarixini yaşadan, milli xüsusiyyəti özündə əks etdirən adlarla əvəz edilməsi daha maraqlı olardı. Daşkəsənə, o ülvi diyara, yenidən, özü də həmişə üz çevirəcəyəm, ziyarət edəcəyəm və inanıram ki, Daşkəsən təbiətinə uyğun olaraq gözəl, zəngin bir şəhərə çevriləcək. Danışıb söhbət etdiyim adamların bacarığına, işgüzarlığına, vətənpərvərliyinə güvənib deyə bilərəm ki, bu mümkündür. Mən buna inanıram.

*"Ədəbiyyat və incəsənət" 1990-cı il*

## CƏBRAYIL – "AĞ YOL"UN YOXUŞUNDA

Nədənsə ürəyimə gəldi ki, Çaylar qızılgülü sevir. Onunçün də şəhidlər qanına bələnmiş qərənfil yox, qızılgül alıb Şəhidlər xiyabanına getdim. Ülvimə dəyməmiş Çayların qızılgüllərini torpaq sinəsinə düzdüm. Qəbri önündə göynər bir qız da gördüm: – Qəbrinə baxa bilmirəm, gözüm çıxır. Şəklinə-gözünə baxmaqdan çəkinirəm. Xəcalət çəkirəm yaşamağımla – deyə pıçıldayırdı.

Bütün günü bu ağır təəssüratdan ayrıla bilmədim. Çayların dediyi sözlər də qulağımdan getmirdi: "Mən istəyirəm ki, qələbədən, ancaq qələbədən sonrakı ilk yazı mənim haqqımda yazılsın. Ya da, qismət olsa, özüm yazacağam".

Yaralı döyüşçülərə baş çəkmək niyyəti qəlbimdən keçdi. Və istedadlı jurnalist Flora xanım Xəlilzadə ilə birgə Bakı şəhər təcili klinik yardım xəstəxanasına getdik. Flora xanım bütün xəstələri bircə-bircə dindirdi. Səslərini diqtafona yazdı. Kövrələ-kövrələ. Mən isə cəmi bir neçə xəstəyə qulaq asdım. Daha doğrusu, o igidləri lap çox dinləmək istəyirdim.

*Maarif Novruzov (30 yaşı var, Şamaxıdandır):* – Dəstənin komandiri mən idim. "Ağ yol"un yoxuşuyla qalxıb Hadruta gedən yolu tutmalıydıq. Uğurlu kəşfiyyatdan sonra döyüşə girişdik. Hələ döyüşə girməmiş dəstəmdə olan 22 nəfərə bildirdim ki, kim özünü yaxşı hiss etmirsə, döyüşə hazır deyilsə, bizimlə getməsin. İnciməyəcəyik. İşimizin uğurlu alınması üçün. Ancaq hamı geyinib sıralandı. Ən çətin yolu komandir kimi mən götürdüm. Nisbətən asan yolu isə müavinim Mirsəyyad Bayramova tapşırdım. Lakin məndən boy-buxunlu görünən, son dərəcə gözəl insan, gözəl yoldaş olan Mirsəyyad qəti etiraz etdi: "Mənim canım səndən artıq deyil ki, bu yol mənimdir. Nə isə..." Yolun yarısınacan qalxmışdım. Gördüm Mirsəyyad da mənimlədir. Qabaqdakı erməni görürdük. Onlar bizi görmürdülər. Az məsafə qalmışdı ki, qırıb tökək onları. Elə bu an hər şey dəyişdi. Yoldaşlarımızdan kimsə naşılıq edib "erməni" deyə qışqırdı. Bu vaxt bir az qabağa

keçmiş Mirsəyyad dikəlmək istəyirdi ki... Düşmən gülləsi düz sinəsindən dəydi. Yıxıldı. Huşunu itirmişdi. Az keçmiş ayıldı. Niyə uzandığını soruşdu, qalxmaq istədi, bacarmadı. Xahiş etdi ki, kömək edim. Kürəyinin arasında daş qalıb incitdiyini bildirdi. Onu oturtdum. Mirsəyyad indi hiss etdi ki, kürəyində qalan daş yox, güllədir. Qəribə inamla bildirdi ki, "Yox, mən ölməyəcəyəm. Söz vermişəm, düz Xankəndinəcən getməliyəm, sonra rahat ölərəm. İndi isə yox, qardaş kömək et. Qoy nakam getməyim bu dünyadan. Axı döyüşümüx qurtarmayıb hələ. Bəs mən..." Bir saatdan çox söhbət elədi. Sonra özümüzdən muğayat olmağı tapşırdı. Xankəndinəcən döyüşü davam etdirməmizi, orada da hökmən onu yad etməyimizi, anmağımızı yalvardı. Sonra isə dedi ki: "Di yaxşı. Maarif, gözlərimi bas, qoy rahat ölüm, axır nəfəsimdir". Mən bunu edə bilməzdim. Özünə də dedim, yalvardım ki, məndən incimə, bu barmaqlarım igid gözü basa bilməz, düşmən təpəsinə güllə çaxar. 100 metrəyəcən sürümüşdüm ki, aradan çıxarıb həkimə yetirək. Bir də gözümü açdım ki, dərənin dibindəyəm, ayağımdan qan su yerinə axır. Mirsəyyadın son anından xəbər tutmadım. Dünən eşitdim ki, Şəhidlər xiyabanında dəfn ediblər. Bütün həyatım boyu onu unutmayacağam.

*İbad Mustafayev (32 yaşı var, Bakıdandır):* – Maarifin, Mirsəyyadın döyüş yoldaşlarıyam. Cəbrayıl rayonunun Qışlaq kəndində idik. Avqustun 15-də səhərə yaxın, saat 4-5 radələrində həyəcan siqnalı verildi. Hazır olduq. Sonra kəşfiyyat tapşırığını yerinə yetirdik. Mövqelərimizi müəyyənləşdirəndən sonra "otboy" verildi. Az sonra qərargah rəisindən rabitə əlaqəsiylə aldığımız əmrləri yerinə yetirdik.Səhər 9-un yarısı "Ağ yol"un başında sağ tərəfdə qayalıqda mövqelərimizi tutmuşduq. Elə bu vaxt hamımızın əzizimiz Mirsəyyad vuruldu. Bütün niyyətlərimiz pozuldu. 9-un yarısından 11-cən ara-sıra vuruşma oldu. 12 radələrində ermənilər tərəfdən güclü qüvvələrə rast gəldik. Mövqedəki yaralılarımız çoxaldı. Sona cəmi beş nəfər qaldıq, onlar da axşamacan mövqeləri saxladılar. Kömək olmadığından

tutulmuş mövqelər əldən verildi. Saat bir tamamda əlaqəçimiz vurulmuşdu: Şükürov Pənah, ailənin yeganə övladı idi.

*Mahir Həziyev (30 yaşı var, Cəbrayıldandır):* – Avqustun 14-dən 15-nə keçən gecə Maarif, Mirsəyyad və bir neçə əsgər bizdə idilər. Gecə yuyunduq, yedik-içdik, rahatlandıq. Səhər saat 4-də həyəcan siqnalıyla döyüşə girişdik. Orada ən əziz dostumuz Mirsəyyadı itirdik. Mən isə ayağımdan yaralandım.

Xəstəxanadakı yaralılar o döyüşdən, ondan əvvəlki döyüşlərdən, günlərlə ac qalmalarından, "su" – deyə yandıqlarından və s. danışdılar. Amma onları orada bir hiss – Vətənə sevgi hissi saxlayıb həmişə. 19 yaşlı Şamil (Cəbrayıldandır) özünəməxsus kövrəkliklə, səmimiyyətlə gileyləndi ki, aclıqdan dizimizdə taqət olmurdu ki, səngərdə sürünək. Günlərlə dilimizə bir şey dəymirdi. Su əvəzinə alnımızdan, qolumuzdan axan təri dodaqlarımıza sürtürdük. *(Bundan da acınacaqlı halları hələ "Qırmızıbazar əməliyyatı"ndan qayıdanda Çaylar bizə danışmışdı).* Şamilin ovcunun içi yanmışdı. Deyir ki, o qədər birnəfəsə güllə atıb ki, ovcunun içi avtomatın qaynar maqazininə yapışıb qalıb. Həmin döyüşdə ayağının altı qabar-qabar, suluq-suluq olub. Boylu-buxunlu görsənsə də, üzündən-gözündən uşaqlıq cizgiləri çəkilməmişdir. Ancaq Şamil qəhrəman oğul təki Vətəni müdafiəyə qalxmışdı. Şamillə söhbətin şirin yerində qayıtdı ki, Mahirin danışdığı qəhrəman Mirsəyyadı mən də tanıyırdım. Bir dəfə döyüşdə olmuşam onunla. İgidliyinə görə əvəzolunmaz oğuldu. Mirsəyyadın şəhidliyi məni yandırıb tökür. Ona heç ölüm yaraşmaz. Mən ki, onu görməmişəm o vəziyyətdə, inanmıram.

Üzünü yana çevirdi. Şamilin canında sağ-islahat qalmamışdı: güllə yarası, qəlpə yarası, yanıq yerləri. Amma Şamilin üzündən təbəssüm əskik olmurdu. Şamilin anası da orada idi. Ana bildirdi ki, ay bala, Vətən od içindədirsə, bəs niyə böyüklərin də uşaqları, varlı balaları burada deyillər. Döyüşdə deyillər. Ana çox həqiqətlər aşkarladı, çox faktlar sübuta gətirdi. Ana sonra da əlavə etdi ki, bala, yaxşı ki, böyüklərin balaları orada – cəbhədə

olmurlar. Bir günortaya oğul-torpaq qarışıq düşmənə satar, keçib başda oturarlar. Yaxşı ki, torpağın qorunması, müdafiəsi kasıb balalarının əlindədir. Ana burada da haqlı idi. Şamilin anası Flora xanımla mənə bir təklif də etdi. Şamil xəstəxanadan çıxan kimi ona toy edəcək. Xahiş etdi ki, Şamilin toyuna – Cəbrayıla gedək. Biz o anaya, yaralı döyüşçünün anasına söz verdik ki, hökmən toya gələcəyik. Təki Şamil salamat qurtarıb evinizə dönsün, ana. Hökmən gələcəyik.

Çaylar bir söhbətində demişdi ki: "Qələbədən sonra hökmən iri bir yazı yazdıracağam, ya da özüm yazacağam". Elə həm o səbəbdən, bir də ürəyim, əlim gəlmədiyindən Çayların əziz ruhu qarşısında borcum kimi yaralı əsgərlərimizlə görüşə gəlmişdim. Ancaq tale məni Çayların döyüş yoldaşlarıyla, son nəfəsində köməyində olan igidlərlə qarşılaşdırdı. Yaralıların bayaqdan danışdıqları igid – Mirsəyyad Bayramov ailəmizin sevimlisi Çaylar idi. Evdə, qonum-qonşuluqda "Çaylar" deyə doğmalaşmışdı, işdə, məktəbdə, döyüşdə "Mirsəyyad".

Əsgər forması ona xüsusi yaraşırdı: boy-buxunlu, yarlı-yaraşıqlı igid görkəmi vardı. Əslində də elə belə idi. Səmimiyyətinə, şirin danışığına görə qohum-əqrəba, dost-tanış arasında böyük hörmət qazanmışdı. Ali təhsilini ötən il tamamlayıb. Neft Daşlarına təyinatla işə getmişdi. Hansı evə ayaq bassaydı özü boyda da ora şirinlik, şadlıq aparardı... Bir axşam əsgər formasında bizə gəldi. "Qarabağa gedirəm, görüşməyə gəldim". Anamın o dəqiqə gözləri doldu: "Get, ay bala! Allah üstündə, atanın cəddi köməyindi olsun! Ehtiyatlı ol". Anam Quran gətirdi: "Öp bu kitabı. Qoy yarağın olsun, ürəyini təpərli tutsun. Allah amanatında, bala". Hamımızla görüşüb-öpüşüb getdi. Bir neçə vaxt ötmüş 5-6 günlüyə qayıtdı. Xeyli, lap xeyli sınıxmışdı. Füzuli bölgəsində vuruşmuşdular. Dəhşətli Qırmızıbazar əıməliyyatından – qanlı döyüşlərdən danışdı. Faciəli anlar görmüşdü, yaşamışdı. "Orada gördüklərimi xırdaca cib dəftərçəsinə yazmışdım. Verdim Ramiz Oğuz oğlu bir jurnalistə. Əməliyyat haqda xeyli şey soruşdu. Döyüş uğursuz

alındığından cavab vermək iqtidarında deyildim, onunçün də dəftərçəmi verdim ona. Amma istəmirəm ki, bir şey yazılsın. Çünki Qələbədən sonra belə yazıları oxumağa macal tapacam". Yazılmadı da. Amma kaş yazılaydı. Yox, yaxşı ki, yazılmayıb. Çünki Çaylar-Mirsəyyad belə istəyirdi.

Çaylar-Mirsəyyad obamızda hamının xüsusi hörmət bəslədiyi, el ağsaqqalı sayılan Zülfüqar ağanın oğludur. Yaxın qohumumuzdur. Yaxın qonşumuzdur. Həyata qəribə baxışları vardı, həm də adi. Deyəsən, deyiklisi də vardı. Hərdənbir qardaşım Rauf üstüörtülü eyhamlar vurardı ona. O dəqiqə həyadan qızarardı: "Ə, sən Allah, yaxşı, daha qurtar". Beləcə zarafat-gerçək, acılı-şirinli günlər ötərdi.

Şər vaxtı idi. Çaylar-Mirsəyyad qapını açdı. "Gəldim görüşüm. Cəbrayıla gedirik. 10-15 dəqiqədən sonra yola düşürük". Hamımız görüşdük. Anam tez Quranı gətirdi. Bu dəfə qəribə hal keçirdi, hamı. Elə bil hamının, Çaylar-Mirsəyyadın da eyni anda qəlbindən keçdi, gözlərindən oxundu ki, O Şəhid olacaq. Bəli, hamıya bir anlıq əyan oldu. Elə o çaşqınlıqla da hamıyla görüşüb çıxdı. Getdi. Hamı kövrəlmişdi. Eyni zamanda hər kəs özünü tox tutmağa çalışırdı. Gedənin dalınca kövrəlib ağlamazlar. (Valideynləri Xanlar rayonunda yaşayırlar. O, burada qardaşı Mirağayla olurdu). Əsgərimizi yola salandan 7 gün ötmüş... Xəbər gəldi. Xəbər gəldi ki, Çaylar yaralanıb. Qardaşı Mirağa dalınca getdi. 3 gün ötmüş Mirağa qardaşının tabutunu birbaşa Şəhidlər xiyabanına gətirdi. Döyüş yoldaşlarından da gəlmişdi, dəfnə. Ata-anası, qardaş-bacıları da özlərini çatdırmışdılar dəfnə. Nə yaxşı mən tabutu görmədim. Çaylar-Mirsəyyad gözümdə hələ də cəbhəyə gədəndi.

*"Ədəbiyyat qəzeti"*
*11 sentyabr 1992-ci il*

## ŞUŞA FACİƏSİ – ŞAHİDLƏR DEYİR

Yaralanmış milli ordu əsgərlərimizə baş çəkmək, son döyüşlər haqqında onların təəssüratını öyrənib oxucularımıza yetirmək məqsədiylə Bakı şəhər təcili klinik yardım xəstəxanasına yollandıq. Xəstəxananın baş həkimi, tibb elmləri namizədi Cahangir Hüseynovla görüşdük. Xəstələrin vəziyyətini soruşduq. Onlar üçün nə lazımdırsa, böyük qayğıyla qulluq etdiklərini bildirdi və onu da çatdırmağı özünə borc bilib dedi ki, təəssüf ki, alınmaz qalamız Şuşa düşmənə verildi. Bura gətirilən yaralıların vəziyyətindən çıxış edib deyirəm ki, Şuşa uğrunda vuruş adlı şey görünmür. İlk addımda mövqelərdə olan əsgərlər öldürülüb. Bura gətirilənlərin əksəriyyətinin əsas yaraları qəlpə yaralarıdır.

*Vüsal Ələkbərov (20 yaş):* – Bir il səkkiz aydır ki, Şuşada hərbi qulluqdayam. Özüm Gəncədənəm. Şuşanın düşmən əlinə verilməsini heç ağlımıza belə gətirmirdi. Bir şeyi də deyim ki, Şuşada olan texnikayla bütün sərhədboyu ermənilərə cavab vermək olardı. Nə isə... May ayının yeddisindən səkkizinə keçən gecə başım bərk ağrıdığından yata bilmirdim, kitab oxuyurdum. Saat iki olardı, uşaqlar dedilər ki, Şuşaya "Qrad" atırlar. Elə bu vaxt mülki vətəndaşların qorunması üçün həyəcan siqnalı verildi. Batalyon komandiri Fəxrəddin Səfərovun əmriylə biz gedib silah anbarlarından əsgər üçün nə lazımdırsa götürüb qayıtdıq. Bu zaman Milli Ordunun yerləşdiyi internat məktəbə "Qrad" tipli raketin bir mərmisi düşdü. Bina dağıldı, xoşbəxtlikdən tələfat olmadı. Silahlarımızı götürüb kömək məqsədiylə hərbi mövqeyə getdik. Üçün yarısı onlar tərəfdən atəş gücləndi. Dördün yarısı hücum başladı. Muxətər, Şuşikənd, Kərkicahan tərəfdən erməni bayraqları taxılmış BTR, BRDM və tanklar şəhərə doğru gəldilər. Saat beşdə bizim durduğumuz mövqe-təsərrüfatlararsı təmir-tikinti idarəsi tutuldu. Artıq mühasirədəydik. Çıxış yolu qeyri-mümkün olan Milli Ordu əsgərlərindən təxminən 20-25 nəfər əsgər girov düşməmək üçün axırıncı gülləlləri ilə özlərini şəhid

etdilər. Mənim beş patronum qalmışdı: dördü erməninin, biri özümün idi. Yaralı əsgərlərin əsir düşməmələri üçün fürsət axtarırdıq. Təsadüfən şərait yarandı. Həmin vaxt yoldaşlarımdan Qaçay (25 yaş), Əli dayı (50 yaş) və Novruz (21 yaş) şəhid oldular. Mənim isə ayağımdan güllə dəydi. Bir kilometr yolu sürünərək pullu benzindoldurma məntəqəsinə çatdım. Orada yenə mühasirəyə düşdüm. Sonra bir təhər çıxıb Şuşa rayon mərkəzi xəstəxanasına gətirildim. İlk yardım göstərildi. Ayın 8-i axşam qaranlığında isə maşınla Laçına, oradan da Qubadlıya – Bakıya göndərildim. Şuşada ilk mərhələdə döyüşlər gedib. Milli Ordu əsgərləri axıracan döyüşüb. Ölən öldü, qalanlar isə yaralıdırlar. Ermənilərə cavab verəcək qüvvəmiz var idi: 4 batalyon və bir də xalq cəbhəsinin könüllülər dəstəsi. Şuşa planlı surətdə verildi. Özümüz tərəfdən olan qəsdlər, xəyanətkarlıq düşmən niyyətinə kömək oldu.

*Eldar Abdullayev (19 yaş):* – Sumqayıtdan Mingəçevirə hərbi xidmətə yollanmışdım. 20 günlük təlimdən sonra Şuşanın Kosalar kəndinə göndərildik. 5 ay idi ki, oradaydım. Mayın 8-də Qubadlıdan Kosalara qayıdırdıq (ora meyit aparmışdıq, dəfn etmək üçün). Laçına çatanda Şuşa camaatını oralara səpələnmiş gördüm. Hamısı ağlayırdı: Şuşa əldən gedir. Şuşada qan su yerinə axır.

Biz burada dayanmayıb yolumuza davam etdik. Qubadlıya gedərkən silahlarımızı təhvil verdiyimizdən bizə burada tapança verdilər ki, özümüzü yolboyu müdafiə edə bilək. Nəhayət ki, Şuşaya çatdıq. Artıq ermənilər "zapravkanı" tutmuşdular. Milli Ordu əsgərlərinin meyitləri ayaqlar altında səpələnmişdi, meyitlərdən ayaq qoymağa yer yox idi. Eyni zamanda düşmən texnikası qarışbaqarış dolmuşdu Şuşaya. Orada ayağıma güllə dəydi. Sonra snayperlə vuruldum. Yüz metrəcən yolu Laçına tərəf süründüm, bir yerə çatmaq üçün. Laçın uşaqları məni Turşsuya çatdırdılar, sonra Qubadlının Muradxanlı kəndindən vertalyotla Bakıya gətirildim.

*Sənan Məhərrəmov (29 yaş):* – Şuşa rayonunun Kosalar

kəndindənəm. Milis batalyonunun döyüşçüsü kimi beş ildir ki, torpağımızı müdafiə edirəm.

Bir neçə kəlmə son döyüşlərimiz haqda. Bu il martın 29-da hücuma girdik. Kərkicahanacan bütün hərbi mövqeləri ələ keçirdik. Ancaq tutduğumuz mövqelərdə qüvvələrimiz tükəndiyindən, əlavə kömək olmadığından geri çəkildik. Aprelin 28-də isə ermənilər böyük qüvvəylə hücum etdilər. Həmin vuruşmada erməniləri düz Xankəndinəcən qovduq. Xeyli qırdıq onlardan. Yenə də əlavə kömək olmadı və geri, əvvəlki mövqelərimizə çəkildik. Daha sonra mayın 8-nə keçən gecə saat 2-də düşmənin hərbi texnikasının kəndə doğru gəldiyini bildik. Həmin gün kənddə olan 200 döyüşçümüzlə düşmənin beş min nəfərlik ordusu üz-üzə gəldi. Onlar bizim kəndə olan yeganə yolla, Şuşa yoluyla gəlmişdilər. İki gün vuruşma oldu. Bu iki gündə 4 əsgərimiz öldü, 10 nəfərəcən yaralananımız oldu. Hər yerlə əlaqəmizin kəsildiyini görüb, əlavə itki verməmək üçün kənd camaatını dağ yoluyla aşırdıq. Mayın 10-da əlimizdə olan yararlı texnikanı və kara gələsi nə vardısa hər şeyi məhv etdik ki, erməni istifadə etməsin. Şuşaya olan Qeybalı körpüsü isə ayın 8-dən partladılmışdı. Nəhayət ki, Kosalar ayın 10-da düşmən əlinə keçdi. Həmin vaxt ərzində isə nə Şuşadan, nə də Şuşa döyüşlərindən xəbərimiz yox vuruşurduq. Kosalar vuruşmasında ayağımdan qəlpə yarası aldım. Və indi ağlıma belə gətirə bilmirəm ki, Şuşa-Kosalar ermənilərdədir, fikirləşəndə dəli oluram.

*Məzahir Əliyev (27 yaş):* – Özüm Kosalıyam. Mayın 8-də gecə saat 4-də güclü atışma başladı. 20-30 metrlik məsafədə, yarım saatdan sonra üzbəüz döyüş başladı. Bir tankımız, bir BMP və avtomat silahlarımız var idi. Kənddən çıxan yolumuz təkcə Şuşa yoluydu. Qalan sahələr minalanmışdı. Ermənilər bunu bildiyindən Şuşa tərəfdən kəndə girdilər. Onda Şuşanın artıq ermənilərdə olduğunu bilmirdik deyə döyüşlər davam edirdi. Nə isə döyüş getdikcə qızışırdı. Düşmənin üstünlüyünü görüb ilk dəqiqələrdən kənd camaatını dağla aşırdıq. Bir ayağını

müharibədə itirmiş Səməd kişi kənddən çıxmadı. Vuruşdu və öldü. Səhər saat 9-da hərbi mövqelərimiz düşmən əlinə keçdi. Bir nəfərimiz girov götürüldü. Mən isə iki güllə yarası ayağımdan, ikisini də qolumdan aldım. Burada eşitdim ki, Şuşa da verilib.

*Sabir Xanəliyev (25 yaş):* – Mingəçevirdən Milli Ordu dəstəsiylə gəlib Ağdamda vuruşurdum. Mayın 8-də ermənilər yaşayan Fərruxa hücum etdik. İlk mərhələdə birinci mövqeni tutduq. 5-6 nəfər idik. Sonra ikinci mövqeni tutmalı idik. Tutduğumuz mövqeni döyüşçülərə verib irəli getdik. Yenicə aralanmaq istəyirdik ki, yoldaşımız İlqar yaralandı. Mahir ona kömək etmək istərkən, o da yaralandı, sonra mən də yaralandım: güllə çiynimi deşib keçdi. İki Mahirimizdən biri öldü, biri isə ağırdır. İlqarı tapa bilmədik. İndi nigarançılıqdan özümə yer tapa bilmirəm. Ağrımı unutmuşam.

*Elşən bəy (19 yaş):* – Bakıdan Ağdama hərbi xidmətə çağrılmışdım. Ayın 8-də ermənilər yaşayan Xanabad kəndinə hücuma getdik. Deyim ki, kortəbii hücum idi. 22 nəfərlə döyüşə yollandıq. Yolda 3 nəfərimiz minadan yaralandı. 6 nəfərimiz həmin yaralıları geri qaytardı. 2 nəfərimiz də sonra yaralandı. Minaaxtaranımız isə əvvəldən bizdən xəbərsiz qayıdıb qaçmışdı. Biz podpolkovnik Orucovun dəstəsindən idik. Minaaxtaranımız olmadığından Qatır Məmmədin dəstəsindən götürmüşdük. Nə isə ikitərəfli hücum olmalı idi. Birinci hərbi mövqeni ələ keçirdik. Kömək gəlmədiyindən geri çəkildik. Mən də ayağımdan güllə yarası aldım. Qospitala gətiriləndə bildim ki, Şuşa əldən gedib. Ağdamda olarkən Şuşa haqda bir kəlmə də bilmirdik, Şuşadan xəbərsiz idik. Döyüşçülərimizin bu təəssüratları yəqin ki, çox şeyi açıqlayır. Nizamsız orduyla, nizamsız hücumlarla, müdafiələrlə təpədən dırnağacan silahlanmış ermənilərlə müharibə etmək olmaz. Beş ildir ki, bu sözlər deyilir, yazılır. Amma nə eşidilir, nə də oxunur. Yenə ümid qalıb Allaha!

"Ədəbiyyat qəzeti"<br>15 may 1992-ci il

## MƏLHƏMİMİZ QARABAĞ TORPAĞIDIR

Qarabağda yaralanan oğullarımızdan 24 nəfəri Bakı Elmi-Tədqiqat Ortopediya və Travmatologiya İnstitutunda müalicə olunur. Baş həkim Sabir Mikayılovun dediyinə görə həmin yaralılar üçün ən yüksək səviyyədə müalicələr aparılır, onların sağalması üçün nə lazımdırsa edirlər. Baş çəkdiyimiz xəstələr də öz razılıqlarını xüsusi qeyd elədilər ki, həkimlər, tibb bacıları əllərindən gələni əsirgəmirlər. Ayrı-ayrı müəssisələrdən, ali məktəblərdən xeyirxah niyyətlə baş çəkənlər saysızdır.

Xəstələrin hamısıyla görüşüb hal-əhval tutmaq niyyətindəydik. Ancaq bu mümkün oldumu? Eşitdiyimiz narahatçılıqlar, narazılıqlar, giley-güzarlar, əsəbi iradlar "planımızı" pozdu. Həmin "səbəb" yaralıların Qarabağ ağrısı oldu, öz can ağrıları yox.

...5 fevral 1992-ci il. Namərdlər, xəbislər dəstəsindən o an üçün "lider" seçilən Emin Məmmədov həmin dan üzü görəsən təkcə Rəhim Qazıyevi öldürməliymiş, yoxsa... Yoxsa, torpaq, vətən ağrısıyla qovrulan bu oğullardan nə qədər bacarırlarsa, aradan götürməyi qərarlaşdırıblarmış? O səhər səkkiz oğul ömrünə qara nöqtə qoyuldu. Altı oğul isə yarımcan oldu. Həmin yaralılardan üçü ilə görüşdük: Osmanov Cavanşirin sol bud nahiyəsindən güllə dəyib. Həkim gülləni yarasından yenicə çıxarıb. Vallah, heç o boy-buxuna xəstə çarpayısı yaraşmır. Namərdin qəlbi doğransın. Otuz yaşlı Nizami Mehdiyevin ayağından dəyib güllə. Qoltuqağacında ayağa durur. Allah özü dayağı olsun. Şakir Əhmədova (30 yaş) beş güllə dəyib. Güllənin biri gözünün üstündən dəyib keçib: sol gözünün nurunu, işığını da özüylə aparıb. Biri boynundan deşib keçib, əsəblərini darmadağın edib. Biri ürəyindən bir barmaq yuxarıdan dəyib. Biri ayağında ilişib qalıb. Şakirin beşinci gülləsinin ağrısını beynimdə hiss etdiyimdən yerini soruşmadım, bəlkə də dedi, amma mən eşitmədim, axı güllə məndə idi. Anası Sura xala söhbətimizin üstünə gəlib çıxdı. Bircə onu dedi ki, qızım, düşmən gülləsi olsaydı, o qədər vecimə almazdım, balama

namərd gülləsi dəyib. Acıdır, ağırdır, elə yandırır ki... Pəhləvan cüssəli bu oğullar öz ağrılarını bircə an da üzə vurmadılar. Söz-söhbətləri ancaq Qarabağ nigarançılığı idi. Həm də elə-belə sözlər demirdilər, qorun-qorun yanırdılar. Vətən eşqiylə, torpaq dərdiylə.

Cəlal Ruslov (40 yaş): – Füzulinin könüllülər dəstəsindənəm. Ötən il dekabr ayının 25-də köhnəlmiş silahlarla rayonun Axullu kəndinin müdafiəsinə qalxdıq. Döyüş meydanında qolumdan yaralandım... İndi daha o kənd yoxdur. Yerlə-yeksan edilib, yandırıldı. Sakinləri isə Allah bilir haralardadır.

İbrahim Hüseynov (23 yaş): – Bir qrup "Omonçu" Yevlaxdan getmişdik. Fevralın 16-da Şuşanın Kosalar kəndində vuruşmada oldum, 17-də yaralandım. Yaralı bir oğlanı xilas edəndə güllə ayağımdan dəydi. Düşmənlə müqayisədə biz, elə hesab et ki, əliyalın vuruşuruq. Dostum əfqançı Polad döyüş meydanında öldürüldü.

Əyyub Mahmudov: – Əsgəran rayonunun Cəmilli kəndindənəm. Müdafiə mövqeyində vuruşurduq. Kəndimiz yandı, külü göyə sovruldu. Camaatımızı qırıb-tökdülər. Allah bilir. Salamat qalanlar da nə gündədirlər. Özümün isə ayağım kəsilib, qolum da buradan şikəst oldu.

Ziyəddin Mehdiyev (30 yaş): – Ağdamın kəndindənəm. Xramord kəndindən maşınla yaralı gətirirdim. Yolda mina partladı. Təsadüfən ikimiz də sağ qaldıq, amma ayağım kəsildi. Məktəbdə doqquz yaşlı oğlum Nicata uşaqlar deyiblər ki, atanın ayağı kəsilib. Uşaq bu dəhşətə tab etməyib. Kənddən yanıma gəlmişdi, ayağıma baxmağa, görən kimi ürəyi getdi.

Tofiq Tanrıverdiyev (30 yaş): – Yerli sakinlərdənəm. Fevralın 11-də Malıbəylidə quş tüfəngiylə dayanmışdıq düşmənlə üzbəüz. Tam hərbi vəziyyətdə olan düşmən hücuma keçib kəndə od vurdu. Camaatı gülləylə biçib-tökdülər. İtkinlərin sayı isə məlum deyil. Üç uşağım var. Heç bilmirəm onlar haradadırlar. Adamın yiyəsi ola, heç olmasa onlardan bir quru kəlməylə xəbər biləydim.

*Yeri gəlmişkən:* Dörd min əhalisi olan Malıbəyli indi yoxdur. Külü göyə sovrulub. Yanvarın 20-dən mühasirədə olan kənd fevralın 11-də düşmənin qəti hücumuyla məhv edildi. Xeyli sayda insan tələfatı, saysız-hesabsız itkinlər, faciələr, faciələr... Bakı şəhər təcili klinik yardım xəstəxanasında yatan 52 yaşlı kənd sakini Fizzə Cəfərova həmin gün sol böyründən güllə yarası alıb. Həkim Abbasov İkram cərrahiyyə əməliyyatı ilə gülləni çıxarıb, xəstənin vəziyyətini bir azca babatlaşdırıb. İnşallah, şəfasını xeyirxah əllərinköməkliyiylə tapar. Xəstəxananın baş həkimi Cahangir Hüseynov bildirdi ki, belə xəstələrimiz üçün bütün qüvvəmizlə çalışırıq. Ötən həftə isə xəstəxanamızın işçiləri Ağdama 24 litr qan göndərib.

Travmatologiya İnstitutunda müalicədə olan daha bir neçə nəfərlə hal-əhval tutmaq istədik. Olduqca sərt əsəbi cavabla başçılardan narazılıqlarını bildirdilər.

Söz tapa bilmirdim. Çünki haqqına danışırdılar. Nə qədər kənd-şəhər talan olan, nə qədər oğullar ölər, nə qədər kasıb adamlar itkin düşər. Allahı danana kafir deyiblər. Bunun bir axırı olar, ya yox. Axı bu saysız-hesabsız itkilərin sonu-sanı olmalıdır. Müharibədirsə, Vahid Cəbhədə toplaşıb düşmənə cavab verməliyik. Bəli, müharibədir. Milli Vahid Ordu lazımdır. Yoxsa könüllülər dəstəsi, omonçular, ayrı-ayrı milis dəstələri, milli ordu üzvləri, xalq cəbhəsi dəstələri... Təsadüfi deyil ki, bütün dəstə üzvləri ürəklə, qeyrətlə torpaq uğrunda vuruşurlar. Hamı eyni məqsəd, eyni amal uğrunda vuruşursa, niyə ayrı-ayrı dəstələrdəyik? Görəsən niyə? Hamı bilir və bilməlidir ki, biz – Azərbaycan xalqı həm düşmənimiz ermənilərlə, həm də güclü bir mafiyayla – imperiyayla vuruşuruq. Xalqın bir ordusu olar. Yoxsa, Vətən əldən gedir!

Redaksiyanın tapşırığıyla gəlmişdim xəstələrə baş çəkəm, onlara təsəlli verəm, ağrı-acılarına şərik çıxam, ürəkaçan söhbətlər edəm – xəstə könüllərinə məlhəm üçün. Baş çəkdiyim oğullar isə ancaq torpaq hayında idilər. Bəli, torpaq hayında. Qarabağ

sorağında, nigarançılığında. O igidlərə qeyrətli cavab, – ümumi səfərbərlik elan edib bütün əli silah tutan hər bir kəsin düşmənə cavabı, – lazımdır. Gözlədikləri cavab, güllələrin açdığı yaralarına məlhəm olacaq. İxtiyar sahibləri, o məlhəmi əsirgəməyin cavanlarımızdan. Bəsdir, şəhidliyimiz! Bəsdir itkilərimiz! Yetər bu qədər! Gözlədiyiniz cavabı alıncan, görüncən qoy tanrı özü köməyinizdə, gərəyinizdə olsun, igidlərimiz, oğullarımız!

*"Ədəbiyyat qəzeti"*
*28 fevral 1992-ci il*

## "DÜNYAYA BAXDIM, GÖZLƏRİM DOLDU"

İki ilin söhbətidir: istedadlı telejurnalist Çingiz Mustafayev haqqında nəsə yazmaq istəyi məni rahat buraxmırdı. Şəhidlər xiyabanında uyuyan Çingizin qəbri üstə getdim. Orada şəhidə ünvanlanmış açıq məktub gördüm. Götürüb pıçıltıyla oxudum ki, qoy küləklər bu isti, məhəbbət dolu sözləri Çingizin göylərdə dolanan ruhuna yetirsin. Vərəq Çingizə yaraşası nikbin duyğularla dolu idi. Və hiss etdim ki, yazmaq istədiyimdən yüksək olan bu məktubu redaksiyaya təqdim edim. Məktub müəllifi indi də tanımadığım 18 yaşlı Rəmziyyə adlı bir qız idi. O məktubu dərc etdirdim və qəlbim qismən rahatlandı. *Aşağıdakı məktubu sənin kimi şəhid Ülvinin bibisi, iş yoldaşımız Almaz təqdim etdi. Biz də onu olduğu kimi çap edirik. "Öz jurnalistlik sənətini həyatından, canından artıq sevən Çingiz qardaşım! Həmişə səni həyatda görməyi arzulayırdım. Tale necə gətirdi ki, məzarını görməyə gəldim. Tələsdin qardaş, çox tələsdin. Sən həyatdan hələ kam almamışdın. Çingiz qardaşım, sənin məzarının önündə göz yaşı töküb, acıyıram. Sənin dəyanətin, vüqarın, vətənpərvərliyin qarşısında baş əyirəm. Heyif səndən. Heyf Azərbaycan torpağının əvəzsiz igid oğullarından. Allah sənə rəhmət eləsin. Raziyyə, 18 yaşında". A. Ismayiloğlu.*

İndi isə – avqustun 29-u Çingizin 34 yaşı tamam olur.

*Və mən də öz ruhumu*
*çarmıxa çəkən adamam,*
*Mən də öz əcəlimlə ölmək*
*üçün doğulmamışam.*
*Əcəliylə ölmək üçün*
*doğulurmu*
*peyğəmbərlər, şairlər.*
*Doğulursa, mən şair deyiləm.*

Bu misralar müəyyən an Çingiz ömrünü xatirimdə yaşatdı. Əlindəki videokameranı düşmən gülləsinin düz "bəbəyinə"

tuşlayan Çingiz cəsarəti, qətiyyəti bizi elə ovsunlamışdı ki, Çingizin özünü unutmuşduq. Onun nə torpaq ağrısından çarmıxa çəkilən ruhunu görürdük, nə də görə-görə, bilə-bilə ölümün qucağına can atdığı minlərlə məqamı. Çingizin ömür payı qəribəlikdən, qeyri-adilikdən yoğrulmuşdu. Ona görə yuxarıdakı qeyri-adi, gözəl misralar Çingizi mənə xatırlatdı.

Çingizin o günlərdə ilk dəfə ekranda səsi eşidiləndə özü görünmədi. Mənim yadımda belə qalıb. "İnsanlar arasında ruh kimi yaşamanın sirrini anlaya" bildiyimdən Çingizi o dəqiqə "tanımışdım". Sonralar təqdim etdiyi çox proqramları indi də qəlbimdə işıqlandıra bilirəm. Yaddaqalan, səmimi, torpaqcanlı, Vətən sevgili, Laçın haraylı, Şuşa nəfəsli, Xocalı müsibətli, "20 Yanvar məhkəməsi"ni qurub düşmənə kömək, xainləri ifşa edən və s. məzmunlu verilişlər idi. O, bizimlə cəmi 8 ay (1991, oktyabr – 1992, iyun) ekran vasitəsilə ünsiyyətdə oldu. Və o 8 ay Çingizin yaşadığı və hələ qərinələr boyu yaşayacaq ömrünü bircə-bircə vərəqlədi: indiki günlərimizə qeyrət, təpər gətirmək, gələcəyə nəsil ötürmək şərəfinə, Mirseyidin dili ilə desək, "yaşadığı ömür qaralamasıymış yaşayacağı ömrün"ün.

İmperiya qoşunu 1990-cı il 19-20 yanvarda Bakıya hücum çəkərkən məkrli çox oyunlar oynanıb. Sonrakı təhlillər bu fikri məndə yəqinləyib. İgid ərənlər Bakını, torpağı soyuq silahlardan isti ürəkləri ilə qoruyaraq şəhid olduqlarından "yaşamaqlarına vaxt qalmadı. Vaxt qalmadı Tanrıynan mübahisə" eləsinlər. Çingizin vicdanında bir kişi təpəri oldu ki, bu məkrli oyunların züy tutanlarını haqq məhkəməsinə çəkdi. Özləri də hiss etmədən o veriliş – məhkəmədə Çingiz onların xəyanətlərini öz dilləriylə dedirtdi. Ölüncə sənə borclu qaldım, Çingiz!

Milli müstəqillik və demokratiya uğrunda mübarizə apardığımız zaman tarixində Çingiz Mustafayevin ayaq izləri aydın görünür və şərəflidir.

Xocalının qarda-çovğunda, meşədə-düzdə qırılan minlərlə sakininə arxa oldu, yiyə durdu. Sahibsiz qalmış, sadə, silahsız

camaat, körpələr, qız-gəlinlər, qoca, nənə-babalar vəhşi düşmən tapdağında qalarkən təkcə Çingiz göynədi, təkcə Çingiz haya yetdi, təkcə Çingiz ağı deyib ağladı. Bir elin yasını, tabutunu Çingiz çiynində tək götürdü. Çingiz Xocalını beləcə lentə köçürdü. O ərəfədə bu xidmətləri yerinə yetirərkən əvəzində canını girov qoymuşdu. Bəlkə də hər belə ağrı-müsibətlərdən sonra Çingiz dünyaya doğuluşundan narazı qalırmış:

*Göylər qəbul etmir*
*mənim ruhumu,*
*Torpaq da ayağım*
*altından qaçır.*

Çingizin ömür xatirələrini – Azadlıq mübarizəsi yollarında keçdiyi bütün uğurları, igidlikləri, qəhrəmanlıqları bircə-bircə sadalayıb yazmaqla təzə heç nə söyləmiş olmuram. Sadəcə olaraq, hamıya məlum, hamının şahidi hadisələri təkrar xatırlamaqla onun ruhunu yad edir, əzizləyirik. Və bu yazıda Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin həyat yollarını istedadlı şair Adil Mirseyidin təzəcə çapdan çıxmış "Güzgüdəki adam" şeirlər kitabından götürdüyüm misraların köməkliyi ilə aradım.

Çingiz Mustafayev 1960-cı il tarixdə Rusiya torpağında hərbçi ailəsində doğulub. İxtisasca həkim olub. Jurnalistika aləminə ürəyinin diqtəsiylə gəlib. Ruhən, cismən torpaqcanlı olduğundan hər döyüş səngərində dolanıb. Düşmən işğalını yerindəcə lentə çəkib dünyaya yayıb. Və günlərin birində, 1992-ci il 15 iyun tarixdə yeni bir hücumu videolentə köçürəndə düşmən gülləsinə tuş gəldi. Çingiz Mustafayev torpaq, Vətən, azadlıq, milli müstəqillik, demokratiya uğrunda – milli Azərbaycan dövləti uğrunda şəhid oldu. Çingizin ölüm anını açıq qalmış videokamerası yaddaşına yazdı.

İndi hamımızın əzizi olan igid Çingiz Mustafayev belə ömür yaşadı. Tale payı Allahdan belə yazılıbmış. Ruhun şad olsun, Çingiz!

*"Azərbaycan"*
*27 avqust 1994-cü il*

## İGİD RÜSTƏM – ŞƏHİD RÜSTƏM

Gecəki qanlı qırğından xəbər tutmayan Zemfira xanım səhər saat altıda durub işə tələsmişdi. Halal zəhmətlə, alın təriylə dolanışıq yolu tapan bu sadə peşə sahibli ailə nə dünyanı qarışdıranların fitnəsinin, nə də namussuz-qeyrətsiz başbilənlərimizin vicdansızlığının həddinin bu dərəcəyə çatdığına inanmırdılar. Bu gün də belə. Alaqaranlıq - sübhçağı maşın tapmasa da işə payi-piyada yolu düşüb. Hər gün gedib-gəldiyi elə bu yolda da ana nələr görməyib . Yoldakı dəhşətləri gördükcə dizləri taqətdən kəsilib, qulaqları tutulub.

– Gördüm üç oğlan qaça-qaça düz üstümə gəlir. Al-qan içində. Heç nə anlaya bilmədim. Mənə çatcaq, "xala, qurban olum, yoddan-bintdən nəyin var?" – deyə yalvardılar.

– Heç nəyim yoxdu, bala. Bircə an dayandılar. Sonra "onda, ana, bağışla, bunlar bizə ağırlıq edir, bizi incidir", – deyə üst geyimlərini çıxarıb mənə verdilər ki, götür bunları. Paltarı çıxararkən altında çoxlu laxta qan töküldü. Bir də hiss etdim ki, o igid oğlanlar yanımdan uzaqlaşıblar, qanlı paltarları isə sinəmə sıxmışam, Onların kürəyindən qan axırdı. Yavaş-yavaş "Gənclik" metrosuna yaxınlaşdım. Hündürboy, kül rəngli kostyum geymiş bir qaraşın oğlanı boğazından dirəyə bərk-bərk sıxıb bağlamışdılar, artıq ruhu göylərə uçmuşdur. Bu gecə əliyalın cavanlarımızın hamısını qırıblar. Sonra uzun bir avtobus gördüm. Oğlumun avtobusuna oxşayırdı. Avtobus deşik-deşik, qapısı, pəncərəsi qırıq-qırıq, içi qanla dolu idi. Uşaqlarım, ərim gözümün qabağına gəldi. Ayıldım. Elə oradacan evə doğru qaçdım. Yox, qaçmaq istədim ki, üç nəfər əli avtomatlı kəsdi qabağımı. Avtomatın ucunu dirədi sinəmə ki, tərpənmə. Haradan gəlirsən... daha nə bilim nələr, nələr oldu, onu bir Allah bilir, bir mən, bir də əli avtomatlı iki rus, bir özbək əsgəri.

Evə çatıb hay saldım ki, hanı uşaqlar? Rüstəm evdə yox idi. Gecədən gəlməmişdi. Zemfira xanım artıq danışa bilmədi.

Onsuz da gözünün suyu ilə bunları danışırdı. Ona görə danışmadı ki, Rüstəmin adına ölüm sözünü yaraşdırmırdı. Onun adının üstə ağlar göstərmək istəmədi özünü.

– "Ata, əsəbiləşmə mənə, o gecə lazım oldum yoldaşlarıma, xalqa". Şahvələd dayı sükutu bu sözlərlə pozdu. Semaşkada tapdıq. Gecə şam işığında aparılmış ağır cərrahiyyə əməliyyatından sonra gözünü açarkən Rüstəmin dilinə gətirdiyi ilk sözlər bu oldu.

– Qanlı gecədə sağ böyründən güllə yarası almış Rüstəm bir də gözünü ayın 21-də açdı. Onda da o gecənin müsibətindən danışdı. İdarə etdiyi 123 nömrəli avtobus... Yox, danışa bilmirəm. Ancaq hələ göndərməmişəm. Verərəm oxuyarsan. Oxuyuram: "Yazıb nəzərinizə çatdırmaq istəyirəm ki, "Kommunist" qəzetinin 14 avqust 1990-cı il nömrəsinin 4-cü səhifəsində dərc olunmuş "Bakıda yanvar faciəsi" adlı məqaləni oxuduqdan sonra narahatçılığım artdı. Axı, məqalədə göstərilən faktlardan əlavə unudulanlar da var. Məsələn, 123 nömrəli marşrutdakı 20-90 AQL nömrəli avtobusun sürücüsü – oğlum Əliyev Rüstəm Şahvələd oğlu da atəşə tutulmuşdu. Həmin gecə oğlum Salyan kazarması yaxınlığındakı dayanacaqda çoxlu adamların, o cümlədən yaralıların olduğunu görmüş və iki dəfə yaralananları Semaşko xəstəxanasına aparmışdı. Üçüncü dəfə yaralıları Tbilisi prospektindəki dayanacaqdan götürərkən bilərəkdən sürücünü vurmuşlar ki, camaatı aparmasın. Yaralı halda həmin yerdən "Naxçıvan" mehmanxanasınacan maşını sürüb adamları güllədən uzaqlaşdırmışdı və orada huşunu itirmişdi. Bütün bunları xəstəxanada, 21 yanvarda özünə gəldikdən sonra danışdı. Onun dediklərini sonralar həmin gecə xilas etdiyi və başsağlığı verməyə gəlmiş tanımadığım sərnişinlər də təkrar mənə dedilər. Təəssüf ki, mən onların heç birinin ad-familini və ünvanını soruşmamışdım. Çünki o vaxt mən hələ oğlumun ölümünə inana bilmirdim. Həkimlərin rəyinə görə o, snayper gülləsi ilə vurulmuşdu ki, adamları apara bilməsin. İki dəfə aparılan cərrahiyyə əməliyyatının faydası olmadı.

Sual oluna bilər: həmin vaxt o yayına bilməzdimi?

Əlbəttə, yox! Kimin xəbəri var idi ki, belə bir vəhşilik olacaq? Kim bilirdi ki, şəhərdə fövqəladə vəziyyət olacaq. Nəyə görə susanlar unudulur? Məncə, xalqı qırğından qurtaran ekstremist deyil, qəhrəman adlanır. Nəyə görə hadisələr bütövlükdə, hərtərəfli işıqlandırılmır. Qəzeti oxumasaydım, yenə də sizə yazmazdım. Əliyev Ş.R."

Taleyin işinə bax: 20-90 AQL nömrəli avtobusun sürücüsünün 20-si və 90-cı ildə ömrünü darmadağın etdilər.

*Eləmi alçaq, yağı,*
*Silahın al, çax, yağı,*
*Namərdə meydan verdin,*
*Namərddən alçaq yağı.*

Rüstəm eyni zamanda radiomexanik sənətinin bilicisi olub. Bu sənətə uşaqlıqdan meylli olduğundan əlinə keçən hər cür cihazları, qurğuları, aparatları evdə toplayıb, səsini maqnitofon lentlərinə köçürüb, ananın bu gününə təsəlli üçün, ananın bu gününə göz dağı üçün. Sevgilisi Arzu gəlib hər gün anaya dəyir, ana könlünü ovundurmaq üçün, öz ürək cızdağına bu evdən bir damğı su çiləmək üçün. Sən tək deyilsən, Arzu. Nə qədər igid dünyasını dəyişdisə, bir o qədər də sinəsi yar dağlı gözəlimiz boynubükük qaldı. Belə bir münasibət üçün təskinedici söz tapa bilmirəm ki, deyim. Desəm də, bu müsibət dağının zirvə nöqtəsində məğrur dayanmış Fərizənin ruhuna toxunaram. Fərizə İlhamı üçün şəhid oldu, talesiz məhəbbəti üçün, xalqı üçün, torpağı üçün, namusu üçün şəhid oldu. Biz də diri şəhidlərik. Şahid olsaydıq, tökülən qanların qisasını alardıq. Buna gücümüz çatmır. Şəhid şahidi susdurulursa, dinib-danışmağa qoymurlarsa, demək o da şəhiddir.

Rüstəm o gecə həkimin dediyinə görə 80 faiz qan itirib. Bir qram qan üçün bir ətək pul lazım olursa, görəsən gölməçələnmiş qanlar üçün İttifaq büdcəsi bu borcu ödəyə bilərmi? Deyim ki, heç ABŞ Buşu büdcəsinə əl açsa da bu borcu ödəyə bilməz. Heç

bunun narahatçılığını keçirən də yoxdur. Bilirlər kimin qanını sel kimi axıda bilərlər özü də günahsız yerə, qoy Allah qarşısında o quduzlaşmışlar cavab versinlər.

İkinci avtobus parkının 25 yaşlı sürücüsü o gecədən sonra yanvarın 25-nəcən yaşaya bildi. Lakin yağı gülləsi elə dəyməmişdi ki, bir də ayağa qalxa bilsin. Günorta saat 2:40-da dünyaya gözünü yumdu. Yanvarın 26-da Şəhidlər Xiyabanında daha bir şəhid torpağa əmanət kimi tapşırıldı.

Ruhunuz şad olsun, Şəhidlərim, Qiyamət gününün haqq-hesabınacan!

*"Ədəbiyyat və incəsənət"*
*28 dekabr 1990-cı il*

*Gədəbəy-Başkənd döyüşləri:*

# GƏDƏBƏY - BAŞKƏND DÖYÜŞLƏRİ:

# QƏHRƏMAN MƏZAHİR

*Şəhidəm, qan rəngli olsun kəfənim,*
*Qoy belə bəzənsin bayramım mənim!*

**NİZAMİ GƏNCƏVİ**

"Məzahirimdən yaxşı yaz. Özü necə oğuldusa, bax eləcə" – Rəfiqə ana oğlunu sanki amanatdayırmış kimi çəkinə-çəkinə dediyi bu sözlərlə ürəyimi oydu, Ana ürəyi duyduğu kimi mən duya bilərəmmi Məzahiri? Ana danışığında cəmi külli-aləmə sığmayan Məzahir taleyini bu yazıya sığışdıra bilərəmmi? Məzahir yaşadığı ömrü, keçdiyi taleyi, torpağa yandığı hissləri onun özü qədər bəlkə də duya bilərəm, amma bütün bunları Rəfiqə ananın duyduğu qədər duya bilmərəm. Axı o Anadır. Məzahir də getmişdi Ana Torpağı qorumağa. Tale yazan belə yazıbmış. Hər oğula qismət olası, yazılası bəxt deyil. Allah sevdiyi bəndələrinə verdiyi ruhu yanına ucaldır. Bəlkə də bu dünya ruhlar üçün bir sınaq meydanıdır...

Məzahir Rüstəmov Bakıda doğulub-böyüyüb. 32 yaşı var. Universitetin tarix fakültəsini bitirib. Dövlət Mətbuat Komitəsində işləyirdi. Yeddi ay idi ki, Milli Ordu sıralarında dədə-babasının torpağını, Gədəbəyin düşmənlə üzləşən obalarını qorumağa getmişdi. Rus dilini təmiz bildiyindən hərbə dair kitabları oxuyar, uşaqlara təlim keçərdi. Rota komandirinin müaviniydi, Mutudərədə ən çətin bir nöqtədə özünə mövqe seçmişdi. Naşı görünən erməni yerindəcə cəhənnəmlik edərmiş. Cəmi bir neçə gün bundan əvvəl avqustun əvvəlində Gədəbəy torpağının başı üstündən təpədən-dırnağacan silahlanmış erməni od yağdırmağa başladı. Məzahir bütün cəbhəçilər kimi yar-yarağına sarılıb döyüşə girdi.

Rəfiqə ana söhbəti bir az qabağa çəkdi: Məzahir cəbhədəydi. Bir qız balası – Təhminəsi dünyaya göz açdı. Uzun-uzadı sifarişlərdən sonra, on gün ötmüş gəlib çıxdı. Sevinirdi ata olmağına. Özü yerə-göyə, övlad məhəbbəti isə köksünə sığmırdı. Gəldiyindən bir-iki gün ötmüş yır-yığışa başladı. Yalvardım oğul, bir az dincəl, sonra. "Dincəlmək tezdir. Uşaqlar amanatı, mən getdim". Getdi, o – bu, ay bala, gəl, ay bala, gəl, deməkdən ürəyim üzüldü. O isə bildiyindən, dediyindən dönmürdü.

Məzahirin isə dediyi, bildiyi torpaq namusu idi. Od içində yanan torpaqda Məzahirin öz yeri var idi. O yeri boş qoya bilməzdi. O yeri boş qoymaq düşməni evin içinə buraxmaq demək idi. Məzahirin qardaşları Oqtayla Çingizin də bir ayağı orada olub. Ən ağır döyüşlərə giriblər. Qismətdən salamat dönüblər evlərinə. Ancaq bu dəfə Məzahirin bəxti bu dünyadan qara geydi. Avqust girhagirdə Başkənd uğrunda dəhşətli vuruşma başladı. Davanın bir ucu Mutudərədə idi. Məzahir öz dəstəsinə arxalanıb mövqeni əldən vermək istəmirdi. Bu mövqeni vermək kəndi uduzmaq idi. Neçə günlük atışmadan sonra, ayağından yaralandı. Yanındakı uşaqlara deyib ki, siz tez aradan çıxın, xəbər verin köməyə gəlsinlər. Mən hələ ki, baş qataram burada, üstümdə qumbara da var. Gördüm bir şey alınmır, onda hər şeyi həll edərəm. Kömək gəlmədi. O isə yaxınlaşan düşməni bir-bir "dənləyirdi", düz 26 erməni boyevikini yan-yana sərib. Kömək yetişmədiyini görəndə əli hər yandan üzülən igid əsir düşməməkçün axırıncı gülləsilə düz ürəyini nişan alıb. Sonra üstündəki qumbara açılıb. Və o yerin daşı-torpağı – düşməni göyə sovrulub. Beləcə son imkanıyla Mutudərəni Ordumuz çatınca düşmənə verməyib. Qəhrəman Məzahir belə qeyrət sahibi olub, belə təpərli ürəyi olub.

Ürəyimdən keçir ki, kaş Məzahir sağ olaydı, onun bütün qəhrəmanlığını bircə-bircə yazaydım. İndi faciəvi tale qarşısında sözlər də itik düşür.

Məzahirin dağ boyda atasını, hamımızın hörmət etdiyimiz professor İzzət Rüstəmovu dindirmək iqtidarında olmadım. Qırıq-sökük söhbətlərinə qulaq asdım: "Uşaqların üçünün də müharibə odu-alovundan keçən yollarına mane ola bilmədim. Oqtayla Çingiz gedib-gəlirdilər. Məzahirin isə gecə-gündüzü səngərlərdə keçdi".

Ailədə belə bir söhbətin də şahidi oldum ki, ayın 5-də (hələ onda heç kəs bilmirdi ki, Məzahir şəhid olub) İzzət müəllimin ürəyi oğlunu istəyib. Şəklini qabağına qoyub doyunca ağlayıb. Həssas ürək duyumuyla faciənin həmin anında bilib, amma göz yaşı, qəlb göynərtisi tale yazısı qabağında heç nə olub.

Məzahiri ayın 7-də Mutudərədə səngərdən tapıblar. İndi Şəhidlər xiyabanında uyuyur. Ay parçası olan gəlin Rəsmiyyədən Məzahir haqda heç nə soruşmaq istəmədim. Daha doğrusu ürəyimdən keçdi, amma əlinin toy xınası getməyən bu gəlindən nə soruşaydım? Məzahirin bütün igidliyi göz qabağında olub. Körpə Təhminə isə heç nədən xəbərsiz öz dünyasında idi. Sevinir, gülür, oynayır. Hamının qucağına getmək istəyir. Bəlkə yeddi aylıq Təhminə özü qəsdən hamının qucağına uşğunur ki, atasını tapa. Əslində bu belədir. Təhminə atasını axtarırdı... Atası gül balasından, bəxtəvər günlərindən, analı-atalı işıqlı dünyasından keçdi: torpaq, millət şərəfini uca tutdu.

Xalq unutmaz bu nakam qəhrəman ömürləri. Yəqin ki, Məzahir Rüstəmovun yaşadığı Taqanroq küçəsi ölməz şəhidin xatirəsi şərəfinə "ünvanlanar". Bu ata-anaya təsəlli, bizə borcdur.

Atasının yurduna çıraq olan Təhminə isə bir vaxt bu ünvanla öyünər, sevinər.

*"Ədəbiyyat qəzeti"*
*21 avqust 1992-ci il*

## TÜRK OCAĞININ GÖZƏRTİSİ

Vaqif Tahirov "Daşaltı əməliyyatı"nın qurbanıdır. 25 yaşlı Vaqifin ruhu iyirmi gün qar altında qalmış cəsədinin üstündə dolaşıb – arada Bakıya dönərək anasının, üç bacısının qəlbinə dolur, atasının başına fırlanır, bir-bir qohum-əqrəbasına dəyir, həmin an da qayıdır ora – Daşaltına.

Şəhidlər xiyabanı. Vaqif axır ki, ürəyi istəyən yerdə rahatlıq tapdı. Özü də rahat oldu, ailəsi də.

Vaqif ailənin tək oğluydu. Bakıda doğulub böyümüşdü. Ali təhsilli mühəndis idi. Heç nədən korluqları yoxuydu. Elə isə Vaqifi Qarabağa – Daşaltına çəkib aparan hisslər hansı ocaqdan köz götürmüşdür. Bəlkə atasının gözlərindən. O gözlər hən an balalarının qayğısını izləsə də yurd-yuva ağrısıyla alovlanırdı. Düşmən 1988-ci ilin noyabrında o yurdu – Sisyan rayonu Urudlu kəndini axırıncı dəfə elə silib süpürmüşdü ki, daha orada bir türk ocağı da közərmirdi. Həmin ocağın közərtisi indi neçə ildir ki, Vaqifin atası Sabir müəllimin gözlərində yanır. O gözlərdəki yurd yanğısını oğul qeyrəti ilə Vaqif görürdü. Nə atasına bildirirdi, nə də ana-bacısına. İçində çəkirdi. Çəkə-çəkə özü də yanırdı. O yanğı bir dəfə 20 yanvar gecəsində Vaqifin ruhunu göylərdə sınağa çəkdi. Onda Vaqifə Allah qıymadı. Tək oğuldu, – dedi. İki il keçdi aradan. Qarabağ torpağı dardadır. Milli Ordu sıralarında Vətən müdafiəsinə yollandı. Düşmən namərd qurğusu ilə sanki dilbirəlbir olub bu an Vaqifi qoruyan Allahı unutdu. Qılıncını onun ürəyinə sapladı. Vaqifin ruhu göylərə uçdu. Allah bir də gördü ki, onun o yanvar qıymadığına bu yanvar düşmən qıyıb. Yəqin Allahla allahlıq eləyən düşmənin bu qisası qiyamətə qalmaz! Ruhun şad olsun, Vaqif! Allah hamınıza rəhmət eləsin, şəhidlər!

*"Ədəbiyyat qəzeti"*
*29 mart 1992-ci il*

## ŞƏHİD HƏZİ

Həzi Məmmədbəyli 26 yaşında Şəhid oldu. Dostları, yoldaşları, yaşıdları ilə birlikdə könüllü olaraq Qarabağa – müharibəyə getmişdi. Orada torpağını basmış düşmənlə döş-döşə gəldi. Günlərin bir günündə də ağır döyüşə yollanarkən – ölümdən, indən beləki ömrünü şəhidlik ünvanında yaşatmasından qorxmadı, çəkinmədi. Elə həmin döyüşdə də şəhid oldu. O, cismani yoxluğu ilə əzizlərinə, doğmalarına ömürlük dağ çəkdi. Odu-alovu səngiməyəcək dağ.

Həzi Bakıda doğulub böyümüşdü. Xalq Təsərrüfatı İnstitutunu bitirmişdi. Ali təhsilli iqtisadçı idi. Bütün gənclər kimi yəqin ki, onun da ürəyində o qədər... o qədər şirin arzuları vardı ki... Qarabağ torpağı qan ağlayanda o arzular elə ürəyindəcə gizlənmişdi: vaxt gözləyirdi, aman axtarırdı. Hansısa bir gözələ deyəcəyi ilk sevgisini də Qarabağ torpağına ünvanladı. Əcəl bu sevgini "göydə qapıb" torpağa qovuşdurdu.

Həzini ilk dəfə harada gördüm və tanıdım. Hər gün baş çəkdiyim doğma şəhidimin yanından dönərkən – Şəhidlər xiyabanında bu qaynar gözlü oğlanın dəfn karvanıyla üz-üzə gəldim. O karvana Həzinin ruhu "bələdçilik" edirdi. Əli qırmızı xonçalı doğmaları xiyabanın lap "başınacan" getdi. Beşinci cərgənin əvvəlində, birinci yerdə əyləndi və...

İlk dəfə xiyabanda ağır karvanıyla tanıdığım qəhrəman Həzi ömrü qardaşı Rafaelin rəssam fırçasında,Toma xalasının, Səidənin, Samirin, Gülnaranın canında-könlündə və torpağının – millətinin xoş günündə davam edəcək. Ruhun şad olsun, şəhid Həzi!

*"Ədəbiyyat qəzeti"*
*10 iyul 1992-ci il*

## BACI CAVAB GÖZLƏYİR

Qarabağ. Şuşa şəhəri. Daşaltı kəndi. Boşaldılmış kəndi düşməndən azad etmək üçün düşünülmüş ilk cəhd – 26 yanvar 1992-ci il. Bu əməliyyatla kəndin qara tarixinin üstündən daha bir qara tarix yazıldı. Daşaltı müsibəti+Daşaltı əməliyyatı. Bu kəndin, kəndin dinc əhalisinin, körpələrinin, qız-gəlinlərinin, nəhayət müdafiəçilərinin diləgəlməz müsibətlərinin səbəbidəmi görəsən elə adı kimi daş altında qalacaq, yoxsa nə vaxtsa açıqlanıb – vərəqlənib tarixə yazılacaq. Gələcək nəslimiz də həmin səhifələrin yaddaşına güvənib vətən şəhidlərinin ruhunu daim yad edəcək. Hər qarış torpağının qədrini biləcək. Amma, çətin...

Həmin "məşhur" əməliyyatın keçirilməsindən iki aya yaxın vaxt keçir. O kəndə gedənlərdən ölən öldü, itən itdi. İkicə kəlmə ilə dediyimiz bu sözlərin ağırlığı dünyanın yükündən də ağırdır. Ölən də oğuldu, itən də oğuldu. Analar neçə vaxtı dizin-dizin sürünür, qapı-qapı gəzir ki, bəlkə oğlundan bir xəbər tuta. Ancaq hələ də çoxunun nə ölən adı bilinir, nə də itən. Daşaltı əməliyyatını keçirən "qəhrəmanlar" heç olmasa aparıb günahsız yerə qırdırdıqları oğulların aqibətindən xəbər tutsunlar, məlumat versinlər. Axı, onları evdə ana gözləyir, qardaş-bacı gözləyir, körpələri gözləyir, yoldaşı gözləyir, qohum-qardaşı gözləyir.

Solmaz Xudiyeva qardaşı Tofiq Hacıbababəyovu axtarır. Düz əlli gündür. Tofiq də cəbhə yoldaşları ilə birlikdə Daşaltı kəndinə yollanmışdı. Onda Tofiq bilmirdi ki, bir neçə saatdan, dəqiqədən sonra 130-a yaxın oğul qəsdin qurbanı olacaq. Onda Tofiq bilmirdi ki, anası-bacısı "Tofiq" deyə düzü dünyanı ayaqları altına alacaqlar. Onda Tofiq bilmirdi ki, anası "neynək, yaranan bir gün də öləcək, heç olmasa ölüsünü tapım" – deyəcək. ANA deyəcək bunları. Onda Tofiq bilmirdi ki, anası "görəsən balam itkindir, yoxsa şəhiddir" – deyə için-için qovrulacaq, tüstüsü təpəsindən çıxacaq. Onda Tofiq təkcə onu bilirdi ki, torpağını düşməndən xilas etməyə gedir. Yoldaşları ilə birgə. Bacısı Solmaz

deyir ki, əvvəlcə ölənlərin sırasında adını dedilər, sonra düşmən tərəfdən itkinlərin sənədlərinin siyahısı gəldi, Tofiqin də adı vardı. Amma dəqiq hələ heç nə bilmirik. Bizə kömək edin. Bilək ki, Tofiq şəhid olub, yoxsa itkindir. Şəhidin qəbri olur, itkinin yiyəsi.

Müharibənin qanunlarını artıq hamı əzbər bilir. Bəs Müdafiə Nazirliyi necə? Bu qanunlara əməl etmək iqtidarındadırmı, səhmanındadırmı? Cəbhəyə yola saldığı oğulların taleyi ilə axıracan maraqlanırmı? Görəsən Nazirlik cəbhədə həlak olanların, itkin düşənlərin ailəsi ilə əlaqə saxlaya bilirmi? Ağır da olsa nakam taleyin aqibətini ailəsinə dəqiq yetirirmi? İndiyəcən rastlaşdığımız, şahidi olduğumuz hadisələrə, söhbətlərə istinadlanaraq demək istəyirəm ki, heç də hamısını yox. Hazırda nə qədər valideyn övlad sorağındadır. Tofiq Hacıbababəyov, Ramil Abdullayev və adını bilmədiyim onlarla oğulun valideynləri, qohum-qardaşları cavab gözləyir.

*"Ədəbiyyat qəzeti"*
*29 mart 1992-ci il*

# YOXA ÇIXMIŞ TƏBƏSSÜMLƏR

Yolum hərdən bir məktəbin qabağından düşür. Məktəbin həyətində o yan-bu yana qaçışan uşaqların, məktəblilərin və eləcə də baş-başa verib mübahisə edən yuxarı sinif şagirdlərinin üzlərində elə bir mənalı ifadə sezirəm ki, bir anlıq olsa da, dayanıb onları müşahidə etmədən keçmək olmur. Birincilərin Əlifba bayramı idi. Məktəbə gəlmişdim. Şagirdlər əlifbanı öyrəndiklərinə sevinir, maraqlı şeirlər əzbərdən deyirdilər. Amma onların baxışlarının dərinliklərindəki həmin mənanı görməmək mümkün deyildir. Sinif müəllimi Gülyas Xudiyeva:

– Əlifbanı öyrənməklə artıq sərbəst yazıb-oxumağı bacarırlar. Amma deyim ki, ötən bu vaxt ərzində qəlblərindəki nisgili ata bilmirlər, bəlkə də deyərdim gün ötdükcə qövr edir. Bu onların üç il bundan əvvəl ev-eşiklərindən, yer-yurdlarından qovulmaq qövrü idi. Çoxları valideynini, qardaş-bacısını itirib. Bu körpələrin həyata yenicə dikilən baxışları elə zülmlərlə, dəhşətlərlə rastlaşır ki, bəlkə də həyata inamları da itib. Ən dəhşətlisi də budur ki, elə bil onların gözlərinin dərinliyinə bu kədər, Allah eləməmiş, əbədi çöküb. Məktəbin direktoru, tarix müəllimi Vahid Xəlilov söhbət əsnasında dedi ki, burada 925 şagird təhsil alır. Bundan 687 nəfəri didərgin ailədəndir. 30 uşağımızın heç birinin valideyni yoxdur. Erməni daşnakları min bir əzabla övladlarının gözü qarşısındaca onları öldürüblər. Qalan hamısı olduqca pis, imkansız bir vəziyyətdə yaşayır. Azərbaycanın 14 sərhəd, Ermənistanın 25 rayonundan, o cümlədən müxtəlif kəndlərindən gəlmiş uşaqlar bizim məktəbdə oxuyurlar. İlk vaxtlar bir-birlərinə çətinliklə uyuşurdular. Hamısı sanki əsl müharibə meydanından qaçmış, gərgin əsəbi bir hal keçirmiş vəziyyətdə dərsə başlamışdır. Bu gün həmin nigarançılıq qismən ötüb keçmişdir.

Ağır hisslərlə Nəsimi rayonundakı 35 nömrəli orta məktəbdən ayrılıram. Yolboyu yenə uşaqları düşünürdüm.

Düşünürdüm ki, o kədərli gözləri nə vaxt gülən görəcəyik..

*"Azərbaycan müəllimi"*

# İSTİQLALÇI GÜLHÜSEYN MÜƏLLİM

Hər kəsin dünyası Ana ilə başlayır. Bəlkə də bundandır ki, əksər qələm əhli ilk yazısını Anaya həsr edir. 80 illik yubiley günlərini qeyd etdiyimiz Gülhüseyn Hüseynoğlunun yaradıcılıq tarixini vərəqləcək, onun da ilk yazısmı - hekayəsini "Ana"ya həsr etdiyinin şahidi olacağıq.

Ana Torpaqdır. Ana Vətəndir. Gülhüseyn Hüseynoğlu ömür-gününü - bəlkə belə deyək ki, bütün taleyini Vətəninə, torpağına qurban edib. Onun gənclik amalı, düşüncəsi Azərbaycanın Azadlığı, Müstəqilliyi olub.

Sovet rejimi dağılandan sonra bu yöndə mübarizə aparmaq nisbətən asan idi. Amma Stalin dövründə Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda çıxış eləmək, söz demək - bu məqsədlə **"İldırım"** təşkilatı yaradıb özünə ətraf toplamaq hər oğulun işi deyildi. Bu istək ürəkdən keçə bilərdi, beynimizdə dolaşa bilərdi, amma onu dilə, qələmə, əmələ gətirmək - bu birbaşa ölüm demək idi. Gülhüseyn müəllim bu ölümü görə-görə bunları etdi və Sibirə atıldı. Bumbuz Sibir çöllərində ölümlə çəngələşdi. Odun doğradı - ölümə can-macal vermədi. 25 illik Sibir cəzası çəkməli idi. Amma Allah qıymadı. Qıymadı ki, azadlıq, milli bütövlük üçün Sibir şaxtasında çürüsün. Şəxsiyyətə pərəstiş dövrü sona çatdı, Gülhüseyn müəllim də çoxları kimi tam bəraət qazandı. Geriyə - Azərbaycana qayıtdı, amma gəncliyini Sibirdə çürüdüb qayıtmışdı. Gəncliyini milli istiqlal uğrunda Sibir düzlərində qoydu. Gülhüseyn müəllim heç vaxt bu mübarizəsini əlində bayraq etməyib, ucadan hay-küy salmayıb. Heç indi də bunları demir. Çünki ürəkdən yaşadığın məhəbbəti, istəyi ucuz bayraq edib əldə gəzdirməzlər. Gülhüseyn Hüseynoğlu belə təvazökar insandır. Həbsdən qayıdandan sonra imperiyanın boğub dəniz sularında balıqlara yem etdiyi, gözəl şair Mikayıl Müşfiqin yaradıcılığını araşdırmağa başladı. Həyatının böyük bir hissəsini Müşfiq yaradıcılığını öyrənməyə, tədqiq etməyə, kitablarını nəşr

etməyə, foto-albomunu buraxmağa sərf edib. O illərlə tələbələrinə Müşfiqdən sevə-sevə danışıbdır. Hətta olub ki, Gülhüseyn müəllimdə Müşfiq yaradıcılığına böyük qısqanclıq da duymuşuq. Bu isə istəkdən, bağlılıqdan irəli gələn ilıq duyğudur.

1947-ci ildə ADU-nun filologiya fakültəsini bitirib, aspiranturaya qəbul olunmuşdu. Həbsdən sonrakı bəraət dövründə o, yenidən aspiranturaya bərpa olundu. O vaxtdan da universitetdə dərs deməyə başladı. Müasir Azərbaycan ədəbiyyatını illərdir ki, tələbələrinə tədris edir, professordur. Gülhüseyn Hüseynoğlunun nasir kimi də oxucuları çoxdur. O, Azərbaycan ədəbiyyatında mənsur şerin yaradıcısı kimi tanınır, sevilir. Oçerklər, povestlər, elmi tədqiqat əsərləri yazsa da, bədü yaradıcılığının əsasını mənsur şer və hekayələri təşkil edir. "Ay nur çiləyəndə", "M. Müşfiqin yaradıcılıq yolu", "Çətin yol", "Yaşatmaq üçün", "Kişi kimi", "Sübh çağı"... kitablarının müəllifi, sevimli müəllimimiz tələbələrinin, oxucularınm qəlbində əzizdir, hörmətlidir.

*"Xalq qəzeti",*
*19 aprel 2003,*
*27 fevral 2004*

## QƏLƏM DƏ BİR SÜNGÜDÜR

***Yox,***
***yox,***
***ulu torpaq,***
***Sənin uğrunda***
***həmişə***
***hər yerdə***
***mərd olacağıq.***
***Sənin***
***hər qarışın***
***ocaq yeridi.***
***Qan töküb***
***o yeri***
***biz alacağıq.***

# "VİCDANIMIZIN SEVDİYİ DİLDARİ VƏTƏNDİR"

Azərbaycan dünyasının indiyədək yaşanmış tarixinə nəzər salanda, ən qabarıq və aydın görünən ülvi məqsədi, mübarizəsi milli müstəqilliyi, vətən azadlığı və demokratik həyat yolu uğrunda olub. Bu müqəddəs milli tarixi gedişatı (prosesi) təsəvvürümüzdə dolğunlaşdırmaq üçün apardığımız araşdırmalar içində diqqətdə dayanan mühüm hadisə, bəşəri dəyərə malik maraqlı fakt – XX əsr milli tariximizin əbədi təntənəsi sayılan 1918-ci il 28 mayda Azərbaycan Demokratik Cümhuriyyətinin elan olunmasıdır. XX əsr ilk milli müstəqillik qələbəmizin, 1918-1920-ci il tarixində baş verən hadisələr poeziyamızda qismən də olsa öz əksini tapmışdır.

Azərbaycan Demokratik Respublikasının qurulduğu 1918-20-ci illərdə yaşanan həyəcanlı günlərin bədii əksini o dövrün ədəbiyyatında bütün zənginliyi ilə görmək mümkündür. Çar Rusiyasının süqutuyla onun tərkibindəki müxtəlif dilə, dinə mənsub xalqlar milli tərəqqi istiqamətinə üz tutdular, o cümlədən Azərbaycan xalqı da. Rus imperiya müstəmləkəçilik hökmranlığının devrilməsi (1917) gözlənilməz və labüd olsa da, hər bir milli tərkib illərlə ölkə daxilində gedən çəkişmələrdən, inqilablardan təsirlənərək, tədricən milli özünüdərk şüuruna qayıdır, keçirdikləri mənəvi-psixoloji hallarla daxilən dəyişir, sanki talelərinə açılacaq yeni həyatın hazırlıq prosesini, ibtidai mərhələsini yaşayırdılar. Ədəbi-mədəni mühitdə bu dəyişmələrə münasibət, belə hazırlıqlar ilk əvvəl milli romantik duyğular dünyasında inkişaf tapdı. Milli azadlıq mübarizəsinin genişləndiyi bir vaxtda ədəbiyyatımız milli romantiklərimizin qaynar poetik baxışlarıyla, bəşəri düşüncələriylə, sevgili aləmləriylə yeniləşdi, zənginləşdi.

Milli demokratik təfəkkürün oyanışı ərəfəsində vətənpərvərlik ideyaları, azadlıq eşqi, vətəni, torpağı və milləti tərənnüm hissi romantiklərimizin yaradıcılığının əsasını təşkil edirdi:

*Əsasi-fikrimiz təmini-istiqbali-millətdir.*
*Ürəkdə bəslənən amalımız-iqbali-millətdir.*
*Yeganə nöqteyi mətlub-istiqlali-millətdir.*

M.Hadinin 1906-cı ildə qələmə aldığı "Amali-tərəqqi" adlı bu şeirində əsas fikir, ürəyində bəslədiyi yeganə mətləb, niyyət, amal millətinin xoş iqballı və istiqlallı olmasıdır. Təbii ki, bunun üçün də yurd, Vətən şenniyi, abadlığı vacibdir. Vətən, millət azadlığı, varlığı isə milli müstəqillik və demokratiya uğrunda mübarizədən başlayır, onların qələbəsiylə inkişafını genişləndirir və dünya meydanına çıxır. Bütün bunlar dərketmənin məsuliyyəti, milli şüurun formalaşması prosesinə aiddir. Millətin qan damarlarında qaynarlığını və "həyatını" yaşadan milli hissiyyatları coşaraq milli şüuru tam silkələdi, milli təfəkkürü tarixi inamlarla – mif yaddaşıyla zənginləşdirdi, milli özünüdərk psixologiyasıyla silahladı.

Xalq milli özünəqayıdış mərhələsinə tam keçmək üçün inqilablar, milli azadlıq inqilabları yolunu – milli müstəqillik və demokratiya uğrunda mübarizə xəttini keçdi. Bu vaxt milli özünüdərketmə – qan qeyrəti, qan yaddaşı daha çox kara gəldi.

*Ey türk, sən ey qəhrəman, igid oğlu Turanın,*
*Şanlı, ulu babanın öyüdünü unutma.*
*Sən də yürü o yolu, ad çıxarsın əsgərin,*
*Ulular ardınca get, başqa bir yolu tutma.*

Gənc Ümmügülsümün coşub-çağlayan qəlbinin bu səsi əzəmətlidir. O, Azərbaycanının qüdrətini qorumaq üçün babalar öyüdünü, babalar yolunu daha namuslu, daha qeyrətli sanır. Bir az əvvəlki illərin ədəbi mühitinə diqqət yetirsək, bu duyğuların daha romantik izini görər, namuslu vicdanın səsini eşidərik:

*Dünyada əməlimiz fəqət emari-vətəndir,*
*Vicdanımızın sevdiyi dildari-vətəndir.*

1918-20-ci il ədəbi tarixində nisbətən yaşlı yazıb-yaradan ədiblərimizlə yanaşı, yeni ictimai-siyasi dövr ədəbiyyatının gənc nəsli bəlkə də yetkin və püxtələşmiş qüvvə kimi xüsusi yer tutdu. Orijinal duyumlu, coşqun hissli, azadlığa qovuşmaq yanğısı ilə

ilhamlanan ədəbi nəsil mənəvi-psixoloji sahədə daha uğurlu mübarizə xətti götürdülər. Dövri mətbuat orqanlarında ("Azərbaycan", "Açıq söz", "Şeypur", "Əxbar", "Qardaş köməyi", "Bayrağı-ədalət" və s.) milli ictimai təfəkkürün qələbəsindən sevinərək misralar dünyasını – şeirlərini dərc etdirdilər. Demokratiya və milli müstəqillik uğrunda mübarizə meydanında, xüsusən poeziya səhifəsində ən qaynar görünən, düşünən, milli bəşəri duyğu ilə coşub-çağlayan gənclik idi. Həyatın bərkinə-boşuna düşməyən, ancaq səmimi, dupduru duyğular burulğanında qaynayan gənclik poeziyası əsasən milli təfəkkürün qaynaqlarına güvənirdi. Milli azadlıq eşqi qan yaddaşından doğulan sevgi olduğundan bəşəridir, dünyəvidir. Bunlardan, 1918-ci il ədəbi mühitinə qədəm qoymuş gənc şairlərdən – 18 yaşlı Cəfər Cabbarlı, 19 yaşlı Ümmügülsüm, 19 yaşlı Əli Yusif, 26 yaşlı Əhməd Cavad və başqalarının poeziyalarının mayası şeirimizin milli köklərinə bağlı idi.

1918-20-ci il ədəbi-tarixini izləyərkən, araşdırarkən "gənclik fenomeni"ni diqqətdə saxlamağımız milli təfəkkürdən gələn azadlıq eşqinin qan yaddaşıyla yaranmasına sübutdur. Qan yaddaşı ilə əbədi mühitdə köklənən gənclik poeziyası mübariz və döyüşkən duyğulu mövzulardan keçib yeni respublikanın tərənnümü hissiylə kökləndi. İlk əvvəl müharibə vəziyyətində yaşayan vətənimizi qorumağa, öz oğullarını səfərbərliyə, xilas etməyə, erməni daşnaqlarının Bakıda, Dağlıq Qarabağda misli görünməmiş güclü qırğınlarının qarşısını almağa çağırış sədalı şeirlər eşidildi. Bu tərəfdən ingilis ordusunun Bakını dəstəkləyib əlinə alması milləti sarsıtdı. Buna görə də hərbi səfərbərlik elan edildi. Ədəbi-bədii aləmdə bu məzmunu əhatə edən şeirlər yazılaraq qəzet və məcmuələrdə dərc edilirdi. Ə.Cavadın "Ordumuza Ərmağan", "Ey əsgər", "Bismillah", "Türk ordusuna", Ə.Dainin "Könüllülər", Davudun "Məqsədimiz", Əli Yusifin "Azərbaycanlıya", "Qaranlıq səslər", Ümmügülsümün "Yurdumun qəhrəmanlarına" və digər milli qələm sahiblərimiz belə şeirləri ilə vətəni müdafiəyə çağırırdı, tökülmüş igid oğul qanları bahasına qazanılmış milli azadlığımızı,

milli siyasi-mədəni təfəkkürümüzün qələbəsini qorumağın səfərbərlik poetikası idi.

Azərbaycan Demokratik Cümhuriyyəti süquta uğrasa da (1920, 28 aprel), milli şair və yazıçılarımız qırğına məruz qalsalar da, onlar artıq ədəbi-bədii salnamələrdə beləcə azadlıq aşiqləri kimi "ömürləşmişdilər".

1918-20-ci illərdə gedən milli özünüdərketmə uğrunda mübarizə ədəbi-bədii fikrin, poeziyanın baş mövzusu olaraq, milli tariximizin əbədiyaşar səhifəsi kimi haqq işimizin tərcümanı, mənəvi bünövrəsidir. Bu poeziya milli özünüdərketmə şüurunun bir daha tarixən formalaşma mərhələsində müasir poeziyamızın nur mayasına çevrilərək -

*"Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik"*

- ideallı misralarla yeni səhifələrə yazıldı.

*"Vətəndaş" qəzeti,*
*28 may 1995-ci il*

## HƏR BÜLBÜLÜ – QƏMPƏRVƏRƏ GÜLZAR VƏTƏNDİR

Müstəqil Azərbaycan Dövləti, heç şübhəsiz, milli siyasi tariximizin ən uca zirvəsi, ən şərəfli yaranışıdır. Eyni zamanda tarixi nəslə o hikmət də yetişib ki, bu müqəddəs mübarizənin qələbəsi – Azərbaycanın Azadlığı mümkündür. Tanrı hökmüdür ki, zamanın təbii gedişatına insan gücü mane ola bilmir. İstək də, niyyət də, bəşəri duyğular da insan qəlbinə ancaq Allah işığıyla dolur. Sirli-düyünlü dünyanın həmin işıqdan yaranan mədəniyyəti uğursuzluğa düçar olursa və şəhid qanı axıtmaqla ana torpağı qoruyursa, torpaq sanki müvəqqəti əmanət verir. Yeni tarixdə tanrı haqqı həmin azadlıq duyğusunu inqilabçılar könlündə yenidən göyərdir, ayağa qaldırıb mübarizə meydanına yollayır. Üzübəri tarixi izləyə-izləyə 21-ci əsrin astanasına gəlib çataraq azadlıq inqilabı dalğasının geniş üfüq boyu yayıldığını görürük. Azadlıq aşiqləri zaman fürsətini fövtə verməyib uca, şərəfli, ülvi nöqtəyə üçrəngli – mavi, qırmızı, yaşıl rəngli, ay-ulduzlu, əzəmətli görünən Azərbaycan Milli Bayrağını taxıblar.

Təbii ki, siyasi müvəffəqiyyətin arxasında ədəbi, ictimai, iqtisadi sütunlar dayanır. Bir həqiqət də odur ki, siyasi-iqtisadi dirçəliş dövlətin sütunudursa, mədəni ab-hava onun nəfəsidir. ADC – Milli tariximizin ədəbi mühitinin zirvəsində görünən –

*Azərbaycan, Azərbaycan,*
*Ey qəhrəman övladların şanlı vətən,*
*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz,*
*Üç rəngli bayrağınla məsud yaşa.*

– misraları könül coşdurur. Bu nəğmə yenicə yaranmış Azərbaycan dövlətinə bəşəri sevgisidirsə:

*Ey buzlu şimaldan qopan ruzigar,*
*Toxunma qəlbimə, atəş parlar.*
*Sakın, gəlmə, səni nəfəsim boğar,*

*Dəf ol! Vətənimdə görəm səni –*

– bəndində isə ürəkdən gələn, ruhdan qopan bir nifrət, düşmənə qarşı amansızlıq səslənir. Bu səsin sahibi 20 yaşlı Ümmügülsümdür.

Bir az əvvəlki illərin ədəbi mühitinə diqqət yetirsək, bu duyğuların daha romantik izini görərik.

*Könlümün sevgili məhbubu mənim,*
*Vətənimdir, vətənimdir, vətənim.*

A.Səhhətin 1914-cü ildə qələmə aldığı bu şeirdə böyük reallıq, dərin romantiklik, sevgili hisslər qaynayır.

*Dünyada əməlmiz fəqət emar – vətəndir,*
*Vicdanımızın sevdiyi dildar vətəndir.*
*Gülbərgi – ədəbdə deriz ahəngi – məqamat,*
*Hər bülbülü – qəmpərvərə gülzar vətəndir.*

Ən incə duyğudan, ən qaynar sevgidən düzülüb bu misralar. Mütəfəkkir şair M.Hadi nəfəsində yaşayan, poeziyada duyulan bu "Vətən" sevgisi ölçülməzdir. Vətənə, millətə olan belə məhəbbət Azərbaycan ədəbi tarixində bəşəri duyğulu şairlərimizin yaradıcılığında əsas xətdir. Belə bir bəşəri eşqi Nizami, Məshəti, Nəsimi, Füzuli, Xətai, Vaqif öz qələmləri gücündə ilahiləşdirə biliblər.

1918-20-ci il Demokratik Cümhuriyyət dövrünün ədəbi mühitini bir az geniş meydanda araşdıranda Əli Yusif, Əhməd Cavad, Ümmügülsüm, C.Cabbarlı, Əmin Abid, Ə.Müznib, Ə.Dai, Davud, Səməd Mənsur, H.K.Sanılı, B.Seyidzadə və onlarca qeyrətli, qüdrətli qələm sahiblərinin yaradıcılıq səhifələri açılır. Tarixi fakt kimi xatırladaq ki, milli yazarlarımız 1919-cu il avqustun 26-da parlament binasında rəsmən elan olunmuş "Yaşıl qələm" dərnəyi ətrafında birləşərək yenicə yaranmış milli dövlətin mənəvi özülünü yaratmışlar.

Dövlətin əsas simvolları sayılan, onu beynəlxalq aləmdə dövlət kimi sayalandıran, tanıtdıran və şərəfləndirən müqəddəs rəmzləri – ordusu, bayrağı, himni və siyasi ideologiyasıdır. "Ədəbiyyat isə onları əks etdirən ən gözəl aynadır". Dövlətin bu nişan-

gahları söz aşiqləri olan milli təəssübkeşləri tərəfindən vicdanla, məhəbbətlə təbliğ olunmalı və millətə sevdirilməli, sözlər düzümüylə, məna-məzmunuyla bu həqiqəti açıqlanmalıdır. Belə bir mənəvi məsuliyyətin əsas ağırlığını özündə hiss edən ədəbi gənclik həmən borcu yerinə yetirməyə hazır olubdur. İlk növbədə üçrəngli, ay-ulduzlu bayrağımına sevgilər söylənib.

Yaranış tarixi ilə düşmən gözünü tökən, qəlbini xəncərləyən dövlətimizi qorumaq üçün milli ordu yaratmaq meylini, təşəbbüsünü şair-yazıçılarımız ürəkdən alqışlayır, hətta gəncləri bu sıradan qalmamağa, onu ərsəyə gətirən anaların toxmaq olmağa səsələyirlər.

*Ey şanlı gözündə inci*
*yaşlar parlayan,*
*Ey möhtəşəm köksündə*
*sönməz sevgi saxlayan,*
*Ey möhtərəm validə.*
*...Mane olma şux gəncə,*
*burax ,hərbə gediyor,*
*O,. bir baba igiddir,*
*Vətənin bəkçisidir...*

Bu da Ümmügülsüm nəfəsidir. Şeiri bütünlüklə oxuduqda həssas ana qəlbinin ana torpağı qorumaq pıçıltısını da eşidirsən. Bu misraların ardınca igid bir əsgər sədası cəmi milli cahana yayılır:

*Mən getmişəm vətən yolunda ölüm,*
*Qəmdən millətimi azad eliyim.*

Milli şair Ə.Dai yazıb bu misraları. Daşnak ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər, işğalçı hücumlar eynilə bu günkü vəziyyətdə ərşi yandırdı. Rusiya işğalçıları isə Şimal hissədə hazır dayanmışdılar. Bütün bunlar müstəqil dövlətimizə xəbis qonşulardan xəyanət addımları idi. Gənc dövlətin gənc siyasi xadimləri bu fitnəkar iblis imperiyanın oyunlarından aman tapa bilmədilər. Milli dövlətimiz 1920-ci ildə süquta uğradı. Bu faciə

şair qəlbləri göynətdi, gənc Ümmügülsüm ağı – deyib oxşama söylədi.

*Yazıq səni Bayrağım, endirdilər öyləmi?*
*Səni yıxıb devirən l zəhərli ruzigar.*
*Bir röyamı oldu o gördüklərim, həpisi?*
*Bağlandımı üzümə türk elinin qapısı?*

Qanımızla qazandığımız istiqlaliyyətimiz on minlərlə oğul-qızımızın şəhid qanıyla axıb torpağa amanat köçdü, yenidən göyərmək üçün. ADC ömrü siyasi həyatda pozulsa da, yazı salnamələrilə, ədəbi-mədəni mühitilə tarixləşdi. Milli şair və yazıçıların sağ qalan nümayəndələri vətəndə zülmət zindanlara atılıb çürüsələr də, Xəzər dalğalarının qurbanı olsalar da, bəziləri mühacir həyatı yaşamalı oldular. Qərib bir ruha dönmüş ədəbi sənətkarlarımız indi müstəqil Azərbaycan torpağının səmalarındadır, bizim könlümüzdədir. M.Ə.Rəsulzadənin poetik harayı Ülvi qəlbində öz əks-sədasını tapdı:

*Anama oğul deyiləm,*
*Atama oğul deyiləm,*
*Bu ocağın kor çırağı,*
*Yanmayacaq işığıyam.*
*Anam-atam zəmanədir,*
*Mən zəmanə uşağıyam.*

*"Səs" qəzeti,*
*28 iyun 1995-ci il*

# TALE POEZİYASI

Minillik yaddaşı olan bir sənətin son dövrü, xalqın demokratiya və milli müstəqillik uğrunda mübarizəyə qalxdığı zamanın ədəbi auditoriyası mövzu baxımından rəngarəng, faciəvi notlarla yeniləşdi və zənginləşdi. Faciəvi mövzunun həyatın, ictimai-siyasi böhranın məhsulu olaraq ədəbi mühitdə "görünməsi" tamamilə təbii haldır.

Sosializm cəmiyyətinin bir sistem kimi çökdüyü məqamda – 1988-ci il fevralın 18-də ermənilərin Azərbaycanın ürəyi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə təşkil etdikləri fitnəkar mitinqlərin, çağırışların törətdiyi çaxnaşma faciə ilə nəticələndi. Müqəddəs Qarabağ torpağına ilk şəhid qanı çiləndi. Ağdamlı iki gənc – Bəxtiyar və Əli şəhid oldular. Bundan bir neçə gün sonra – fevralın 26-da Sumqayıt hadisələri, 207 min azərbaycanlının kütləvi surətdə dədə-baba yurdlarından ermənilər tərəfindən qovulması, Qarabağ torpağının müxtəlif istiqamətlərdən zəbt olunması, Topxana meşəsinin doğranması, ayrı-ayrı kiçik yaşayış məntəqələrinin, kəndlərin yandırılması, get-gedə genişlənən qəsbkar hücumların nəticəsində şəhər və kəndlərin bütövlükdə yerlə-yeksan edilməsi, dinc əhalinin öldürülməsi, minlərlə qadın və uşağın Yerevana əsir aparılması, qanlı 20 Yanvar müsibəti, Qarabağ səmasında sərnişin vertolyotlarının vurulub yerə salınması, o cümlədən içərisində Azərbaycanın tanınmış dövlət xadimləri olan vertolyotun Qarakənd səmasında partladılması (20 noyabr 1991), Xocalı (26 fevral 1992), Şuşa (8 may 1992), Laçın (15 may 1992) şəhərlərinin, bütün Qarabağ ərazisinin ermənilərin əlinə keçməsi və saysız-hesabsız faciəvi hadisələr gündəlik həyatımıza, məişətimizə, ruhumuza, canımıza, qanımıza hopdu. Hamının fikir və düşüncəsi, bütün əməli və ictimai fəaliyyəti millətimizi qara günə ürcah edən bu faciələrə bağlandı və eyni zamanda qeyd-şərtsiz ədəbi aləmə də daxil oldu; beynəlmiləlçilik, dostluq ideyaları ilə gündən-günə möhtəşəm-

lənən sovet ədəbiyyatından birdən-birə yurd ağrılı, köçkün hıçqırtılı, viran qalmış el-oba haraylı, şəhid göynəmli, şahid heyrətli, milli faciə tarixli, milli bayram ovqatlı ədəbi mühitə keçid oldu. Müasir ədəbiyyat dəhşətli həyat həqiqətləri ilə milli ədəbi təfəkkürlə, ictimai tarixi prosesdə özünə qayıtmış milli mifologiya ilə, milli yaddaşla, xalqın mənəvi təcrübəsiylə qidalandı. Şair M.Araz yazırdı: "Bizim çoxumuz şüar yazmışıq.

Uzun müddət keçmişimizdən, klassik ədəbiyyatdan, klassiklərimizdən üz döndərmişik. Elə bilmişik ki, sosialist inqilabından sonra yeni – Orijinal ədəbiyyat yaratmağa başlamışıq. Hər şey bizdən başlayıb... Bir çox şeirlərimin üstündən xətt çəkərdim. Vətəndaşlıq mövzusuna daha çox müraciət edərdim".

Bu gün azadlıq günəşinin nəfəsiylə isinən kövrək poeziyamız taleyin ağır sınaqları ilə üzləşib. Torpaqlarımızın bir qismi düşmən caynağında, məkrli düşmənlə ölüm-dirim mübarizəsində olduğu bir vaxtda bu poeziya "müsəllah əsgər" vəzifəsini yerinə yetirməyə borcludur. Müstəqil Azərbaycanda xalqın zaman-zaman arzuladığı azad və məsud bir dövrün xoş gün-güzəranından yazıb-yaratmaq niyyətində ikən şairlərin rübabında hüzn, matəm motivləri səsləndi.

H.Arif "Göyçəlilər, dağılmayın Göyçədən" misrası ilə başlanan məşhur şeir-müraciətini yazdı:

*Dədə Qorqud nəfəs alıb bu yerdə,*
*Bərkə-boşa sinə gərib bu yerdə.*
*Nəsillərə öyüd verib bu yerdə,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

*Aləm bilir, hər hörmətim sizədir,*
*Dədə-baba məhəbbətim sizədir.*
*Mən Arifəm, vəsiyyətim sizədir,*
*Göyçəlilər, dağılmayın Göyçədən.*

Müasir poeziyamızda didərginlik mövzusunun özülü el şairinin bu şeiriylə qoyuldu – desək, yanılmarıq. Məlum olduğu

kimi, vaxtaşırı həyata keçirilən köçürülmə siyasəti nə ədəbiyyata, nə də geniş mətbuat səhifələrinə yazılmayıb, "didərgin", "qaçqın" sözü dilə gətirilməyib, bu haqda nəsə yazılıb sənədləşdirilməyib. Bütün bunların günahı ictimai-siyasi vəziyyətlə bağlı olubsa da, şair-yazıçının, qələm əhlinin şəxsi arxivində hifz olunub saxlana bilərdi. Yazıçı Ə.Cəfərzadə yazır: "Hələ keçən əsrdən peyda olan daşnak planının nəticəsində Ermənistandan qovulan didərginlərimizin acılı-ağrılı günlərini sənətin hansı növünə salmışıq?". Müəllif tarixi fakt kimi etiraf edir ki, öz taleyimizə biganəliyimizdən, laqeydliyimizdən başımıza açılan fəlakətlərdən ayılmamışıq, bu da son, bu da nəhayət. Dinc əhalinin, doğma torpağın faciəli taleyi misralara köçdü. Böyük ustad Aşıq Ələsgərin "Üzü bəri baxan dağlar, mənim sizdə nəyim qaldı?" – həsrət dolu fəryadının ağrı-acılı mənası göynərtili, hüznlü olmaqla yanaşı, onda sabahkı mübarizəyə səsləyən bir çağırış da vardır. Bu "üzü bəri baxan dağlar"da qədim bir nəslin izi, ruhu, etnoqrafiyası, həyat səlnaməsi yaşayır. Onu məkrli düşmənin əsarətindən xilas etmək borcumuzdur.

Y.Kəsəmənlinin, E.İsmayılın, T.Talıblının, Ə.Vəkilin, D.Məftunun, M.Göyçəlinin, T.Göyçəlinin və digər didərgin taleli şairlərin ürəyindən axan nisgilli duyğuların poeziyada təcəssümünün tarixi əhəmiyyəti odur ki, vaxtilə biganə qaldığımız xalq-torpaq taleyi unudulmayacaqdır. Bunlar ictimai-siyasi tarixi ağrılardan doğan milli-ədəbi izdir, bu poetik sətirlər təkcə nisgilli, qayğılı, hıçqırtılı duyğularla yox, həm də yüksək vətəndaşlıq mövqeli, qeyrətli, vətəni müdafiə ruhlu, mübarizə eşqli milli ruha söykənmişdir. Erməni təcavüzünə məruz qalmış, yurd-yuvasından didərgin düşmüş İrəvan və Qarabağ əhli hazırda Azərbaycanın müxtəlif şəhər və rayonlarında yaşayırlar. Onlar yenə də yazıb-yaradırlar; aralarında çap olunanları da var. Bu boşluğun xeyli dərəcədə doldurulmasında yeri olan "Ədəbiyyat qəzeti"nin rolunu qeyd etmək yerinə düşər.

Poeziyamızın son dövrünün əsas obyektlərindən biri də şəhidlik mövzusudur. Dövri mətbuat orqanlarında, kitablarda şəhidlərimizə həsr olunan şeirlər onların ruhuna ehtiram poeziyasıdır: şəhid ömrünü əks etdirən poetik əsərlər, ədəbi tarixi salnamələr analarımızın nəfəsi, real faktlardır... Qarabağın qara taleli insanlarının, qəhrəmanlarının, o cümlədən Xatın misallı Xocalı əhalisinin kütləvi şəkildə qırğınından çox yazılıb. Siyasət məngənəsinə düşən Azərbaycanın, onun ayrılmaz parçası olan Qarabağın qara taleyi oxucuya poetik dillə təqdim olunub:

*Ağrıyır Vətənin daşı, qayası,*
*Ağrıyır yolların intizar gözü.*

Ağrıyan Vətənin yarasına məlhəm qoyan oğulların – igid əsgərlərin, mübariz şəhidlərin poetik obrazı zaman keçdikcə poeziyamızda daha canlı, əzəmətli təcəssümünü tapacaqdır. Bir həqiqəti isə unutmayaq ki, şəhid ucalığı, şəhid şərəfi 20 yaşın, 40 yaşın, 60 yaşın qələmində də, duyğusunda da, hər ürəkdə bir yozumda heykəlləşir. Əli Kərimin "Şəhidliyin zirvəsi" şeiri yada düşür:

*Təpədən dırnağadək soyalar bir adamı:*
*Necə ola dinməsin,*
*Böyük əqidəsindənbir misralıq enməsin,*
*Gözündən bir nöqtə yaş*
*sinəsinə düşməsin,qaşları çatılmasın*
*bir xırda vergül qədər,*
*Diri-diri soyulsun,əqidədən keçməsin.*

Qarabağ torpağı, Vətənin bütövlüyü yolunda Azərbaycan xalqı bütün keşməkeşləri adlamağa hazırdır. Vətən övladları diri-diri soyulsalar da, yandırılsalar da, oba-oba, şəhər-şəhər məhv edilsələr də, torpaq eşqi onların mübarizə əzmini qıra bilmir.

Müasir ədəbi mühitdə əsas xətt bir ideyaya söykənmişdir: Vətəni düşməndən, torpaqlarımızı yağılardan xilas etmək, azadlıq və müstəqillik yolunda milli tale ilə baş-başa qalıb yaşamaq, ucalmaq. Bu dövrdə yaranan şeir sənətkarlıq və poetik cəhətdən

kəm-kəsirli olsa da, ictimai ideyanın təbliği və zamanın nəbzini tutmaq, onun döyüntüsünü əks etdirmək baxımından müəyyən əhəmiyyət kəsb edir. Yeni milli dövlət quruculuğu müasir ədəbiyyatın qarşısında yeni perspektivlər açmış, yeni vəzifələr qoymuşdur. O, xalqın arzu-istəklərini ifadə etməkdə tam azaddır. Milli yaddaşa, soy-kökə arxalanan poeziyamızın milli azadlıq və milli müstəqillik mübarizəsindəki çağırış sədasının get-gedə daha da güclənəcəyinə və sabaha çatacağına heç bir şübhə ola bilməz .

*"Azərbaycan ordusu"*
*27 aprel 1996-cı il*

## ŞƏHİDLİK ZİRVƏSİ

*Şəhidəm, qan rəngli olsun kəfənim,*
*Qoy belə bəzənsin, bayramım mənim.*

Şəhidlik ruhun gerçəklik anlamı olan eşqdən doğulur. O eşqdən ki, torpağa, yurda, xalqa gətirdiyi kamil inamla qəlbdə ülviləşib. Gənc bir şəhid-şairin nəğməsindədir: "Ölüm insanların son heyrətidir!" Son heyrətdən əbədi heykəlləşən müqəddəs ölüm isə Şəhidlikdir. Bu məqam hər kəsə nəsib olurmu?

Dini inama görə şəhid qanı yuyulmaz. Şəhidliyə necə düşübsə, eləcə dəfn olunar. Çünki şəhidin qanı qiyamət günü nura çevrilər, onun qanından müşk-ənbər ətri gələr.

Və qəribədir ki, şəhid anlamını qan yaddaşımızda yaşasaq da, duysaq da, sözümüzdən, nitqimizdən, düşüncəmizdən fərqinə varmadan, itik salmışdıq. Bəlkə də həyatımızın düzümü duyğularımızı özümüzdən uzaqlaşdırmışdı.

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*

1988-ci ilin "miatsum-miatsum", şər-şeytan qışqırığından sonra Azərbaycan gerçəkliyi Tanrı sınağına çəkilmişdi. Son 70 ilin siyasi-mənəvi terroru kimi aşkarladığımız bir faktı da 1918-20-ci illərdə Azərbaycan bütövlüyü uğrunda minlərlə insanların şəhidliyinin ört-basdır edilməsidir. Bəlkə də elə o şəhid ruhların qiyamıyla bu mübarizələr başlamışdı.

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə... O gecəyəcən iki il idi ki, Azərbaycan xalqı haqq uğrunda, azadlıq uğrunda, Azərbaycan bütövlüyü uğrunda mübarizə meydanında ayaq üstə idi. Torpağının, yurdunun azadlığını istəyirdi. Heç kəsdən heç nə ummurdu, istəmirdi, özünün yağı tapdağından, yağı nəfəsindən müdafiəyə qalxmışdı.

1990-cı il 19-20 yanvar... İki-üç gün idi ki, imperiya öz tank-topu ilə, avtomat-pulemyotu ilə gəlib Azərbaycanın Xəzər

duvaqlı Bakısının ətrafında şöngümüşdü. Hamı o gecə imperiyaya məxsus ağır hərbi sursatları görə-görə, əliyalın, qəlbi yurd eşqi ilə dolu yolüstünə çıxmışdı. "Necə gəlmisən, elə də qayıt. Bakı mənim namusumdur, döyünən ürəyim, düşünən beynimdir, qoymarıq bu müqəddəs ocağı dağıdıb külünü göyə sovurasan" – deyə hər ürək beləcə bir pıçıltı ilə sinəsini gülləyə tuş tutdu. Bu böyüklüyün, ucalığın, sevginin işığından tank – toplular heyrətə gəldilər, çaşıb qaldılar. Sonra...

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə... İki-üç gün idi ki, hamı, – yer, göy də soyuq-sazaq da, ay da, ulduzlar da nigaran idi. O gecə hamı bir anlıq susdu. Külək, boran ayaq saxladı. Ay-ulduz qeybə çəkildi ki, bəlkə düşmən səssizlikdən gizlicə geri qayıda. Heyhat! Zülmətə dönən sükutu göyə qucaq-qucaq səpələnən güllələrin işığı pozdu. Bakının bağrı qızıl qana bələndi. Yer-göy abrından doğrandı. Bakını qoruyan ərənlər bu vəhşilikdən çaşmadılar, sanki 1918-ci il şəhid ruhlarının Cihad məqamlarını, nəfəslərini duydular. O şəhidlərin ki, 70 il idi danılmışdılar. ADR banisi M.Ə.Rəsulzadə təbirincə xatırlasaq, "onlar – o böyük vücudlar tam vaxtında bir məleykeyi-nicat kimi yetişərək özləri öldülər, fəqət bizi ölümdən qurtardılar. Onlar bu ölümü istehkar edən böyük adamlar, bizə yaşamaq üçün ölmənin nə məsud, nə şanlı, nə şərəfli bir xislət olduğunu öyrətdilər. Onlar – o fədakar insanlar Azərbaycan Cümhuriyyətinin payidar olmasına, məmləkətimizin cəllad ciyəsindən qurtulmasına səbəb oldular!... Şühadə qəbri üzərinə gedib də fatihə verməyini unutmayınız!"

Qaranlıq gecədə nur olub yolumuza çıxdı o şəhid ruhları. Cihad məqamında könlümüzü yurd sevgisiylə ucaltdılar. Körpə Larisa ona dəyən gülləyə sevindi: "Nə yaxşı, Bakıya yox, mənə dəydi" – deyib göylərə uçdu. 13 yaşlı İlqar ocağa bir qucaq odun ataraq "mən sönsəm də, qoy Bakım nurlu görünsün" – pıçıldayıb əbədi susdu. İbrahim son məqamında şəhid dostuna söykəndi ki, onun yarası soyuqdan göynəməsin. Gənc alim Yusif qolunu sevgilisinə nişan qoyub, cismini tank tırtılları altına atdı ki,

Bakının yaralı sinəsi doğranmasın.Fərizə yar-yoldaşı İlhamın şəhid ruhunu bağrına basmaq üçün zəhəri şərbət təki başına çəkdi.

"And" içib "uzaq bir yola" çıxmış gənc şair Ülvinin kövrək qəlbi vəhşiliyə üsyan olaraq uca səslə haray etdi: "Qırmayın mənim xalqımı, onlar əliyalındır, körpə var, qadın var, çəkilin geri!" Bu səda düşmən beynini deşdi. O da cavab əvəzinə gülləni onun söz deyən dilindən ürəyinə doldurdu. "Ölüm" adlı yuxudan qorxmayıb" azadlıq yoluna çıxan şairin ruhu üz tutdu öz Göyçəsinə.

O gecə neçə oğullar şəhid düşdü.

77 yaşlı Sürəyya nənə əl açıb Allahdan yurduna imdad istədi. Güllə nənənin duasını yarımçıq qoydu. Cavad əqidəsi uğrunda Cihad edərkən əmisi oğlu M.Müşfiqin ruhuna sığındı. Dostu Xalqan da şəhidliyi üstün tutdu.

Beləcə o gecə hər tale öz payına yiyə durdu. Kimisinin sağı-solu güllələndi, şəhid oldu, ona heç nə olmadı. Kimisini güllə deşik-deşik etdi, ölmədi. Hələ də yaşayırlar. Beləleri yüzlərlədir, bəlkə elə də düz min bir nəfərdir. Sirri açılmaz rəqəmlə eynidir deyə, o gecənin sirri açılmaz düyünə düşüb. Yüzlərlə igid qolu bağlı, gözü bağlı gecəynən soyuq Sibir çöllərinə aparıldı. Düşmənin nifrəti tükənmirdi. Naxçıvanı, Lənkəranı, Neftçalanı, Sumqayıtı... Azərbaycanın dörd bir yanını güllələyirdi. Amma heç kəs ölmürdü. Hamı yurdu, torpağı uğrunda şəhid olurdu. Müqəddəs kitabımız Qurani Kərimin "Ali-İmran" surəsinin 168-ci ayəsində Şəhidlər haqqında deyilir: "Heç vaxt güman etməyin o kəsləri ki, Allah yolunda şəhid olublar, ölüblər, bəlkə (bərakəs) onlar (həmişə) diridirlər və pərvərdigarın yanında ruziləri var."

1990-cı il 19-20 yanvar ömrümüzə, günümüzə çalın-çarpaz dağ çəkmiş, könül nurumuzu zülmətə çevirmiş o günləri əbədən yaşatmaq milli mənəvi borcumuzdur. Bu borc milli varlığımızın təsdiqidir... Şənbə gecəsindən açılan o səhərin açılmaz düyünləri lap çoxdur. O gecənin sirrləri haqqında bilmədiklərimiz bildiklərimizdən qat-qat, min dəfə artıqdır. İnsanlar o düyünləri

murdar nəfislərinin qurbanı etsə də tarix heç nəyi danmır, itirmir, hər şey gec də olsa Allahın hökmü ilə açıb tökür.

20 Yanvar kor hisslərin ucbatından düyünə düşüb düşmən əlinə fürsət verilərək yarandı. Azadlıq aşiqləri əliyalın imperiya qullarına sinə gərdilər. Ölümləri ilə onlara qalib gəldilər, məğlub olmadılar. O gecə Azərbaycan gerçəkliyi şəhidlər qanı ilə dünyada tanındı. Azərbaycan varlığı öz qanı ilə qırmızı geyib şəhərin ən uca yerində taxt-tac – Şəhidlər xiyabanı qurdu... O vaxtdan həmin yer müqəddəs səcdəgaha dönüb. Ora ziyarətə gələnlərin ardı-arası kəsilmir, torpaqlarımızda müharibə gedir və yurd uğrunda şəhid olanlarımızın da sayı azalmır. 1918-ci il mart şəhidlərini qoynunda əzizləyən Çəmbərəkənd qəbristanlığı, Şəhid cismi uyuyan ziyarətgah imperiya siyasəti ilə sonralar Dağüstü parka, oyun-əyləncə yerinə çevrildi. Unutqanlığımız, yaddaşsızlığımız başımıza gətirilənlərə etinasızlığımız o tarixi acı, ağır 20 Yanvar 1990-cı il müsibəti ilə yenidən bizi özümüzə qaytardı. Kimlər idi o gecənin şəhidləri? O kəslər ki, Azərbaycan tarixini yaşadacaq tale sahibləridir. Bakının sabahını açmağa can qoyan ərənlərdir. Tələbələrdir, körpələrdir, qocalardır, qadınlardır, sevgililərdir.

Onlar vətənə və torpağa ülvi sevgi hissi ilə şəhidlik zirvəsinə ucaldılar, müqəddəs ruhları göylərə merac etdi. Gəlin, yaşanmış və tarixə çevrilmiş bu ömür aydınlıqlarını səhifələdikcə göz yaşları bizi qəhərləndirdikcə, xəyal bizi o günlərə qaytardıqca, millətimizin hökmən gələcək işıqlı sabahına inamımız artdıqca dualarımızı da unutmayaraq deyək: Allah sizə rəhmət eləsin! Qəbriniz nurla dolsun!

*"Millət " qəzeti 20 yanvar 1996-cı il*
*"Panorama" 20 yanvar 1996-cı il*
*"Şəhriyar" 16 yanvar 1997-ci il*

## MƏNƏVİ AĞRILAR DÜNYASINDA

Bəşəri ideyalara qovuşmaq, bəşəri intellektual əlaqələr imkanında olmaq üçün əvvəlcə öz milli varlığını dərk etmək, millətinin və onun siyasi-mədəni həyatının təşəkkül tarixini araşdırmaq eyni zamanda milli gerçəkliyin daim yüksək tərəqqisi naminə dünyəvi əxlaqi-mədəni yol seçmək vacibdir. Əlbəttə, bəşərə aləmə qaynayıb-qarışmaq dövründə olan milli "mən"in ancaq öz milli qüvvəsi çərçivəsində həll edə biləcək konkret məqsədi olmalıdır. Konkret məqsədin həyatiliyi üçün isə müstəqillik lazımdır. Bir həqiqət var ki, azadlıq həyat şəraitində təşəkkül edərək şəxsiyyətin xarakter əlamətinə çevrilir. Əsrlər boyu Azərbaycanın milli müstəqilliyi boğulmuş, Azərbaycanın bir dövlət kimi hüquqları tapdalanmış, öz milli tərəqqisi tarixində çətinliklərlə üzləşmişdir. Ancaq bir millət kimi özünü yaşatmaq eşqi tükənməz olan Azərbaycan xalqı müharibə və müstəmləkə zülmünə, istismarına dözləyərək müqavimət göstərmiş, azadlığa can atmışdır. XX əsrin axırlarında tarixin yetişdirdiyi fürsəti əldən verməyərək –Azərbaycan xalqı istiqlaliyyət qazanmaq üçün qəti mübarizə yolu seçərək milli azadlıq hərəkatını genişləndirdi. Azərbaycan xalqının milli özünüdərki ictimai-siyasi hadisələr dövründə xeyli aydınlaşdı. Milli özünüdərk hissi ilə əhatələnən mübarizədə xalq öz azadlıq, arzurını həyata keçirmək və milli müstəqillik ləyaqətinin inkişaf etdirmək fürsətini əldən buraxmırdı – istər mədəni, istərsə də siyasi-iqtisadi imkanda azadlıq uğrunda mübarizəsini haqq işi kimi dəyərləndirirdi. Azərbaycan xalqının Azadlıq mübarizəsi yolundakı əzəməti və qətiyyəti sovet sistemi çərçivəsində dağılmağa başlayan imperiyanı vahiməyə saldı. Odur ki, özünü yenidən müstəmləkəçitək dirçəltmək üçün ayrı-ayrı yerlərdə faciəvi iğtişaşlar, konfliktlər törət-məyə başladı. Tarix təkrar olurdu. Az qala eyni oxşarlıqla tarixdən-tarixə təkrarlanan milli faciələrlə üzləşəndə də təbiətği etibarilə mərd, döyüşkən,

qorxmaz, güclü xarakterə malik igidlərimiz ölümləriylə düşmənə qalib gəliblər. Aşkarlıq və demokratiya şəraitində – son dövr ictimai-siyasi tarixi hadisələrin gedişatı imperiyaya belə bir faciə törətməyə yendən imkan verdi. Ancaq xalqın azadlıq eşqini, həmrəylik və birliyinin asanlıqla boğmağın mümkün olmadığını görən imperiya 1990-cı il yanvarın 20-də ağlasığmaz cinayət törətdi: Azərbaycanın paytaxtı Bakı şəhərinə sovet ordusu təcavüz edərək dinc əhalinin qanına qəltan etdi. Xalq bundan qorxmadı, əksinə igid oğul-qızları topun-tüfəngin qabağına gedərək Vətən, torpaq, azadlıq uğrunda şəhid oldular. O gecənin faciəvi qəhrəmanı ümumxalq müqəddəratı və mənafeyi uğrunda mübarizlə, ölüm anında məqsədindən dönməyərək canından keçən azadlıq fədailəri idi. Bu faciə milli azadlıq uğrunda mübarizə yolu keçən milli-mənəvi aləmin təntənəsi, qələbəsi kimi tarixə yazıldı. Bəli, bu tarxə qanla yazılsada, azadlıq mübarizəsinin ictimai-siyasi məzmunu idi. Milli özünüdərk prosesində yaranmış faciələr – 20 Yanvar, Dağlıq Qarabağ torpağı uğrunda döyüşlər bəşəri hisslər hüdudunda ali məqsəd olaraq ədəbiyyat-poeziya səhifələrində görünürdü. Bu ədəbiyyat-poeziya – azadlıq nəğməsi, qələbəyə çağırış təntənəsi, müstəqillik şərqisi kimi ədəbi tarıxin səhifələrinə köçürülürdü. Ümumiyyətlə, milli azadlıq mübarizəsi təkcə siyasi mitinqlər meydanında yox, xalq həyatının bütün sahələrində – iqtisadiyyatında, mədəniyyətində, ədəbiyyatında get-gedə genişlənirdi.

20 Yanvar – milli faciə olaraq din-imanımızı yandırsa da, millət 40 gün matəm libası geyib yas tutsa

da, ağlasa da, qəlbi yaşamaq, həyat eşqi ilə dolu xalqımızın azadlığa ge-dən şamı qırılmışdı. Əksinə, ümumxalq dərdi o günlərdə hamını bir-birinə sıx yaxınlaşdırdı. O gecənin qaranlığında sanki Mirzə Cəlili dinlədik: “Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Yekə bir millətin dili, namusu, hüququ, Vətəni təhlükədədir. Axıtmalı qanımız, ehsan etməli

pulumuz varsa, gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur".

Bakı yanvarın 20-nə açılan sabahını qızıl qan içində açdı. İki-üç milyonluq şəhərdə hamı kədərə bürünmüşdü. Əl çatan hər yerə qara lentlər bağlanmışdı – maşınlara, yolda-izdə olan müxtəlif dirəklərə, ağaclara. El matəminə el çiyni söykənmişdi. Hamı bir-birinə "başsağlığı" verirdi. Gəmilərin tükürpədici fit səsi Bakını başına götürmüşdü. Yollar-izlər qərənfil dənizinə dönmüşdü. Bütün analan – qadınlar şəhidlərə ağı deyib ağlayırdılar. Kişilərin də hönkürdüyünə çox rast gəlinirdi. Dərd içimizdən selsuyla hıçqırıqla daşırdı. Cəmi bir gecədə min əfsanə yarandı. Cəmi bir gecədə xalqın necə əfsanəyə dönməsinin şahidi olduq. O gecə ölümün qələbəsini, üsyanını gördük. Gözümüzün qabağında tarixi formasiya dəyişirdi, libası isə qanlı köynək oldu.

1918-ci ilin martında Şaumyanın fitvası ilə daşnak eser hərbi qüvvələri tərəfindən qanına qəltan edilən on mindən artıq azərbaycanlı vaxtilə "Çəmbərəkənd"deyilən yerdə – Bakının ən uca yerində dəfn edilmişdi. Sovet siyasəti bu faciəni xalqa unutdurmaq üçün Çəmbərəkənd qəbiristanlığını ləğv edib Dağüstü parka çevirmişdi 1990-cı il 20 Yanvar faciəsinin şəhidləri 22 yanvar tarixdə orada dəfn edildikdən sonra həmin yer "Şəhidlər Xiyabanı" adlandırıldı və xalqın səcdəgahına çevrildi.

Torpaq ağrısını, azadlıq, müstəqillik duyğusunun əzəmətli, şəhid ucalığını və ülviliyini, döyüş meydanının zəhmini şair qəlbi o hissləri olduğu tək yaşaya bilir. Millətin ən ümidsiz anlarında şair, publisist-yazıçı sözü bir ordu qədər iş görür. 1990-cı il 20 Yanvar faciəsinin ədəbi poetik salnaməsi də şehli səhifələrə yazıldı.

Məmməd Aslan 20 Yanvar gecəsini 20 Yanvar səhərinə "Ağla, qərənfil, ağla" ağı-oxmaması ilə açdı.

*Ağla, ürək boşalsın,*
*Ünün gbyə baş alsın.*
*Ağla, dağlar yumşalsın,*

*Ağla, qərənfil ağla.*

– 13 bənddən ibarət olan bu şeir 20 Yanvar faciəsinə ilk yazılmış müqəddəs dərd nəğməsi, şəhid nəğməsi oldu. Dillər əzbərinə çevrildi. Yas mərasimlərində oxucu, hüzlü musiqiyə mətn oldu.

O matəmgah günlərində şəhid qanı tökülən yerlərə, şəhid əşyası səpələnmiş yola şəhidlərin dəfn olunduğu xiyabana qədər hər yerə qan rəngli qərəfnillər döşəndi. O il Bakı qərəfnilləri Şəhidlərə qismət oldu. “Şəhid kimdir?” – sualı heç kimi donuxdurmadı. “Şəhid qanı yuyulmaz. Şəhidliyə necə yetibsə, eləcə dəfn olunar”– ulular deyib. Bir də deyiblər,yazıblar ki, “şəhidi ağlamazlar”. Şəhid ucalığına yüksəlmək hər insana nəsib olmur.

Dahi Nizami Gəncəvi şəhid müqəddəsliyini belə tərənnüm edib: –

*Şəhidəm, qan rəngli olsun kəfənim,*
*Qoy belə bəzənsin, bayramım mənim.*

İslama görə şəhidlər qandan təmizlənməz, çünki şəhidin qanı qiyamət günü nura çevrilər, onun qanından müştənbər ətri gələr. Şəhidlik imanın ən yüksək zirvəsidir, ülvilik rəmzidir. 20 yanvar faciəsi milli ədəbiyyatımızın ağı-oxşama, bayatıyla el dilindən yeni səhifəsini yazdı –

*O, bir ərən igid oldu,*
*O, tarixə şahid oldu,*
*Ülvi balam şəhid oldu,*
*El yolunda öldü getdi.*

Azadlıq şəhidlərinə qəm laylası belə zümzümələndi. Hər kəsdən əvvəl dərddən qovrulan ana qəlbinin harayıyla təzə bayatılar oxşandı. Qabilin, Müzəffər Şükürün mərsiyyələri, Xəlil Rzanın Lefortofo zindanından yazdığı od püskürən misraları 20 yanvarın poetik sosiolojinin ilk səhifələri idi. Bu elə bir məqam, elə bir mənəvi ağrı idi ki, əli qələm tutan hər kəsi duyğulandırdı – tanınmış söz ustalarının, yüzlərlə qəlbi söz tutan yurddaşlarımızın şeirlərinə çevrildi.

Xalq şairi Məmməd Araz xalqa üz çevirib "başımızı dik tutun" – deyə şəhidlərin ruhu xatirinə milli qüruru əyməməyə çağırırdı. Yeri, göyün bizdən asılı olmayan, bizə tabe olmayan qanunları belə deyir ki, şəhidlər ölmür, şəhidlər ölməzliyə qovuşurlar. Dili ölməz xalq ölməzdir. Onlar ana dilimizi yaşatmaq uğrunda şəhid oldular". Milli ruh, milli tarix, milli ədəbiyyat, milli ənənə, Vətən... kimi dəyərlər milli idealın əsas amilləridir. Haqsızlıqlara qarşı duyulan nifrət belə milli dəyərlərin təzyiqi və inkişafına imkan verməsi ilə yaranır.

Yüzlərlə şeir və poemalar, bədii təxəyyülün məhsulu olan sənət nü-munələri 20 yanvar faciəsindən dərhal sonra ilk mətbu orqan-la-rından tutmuş onlarla adda bura-xılan qəzet və jurnallarda dərc olundu. 1990-cı ildə Rafiq Səməndərin isti-isti qələmə aldığı "Şəhidlər" kitabından çox şey öyrənmək olar.

Ustad sənətkarımız H.Arifin "Ülvi" poeması, M. Dilbazinin "Şəhidlər qəbiristanında", "Öpün bu torpağı", M. Gülgünün "Bu şəhid balaların ötən çağı deyildi", Mütəllibovun "Dözüm dərsi", F.Sadığın "Birgə bu qalmışdı", M.İbrahimovun "Vətən şəhidlərinə", Z.Yaqubun "Vətən nə çəkdi", "Altında", "Şəhid qanı", "20 yanvar günü", A.Mustafayevin "Dəli bir ağlamaq keçir könlümdən", M.Şükürün "Habil çalarkən", M.Namazın "Körpə şəhidlərə layla", "Torpağa yazıldı", F.Qoca "O gecə", R.Məmmədzadə "O gecə", Ə.Salahzadə "Qərənfil nağılı", R.İncəyurd "Yanvar ağıları", A.Seyidzadə "Qat", H.Bülbülün "Qaməti əyildi Heydər babanın" H.Abbas "Analara sözüm"... beləcə yüzlərlə çap olunan, çap olunmayan poetik nümunələr, nəsr əsərləri, publisistik düşüncələr qələmə alındı. O gecənin ağrısına milyon nöqtədən işıq səmtləndi – şeirə, nəsrə, drama köçürüldü. Milli azadlıq meydanında mübarizə aparan bir xalqın keçirdiyi mənəvi-psixoloji ağrıları yaddaşlara beləcə yazıldı.

20 yanvar qanlı gecəsi öz bədii ifadəsinin incəsənət əsərlərində də tapdı. Hadisələrin isti-məqamında şəhidlərin qəbri üzərində və yaxud da ziyarətə gələn minlərlə insan axını arasında

– başı üstdə şəhidlərə ithaf olunmuş qrafika, plakatlar, tətbiqi sənət əsərləri... görünürdü. Bu əsərlər hələ heç bir sərgi salonunda nümayiş olunmamış “Şəhidlər Xiyabanında” – Şəhidlərin qəbri üzərində sərgiləndi, milyonlarla insan axını qarşısında seyr edildi. Müəyyən vaxt ötdü – bu əsərlər ya müxtəlif mətbu orqanlarında dərc olundu, ya da rəsm salonlarında sərgiyə qoyuldu. Bu əsərlərin məzmunu fırçalarla, yağlı boyalarla kətan üzərində həkk olunmuşdu – cəmi bir kəlmə başlığı isə o məzmunu tutarlı şərh edirdi. Və beləcə ilboyu bu cür əsərlər daim xalq qarşısından, xalq gözündən çəkilmədi. Ayrı-ayrılıqda “Plakatlar”, “Qrafika”, “Təsviri incəsənət əsərləri”, “Tətbiqi sənət əsərləri” “heykəltəraşlıq” nümunələri milli tariximizin o anını, o məqamını sənət tarixinə yazdı. Sonrakı illərdə o cür sərgilər yenə də ilboyu nümayiş olundu. Həmin illərin arxivini nəzərdən keçirmək, bu gün yenidən oxucuların diqqətinə çatdırmaq milli hisslərimizi gücləndirmək, yeni əsrdə milli dövlətçiliyimizin möhkəmlətmək baxımından olduqca aktual görünər.

**Plakatlar:** H.Elçiyev “Bakı, Qara yanvar 1990", ”Aşkarlıq", İ.Kantəmirov “Yanvar”, H.Nəzərov “Qanlı yanvar”, A.Qasımov “20 yanvar”, E.Xalıqov “20 yanvar” heykəltəraşlıq. M.Əfşar “Çağırılmayan qonaq”, “Şəhid”, M.Əliyev “Didərginlər”, M.Abbasov “Vəziyyət”, M.Babayev “Yanvar-90", E. Quliyev ”Qarabağ ağrısı", F.Həmzəliyev “Qurtuluş”, V. Məm-mədov “20 yanvar”.

**Tətbiqi sənət əsərləri:** P.Ağababayev “Layla”, M.Allahverdiyev “Fəlakət”, Ş.Ələsgərov “Əsir”, Qrafika: Ə.Səlimov “Qara yanvar”, A.Əsgərov “Əsrin faciəsi”, S.Səmədova “Qəddarlıq”, O.Quliyev “Qətl”, E.Məmmədov “Oyanış”, F.İbrahimov “Arpaçay”, Q. Qafarov “Meydan gecələri”...

**Təsviri sənət əsərləri** : M.Cəfəroğlu “Qərənfilli şəhər”,A. Babayev “Ayparanın zühuru”, K.Xanlarov “Şəhidlərin dəfn mərasimi”... Bu siyahını onlarla, bəlkə də yüzlərlə artırmaq olar. O anda – 20 yanvar gecəsində ötən günlərdə bu hisslərdən,

dərddən yüngülləmək üçün məhz yaradıcılıq imkanlarından istifadə etmək tarixi xarakterli çıxış yolu idi.

Bədii ədəbiyyat nümunələrini saymaq mümkün olmadığı kimi fırçadan ayrılan-yaranan sənət nümunələrini bir-bir saymaq imkanı yoxdur. O illərin arxiv sənədlərini, ayrı-ayrı sənətkarların yaradıcılıq albomlarını vərəqləmək dediklərimiz həqiqətləri aşkarlayar.

20 yanvar milli bəşəri mübarizə günü-gecəsi idi. O gecəni unutmaq – xalqın, torpağın, millətin XX əsrədək olan tarixini unutmaq yaddan çıxarmaq deməkdir. Yoxsa... tarix təkrar olunur. Tarix fəlsəfəsi qarşısında diz çökməli olarıq.

Allah o gündən qorusun. Allah bir millət olaraq bizi yaddaşlarımızın güvəncindən əskik eləməsin.

*20 yanvar 1996-cı il.*
*"Xalq qəzeti"*
*25 yanvar 2005 –ci il*

# ÜMMÜGÜLSÜM – AĞIR TALELİ ŞAİRƏ

Ümmügülsüm Azərbaycan Demokratik Respublikasının ədəbi-mədəni tarixində ləyaqətli yeri və öz dəsti-xətti olan milli şairədir. Həyatını, ruhunu milli azadlıq eşqinə həsr edən şairənin ikicə misra –

*Uf, sevgili yurdcığazım,*
*dözəməm bu kədərə.*
*Dözəməm cigərimi*
*parçalayan zəhərə*

– şeirinin iziylə onun haqqında geniş məlumat öyrənmək istəyində oldum. Bu iki misrada dünya boyda məhəbbət hissi nəinki duyulur, hətta elə dünya boyda da görünür. Vətəninin dar ayaqda, əzab və böyük məhrumiyyətlər içində çırpındığını görərkən bu ağrının təsirindən şairənin isminin, vicdanının sanki od alıb yandığını görürük. Belə atəşin məhəbbətli şairənin poeziya səmimiyyəti, poeziya saflığı oxucu ruhuna doğmalaşır və istər-istəməz belə bir yaradıcılıq izini axtarmaya bilmirsən.

Milli ədəbi-mədəni, ictimai-siyasi tariximizi öz səhifələrində yaşadan 1918-ci ildən nəşrə başlayan Azərbaycan Demokratik Cümhuriyyətinin orqanı "Azərbaycan" qəzetində, daha sonra həmin dövrün demokratik ruhlu mətbuat orqanlarında – "İstiqlal", "Qurtuluş", "Məktəb", "Füqarə füyuzatı", "Şərq qadını" və s. qəzet və məcmuələrdə bu imzaya rast gəlirik. Bu günlərdə nəfis tərtibatda çapdan buraxılmış "Gözümüz yaşlıdır, sinəmiz dağlı" kitabçaı isə Ümmügülsüm ömrünə ən gözəl paydır, sanki ömrünün davamıdır. Tədqiqat səpkili mətbuat materiallarıyla şairə yaradıcılığının anılması sevindirici haldır. Bunları təbii ki, zəhmətkeş tədqiqatçı alimlərimizin Ümmügülsüm eşqinə həm də varisk borcu kimi qiymətləndirməliyik. Alxan Məmmədov, Təyyar Salamoğlu, Rasim Tağıyev, Səfurə Quliyeva, Hacı Hacıyev, İslam Ağayev və başqa alimlərimiz Ümmügülsüm

yaradıcılığının ilkin tədqiqinə dair məqalələr yazıb çap etdirmişlər.

Türk qəlbinə əbədi hopmuş bəşəri bir hissi – Vətən, millət azadlığı hissinin könlümüzdə hər an, hər zaman yanması ədəbiyyatda daha çox duyulur. Burada qəribəlik olmasın, çünki ədəbiyyat da ruhdan qopur, həmin bəşəri azadlıq eşqi də. Tədqiqatçı alim A.Məmmədov yazır: “Yüz illərcə davam edən bu rəzalətdən qurtarmaq üçün ancaq mübarizə, özü də əil cəngavər mübarizəsi tələb olunur:

*Yüz yillərcə əzildin,*
*ayaqlandın, yetişər,*
*Yüz yillərcə hıçqırdın,*
*duyulmadı haqq səsi.*
*Şimdi hayqır və bağır,*
*bitməmişkən nəfəsin!*

T.Salamoğlu da bu misraların açmasında şairənin poeziyasını “mübarizə poeziyası” adlandırır. Onun şərhində deyilir: “Bu mübarizədə dumanlı, mücərrəd heç nə yoxdur. Əksinə, onun hədəfi də, son məqsədi də aydındır. ”Qanlı torpaq üstündə lalələr yetirən “recimə qarşı mübarizə aparan şairə elini, obasını xoş gələcəyə səsləyir”.

1918-ci ildə ADR-in qələbəsi ilə ömür-gününə günəş zərrələri yağan Ümmügülsüm taleyi 1920-ci il 27 aprel milli faciəsiylə qaraldı, sanki yeddi qat zülmət quyusuna atıldı. Ailəsi, evi-eşiyi, eşqi tarmar oldu, şüşə bir qəlb çilik-çilik olub düzə-dünyaya səpələndi. Qəribə tale – mübarizliyindən dönməyən bir ruh bu gün yenidən səmamızda dolaşır. Hazırkı müstəqil dövlətçilik tariximizdə əzəlki günəş zərrəsiylə sanki həyatımıza daxil olur. Beləcə anılmağıyla, qızı Qumral xanımın qələmində, oğlanları Toğrul və Oqtay Sadıqzadələrin fırçasında, əmisi oğlu və kürəkəni M.Ə.Rəsulzadənin göylərə qaldırdığı üçrəngli – ay, ulduzlu bayrağında, Üzeyir Hacıbəylinin milli marşlarında, hər addımımızda, hər an qəlbimizdə və bir də Azərbaycan türk

övladının qaynar, yaralı ürəklərində həyata, yanımıza qayıtdı şairə. Ömrünün ən gözəl, ən coşğun gənclik illərini bəxtəvər yaşayıb Ümmügülsüm. Müstəqil dövlətçiliyimizin ilk günlərindən yararlı, layiqli təmsilçilərindən biri olub. Bununla da tarixin silinməz səhifələrində ədəbi-bədii fəaliyyəti ilə ədəbi heykəlləşib. Ümmügülsüm yaradıcılığı haqqında yəqin ki, hələ çox tədqiqatlar aparılacaq, çox məqalələr yazılacaq. Və indiki günümüzdən fərqli olaraq hər bir Azərbaycan türk övladına Ümmügülsüm adı əzbər olacaq, doğma olacaq.

Milli azadlıq eşqiylə könlünün gözü yanan gənc Ümmügülsüm hər misrası ilə sanki millət azadlığı yoluna, istiqlaliyyət yoluna çıraq tutmaq istəyib. Və Orijinal, fidan poeziyaı ilə buna nail olub. Poetik əzəmət və qürur, haray və çırpınan hissləri milli ictimai siyasi fəaliyyətini bütövləşdirir, 1918-1920-ci il Milli Azərbaycan Dövlətinin ədəbi-mədəni mühitində Ümmügülsüm xətti ayrıca görünür:

*Ey türk, sən ey qəhrəman,*
*igid oğlu türklərin,*
*Şanlı, ulu babanın*
*öyüdünü unutma.*
*Sən də yürü o yolu,*
*ad çıxarsın əsgərin,*
*Ulular ardınca get,*
*başqa bir yolu tutma.*

– bu misraların nəfəsi şair hisslərindən doğan duyğu yox, dəli sevgiylə çırpınan pıçıltıdır, ilahi eşqlə ünü göylərə ucalan haraydır, yeri-göyü titrədən könül hıçqırığıdır. Və bütün bunlar Vətən, millə istəyindən, məhəbbətindən doğur:

*Ey buzlu şimaldan*
*qopan ruzigar,*
*Toxunma qəlbimə,*
*atəşi parlar.*
*Sakın gəlmə,*

*səni nəfəsim boğar,*
*Dəf ol! Vətənimdə*
*görəməm səni!*

– burada şairin yurduna göz dikənlərə nifrət dənizdə şahənə qalxan nəhəng dalğanı xatırladır. Qayalara, sulara çırpılan, ancaq məğrurluğunu əyməyən, qürurunu endirməyən dalğalara. Səmalara dəyib qayıdan belə dalğalar ancaq şair qəlbinin fırtınasından yaranır. Poetik fırtınalar qoynunda coşub-cağlayan bu qəlbin sahibi gəncliyini, şüşə qəlbini, gözəlliyini, qaynar duyğularını millətinə bağlayıb.

Yazıb-yaradanlar içində sayılan-seçilən gənc Seyid Hüseyn Sadiqlə ömür-gün sevgisi bağlayıb. Üç oğul, bir qız anası olub. Ancaq Ümmügülsüm dünyasındakı azadlıq eşqi ailə eşqindən ucada dayanıb. Bu, yenilməzlikdir, fədailikdir.

Milli müstəqillik və demokratiya uğrunda mübarizə tərənnümü Ümmügülsüm yaradıcılığında "Ey türk oğlu", "Yollarını bəklərəm", "Əsgər anasına", "Əməlim", "Yolunda", "Yurdumun qəhrəmanlarına" şeirlərində könül açan misralarla qatarlanıb.

*Millətiyçin kim*
*qorxmasa qovğadan,*
*Həyat eşqi verər*
*ulu yaradan.*
*Odur sizə kömək,*
*əmin olunuz,*
*Yürüyünüz, mərdlik,*
*zəfər bulunuz,*
*Sən, ey gənclik,*
*durma yürü irəli.*

Bu dünyanın haqsızlıqlarına dözə bilməyən şair qəlbi ulu yaradana, Tanrı haqqına tapınır: Xəzərin ortasında nəhəng dalğaların divarına döyəclədiyi zülmət qalalarda çürüyən minlərcə azadlıq aşiqlərindən biri də Ümmügülsüm olmuşdur. Əli Tanrıdan üzülmüş şairə doğma Xəzər sularına, coşğun dənizə üz tutur,

yalvarır. Qəlbinə bağlı balalarının həsrətiylə üzülür. Ancaq sular da köməyinə yetmir. Oradan isə uzaq Sibir çöllərinə atılır. Bu dəfə üstəlik Vətən ayrılığı ruhunu yandırır.

*Ey gözəl vətənim,*
*eşqinlə sənin,*
*Gözlərim yaşardı,*
*dilim titrədi.*

Ümmügülsüm ağır taleli şeirlərini o qədər sadə ruhda, facianə yazıb ki, hər misrası oxucu qəlbini tikə-parça edir. 44 yaşında Şamaxıya balalarının yanına gəlib çıxan şairə beş ay sonra həyatla vidalaşır. Ömrünü-gününü bizim xoşbəxtliyimizə qurban verən şairə Ümmügülsüm ömrü yaşayacaq, seviləcək.

*"Azərbaycan",*
*16 yanvar 1995-ci il*

*"Azərbaycan qadını"*
*№3,1997-ci il*

## SEVGİLƏRİ AZƏRBAYCAN AZADLIĞI

Məlum olduğu kimi, milli təfəkkürün oyanış dövründə (tədricən 1988-ci ildən sonra) əsas mövzu – istər şeirdə, istərsə də nəsrdə milli müstəqillik və demokratiya uğrunda mübarizə eşqinin tərənnümü idi.

Milli həyat tərzinin, tariximizi, mədəniyyətimizi öz kökü, bünövrəsi üstündə inkişaf etdirmək istiqamətində yeni mübarizə yolu seçildi. Vətən müqəddəsliyinin təfəkkürdə dərki aydınlaşdı və möhkəmləndi, vətəndaşlıq hissinin ədəbiyyatda, xüsusən poeziyada tərənnümü gücləndi. Vətənə, millətə hədsiz sevgi: ictimai-siyasi hadisələrin nəticəsi olaraq bu sevgi gözəlliyin, ucalığın, ülviliyin vəsfi kimi yox, ağrılarla, dərdlərlə, böyük həyati problemlərlə sınağa çəkildi. Yurd ağrıları, didərginlik, qaçqınlıq, vətən torpağı uğrunda şəhid oğullarımızın taleyi, min cür ağrı-acılar həyatımızın, yaşayışımızın əsas hissəsi olaraq eynilə ədəbiyyata gəldi, milli müstəqillik uğrunda mübarizə eşqi poetik tarix səhifəsinə köçürüldü. İctimai-siyasi mübarizələrin bu təlatümlü günlərində azadlıq hərəkatına qoşulan milyonlarla azərbaycanlının ön sıralarında mərdanə dayanmış xalqın mübarizə əzmi ilə həmrəy olan sənətkarlar, o cümlədən Məmməd Araz və Xəlil Rza Ulutürk yeni şeirlərində üçrəngli bayraq ətrafında sıx birləşməyə, bu tarixi fürsəti bir daha əldən verməməyə çağırırdı.

Məhz ona görə də Məmməd Araz və Xəlil Rza Ulutürk poetik yaradıcılığının bu dövr şeirinin əsas aparıcı istiqaməti üçün səciyyəvi olmasını nəzərə alıb, onların ağır, təlatümlü illərlə yaratdıqları mübariz şeirlərə diqqəti cəlb edirik.

**FƏLSƏFİ DÜŞÜNCƏLƏR POEZİYASI***:* Məmməd Araz bir şair kimi əlinə qələm götürdüyü ilk gündən Azərbaycan xalqının taleyinə doğma olmuşdur. O hər şeydən əvvəl vətəndaş şair kimi sənət meydanında öz heykəlini ucaltmışdır. Bu təsadüfi deyildi. Anar haqlı olaraq yazır ki, Məmməd Arazın poeziyasının

məhvəri də, cövhəri də – vətən eşqi, vətəndaşlıq amalı, dünya haqqında həm nikbin, həm nigaran qənaətidir".

Məmməd Araz üçün yerə-göyə sığmayan, ən böyük dünya – Azərbaycandır.

*Azərbaycan – qayalarda bitən bir çiçək,*
*Azərbaycan – çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasında baxır bünyaya.*
*Azərbaycan – mayası nur, qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan" – deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

"Məmməd Araz vətəndaş şairdir" – deyimi şairin "bir-iki yaraqlı sözüm vardısa vətəndəş almışdım, vətənə qaldı" – sözləri ilə təsdiqlənir. Dərin poetik anlamda şair ikicə misrayla bunu belə yazıb:

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

Məmməd Araz şeiri Azərbaycanın torpağı, daşı-qayası, çiçəyi ilə nəfəs alır. Şairin böyüklüyü, vətəndaşlığı bundadır. Məmməd Araz təbii ilhamının və istedadının gücü-kökü xalq ədəbiyyatımızdan və dünya ədəbiyyatından bəhrələnmiş, faydalanmışdır. Bütün bu hissləri onun bir çox şeirlərində görürük. Şair bu duyğular dünyasında özünü görür, özünün torpaq, vətən qarşısında məsuliyyətini duyur. Müxtəlif illərin, həm də aşkarlıq və demokratiyanın elan olunmamışdan çox-çox əvvəllərin, ilk könül şərqiləridir.

*Bir qayaya söykənmişəm, deyirəm ki, kaş,*
*Beləcə daşa dönəm yavaş-yavaş.*
*Babalar da baş qaldırıb yer altından,*
*Qaya kimi, – dayaq olub, yumruq olub, ox olub.*
*Qayadöşlü qəhrəmanlar qayalıqda yox olublar.*
*Bu torpağın taleyində onda elə bir gün idi,*

*İgidlərin yaşaması daş olmaqla mümkün idi.*
*...Onda Vətən sanar məni, bir balaca vətən daşı,*
*Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı.*

"Məmməd Araz vətəndaş şairdir" həqiqəti əslində çox genişdir. Bu həqiqəti görmək, göstərmək üçün Məmməd Araz poeziyasını misra-misra yaddaş süzgəcindən keçirmək, onun toxunduğu sehrli söz "materialını" ilmə-ilmə "sökmək" lazımdır. Nədədir Məmməd Araz həqiqəti: İnsana doğma olan şeylərin əzəli vətəndir. Məmməd Araz da özündən, öz taleyindən əvvəl "mayası nurdan tutulan, qəlbindən alovdilli ox çiçəkləyən Azərbaycan torpağını sevib. Onun poetik ömrünün ilkini, əzəli Vətənə vurğunluqdan başlayıb.

*Bir dünyam Vətənin xəritəsidir,*
*O, göz dağlayası, göz örtəsidir.*
*Şeir söz səhəri, söz ertəsidir,*
*Vətənə qaldısa, yada qalmadı.*

Şair xalqı azadlığa gedən yolda bəlalarla üzləşərkən Tanrıya tapınır ki, onu qəflət yuxusundan, insanı insana yadlaşdıran, unutduran, əsrin bəlası olan "mürgüdən" ayıltsın:

*Ya rəbbim, adilsən, hifz elə bizi,*
*Halal ocaqlara üzv elə bizi,*
*Gör harda, gör necə Məcnunuq hələ,*
*Qəbir qazmağınan məşğuluq hələ,*
*Külüng də bizimdi, torpaq da bizim,*
*...Hələ mürgülüyük, xeyli mürgülü,*
*Zurnalı, qavallı, neyli-mürgülü.*

Məmməd Araz poeziyası ən çox insanın mənəvi dünyası ilə bağlıdır. İnsanın bir şəxsiyyət kimi bəzəyi olan sadəlik, xeyirxahlıq, təvazbkarlıq, həssaslıq, qayğı, diqqət, mənəvi paklıq, kamillik eyni zamanda bu poeziyanın bəzəyidir... Onun yaradıcılığında sevgi, vətənpərvərlik, humanist və bəşəri duyğuların təbliği və tərənnümü daha artıq yer tutur. Zaman, Vətən və Cəmiyyət qarşısında cavabdehlik şairin lirik qəhrəmanı üçün səciyyəvi

keyfiyyətlərdəndir. “Ya rəbbim, bu dünya sən quran deyil” şeirində “boz günlərə” gəlib çatan “mürgülü insanların”, daha doğrusu insanlığın dünyəvi, eyni zamanda faciəvi uğursuzluğu, insani münasibətlərin – hisslərin az qala unudulması dəhşətli bir mövzu kimi fəlsəfi duyumla qələmə alınıb.

Azərbaycan xalqı öz azadlığı uğrunda mübarizə apardığı bir zamanda düşmən qüvvələrlə də üzləşdi. Erməni təcavüzkarları torpaqlarımızı zəbt etdilər. Bu haqq savaşında igid-igid oğullarımız şəhid oldular. Belə bir məqamda ədəbiyyatın xidməti, poeziyanın ruhlandırıcı rolu danılmazdır. Vətəndaş şair Məmməd Araz Bu ağrı-acılar içində qovrularaq haray salır, hamını mətin olmağa çağırır. O, “ata millət, ana millət, ağlama” şeirində millətinə – ata dediyi ər oğluna, ana dediyi zərif qəlbli, incə ruhlu qadınlara üz tutur: “içində yan, amma ağıyla oxşayıb, qardaş, yurddaş deyib ağlama”, “bu döyüşdü – əzilən var, əzən var, ölüm hökmü qoltuğunda gəzən var. Burada ”bizik", “biz”, “sən”, “mən” yoxdur, ağlama, yoxsa bu ağılardan millət sınar, dərd-hüzr əl götürməz bizdən, əyilərək dərddən, Tanrı yazan yazıya ağlama" – deyir.

Məmməd Araz şair kimi doğulduğu gündən milli azadlıq, milli istiqlaliyyət mübarizəsinin önündədir. Bu həqiqəti aşkarlamaq naminə şairin son dövrlərdə nəşr etdirdiyi şeirlər toplularında bir baxış, bir istək, bir niyyət vətənsevərlik ruhu üstdə köklənib. O bir şair kimi bu poetik aləmdə oxucusunu həyəcanlandırır, mübarizəyə sövq edir.

**TORPAĞA BÜLƏND SEVGI :** "Böyük poeziyanı mütləq və mütləq böyük xarakter sahibləri yarada bilərlər. Bütün xarakterlər isə birdən-birə göydən düşmür, insan fitrətindəki saflığın, qüdrətin və haqsevərlik duyğusunun zaman keçdikcə cəmiyyətdə öz antipodları ilə toqquşmaı və təslim edilməməsi sayəsində başa gəlir. Bəli, məhz təslim edilməməsi".

Müasir ədəbi-ictimai həyatımızda xüsusi yeri olan Xəlil Rza Ulutürkün ömür yolunun məramı, mənası özünün qeyd etdiyi belə bir mübarizə ilə səciyyələnir. Onun poeziyasında bir ruh –

azadlıq ideyası əsas yer tutub, burada yüksək amal uğrunda döyüşən mərd, qorxmaz insanların idealları tərənnüm edilir... Bəşər həyatında və insan ruhunda baş verən dəyişmələri, yenilikləri əks etdirməkdə son dərəcə çevik və həssas olan poeziyanın ən yeni örnəklərinə diqqət və maraq əslində insanın öz içərisi, öz mənliyi ilə maraqlanması deməkdir.

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,*
*İstəyirəm qolumdakı zəncirləri qıram-qıram.*
*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,*
*İstəyirəm Səma kimi, Günəş kimi, Cahan kimi.*

Bu şeir – azadlığın zülmətlərdə boğulduğu bir zamanda Xəlil Rza Ulutürkün harayıdır. Xəlil Rza Ulutürk qəlbini parçalayan, didib-tökən bir ağrının – Vətəninin bütövlüyü, azadlığı, müstəqilliyi arzusuyla qaynayan eşqin təsirilə çırpınırdı. Onun poetik dünyasını səhifələdikcə göz önündə özünü, öz varlığını kəşf edən narahat, çılğın bir şair dayanır.

Bu düşüncələr, pafoslu və qüdrətli söz gənclik illərindən azadlıq aşiqlərinin gizli yığıncaqlarında, tələbə auditoriyalarında çınqı-köz idisə, artıq 1988-ci ildən ictimai-siyasi hadisələrin tüğyan etdiyi bir dövrdə Azadlıq meydanında tonqala-alova çevrildi.

1988-ci ilin fevral mitinqləriylə respublikada yaranan böhranı ilk vaxtlar hamı çaşqınlıqla qarşıladı. Ömrünü-gününü Vətən, millət azadlığı, müstəqilliyi üçün qurban verməyə hazır oğullar, bu yolda illərcə gizlində çalışan qəlbi şeir duyğulu azadlıq aşiqləri mübarizə meydanına atıldılar, od-alov saçan misralar, nəğmələr, azadlıq şərqiləri yazdılar. Onda ilk olaraq öndə görünən mübariz şairlərdən biri Xəlil Rza oldu:

*Mən o zülmətdən qara,*
*kor heykəli yıxmamış,*
*Cahanda son fatehin*
*axırına çıxmamış,*
*Getməyəcəyəm aləmdən,*
*ildırıma dönəcəyəm.*

*Bir gün son qəsbkarın*
*peysərində sönəcəyəm.*

Köksünü poetik ümmana çevirərək yorulmaz qüvvəylə, güclə bu yoldan çəkinmədi, hər misrasıyla, hər kəlməsiylə, haray səsiylə nadanları, nakəsləri lərzəyə salmağa çalışdı. "Yer boyda, göy boyda təbiətim var" – deyə Azadlıq meydanından böyük qanlı ordu ilə torpağına təcavüz edən imperiyaya lənətlər yağdırdı, Azadlıq meydanına azadlıq eşqiylə toplanmış milyonlarla insanı inandırdı ki,

*Bu dağılmış dağılmalı,*
*yeni bir cəmiyyət doğulmalıdır.*

Vətəni dərd kələfinə urcah edən, mənliyini, ləyaqətini pula, şöhrətə qurban verən naqislərə, bədxahlara qarşı Xəlil Rza Ulutürk atəşin misralarıyla döyüşürdü. Mənfur sovet imperiya buxovundan azad olmaq üçün yetişən tarixi məqama – mübarizə tarixinə mane olan satqınlara üsyan olaraq poetik sərkərdəyə çevrildi.

Mübariz ruhlu şeirləri ilə Azadlıq mübarizəsinə halal Vətən oğullarını, mərd ərənləri səsləyir. Şairin milli azadlığa, müstəqilliyə müqəddəs bir inamı var: O inam "Vətən torpaqdan yox, səndən, məndən başlanır" deyiminə söykənir. Xəlil Rzanı çoxdan, gözünü dünyaya açandan, əli qələm tutandan bu inamın obyekti daim silkələyir, toxtadır, tufana çevirir, günəşə döndərir. Bu hissin coşğunluğuyla yazdığı –

*And olsun, Araza, balam Təbrizə,*
*Bir an susmayacaq bu mübarizə.*
*İnsanam, qum olub itməyəcəm,*
*Heç bir düşmənimə, hətta özümə,*
*Zərrəcə güzəştə getməyəcəyəm.*

– inamına qeyrət donu geydirdi. Bu şeirin yazılma tarixi 1968-ci ilə – 31 il qabaqkı tarixə təsadüf edir. Şair onda bilirdi ki, zaman-zaman millətinin qeyrətli oğullarını – 1918-20-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətini yaradanları öz yurd-yuvasından pərən-pərən salıblar. Qalanlarını "pantürkist, panisla-

mist, vətən xaini" kimi damğalarla 1937-ci ildə bir gecənin qurbanı ediblər. Bütün bu zülm və ölümləri yetirənlərə, bitirənlərə yol göstərən özümüzünkülər, aramızda olan namərdlər olubdur.

Budur, Azadlıq mübarizləri yenidən haqq meydanında düşmənlə yanaşı "sapı özümüzdən olan baltalarla" da üz-üzə gəlirlər. Otuzuncu illərin qurbanlarını müstəqilliyimizin qanla yazılan tarixini göz önündən, kövrək qəlbindən keçirir. "Müstəqillik, azadlıq" – deyə ömürlərini namərd, "millətin mənliyini talam-talam talayanlar" əlində doğradan söz cahangirlərini – M.Müşfiqi, H.Cavidi, Y.Vəziri, Ə.Cavadı, H.K.Sanılını, B.Çobanzadəni və başqalarını bircə-bircə xəyalında anır, nakam ömürlərinə yanıb tökülür. Bu itkilər, millət şərəfini yüksəkliklərə qaldıranların ruhu eşqinə mübarizə yolunu – poetik və ictimai-siyasi mübarizə yolunu möhkəmləndirir.

1990-cı ilin Qanlı Yanvar günlərində şüara çevrilmiş səsiylə küçələrdə gurlayırdı: "Biz qolumuzdakı zəncirləri qırmaq istəyirik. Amma özümüzü qırdılar... Məhkəməsiz, sübutsuz-dəlilsiz, günahsız qırğın oldu. Yanvar qırğını".

Bu ağır günlərdə meydana, kürsüyə çıxan Xəlil Rzanı da tutub Moskvaya – Lefortovo zindanına atdılar. Xəlil Rza inadından, məsləkindən dönmədi. Zindana atıldığı gündən yox... xüsusi təyyarə ilə Lefortovo zindanına aparıldığı gündən başlayan həyatını yazdı – "Lefortovo gündəliyi" şeirlər kitabının ilk məğrur misralarını başladı. Zindana salındığı ilk gündən (26 yanvar 1990) başlayaraq Lefortovo şeirlərini Xəlil Rza Ulutürk adıyla yazdı. Bu, Xəlil Rzanın Lefortooya üsyanı – qalib üsyanı idi.

Müstəqil bir cəmiyyətin doğulması inamı həqiqətə çevrildi. Ancaq o böyük səadətin sevincini dözülməz tarixi, şəxsi ağrı-acılar içində daddı. Minlərlə nər oğulların Vətən torpağı uğrunda şəhid olmasını, torpaqlarımızın düşmən ayaqları altında tapdalanmasını, bütöv Dağlıq Qarabağın şəhər və kəndlərinin, Şuşa, Laçın, Xocalı, neçə-neçə rayon və şəhərlərin darmadağın edilməi faciəsini, 28 yaşlı oğlu Təbrizin torpaqlarımızın müdafiəsi uğrunda

şəhid olmasını – bu ağrıları yaşaya-yaşaya Azərbaycan müstəqilliyi qələbəsinə sevindi, yerə-göyə sığmadı.

*Oğlum, yadda saxla, bu sözüm haqdır.*
*Qoltuqda yaşamaq yaşamamaqdır.*

– 1970-ci ildə yazılmış bu şeirdə Xəlil Rzanın ömür anlamı aydınca görünür. Bu elə bir dövr idi ki, imperiya pambıqla baş kəsirdi. Milli mənafeyi dilə gətirən, milli təşəbbüsdə bulunan hər bir kəs məhv edilirdi, zülmət zindanlara atılırdı və ya müxtəlif bəhanələrlə təqsirləndirilib aradan götürülürdü. Xəlil Rza fenomeni məhz belə zamanda ədəbi-ictimai tariximizə daxil oldu. Xəlil Rza Ulutürk fenomeni mübarizə eşqindən doğulmuşdur və əlçatmaz üli bir zirvədə öz mübarizə uğuruna inanırdı. Böyük alim S.Eyşteyn yazırdı ki, "bizim özümüzdə həqiqət həmişə qələbə çalır, ancaq ömür çatmır buna". Xəlil Rza Ulutürk ömrü bu həqiqəti – Azərbaycan Azadlığı həqiqətini görməyə yetdi. Müasir ictimai-siyasi həyatımızla nəfəs alan, həmahəng olan Xəlil Rza Ulutürk fenomeni xalqın milli mübarizəsində ən böyük, inandırıcı, mənəvi dayaq olmuşdur.

*"İki sahil" 29 aprel 1995-ci il*
*"Xalq qəzeti" 25 fevral 1999-cı il*

# VƏTƏNİ ÖZÜNDƏN BAŞLANAN ŞAİR

*Mən o zülmətdən qara, kor heykəli yıxmamış,*
*Cahanda son fatehin axırına çıxmamış*
*Getməyəcəm aləmdən,*

– deyə özünün vətəndaşlıq və şairlik manifestini gur səslə bəyan edən Xəlil Rza Ulutürk götürdüyü "öhdəlikləri" yerinə yetirdi və üç il öncə dünyasını dəyişdi. Buna qədər isə o, bütün ömrünü vətənin, xalqın azadlığı naminə mübarizəyə həsr etdi, köksünü poetik ümmana çevirərək yorulmaz bir qüvvəylə, böyük bir inamla milli azadlıq mücadiləsinə hər misrası, hər kəlməsi ilə yardımçı oldu. Onun məhəbbət və nifrətdən doğulmuş haray səsi yatanları, nadan və nakəsləri lərzəyə saldı, milli-mənəvi yaddaşı oyatdı, xeyli sonralar – 80-ci illərin axırlarında başlanacaq milli siyasi hərəkatı yetişdirən bədii-ideoloxi mənbələrdən birinə çevrildi.

*Döyüş qılıncıyam, kirsəm də qına,*
*Ümman lənkəri var köksümdə mənim*

Harayı dünyanın bütün yalanlarına qarşı od püskürən şair köksündən qopmuşdu. X.R.Ulutürk Qarabağ, Laçın, Kəlbəcər dərdlərinə təkcə məhdud bucaq altında baxmır, ümumən, dünyanın dərdləri, bəşərin növbəti faciələrindən biri kimi qiymətləndirməyi bacarırdı. Onun vətəni satmağa hazır olanlara, mənliyini, ləyaqətini pula, şöhrət kürsülərinə qurban verənlərə nifrəti tükənməz idi. Vətəni dərd kələfinə ürcah edən və indi də dərd kələfini çözələyib dolaşdıranlara qarşı Ulutürk:

*Bağrım ataş kürəsidir,*
*Gözüm nifrət külləsidir*

– deyə hayqırırdı.

Ulutürk şeirin, sənətin qarşısında şüurlu şəkildə müəyyən məqsəd qoyan şairlərdin idi. O, şeiri milli şüurun, vətəndaşlıq və milli azadlıq təfəkkürünün xidmətinə vermişdi, onun şeiri onun ideya silahı, mübarizə vasitəsi idi. O, "Vətən torpaqdan yox,

səndən, məndən başlanır” deyərkən özünün milli azadlığa, müstəqilliyə olan müqəddəs inamını ifadə etməklə yanaşı, qarşımıza vətəndaşlıq vəzifəsi qoyur, özümüzə, gücümüzə inamımızı artırırdı. Ulutürkü lap çoxdan – gözünü dünyaya açandan, əli qələm tutandan, özünü şair kimi, vətəndaş kimi fəda etdiyi gündən bu inamın, bu evgisinin alovu-odu daim silkələyir, coşdurur, tufana çevirir, həm də toxdadırdı.

*And olsun Araza, balam Təbrizə,*
*Bir an susmayacaq bu mübarizə.*
*İnsanam, quş olub itməyəcəyəm,*
*Heç bir düşmənimə, hətta özümə*
*Zərrəcə güzəştə getməyəcəyəm.*

Bu misralar 1968-ci ildə yazılıb. Azərbaycanda milli müstəqillik və demokratiya uğrunda kütləvi hərəkat başlandığı vaxtdan düz iyirmi il əvvəl. Lakin burada da heç bir qeyri-adilik yoxdur, çünki X.R.Ulutürk özünün ədəbi və şəxsi taleyini vətənin taleyinə bağlayan şairlərdəndi. Məhz buna görə də 1990-cı ilin qanlı 20 Yanvar günlərində yüzlərlə şəhid vermiş xalqımızın məğrur haray səsini bütün dünyaya hamıdan çox X.R.Ulutürk yaydı. Lefortovo zindanı, fiziki və mənəvi işgəncələr şair üçün yeni mübarizə tribunasına, təzə özünüifadə vasitəsinə çevrildi.

Xəlil Rza Ulutürk fenomeni azadlıq, milli müstəqillik və demokratiya uğrunda mübarizə eşqindən doğulmuşdu. O, bu eşq ilə yaşadı, bu eşq ilə də dünyadan köçdü. Xəlil Rza Ulutürk bu gün aramızda olmasa da, onun fədakarlıq simvoluna çevrilmiş böyük, işıqlı adı haqq-ədalət uğrundakı mübarizəmizə bəlkə də hamıdan çox kömək edir.

*"Xalq qəzeti"*
*17 oktyabr 2002-ci il*

## ŞAİRLİYİNDƏN UCADA DAYANAN NƏHƏNG VƏTƏNDAŞ

Xəlil Rza qəlbindəki vətən məhəbbətiylə dünya boyda, yer-göy qədər vətəndaş idi. Özü də Azərbaycan vətəndaşı.

Qoltuğunda daim qovluq olardı. Diqqətini çəkən bir hadisəni görən kimi və ya iştirakçısı olduğu bütün məclislərdə – yolda, tribunalarda həmən qovluğu açar, dizi üstdə olsa da ora nəsə yazardı.

Qalxıb sözünü, fikrini, iradını özünəməxsus emosionallıqla bildirər, sonra yenə də o qovluğa tanınardı. İllər uzunu belə olub. O dəftərin ağ səhifələri isə tükənmirdi. İllərin, tarixin canlı yaddaşı olan yüzlərlə dəftər indi Xəlil Rza arxivində qorunur. Zamanı gələndə kitablara köçürüləcək o dəftərlərdə, Allah bilir, nələri görəcək, oxuyacağıq. Hələki bildiyimiz təkcə odur ki, nə yazıbsa həqiqətdir, gerçəkdir, olub-keçən olaylardır.

Xəlil Rza Azərbaycanın azadlığı üçün od tutub yanırdı. Tarixin yeritdiyi məqamda ayağına dəmir çarıq geyib Bakı küçələrinə düşüb ev-ev gəzdi – çörəyimizə nankor çıxanları, şəhərimizin mərkəzində, əzəmətli binalarında kef-damaqla yaşayan qədirbilməz mənfurları, satqınları, düşmənləri bir-bir tapıb çıxartdı, əlindəki dəmir dəyənəklə qabağına qatıb qovdu, ünü yetincə qovdu, şəhərdən, Azərbaycandan çıxarınca qovdu. "Gedin, çörəyi dizi üstdə olan qaniçənlər, acgözlər, namussuzlar". Beləcə şəhəri o yersiz yerlilərdən – ermənilərdən təmizlədi. Yoxsa o vaxtlar, hətta arxalarında dövlət rəhbəri Vəzirov belə dayanan zamanda onları Bakıdan təmizləməkmi olardı? Xəlil Rzanın bu nifrət gücü qarşısına heç kim cəsarət edib çıxa bilmədi. Bunlar yaddan çıxmayan tarixdir, şahidi olduğumuz tarixdir. Xəlil Rzanın vətən qarşısında özünü ölümə qoyan vətəndaşlıq qayəsi idi.

Unudulmaz bir xatirə, heyrətedici bir görüntü: Təbrizin dəfn günü. Şəhidlər Xiyabanına endiriləcək bu qəm karvanının çəkisinə bələd idim. Tanış yük idi. İllərlə özünü Azərbaycanın azadlığı

üçün təşnə edən Xəlil Rzanın ciyərparası, oğlu Təbriz Vətən uğrunda şəhid olmuşdu. Bu ağır xəbər Xəlil Rzanı süstləşdirmiş-dimi?

Budur, qəm karvanı Şəhidlər Xiyabanının girəcəyində gör-səndi. Aman Allah, qabaqdakı Xəlil Rza idi. Necə də məğrur, cəngavər yerişlə qabağa düşmüşdü. Qoltuğunda da həmən qovlu-ğu. Gəlib məzar başına yetişdilər, o, yenə eyni qürurla, fəxarətlə nitq söylədi. Təbrizin qəhrəmanlığına alqış dedi. "Vətən üçün ölənlər ölməzlər" – dedi. Gözündəki qanlı yaş ürəyindən daşıb yanaqlarından süzülürdü. Amma o, bunu sezmirdi. İçindəki ton-qalı, odu hiss etmirdi. Aylar, günlər ötdü, oğul dərdi onu içindən çökdürdü. Bizə əlvida deyib Təbrizə yetdi – aradan az zaman ötmüşdü.

Dahilərdən biri deyib ki, bizim ömrümüzdə həqiqət həmişə qələbə çalır, ancaq ömür çatmır buna. Xəlil Rza Ulutürk ömrü bu həqiqəti – Azərbaycanın azadlığı həqiqətini görməyə yetdi.

Lefortovo zindanından belə "azadlığı zərrə-zərrə, qram-qram yox, istəyirəm Səma kimi, Günəş kimi" nəğməsini oxuyan Xəlil Rza heç vaxt unudulmaz. Bir də ona görə ki, Xəlil Rza şairliyindən də ucada dayanan nəhəng vətəndaş idi.

*"Xalq qəzeti"*
*17 oktyabr 2002-ci il*

# MƏMMƏD ARAZ POEZIYASI RUHUMUZUN NƏĞMƏSIDIR

1988-ci il hadisələri dövründə coşub-çağlayan insanların qəlbində, zümzüməsində bir də Məmməd Araz poeziyası qaynayırdı. Qəlbə məlhəm, ruha güc verən bu poeziya meydanda söz deyənlərin tutumlu silahı, kürsüdəkilərə qulaq asan minlərin, milyonların könül toxtağı idi-

*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

Həmin ağır günləri xatırladıqca bir daha o dərkə dolursan ki, Məmməd Araz vətəndaş şair kimi söz sənəti meydanında öz heykəlini çoxdan ucaltmışdır. Ədəbiyyatşünasların, ədəbi tənqidin "Məmməd Araz vətəndaş şairdir" qənaəti şairin "bir-iki yararlı sözüm vardısa, vətəndən almışdım vətənə qaldı" – sözləri ilə daha mükəmməl görünür. "Vətəndaş şair" həqiqəti onun yaradıcılığında çox genişdir. Bu həqiqəti görmək, açıqlamaq üçün Məmməd Araz poeziyasını misra-misra yaddaş süzgəcindən keçirmək, onun toxuduğu sehrli söz "materialını" ilmə-ilmə "sökmək" lazımdır – nədədir bu həqiqət? İnsana doğma olan şeylərin əzəli vətəndir. Məmməd Araz da özündən, öz taleyindən əvvəl "mayası nurdan tutulan, qəlbindən alovdilli ox çiçəkləyən" Azərbaycan torpağını sevib. Onun poetik ömrünün ilki, əzəli Vətənə vurğunluqdan başlayıb.

*Azərbaycan – qayalarda bitən bir çiçək,*
*Azərbaycan – çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxır dünyaya.*
*"Azərbaycan" – deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Onun poeziyası ən çox insanın mənəvi dünyası ilə bağlıdır. İnsanın şəxsiyyət kimi bəzəyi olan sadəlik, xeyirxahlıq, təvazökarlıq, həssaslıq, qayğı, diqqət, mənəvi paklık, kamillik eyni za-

manda onun poeziyasının da bəzəyidir. Ona görə də Məmməd Araz şeirləri hər kəsin içində göyərə bilir, onu hər kəs öz iç döyüntüsü kimi dinləyə bilir. Sağlığında klassik ədib qisməti qazanmaq hər dühaya nəsib olmur. O, elə poeziyasında gördüyü, vəsf etdiyi Azərbaycan boyda da insanların, xalqın sevgisini, məhəbbətini qazana bildi. Onun poeziya fəlsəfəsi bu hikmətə yetdi.

Bir an yenə 1988-ci ilin Meydan günlərinə qayıdaq. Bir yanda Xəlil Rza gurultusu, harayı, hər kəsi ayağa qaldıra biləcək qədər vətəndaş nərəsi eşidilirdi, bir yanda isə Məmməd Araz fəlsəfəsi. Onun poeziya fəlsəfəsi sanki Ulutürk nərəsinə səfərbər olmuş insanları müdrikliyə, kamala doldururdu. "Azərbaycan" eşqini, Azərbaycan fəlsəfəsini ruha, qana yeridirdi. Vətənin, milli dövlətçiliyin nə demək olduğunu haysız-küysüz dərin məntiqlə, bəşəri fəlsəfi hisslərlə "Azadlıq" deyə meydana axışanların iliyinə işlədirdi. Xəlil Rza kürsüdə kükrəyirdisə, Məmməd Araz ya bir səmtdə stulda əyləşib sakitcə qulaq  asardı, ya da  heç o stulda da görünməzdi.

Şahidi olduğumuz bu yaşantılar yetər ki, deyək onlar bir də meydanda doğuldular - Azadlıq eşqinə dolmuş insanların ruhunda, Qarabağ deyən əsgərlərin qüvvəsində, "Azərbaycan" deyən xalqın intiqamında doğuldular. Klassikaya çevrildilər. Əbədi ömürlük qazandılar. Heç təsadüfi deyil ki, o hadisələrdən 7 il sonra – 1995-ci ildə müstəqil Azərbaycan dövlətinin şərəfli "İstiqlal" ordeni ilk olaraq onlara verildi. Azərbaycan dövlətinin Prezidenti böyük şəxsiyyət Heydər Əliyevin bu təqdimatı bir rəmz kimi görünsə də, həm də həqiqətin simvolu, daşıyıcısı idi. Məmməd Araz "meydan" zamanının arxada qaldığı vaxtlarda isə Qarabağ uğrunda döyüşən, vətən keşikçiləri olan əsgərlərimizin yanına yollandı.  Səhhəti nə qədər ağır olsa da özünü unudub sözüylə, fəlsəfəsiylə, hikmətiylə onları ziyarətə gedirdi. Əsgərləri Azərbaycan eşqiylə göylərə qədər ucaldar, şeiriylə onlara güc qüvvə , tə pə r

verə rdi. Və tə ndaş olmaq ş ə rə fini yaş amaq, yaş atmaq üçün Allah
öz sevgisində n onun ürə yinə pay vermiş di.

"Məmməd Araz dünyasını dəyişib" deyimini bu gün eşitdik. Ağır və kədərli xəbərdir. Bir təsəlli var ki, Azərbaycan azadlığı eşqinə sarılmış çox-çox insanlarımızın düşüncəsində Məmməd Araz ömürlüyünün o dünyası bu dünyası yoxdur. O, əbədi dünya sakinidir. Onun Azərbaycan məhəbbətli fəlsəfi poeziyası qəlbimizin nəğməsi, ruhumuzun qidasıdır.

*Bu torpağın son qurbanı mən olsam,*
*Öz odunda yanıb külə tən olsam,*
*Eldən ötən güllələrə tən olsam,*
*Ata millət, "oğul" deyib ağlama,*
*Ağlamağın yeri deyil, ağlama.*

*"Xalq qəzeti "*
*3 dekabr 2004-cü il*

*"Azərb.mədəniyyəti və incəsənəti"*
*17 dekabr 2004-cü il*

## CAVAD QƏMLİ

Hazırkı mətbuat bolluğunda fəaliyyət göstərən hər bir qəzet ictimai-siyasi, tarixi şəraitlə bağlı olaraq Azərbaycanın son illər ərzindəki vəziyyətindən, aktual problemlərindən, ümumən sosial, iqtisadi, mədəni inkişafında ətraflı və dəqiq yazmağa daha çox çalışır. İstənilən qəzet və dəst-xətti ilə nə qədər geniş və maraqlı auditoriyadan (eləcə də dünyanın min bir möcüzəsindən) çıxış etməyə maraq göstərsə də, milli varlığına, milli mənəviyyatına daha çox əhəmiyyət verməlidir və verir. Olduqca çətin, ağır, ziddiyyətlə ötən hər günümüzü tarixi dərs kimi yaxında-uzaqda yaşayan bütün soydaşlarımıza, gələcək nəslə yetirmək üçün tarixə salmalıyıq. Səsi-sədası dünyanın bir çox ölkələrinə gedibd çatmaq imkanını fikrimizdə əsas tutaraq "Novruz"dan umacağımız böyükdür, məsuliyyətlidir. Nə qədər ağrılı olsa da, ürəyinə (səhifələrinə) qəm-qüssə gətirməkdən uzaq olub, Şəhid Ünvanlı Misraları oxuculara çatdırmağı xahiş edirik. Əgər belə bir başlıqlı səhifəyə yer ayırmaq istəsəniz, əziz Müşfiqimizin ruhu xatirinə təqdim etdiyimiz ilk şəhid-müəllif Cavad İsmayılzadədir. Cavadın yaradıcılığı haqda bir neçə söz və şeirlərindən nümunələr veririk. Bir şeyi isə unutmayaq ki, biz onları peşəkar şair kimi yox, yeni yaranmış ədəbi, ictimai, tarixi şəraitlə əlaqədar olaraq "Fövqəladə vəziyyət dövründə ədəbiyyat"da özünə müqəddəs ömür qazanmış Şəhid imzalı müəlliflər kimi təqdim edirik.

Şəhid Cavadın yazıları içində bacısına həsr etdiyi hissli, duyğulu "Şeir ocağımız..." adlı bir şeir var. Bütövlükdə, şeirin mənasındakı məsuliyyət hissi duyğuları titrədən, kövrək bir poetik müraciət üstdə köklənmişdir:

*Sən də yaz, mən də yazım,*
*şeir ocağımız sönməsin...*

Bu şeir ocağının müqəddəsliyini duyan gənc oğlan dərk edir ki, o ocaqdakı poetik közərtini sönməyə qoymamalıdırlar: nə Yunis kişi, nə Cavad, nə Vahab, nə bacıları, nə balaca Müşfiqlə

Vüsaqi, nə də körpə Əzizəylə Firuzə. Bəs kimdir bu ocağın sahibləri: ŞAİRLƏR və ŞƏHİDLƏR nəsli. Cavadın atasının əmisi şair Əbdülqədir Vüsaqi, əmisi, 18 yaşlı şəhid Əsəd (1918), əmisi oğlu, 19 yaşlı şəhid Əbdülvahab (1937), əmisi oğlu, şair-şəhid, 29 yaşlı Mikayıl Müşfiq və özü – 28 yaşlı şəhid Cavad (1990).

Cavadın şeirləri ilə tanış olarkən ilk növbədə onun təxəllüsü, şeirlərinə qoyduğu imza diqqətimdə dayandı: "Cavad Qəmli İsmayılzadə". İlin-əsrin "işıqlı kommunizmə çatdığı" bir vaxtda bu gənc oğlan nədən qəmlənirmiş? O ki, əlinə ilk dəfə qələm alıb "Cavad Qəmli" yazanda xoşbəxt idilər. Onda atası Yunis kişi də sağ idi. Anası balalarının yan-yörəsinə fırlanmaqdan həzz alırdı. İki şirin-şəkər qız balası, Vahab kimi poetik qəlbli qardaşı, könülləri şeir misallı bacıları, ona "əmi" deyən balaca Müşfiq və Vüsaqiylə dərdsiz-qəmsiz yaşadıqları gündə idilər. Hamısı da bir müqəddəs şeir ocağının başında şirinləşərdilər, duyğulu anlarla ömür sürərdilər. Onda hələ Vətən torpağı od tutub yanmırdı. Vətən övladları şəhid olmurdular.

Qəmlinin –

*Mən də öz dövrümün*
*bir Müşfiqiyəm! –*

– pıçıltısı həqiqət oldu. Acı həqiqət, şərəfli həqiqət, tarixi həqiqət, 28 yaşlı Cavad şəhid ömrüylə həm də Müşfiq ocağının sönmədiyini hamımıza bəyan etdi. 1990-cı ilin 20 yanvarında bu ocaq daha gur alovlandı, Cavadın şəhid ömrü yarımçıq Müşfiq ömrünün yarımçıq davamı oldu.

Cavadın şeirlərindəki nikbin hiss nə qədər zəifdirsə, bədbinlik o qədər güclüdür. Həyata, Vətənə həsr etdiyi lirik səpkili şeirlərində narahat qəlbinin döyüntüsü açıq-aşkar duyulur. Bəlkə də Vətən torpağının, övladlarının ağır günləri ürəyinə əzəldən damıbmış, öz nakam taleyindən xəbərdarmış.

*Ağarmışdır artıq qara saçların,*
*Ağ birçək yaraşmır sənə, ay ana!*

– deyə bir vaxtlar anasının könlünü alır. Atasının qəflətən dünyasını dəyişməsinə dözə bilməyən anaya toxtaq olur. Özü isə ağrı içində qovrulur:

*Atacan, sən getdin, dözə bilmərik,*
*Gözümüzü yoldan üzə bilmərik.*
*Dur ayağa, ata, dayaq ol bizə,*
*Sənsiz yer üzündə gəzə bilmərik.*

Atasını, anasını sevən oğulun Vətən şəhidi olması təbiidir.

Cavad Qəmlinin şeirləri Müşfiq ocağından közərən işartıdır.

Və üzünü görmədiyim Mikayıl Müşfiqin eyni bəniz oxşarı olan, kimin adını (!) daşıdığını bilən balaca Müşfiqin uzaq nöqtəyə tuşlanmış baxışları inandırdı ki, o işartı, o ocaq yenə də gur – Müşfiqanə alovlanacaq!

*"Novruz" 27 avqust 1991-ci il*

## "DÜNYA AYRILIQLAR DÜNYASI İMİŞ..."

*Kimin umuduna qoyub gəlmişəm*
*anamın kövrələndə*
*üzünü üzünə söykəyə biləcəyi körpəliyimi,*
*Anamın üzünün yorğunluğu tək*
*sevdiyim qızı.*
*Kimin umuduna qoyub gəlmişəm...*

Nizami Aydının bu şeiri son illər cəmiyyətdə, insanlar arasında baş alıb gedən biganəliyə qarşıdır. Amma Vətənin dar günüdür, onu qorumaq, düşmən tapdağında qalan körpələri, qadınları xilas etmək lazımdır. Anasını, həyat yoldaşını, balaca qızını, hələ dünyaya gəlməmiş körpəsini bir-birinə həyan qoyub cəbhəyə – Vətəni müdafiəyə yollanıb. Əvvəl şair ürəyi götürmürmüş ki, insan da bir-birini öldürərmi? Ancaq Xocalı soyqırımı Nizami Aydını yerindən qoparıb. Yırtıcı düşmənin azğınlığına dözə bilməyib. Şərəfiylə, namusuyla, qeyrətiylə, igidliyiylə düşmən qarşısında dağ kimi dayanıb. Sonra özü dağa-daşa əks-səda verən bir səsə dönüb, göyün görünməz dərinliklərinə çəkilib.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda keçirilən "Nizami Aydın günü"nü "Avanqard" ədəbi birliyi təşkil etmişdi. Ora şəhid şairin dostları, şeirlərini sevən oxucuları toplaşmışdı – Vaqif Bayatlı Önər, Tofiq Qaraqaya, Akif Səməd, Musa Urud, İbrahim İbrahimli, Kəramət və çox-çox qələm sahibləri. Məclisi birliyin sədri, şair Dəyanət Osmanlı açdı. Bir dəqiqəlik sükutdan sonra onun şeirlərindən biri oxundu:

*Şairlərin ölümü*
*Ölən quşların, Ölən çiçəklərin,*
*Boyandığı mavilik qədər gözəl...*

Beləcə, məclis səmimi, isti gözlər isə bulud tək dolu bir ovqatla kökləndi. Dostları ondan qalan xatirələri yana-yana, kövrək-kövrək dilə gətirdilər. Siması nurlu, xoş söz-söhbətli,

qədirbilən oğul kimi qeyrətindən, vüqarından, igidliyindən danışdılar. Tərcümeyi-halını bir daha qırıq-qırıq hamının fikrində dolandırdılar: Nizami Aydın 1961-ci il 26 oktyabrda Gəncədə doğulub. Az yaşından bir çətən külfətin qayğıçəkəni olub. Gəncə Pedaqoji İnstitutunu bitirib, Quba rayonunun Rük və Zımır kəndlərində riyaziyyat müəllimi işləyib. Sonra yenidən Gəncəyə qayıdıb. İlk könüllülər sırasında döyüşə yollanıb. 1992-ci ilin 15 iyununda Sırxavənd döyüşündə həlak olub. Hücuma keçmiş düşmən tərəfi birdəfəlik susdurmaq üçün tankını düz onların mövqelərinə sürüb. Hamısını darmadağın edib, özü isə od tutub alışan tankının içindəcə yanıb. Yanındakı yoldaşlarını məcburi düşürüb ki, qoy onlar yanıb məhv olmasınlar. Özgəsinə qıymadığını özünə qıyıb. İndi yer üzündə nə Nizami Aydın var, nə də Nizami Aydın nişanlı qəbir: anasını, bacılarını, istəklisini, ovundura biləcək bir qəbir. Amma Nizami Aydın imzalı şeirlər var, Nizami Aydın adlı işıq var, iki körpəcə balası var. Nizami Aydın adına Gəncədə orta məktəb var. Qarsia Lorkadan tərcümələri var. Bir də bütün dostlarının, pərəstişkarlarının içində nurdan tökülmüş Nizami Aydın heykəli var. "Qətl olunmaq qətlə baxmaqdan gözəldi, qardaş" Nizami Aydın şeirlərinin birində deyib bu sözləri – yerində deyib, yaxşı deyib.

Dostları bu fani dünyada gələcək nəslə ibrət dərsi olaraq nakam igidin xatirəsini əbədiləşdirmək qərarına gəldilər: duyğularından yadigar şeirlərini bir kitabda nəşr etdirmək, Gəncədəki Şəhidlər Xiyabanında Nizami Aydın memorialı qurdurmaq, yaşadığı evə xatirə lövhəsi vurdurmaq, haqqında teleradio verilişləri təşkil etmək... İşlərin icrasını təşkil etmək üçün "Nizami Aydın" komissiyası yaradıldı. Allah kömək olsun.

O məclisdə deyilən səmimi, həzin ürək sözlərindən, çıxışlarından oxucularımıza da çatdırmaq istədim. Amma Nizami Aydın şeirlərinin işığı fikrimdəkiləri kəsdi. "Xəzər", "Ulduz" dərgilərində, "Nəfəs", "Yol", "İlham", "Yurddaş" və s. qəzetlərdə dərc olunmuş şeirlərini sətir-sətir bir də oxudum. Elə sətir-sətircə

də bütün şeirləri ürəyimin başına dolandı. İşğala məruz qalmış torpaqlarımızın taleyi, bu hücuma qarşı hazır olmamağımız, imkansızlığımız, şairi kədərli notlardan uzaqlaşdıra bilmir:

*...Qara gündə at nallaya bilmədik,*
*Kəmənd atıb at tovlaya bilmədik,*
*Üfüqləri dan yeri tək qızardan*
*Qanımızı cilovlaya bilmədik,*
*Qəmimizi cilovlaya bilmədik...*
*Yəhərsiz, yüyənsiz mindik atları*
*Çapdıq sıyrılmış qılınca...*

Danıla bilməyən poetik etirafdır. N.Aydının ilmələri sevgi pıçıltısından toxunmuş məhəbbət çələnginə bənzər şeirləri daha safdır, axıcıdır. Özünəməxsus sözüylə, tapıntısıyla yaratdığı nəğmələri şeh təravətindədir:

*Kimi yaz yağışı tək sevər*
*Bir kövrək mələyi,*
*Kimi sübh işığı tək...*

"Nizami Aydın günü" də beləcə sehrli sevgi işığına bələnmişdi. Onu da deyim ki, o məclisdə Nizami Aydının bir şəkli tapılmadı ki, yuxarı başdan asaq. Gözlərimizi yəqin ki, tez-tez yönəldəcəkdik o şəklə, o da yuxarıdan bizə baxacaqdı – küskün, kədərli, nigaran, məğrur. Dostlarından biri dedi ki, ölümündən bir az əvvəl özü bütün şəkillərini yandırıb.

Neynək, şəhid şair, biz də sənin şeirlərinlə dərdləşəcəyik. Allah sənə qəni-qəni rəhmət eləsin. Nizami Aydın taleyi taleyinə oxşar oğullar barədə belə yazıb:

*Oğulmu doğmuşduq quzğunlar aparsın.*
*Oğulmu böyütmüşdük qırğınlar aparsın?*
*Anası ölmüşlər davamı görmüşdülər,*
*qırğınmı görmüşdülər?...*

*"Xalq qəzeti"*
*14 dekabr 1996-cı il*

## BİR OVUC BULAQ SUYU

Xaliq Əhmədov olduqca gənc, uca qamətli, ciddi görkəmli, uşaq təbəssümlü, saf baxışlı bir oğlandır. 18 yaşında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə yollanıb, əlinə silah alaraq düşmənlə üzbəüz vuruşub. Düz bir soyuq səngərdə yatıb-durub, gecəsi-gündüzü olmayıb, kiprik belə qırpmayıb. Əsl torpaq oğlu olub, Vətən qeyrəti çəkib. Qeyrətinə güvənərək qalib gələcəyinə inanıb. Amma... bir dəfə ürəyinə tuşlanmış snayperlə ayaqlarından ağır güllə yarası aldı... Bir il hərbi xəstəxanada müalicə olundu. Ürəyi isə cəbhədəki Laçının Qızartı dağında vuruşan dostlarının, yoldaşlarının yanında qaldı. Elə hiss edirdi ki, yenə sərgərdədir, yenə düşmən gülləsinə cavab atəşi açır, yenə bir döyüş mövqeyinə irəliləyirlər... Bu duyğular, hisslər gözündə qovrulan Xaliq bir dan üzü əlinə qələm aldı. İçində onu üzən, odlayan ağrıları misralara düzdü. Ona elə gəldi ki, bir az toxtadı, bir az ağrı-acısı səngidi, sonra başını qoyub bir hovur mürgülədi. Oyananda doğan günəşi gördü. Çırpınan ürəyinin hənirtisini duydu.

Sonra.. ağrıları onu qamarlayanda hoyuna yenə qələm-dəftəri yetirdi. Və bir gün gördü ki, ayaqları sapsağlamdır, göy üzlü dəftəri isə həsrət, hicran, ağrı, sevgi dolu misralarla dolub. Adam heyrətə gəlir. İnsanda nə qədər məhəbbət olar, bunun da bir həddi, hüdudu, sərhəddi olar, yox? Xaliqin sevgisində nə sərhəd var, nə hədd, nə də hüdud. Onda yer boyda, göy boyda, ünümüz yetən, ağlımız dərk edən kainat boyda sevgi var.

Bu sevgi Göyçə adlı gözəl-göyçək, Dədə Qorqud ocaqlı bir obaya ünvanlanıb;

*Göyçə deyiləndə göynəyir içim,*
*Nə ola bir ona yetə biləydim.*
*Üz tutub çıxaydım yaşıl düzünə,*
*Dəstə çiçəyini üzə biləydim.*

Adi sətirlər, adi misralardır. Buradakı həsrət, hicran adamın ürəyini oyur. Bu, o ünvandır ki, indi ora düşmən tapdağında əzilir, döyülür, çığnanır.

Xaliqin şeirlərindəki səmimiyyət, saflıq, həssaslıqöz təbiətinin izidir. Xaliqin göy üzlü dəftərindəki şeirlərini bir-bir şərh etmək niyyətində deyiləm. Yuxarıda dediyim kimi o yerdə ki, sevgi var, saflıq var, dağ ucalığı var, orada söz də var, çırpınan şair ürəyi də. Bəlkə də Xaliq gələcəkdə daha heç şeir yazmayacaq, ya ara-sıra elə-belə özü üçün yazacaq. Amma indi yazdığı bu şeirləri o görüntülərin yaşantısıdır. Vətən təəssübü ilə yaşayan ürəyinin döyüntüsüdür. Bir də Torpaq, Göyçə sevgisinin əks-sədasından özgə bir başqa iddia deyil. Xaliq hər şeydən, hər kəsdən əvvəl böyük vətəndaşdır, qeyrətli Göyçə oğludur.

Bu məqamda böyük Xəlil Rza Ulutürkün şairliyindən min il əvvəl heykəlləşmiş nəhəng vətəndaş qeyrəti gözümdə canlandı. Xaliqin şeirlərində iki xətt sevgi duydum: Göyçəyə – Vətənə üz tutub dediyi –

*Ölüncə biləcəm sənin qədrini...*

və mavi gözlü bir sonaya ünvanladığı, –

*Zərif laləydin, dərmək istədim,*
*Ürəyinin ilk sözünü bilmək istədim,*
*Çəməndən çiçək, səndən dilək istədim...*

– sətirləri Xaliqin özünəməxsus poetik duyumudur, öz eşqidir.

Göyçə dağlarında bulaqlar çağlayardı – dumduru suların gözündə güclə seziləcək xırdalıqda qum-çınqıl da qaynardı. Xaliqin şeirləri – bu toplusuna cəmlənmiş nəğmələri bir ovuc bulaq suyudur.

*"Yeni Azərbaycan" 21 iyun 1997- ci il*
*"Xaliq Əhmədov. "Şeirlər" kitabına ön söz"*

## "ÖLÜNCƏ BİLƏCƏM SƏNİN QƏDRİNİ..."

*– Həmin gün Qızartı dağında qızğın döyüşlər gedirdi. Hər iki ayağımdan ağır yaralandım. Axşamüstü bizimkilər geri çəkiləndə vahimələndim ki, elə oradaca qalacam və... Amma yoldaşlarım, həyatları bahasına olsa da, məni Aşağı Fərəcan kəndinə gətirdilər. İki gün sonra isə Bakıya – qospitala göndərdilər. Ayaqlarımın kəsilmək təhlükəsi var idi. Yenə Allah üzümə baxdı, sağaldım. Tam bir il xəstəxanada yatdım. İndiyəcən də həkimlərin tapşırığıyla vaxtaşırı müayinə kursları keçirəm. Səhhətim nə qədər ağır keçsə də, döyüşdə şəhid olan dostlarım, səngərlərdə yarımcan qalmış yoldaşlarım gözlərimdən çəkilmirdi. Heç olmasa onların ruhu xatirinə Şəhidlər Xiyabanını, yaralı yoldaşlarımı ziyarət etmək borcumu fikrimdən çıxara bilmirdim. Amma yataqdan tərpənmək iqtidarında deyildim. Belə olanda ürəyimin gizlitilərini, gözlərimin acısını misralara naxışladım. Hiss edirdim ki, hər şeiri yazandan sonra xeyli yüngülləşirəm. Ürəyimin yanğısından misralanan sözlər ağır dəqiqələrdə həyanım olurdu.*

*– Xaliq, döyüşə yollananda neçə yaşın vardı?*

– 18 yaşım yenicə tamam olmuşdu. Sentyabrın 29-u (1992) Laçın rayonunun Güləbird kəndinə gəldik. Elə həmin gün də döyüşə getdik. Döyüşdə o qədər yoldaşlarımı itirdim ki... Bir il döyüşmüşəm. Səfiyanda, Quşçularda, Suarasında, Qız Qəbrində ağır döyüşlər keçirmişik. Axırıncı dəfə Güləbirddən Laçına doğru hücuma keçdik. Rayonun 3 km-nəcən gəlib çıxmışdıq (33 km irəliləmişdik). Bir səhər batalyon komandiri Əliyar Əliyev vuruldu. Elə o saat da yuxarıdan əmr gəldi ki, geri çəkilin. Neçə-neçə igidlərin qanı bahasına aldığımız yerləri yenidən düşmənə qoyub geri çəkildik.

Xaliq bütün bunları qırıq-qırıq sözlərlə danışırdı. Cümlələri kimi fikri də çox dağınıq və kədərli idi.

*– Bəlkə, dostlarına yazdığın şeirlərdən birini oxuyasan.*

Xaliq 12 vərəqlik şeir dəftərini mənə uzadıb xahiş etdi ki,

mümkünsə, özünüz baxın. Sonra çəkinə-çəkinə dilləndi:

– Bilirsinizmi, yenə deyirəm, əslində bunlar ölümlü dəqiqələrimin isti hənirtisi olub. Əbədi olaraq cismən itirdiyim yoldaşlarımın ruhu yanında məni xəcalət duyğularından ayırıb. Şeir dediyim bu söz qoşqularının hamısı sadəcə özümün özümə təskinliyimdir.

Müharibə dəhşətiylə, barıt qoxusuyla, güllə yarasıyla, səngər soyuqluğuyla, ürək ağrısıyla, isti duyğularla yüklənmiş misraları nəzərdən keçirərkən "Ölüncə biləcəm sənin qədrini" şeiri gözümü aldı. Şeirin – "Vətən deyiləndə göynəyir içim", "Üz tutub çıxaydım yaşıl düzünə", "Nə ola girəsən bir gün yuxuma" kimi sətirlərindəki ocaq həsrəti ürəyimi oydu. Namərd düşmən əlində şam-şum edilən torpağımın iniltisi qulaqlarıma gəldi. Qəribədir, Xaliq bayaqdan bəri dostlarından, yoldaşlarından danışsa da, ilk rastıma çıxan onun Vətən ağrılı şeiri oldu. "Dolmuş gözdən, ürəkdən deyəcəyəm" şeirinin isə hər bəndi bir igid ömründən səs verir: hərəsi bir evin çırağı olan Zakirin, Səhrəddinin, Natiqin, Rizvanın, Fətullahın, Asifin, Nizaminin, Mehmanın, Rəfailin çəkilməz ölüm dərdini poetik ağılara düzümləyib.

Bu və ya digər şeirləri nəzərdən keçirib Xaliqdən soruşuram:

– *Xaliq, bu şeirləri yazandan sonra heç olmasa ürəyinin ağrıları səngiyibmi?*

– Yox. Söhbət şeirdə deyil. Ötənlərdən danışmaq çox çətindir. Cəbhədə ağır yaralılar bizə yalvarırdı ki, onlara kömək edək ki, düşməndən qisas almayınca ölməsinlər. Bizim isə əlimizdən heç nə gəlmirdi. Olmuşa çarə qıla bilmirdik. Bunları xatırladıqca ağır sarsıntı keçirirəm. Bir halda ki, düşmən qisası qabaqdadır, torpaqlarımız, ana kəndim Ağyoxuş yağı əlindədir, ağrılarım heç səngiyərmi?

Onun ürəyi kimi gözləri də kədərlə, yaşla dolu idi.

– Xaliq, bir yanda işləyirsənmi, ya oxuyursanmı?

– Səhhətim yenicə babatlaşıb. II qrup əliləm. Sağalan

kimi hökmən işləyəcəyəm. Təhsil də almaq fikrindəyəm. İmtahanlara hazırlaşıram. Xaliq Əhmədovun 22 yaşı var. Gənc olsa da, müharibə od-alovunda bişib. Ciddi görkəmi var. Nə qədər qəm-qüssəli, qayğılı söhbət etsə də, həyata inamı, nikbin baxışı gənc qamətinə yaraşırdı. Bütün gənclər kimi ümman dolu arzularla sabahı sevir.

*"Xalq qəzeti"*
*15 iyun 1997-ci il*

## BİR OVUC TORPAĞI ÖPƏN ŞEH

*Bu gecənin üzünə*
*Bir işıq üfür,*
*Nəfəsinlə açılsın səhər.*
*Bu gecənin üzünə*
*Bir sevgi üfür,*
*sevənlər ayılsın isti nəfəsə.*

Gəncliyə məxsus saflıq, duruluq bu misraların ruhunda, ovqatında da səmimidir, aydındır. Ömrün gənclik eşqinin öz-özünə həssas pıçıltısıdır. Müəllif ilk kitabına yəqin ki, şeir qovluğundan seçib-seçmələyib daha çox bəyəndiyi şeirlərini daxil edib: oxucusuna tanınmaq və oxucusunu tanımaq üçün. Kitabdakı şeirlər şairin istedadı, şeir dünyasında sərbəst gəzişə bilməsi barədə ilkin olaraq xoş fikir oyadır. Bu qeydlər 24 yaşlı gənc şair İlqar İlkinin çapdan çıxmış “Halal eylə bu sevgini” kitabı haqqındadır.

İlqar İlkinin poeziya dünyasında torpağın çox ağrılarına ağrıyırıq. Bu ağrılı duyğular 37-də əkilən tut ağaclarının qara günlər xəbərini bizə yetirməsində, müharibənin soyutduğu təndirlərin başında isti bir ölümə söykənən uşaqların taleyində, dünyanın qarışıq, dolaşıq oyunlarının törətdiyi günahlarda, özünlə dünya arasındakı bir kəfənlik yolda, yaralanmış ürəyə, bir az da Vətənə oxşar Ayın paralanmasında, bir gecənin günahından doğulan min-min uşaqların ömür yolunda görünür. İlqar İlkinin şeirlərindəki çatışmayan, görünməyən notları demək fikrindən uzağam. Çünki ən azı gənclik kövrək olur, qayğı, təsəlli umur, öz cığırına düşüncə, izini açınca hənirtiyə ehtiyacı olur. Gənc İlqarın şeirləri də müasir ədəbi aləmdə bir ovuc torpağı öpən şehdir.

*"Xalq qəzeti"*
*5 mart 1997-ci il*

## "YURD" GÖYNƏRTİSİNDƏN ÖLLƏM, AY ELLƏR

Bayram Əhmədov ixtisasca elektrik mühəndisi olsa da, elə öz ixtisası üzrə sahədə çalışsa da qəlbində yaradıcılıq qığılcımları közərir. İlk tanışlığımız çalışdığım redaksiya otağında oldu. Özünü təqdim etdikdən sonra cib dəftərəsindən bir-iki şeirini oxudu. Çap olunmaq istəyirdi.Onunla söhbətimiz uzun çəkdi. Bu gəncin qaynar təbiətinə, coşub-daşan yaradıcılıq aləminə bələd oldum. Bayram şeir yazsa da, el-oba deyimlərinə – folklor dünyasına olan vurğunluğunu da sezdim... Növbəti gəlişində iri qovluqla gəldi. O, ilk söhbətimizin ovqatından həvəsə dolub üz tutub el ağsaqqal-ağbirçəklərinin yanına. Onların yaddaşını tərpədib. Kövrək duyğulara köklənən ahıllar sinələrinə toplayıb yaddaşlarında qoruduqları folkloru Bayramın sözünün qabağına açıb töküblər. Bayram da eləməyib tənbəllik, əlinə qələm-dəftər götürüb söz dünyasını kağıza köçürüb.

Yorulsa da yoruldum deməyib. Beləcə bir qovluq bağlayıb. Bayramın qovluğunda bayatı, el deyimləri, məsəllər, rəvayətlər... dolu idi. Ona qəlb dolusu təşəkkürümü bildirib bu işini davam etdirməyi tövsiyə etdim. Qovluqda diqqətimi çəkən dəftərdə isə Bayramın yenicə yazdığı şeirləri idi. Hər insanla görüşündən duyğulanan Bayram şeir aləminə çəkilib, ruhunu narahat edən dünyasını sətirlərdə misralayıb... Vətən, el-oba qəhrindən yerə-göyə sığmayan Bayram şeirlərində yazır ki, bizim elin otunu-çiçəyini tanımayan, dağının-düzünün adını bilməyə düşmən indi o ellərdə at oynatsa da, dağ-daş can ağrısından haray salır, qəribçilikdən göyə-dumana bürünüb.

*Ayrangülü, bənövşəni görməyən,*
*Baldırcanı, ala kığı dərməyən.*
*Hər otunda bir dərman var bilməyən,*
*Güllərindən dəstə tutan kim oldu.*
*Böyük çay axını hallavardadır,*

*Dzmanı, Heydərli indi hardadır,*
*Saralın, Qursalın gözü yadadır,*
*Arcutu yadına salan kim oldu.*

Bayramın folklor nümunələri qovluğuna doğulduğu yurdun səfalı dağları, düzəngahları, yaylaqları, bulaqları, qayaları, ağ duvaqlı zirvələri... bircə-bircə sətirlərə düzülüb. Can yanğısı ilə vəsf olunan bu sətirləri oxumaqda çətindir. Bayram ikinci, üçüncü... qovluqları üzərində işləyir. Kim bilir bəlkə də bir ilə, iki ilə ya bir-iki aya o "Pəmbək folkloru" toplusunun tərtibçi, "Vətən ağrıları" şeirlər kitabının müəllifi kimi geniş oxucu kütləsinin görüşündə olacaqdır.

Bayram Əhmədov 1967-ci ildə Qərbi Azərbaycanda Gümrünün (Pənbək mahalı) Azman kəndində doğulub. Orta məktəbi qonşu Güllüdərə kəndində tamamlayıb. Azərbaycan Dövlət Neft Akademiyasında ali təhsil alıb. Qəlbi Vətən məhəbbətinə bələnib. Doğulduğu elmi təbiəti və yurd dərdi onu şairlik təbinə doldurub. Danışığı boyu Hallavar, Mollaqışlaq, Heydərli, Arcut, Hacı qara, Sarallar, Qursal, Gözəldərə, Güllüdərə, Hamamlı... kəndlərinin füsunkarlığından şirin ləhcəsiylə danışırdı. O yerlərin ləhcəsində xəbər şəkilçiləri "yom-yom"la tamamlanır. Bayram şeirlərini də çox vaxt elə o ləhcəylə yazıb.

# HƏYAT ÖZÜ SƏHNƏDİR

*Kuzə alıb bulaq üstə enəndə,*
*Görüb göz yetirdim sana, dilbərim.*
*Gözlərini oğrun-oğrun süzəndə,*
*Al-qan çökdü yanağına, dilbərim.*

*Dedim: "Gəl, dolaşaq dağı, dərəni,*
*Gəl, toplayaq bənövşənin tərini".*
*Dedin: "Oğlan, çox axıtma tərini",*
*Məni qoydun yana-yana, dilbərim.*

*Kirpiklərin məni aldı nişana,*
*Ürəyimdə qaldı səndən nişana,*
*Dedim: "Ay qız, anam gəlsin nişana"*
*Gözlərini süzdün yana, dilbərim.*

## İRƏVAN TEATRI İNSANLAR KİMİ TEATR DA DİDƏRGİNDİR:

İrəvan teatrının 115 yaşı tamam olur. İrəvan Dövlət Dram Teatrının yaranma tarixi ensiklopediyalarda, müxtəlif mənbələrdə 1886-cı il kimi göstərilir. Bu hesabla da teatrın 110 illik yubileyi ötən il qeyd olunmalıydı. Ancaq yeni axtarışlar, yeni tədqiqatlar təzə tarix aşkarladı. Tədqiqatçı-jurnalist İsrafil Məmmədov bildirir ki, "İrəvanda Azərbaycan teatrının tarixi ən azı 1880-1881-ci illərdən başlayır. İrəvanda çıxan "Psak" ("Çələng") qəzeti 1882-ci il aprelin 10-nu, 7-ci sayında "Fars teatrı" adlı geniş rəy dərc edib. Səhnə əsərinin İrəvanda ana dilimizdə yazılması, həvəskar artistlərin hamısının adlarının qeyd edilməsi, kasıb tələbələrə kömək məqsədilə ikinci dəfə göstərilməsi faktlarının inkaredilməzliyi deməyə əsas verir ki, İrəvanda azərbaycanlı teatr həvəskarları Vasaq Mədətov Nəzminin "Tamahkarlıq düşmən qazanır" tamaşasını 1881-ci ilin ikinci yarısında birinci dəfə, 1882-ci il aprelin 2-də ikinci dəfə oynamışlar.

Deməli, C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrı bu il özünün 115-ci mövsümünü yaşayır. 115 illik yol keçmiş teatrın ötən günlərinə nəzər salanda olduqca əzablı, ağrılı, faciəvi bir yol – teatr ömrü görünür.

...1885-ci ildə cəmi 12 min əhalisi olan İrəvana Qori seminariyasının məzunu Firidun bəy Köçərli gəlir. O, şəhərdəki yeganə gimnaziyada çalışan müəllimlərdən biri olur. Firidun bəy Köçərli burada maarifçilik işi ilə yanaşı mədəniyyətə, teatra da böyük həvəs və diqqət göstərməyə başlayır. Beləliklə, 1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir. M.F.Axundovun "Müsyö Cordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilir. F.Köçərli "İrəvandan məktub" məqaləsində ("Kəşkül"də dərc edilib) yazır: "Bu aprelin 4-də (1890) darülmüəlliməndə elm və kamal təhsil edən müsəl-

man cavanları hökumət rüsxəti ilə mərhum M.F.Axundovun "Məstəli şah" ünvanında tərtib etdiyi komediyanı oynayıb, cümlənin diqqət və hörmətini cəlb etdilər. Komediya türk dilində oynanıldı... Sonra "Könülsüz nigah" ünvanında bir pərdədə tərtib olunmuş təfriqə (vodevil) oynandı. O, dəxi hamının xoşuna gəldi". F.Köçərli 1895-ci ildə İrəvanı tərk edəndən sonra da, 1896-cı ildə Axundovun həmin əsəri yenidən tamaşaya qoyuldu və böyük uğur qazandı. Teatrın səsi-sədası bu əsərlə geniş yayıldı. İrəvan Teatrının fəal üzvü, incəsənətə, səhnəyə dərin sevgiylə bağlanan 18 yaşlı Yunis Nuri F.Köçərlidən sonra teatra rəhbərlik etdi. 1945-ci ilə qədər, 50 ildən çox bir dövrdə teatrın ağırlığını çiynində saxlayan Yunis Nuri (1878-1950) teatrın bütün çətinliklərini ömrünə qatıb öz taleyinin bir parçası kimi yaşayaraq onu məhv olmağa qoymayıb. Bu teatrı dağıtmağa hər cür cəhd edən nankor gavurlara təslim etməyib. Yunis Nuri həvəskar aktyorları cəlb edərək teatrın repertuarını zənginləşdirirdi. Eyni zamanda Azərbaycan aktyorlarının İrəvana qastrol tamaşaları da onların sənətçi kimi yetişməsinə, formalaşmasına kömək olundu. Maraqlı fakt kimi qeyd etmək mümkündür ki, İrəvana ilk qastrol səfərini ölməz Hüseyn Ərəblinski təşkil etmişdi. 1909-cu ildə onun rəhbərliyi ilə İrəvana gələn teatr bir sıra tamaşalar (Ə.Haqverdiyev "Bəxtsiz cavan", N.Nərimanov "Nadir şah" və s.) göstərmişdir. Azərbaycandan gətirilən tamaşalarda yerli aktyorlar da, xüsusən teatrın rəhbəri, istedadlı aktyor Yunis Nuri də iştirak edirdi. 1912-ci ildə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvana qastrol tamaşaları gətirilir. Bu truppanın ifasında irəvanlılar "Evli ikən subay", "Xor-xor", "O olmasın, bu olsun", "Əlli yaşında cavan oğlan", "Kərbalayı Şükür xalça satan" əsərlərinə tamaşa edirlər. Belə əlaqələr teatrın həyatını daha da canlandırır və mədəni mühitdə onun yerini, rolunu möhkəmləndirirdi. Artıq 1916-cı ildə teatrın səhnəsində "Hacı Qara", "Arşın mal alan", "Məşədi İbad" kimi məşhur əsərlər oynanılırdı.

1918-ci ildə İrəvanda daşnakların hökmranlığı başladı. Bu zaman ölümlə üz-üzə dayanan şəhər sakinləri məcbur olub müxtəlif yerlərə üz tutdular. Teatrın rəhbəri Yunis Nuri və bir neçə aktyor yoldaşı İranın Xoy şəhərinə getdilər. Maraqlıdır ki, teatr üzvləri orada da fəaliyyətlərini dayandırmadılar. 1922-ci ildə teatr üzvləri də geriyə – öz yurdlarına qayıda bildilər. Bu zaman Erm.KP MK-da azlıqda qalan millətlər arasında iş aparan şöbənin müdiri Bala Əfəndiyev teatrın işinə ciddi yanaşır, ona yaxından yardımlar göstərir və demək olar ki, hər tamaşada iştirak edirdi. O dövrün ziyalılarından Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Əşrəf Yusifzadə, Yusif Ziya və başqaları İrəvanın müsəlman əhalisi arasında elmi, mədəniyyəti təbliğ edir, onları maarif işığına çəkməyə çalışırdılar. Bu mənada cəmiyyətdə teatrın da aparıcı rol oynadığına ümid edən Bala Əfəndiyev öz arvadı Fatma Əfəndiyevanı teatra gətirmiş, ilk qadın aktrisa kimi səhnəyə çıxarmışdı. O vaxt Fatma Əfəndiyeva İrvanda həm də türk qadınlar klubunun ilk müdirəsi idi. Partiya işçisi Əkbər Rzayev də öz arvadı Firəngiz Rzayevanı Fatma xanım ilə eyni vaxtda səhnəyə çıxarmışdı. Xatırlatmaq istərdim ki, Bala Əfəndiyev 1921-28-ci illərdə dövlət aparatında məsul vəzifələrdə çalışmış, o ərazidə Azərbaycan mədəniyyətinin inkişafında onun böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə teatrda qadın ifaçıların sayı çoxaldı. Teatr öz fəaliyyətində get-gedə püxtələşərək böyük nüfuz qazandı və 1928-ci il 15 mart tarixdə Dövlət Dram Teatrı statusu aldı. Azərbaycan teatrının səhnə ustalarından A.M.Şərif-zadə, Y.Rəcəb, M.Davudova, S.Ruhulla, İ.Hidayətzadə, M.Mər-danov, S.Hacıyeva və başqalarının İrəvan teatrında olan qastrol tamaşaları böyük əhəmiyyət kəsb edirdi. Artıq bu səhnədə yetişmiş Y.Nuri ilə bərabər Ə.Yusifzadə, Q.Həqqi, Ə.Süleyma-nov, N.Əliyeva, M.Qaraxanov, C.Əliyev, Q.Məlikov, R.Hüsey-nova, M.Nuriyev, Ə.Zeynalov, Ə.Haqverdiyev, Ə.Əliyeva, H.Mirzəyev, İ.Dağıstanlı, G.Rəhimova, D.Məmmədova, M.Rəsul-

zadə, Ə.Quliyev və başqa sənətkarlar da tanınırdılar. Teatrın baş rejissoru olmuş Baxşı Qələndərlinin fəaliyyətini xüsusi ilə qeyd etmək yerinə düşərdi. Teatr dövlət statusu alandan sonra onun təntənəli açılış mərasimi oldu və C.B.Molyerin "Zorən təbib" komediyası göstərildi. C.Cabbarlının "Aydın" pyesinin yüksək səviyyədə tamaşası hazırlandı. Ümumiyyətlə, C.Cabbarlı yaradıcılığı teatrın repertuarında geniş yer tuturdu. "Sevil", "Almaz", "Yaşar", "1905-ci ildə" tamaşaları dəfələrlə İrəvanın ətraf rayonlarında, kəndlərində oynanılmışdır. 1935-ci ildə teatra dramaturq C.Cabbarlının adı verildi.

1948-ci ildə İrəvan və onun ətraf mahallarında yaşayan türk əhalisinin məcburi olaraq köçürülmə prosesi teatra da öz acı təsirini göstərdi və 1949-cu ildə teatr Göyçə mahalının Basarkeçər (indiki Vardenis) rayonuna köçürüldü. Orada bir illik fəaliyyətindən sonra teatrın işi dayandırıldı və əvəzində xalq teatrı kimi təşkil olundu. 70 illik bir tarixi olan teatrın taleyinə daşnak ünsürlər hər cür vasitə ilə düyün salırdılar. Teatrın tarixini vərəqləyərkən onun keşməkeşli, acınacaqlı, çətinliklərlə dolu günlərinə ağrımamaq olmur. Zəngin səhnə həyatı keçmiş bir teatrı məhv etmək o ətrafda yaşayan xalqın milli mənəviyyatına, psixologiyasına çox ağır təsir göstərirdi.

Nəhayət, 1967-ci ildə teatr öz ikinci gənclik həyatına qədəm qoydu. İrəvan ərazisində Yunis Rzayevin, Azərbaycanda isə Şıxəli Qurbanovun birgə gərgin, əvəzsiz xidmətləri sayəsində C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrı hökumətin qərarı ilə yenidən yaradıldı.

Teatra əməkdar artist Yunis Nurinin nəvəsi Əziz Süleymanov rəhbər təyin olundu. Elə həmin il Azərbaycan Dövlət İncəsənət İnstitutunun bir qrup məzununu İrəvan teatrına göndərdilər. Kursun rəhbəri, tanınmış rejissor-pedaqoq Nəsir Sadıqzadə tələbələri ilə birgə "Sevil" tamaşasını teatrın açılışı gününə hədiyyə etdilər. V.Əliyev, R.Qasımov, N.Eminov, S.Əliyeva, R.Məlikov, Ş.Dəmirçiyev, E.İsmayılova,

T.Abdullayeva, Z.Paşayev, M.Bayramov, M.Məmmədbəyli, M.Əlixanoğlu, Q.Kərimov və digər aktyorlar uzun illər İrəvan teatrında çalışaraq onun əzəlki şöhrəti qaytardılar. Az sonra 24 yaşlı gənc qələm əhli Hidayət Orucov teatrın rəhbəri təyin edildi. O, 16 il (1967-1983) teatrda direktor vəzifəsində çalışdı. Bu illər ərzində teatrın həyatında ciddi dəyişikliklər baş verdi. Repertuara yeni əsərlər daxil edildi. Neçə-neçə yeni tamaşalar İrəvan teatrının tarixinə yazıldı. Teatr bu illərdə respublikanın azərbaycanlılar yaşayan bütün kəndlərini bircə-bircə gəzir, yad baxışlar, yad münasibətlər çərçivəsində dolanan xalqın könlünü sevindirir, milli mədəniyyətini təbliğ edirdi. Bu dövr ərzində teatr öz nüfuzunu xeyli qaldırdı, az qala bir əsrlik tale yaşamış teatrın şöhrəti, adı-sanı xeyli uzaqlara yayıldı. Azərbaycana yeni qastrol səfərləri təşkil olundu. Hidayət Orucov sıxışdırılaraq Bakıya köçdüyündən 1983-cü ildə Yunis Nurinin ikinci nəvəsi Yunis Süleymanov direktor təyin olundu.

Nəhayıət, 1988-ci il... Teatr Azərbaycanın Neftçalada qastrol tamaşalarındadır. Qastrol müddəti başa çatanda isə xəbər gəlir ki, İrəvan ərazisindəki bütün azərbaycanlılar öz yurd-yuvalarından qovulublar və bu teatrın da geriyə dönməyə yolu, yeri, yurdu yoxdur. Hər şey talanıb, hər şey son nöqtəyə çatıb... Fəaliyyət göstərdiyi bir əsrlik ömründə heç zaman müstəqil binası, avadanlığı olmayan teatr repertuarındakı bütün tamaşaları İrəvan şəhərindəki hansısa bir mədəniyyət evinin dar, balaca otaqlarında hazırlamış, sonra isə gah Rus Dram Teatrının, gah da digər teatrların binalarında göstərmişdi. Teatra olan düşmən baxış əslində bütöv bir xalqa münasibətin tərkib hissəsi idi. Əlac yox idi. Məcburiyyət insanı hər şeyə dözümlü edir.

1988-ci ildən Bakıda yerləşmiş didərgin taleli İrəvan Dövlət Dram Teatrına həmin ildən əməkdar artist Vidadi Əliyev rəhbərlik edir. Didərgin teatrın sərbəst yeri-yurdu olmasa da, tamaşalar hazırlayaraq sınıq taleyini yaşamağa çalışır. Didərginlər (Z.Yaqub), "Əkizlər" (P.Pançeviç), "Allah rəhmət

eləsin, Şəhidlər" (S.Rəşidi), "Abbasqulu bəy Şadlinski" (İ.Vəlizadə) və digər yeni tamaşaları oynayıblar. Teatrın əzəlki heyətinin çoxu maddi imkansızlıqdan ora-bura səpələnsə də, onların yerini gənc aktyorlar tutur. Öz yaradıcılıq fəaliyyətinə ara verməyən İrəvan Teatrı hazırda H.Sarabski adına Mədəniyyət Evində məskunlaşıb. 115 illik tarixi tale yaşamış bir teatrın bütün ağırlıqlarını çiynində saxlayan kollektiv onu yaşatmağa çalışır. Əməkdar artist Vidadi Əliyev, teatrın rejissoru, əməkdar artist Vaqif Əsədov, Elmira İsmayılova, Əli Quliyev, Əcdər Zeynalov, Vüqar Əliyev, Yaqub Babayev, Mədinə Mirzəyeva, Elçin Əliyev, Əli Əliyev, Elnur Məmmədov və digər aktyorlar sınıq taleli teatrı yaşatmaq üçün hər çətinliyə, hər köntöy münasibətə dözüblər, dözürlər. Çünki onlar belə bir məsuliyyəti dərk edirlər ki, bir əsrdən çox tarixi zaman ötürmüş, ağır tale yaşamış teatrı qorumaq həm də mənəvi borcdur. Teatr yeni tamaşalarla 115 illik yubileyinin qeyd ediləcəyi günü gözləyir. Bir də onlara dağlardan gül yığıb gətirən İrəvan tamaşaçıları üçün darıxırlar.

*"Xalq qəzeti"*
*10 sentyabr 1997-ci il*

## İRƏVAN TEATRINA KÖMƏK GƏRƏKDİR

,

Ötən gün İrəvan Dövlət Dram Teatrının direktoru, əməkdar artist Vidadi Əliyev redaksiyamıza gəlmişdi. Teatrın qayğılarından ağrıyla danışdı və bir məsələyə bizdən – "Xalq qəzeti"ndən kömək istədi. Vidadi müəllimin dediklərini qələmə alıb oxuculara, müvafiq idarələrə yetirməyi qərara aldıq.

– Ötən ilin dekabrında Respublika Sarayında şair Zəlimxan Yaqubun yaradıcılıq gecəsində İrəvan teatrının aktyorlarının da çıxışı nəzərdə tutulmuşdu. Onlar şairin "Didərginlər" tamaşasından bir parçanı ifa etdilər. Tədbirdə iştirak edən ölkə başçısı Heydər Əliyev ifaçı aktyor heyətinin işindən razı qalır və elə oradaca mədəniyyət naziri Polad Bülbüloğlundan teatrın vəziyyətini soruşur. Mədəniyyət naziri teatrın çətinliklərini və hazırda yerləşdiyi binanı pis vəziyyətdə olduğunu söyləyir. "Bəs nə gözləyirsiniz, tədbir görün" – deyə Prezident H.Əliyev ona tapşırıq verir. Bülbül prospekti 12-də (Musiqili Komediya Teatrının müvəqqəti yerləşdiyi bina) belə bir imkan olduğunu nazir Prezidentə çatdırdıqda o, "Ora olsun, yerləşdirin, 117 illik tarixi olan teatrı qorumaq lazımdır" – deyib.

Amma həmin binanın sahibi Ticarət İşçiləri Həmkarlar İttifaqı Konfederasiyası buna razı olmur, hətta otaqlara çöldən yeni qapılar açıb, kimlərəsə icarəyə veriblər. İrəvan teatrı isə həmin binaya köks ötürə-ötürə baxır. Qərbi Azərbaycanımızdan yadigar olan bu mədəniyyət ocağı mədəniyyət naziri Polad Bülbüloğlunun da səylərinə baxmayaraq, yenə soyuqqanlılıq içərisində boğulur. Didərginlik həyatına düçar olduqdan sonra yerləşdiyi H.Sarabski adına Mədəniyyət evi də qəza vəziyyətindədir. Daimi problemlər içində yaşamağa alışmış İrəvan teatrı bu gün rastlaşdığı yeni çətinlikdən əlaqədar təşkilatların, xeyirxah insanların köməyi ilə xilas olacaq və təkcə öz yurd ağrısını çəkəcək.

*"Xalq qəzeti"*

## “MƏHƏBBƏT YAŞAYIR HƏLƏ?...”

Öz repetuarında müxtəlif ölkələrin dramaturqlarının müxtəlif janrlı əsərlərini uğurla yaşadan, ona özünəməxsus səhnə həyatı verən İrəvan teatrı bu gün şair-dramaturq Hidayətin “Məhəbbət yaşayır hələ?...” pyesinə ikinci dəfə quruluş verməyi məqsədəuyğun hesab edibsə, deməк, bu gün də pyesdə qoyulan problemləri, insan münasibətlərini səhnə dili ilə tamaşaçılara çatdırmağa ehtiyac duyub. Yetmişinci illərdə Nəsir Sadıqzadə tərəfindən hazırlanan tamaşa öz dəsti-xətti ilə İrəvan teatrsevərlərini çox sevindirmiş və tamaşa teatrın böyük uğuru kimi qiymətləndirilmişdi. Həmin tamaşaba əbədi mövzu – məhəbbət mövzusu poetik yüksəkliyə qaldırılır və bu müqəddəsliyi, bu paklığı daha dəqiq çatdırmaq üçün qədim yunan ifaçılıq üsullarından – xordan istifadə etmiş və bu gün də həsrətlə xatırlanan bir tamaşa hazırlamışdı. Bu məziyyətlərinə görə də uzun müddət repertuarda özünə layiqli yer tutmuşdu və müvəffəqiyyətli tamaşa kimi Azərbaycan və Ermənistan televiziyası ilə göstərilmiş, böyük əks-sədaya səbəb olmuşdu.

Bu gün teatr həmin əsəri yenidən yaradıcılıq süzgəcindən keçirərək tamamilə yeni bir tamaşa hazırlamağa nail olmuşdur. O vaxt tamaşada çıxış etmiş təcrübəli artistlər Elmira İsmayılova (Mehriban) və Süleyman Nəcəfov (Kərəməli) bu gün rejissor Vaqif Əsədovun yozumunda başqa bir oyun tərzilə tamaşaçı qarşısına çıxdılar. Bu tamaşada obrazlar əvvəlki tamaşadan fərqli olaraq öz aralarındakı mübarizədən sırf insani duyğular, düşüncələr və səmimi istəklər zümінində davam etdirir, hər kəs öz mövqeyində haql olduğunu sübuta çalışır. Rejissor-pedaqoq, əməkdar artist Vaqif Əsədov təcrübəli aktyorlarla yanaşı gənc aktyorları da həmin ruhda kökləyə bilmiş və nəticədə həmahəng səslənən bir aktyor ansamblı yaratmağa nail olmuşdur. hətta Əliş rolunu oynamaq üçün dəvət olunmuş xalq artisti Tariyel Qasımov belə, öz ifasında tamamilə yeni çalarlar tapmış, bununla da obrazın

haqlı olmasını “Bir az keçəcək məhəbbət də qurtaracaq, sevgi də... Ömrün boyu oturub öz yazıq, kasıb oğlanın üzünəmi baxacaqsan?” sözləri ilə inandırıcı tərzə çatdırır. Bu obrazı aktyorun yeni və böyük uğuru hesab etmək olar. Gəncliyində səmimi və təmiz oğlan olan Əliş yaşadığı əhatənin təsiri ilə vəzifə ölüsü, pul düşkünü olursa, sonda Müqəddəslə görüş anında sanki birdən ayılıb özü-özünü görür, peşman olur, həyatda nələri itirdiyini sanki dərk edir.

Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsində tamaşaçılara təqdim olunan “Məhəbbət yaşayır hələ?...” əsərinin rəssamı R.Avşarovdur. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorlarından Dilarə Əliyevanın (Xatirə), Ədhəm Əliyevin (Zəfər), Əli Quliyevin (Müqəddəs), Fidan Axundovanın (gənc Mehriban) və Vüqar Əmirovun (Qürbət Arazlı) tamaşadakı ifaları uğurlu alınmışdır. Tam səmimiyyətlə qeyd etmək olar ki, tamaşanın araya-ərsəyə gəlməsində teatrın direktoru Vidadi Əliyevin də gərgin əməyi diqqətdən kənarda qalmır. Bu zəhmətin, teatra məhəbbətin nəticəsi olaraq deyək ki, İrəvan teatrı öz ocağına dönəcəyi günə qədər səhnə ömrünü davam etdirəcək.

*"Xalq qəzeti"*
*3 iyul 1998-ci il*

## SƏMAYƏ İSMAYILOVA: YAD ÖLKƏDƏ ÇIRAQ YANDIRMAQ OLMAZ

Sevimli müğənnimiz Səmayə xanım İsmayılova haqqında yazacağım yazıya sualla başladım

– Səmayə xanım, baxıram sizə, çox cavansınız, amma ürəyimdəki bir sözü deməyə də bilmirəm. Gözümü dünyaya açandan sizi səhnədə görürəm. Bu nə sirrdir?

O isə gülərək dedi ki,elə mən də gözümü açandan səhnədəyəm desəm, bəlkə də bir az çox görünər. Amma körpə vaxtımdan atamın dizinin üstündə oturub radioda səslənən mahnıların avazıynan böyümüşəm. Azərbaycanın bütün görkəmli sənətkarlarının səsi – valları evimizdə var idi. Babam el-elat arasınca sayılan -seçilən, urvat sahibi olan bir kişiydi. Qapısından qonaq-qarası əskilməzdi. Azərbaycandan, Borçalıdan bizim ellərə (Kirovokan rayonu) gələn bütün sənət sahibləri – aşıqlar, müğənnilər, aktyorlar kənddə qonaq evi olmadığından babamın qonağı olardılar.

Bütün bunları görə-görə, dinləyə-dinləyə... Günlərin birində İncəsənət İnstitutunun musiqili komediya fakültəsinə daxil oldum. Burada aktyorluq sənətinin sirlərini mənimsədim, mərhum müğənnimiz Qulu Əsgərovun sinfində muğamı öyrəndim. Sonra Opera Teatrına təyinat aldım. Teatrda Gülxar Həsənova məni Ərəbzəngi roluna hazırladı. Bu, mənim ilk işim idi. Amma orada işləmək və bu rolu ifa etmək mənə qismət olmadı. İrəvan teatrına kadrlar tələb olunurdu və mən də həmin qrupla b irlikdə ora yollandım. O vaxtdan 1988-ci iləcən İrəvan teatrında işləməli oldum, bir il də burada – didərginlik həyatımızda əməkdaşlıq etdim. Sonra... hazırda televiziyanın solistiyəm. Fikir verirsinizmi, çox sadə və cəmi bir neçə cümləylə keçdiyim ömür yolumu cızdım. Amma sən bu illərin arxasındakı çətinlikləri, ağırlıqları görsən heyrətdən donarsan.

"Hicran nəğməsi" və "Sənsiz qalanda" adlı iki audiokaseti var. Radionun qızıl fondunda xeyli mahnım var. Otuza qədər

mahnım səsyazma studiyasındadır. 1999-cu ildə buraxmaq istədiyim yeni kasetim üçün də təzə mahnılar hazırlamışam. Bilirsinizmi, ürəyin istəyən işi görmək üçün maddi imkan lazımdır.

O imkanı olsa da işləmək üçün xarici ölkələrə üz tutmur . Özünün qeyd etdiyi kimi Qərbi Azərbaycandan gələn yeganə qaçqın müəğnnidir. Özü də acı, həyatın ən ağır məşəqqətlərini çəkən, qapılar üzünə bağlı olan yeganə müğənni . Doğrudur, didərginliyimizin ilk illərində köməyinmə yetənlər çox oldu. Amma elə şeylər də var ki,... onları yaşamaq da çətindir, dilə gətirmək də.  Xarici ölkəyə getmək söhbətinə gəldikdə isə onun sözü belədir:

- Bu çox-çox çətin, ağır bir yoldur. Maddi imkansızlığa dözmək olar, amma təzədən gedib başqa bir mühitdə, başqa bir ölkədə çıraq yandırmaq olmaz. Türkiyədən dəfələrlə dəvətlər almışam. Hətta bir ay İzmirdə çox yüksək səviyyədə konsertlərim keçdi. Bu gün də imkanım var ki, Almaniyada yaşayıb-işləyim. Amma bütün bunlarla yanaşı bir məsələ də var – mən Vətənimi bir dəfə itirmişəm. (Bu ağrının nə demək olduğunu çəkənlər bilər.) İkinci dəfə Vətən dediyim yurdu, bu on ildə alışdığım, tanıdığım insanları qoyub başqa yerə gedə bilmərəm. Allah mənə belə tale yazısı yazmasın. Azərbaycan mənim elim-günüm, dinim-imanım, odum-ocağımdır. Öz yurdumun havası üçün darıxanda qaçıram Qazaxa, Tovuza, Gəncəyə, Gədəbəyə. Gedirəm o dağlara, oraların dağ havası məni ovundurur. Mən onsuz yaşaya bilmərəm.

Səmayə xanımın bu düyğuları adamı yamanca kövrəltdi. Doğrudan da adamın könlü, vicdanı rahat olsun, sonrası ilə birtəhər ötüşmək olar. Bəlkə hansısa iri müəssisəyə, zavoda müraciət edib orada öz musiqi qrupunuzla çalışanız. Məncə bu o qədər də çətin problem olmaz. Ürəyə yatan xoş avazınız qapıları üzünüzə açar, örtməz. Siz özünüzdə bu inamı oyadın və bəxtinizi sınayın.

– Əvvəllər maşınqayırma zavodu ilə müqavilələrimiz olub.

İndi... Bəlkə bundan sonra səsimizə səs verən olacaq. Bir də ki, mən bədbin insan deyiləm. Azərbaycan torpağına ayaq basdığım gündən ekran-efir üzümə açıq olub. O qapıları təmənnasız döymüşəm. Hər istədiyim verilişə düşə bilmək imkanım var. Səsyazma studiyasında istədiyim vaxt səsimi yazdırıram. Orada mənə çox hörmət edirlər.

*"Xalq qəzeti"*
*10 mart 1999-cu il*

## "SEYR ETMIR GÖZÜNDƏ TÜRFƏ GÖZƏLLƏR"

Bakıda İncəsənət Universitetinin musiqili komediya fakultəsini bitirib təhsil alan Səmayə İsmayılova öz doğma yurdanda - İrəvanda işləməyi qərarlaşdırmışdı. Elə də etdi. Hələ tələbə ikən Azərbaycan Dövlət opera və Balet Teatrının səhnəsində "Şah İsmayıl" operasındakı Ərəbzəngi obrazı ilə teatrın diqqətində qalsa da, fikrində qəti idi. C.Cabbarlı adına Azərbaycan İrəvan Dövlət Dram Teatrında işə daşladı. Özünə çox tez tamaşaçı auditoriyası yaradan Səmayənin sənət sirri məlahətli, ürəyə yatımlı səsində idi. O, teatrın həm solisti idi, həm də aktyoru. Amma daha çox solist kimi-şux mahnıları ilə sevilərdi. Teatrın qastrol səfərləri ərəfəsində tədbirin başlanğıcında - "jurnal" hissəsində "Oxuyur Səmayə İsmayılova" elanını hamı səbirsizliklə gözləyirdi. Zarafat deyildi, Azərbaycan dilində - özü də yanıqlı, şirin səslə oxuyan müğənniyə üz-üzə göz-gözə qulaq asacaqdılar. Öz qədim türk yurdunda Azərbaycan qəribçiliyi ilə yaşamağın bir ağrısı da bu olduğundan belə konsert-tamaşaları insanlar su kimi, hava kimi içinə çəkərdilər.

Bu gün Azteleradionun solisti kimi tanınan müğənni Səmayə İsmayılova belə şərəfli bir yaradıcılıq taleyinin yiyəsi olubdur. 1988-ci il hadisələri zamanı evindən - eşiyindən, işindən-elindən qovulan, didərgin düşən həmvətənlərimizdən biri də odur. Dərd gələndə sən demə batmanla gələrmiş. Səmayə xanım Bakıda xalq mahnıları, bəstəkar mahnıları oxumaqla kifayətlənmədi. Ustad yanında muğam dərsi öyrəndi. İndi onun repertuarında "Qatar", "Bayatı-Şiraz", "Segah", "Şur" kimi muğamları könül doyurası ovqatla dinləmək mümkündür. Vətən həsrəti, el qubarı qəlbinin sızıltılı əbədi nəğməsidir - Dədə Ələsgər harayıdır:

*Hanı mən gördüyüm qurğu-büsatlar?!*
*Dərdməndlər gösr, tez bağrı çatlar,*
*Mələşmir sürülər, kişnəşmir atlar,*
*Niyə pərişandı halların, dağlar?!*

*Hanı bu yaylaqda yaylayan ellər?!*
*Görəndə gözümdə car oldu sellər,*
*Seyr etmir göysündə türfə gözəllər,*
*Sancılmır bulağa güllərin, dağlar!*

Bəlkə də müğənni el köməyinə dağları Dədə Ələsgər sözüylə haraylamağı da bir sirrdir. Dağlar yana-yana onu haraylayan səsə səs verəcəyi günə inanırıq. Çünki özündə heç vaxt əks-sədanı saxlamayan dağlar mətanətinə, vüqarına, etibarına da güman daha çoxdur. Ömürlüyündə bir əsri yarıda qoyan Səmayə xanım İsmayılovanın həzli səsi dağlar qoynunda çınaq sınağındadır.

*Arsız Aşıq elsiz niyə yaşadı?!*
*Ölsün Ələsgərtək qulların, dağlar!*

Hələ də çox çətinliklə özünü yaşadan İrəvan Dram Teatrı da öz eli, məskəni üçün narahat ömür sürür. Gün o gün olsun İrəvan Teatrının afişalarını yurdumuzda görək. Yenə həsrətlə gözləyək ki, Ərəbzəngisayağı "Oxuyur Səmayə İsmayılova"

*Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

*"Azərbaycan mədəniyyəti və incəsənəti"*
*22 aprel 2005-ci il*

# ƏLİNİN TEATR DÜNYASI

Onda balaca kənd uşağı idi. Şəhərdən gələn artistləri bir an da olsa uşaq marağıyla gözdən qoymur, onların hərəkətlərini, danışıqlarını, davranışlarını izləyir, arabir də həsrətlə içini çəkirdi... Yəni, doğrudan da elə gün olacaqmı o da beləcə artist olub, müxtəlif rollar ifa eləyəcəyik, indi özü boyda olan gələcək uşaqlar da ona matdım-matdım baxaraq və elə lap Əli kimi həsrətlə içlərini çəkəcəklər, artistlik xəyalında dolanacaqlar... Hələ axşam teatr tamaşası başlananda Əlini heç tanımaq olmazdı... Amma yox, onu evdən qoymazlar ki, gedib İrəvanda gavurların içində artistlik edə. Burdan bura hərdən-bir yolu rayon mərkəzinə düşəndə (özü də tək getmirdi ha...) balaca gavurlar ona əl-qol atar, təhqir etməkdən çəkinməzdilər. Onda da ola gedib yekələrinin içində yaşayıb-işləyə... Hər il İrəvan Dövlət Dram Teatrı rayonlara qastrol səfərinə çıxanda, o cümlədən Əlinin yaşadığı Spitak rayonundakı axar-baxarlı kəndə gələndə o balaca oğlan uzun müddət belə şirin arzulardan doymazdı...

...Gənc aktyor Əli Quliyev Bakıda İncəsənət Universitetinin dram kino aktyorluğu fakültəsini bitirib C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrına təyinat aldı. Diplomunu alıb şəhərə yox, birbaşa Amasiya rayonunda qastrol səfərində olan teatra yollandı. Teatr orada dramaturq Hidayətin "Məni qınamayın" tamaşasını oynayırdı. 1-2 gün tamaşalara baxanda sonra Əli hazırlıqsız səhnəyə çıxdı. Ona şəhər partiya komitəsinin nümayəndəsi rolu tapşırılmışdı.

Tamaşadan sonra hamı bu gənc oğlanı təbrik etdi. Gənc aktyor teatrın direktoru, şair-dramaturq Hidayətin də diqqətindən yayınmadı. Ona uğurlar dilədi. İndi o bu, düz 15 ildir ki, İrəvan Teatrının səhnəsində oynayır, indiyəcən də 50-yə yaxın rol ifa edib. Nə yorulur, nə usanır. Nə çətinlik, nə də zamanın zülmü onun sevgisinə toxuna bilmir. Əli öz teatr məhəbbətini hər oddan-alovdan, gülləhdən-qovhaqovdan qoruyur, ürəyini teatr dün-

yasına sipər edib. İnstitutda ona dərs deyən müəllimləri mərhum Adil İskəndərovun, Nəsir Sadıqzadənin dediklərini unutmur, hər ifasında onların ruhunu duyur, xatırlayır. "Oğul, səhnəyə müqəddəs bir məbədgah kimi yanaşmaq lazımdır" – tanınmış rejissor Nəsir Sadıqzadənin bu deyimini hər dəfə səhnəyə ayaq basanda sanki təzədən eşidir. Əli üçün səhnə özü bir sənətdir. Həm də insanları yüksəkliyə, ucalığa, şöhrətə aparan bir sənətdir. "Solğun çiçəklər", "Məhəbbət yaşayır hələ", "Ekizlər", "Ata-yevlər ailəsi", "Şabrumda dava-dalaş", "Mənim qayınanam", "13-cü sədr"... çox-çox tamaşalarda oynadığı hər obraz Əli Quliyevin dünyagörüşündə, daxilində bir yenilik oyadıb, onu səhnəyə daha səmimi, saf duyğularla bağlayıbdır. Əlini zaman nə qədər çətinliyə çəksə də, onu teatrdan – incəsənətdən ayıra bilmir. 9 ildir ki, qaçqın tale yaşayan aktyor Əli Quliyev qaçqın taleli İrəvan teatrında zamanın ağrısını bir yerdə çəkirlər. 1988-ci ildə mərhum aktyor Hamlet Xanızadə dəfələrlə deyərdi ki, Əlinin yaxşı səsi var, ondan hökmən istifadə etmək lazımdır. Əli də bir ara dəvət olunan yerlərə getdi. Kinostudiyada dublyor oldu, televiziyada bədii qiraətçi-aktyor kimi çıxışlar etdi. "Birdən hiss etdim ki, hardasa gördüyüm bu işlər xalturaçılığa gedən yoldur. Böyük səhnə aktyoru üçün bu yol çox çətindir. Teatr sənəti mənim üçün elə bir əlçatmaz zirvədir ki, ora baş qaldırıb baxmaq hər kişinin işi deyil". Bu Əlinin düşündükləridir. Əlini narahat edən digər məsələ də odur ki, onun fikrincə, teatr cəmiyyətdən çox geridə qalır. İndi milli mənafeyimizə o qədər xeyir verən problemlərimiz – ədəbi, dramaturci problemlərimiz var ki, onlar teatra, səhnəyə gəlmir.

Buna görə də teatr cəmiyyətdən çox geriyə qalır. Cəmiyyət çox sürətlə gedir. Biz isə arxayınca baxırıq ki, bu nədir? Başlayırıq tamam başqa mətləbdən tamaşaçını güldürməyə. Əksinə teatr bu gün cəmiyyəti qabaqlamalıdır. Teatr bir növ gələcək həyatımızın həm də yol göstərəni olmalıdır.

Əlinin düşündüklərində, fikirlərində böyük həqiqət var. O,

öz həqiqətiylə azadlıq mübarizəsində döyüşmək, çarpışmaq, qələbəyə yetmək arzusundadır. Gənclik ovqatından ayrılmayan, içindəki üsyankar mübarizliyi ilə sözünü demək bacarığı olan Əlinin həyat eşqi təmizdir. O öz saf dünyası ilə xoş tale yiyəsi olacağına da inanır. Çox şey isə İrəvan teatrının sabahından asılıdır. Əlinin səhnə qədər sevdiyi İrəvan teatrının taleyi onu çox düşündürür, özü da lap çox. Yaşamağa haqqı olan teatrı qorumaq, müdafiə etmək bir borc kimi içimizdə yaşamalıdır.

*"Xalq qəzeti"*
*3 avqust 1997-ci il*

## "SARIKÖYNƏK GÜNƏŞİ NECƏ GƏTİRDİ"

Gənc Tamaşaçılar Teatrında mərhum yazıçı Nəriman Süleymanovun oynanılan "Sarıköynək Günəşi necə gətirdi" adlı ikihissəli tamaşasının mövzusu müasir həyatımızın ziddiyyətlərindən, həmin ziddiyyətləri doğuran səbəblərdən götürülmüşdür və bu əsər, inanırıq ki, tamaşaçıların da ürəyincə olacaqdır.

Tamaşanın səhnə mətnini işləyib hazırlayan respublikamızın əməkdar artisti, rejissor Rafiq Hüseynova bildirdi ki, bu tamaşanın hazırlanması mərhum yazıçı Nəriman Süleymanovun oğlu, mənim dostum Elçinin xahişi və arzusu ilə olub. Bu istəyin izi ilə də yazıçının bütün əsərlərini bir daha diqqətlə oxudum. Sonra dramaturci səhnə əsəri hazırlaman üçün onun üç – "Sarıköynək Günəşi necə gətirdi", "Torpaq" və "Qar yağdı" hekayələrini götürdüm. Burada əsas məqsəd, əsas qayə nədən ibarətdir: Torpaqlarımızın işğal olunaraq əlimizdən getməsi öz günahlarımız ucbatından baş vermişdir.

Əsərdə qabarıq görünən ideya odur ki, bizim xalq ürəyini həmişə qonaq üçün süfrə tək açır. Təbii ki, qonaqlar bizdən ötrü əzizdir. Amma pyesdə deyildiyi kimi, qonağın da qonaq yeri var. Sarıköynək quşların içərisində elə bir quşdur ki, özünü qurban verməyi bacarır. Ona görə də Sarıköynək burada təkcə quşların başçısı yox, həm də quşların içərisindən çıxan qəhrəmandır. Öz sözünü deyə bilən quşdur. Qu quşu isə xarakterinə görə yeganə quşdur ki, öz yuvası, öz məkanı yoxdur.

O, hər yuvaya, özü də oxuyan quşların yuvasına yumurta qoyur, bala çıxarır və o yuvanın əzəlki sakinini yerindən qour. Əlbəttə, burada fikir aydındır ki, söhbət kimdən, nədən gedir. Və biz də ayıq olsaq, başa düşsən, özümüz öz taleyimizi həll edə bilərik. Pyes boyu əsasən bunu demək istəmişəm. Gənc Tamaşaçılar Teatrı gənclərin mənəvi təmizliyini, onların dünyasını təcəssüm etdirən bir teatr olduğundan əsəri bura təqdim etdim.

– Rafiq müəllim, tamaşanın ictimai baxış mərasiminə

məktəbliləri də dəvət etmisiniz. Yəqin bu ondandır ki, əsər əsasən uşaqlar üçün işlənmişdir. Hiss etdinizmi ki, tamaşa uşaqların zövqüncə, anlamınca alınmışdır?

– Bu məqamı yaxşı tutmusunuz. Məktəb uşaqları məhz o səbəbdən dəvət etdik ki, görək onlar tamaşanı necə qavrayırlar, necə qəbul edirlər. Fasilə zamanı tanıdığım uşaqlara, o cümlədən mərhum yazıçının 10 yaşlı nəvəsi Nərgizə yanaşdım. O dedi ki, biz doğrudan da qonağı çox sevirik. Amma qonaq adama pislik edəndə daha o, qonaq olmur, düşmən olur. Ancaq bilmədim ki, Nərgiz əsərdə verilən konkret düşmən obyektlərini başa düşübmü?

Tamaşanın quruluşçu rejissoru, respublikanın əməkdar artisti Rafiq Əliyev də öz fikrini oxucularımıza çatdırmaq istədi:

– Tamaşa boyu əsas xətt o olub ki, biz öz torpaqlarımızın, öz sərvətlərimizin, öz insanlarımızın qədrini bilməsək, torpağımız da viran qalar, ev-eşiklərimiz, yurd-yuvalarımız dağılar, insanlarımız da məhv olar. Biz bir-birimizin qədrini bilməliyik, özü də xoş günlərdə, daha dəhşətli günlərə düçar olandan sonra yox. O gözəlliyi, həyatı vaxtında qorumağı bacarmalıyıq. Ürəyimizcə aktyor heyəti toplaya bildim. Hamısı gənclərdir. Ramiz Sərkərov (Sarıköynək), Mehriban Abdullayeva (Haçaquyruq), Almaz Mustafayeva (qaratoyuq), Sevinc Rzayeva (yaşılbaş), Şəfəq Əliyeva (göyərçin), Elşən Rüstəmov (qarğa), Ramil Əzimov (Toplan), Sona Babayeva (qu quşu) rollarını – alleqorik obrazları layiqli səviyyədə oynaya bilirlər.

Tamaşanın rəssamı Sənan Qurbanov, bəstəkarı Vaqif Gərayzadə əsərin maraqlı alınması üçün işə yüksək peşəkarlıqla yanaşmışlar və uğurlu nəticə əldə olunmasına çalışıblar.

*"Xalq qəzeti"*
*1 mart 1997-ci il*

## DAVA QƏHRƏMANI – PARTIZAN İBRAHIM BAYRAMOV

1941-ci il davasında İbrahim Bayramov cəmi 20-21 yaşında idi. Gəncliyin çiçək açdığı, arzuların qönçələndiyi zamanlar – həmin illərə ömrün yaz çağı da deyilir. 1941-ci ilin ilk yay sabahı məşhur Levitanın radio ilə ağrı və ağır-ağır oxuduğu müharibə xəbəri bütün insanları sarsıtdı. Sovet İttifaqına Hitler Almaniyası müharibə elan etmədən hücum etmişdi. Sovetlər birliyində yaşayan bütün insanlar ayağa qaldırıldı. Vətən müdafiə olunmalıdır. Böyük Vətən müharibəsi başlanmışdı. Uşaqdan-böyüyə bütün sovet vətəndaşları səfərbərliyə alındı. Ön cəbhə və arxa cəbhə deyilən müdafiə səngərləri yaradıldı. Döyüş qabiliyyətinə yarayan hər kəs od-alovun – müharibənin içərilərinə getməli, qalan insanlar isə arxa cəbhədə qələbə üçün çalışmalıdır. Beləcə, gəncliyi, cavanlığı o illərə təsadüf edən bütün oğullar müharibəyə yollandılar. Bəlkə də indiyə qədər heç adlarını eşitmədikləri şəhəri, kəndi – Vətən adıyla müharibə od-alovundan xilas etməyə getdilər.

İbrahim Bayramov da Göyçədən Adriatik dənizi sahillərinəcən gedib çıxdı. O məsafənin heç nə qədər olduğunu, haracan gedəcəyini də bilmirdi. Döyüşdən-döyüşə, səngərdən-səngərə, şəhərdən-şəhərə irəliləyə-irəliləyə gəlib dəniz sahillərində faşistlərə qarşı vuruşurdu. Buralar ona bir az da doğma gəlirdi. Doğulduğu kənddə də dəniz (Göyçə gölü) hər gün gözünün qabağında idi. İndi döyüşdüyü bu kənddə – Çepovani də (Adriatik dənizi) sahil kəndi idi. Doğmalığın bir səbəbi də o idi ki, kənd əhalisi xeyirxah, səmimi, müharibə odunda bişən insanlar idilər. İbrahim Bayramov bu kəndə partizan dəstəsinin tərkibində gəlib çıxmışdı. Müharibə illərində Şimali İtaliya və Yuqoslaviyada faşistlərə qarşı partizan hərəkatı fəaliyyət göstərirdi. Sloveniyada – Adriatik dənizi sahillərində döyüşən partizanların içərisindən Sovet İttifaqı Qəhrəmanı Mehdi

Hüseynzadənin (əfsanəvi Mixaylo) adı hamımıza bəllidir, əzizdir. Mehdi Hüseynzadənin silahdaşı və komandiri Cavad Həkimlinin də adı (əslən Ləmbəli kəndindən) çoxlarımıza tanışdır.

İbrahim Bayramov da o dəstənin cəsur, hünərli oğullarından biri olub. O, əfsanəvi Mixaylo ilə bir səngərdə vuruşub. Eyni tapşırıqları həyata keçiriblər. Eyni planlar, eyni əməliyyatlar bütün dəstə üzvlərinə aid idi. Kim nəyi bacarırdısa həm öz həyatının, həm yoldaşlarının, həm kənd əhlinin həyatının xilası üçün edirdi. Mehdi Hüseynzadə, Cavad Həkimli, Cabbar Quliyev, İbrahim Bayramov, Rza Orucov, Mikayıl Qulubəyov, Pavel Len, Zakirov və başqaları... Onların Sloveniyadakı şücaətləri dillərdən düşmürdü. Faşistlərə uğurlu zərbələr endirirdilər.

1945-ci ilə – davanın son gününəcən o, vuruşdu. Evə – kəndə igid oğul kimi qayıtdı. Onun qismətində müharibə ölümü yazılmamışdı. SSRİ-nin qələbəsi ilə başa çatan bu müharibədə 50 milyon insan həyatı məhv oldu. Bunun 20 milyon nəfəri SSRİ-nin payına düşmüşdü. Azərbaycandan 600 min nəfər müharibəyə getmişdi. Onlardan düz yarısı qayıtmadı.

İbrahim Bayramov hündürboylu, enlikürək, ağır təbiətli, gülərüzlü, ağayana yerişi-duruşu olan sadə və səmimi insan idi. Müharibənin ağır, dəhşətli üzünü görmüş bu şəxs öz dünyagörüşü ilə də fərqlənər, seçilərdi. Doğulduğu Kəsəmən kəndində onu "İbrahim əmi" deyə tanıyar, hörmət edərdilər, hamı onun dava iştirakçısı, Mixaylonun cəbhədaşı olduğunu da bilirdi.

Amma o bütün bunlara çox sadə bir şey kimi yanaşar, öyünməz, qəhrəmanlıq, şücaətlik xatirələrindən tək-tək vaxtlardan danışardı. Təbiətən belə insan idi. Müharibənin yubiley günlərində o da başqaları kimi digər iştirakçıların söhbətlərinə qulaq asır, heyranlığını bildirərdi. Onun yaşadığı ömür ibrətəmiz, mənalı bir həyat olub.

Cəbhədaşı və komandiri Cavad Həkimlinin "İntiqam" romanında (1963) həmin partizan hərəkatının qəhrəmanlıq-

larından söhbət açılıb. Müəllif müharibədə gördükləri dəhşətləri, ölümlə nəticələnə bilən planları, tapşırıqları necə yerinə yetirdiklərini və s. qələmə alıb. İbrahim  Bayramovun da adı, gördüyü işlər, fəaliyyəti o əsərdə dönə-dönə xatırlanır. Kənddə o kişiyə həm də kitab qəhrəmanı kimi baxar, fəxr edərdilər. Döşündə sıra ilə düzülmüş orden və medallarına qürurla baxardılar.  İbrahim Bayramov ata kimi ləyaqətli, layiqli övladlar böyüdüb.

Ötən il İbrahim Bayramov dünyasını dəyişdi. Ömrünün 84-cü baharında bu dünyadan əbədiyyətə köç etdi. Özü getdi, amma nurani siması, qəhrəmana layiq əməlləri, xeyirxahlığı ilə onu tanıyanların qəlbində işıq kimi yaşayacaqdır.

2005

## DƏRDİMİ SAZA DEDİM

## SAZA DA OD DÜŞDÜ

*Aşıq, telli saz götür,*
*Olub keçəndən danış.*
*Dostunu düşmənindən,*
*Ayırıb seçəndən danış.*

*Koroğlu nə'rəsindən,*
*Kərəmin naləsindən,*
*Məhəbbət badəsindən,*
*Şərbət içəndən danış.*

*Bəy gəlinin solunda, .*
*Qolu zərif qolunda,*
*Ülvi, yarın yolunda,*
*Candan keçəndən danış.*

***1984***

## DƏDƏ ƏLƏSGƏR ÜNLÜ BIR QƏRINƏLIK XATIRƏLƏRƏ DALINCA...

Göyçə nəfəsli səmimi duyğulara dolub mübarək Novruz bayramı günlərində – 184 il bundan əvvəl bir Novruz axşamında dünyaya göz açan Dədə Ələsgəri anmağım mənəvi ehtiyacdan yarandı. Dədə Ələsgər adına toplanmış xudmani bir məclisdəyik. Bəlkə də bu məclisdə 1988-ci ildən bəri olan ömrümün çox-çox şirin anlarını yaşayıram. Qaçqınlıq həyatı, el-yurd itkisi, doğulduğum ata ocağında erməni hənirtiləri, canında səngiməyən dağlar-daşlar göynəmi... ağır yaşantılardır sıyrılıb şirin anlara dalmaq qəriblikdən doğur. Kədər zirvəsində sevinc duymaq özü həyatın davamıdır. Sabah yaşantımıza inamdır, sabah arzularımıza qovuşacağımıza ümiddir, çıraqdır. Bu məclis Ələsgər nəğməli Göyçə imiş, saz nəfəsli xoş məqamlarından biridir. Dədə Ələsgər məclisində bir qərinə – 33 il bundan əvvəlki günlərimiz istər-istəməz gözümə-könlümə doldu.

...Onda uşaqdıq. 10-12 yaşımız vardı. Məktəbdə, bütün siniflərdə elan olundu ki, yayda – iyunun 9-da Aşıq Ələsgərin 150 illiyi bayram kimi qeyd ediləcək. Bu tədbirə SSRİ-nin hər yerindən, o cümlədən Azərbaycandan çoxlu qonaqlar gələcəklər. Azərbaycandan ədəbiyyat, incəsənət, elm xadimlərinin Göyçəyə gəlməsi isə tam yəqinləşmişdi. Məktəbdə hamıya elan olundu ki, kim Aşıq Ələsgərdən 2-3 şeir əzbər bilsə, o da  Ağkilsə kəndinə – ustadın kəndinə həmin şənlikdə iştirak etmək üçün gedəcək. Bütün məktəb uşaqları arasında xəlvəti bir rəqabət – şeir meydanı yarandı və beləcə hər kəs Ələsgəri bütünlüklə əzbərlədi. O günlər hamının, hamının dodaqlarında Ələsgərin misraları idi. Onda da, indi də tam səmimiyyətlə etiraf edirəm ki, burada bir istək, bir arzu Dədə Ələsgər bayramında iştirak etmək idisə, ikinci eyni dərəcədə olan istək, maraq, arzu Azərbaycandan, Azərbaycan torpağından ayaq götürüb gələn qonaqların, doğmaların Göyçədə üzünü görmək, səslərini eşitmək,

nəfəslərini duymaq idi. İndi də o məqamı xatırlayanda həmin həyəcanı az qala uşaq sevinciylə yaşayıram.

Bir şey də xatirimdən çıxmır. Bir dəfə qəfildən hamının gözünə bir şübhə çökdü ki, birdən ermənilər bu tədbiri pozarlar. Qarma-qarışıqlıq edərlər. Amma sonra sakit bir inam bütün şəkk-şübhələri, dedi-qoduları qırıb atdı. Həmin inam belə idi. Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının I katibi H.Əliyev Fərman verib. Həmin Fərmana görə Ələsgər bayramı daha geniş miqyasda keçirilir. Bütün kəndlərdə, rayonlarda, o cümlədən ustadın doğulduğu, yaşadığı Göyçədə, Yerevanda, Bakıda, nəhayət Moskvada keçiriləcək və bu işə birbaşa o kişi özü rəhbərlik edir. Ermənin həddi nə idi ki, Əliyevin sözünün qabağında oyun oynaya, iş görə. Və əslində bu həqiqət o qorxunu hamının ürəyindən çıxarıb atdı. Yubiley gecəsində də uşaqdan-böyüyə hamı iştirak etdi, şeir dedi, oxudular, oynadılar, böyük bir el bayramı idi. Qayıdaydı o Göyçəli günlərimiz.

*Adım Ələsgərdi, Göyçə mahalım,*
*Dolanım başına, mən dərdin alım.*
*Hüsnün şöləsinə xəstə xəyalım*
*Pərvanədi, şəmistanlar dolanır.*

Dədə Qorquddan irəli yaşı olan Göyçə əzəldən saz-söz beşiyi olub, ilk türk ocağı olub. Türk kökümüzə-soyumuza xas olan bütün adət-ənənələr, ən adi etnoqrafik detallar belə Göyçənin dağıldığı günəcən o obada yaşayırdı. Dədə Ələsgərdən çox-çox qabaq o torpaqda məşhur ozanlar, aşıqlar yetişib... Ozan Heydər, Ozan Cəlil, Ozan İbrahim, Miskin Abdal, Şımpırlı Sevgili...

Min dəfə acı təəssüf ki, indi Ələsgər günlərimizi Ələsgər, bayramımızı Göyçədən uzaqda, əziz, doğma Bakıda qeyd edirik. O vaxt Bakıdan, Azərbaycandan gələnlər Göyçədə bizim üçün necə şirin, istəkli görünürdüsə, indi Bakıda, bu məclisdə Göyçə əhli, didərgin Göyçə camaatı ilə görüşərkən bir o qədər üzüntü,

nigarançılıq, kövrək hisslər keçiririk. Eldən ayrı ürəyincə bayram keçirmək mümkündürmü? Bu fikirlər dolaşığında çözələnsək də, milli ədəbiyyatımızın inkişafı, Azərbaycan aşıq sənətinin genişlənməsi, ustad xatirəsinin əzizliyi, Ələsgər ruhunun müqəddəsliyi naminə bu gecəyə toplaşmağımız vacibdir, zəruridir. Mənəvi ehtiyac, mənəvi həsrət duyğularımız çox sirli, sehrli qapılar açmağa qadirdir. Ələsgər adlı bu gecələr itirilmiş yurdun xatirə anımıdır. İtirilmiş obalarımızı müdafiəyə qalxmağımız üçün çağırış fürsətidir. Əslində bu gecələr, bu görüş gecələrimiz içimizdə dəli kimi dolanan yurd ayrılığının unudulmazlığıdır. Göyçəsiz Ələsgərin nə yaraşığı, Göyçəsiz Ələsgərin nə bayramı. Dədə Ələsgər özü "heç demirsən, Ələsgərim hardadır?" – deyə göynər. Ay dolanacaq, il ötəcək. Amma Aşıq Ələsgər nişangahlı Göyçə içimizdə göynəyəcək, ta o yurdun torpağına ayağımız dəyincə, gözlərimizin nəmini Göyçə gölünün suyu ilə yuyunca.

Aşıq Ələsgər özü də vaxtilə yurd itkisi çəkib. Amma sazın gücünə, sazın qüdrətinə inanıb o yurda qayıtmaq məqamını gözləyib. Aşığın nəvəsi hörmətli İslam müəllim deyir ki, 1918-ci ildə ustad elindən didərgin düşüb. Binə tutduğu yerdə ağır xəstə olub. Allah vergili 97 yaşlı aşıq Allahdan ömür möhləti istəyib, yurduna dönüncə ömür macalı istəyib. Allah bu səsi eşidir. Aşığa daha 8 il ömür verir, yurduna qayıdır. Və bir Novruz ərəfəsi sübhçağı ömrə vida deyir.

*Sağ əlində qızıl şanə sevdiyim,*
*Darar saçın tökər bu dala bax, bax.*
*Bülbül həsrət qalıb gül qönçəsinə,*
*Nalə çəkir qopar bu dala bax, bax.*

Yurd həsrəti, Göyçə nisgili ürəyimizdən qoy Göyçədə, öz torpaqlarımızda silinsin

## HEÇ DEMIRSƏN, ƏLƏSGƏRIM HARDADI...

### 1 – ci yazı

Ustadlar ustadı Dədə Ələsgər 1821-ci ilin Novruz bayramı günlərində ulu Göyçə mahalının Ağkilsə kənində şair təbli Alməmməd kişinin ocağında dünyaya gəlmişdir. Ələsgər bu ailənin ilk övladı olduğundan ata-anasına özü boyda da işıq, nur, sevinc bəxş etmişdi. Sonralar Alməmmədin daha üç oğlu və iki qızı anadan olmuşdur. Ailənin ilki Ələsgər doğulduğu kənddə - Kərbalayi Qurbanın yanında işləməyə başlayır. Bu iş onun həyatında yeni səhifələr açmışdır. O, Kərbalayinin yeganə övladı - qızı Səhnəbanuya aşiq olur. İllər ötür, lakin bu aşiqlik sevdası baş tutmur.Beş illik zəhmətdən sonra Ələsgər atasının yanına peşiman qayıdır.

Alməmməd kişi şeir ovqatlı olduğundan Ələsgərin şairlik qabiliyyətini hiss edir və ona daim təsir edir ki, o, bu istedadını bütünlüklə üzə çıxarsın. Ələsgərin şeirləri çox az zaman içərisində eldən-elə, obadan-obaya yayılır. Sinədən deyilmiş şeirlər elə ilk deyimdəcə əzbərlənir. Atasının aldığı saz da Ələsgərin döşünə tez yatır, barmaqlarına təslim olur. Alməmməd kişi oğlunu o mahalda ad-sanıyla tanınan Qızılvəngli ustad Aşıq Alıya şəyird verir. Ələsgər ustaya beş il qulluq etdikdən sonra ustadının razılığıylı müstəqil aşıqlığa başlayır. Ustad yanından ayrılanda Aşıq Ələsgər artıq saz-söz bilicisi kimi sevilirdi, tanınırdı. O zamanlar Göyçədə el-oba, toy şənliklərindən savayı aşıqların deyişmə məclisləri, dastan söyləmə gecələri də keçirilərmiş. Ustadlar belə məclislərdə meydan sulayarmışlar. Deyilənlərə, yazılanlara görə, Ələsgər ustadı Aşıq Alını belə məclislərin birində bağlayır. Lakin hələ ustadının yanında sazın sirli-sehrli dünyasına bələd olunca, klassik aşıq poeziyasını, saz havalarını öyrəndikcə, mərifət, ədəb-ərkan elminə, ustada hörmət-izzət dərsinə də yiyələnmişdi. Bunu xatırlamaqda məqsədim odur

ki, o, ustadı Aşıq Alını özünü təsdiq etmək üçün bağlamayıb. Əvvəla, bu deyişmə ustadların deyişmə məclisində aşıqların təklifi ilə lub, ikincisi də arada-bərədə gəzən söz-söhbətlər (guya Aşıq Ələsgər Aşıq Alını daha bəyənmədiyi deyirmiş) Aşıq Alını bu görüşə təhrik edib. Qızılbulaqda qurulmuş aşıqlar məclisində onlar üz-üzə gəlir. Bir neçə şeirləşmədən sonra Aşıq Ələsgər "A yağa-yağa" dodaqdəyməz təc-nisini deyir. Ustad məğlub olur, cavab tapa bilmir. Ancaq Aşıq Ələsgər bu hadisədən qürrələnmir, əksinə-

*Bir şəyird ki, ustadına kəm baxar,*
*Onun gözlərinə ağ damar, damar.*

- deyən ustadından üzr istəyib, bədahətən bir xeyli şeir söyləyib, məclisin ab-havasını təzələyir.

Aşıq Ələsgərin səsi-sorağı beləcə hər yana çaparsız-filansız yayılır. "Haqq aşığı", "Haqq vergili aşıq" kimi Gəncəyə, Qarabağa, İrəvana, Naxçıvana, Qazaxa, Borçalıya, Şınıxa … toy məclislərinə, dastan gecələrinə dəvətlər alır. Ustad aşıq kimi - tanınmış insanlar övladlarını ona şəyird verirlər. Aşıq Ələsgər isə hər qarı açanı şəyird götürməzmiş, qabiliyyətinə, fəhminə, mərifətinə, ədəb-ərkanına qiymət verib seçərmiş.

*Adım Ələsgərdi, mərdi mərdana,*
*On iki şəyirdim işlər hər yana.*

- deyən ustad xeyli aşıqlar yetişdirib araya çıxarır. Adıyla qəbul etdiyi şəyirdini Aşıq adını qazanınca saxlarmış "Yoluna uğurlar" - deyib yola salarmış. Göyçədə sonralar məşhur olan aşıqların çoxu - Aşıq Nəcəf, Aşıq Mustafa, Aşıq Yusif, Aşıq Hüseynalı, Aşıq İsə, Aşıq Nağı, Aşıq Qurban, Aşıq İman .... və başqaları onun yetirmələri olublar.

Aşıq Ələsgər məşhur el sənətkarı olsa da ilk eşqi sinəsində düyünlənib qalır. Nəhayət, 41 yaşında o, Kəlbəcərin Yanşaq kəndindən Anaxanım adlı bir qızla evlənir. Böyük bir ailənin başçısına çevrilir. Onun övladları da eldə-obada ədəb-ərkanları ilə sayılıb-seçilən olurlar.

" Qeyri-adi istedadı, zəngin biliyi olan Ələsgər həm də mahir ifaçı aşıq olub. Sazı sol əliylə çalarmış. Ağır duruşmu, şirin nəfəsi, məlahətli səsi varmış. "Aşığın oğlu Aşıq Talıbın təsvirinə görə, Aşıq Ələsgər ucaboylu, enlikürək, sağlam bədənli, pəhləvan cüssəli, qarayanız, qalın çatmaqaşları, qara gözləri, dolu sifəti varmış. Başını ülgüclə qırxdırar, üzündə xətt saxlarmış. Əyninə uzunətəkli arxalıq, üstündən çuxa, ayağınna məst geyərmiş, uzunsov Buxara papağı, belinə göy şaldan qurşaq bağlarmış".

Professor Qara Namazovun tədqiqatına görə, XIX əsrin 50-ci illərində rus mətbuatında bir yazı dərc olunub: "Ələsgər adlı bir aşığın ifaçılıq məharəti haqqında rus şairi və jurnalisti Y. N. Polonski Tiflisdə yaşadığı illərdə (1840-1850) onun keçirdiyi şənlik məclisinin iştirakçısı olduğunu "Kavkaz" qəzetinin 1851-ci il birinci nömrəsində dərc etdirdiyi məqalədə qeyd etmişdir".

Ellər-obalar dolaşan, məclislər quran haqq vergili ustad bütün sözlərini bədahətən deyərmiş. Klassikləri əzbərdən bilərmiş. Sinədəftər ustaddan bu gün əlimizə nə yetib. Tədqiqatçıların qeydlərinə söykənib deyə bilərik ki, onun cəmi 242 şeiri əlimizdədir - 144 qoşma, 33 təcnis, 29 müxəmməs, 17 gəraylı, 12 divani, 2 qəzəl, müstəzad (ayaqlı) qoşma,müstəzad (ayaqlı) təcnis, dildönməz gəraylı və mərsiyə formalı şeirlərin hərəsindən bir nümunə vardır. Sinəsi dəryalarca dolu aşığın bizə yetən bu əsərləri hələ çox-çox illər tədqiqatçıların diqqətini cəlb edəcəkdir. Bu şeirlərin dərin anlamına alimlər - filosofar, dinşünaslar dönə-dönə nüfuz edəcəkər. Dərsliklər vasitəsilə hər gələcək nəsil yeni bir məna kəşf edəcəkdir. Ələsgər dünyasının möcüzəsi budur.

Aşıq Ələsgər 1915-ci ilə - 94 yaşına kimi saz çalıb. Lakin ailədə baş vermiş bir hadisə - qızı Gülnisənin əri, qardaşı Salahın oğlu Aşıq Qurbanın vəfatı aşığı sazı yerə qoymağa vadar edib. Şəyirdi olmuş bu aşığı o çox istədiyindən onun qəfləti ölümü ürəyini yaralayır. Sonrakı illərdə dalbadal baş verən üzüntülü hadisələr onu daha da ruhdan salır.

Aşıq Ələsgər irsi ölümündən bir neçə il sonra tədqiqatçıların

diqqətini cəlb etmişdir. Ən əvvəl qeyd edim ki, Sovet hökuməti qurulandan sonra aşıq dövlət tərəfindən İrəvana dəvət olunur. Lakin o, daha qocaldığını deyərək bu təklifi qəbul etmir.

Aşıq Ələsgərin şeirlərini ilk dəfə tanınmış folklorçu Hümmət Əlizadə toplayıb 1934, 1935 və 1937-ci illərdə "Aşıq Ələsgər" adı ilə şeir kitablarını çap etdirmişdir.Aşığın 1956,1963, 1972,1987 və 1988 –ci illərdə nəşr olunmuş kitablarının toplayanı və çapa hazırlayanı isə folkloru alim,aşığın nəvəsi İslam Ələsgərdir. Qeyd edim ki, tədqiqatçı bu yöndə axtarışlarını hələ də davam etdirir. Son illərdə çap etdirdiyi "Haqq aşığı Ələsgər" monoqrafiyası isə onun xüsusi zəhmətin bəhrəsidir. Aşıq Ələsgər ədəbi irsinə bütün ədəbiyyatşünas alimlərimiz dönə-dönə müraciət edib və öz səmimi, heyrətamiz hisslərini bildiriblər.

"Aşıq Ələsgər savadsız, yazıb - oxumağı bacarmayan aşıq olubdur". Az qala Aşıq Ələsgər adına möhürlənmiş bu fikrin doğruluğuna inanmaq ehtimalı çox-çox azdır. Ələsgərin şeir dünyasına - elminə, idrakına, fəlsəfəsinə, fikir və düşüncələrinə ədəb-ərkanına bələd olduqca bu ehtimalın nə qədər yanlış, həqiqətdən çox-çox uzuq olduğu görünür. Aşığın "savadsızlığını" təsdiq üçün bu misraları –

*Yazıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım*

və ya

*Huş başımdan gedib yoxdu savadım,*
*Sözlə mətləb yazmaq deyil muradım*

əsas götürülsə, onda gərək

*Şəyirdlikdə can çürütdüm,*
*Hərgiz ustad olmadım*

sözlərinə də söykənib deyək ki, o, ömrü boyu şəyirdlikdən ustadlığa yetə bilməyib. Halbuki ustadlar ustadı Aşıq Ələsgər "hikmət məclisində əyləşən alim"ə üz tutub -

*Farsiyyət bilirsən, şeiri - qəzəl de,*
*Ərəbxansan, gəl, qurandan danışaq.*

deyə meydan sulayıb -

*İbtida "əlif"dən dərsimi aldım,*
*Oxudum, yetişdim ay sinə, sinə*

və ya

*Bir sazım var, yox pərdəsi, nə simi*
*Onu çalıb, kim tərpədər nə simi?*
*Firdovsi, Fizuli, Hafiz, Nəsimi*
*Onlar da yazdığı ayə məşdədir.*

- misraları bəs edər ki, aşığın savadı olması haqda fikir söyləyək. "Əlifdən dərs aldım, əbcəd oxudum" - deyən aşıq üz tutub hikmət məclisində "Dərsi azlar Ələsgərdən dərs alsın" - deməsi təsadüfi hal deyil. Bütün bunların - yəni aşığın əlyazmalarının olmamasının bir səbəbi də məlumdur. O yəqinliyi də bədabətən şeir demək istedadı olan ustad özü açır ki, "sözlə mətləb yazmaq deyil muradım". Bizə yetən 5000 misralıq ədəbdi irsində onun savadlı olması,yazıb - oxumağı bacarması faktını açan çox misallar göstərmək olar. Dünya elmindən, Quranın minbir anlamından xəbərdar olan, Firdovsi, Nizami, Hafiz, Cami, Nəcimi, Füzuli, Vaqif, Zakir, Abbas Tufarqanlı, Qurbanı... ədəbi irsinə bələd olan, onlardan faydalandığını dilinə gətirən ustadın savadsızlığı ağ yalana daha yaxındır.

Aşıq Ələsgər irsini toplayıb nəşr etdirən tanınmış folklorçu alimlər - Hümmət Əlizadə və Əhliman Axundov, Osman Sarıvəlli, M. Təhmasib, İslam Ələsgər, B.Nəbiyev... bu fikri yazılarında qeyd etsələr də, inandırıcı olmadığını da deyiblər. İslam Ələsgər son yazılarında qeyd edir ki, "Əlif- lam" şeirinə, eləcə də ərəb-fars izahat tərkiblərinin böyük sənətkarlıqla işlədilməsinə fikir verəndə doğrudan da Aşığın savadlı olduğuna, hətta ərəb və fars dillərində təhsil gördüyünə şüdhə etmək istəmirik.

Aşığın yaradıcılığından danışarkən bu məsələnin üstündə ətraflı dayanmağımızın əsas səbəblərindən biri də budur ki, saz-söz xiridarı, ustadlar ustadı sənətkarın ömürlüyündəki bu yanlış kölgə götürülsün.

Şeirlərini oxuduqca onun dərin zəkasına, ilahi elminə, aydın təfəkkürünlə heyran qalırsan. Ustad demişkən, oxucu bir hovur nəfəs alsın deyə -

*Doymaq olmur işvəsindən, nazından,*
*Fərə kəklik kimi xoş avazından.*
*Yel əsdi, ürbəndi atdı üzündən,*
*Elə bildim doğdu Ay, sarı köynək.*

- misralarını su kimi ürəyimizə səpək.

Aşıq Ələsgər yaradıcılığında gözəlləri vəsf eləmək, onların şəninə söz demək xüsusi yer tutur. Bu misralar o qədər gözəl, səmimi, axıcı, şeiriyyət o qədər güclüdür ki, oxucu onu bir nəfəsə içinə çəkir. Gözəllərə üz tutub yazdığı şeirlərini oxuduqca sanki öz-özünə musiqi səslənir. Təsadüfi deyil ki, aşıqların sazla ifasından başqa bəstəkarlar da onun yaradıcılığına üz tutmuşlar. Tanınmış bəstəkar Hacı Xanməmmədovun bir silsilə mahnılarını yada salmaq yerinə düşər. "Sarıköynək", "Güləndam", "Güllü", "Keçdi", "Üzün məndən niyə döndü", "Ceyran", "Xoş gəldin", "Telli", "Dolansın", "Dolana", "Düşdü", "Salatın", "Dağlar" və s. qoşma və gəraylılarına yazılan mahnılar könlü xalq musiqisinə məlhəm insanların zümzüməsindən əskik olmur.

Aşıq Ələsgər el şənliklərini, el məclislərini aparan, ustadların deyişmə məclislərinin başında görünən aşıqlardan olub. Gözəllərə söz qoşmaq da o məclislərdə bir yarpaq qol sırasından imiş. Ustadın söz qoşduğu gözəllər müasirləridir.

*Ağ buxağın işıqlıdı büllurdan,*
*Ləblərin innabı, dəhanın dürdən.*
*Yaradan xəlq edib bir qətrə nurdan,*
*Düşübsən ellərə nişana, Telli.*

Aşığın qadın gözəlliyini sənətkarcasına qələmə almasıyla sanki gözəlliklər kəhkəşanında dolanırsan. Vəsf-aydın, tərənnüm yerli-yerində, hisslər səmimi olanda şeiriyyət də gözəl görünür. O şeirləri oxuduqca hiss edirsən ki, aşığın saz-söz məclisində olduğunu duyan gözəl ya ani olaraq məclisdə görünüb, ya yolda -

izdə dayanan aşığın nəzərini çarpmaq üçün səhəng götürüb bulaq başına enib, ya da el-oba toylarında aşığın könlünə qonmaq üçün qol götürüb oynamaqdan yorulmayıb. Sərraf şair qəlbi bu "təsadüfi görüntüləri" yerindəcə duyub və bədahətən qoşdügü dillər əzbərinə çevrilmiş şeirlərini - qoşmalarını deyib.

Aşıq Ələsgərin şeirlərinin hər birində bir rəssam, musiqi duyumu, memar zərifliyi, söz sərrafı qüdrəti görünür. Ölməz, klassik ədəbi nümunələrdir. Dillər əzbəri Göyçə gözəli Həcər xanıma xitabən dediyi -

*Həcər xanım, qaşın, gözün təhrində*
*Xətt yazsam, Quranda ayə düşərmi?*

- misralarındakı bənzətmə nə qədər gözəl, nə qədər saf, səmimi hisslərdən yoğrulub. Bu sətirlər həm gözəlin gözəlliyini söz nizamına düzmək məqamı var, həm də ustadın ərəb əlifbasını yaza bilmək qabiliyyəti görünür. Xəttatlıq elminə bələdçiliyi bu hikməti onda doğurub.

Aşıq Ələsgər yaradıcılığının bir qolunu da onun təbiət gözəlliklərinə vurğunluğu, təbiət aşiqi olması, təbiəti tərənnüm hissləri təşkil edir.Xüsusən dağlara söz qoşması bir ayrı aləmdir. Ustad sinəsindən qaynayan çeşmədir. "Şahdağı"müxəmməsindəki

*Mən gəzmişəm Qafqazyanı,*
*Haqq səni bir xəlq eləyib.*
*Ağrı dağı nadişahdı,*
*Səni vəzir xəlq eləyib.*
*Çiçəklərin kimyədi,*
*Daşını dürr xəlq eləyib.*
*Boyun minadan çəkilib,*
*Sərin pir xəq eləyib.*
*Muroy, Muşoy, Murğuz, Kəpəz*
*Olmaz yamağın, Şah dağı!*

Göyçə Kiçik Qafqaz sıra dağlarının ətəklərində sıralanan Şahdağının qoynunda yerləşib. Yayda yaylaq, qışda zimistan ovqatı ilə insanı heyrətə gətirən Şahdağının gözəllikləri aşığı

riqqətləndirməyə bilməzdi. Qoynunda böyüyən, örüşünə qoyun-quzu haylayan, çeşməli suyundan ovuclayıb içən, minbir dərdə dərman otundan-çiçəyindən ovsunan Dədə ulu sözünü, nəğməsini də ondan Şahdağından əsirgəməyib. Aşıqların məclislərdə oxuduğu bir neçə "Dağlar" qoşmaları bədahətən deyildiyi gündən dillər əzbəridir. İslam Ələsgər qeyd edir ki, "Səməd Vurğunla Aşıq Şəmşirin İstisudakı görüşünün iştirakçısı Aşıq Nəcəf öz xatirəsində söyləyir. "Aşıqlar Səməd Vurğunun xahişi ilə Aşıq Ələsgərin "Dağlar" sözünü oxuyurdu... Aşıq bu sözü qurtarandan sonra Səməd Vurğunun "Dağlar" sözünü oxumağa başladı. Səməd Vurğun buna etiraz edib deyir ki, "Aşıq qardaş, Ələsgərin "Dağlar"ından sonra ayrı "Dağlar" sözü oxumazlar… . Düzdür, biz də yazırıq, amma elə olur ki, dörd misra yazanda bəzən ikisi xoşumuza gəlmir, pozub özgə misra yazırıq. İndiki şairlər nə yazsa, elmin gücünə yazır. Bizim şairlərimizin yazdıqları yerin dərin qatlarından güclə çıxarılmış artezian suyuna, Ələsgərin şeirləri isə o dağların sinəsindən təbii qaynayan bulaqlara bənzəyir. Mən onun qoşmalarının bədahətən yaradıcılığına heç bir şübhə etmirəm. Onunku haqq vergisidir".

*Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

Dağlar əzəmətini,vüqarını, mərdanəliyini bundan uca mənaya düzmək çətindir. – su kimi axan misralar elə çeşmətək qaynayır. Təbiətin ilahi gözəlliyi ustad aşıqlar könlünü valeh edib, sözünə hakim kəsilib. Göyçə mahalı Aşıq Ələsgər yaşadığı dövrdə çar Rusiyasının – Nikolayın tabeçiliyində olub. Rus imperiya siyasətinə uyğun olaraq ucqar əyalət kimi burada hərc-mərclik, özbaşınalıq, pristavın dözülməz əmrləri insanları cana doyururmuş. Elm, təhsil az qala bütünlüklə arxada qalıbmış. Daha çox mədrəsə, məsciddə molla, axund yanında oxumaq mümkün olurmuş. Belə təhsil formaları da qalırmış mollaların insafına.

Aşıq Ələsgər, Allaha, dinə-imana pənah aparan aşıq olub. "Kəbə-qibləm, dinim - Məhəmməd dini" – deyən ustadın dini

baxışları çürük mövhumata, insanları mənən əzən mollalara yox, Allah kəlamına – Qurani Kərimə söykənib. O, haqq aşığı, haqq vergisi olduğundan din elminin böyüklüyünə, əzəmətinə, gücünə də bələddir. Onun dini dünyagörüşünü folklorçu alim Hüseyn İsmayılov "Göyçə aşıq mühiti. Təşəkkülü və inkişaf yolları" monoqrafiyasında olduqca aydın və geniş məzmunda təhlil etmişdir. "Ələsgər sözü haqq sözüdür. Ələsgər elmi Həzrət Əlinin elmidir. Birbaşa Tanrının verdiyi elmdir. Ələsgər bu elmə yetmək üçün "rizq üçün əhli-bəqa, əhli-fənanın çakəriliyindən keçib. Ona görə də Ələsgərə İnsanın, dünyanın və kainatın sirləri bəllidir.

*Yerin, göyün, ərşin, kürsün, insanın*
*Künhü, bünövrəsi ay nədən oldu?*
*Yeri göydən, göyü yerdən kim açdı?*
*Hikmətin dəryası ay nədən oldu?*

Haqq aşiqi kimi Ələsgər "həqiqətdən dərs alır". Tanrı dərgahında – Ələstə, ruh səviyyəsində - Tanrıya "bəli" deyir.

Dədə Ələsgərin dini mövzulu xeyli ədəbi nümunələri əlimizdə vardır. Azərbaycan müstəqil dövlət olandan, eləcə də dini azadlıq əldə ediləndən sonra aşığın nəvəsi İslam Ələsgər bu şeirləri aşkara çıxardı. Ələsgər dini elmin insanlara göstərdiyi həqiqət, haqq-ədalət yolundan, mərfətdən, ata-anaya keçmişinə məhəbbətdən, hörmət-izzətdən dünyanın bu yönlü fəlsəfəsini aydın məna-məntiqə söykəyərək həmin şeirlərində açmışdır. Dini məqamla bizə yetmiş Allah kəlamında – Qurani Kərimdə dünyanın hər üzünü, hər hikmətini, hər sirrini oxumaq mümkündür. Gərəkdir ki, qəlbində Allah eşqi, Allah nuru yer tutsun. Budur Ələsgər elmi, Ələsgər dərsi.

Dədə Ələsgər şeirlərində yaşadığı dövrün ictimai-siyasi ab-havası olduğu kimi öz əksini tapmışdır. Çarın əlaltıları olan – qəza, quberniya başçılarının xalqı əzməsi, onlara zülm etməsi, eləcə də digər tərəfdən ermənilərin vəhşi hücumları, ev-eşikləri, yandırması, insanları yer-yurdlarından didərgin etməsi faktlarını bütünlüklə o, öz şeirlərində qələmə almışdır.

*Necə oldu Serbiya, Çornoqoriya?!*
*Əl-ayaq altında itdi İtaliya.*

– göründüyü kimi dünya hadisələrindən belə xəbərdar olan aşıq yer üzündə haqsızlıqları, narahatılıqları, zülmü qələmə almışdır.

Aşıq Ələsgər yaşadığı bir əsrdən artıq ömründə erməni zülmüylə də çox rastlaşmışdı. 1918-ci ildə ermənilər növbəti dəfə yenidən hücumlara, talanlara, yanğınlara başlayıblar. Əhalini qorxudub kəndlərdən çıxarmaq üçün igid-igid oğlanlara zülm verərək öldürüblər. Belə bir dövrdə bütün kənd əhli kimi Ələsgər də öz ailəsini qonşu Kəlbəcərin Qanlıkəndində yerləşdirir. Artıq yaşı yüzü haqlamış aşıq Allahdan möhnət-ömür möhnəti istəyir. Yurdunda - doğulduğu kəndində torpağa qovuşmaq istəyini Allah qəbul edir. 1921-ci ailəsi ilə birgə doğulduğu Agkilsə kəndinə qayıdır. Bir il sonra arvadı Anaxanım ana, 1926-cı ildə isə özü dünyasını dəyişir. 105 yaşlı Dədə Ələsgər Ağkilsə qəbiristanlığında dəfn olunur.1972-ci ildə ustad aşığın 150 illik yubileyi keçiriləndə qəbrüstü abidəsi qoyuldu. Onda biz məktəbli idik. Hərəmizə bir qərənfil vermişdilər ki, tədbirin sonunda şairin qəbrinin üstə qoyaq. Elə indi də o arzu ürəyimizdədir ki, yurda dönəydik, Göyçənin sevinən göz yaşlarını öpəydik, Dədə Ələsgər hüzurunda baş əyib torpağını gözlərimizə sıxaydıq və bir dəstə Göyçə gülü sinəsi üstə qoyaydıq. Bir ovuc da Göyçə gölündən su götürüb həsrətdən yanan torpağına sənəydik. Sənin haqq ruhun köməyimiz olsun, Dədəm Ələsgər. Bir səda qulaqlarımızdan çəkilmir - *Heç demirsən, Ələsgərim hardadı?*

*"Xalq qəzeti"*
*25 dekabr 2004-cü il,*

*"Azərb.mədəniyyəti aə incəsənəti"*
*30 dekabr 2004-cü il*

## 2-ci yazı

Ustad Aşıq, bu nə gileydir? Onsuz da odsuz-ocaqsız yurd həsrətiylə qovruluruq. Ürəyimiz közə dönüb için-için içimizi ovur. Min möhnət içində eşələnməkdən yorulmuşuq. Yurd ağrısı bağrımızı çatdaq-çatdaq edib. Məzarının nigarançılığından üzülmüşük. Bu nə gileydir, – "heç demirsən, Ələsgərim hardadı?". Bilirsənmi, bu harayın bizi yandırıb-yaxır, tüstümüzü təpəmizdən sovurur, dədə Ələsgər. Şəhid ağrısı, yurd ağrısı. Bilmirəm, hansı ağırdır, hansı hansından daha şükürlüdür. Amma ikisi də sinəmizdə çalın-çarpaz durub. Bizdənmi sorursan ki, "heç demirsən, Ələsgərim hardadı?". Yoxsa ruhun bu vətəndən üzünü Göyçəyə tutub sorur? Bilirsənmi, elin-günün pərən-pərəndir? Bilirsənmi, çoxları hələ də çöldə-üüçədə yatıb-durur, yer-yurd edə bilməyib, itiyini tapıb cəmləyəmmiyib, Dədə Ələsgər?

"Heç demirsənmi, Ələsgərim hardadı?". Bu harayına, fəryadına qərib axşamların birində yığışdıq başına, Azərbaycan Opera və Balet Teatrının yaraşıqlı salonunda sənin işığına toplaşdıq. Əzəmətli şəklində ucalarda – məclisin lap ran Məmməd Aslan bir ucdan sinədəftər vərəqlədi sözlərini:

*Ələsgər, təqsirin oldu nə, ayə?*
*Kim inansın, qəsəm edim nə ayə?*
*Bu ahım qalmasın ilə, nə ayə,*
*Sağalmaz bu düyün, a yara məndən.*

O gecə ilk söz alanlardan biri göyçəlilərin fəxri, şair Hüseyn Arif oldu. O, Ağ Aşığı, Aşıq Alını, Aşıq Ələsgəri, ulu Göyçəni yad elədi. Ələsgər dühasının əzəmətindən söz açdı. Sonra belə bir xatirat danışdı: "Uşaq idim. Qələm-kağızla təzə könülləşdiyim günlərimin birində anam atamdan soruşur ki, a kişi, Hüseyn nə işlə məşğul olur, elə hey kağız-kuğuzu qaralayır. Atam deyir ki, şeir yazır: "Ə, denən dəli olmayıb, sözün hamısını Aşıq Ələsgər aparıb, qalanını da Vurğun Səməd götürüb. Getsin özünə iş tapsın". Təbii ki, bütün bunlar Ələsgər şeirinin, Ələsgər sazının el

məhəbbətindən bir damcıdır. Qəlbi yurd dağlı, şair Hidayət bir ayrı xatiratın bağrını söküb açdı: "Bu gecənin adı məni çox kədərləndirdi, çox kövrəltdi. "Heç demirsən, Ələsgərim hardadı?". Bu misraları vaxt vardı ki, sevgili nəğmətək oxuyurduq. İndi isə gileyə dönüb, haray çəkir. Sonra şair yazdığı "Kəndimizdən gərək heç çıxmayaydım" şeiriylə özünü də, bizi də qınadı. Babək Hüseynoğlunun fikrində keçənlər bunlar oldu: "Aşıq Ələsgər ruhu didərgin ruhdur. Bu gecə sazımız-sözümüz içində, çöhrəmizdə bir kədər var. O kədəri istəsək də nə silə bilərik, nə də poza bilərik. İndi bu məclisdə bizdən yuxarıda şəhidlərimizin ruhu, ondan yuxarıda Dədə Ələsgərin ruhu, ondan da yuxarıda ulu tanrıdır". Deməli, bu məclis müqəddəs bir məclisdir. Zəlimxan Yaqub Ələsgər çeşməsinin gözünü açıb tökdü məclis boyu.

Dədə Ələsgərin 170 illik yubileyinə ən əziz töhfə didərgin teatrın didərgin artistlərinin oynadığı "Didərginlər" tamaşası oldu. Abbas Abdulla, Qara Namazov Ələsgər şeirinin bəşəri dəyərindən, Göyçəylə bağlı şirin xatirələrindən danışdılar. Müğənnilərdən Səkinə İsmayılova, Səmayə İsmayılova, Baba Mahmudoğlu, Aşıq Rakif, Aşıq Pəhləvan, Aşıq Ulduz, Aşıq Aydın Çobanoğlu, Aşıq Kərəm məclisi Ələsgər çələnginin düzümüylə bəzədilər. Aynurə Məmmədova və Gülnigar Rəhimli şeirləri ilə ürəkləri oxşadılar. Sonra ustad aşığın nəvəsi İslam Ələsgər şairin indiyədək açılmayan yaradıcılığından vərəqlədi, şəxsiyyəti haqda atası Aşıq Talıbdan eşitdiklərini danışdı. Məclisin sonunda bir xəbər isə hamının üstünə sərin su kimi ələndi. "Bir həftə bundan əvvəl Kəlbəcərin bir neçə igid oğlu atlanıb-yaraqlanıb üz tuturlar Göyçəyə. Özlərini tanınmaz qiyafədə yetirirlər Dədə Ələsgərin qəbrinə. Qəbri yerindəcə büstünü üstündəcə görürlər. Allah sizə kömək olsun, igid oğullar. Nə yaxşı ki, aşığın "heç demirsənmi, Ələsgərim hardadı?" harayına belə xoş xəbərlə yekun vuruldu. Ruhun şad olsun, Aşıq! Sən sorsan da, sormasan da həmişə sən xatırlanacaqsan, bu sənin öz ömür payındır. Axı, sən ölməzlərdənsən, ustad!"

*"Ədəbiyyat qəzeti" 27 dekabr 1991-ci il*

# DƏDƏ ƏLƏSGƏRİN YUBİLEYİ

Bu günlərdə aşıq sənətimizin klassiki, ölməz söz və saz ustası Dədə Ələsgərin 170 illik yubileyi pərəstişkarları tərəfindən yüksək səviyyədə qeyd olundu. Məclisdə ilk söz alan – SAZ yanıqlı ifasıyla bir anlıq bütün simlərini bağrına basıb Dədə Ələsgərin işığına toplaşanları salamladı. Saz çox ağrılarla inlədi, Dədə Ələsgərin sözləri o gecə gah ağrıya döndü, gah tarixə, gah da nəğməyə çevrilərək gecənin keçirildiyi "Göyçə" kooperativi zirzəmisinə ılıq Göyçə nəfəsi, Göyçə işığı gətirdi. Və o işığın altında aşığın nəvəsi, alim İslam Ələsgərov "Dədə Ələsgərin həyat və fəaliyyəti haqda söz" söylədi. İndiyəcən oxunması, çap olunması qadağan olunan şeirlərindən oxudu. Aşıq Kərəm, Aşıq Ulduz, Aşıq Xəlil, Aşıq Füzuli, Aşıq Məhəmməd Sadaxlı, Aşıq Əhməd Sadıxlı, Aşıq Sərdar Dədə Ələsgər ruhu eşqinə saz-söz meydanına girişərək məclisi şirinləşdirdilər. Məmməd Aslan, Zəlimxan Yaqub, filosof Camal Mustafayev, Nizaməddin bəy Zərgar (Türkiyə), Əli Qurban, Əli Vəkil, Babək Hüseynoğlu və başqaları Ələsgər poeziyasının müdrikliyindən, əbədi yaşarlığından söz açdılar. Dədə Ələsgər poeziyasının xalq yaddaşında silinməz bir nəğməyə, bir dastana çevrildiyindən bəhs olundu, elmi baxımdan dəyərli çıxışlar oldu. Şəhid ÜLVİNİN "Ələsgərin Göyçəsində" şeirri Ələsgər ruhuna ən böyük ehtiram kimi səsləndi. Məclis iştirakçıları "Xatirə gecəsi" adından respublika Mədəniyyət Nazirliyinə bir neçə təkliflə müraciət etdilər:

1) "Aşıq Ələsgər" evi yaradılsın. 2) Aşıq Ələsgərin abidəsi ucaldılsın. 3) Hər ilin mart ayında "Aşıq Ələsgər günləri" keçirilsin. 4) "Aşıq Ələsgər fondu" yaradılsın.

"Dədə Ələsgər" yubiley gecəsinin təşkilatçısı Qabil Hüseynli məclis iştirakçılarına minnətdarlığını bildirdi. Məclis iştirakçılarının da ürəyindən keçən arzu bu oldu ki, qoy bu gecə "Dədə Ələsgər-170" məclisinin başlanğıcı olsun.

*"Azərbaycan müəllimi" 1 noyabr 1991-ci il*

## YORULMAZ TƏDQIQATÇI, SAZ-SÖZ AŞIQI

"Göyçədən söhbət düşəndə bə-zən oranı "Aşıqlar vətəni" adlandırırlar. Qəbir daşları üzərində həkk edilmiş insan şəkilləri və onların sinələrinə sıxdığı saz bu sənətin min illər öncə Göyçə mahalında da təşəkkül tapdığından xəbər verir".

Bu, redaksiyamızın qonağı – Dədə Ələsgərin nəvəsi, Aşıq Ələsgər irsini toplayıb elm, ədəbiyyatşünaslıq aləminə təqdim edən, Göyçə aşıq məktəbinin tədqiqatçılarından biri, filologiya elmlər namizədi İslam Ələsgərin qeydləriidir. O. uzun illərdir ki, lap tələbəlik illərindən belə ustad Aşıq Ələsgər irsini toplamaqla, nəşr etdirməklə, elmi kontekstdə araşdırmaqla məşğuldur. Bu günəcən ustad sənətkarın şeirlərindən ibarət 7 sanballı kitabını nəşr etdirməyə müvəffəq olmuşdur. (Aşığın 150 illik yubiley günlərində isə 7-8 dildə nəfis tərtibatda şeir kitabçaları dərc edilmişdir). Yaradıcılığı ilə bağlı onlarla elmi məqalələr yazmışdır.

Bütün bunlar söz yox ki, İslam Ələsgərin babasına – öz soy -kökünə ehtiramının və Azərbaycan aşıq sənətinə məhəbbətinin ifadəsidir.

İslam Ələsgər 1988-ci iləcən – Göyçənin erməni daşnakları tərəfindən dağıldığı vaxtacan Göyçədə yaşayıb-işləmişdir. Hazırda 15 ilə yaxındır ki, o, Bakıda yaşayır və Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda, indi isə Folklor İnstittutunda elmi yaradıcılıqla məşğuldur. Ustad Ələsgər yaradıcılığı ilə yanaşı, Göyçə aşıqlarının həyat və yaradıcılıqlarını tədqiq edir, müxtəlif mətbu orqanlarında, almanaxlarda onları nəşr etdirməyə nail olur.

Budur, o, redaksiyamızın qonağı olarkən özü ilə son illərdə nəşr etdirdiyi "Haqq aşağı Ələsgər" və "Sazlı-sözlü Göyçə" kitablarını gətirib. Onlardan birində haqq aşığı Dədə Ələsgərin həyat və yaradıcılığı haqqında geniş fikir söyləmiş, onun şəxsiyyəti, şeirlərinin yaranma səbəbləri ilə bağlı, yazılması indiyə

qədər yasaq edilmiş bir çox məsələlərə aydınlıq gətirmişdir. Dəyərli elmi monoqrafiyadır.

Digər kitaba – "Sazlı-sözlü Göyçə"yə isə Göyçədə yaşayıb -yaratmış 34 şair – aşıq barədə qısa bioqrafik qeyd və şeirlərindən nümunələr daxil etmişdir. Bu el sənətkarlarının çoxu ilk dəfə tədqiq və nəşr olunubdur.

*"Xalq qəzeti "*
*4 iyun 2003-cü il*

*Ələsgər Ocaği*
*"Ədəbiyyat qəzeti" 1992-ci il*

## BİR "MİSRİ" HARAYLA, AŞIQ!

Akif Səməd redaksiyaya zəng vurmuşdu ki, ayə, Təbrizdən bir aşıq gəlif, yaman çalıf-oxuyor. Cavanca oğlandı, di gəl, hünərinə bax. Orda oluynan, gətirrəm, siz də qulaq asın. Qardaş, İnan Allahımıza ki, səsi də təzədir, nəfəsi də...

Beləcə, adını bilmədiyimiz təbrizli aşıq qardaşımızı maraqla, intizarla gözləyirdik. Akif Səmədin sözarası "ayə, lift işləyirmi?" sualını da cavabsız qoymuşduq. Çünki belə görüşlərdə Akifin yeri bir ayrıdır.

Bu da 20-ci otağın qonaqları. Min ilin dost, qardaşı kimi görüşürük. Vallah, lap elə illər həsrətlisi kimi sevindik. Əlində saz tutan oğlan isə heç yerə-göyə sığmırdı. Sonra bir-bir tanışlıq başladı. Bu iş saz bilicisi İlqar İmamverdiyevin öhdəsinə düşdü:

– Bu gənc oğlan Aşıq Abbasdır. Vallah möcüzədir, adamı lap dəli eləyir. Elə "Göyçə gülü"ndən başlar. Göyçəli qızımızın xətrinə. Salman Gülməhəmməd balabançıdır. Oruc İmani qavalçı, Lütfi bəy isə videoçəkən – dördü də Təbrizdən gəliblər. Bu isə bizim öz sazbəndimiz Qəzənfər müəllimdir. Akif Səməd də indi gələcək. Hələ pilləkənləri qalxır.

– Ayə, qardaş, insafınız olsun,bu lifti niyə düzəltdermirsiniz?

Akif Səmədin tövşək səsi qapı ağzından eşidildi. Xoş-beş qurtardı. Saz köynəkdən çıxdı. Təzənə telə toxundu nə toxundu. Bir daha duydum ki, bütün bu sevinclərin, görüşlərin, məhəbbətin, istəyin bir səbəbkarı da sazmış. Hamımızı o an ruh qardaşına çevirən Saz. Dədəm Qorqudun bizə yetən nəfəsi, səsi – ulu Saz.

***

Aşıq Abbasın cəmi 23 yaşı var. Yaşına, boy-buxununa uyğun gəlməyən səsi bir andaca onu hamının gözündə dəyişdirdi. Yanımızda olsa da ün yetməz dağlar başında göründü. Səsinin ahəngində dağların əks-sədasını duydum. Elə bil həsrətindən öldüyüm dağlarımızın əzəmətini, qürurunu səsinə qatıb gəlmişdi.

Ələsgər yadigarı "Göyçə gülü"nü sazının tellərində elə titrədirdi ki, Allah sənə insaf versin, a qardaş, ürəyimi lap üzdün. Aşıq Abbas "Göyçə gülü" havasını bitirincə mən kəndimizin söykəndiyi səfalı, qürurlu, çiçəkli, lilpar bulaqlı dağlarını gəzdim. Hə, o səsi tanıdım. "Cüt bulaqlar"a gedən yolumuzun üstündəki "Böyük dərə"nin dibindən axan çayın yarğanlardan qopan hay-harayı, əks sədasıydı. Eynən o səsiydi, o yan-bu yanı yoxdur.

Adamı yarımcan etsə də, yaxşı ki, çox vaxt gözümüzün yaşı ürəyimizə axır. Hər halda zəifliyini duydurmamaq üçün o yaşın yanaqlardan axmaması yaxşıdır.

Aşıq Abbas hamını əfsunlamışdı – səsinin sehriylə, şirinliyilə, zənguləsiylə. Göz dəyməsin, qardaş, nə zil ovxarlı səsin var, tərtəmiz, lap bulaq suyutək qaynayır. Vallah, yanılmıramsa, deyəsən, ilk dəfəydi üz-üzə belə bir səsə qulaq asırdım – zil, özü də aydın, axıcı, şirin tələffüzdə. Səsini, "boğazı"nı Allah verib, qismətindən yarıyasan. Ustadına da min rəhmət. Aşıq Abbasın babası aşıq Məlik Cənubi Azərbaycanın ustad aşıqlarından olub. Ustadlar arasında, sənətkarlar sırasında seçilən, hörməti-izzəti başdan aşan sənətkar imiş. Abbasın səsi də dediyinə görə, eynilə babasının səsidir. O, körpə olarkən babası rəhmətə gedib. Ona görə də ustad kimi Aşıq Həsənlinin, Aşıq Rəsulun, Aşıq Əbdüləlinin, Aşıq Əziz Şahnazinin yanında olub. Azdan-çoxdan onlardan dərs alıb. Bir ildən sonra isə el məclislərinə çıxıb. İndi 3 ildir ki, aşıqlıq edir. Hər gün toylarda olur. Məclisdən-məclisə püxtələşən aşıq Abbas çılğın yaradıcılıq dövründədir. Arayır-axtarır, öyrənir, hər məclidən sonra hansısa ustadına baş çəkməyi unutmur, nəyi isə bir daha soruşmaqdan çəkinmir.

Amma, bunlarla belə kamilləşincə ustad əlinin altında olmaq bir başqa məktəbdir. Bu sənət əzəldən ustadlar əliylə nəsildən-nəsilə ötürülüb. "Göyçə günü"ndən adladı "Kərəm gözəlləməsi"nə, "Baş Sarıtel", "Orta Sarıtel" ...Sazın səsindən kövrək, görünməz bir ruha dönmüşdüm. Mən öz ruh dünyamda dolaşırkən, aşıq Abbasdan bir "Misri" umublar. İlqar isə "ə,

vallah, insafınız olsun, səhərin gözü açılandan oxuyur. İndi saat 5-də onu "Misri"yə qaldırmayın" – deyib.

Sən demə bütün günü oxusa da, "Misri"yə qalxmaq onunçün çətin deyilmiş.

Bir də gördüm "Misri" cəngisi səsləndi. Koroğlu harayı dünyanı başına götürdü. Çoxdanıydı... əsr yarımdan da uzaq tarix idi ki, gözümdə bir murazım da olub – təbrizli oğul Bakıda bir "Misri" haraylasın. Özü də sazın səsiylə "eheey" deyib bütöv Azərbaycan meydanına yığışsınlar. Çal, aşıq, qadan alım, düz tapmısan. Səsini də bir az qaldır, qoy hər yanda eşidilsin. İllər boyu bu "Misri"ni gözləmişəm ki, sən gəlib onu Bakıda dilləndirəsən. Bu muraza yetdim, indi də qıy vurmağa bir Təbriz meydanı istərəm. Coşan aşıq, daşan aşıq, görürəm sən də həsrətlisənmiş bu havaya. Bir az ustuf çal, qadan alım, bax, neylədin, siminin biri qırıldı, ikincisi də... aha... üçüncüsü də qırıldı. Nə möcüzə, qırılan üç simdən sonra da "Misri" o harayından enmir. Elə bil bütün simləri çağbacağdır. O qırılan simlərin yerinə tezcənə ürəyinin tellərinimi düzdün. Çal, aşıq, ürəyin telləri əbədən qırılmaz. Çünki, o, ruhumuza köklənib.

Hamı dinləyirdi, hamı müntəzirdi, hamı ağır sükutdaydı. Hər kəs o an özünü at belində, əlində də qılınc görürdü. Əhsən, aşıq, çalmağına-oxumağına, səsinin gücünə heyran qoydun bizi. Babam Şah Xətainin döyüşdən əvvəl qoşunun qabağında Qurbani sazını beləcə kökləyərmiş. "Misri"yə havalanan qoşunun qabağında duruşmu gətirmək olarmış?

Saz səndə, qılınc məndədir. O, "Misri"ni bir daha Təbriz meydanında havalandırarıq. Sonra da bütöv Azərbaycan eşqinə qəmlə sevincin dəminə – "Baş Sarıtel"ə köklənərik. Gün ötürdü... Təbrizdən gələn aşıq Abbası və onu müşayiət edən dəstəni İlqarla Akif Səməd istəyirdi ki, daha bir ayrı məlisin qonağı etsinlər – dost-tanışa tanıtsınlar, onlara olan məhəbbətimizi göyərtsinlər.

Xoş gəldiniz, aşıq qardaş. Bu tay Azərbaycanda bütün qapılan üzünüzə açıqdır. Əlinizdəki sazla dür başda yeriniz,

ürəyimizdə məhəbbətiniz var. Elə bilin ki, doğulduğunuz Kəleybərdəsiniz, Seyidlər kəndindəsiniz, Xudafərinin ya o tayı, ya bu tayı, nə fərqi.

Aşıq Abbas onu da deməyi unutmadı ki, illər boyu həsrətini çəkdiyi torpağa ayaq basarkən, sazı köynəkdən çıxarınca sinəsindəki sözü daşıb –

*...Abbasam, gəlmişəm sinəmdə sazım,*
*Səlmanla Orucla coşur avazım.*
*Bu qaynar sinəmdə min dastan yazım,*
*Təbriz, Muğan, gözəl Bakı, var olsun.*

.

*"Xalq qəzeti"*
*23 yanvar 1998-ci il*

## KÖNÜL SEVGİMİZ GÖYLƏR QƏDƏR SAFDIR

"Aşıq Pəri məclisi" yarandığı vaxtdan indiyəcən əslində dastan ömrü yaşayır. Saz tutub, şeir qoşan bir dəstə su sonası qız-gəlin obalar, ellər dolaşaraq Göyçə, Borçalı, Dərbənd, Gədəbəy, Kəlbəcər, Laçın, Tovuz kimi qədim türk ocaqlarında qurduqları aşıq məclislərində el yaddaşından süzülən nəğmələrlə, mahnılarla könüllərini kökləmişdir. Maraqlı yaradıcılıq yolu keçən "Aşıq Pəri"nin səsi-sorağı artıq xeyli uzaqlara – Türkiyəyə, İrana, İraqa, Orta Asiyaya, Almaniyaya qədər yayılmış, ulu ozan sənətimizin ömrünə ömür calamışdır.

"Aşıq Pəri məclisi"nin yaranma tarixindən respublikanın əməkdar mədəniyyət işçisi, məclisin yaradıcısı və rəhbəri Narınc Xatun böyük məhəbbətlə danışır:

– 80-ci illərin əvvəllərindən müxtəlif bölgələrdən olan yaradıcı qadınlarımızla işgüzar dostluq əlaqələri yaratmağa çalışırdım. Elə bu arada Borçalı mahalının Dmanisi rayonunun Qızılkilsə kəndinə görüşə dəvət edildim.Şairə Səadət Butanın təşkilatçılığı ilə gözəl bir şeir məclisi keçirdik. Bu gecədə ürəyəyatımlı səsi olan, ömrünü saza-sözə həsr edən Aşıq Sona gözəl bir "Zarıncı" oxudu. Aşıq Sonanı dinlədikcə qəlbimdə qadınlardan ibarət sazlı-sözlü bir məclis yaratmaq hissi keçirirdim. Geri qayıdandan sonra bu barədə mərhum şairimiz, Aşıqlar Birliyinin sədri Hüseyn Ariflə, yazıçı Əzizə xanım Cəfərzadə ilə məsləhətləşdim və belə bir məclis yaratmaq fikrimi qətiləşdirdim. Azərbaycanın ayrı-ayrı bölgələrini, Borçalı, Göyçə mahallarını oymaq-oymaq gəzərək saz çalan, şeir yazan, el sənətinə qəlbən sevgisi olan qadınları arayıb topladım. 1984-cü ilin martında Respublika Aşıqlar Qurultayında birliyin idarə heyətinə üzv seçildim. Martın 23-də Aşıqlar Birliyinin idarə heyətinin iclasında "Aşıq Pəri məclisi" yaratmaq fikrimi bir daha açıqladım. Beləcə uzun axtarışdan, gərgin, ağrılı problemlərdən keçərək 1984-cü il sentyabrın 22-də Natəvan klubunda "Aşıq Pəri

məclisi"nin açılışı oldu. Şair Hüseyn Arif, Yazıçılar Birliyinin sədri İsmayıl Şıxlı yazıçı-professor Əzizə Cəfərzadə, xalq rəssamı Maraq Rəhmanzadə, bəstəkar Sevdi İbrahimova və bir çox sənət adamları açılış-görüşdə iştirak edirdilər. Məclisin təşkilatçısı, rəhbəri kimi böyük məsuliyyət daşıdığımı hiss edirdim. Və bu məclisi mənalı yaşatmaq üçün daha saza-sözə bağlı oba-oymaqlara üz tutduq, görüşləri bir-birinə caladıq. İlk görüşümüz Borçalıda quruldu. El sevinci, el məhəbbəti bizi daha da həvəsləndirdi. Oradan Göyçə mahalına – Dədə Ələsgərin ocağına üz tutduq. Bu görüş, bu səfər, əslində, ulu saz ocağından xeyir-dua almaq idi. Beləcə, Aşıq Ələsgərin əbri üstündə aşığın ruhunu sevindirəcək bir məclis açdıq. Xatirəli, xoş günlərimiz saya-sözə gəlməz. Aşıq Gülarə Azaflı, Aşıq Zülfiyyə Aşıqlı, Aşıq Ulduz, Aşıq Pakizə Musagöylü, Aşıq Solmaz Qorçuqızı, Aşıq Aybəniz Laçınlı, şairə qızlarımızdan Gülnigar Rəhimli, Tərlan Göyçəli, Dilarə Azaflı, Səadət Buta, Minəxanım Əkrəmqızı, Roza Qarabağlı və çox-çox qız-gəlinlərimizlə əlimizdə saz, dilimizdə söz, böyük sevgiylə ellər-obalar gəzmişik, yollar yormuşuq. Amma yaratma, el ürəyinə doğma məclislər aparmaq eşqindən yorulmamışıq. Fikir versəniz, hər mahaldan, hər say-seçmə obadan sıramıza qoşulanlar var: Qazaxdan, Göyçədən, Muğandan, Laçından, Cəbrayıldan, Borçalıdan, Tovuzdan, Qarabağdan, hər yerdən... Hər səfərin, hər gedişin ağır, əziyyətli yolları olub, çətin, narahat qayğıları olub, min əzab-zillət çəkmişik. Heç nədən, heç kimdən təmənnamız olmayıb. Bax ki, bu günə qədər nə bir fondumuz var, nə bir yerdən maaş alırıq, nə bir yerdə cəmləşib sözümüzü-söhbətimizi quraşdıracaq, planlarımızı düzüb-qoşacaq iş otağımız var. Hər şeyi, hər problemi yollarda həll edirik. Gülnigarın, Gülarənin evinə tez-tez yığışırıq. Çətin zəmanədir, indi hər dəfə toplaşanda xəcalət hissindən ölüb-dirilirəm. Bu məclisi konkret bir ünvana toplamaq imkanım da yoxdur. Nə isə, bədbinləşmək fikrindən tamam uzaq olub məclisimizin daha xoş günündən, xoş gecələrindən danışmaq istəyirəm. "Mikayıl Azaflı

və Narınc Xatun" dastanı ömrümü-günümü mənalandıran, təzələyən bir ayrı ovqatımdır. Təki el-obaya sevinc ələnsin. Arzularımız dünyalarcadır, eşqimiz tükənməyəcək qədərdir.

Bu məqamda söhbətimizə ustad sənətkar Mikayıl Azaflının qızı, ilk dəfə "Aşıq Pəri" məclisində əlinə saz götürən artıq el arasında məşhurlaşan aşıq Gülarə Azaflı qoşulur:

– Məclisimizin artıq 50-yə qədər üzvü var. Hər kəsin öz yeri, öz sözü yaddaqalandır, görünəndir. Aşıq qızlarımızdan Dostu Söyüdlü, Nargilə Nəbiqızı, Borçalı qızı Telli, Aytəkin və Gültəkin bacıları məclisimizin tər bənövşələridir. Eləcə də bütün el sənətkarları "Aşıq Pəri"ni öz doğma ocaqları bilirlər. İrandan şairə Günəş Təbrizli, Türkiyənin Əski şəhərindən Aşıq Nurşah xanım, Çorm şəhərindən Aşıq Sürməlican məclisimizin fəxri üzvləridirlər. Onları bura toplayan sənət yanğısıdır. Çox istərdik ki, Dərbənddən, Orta Asiyadan bu məclisə gəlsinlər. Bir də məclisimizin Bakıda bir oturacaq ünvanı olsun. Aşıq qadınlarımızdan Solmaz Qorçu qızı, Zülfiyyə Aşıqlı, Aşıq Ulduz ilə birgə dəfələrlə xarici ölkələrdə "Aşıq Pəri" məclisini ləyaqətlə, şərəflə təmsil etmişik. Türkiyədə, Almaniyada və başqa ölkələrdə folklor üzrə keçirilmiş müsabiqələrdə aldığımız medallar, mükafatlar buna əyani misaldır. Deyim ki, bizim məclis aşıq sənətinin yayılmasında, yaşamasında, xarici ölkələrlə dostluq əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayır.

Aşıq qızlar – məclis üzvləri müxtəlif yerlərdə keçirdikləri görüşlərin yaddaqalan xatirələrindən danışmaqdan doymurlar. Tovuz rayonunda Əlimərdanlı aşıq Zeynəbin, Gürcüstanın Dmanisi rayonunda ustadımız aşıq Sonanın şərəfinə qurulan məclislər, Aşıq Pərinin 180 illiyi münasibətilə Bakı Dövlət Filarmoniyasında keçirilən xatirə gecəsi belə görüşlərdəndir. Aşıq Pəri məclisi ötən ilin yayında Zaqatala torpağında Sosialist Əməyi Qəhrəmanı, həm də gözəl şeirlər müəllifi nakam taleli Sevil Qazıyevanın xatirəsini çox yüksək səviyyəli bir görüşlə yad etdi. Sazlı-sözlü qızlar Sevil Qazıyevaya həsr etdikləri şeirlərini-

mahnılarını oxudular. O məclisdə nakam Sevilin qardaşı qızı, ilahi gözəlliyi ilə könüllər doyuran gənc Sevilin, bacısı Sona xanım Qazıyevanın yaşla dolu baxışlarındakı minnətdarlıq duyğuları "Aşıq Pəri" qızlarının sevgisinə cavab idi. Bir nakam ruhun o anlardakı sevinci "Aşıq Pəri" qızlarının payı, ərmağanı oldu. Yollar uzaq olsa da, könül sevgiləri göylər qədər idi.

Belə görüşlərin sayı yüzlərlədir. Narınc Xatun bir məsələ barədə də öz fikrini bildirdi: Yuxarıda dediyim kimi, müxtəlif oba-oymaqları təmsil edən qızlarımız var. Qoy o qızlarımız səhnəyə çıxanda geyimiylə tanınsın ki, bu qız Göyçəlidir, ya Borçalıdır, ya Qarabağlıdır. Yəni müəyyən etnoqrafik detalları özündə əks etdirən milli geyimlər məclisimizə yaraşıq, böyük məna verə bilər. Bu qızlar həm də öz milli geyimləri ilə uzaq tarixi dindirə bilərlər. Allah imkan versin.

"Aşıq Pəri" tədqiqat obyekti kimi alimlərimizin diqqətini cəlb edir. Professorlardan Qara Namazovun, Paşa Əfəndiyevin və başqalarının dəyərli məqalələri məclis barədə maraqlı mənbədir. Eləcə də 1991-ci ildə "Yazıçı" nəşriyyatında nəfis tərtibatda çapdan buraxılmış "Aşıq Pəri" məclisi, el şairləri, el aşıqları" kitabı qiymətli hədiyyədir. Ötən müddətdə məclis üzvləri xeyli püxtələşmiş, yaradıcılıq yollarında yeni-yeni uğurlar qazanmışlar. İlk dəfə məclisdə bir neçə şeiri ilə çıxış edən şairə Tərlan Göyçəli xeyli müddətdir ki, Göyçədən üzü bəri el aşıqları, el şairləri haqqında kitab yazmışdır. Narınc Xatunun, Roza Qarabağlının, Bəsti Bərdəlinin, Aşıq Ulduzun, Səadət Butanın və başqalarının şeir kitabları da çapa hazırdır. Aşıq Pəri məclisi daim axtarışda, daim yollarda, daim tərəqqidədir. El sənətimizin inkişafında, tarixi taleyinin yaşantısında öz yolu, öz cığırı olan "Aşıq Pəri" məclisi milli ədəbiyyat, mədəniyyət tariximizin parlaq bir səhifəsidir.

*"Xalq qəzeti" 20 fevral 1997-ci il*
*"Azərbaycan qadını" №4,1997-ci il, səh.98*
*"Cündoğar" 21 mart 1997-ci il (Neftçala rayon qəzeti)*

## ULU BURLA XATUN YAŞINA DOLMUŞ NARINC XATUN

Narınc Xatunun "Aşıq Pəri məclisi" 20 yaz – 20 payızdır ki, başı kəlağıylı, əyni qotaz qoftalı, güllü tumanlı qızların sazında – sözündə el-el dolaşır. Məclisin başlanğıcında beş-on qız-gəlin idilər, indi qırx-əlli olublar. Bu qızlar – mələk misallı aşıq pərilər harada məclis qurublarsa ora el axışıb. Onların sazına-sözünə insan ruhu elə hakim kəsilib ki, o məqamlar dərd-qəm, kədər deyilən şey qeybə çəkilib.

Şirvan elində uşaqlığından sözlə oynayan, sözü söz edib misralayan, cilalayan bir qız vardı. Həyat eşqini sözlə göylərdə cövlandıran bu qızı cəmi 7 sinif oxuyandan sonra ata-anası bibisi oğlu Kərim müəllimə ərə verirlər. Uca boylu, yarlı-yaraşıqlı, elmi, ağlı ilə tay-tuşlarından xeyli irəlidə görünən Kərim müəllimə. Onun ağır zəhmi, ciddi xarakteri bu qızı – Narıncı ailə qayğılarıyla baş-başa qalmağa vadar etdi. Eşqini, coşqun qəlbinin sevgisini balalarına – oğlu Tofiqə, qızı Tamellaya bağışladı. Onlar böyüyüb, hər kəs öz həyat yollarını seçəndən sonra Narınc ana yenidən söz eşqiylə-yaradıcı təbiylə baş-başa qalmalı oldu.

Şeirlərindən bir-bir yaşadıqları rayonun – Neftçala rayon qəzetinin poçtuna göndərdi. Hamısı da çap olunurdu. Sonra Bakıya göndərdi – "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Azərbaycan qadını" kimi nüfuzlu mətbu orqanlarında dərc olundu. Beləcə evdə, ailəsinin yanında ola-ola qəlbinin döyüntüsü uzaqlarda eşidildi. Narınc Xatun imzalı yeni qələm sahibi tanındı.

"... Günlərin birində rayonda körpünün üstündən maşınla keçirdim. Birdən başımı qaldırıb gördüm ki, ağbənizli bir oğlan atın belində mənə sarı at çapır. Çatdı, əlindəki bükülü kağızı mənə verdi və qeyb oldu. Açıb gördüm ki, gənc bir qızla bir aşıq oğlanın dastanıdır. Bir anlıq dastan bütünlüklə könlümə yazıldı. Evə çatdım, fikir – xəyal içində bir müddət dolandım. Sonra adını

bildiyim aşıqlara məktub yazıb bu dastanı birgə işləməyimiz üçün rüsxət istədim. Aldığım cavablar məni onlara bağlamırdı. Elə məktublarından onların təfəkkürünü, iç dünyalarını görürdüm və mən axtaran aşiq-aşıqlardan deyildilər. Həm də yoldaşımın, – Kərim müəllimin xarakteri ağır olduğundan ağır salğalı insanla iş yaratmaq istəyirdim. Nəhayət, bir gün Azaflı Mikayıldan cavab aldım. Cavab döşümə yatdı. Dastanı yaratmaq üçün Aşıq məni öz yurduna dəvət edirdi. Şirvandan Tovuza getməli idim. Evdə məsələni açdım. Kərim müəllim razılıq vermədi. Qızım Tamella "üstümə sərildi". "Anamın adı onsuzda rayonumuz hüdudlarını çoxdan aşıb. Yaşının ahıl vaxtıdır. Qəlbindəki söz eşqini buxovlaya bilmir. Ata, rüsxət ver. Anamın başındakı kəlağayı, dabanını örtən geyimi üzündəki həya, sinəsindəki sözü onu əsil el sənətkarı kimi göstərir" – dedi. Kərim müəllim yarıkönül qızımız Tamellanın sözüylə məni Mikayıl Azaflı yurduna yola saldı. "Mikayıl Azaflı və Narınc Xatun" dastanı beləcə araya-ərsəyə gəldi. Türkiyədə də çap olundu. Bizdə də xalq artistləri Əliabbas Qədirov, Amalya Pənahova və Mikayıl Mirzənin ifasında radioda səsləndirildi. Bütün bu hadisələr tamamlananda 1982-ci il idi.

Narınc Xatunun yazıb-yaratmaq eşqi isə tükənmirdi. Sanki pöhrə kimi yenicə tumurcuqlayırdı. Aşıq yaradıcılığına könül bağlayan Narınc Xatun indi də sazlı-sözlü qızlardan ibarət bir məclis qurmaq arzusuna dolur. Bu məqsədlə bir səhər ertə Bakıya yol alır. Aşıqlar Birliyində Hüseyn Ariflə görüşür. Fikrini ona açır. Birliyin sədri, xalq şairi Hüseyn Arif onun bu arzusunu alqışlayır. Uzun-uzadı söz-sovlardan sonra 1984-cü il 20 sentyabr tarixdə. "Aşıq Pəri məclisi"nin təsis yığıncağı keçirilir. Məclisin yaradıcısı Narınc Xatun Borçalı, Göyçə, Qazax, Tovuz ellərindən başına cəm elədiyi qız-gəlinləri ilə birgə Azərbaycanı kənd-kənd, rayon-rayon gəzir-dolaşır – məclis qururlar, şeir deyirlər, saz çalıb – söz oxuyurlar. Çox az vaxt ötmüş bu məclisin səsi-sədası hər yana yayıldı. Sonralar bu görüşlər ayda bir dəfə televiziya kanalı ilə yayımlandı. Bir az da ötmüş İraqdan, İrandan, Türkiyədən

təbrik məktubları aldılar. O illərdə çap olundular. Ayrı-ayrı üzvləri uzaq türk yurdlara səfər etdilər. İndi o vaxtdan 20 il ötüb – "Aşıq Pəri məclisi"nin yarandığı vaxtdan. Bir vaxtlar oradan sənət meydanına yol başlayanlar indi məşhur saz-söz ustasına çevriliblər – Aşıq Gülarə Azaflı, Dilarə və Minayə Azaflılar, Aşıq Zülfiyyə, Aşıq Ulduz, Solmaz Kosayeva, Pakizə Musagöylü, Səadət Buta, Fərqanə Mehdiyeva, Telli Borçalıqızı, Gülnigar Rəhimli, Tərlan Göyçəli, Minayə Şınıxlı...

Çoxdan idi ki, Narınc Xatun görünmürdü. "Aşıq Pəri məclisi" fəaliyyət göstərsə də, qızlar dünyanı dolaşsalar da ustadlarını unutmurlar. Amma, türkün sözü, ustad ortalarda görünmürdü. Fitri istedadı, güclü hafizəsi, tükənməz eşqi ilə könlümüzdən çəkilməyən Narınc Xatunu soraqladıq. Günlərin birində yerini öyrənib görüşünə getdik. Yerdə oturmuşdu. "Mən bilmirdim ki, səni yenə görəcəmmi? Əyil, gözlərindən öpüm".

Yeni şeir kitabını bağışladı. "İçinə mənim adımdan özünüz bir şey yazın. İsti, məhəbbətli sözlər olsun". Hal-əhval tutduqca "bərkdən danışın" – deyə narahat olurdu. Narınc Xatun Dədə Qorqudun Burla Xatun yaşına dolmuşdu. Yaradıcılığının keşmə-keşli yollarında ona arxa, dayaq olmuş qızı Tamellanın qəflətən, vaxtsız ölümü el sənətkarının dizini yerə qoymuşdu. Cismani sağlamlığını itirmiş Narınc Xatunun bədahətən dediyi şeirlər, illərlə unutmadığı xatirələr bizi yenidən əvvəlki illərə qaytardı.

"Mikayıl Azaflı və Narınc Xatun" dastanının III hissəsini tamamlamışam. Daha özüm köçürə bilmirəm. Bakıya gəlişimin bir səbəbi də odur ki, dastanı diqtə edim, Gülarə yazsın. (Mikayıl Azaflının qızıdır. Aşıq Pərini ona tapşırmışam. Sənət qədri biləndir. Gözəl də aşıqdır.) Ömrə vəfa olmaz.

Sinədəftər Narınc Xatun yenə şeir meydanı qurmuşdu, öz aləmindəydi. Coşub-çağlayırdı. Həmişəki kimi belə dəmlərində yenə hər şeyi unutmuşdu. Söz covlanını göylərdə idi.

*"Xalq qəzeti" 9 yanvar 2005-ci il*
*"Azərbaycan incəsənəti və mədəniyyəti" 28 yanvar 2005- ci il*

## SAZIN SEHRI,
## NARINC XATUN MƏHƏBBƏTI, EL QƏDRI...

El-el, oba-oba – ulu Göyçədən, Borçalıdan, Kəlbəcərdən, Tovuzdan üzü bu yana bütün Azərbaycan torpağını qarış-qarış gəzib, əli saz tutan, könlü sözlü-şöhrətli şeir qoşan qızlarımızı başına cəm edən Narınc Xatunun 70 yaşı tamam oldu.

Ötən şənbə Mahnı Teatrında el sənətçisi Narınc Xatunun yubileyi şərəfinə sazlı-sözlü bir gecə quruldu. Gecənin aparıcısı folklorşünas-alim, professor Məhərrəm Qasımlı əməkdar mədəniyyət işçisi, saz-söz aşiqi Narınc Xatunun "Aşıq Pəri" məclisinin yaradıcısı kimi xidmətlərindən, mübarizəsindən danışdı. O, 20 il əvvəl yaradılmış "Aşıq Pəri" məclisinin Azərbaycan mədəniyyəti tarixində layiqli yer tutduğunu və bu haqqı Narınc Xatun öz halal, yorulmaz zəhməti, haqq sevgisi ilə qazandığını xüsusi vurğuladı.

Onun bədahətən söylədiyi nəğmələrinin, başına cəm etdiyi sazlı-sözlü qızlarının səsi-sorağı çoxdan Azərbaycan hüdudlarından çox-çox uşaqlara yayılıb. Bu gün "Aşıq Pəri"nin sıralarına Urmiyadan, Təbrizdən, Kərkük torpaqlarından qoşulan qızlarımızın yaradıcılığı buna əyani misaldır. Yubiley gecəsində saz-söz qədri bilən ziyalılarımızdan – professor Qəzənfər Paşayev, şair Eldar İsmayıl "Narınc Xatun – "Aşıq Pəri" məclisi" çərçivəsində maraqlı, xoş fikirlər bildirdilər.

"Aşıq Pəri" qızları isə məclis boyu səhnədə bir-birilərini əvəz etdilər. Gülarə Azaflı, Aşıq Ulduz, Telli Borçalı qızı, Dilarə Azaflı, Gülnigar Rəhimli, Səadət Buta... sazın sehriyylə, sözün qüdrətiylə məclisi bəzədilər. Arabir Narınc Xatunun sinədəftər söylədiyi şeirlər tamaşaçıları yeni bir ovqatla duyğulandırır, onların alqışları ilə qarşılanırdı. O məclisə hamı saz eşqinə, "Aşıq Pəri" sorağına, Narınc Xatun məhəbbətinə yığışmışdı. "Narınc Xatun – 70" məclisində beləcə xoş bir ömür yaşandı. El içindən axtarıb araya-ərsəyə gətirdiyi "Aşıq Pəri"si el qədirbilənliyi ilə də ucaldı, dəyərləndi, ömürlük qazandı.

***"Xalq qəzeti" 6 noyabr 2002-ci il***

# YETSƏ QULAĞINA ŞƏMŞİRİN SƏSİ

Aşıq Şəmşir adı xatırlananda ilk anda –

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə*
*Kəklikli dağlardan xəbər al məni!*
*Ceyran bulağından qızlar içəndə*
*Saz tutub, söz qoşub yada sal məni!*

- misraları adamın qəlbinə dolur. Bu isə Aşıq Şəmşirin yox, ulu Səməd Vurğunun aşığa ünvanladığı şeirdir. Bəlkə bu an özü bir halallığa köklənir. Aşıq Şəmşir el aşığı kimi Kəlbəcərdə, Göyçədə, saza-sözə üz söykəyən obalarda, ellərdə tanınırdı. Toylar, nişan məclisləri onsuz ötüşməzmiş. Səməd Vurğun 1955-ci ildə Kəlbəcərin İstisuyuna müalicə üçün, dincəlmək-gəzmək üçün gəlir. Böyük şairin bu gəlişi Kəlbəcərin, qonşu Göyçə mahalının "məmə yeyənindən pəpə deyəninəcən" – hamının sevincinə səbəb olur. Dağlar-daşlar, otlar-çiçəklər də bu xoş gəlişə, əziz qonağa sevinir. Eşidən bilən şairin görüşünə axışır. Ziyalılar, əlinə qələm götürüb söz qoşanlar, şeirə hörmət-izzətlə yanaşanlar, qulluq sahibləri ərk edib şairlə kəlmə kəsib, söz danışırlar. Saza vurğun Səməd Vurğunun da bu hörmətdən-izzətdən şair qəlbi coşur-çağlayır. Yuxarıdakı şeir də belə görüşdən yaranıb. Aşıq Şəmşir sazına-sözünə qədr-qiymət verən şair onun şeirlərinin çapını, kitab kimi nəşr olunmasını da məsləhət bilir. Aşıq Şəmşirin böyük bir qovluğunu – içində "üç dastanı, iki yüzdən çox qoşması, yüzə yaxın təcnisi, otuzdan çox deyişməsi, iyirmi gəraylısı, iyirmidən yuxarı bayatısı, on dörd ustadnaməsi, yeddi divanisi, altı qəzəli, dörd məsnəvisi, üç hədəsi, bir sıra dodaqdəyməz, diltərpənməzləri" olan qovluğunu şair Osman Sarıvəlli diqqətlə nəzərdən keçirir, araşdırırır və ilk nəşr üçün lirik şeirlərindən seçir. 1959-cu ildə 66 yaşlı Aşıq Şəmşirin "Şeirlər" kitabı Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən Osman Sarıvəllinin redaktorluğu və ön sözü ilə çap olunur. Böyük şairin qədirbilənliyi ilə işıq üzü görən

bu toplunu, təəssüf ki, Səməd Vurğun görmür. Bax, bu halallığı nəzərdə tutub deyirəm ki, Aşıq Şəmşir adı çəkiləndə onun öz şeiri yox, Səməd Vurğunun ona qoşduğu şeir könülə dolur. Amma orası da var ki, Aşıq da şairə borclu qalmır. Onun şəninə xeyli şeirlər qoşub, sonra da sazını kökləyib illərlə "Kərəm şikəstəsi" üstündə oxuyub. Onun "Xoş gəlib", "Dağlar", "Səni", "Gəldi", "Gələndə", "Nə xəyaldadı", "Bir də gəl" şeirləri bu misaldandır.

*Vurğun gələn vaxtı bizim mahala,*
*Çəmən mücdə verdi, sevindi lala.*
*Hamı dostlar ələ aldı piyala,*
*Məclisinə şirin badası gəldi.*

Söz yox ki, bu məhəbbət, istək qaynar qəlbləri bir də qaynadar, daşdırarmış. Sözün-fikrin belə axarında bu misraları da dinləmək yerinə düşərdi –

*Şəmşirlə görüşün qaldı yadigar,*
*Unutmaz nə qədər canında can var.*
*Səndən dərs almağa diyarbadiyar,*
*Gəzərəm əlimdə şam-çıraq səni.*

Aşıq Şəmşir 1893-cü ilin bir bahar axşamında Kəlbəcər rayonunun Dəmirçidam kəndində doğulmuşdur. Dünyaya gəlişinin ilk anından saz səsinə dinşək kəsilib. Ana laylasına saz havaları üstündə uyuyub. Elin-obanın ustadı Aşıq Qurbanın bu oğul övladının göbəyi

sanki sazla kəsilir. O da böyüyəndə atası kimi sinədən şeir deyir, saza bağlanır. Aşıq Qurban ustad Ələsgərlə dostluq edərmiş. Bu münasibətləri diqqətlə araşdırandan sonra belə qənaətə gəlmək olur ki, Aşıq Şəmşir Dədə Ələsgərdən və Aşıq Qurbandan da dərs alıb. Bütün bunlar ana südüylə, dağlar eşqiylə, çəmən-çiçək ətriylə, saz-söz hikmətiylə Şəmşir ruhuna, könlünə cilalanır, rişəsini onlardan tutur. Ona görə də el aşığı – el şairi el hörmət-izzətinə çatır.

Aşıq Şəmşir evdə daim dastanlarımıza, nağıllarımıza, ustad sənətkarların – Xəstə Qasımın, Miskin Abdalın... şeirlərinə

aşıqların söyləmələrində qulaq asmışdır. Bütün bunlar onun yaradıcı təfəkkürünə işıq tutmuşdur. Klassik aşıq şeirinin bütün növlərinə bələd olduğundan yaradıcılığında da istifadə etmişdir.

Aşıq Şəmşir Sovet hökuməti illərində yeddiillik təhsil alır, sonra kənd sovetinin katibi vəzifəsində çalışıb. Elin qayğıkeşi kimi 16 il (1930-46) Kəlbəcər rayon sovetinin deputatı olub. Azərbaycan Aşıqlarının II qurultayında (1938) nümayəndə kimi iştirak edib. Amma sazı əlindən, sözü-söhbəti dilindən düşməyib. Yuxarıda qeyd etdiyim kimi, dövri mətbuatda isə Səməd Vurğunun təqdimatından sonra çap olunub. Hətta mən deyərdim ki, 1963-cü ildə şairin 70 illik yubileyinin keçirilməsi, onun "Əməkdar incəsənət xadimi" (1957) kimi yüksək ada layiq görülməsi həmin unudulmaz görüşün nəticələri idi. 1956-cı ildən başlayaraq şeirləri "Azərbaycan" və "Ulduz" jurnallarında, "Kommunist", "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" kimi mərkəzi mətbu orqanlarında dərc olunub. O vaxt bu orqanlarda çap olunmaq çox çətin məsələ idi. Sonralar şair "Qoşmalar" (1971), "Seçilmiş əsərləri" (1973), "Dağ havası" (1978), "Şeirləri" (1980) kitablarını nəşr etdirir. 1956-cı ildəki qovluqdan sonra neçə-neçə şeir qovluqları yaranır.

Aşıq Şəmşir Dəmirçidamda doğulsa da, 14 yaşından sonra ailəlikcə rayonun Ağdaban kəndinə köçmüşdülər. Atası Aşıq Qurban eldə-obada daha çox Ağdabanlı Şair Qurban kimi ad-san çıxarmışdı. Dədə Ələsgərlə dostluğu, oturub-durması kifayətdir ki, onun saz-söz meydanındakı sanbalını müəyyənləşdirəsən.

Göyçədə üzü günəşdoğana dayananda sağ çiyin dağların arxası Kəlbəcər, sol çiyin dağların arxası ilə Gədəbəydir. Göyçədən havalanan sazın səsi Kəlbəcəri, Gədəbəyi cuşa gətirər, onları da saza kökləyərmiş. Dağlar başında ay saz-saza, söz-sözə bələnirmiş ha... Sonra da tufana-qasırğaya dönüb ürəklərə yol alarmış. İndi o ürəkləri dindirən tazənəni simə toxunduranda gör "Qaytarma", "Kərəm şikəstəsi", "Gilənar", "Baş sarı tel", "Şəril", "Şahsevən", "Təcnis", "Göyçə gülü", "Koroğlu", "Ruhani",

"Gözəlləmə", "Qaragöz bala" nə haray qoparırmış. O dağların gülü-çiçəyi də saz havasına laylanardı. Həmin gülün-çiçəyin nəfəsini kamına çəkən ürəkdən qopan sazın havasına dinşək kəsil, gör orda nələr var, nələr... Alovlanan eşqin qüdrətini görər, sirrini duyarsan. İndi o havalarda obalarımızın – Göyçə, Kəlbəcər nəfəsini həsrət-həsrət arayırıq. Aşıq Şəmşir kəndi – Dəmirçidam da, Ağdaban da, Qamışlı da, Zar da, Zəylik də – bütün Kəlbəcər, dağlarının sol çiyni üstdəki Göyçə də erməni tapdağındadır. İndi gavırlar gör oralara nə divan tutublar. 1992-ci ilin aprelində Kəlbəcər işğalından sonra dağlar-daşlar yellərdən xəbər göndərdi – Dədə Şəmşir yurdu yandırıldı. Ağdabanlı şair Qurbanın əlyazmalarının külü göyə sovruldu. Heç Göyçə, Kəlbəcər erməni ocağı ola bilərmi? Yox, ulu saza and olsun ki, o ellərə erməni yaraşmaz, sazın ruhu, aşıqların ruhu, otun-çiçəyin, dağın-daşın zəhmi ermənini o yurdlarda yarıtmaz, yarıtmaz! Yarıtsa da qarıtmaz! Bizimdir oralar, sazındır, aşığındır, şeirindir. Nə yaxşı Dədə Şəmşir belə şeylərin bu dünyada şahidi olmadı. O faciəli günlərdən 12 il əvvəl – 1980-ci ilin 10 fevralında artıq o haqq dünyasına qovuşmuşdu. O saz havalı dağlar, daşlar, qayalar, otlar-çiçəklər yenə bizim olacaq! Göyçə dedim, içim yandı deyə sözümün-söhbətimin də ovqatı dəyişdi. Dədə Şəmkir şeirlərinə köklənib o məcradan qopmaq istərdim.

*Şimşək oynar dumanında,*
*Lalə açıb hər yanında.*
*O ustadın dastanında,*
*Sorulacaq halın, dağlar!*

Ötən il el sənətkarı Aşıq Şəmşirin anadan olmasının 110 ili tamam oldu. Bu münasibətlə ilin əvvəlində ölkə Prezidenti xüsusi Fərman da imzalamışdır. Respublikamızın hər guşəsində bu yubiley hörmətlə qeyd olunur, Aşıq Şəmşir yaradıcılığına dair elmi-ədəbi konfranslarda məruzələr dinlənilir. Yubiley günləri 2003-cü ilin saz bayramına çevrilmişdi.

*"Xalq qəzeti" 23 noyabr 2003-cü il*

## "AY QIZ, VƏSMƏLİ GƏLİN"

Xalq şairi Hüseyn Arif xeyli vaxtmış saz tutub şeir qoşan qadınlardan ibarət bir "Dastan" ansamblı yaratmaq arzusunda dolanırmış. Məşhur bəstəkarlarımızdan biri şairlə görüşəndə qayıdır ki, "şair, boş fikirdir. Sən bundan belə aşıq qadını haradan tapacaqsan, hələ bir ansambl da yaratmaq istəyirsən?"

Hazırcavab Hüseyn qağa da söz altında qalmır:

– Ayə, bura bax, nətəər olur, sən dədəsi-nənəsi bəlli olmayan cazına Azərbaycan qadını tapırsan, mən mayası, ruhu, havası sazla yoğrulmuş diyarda könlü saza bağlı Azərbaycan qadını tapa bilmirəm. Ayə, vallah gülünc söz yiyəsi oldun.

Elə o söhbətdən az sonra hər kənddə, obada, hər çağlar bulaq başında sinəsi sazla güllənmiş, zər qoftalı, buta yelənli kəlağayı örtmüş qız-gəlinlərin səsi-sorağı eşidildi. Aşıq Zülfiyyə, Aşıq Solmaz, Aşıq Gülarə, Aşıq Ulduz, Aşıq Telli Borçalı qızı, Aşıq Dostu Söyüdlü, Aşıq Aytəkin və Gültəkin bacıları... beləcə, saydıqca ulduz kimi sayagəlməz oldular.

Dədə Şəmşir nəslindən olan, ustad Mikayıl Azaflı ocağında böyümüş bir qızın səsi tez bir zamanda dünyanın gah o başından, gah bu başından eşidildi. Artıq o qızı öz Azərbaycanında hamı tanıyırdı, hamı sevirdi, məclislərə dəvət edirdilər. Şirin səsiylə, usta çalğısıyla sazsevər könülləri çoxdan ovlamışdı. Həmin qız – Aşıq Gülarə Azaflı bu gün aşıq qadınlarımızın önündə gedənlərdən biridir. "Usta oğlundan şəyird olmaz" – deyiblər. Gülarə xanım da gözünü dünyaya açandan evdə saz görüb, saz sevinci duyub, saz havasına qığıldanıb... Ustad Aşıq Əsəddən, Hüseyn Bozalqanlıdan, Aşıq Yusifdən dərs alan və son nəhayətdə özü ustad sayılan Aşıq Mikayıl Azaflı öz ocağının başında əlinə saz götürdümü balaları da həndəvərinə yığışarmış. Biri sazın sehrinə aludə olarmış, biri də sazın hikmətinə heyran qalarmış, biri sazın yandıran ruhuna kövrələrmiş, biri sazın sevincinə sevinərmiş, biri sazın sirrində dolaşarmış, biri də sazın

telləri üstündə gəzən barmaqları izlərmiş. Az sonra ustad yorulub sazı köynəyinə salar, özünəməxsus ilgənlə düyünlər, divardan asıb gedərmiş iş-güc dalınca. Onda da sazın telləri üstündə gəzən barmaqları izləyən qız sakitcə divardan sazı endirər, başlarmış yadında qalan havaları çalmağa. Belə-belə bir gün görür ki, daha sazı əlinə alan kimi nə istəsə çala bilir, lap elə atası kimi. Aşıq Mikayıl Azaflı isə çoxdan duyuq düşübmüş ki, kimsə onun sazını köynəyindən çıxarır. Bunu ilk əvvəl köynəyə vurduğu düyünlərdən bilir. Nəhayət sirr açılır. Ustadın sazına əl atan qızı Gülarəymiş. Neçə-neçə şagirdlər öyrədib yola salan ustad isə bu işə sevinmir, narahat olur. Aşıq sənəti çətindir, məsuliyyətlidir. Özü də qız uşağı üçün on qat çətindir. "Yox, mən qızlarımdan heç birinə bu sənətin dalınca getməyə razılıq verməzəm". Gülarə isə saza günü-gündən daha çox bağlanır, sazdan ayrıla bilmir. Bir gün atası ilə "üz-üzə" gəlir:

– Ata, on bir övladın var. Ustad adın, aşıq şan-şöhrətin Azərbaycanı çoxdan aşıb. İzn ver, qoy birimiz sənin davamçın olaq. Uşaqların içində mən saza daha çox bağlıyam. Sazdan ayrılmağımı ağlıma gətirə bilmirəm. Xahiş edirəm.

Aşıq Mikayıl Azaflı kövrək xahişin qabağında söz deyə bilmir, tutulur, gözləmədiyi söhbət qarşısında aciz qalır. Bu söhbətdən az sonra o, qızı Gülarənin saz çalmasına qulaq asır, ifasını dinləyir, bir müddət sonra isə xeyir-dua verir:

– Gərək məni eşidəydin. Aşıqlıq qadın üçün çox çətindir. Bu yolu aşmaq ömür-gününü sənətdə yandırmaq kimi şeydir. Ürəyin ki, istəyir, görürəm, qabiliyyətin də var, saza da mehrin güclüdür. Allah başının üstündən xeyirxah mələklərinin duasını əskik etməsin.

Elə bu ara el şairi Narınc Xatun onlara gəlib çıxır. "Aşıq Mikayıl Azaflı və Narınc Xatun" dastanının yazıldığı günlər imiş. Gülarənin istedadını duyan Narınc Xatun da aşığa minnətçi düşür. Sonra Gülarəni yaratdığı "Aşıq Pəri" məclisinə (1984) dəvət edir. Beləcə, Allah yetirmiş kimi, söhbətlər üst-üstə alınır

və gənc Gülarə artıq məclislərdə görünür. Hətta elə vaxt olur ki, atasıyla bir yerdə toy məclisinə dəvət olunur. Atası görür ki, Gülarənin ifasını dinləmək istəyənlər daha çoxdur. Öz-özünə qürurlanır. Çox vaxt isə çəkilərmiş bir kənara ki, "deyəsən, qız məndən çəkinir, mənim yanımda səsini sıxır". Atası daha çox Gülarənin ifasını bəyənərmiş. Hətta bir dəfə oğluna deyir ki, "fikir verirsənmi, Gülarə səsindən necə ustalıqla istifadə edir. Səsi elə xərcləyərlər ki, heç harada büdrəməyəsən. Birdən səsini zilə salıb sonra hardasa bir xırıltı, ilişgənlik olsa, ifan heç olur. Ona görə də səsdən elə istifadə et ki, axıracan gedəsən".

Aşıq Gülarə Azaflı bu gün bütün saz havalarını çalıb, oxuya bilir. Türkiyədə, Almaniyada, İraqda, Cənubi Azərbaycanda keçirilən folklor festivallarında iştirak edib, hər dəfə də mükafatlarla, sevinc dolu təəssüratlarla geri qayıdıb. İndi o özü saz havaları yaradır. "Ay qız, vəsməli gəlin" havası Gülarənin səs-sorağını qardaş Türkiyə elində daha da məşhurlaşdırdı. Təbrizdən sifarişlər aldı ki, əhd etmişik ki, oğlumun toyunu sən edəsən. Oradan dönən kimi bir başqa ölkədən tof sifarişi gəlib. Beləcə, sənətin sevinciylə, uğurlarıyla, atası demişkən, ömür-günü ötürür.

Saz sehrinə düşəli 72 adda saz havası olduğunu bilmişəm. Sən demə, əslində bu şərti rəqəmmiş. Bəlkə də 300-dən çox hava var. Hər ustad ən azı 7 hava yaradıbsa, gör hara gedib çıxır (ustadlar buyurub ki, hər kəsə 7-dən artıq hava olmaz. Çünki yadda saxlamaq çətindir). Mikayıl Azaflının 12 saz havası var. Bu gün xalqın ürəkdən bağlandığı, sevə-sevə zümzümə etdiyi "Azaflı dübeyti" ("Qoca qartal") "Azaflı gözəlləməsi", "Gözlər", "Mikayılı" və digər saz havaları Azaflıya məxsusdur.

Aşıq sənətinin öz sirləri var. Birincisi saz ələ alındımı, gərək "Ustadnamə"dən başlayasan. Ustadların ruhu eşqinə səslənən bu havanın hikməti, sehri çox güclüdür. Sonra başqa havalar üstə köklənə bilərsən. Bu mənada Gülarə xanımın aşıq taleyini atasının ruhu eşqindən ayıra bilmədim. Bu yazını sırf

Gülarənin yaradıcılığı əhatəsində qurmağı bacarmadım. Ustadının nigaran, narahat, qürurlu ruh eşqi bir mələktək Gülarəli düşüncələrimə hakim kəsildi. Bəlkə bu, daha yaxşıdır.

El sözüdür, sənətkar hər məclisdən evə dönərkən, təzə bir şey öyrənməlidir. Yüzlərlə məclislər yola salmış Aşıq Gülarə Azaflı bu gün sənətin dərinliklərindədir. Öyrənməkdən yorulmur, usanmır. Gözəl şeirlər yazır. Öz qoşduğu şərqiləri oxuyur. Elə məclis olub ki, 10 saat, 8 saat təkbaşına çalıb-oxuyub, yoruldum, deməyib. Çox güman ki, bu mükəmməllik, bu təkmilləşmə onu sabahın ustadı olmağa hazırlayır. Sazın bütün hikmətlərini mənimsəyən, ruhuna hopduran, qəlbinə doğmalaşdıran Aşıq Gülarə Azaflı bu gün yaradıcılığının şah pərdəsindədir.

Onu sevən, dinləyən, bəyənən bütün dinləyicilərinin ən böyük arzusu odur ki, Gülarə xanım sazın Şah pərdə ovqatından – Şah pərdənin sevinc qatından enməsin. Ucalara, ucalara yüksəlsin.

Ustad ucalığına qədər.

*"Xalq qəzeti"*
*18 fevral 1998-ci il*

## MÜƏLLİM UCALIĞI SEHRİNDƏ – SÖZ SEHRİ ZİRVƏSİNDƏ

***Yerişimizdən tanıyır o bizi,***
***Gözlərimizdən duyur qəlbimizi.***
***Nəsihətdir, öyüddür hər kəlməsi,***
***Anama bənzəyən anam var mənim.***

***Hər sözümüz, söhbətimiz biriydi,***
***Kədərimiz onun dərin dərdiydi,***
***Biz güləndə gözlərindən gülərdi,***
***Anama bənzəyən anam var mənim.***

***Müəllim – bir elin ocağı, közü,***
***Döyünən ürəyi, söhbəti, sözü.***
***Müəllim – torpağın baharı, yazı,***
***Bu dağlar yurdunun mehriban qızı.***

***Nə yaxşı varsınız, varsınız müəllim,***
***Anama bənzəyən anam var mənim.***

***Ülvi B.***

## FƏLSƏFİ FİKİR TARİXİMİZİN ŞƏHİD ALİMİ

"Heydər Hüseynov Sovet dövrünün ilk filosofu olub. Dünyanı elmi şəkildə o qədər dərindən dərk edib ki, sovet hökumətinin başı üstündən millətçiliyə üstünlük verib. Ona görə də dövlət onu aradan götürmək qərarına gəlib. Lakin Heydər Hüseynov bunu bildiyindən özünü öldürüb. Hətta ilk dəfə o vena damarlarını kəsib intihar etmək istərkən, onu müalicə edib sağaldıblar ki, öz "qanunlarıyla" cəzalandırsınlar. Lakin filosof ikinci dəfə buna müvəffəq olub. Yəni o intihar edib". Bunlar uşaq vaxtlarımda beynimə həkk olunub. Uzaq bir dağ kəndindəki evimizdə danışıblar, eşitmişəm. Onu da bilirdim ki, bu sözləri danışanların üz-gözlərində, elə özümün də qəlbimdə ona – Heydər Hüseynova qarşı xoş hisslər, böyük ehtiram var. Bunun mənasını sonralar başa düşdüm ki, ideya, mübarizə uğrunda ölmək, həmin ideya, mübarizə ilə bir yüksəklikdə, ucalıqda durmaq deməkdir. Milli hisslər, millətçilik və bəşəri duyğular içimizə hakim kəsildiyindən bu insanı dərk etmişik və ona onun ucalığında baxmışıq – fəxrlə, məhəbbətlə, istəklə, unudulmaz hisslərlə.

Heydər Hüseynov 1983-cü ilin 3 aprelində İrəvan şəhərində doğulub. 10 yaşına çatanda atası vəfat edir, anası və 2 qardaşı ilə birgə qalır. 1918-ci ildə erməni daşnaklarının təqib və təzyiqlərinə məruz qalaraq yer-yurdlarından didərgin düşürlər. Taleyin faciə gəmisi onları 1920-ci ildə Bakıya gətirib çıxarır. Bakıda orta məktəbdə, pedaqoji texnikumda, sonra Dövlət Pedaqoji İnstitutunda təhsil alır. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda aspirant olur. Azərbaycan Sənaye İnstitutu və Sovet Ticarəti İnstitutunda fəlsəfə müəllimi, Azərbaycan Sovet Ensilkopediyası Nəşriyyat Komitəsində elmi işçi, elmi katib, sonra isə Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı Rəyasət Heyətinin sədr müavini, sədri təyin olunur. 1945-ci ildə yenicə yaradılan Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü və prezident müavini, eyni zamanda

Partiya Tarixi İnstitutunun direktoru seçilir. Faktiki olaraq o, Azərbaycan Elmlər Akademiyasının ilk vitse-prezidenti olub. XX əsrdə ilk milli fəlsəfə məktəbimizi yaradıb.

Bu sətirlər şərəfli və şöhrətli, zəhmət və əziyyət dolu ömür yaşamış, fırtınalı və dəhşətli tarixin ziyalısı kimi tanınan Heydər Hüseynovun ömürlüyüdür.

Bu tarixləri qısa şəkildə ağ vərəqlərə yazmaq asandır. Amma bu ömürlüyü vərəqləmək, hadisələrin şahidinə çevrilmək ağırdır. Gah sevinirsən, gah həyəcanlanırsan, gah da... görünməyən bir xofun təlaşını yaşamalı olursan. Bunları isə o dövrün – 30-40-cı illərin bütün ziyalıları həyatda yaşayıblar. Heydər Hüseynov bu xofu, bu tufanlı M. Müşfiqdən, Ə. Cavaddan, B. Xulufludan, B. Çobanzadədən, H. Caviddən, S. Hüseyndən... bir qədər çox – düz 13 il çox yaşayıb. Gözü gecə qaranlıqlarını izləyə-izləyə yazıb-yaradıb. Milli hisslərlə qəlbi tüğyan edə-edə yazıb.

"Dialektik materializm", "Dialektika və metafizika", "Dialektik və tarixi materializm haqqında" fəlsəfə dərsliklərini – Azərbaycan dilində ilk dərs vəsaitlərini yazır. Azərbaycan klassiklərinin fəlsəfi baxışları haqqında məqalələr yazır. İkicildlik "Azərbaycan ədəbiyyatı tarixi", üçcildlik "Azərbaycan tarixi" kitablarını redaktə edir, onun şəxsi təşəbbüsü ilə Ü. Hacıbəyovun "Seçilmiş əsərləri" çapa hazırlanır, "Azərbaycanca-farsca-rusca lüğət", "Azərbaycanca-rusca frazeoloji lüğət" tərtib edilir. Bunlar EA-nın incəsənət bölməsində onun rəhbərliyi ilə həyata keçirilir-di. Azərbaycanda ictimai və fəlsəfi fikir tarixini təsnifləşdirən, onu metodiki vəsait formasına salan, nəşr etdirən Heydər Hüseynovun xidmətləri danılmazdır, əvəzsizdir. O dövr üçün bunlar – bu işləri görmək böyük risq idi. O, marksizm-leninizm fəlsəfəsinin daha çox təbliğ olunduğu zamanda, ab-havada yaşayırdı. Yüksək vəzifə sahibi kimi, tanınmış ziyalı kimi bu fəlsəfəyə öz münasibətini bildirməli, üz tutmalı, əsərlərində təbliğ etməli idi. Daha doğrusu, marksizm-leninizm fəlsəfəsi köklü surətdə araşdırıldığı, Sovet ideologiyası ilə uyğunlaşdırıldığı

dövrdə daha çox rus ziyalılarına – əsərlərinə istinad edilirdi. Heydər Hüseynovun filosof kimi, məhz milli filosof kimi böyüklüyü onda idi ki, o, fəlsəfi fikirlərini Azərbaycan klassikləri konteksində fəlsəfi fikirlərini formalaşdırırdı. "M. F. Axundovun fəlsəfi görüşləri" üzərində tədqiqat apararkən Leninqrada ezam olunması bu baxımdan böyük işdir. Onda çox gənc idi, cəmi 25-26 yaşı var idi. 33 yaşında – onun gələcək Akademiyanın ictimai elmlər şöbəsinin yaradılmasında, SSRİ EA Azərbaycan filialında və Azərbaycan Dövlət Universitetində tarixçi filosof kadrların hazırlanmasında xidmətləri çox-çoxdur. Həyat yoluna nəzər yetirdikcə, cəmiyyətdəki ictimai-siyasi ab-havanı duyduqca onun möhkəm iradəsinə, hərtərəfli istedadına, əməksevərliyinə, cəsurluğuna, yüksək insani keyfiyyətlərinə, mərdanə xarakterinə bələd olursan və onun Böyük Şəxsiyyət kimi ucalığına məhəbbətlə bağlanırsan.

Heydər Hüseynov tənqidçi, ədəbiyyatşünas kimi 1945-ci ildə Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunmuşdur. Onun ilk ədəbi mətbu yazısı ölməz C. Cabbarlının dramaturgiyasına həsr edilmişdir. "İnternasionalist dramaturq" (1938) adlı bu məqalənin nəşrindən sonra o, görkəmli rus maarifçisi N. Çernışevskinin ictimai-siyasi görüşləri ilə yanaşı ədəbi-bədii fəaliyyətini də araşdırmış və "Böyük revalyusioner-dramaturq" adlı məqalə (1939) dərc etdirmişdir. Onun ədəbiyyata, ədəbiyyatşünaslıq elminə marağı tanınmış ədəbiyyatşünaslarla, şair və yazıçılarla sıx münasibəti ilə də bağlıdır. 1935-ci ildə Leninqradda "M. F. Axundovun fəlsəfi görüşləri" adlı dissertasiya işi üzərində işlərkən o, Y. Bertelslə, İ. Meşşaninovla, Ermitacın direktoru M. A. Orbeli ilə yaxından ünsiyyət saxlamış, Bakıya qayıtdıqdan sonra bu münasibət uzun illərin dostluğuna çevrilmişdir. Onun Bertelsə yazdığı məktublar, onların bu məktublar vasitəsilə yaradıcılıq münasibətləri yaratmaları olduqca maraqlıdır. Hətta, Heydər Hüseynov özünün "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" adlı onu bəlaya salan əsərini Bertelsə göndərmiş

və əsər haqda rəyini bilmək arzusunda olduğu yazmışdır. Bertels isə həmin əsəri yüksək dəyərləndirmiş və EA-nın nəşrlərində əsər haqqında rəy dərc etdirəcəyini bildirmişdir.

Heydər Hüseynovun ədəbi görüşləri haqqında danışarkən onun Səməd Vurğun yaradıcılığına baxışlarını xüsusilə qeyd etmək vacibdir. "Vətənpərvər şair Səməd Vurğun" (1942) kitabçasında toplanmış məqalələr müəllif təhlili nöqteyi-nəzərindən diqqətəlayiqdir. Onun "Xanlar" pyesinə yazdığı iri həcmli, "Antifaşist şair" (1941), "Vətənpərvərlik dramı" ("Fərhad və Şirin" pyesinə yazdığı (1941) və daha sonra "Fərhad və Şirin" adlı geniş məzmunlu məqalələri ədəbiyyatşünaslıqda öz aktuallığı ilə maraqlıdır. Heydər Hüseynovun M. H. Təhmasibin "Bahar" əsərinə yazdığı rəy, S. Rüstəm yaradıcılığına münasibəti (xüsusən müharibə mövzulu şeirlərinə) barədə məqalələri vardır. O, 1945-ci ildə "Ədəbi qeydlər" adlı kitabını dərc etdirir. Bu kitaba özünün "Elm və mədəniyyətimizin inkişafı tarixindən" silsilə məqalələrini, Azərbaycan klassikləri Nizami, Xaqani, Xətai, Füzuli, M.P. Vaqif, A.A.Bakıxanov, M.C.Topçubaşov, Q. Zakir, M.F.Axundov, S.Ə.Şirvani, H.B.Zərdabi və başqaları haqqında fikir və düşüncələrini daxil etmişdir.

Nizami Gəncəvi yaradıcılığına diqqətini ayrıca qeyd etmək istərdim. Müharibə illərində, tam blokada şəraitində yaşayan Leninqradda "Nizami – 800" yubileyinin keçirilməsində Heydər Hüseynovun şəxsi nüfuzu böyük rol oynamışdır. Nizaminin "İsgəndərnamə" kitabına yazdığı ön söz də həmin illərin məhsuludur. Bu yazıda Heydər Hüseynovun ədəbiyyatşünaslıq fəaliyyətini bütövlükdə araşdırmaq məqsədində olmadığımızdan bütün məsələlərə toxunmaq mümkün deyildir. Təkcə onu da demək istərdim ki, Heydər Hüseynov Azərbaycan fəlsəfi fikrinin tanınmış və istedadlı nümayəndəsi kimi Azərbaycan ədəbiyyatına, onun tarixinə, elminə bütövlükdə, incəliyinəcən bələd bir ziyalı olub. Bu onun yazdığı, araya-ərsəyə gətirdiyi ədəbi düşüncələrində də, fəlsəfi görüşlərində də aydın görünür. A.A.Bakıxanov,

M.Kazımbəy, M.Ş.Vazeh, H.B.Zərdabi haqda ilkin araşdırmalar da tədqiqat məhz ona – Heydər Hüseynova məxsusdur. Onun antifaşist mövzusunda yazdığı məqalələrin tarixi (1934) faşizmin yenicə meydana çıxdığı dövrdən başlayır.

Haqqında "O məni ya qaldıracaq, ya da öldürəcək" dediyi "XIX əsrdə Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən" (1949) adlı son kitabı – son əsəri çapdan buraxıldı. Bu elə bir dövr idi ki, Stalin–Bağırov represiyasının ikinci dalğası başlanmışdı. 1937-39-cu illər qətliamlarından ötən nisbətən sükutlu (daha çox müharibənin baş qatdığı) illərdən sonra növbəti qətliamlar sırası başlayırdı. Və bu qətliamın ilk qurbanlarından biri olmaq Heydər Hüseynovun qismətinə yazılırdı. Bağırov – ölkənin böyüyü Mircəfər Bağırov cəllad donunu geyib taxtda yerə-göyə meydan oxuyurdu. Sanki dünya durduqca bu da duracaqmış kimi. Heydər Hüseynov isə bu əsərini yazıb, nəşr etdirib, dostlarına göndərincə, oxucularına yetirincə bunlardan xəbərsiz idi. Əsər nəşr olunandan az sonra yüksək dəyərləndirildi. Şərqşünas alim Bertelsin məktublarını xatırlayaq və ya Kryuçkovun qeydləri unudulmazdır. Bu əsərin sədası çox-çox uzaqlara yayıldı. Hər tərəfdən xoş təbriklər, yüksək rəylər gəlirdi. SSRİ Yazıçılar İttifaqının rəhbəri, "Stalin" mükafatı komissiyasının sədri A. Fadeyev əsəri Stalin mükafatına təqdim edir. (H. Hüseynov ilk Stalin mükafatını bundan bir neçə il əvvəl almışdı). Bütün bunlar 1949-cu ildə baş verdi. 1950-cı ildə isə başqa küləklər əsməyə başladı. Sən demə, əsərin "Müridizm və Şamil" məqaləsinin iki səhifəsində "panislamizm", "pantürkizm" meylləri "varmış". Bu əsas tutularaq Heydər Hüseynov 42 yaşınacan qazandığı bütün hər şeydən məhrum edildi. Vəzifələrindən, partiyadan çıxarıldı, Dövlət mükafatları geri alındı. Bircə qaldı əzrail Bağırovun adamlarının onun qapısını döyməsi məqamı. Düz 6 ay o, bunu gözlədi. Məqam yetişcək isə intihar etdi. Bu intihar yox, dediyi həqiqətlərə sadiqliyi, yüksəkliyi, ucalıqdan, zirvədən – milli qürur zirvəsindən enməmək idi. Namus, qeyrət idi. Onun ruhu göylərə ucaldı, Bağırov bu

böyüklüyə də yanıb-yaxıldı. Bir faktı da xatırladım ki, Bağırovun "gecə adamları" sumbatov-topuridzelər, qriqoryanlar, markar-yanlar, alimlərə Bağırov gözüylə "nəzarət edən" isə dustaqlara qarşı amansız münasibətinə görə partiyadan uzaqlaşdırılmış Timo-şenko idi.

1950-ci il 15 avqustda Şüvəlanda ruhu bu dünyanın zillətlərindən zinhara gəlmiş bədənindən qopub göylərə ucaldı. Bu məqamda bir hadisəni xatırladım: 1989-cu ildə M.Müşfiqin 80 illik yubiley gecəsinə SSRİ-nin bütün paytaxt şəhərlərindən, digər ölkələrdən yüksək səviyyəli ziyalılar – şairlər, alimlər, gəlmiş-dilər. Deyəsən, latviyalı çıxışçı idi. O, M.Müşfiqin böyük portre-tindəki həyat dolu baxışlarını diqqətlə süzərək üzünü məclisə tutdu və dedi ki, nə Stalin, nə də Moskva bu gözəl oğlanı, gənc şairi nə görmüşdü, nə də ölümünə fərman vermişdi. Bəlkə görsəydi heç qıymazdı. Siz özünüz ona qıymısınız, öldürmüsünüz. İstəsəydiniz onu represiya recimindən qoruya bilərdiniz. Çünki onun günahı olmayıb. Zalda qəribə səs-küy yarandı, alqış səsləri eşidildi. İclas məmurları isə sərt görünüşlə sifətlərini bozartdı və bununla çıxışını tezləşdir demək istədilər.

Heydər Hüseynovu dövrünün rus ziyalıları tanıyırdılar. İstedadına qibtə edirdilər, hörmət bəsləyirdilər. Bakıda isə paxılları günü-gündən onun meydanını daraldır və məhvinə yol axtarırdılar. Beləcə, hər şey bitdi.

Bitdimi? Bəs özünü milli-azadlıq duyğularına, milli təəs-sübkeşliyinə qurban vermiş mütəfəkkir insanın mənəvi haqqı, mənəvi ömrü tamamlandımı?

Yox!

Ən əvvəl onun qızı, Sara xanım Hüseynova atası haqqında yazılarla mətbuatda göründü. Atasının gördüyü işləri, etdiyi xidmətləri, keçdiyi ömür yolunu indiki nəsilə tanıtdırdı, onu tanı-yanlara xatırlatdı. Atasının mənəvi haqqını insanlardan, ziyalılar-dan umdu. Ara-sıra onun haqqında yazılar göründü. Və nəhayət, 1998-ci il 31 martda ölkə Prezidenti Heydər Əliyev Heydər

Hüseynovun 90 illiyinin qeyd olunması üçün sərəncam imzaladı. Heydər Hüseynov ləyaqəti, şərəfi, ömür tarixi hər yerdə xatırlandı, vərəqləndi və o, müstəqil Azərbaycanın həyatına, tarixinə milli-azadlıq ruhlu bir filosof, namuslu, şərəfli bir insan kimi yenidən qayıtdı.

*"Xalq qəzeti"*
*22 may 2003 – cü il*

*"Atilla" №1*
*"2004 , səh.30*

# SUSMUŞ ÖMRÜN YAŞIL YARPAĞI ÜRƏKLƏRDƏKI MƏHƏBBƏTDIR

Gələcəyə, gəncliyə örnək olası ömür yaşamış böyük şəxsiyyətlərdən biri də tanınmış pedaqoq, ictimai xadim Tapdıq Əmiraslanovdur (1918-1976).

Tapdıq müəllimin xaraktercə hökmü, zəhmi nə qədər ağır olsa da, yüksək, nəcib insani keyfiyyətləri ilə hamının rəğbətini qazanmış, haqqı tapdananların ümid qapısına çevrilmişdi. Ona görə də bu ağayana duruşlu, üzündə-gözündə haqq işığı görünən, səmimi davranışıyla insanları özünə mərhəmləndirən şəxs çox adamların, ən əvvəl isə Basarkeçər rayonu ərazisində yaşayan xalqının əzizi, sevimlisi idi.

Onun haqqında əhatəli yazmaq üçün şəxsən onu tanıyanlarla, onunla eyni vaxtda maarif sahəsində çalışanlarla, dost-tanışlarıyla söhbət edib, ötənləri həzin xatirələrlə andıq. Görüb qəlbimdə yaşatdığım xatirələrə, eşitdiklərimə, eləcə də övladlarına yazdığı məktublardakı isti duyğularına, səmimi münasibətlərinə, ata-ailə məhəbbətinə, vətən, millət təəssübünə söykənib ilkin tanışlıq üçün bir yarpaq söz demək istədim.

Tapdıq müəllim çox gənc – 23 yaşından kənd orta məktəbində direktor işləyib. Ali təhsilini İrəvan şəhərində fəaliyyət göstərən Azərbaycan Pedaqoji Məktəbində alıb (1933-37). Gənc mütəxəssis biliyinə, qabiliyyətinə görə irəli çəkilərək 1950-ci ildə Basarkeçər rayon partiya komitəsində şöbə müdiri vəzifəsinə təyin edilir. Dörd ildən sonra isə o, partiya komitəsinin II katibi seçilir. Rəhbər vəzifədə işlədiyi illərdə həmişə ermənilər tərəfindən daim yerli-yersiz əzilən, döyülən, təhqir olunan millətinin təəssübünü çəkib, onlara arxa olub. Kəndlərdə yaşayış tərzinin yaxşılaşdırılması qayğısına qalıb, vaxtaşırı əhalinin dolanışıq imkanlarını genişləndirməyə cəhd göstərib. Vəzifə imkanlarından istifadə edərək, hüquqi qanunları əsas götürərək məntiqlə danışıb ki, sözünü nahaq, əsassız sözlə

kəsməsinlər. Üstəlik də erməni dilini təmiz bildiyindən ermənilər boğula-boğula qalmışdılar. Onu rəhbər aparatdan birtəhər aralamaq üçün fürsət, məqam axtarırdılar. Bu vəzifədə beş il işləyəndən sonra rayon maarif şöbəsinə müdir (1959) təyin edildi. Tapdıq müəllim ona qarşı olan sərtliyi, ögeyliyi görsə də, sezsə də qətiyyətini heç vaxt sındırmayıb. Ömrünün axırınacan (1976) rəhbərlik etdiyi maarif sahəsindəki fəaliyyətinin, fədakarlığının nəticəsi hər an yerli əhalinin gözü önündə olub. Rayonun çox kəndlərində (təbii ki, söhbət azərbaycanlılar yaşayan kəndlərdən gedir) ən əvvəl, tezliklə ikimərtəbəli, yaraşıqlı məktəblər tikdirdi, çox kəndlərdə belə məktəblərin inşası üçün hazırlıq işləri gördü. Demək olar ki, bütün kəndlərdə uşaq bağçaları açaraq körpələrin istirahəti, əyləncələri, məşğuliyyəti üçün şərait yaratdı. Kəndlərin 80 faizində səkkizilliyi ləğv edib, orta təhsil sistemi yaratmağa nail oldu. Adamı qılınc kimi kəsən şaxtalı qış günlərində uşaqların 5-6 km, bəzən 10-12 km uzaqda olan başqa kənd məktəblərinə gedib-qayıtmasının qarşısını beləcə alırdı. Bütün siniflər üzrə şagirdlərin dərsliklərini vaxtında təşkil etdirir, onların təlim-tərbiyəsinə, davranışlarına xüsusi diqqət yetirirdi. Dərslərin yüksək səviyyədə tədris olunması üçün ciddi tələbkarlığı da var idi. Bir gündə 6-7 kənd məktəbinə baş çəkər, şagirdlərin dərsə hazırlıq qabiliyyətinə şəxsən diqqət yetirərdi. Zaman axarında o qədər də uzaq olmayan xatirələri fikrimdə çözələdikcə, bu qayğıkeşliyi, həssaslığı övladlarına yazdığı məktublarında da görürəm. İçindən gələn bu canıyananlılıqda səmimiyyəti, alicənablığı sezməmək olmur. Məktublardan bir neçə sətri oxucuların da nəzərinə yetirirəm. “Oğul, sən onu bil ki, çox məsul və vacib bir borc ödəyirsən, hər şey qətiyyətindən, çətinliyə dözməyindən asılıdır. Sən bilməlisən ki, vətənə xidmət çox şərəfli və çətin işdir... İnsan iradəli olmalı və çətinliklərə üstün gəlməyi bacarmalıdır”... “Oğul, boş vaxt itirmə. Bədii kitablar oxu. Səbr və mətanətlə oxumaq lazımdır”. “Dərsə ac getməyin. Nadinc uşaqlara qoşulsanız, hər şey puç olacaq. Başqa təhlükələr də baş

verə bilər.  Siz təkcə oxuyun" və s. Ata narahatçılığı, müəllim öyüdü.  Məktublardakı bu sətirləri oxuya-oxuya Tapdıq müəllimin sinfimizə daxil olması, bir az çevik, dilli-dilavər görünən uşaqlara diqqətlə yanaşması, səliqəli, ağıllı təsir bağışlayan şagirdlərin saçlarını tumarlamağı gözümün önünə gəlir.  "Həə, bu sinifdə neçə qoçaq oxuyan var" – deyimində bir müəllim-valideyn narahatçılığını sezməyə bilmirdik. Xatırladım ki, o, rayon təhsil şöbəsinin müdiri kimi bizim məktəbimizə də tez-tez gəlir, siniflərə daxil olur, bəzən də bütöv bir dərsimizdə oturardı. Bunlar olduqca xoş, ibratəmiz, görüb-götürüləsi xatirələrdir.

Erməni azğınlarını yerində oturtmaq onun gərgin ovqatına səbəb olurdu. Ermənilər "türk" deyə hər an qanlarını içməyə hazır olduqları bir xalqın qulluğunda onun necə fədakarlıqla, qeyrətlə dayandığını görüncə kəsilə-kəsilə qalırdılar. Ondan çəkinirdilər, zəhm edirdilər. Bu səbəbdən qabağına keçib söz deməyə cəsarətləri çatdırmırdı. Amma əlaltından öz işlərini görürdülər. Onun öz dəsti xəttilə yazdığı məktubları gözdən keçirirəm: "Oğul, unutma ki, xoşbəxtlik olan yerdə həmişə bədbəxtlik də olur... Çətinliyə döz. Bax, bu məktubu ürəyim ağrıyan zaman yazıram... Mənim işim o qədər də yaxşı deyil... Ürəyim ağrıyır. Bərk yorulmuşam... Bizim idarədə dedi-qodu var... Tez-tez xəstələnirəm...Yoxlamaya tez-tez mərkəzdən adamlar gəlir...Nə qədər dözülməz imkanda olsan da baş-ladığın işi şərəflə yerinə yetirmək lazımdır...O şey ki, vətən naminədir, əsirgəmə... İnsan özü-özünə hesab verməlidir..."və s.

Beləcə, səmimi hisslərlə toxunmuş fikirlər, sözlər, əyilməz, dizçökməz vüqar qarşısında heyrətə gəlirsən. Bir anlıq da olsa şərəfli, ibratəmiz həyat məktəbi önündən keçirsən. O, hər şeyə ona görə dözüb Azərbaycana köçmürdü ki, Basarkeçər camaatını bütövlükdə başsız-yiyəsiz qoymağa qıymırdı, bu addımı atmağa ürəyi gəlmirdi, amma ürəyi də içəridən bu dözülməzliklərə dözə bilmirdi, ağrıyırdı, ovulurdu. Tapdıq müəllim Basarkeçər əhalisinin qayğısını, dərdini, problemlərini, narahatlıqlarını beləcə

içində ağrıya-ağrıya çəkmiş, əvəzində bir el sevgisi qazanmışdır. Bir də vicdanı qarşısında saf, rahat olmuşdu. O illərdə orta məktəbi qurtarıb əla qiymətlərlə müxtəlif ali məktəblərə uşaqların çox-çox payı rüşvətsiz, tanışsız-filansız (ən ağrılı yerimizdir!) daxil olurdular. Yüzlərlə gəncin parlaq, sevimli gününə ürəkdən yanan bu böyük pedaqoq, əvəzsiz vətənpərvər oğul yamanların hər an atdığı daşlara ürəyini qabaq verirdi. Sevgi üçün, müqəddəs əməllər üçün yanan ürək nankorluğu, düşmən qəsd-qərəzliyini götürməz. Ağrıyar, ağrıyar və bir gün də susar...

Tapdıq Əmiraslanov yenə adəti üzrə xidməti iş dalınca getmişdi. Sürücüsü birdən onun halının pisləşdiyini görür və vaxtı itirmədən maşını rayon mərkəzindəki xəstəxanaya sürür.

Həkimlər əlüstü onu “müayinə edirlər”, ilkin yardım üçün bir iynə vururlar... və elə o, iynədən az sonra bir daha ayılmır. Ömür köçünü 58 yaşında əbədiyyat dünyasına ötürür.

O vaxtdan 27 il ötüb. Atalarının arzularını övladları Əhliman, Zəfər, Vaqif elmi və əməli fəaliyyətləri, xeyirxah insani münasibətləri ilə həyata keçirirlər. Ataları onların bu xalqa, torpağa hansı mövqedə çalışmalarını istəyirdisə, onlar da elə o pilləni öz zəhmətləri, halallıqları ilə qazandılar. Oğlu Əhliman Əmiraslanov dünya tibb elminin zirvəsinəcən qalxıb, onun adı-sanı, şərəfi bizim hər birimizə baş ucalığı, fəxr-fəxarətdir. Təsadüfi deyil ki, bu övladlara boy verib böyüdən, araya-ərsəyə gətirən ana Göyçə elinin kərəm səxavətli, Koroğlu qeyrətli oğlu Səməd ağanın ocağında doğulub tərbiyə alıb.

Tapdıq Əmiraslanovun zaman təqvimində ömür tarixi 85-i haqlayıb. Qədirbilən insanlar onu unutmur, xatirələrdən silmirlər. Şərəfli, namuslu işlərinin, xeyirxahlıqlarının əvəzi olan ürəklərdə yanan sevgilər onun susmuş ömrünün yaşıl yarpağıdır.

*"Ekspress"*
*28-30 noyabr 1998-ci il*

## QƏŞƏM ASLANOV
## HƏYAT MƏKTƏBİ, QEYRƏT SİMVOLU

### GÖYLƏR TƏKİ SEVGİLİ :

Min bir düzə dağılmış Göyçə əhli beş ildir ki, dediyindən dönmür: "Elin Qəşəm oğlu sağ olsaydı, camaatına bir gün ağlardı və Göyçəni viran qalmağa da qoymazdı". Göyçənin taleyini tarix özü belə qara düyünlərlə qaralasa da, dar gündə millətin Qəşəm qeyrətinə, Qəşəm gücünə, Qəşəm söykənəyinə möhtac hissi qabarıq göründü. Və əslində bu, olduqca təbii sevgi, ümid yeri idi.

Azərbaycan yurdunun başı üstünü qara qovğalar alan gündən Qəşəm müəllimin ruhu, xəyalı bir an qəlbimdən uzaqlaşmamışdır. Sanki hər addımbaşı onu görmək, həssas şair qəlbinin döyüntüsünü eşitmək hissiylə bir anlıq dayanmışam. Qəti inamla deyirəm ki, həmin istəklərimin axarıyla gözləmədiyim iri bir qovluq indi gəlib əlimə çatıb: kitaba dönəcək yazılar qovluğudur bu.

Göyçənin göylər qədər sevgili oğlu Qəşəm Aslanovun ürəyinin nuru həm də bu qovluqda toplanmış yazılarda közərir. Həmin közərtinin işığında da bir oğul-övlad məhəbbətinin şahidi oldum. Qəşəm Aslanovun yarımçıq, faciəvi qırılan ömründən qalan izi – bədii, publisistik yazıları oğlu Qeyrət bir kitab halında görmək niyyətilə xeyli iş görüb: atasının arxivindəki əlyazmaları səliqəylə nizamlayıb, səhmanlaşdırıb, səhifələrə düzüb. Və günlərin birində həmin yazıları bu qovluqda qoltuğuna vurub, nəşriyyata üz tutmaq istəyib. Ancaq ölümün qara kölgələrinin başı üstdə səyridiyini duycaq ayaq saxlayıb. Əcəldən aman istəyib, əcəlsə üzünü yana çevirib. Sonra "qurşaq tutublar". Neçə il gah əcəl ona, gah o əcələ zor gəlib. Axırda... axırda qara bir yuxuda əcəl fürsəti əldən buraxmayıb. Qılıncını Qeyrətin cavan ömrünə saplayıb. Və... o an kədər yaylığına bürünmüş yer-göy üz-üzə

gəlib. Qeyrətin ruhu atasının ruhuna sığınıb və üz tutublar işıqlı göylərə...

Qəşəm Aslanovun satirik hekayələr və miniatürlərindən ibarət "Saymazovun salamı" (1968) adlı kitabı İrəvanda nəşr olunubdur. Vaxtaşırı dövrü mətbuatda Eloğlu imzasıyla şeirlərini dərc etdirirdi. Gözəl jurnalist, Vətən qədri bilən bacarıqlı yurd başçısı, millət dərdinə, qayğısına can qoyan həssas, humanist insan idi.

**Haşiyə:** İsmayıllıda xeyli əvvəl baş vermiş bu hadisə artıq əfsanələşib: Qoca bir kişi qışın oğlan çağında üz tutur meşəyə. Gücü çatan bir ağacı baltalayıb yanı üstə yıxır. Qol-budaq edir, tutarlı bir odun şələsi düzəldir və gəldiyi cığırla yönəlir evinə. Meşəbəyi bu hadisəni görcək dəli olur, qırdırma yolla odunçunun başının üstünü kəsir; nə deyir, nə deməyir, ürəyi soyumayır, kişini şələsi qarışıq gətirir düz hökumət binasının qabağına, hay-küyə hamı çölə çıxır. Hadisəni bilən  hökm sahiblərinin hərəsi qocaya qarşı bir cəza növü buyurur: min manat cərimə olunsun, var-dövləti müsadirə edilsin, həbs edib iki-üç il iş verilsin və s. Bunları eşitdikcə qoca bədbəxt qorxusundan tir-tir əsir. Elə bu vaxt Qəşəm Aslanov gəlib çıxır. Əhvalatdan xəbər tutur: sağ-solda gəzişənlərin "fərmanlarına" qulaq asır. Meşənin "qoruq" kimi qorunması əmrini imzalayan Qəşəm Aslanov bir az fikirləşir və meşəbəyini yanına çağırır: "Qocanı burax, getsin evinə. Min manatı olsa, gedib özünə odun-oduncaq alar, soyuqda meşəyə üz tutmaz, müsadirə olunası var-dövləti varsa, kasıb yaşamaz, iki-üç illik həbs edib iş kəssək, bəs evindəkiləri kim dolandırar? Bu kişinin yaz açılcaq qapısını döyərsən və ona bir ağac əvəzi on ağac əkdirərsən və üç il həmin ağacların qulluğunda durmasına göz yetirərsən." Yekun fərmana sevinən qocanın gözləri yaşarır.

O, el karına gələn humanist bir insan kimi sevilib, sevilir. Qəşəm Aslanovun söz karvanına düzülmüş yazılarını – məqalələrini, miniatürlərini, povest və xatirə-qeydlərini oxudum. Hər səhifədə Göyçənin nəfəsini duydum, dağlarında pıqapıqla

qaynayan bulaqlarının ahəngini eşitdim. O, yaşadığı dövrün ictimai bəlalarını həmişə görüb, cəmi bir neçə kəlməylə miniatürlərində ürəyini boşaldıb.

– Mükafata bizimkini də yazımmı?

– Kimlərinkini?

– Kimlərinkini yox, bircə bizim uşaqların anası Mülayimi deyirəm.

– Bəs nə üçün "bizim" deyirsən? Deynən mənim arvadım Mülayimi.

– Yox, yox, yoldaş Hətəmov, cəmiyyətin bərabərhüquqlu bir üzvünü özümə xüsusiləşdirməyə, "mənim" deməyə nə ixtiyarım var! Bu ki, "fərdiyyətçilik" olardı?!

– Bəs sizinkinin adına havayı yerdən yazmaq istədiyiniz mükafat?

– Siz ki, canlı insanla əl kiri olan pulu eyniləşdirirsinizsə, onda mən daha nə deyim...

Məncə, əlavə izahara ehtiyac yoxdur. Oxucu hələ bizdən uzaqlaşmamış xəstə ictimai mühitin abı-havasını bu əsərdə gözəlcə duyar.

Həmin qovluqda "Ömürdən səhifələr" yazısında böyük həyat yolu keçmiş insan taleyi gördüm. O talenin ilk səhifəsi bəlkə də elə buradan başlayıb:

– Bir gün qonşu uşaqları ilə əlbəyaxa olanda məni bərk döydülər. Ağlaya-ağlaya evə qayıtdım, anamı köməyə çağırdım. Anam məni çox istəsə də, istədiyi qədər də kötəklədi:

– Mənə döyülüb, evə gözüyaşlı qayıdan oğul lazım deyil, – dedi. Mən də o gündən çalışdım ki, getdiyim yerdən "məğlub", "gözüyaşlı" qayıtmayım...

Qeyrətin oğul məhəbbətiylə tərtib etdiyi "Qəşəm Aslanov. Qurdum ki, izim qala" kitabının oxucularıyla görüşəcəyi gün də olacaq. Bu, bizdən Qəşəm Aslanovun şair qəlbinə, ölümsüz ömrünə. Qeyrət zəhmətinə xatirə olacaq. Yaşıl bir xatirə.

*"Ədəbiyyat qəzeti"6 noyabr 1993-cü il*

## HƏYAT MƏKTƏBİ, QEYRƏT SİMVOLU

– Oğul, a qızım, haralardansan?

– Göyçə mahalının Kəsəmən kəndindən.

– Qəşəm Aslanovun kəndindənmi?

Bu bələdləyici ünvan həmişə ürəyimi qürurlandırıb. İçimdəcə öz-özümə öyünmüşəm, sevinmişəm, yerə-göyə sığmamışam. El-elat ki, ziyalısıyla, şərəfli, namuslu ər-igidiylə tanındı, daha o elmi suyundan-torpağından yoğrulanların dərdi-qəmi olmaz, başı uca, ürəyi toxtaqlı olar. Çox güman ki, Qəşəm Aslanova da bu sual veriləndə belə cavab eşidilib:

– Dədə Ələsgərin, Səməd ağanınmı yurdundansan?

– Bəli.

– Oğul, o torpağın çörəyi halalın olsun, o yurdun söz padşahlarının, kərəm səxavətli oğullarının şöhrəti şərəfin olsun.

Qəşəm Aslanov o şərəfi həyat yoluna çıraq tutdu. Ağlıyla, iti zəkasıyla, bacarığıyla, zəngin dünyagörüşüylə özü çırağa döndü və ona pənahlanan hər kəsin yoluna, ömrünə nur çilədi.

Cəmi Azərbaycanın çox-çox uzaqlarda yaşayan qədirbilən dost-tanışların hörmətlə, izzətlə saydığı Qəşəm Aslanov – o böyük şəxsiyyət doğulduğu kənddə – hər evdə, hər ailədə "Qəşəm müəllim" kimi sevilib, əzizlənib. O, Göyçə torpağının, Göyçə camaatının qüruru, şöhrəti olub. Qəşəm müəllim də öz Göyçəsi ilə öyünüb. Bu gün düzə dağılmış Göyçə əhli neçə illərdir ki, bir inamını dilindən yerə qoymur:

– Elin Qəşəm oğlu sağ olsaydı, camaatına bir gün ağlardı, heç Göyüçəni viran qoymağa da qoymazdı. Ancaq Göyçənin taleyini tarix özü belə qara düyünlərlə bəndləsə də, dar gündə millətin Qəhəm qeyrətinə, Qəşəm gücünə, Qəşəm söykənəyinə möhtac hissi qabarıq göründü.

Qəşəm Aslanov 1935-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olmuşdur. Atası Novruz baba kəndin sözü ötən, hörmətli, qayğıkeş ağsaqqalarından biri,

anası Səkinə nənə isə xanım-xatın, ədəb-ərkanlı el anası kimi böyük urvat yiyəsi olublar. Ailədə iki qardaş, üç bacı böyüyüblər.

Qəşəm müəllimin həyat yolunu vərəqlədikcə onun əvəzolunmaz bir şəxsiyyət kimi böyüklüyü qarşısında baş əyməyə bilmirsən. mən onu həyatda görməmişəm. Amma evdə-ailədə, kənddə, el-oba  dtlində, ayrı-ayrı şəhər və kəndlərdə, elm, xadimləri, dövlət məmurları yanındakı söhbətlərdə onun haqqında yazşı fikirlər, səmimi sözlər eşitmişəm.

Oxuculara təqdim olunan bu kitabı 10 ildən də çox qabaq Qəşəm müəllimin böyük oğlu Qeyrət tərtib etmişdi. Atasının yarımçıq, faciəvi qırılan ömründən qalan izi, xatirəni – bədii, publisistik yazıları 23 yaşlı Qeyrət bir kiğab halında görmək niyyətilə xeyli iş görüb: atasının arxivindəki əlyazmaları səliqəylə imzalayıb, sahmanlaşdırıb, səhifələrə düzüb... Ancaq amansız dərd-əcəl qılıncını Qeyrətin cavan ömrünə sapladı...

...Nəhayət, bu kitab qarşınızdadır. Və mən kitabı çapa verərkən Qəşəm müəllimin arxivinə bir də nəzər yetirmək ehtiyacında oldum. Onun haqqında eşitdiklərimi-bildiklərimi təkmilləşdirmək xatirinə evə üz tutdum. Qapını 16 yaşlı sonbeşik oğlu Cavanşir açdı.

Hər şeydən əvvəl diqqətimi çəkən onun tərcümeyi-hal xronikası oldu: 1959-cu ildən Sov,İKP üzvü, Bakı Dövlət Universitetinin filologiya-jurnalistika fakültəsinin, 1966-1988-ci illərdə Moskvada Sov.İKP yanında Ali Partiya Məktəbini bitirib. Bunlardan əvvəl isə kənd müəllimi, rayon qəzetinin əməkdaşı olub. 1968-ci ildə Azərbaycan KP MK-nın inspektoru, 1970-1972-ci illərdə "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, 1972-1975-ci ildə Şuşa rayon, 1975-1984-cü illərdə İsmayıllı və Abşeiron rayon partiya komitələrinin birinci katibi vəzifələrində çalışıb.

Eyni zamanda jurnalist-publisist kimi mətbuatda imzası tanınıb. "1968-ci ildə Yerevanda "Saymazovun salamı" miniatürlər kitabını çapdan buraxdırıb. "Eloğlu" imzasıyla şeirlərini qəzetlərdə, jurnallarda, almanaxlarda çap etdirib.

Qəşəm müəllimin 1966-68-ci illərdə Moskvada təhsil alarkən yazdığı gündəliklərini vərəqləyirəm. 7 ədəd 96 vərəqlik dəftərə gözəl, səliqəli xətlə yazılmış "xatirələr, düşüncələr, təəssüratlar" – gündəliyində onun çoxc mənalı, son dərəcə işgüzar, çalışqan günlər keçirdiyinin şahidi olursan. Bu gündəliklərdə o, məktublaşdığı, görüşdüyü, əlaqədə olduğu saysız-hesabsız yaradıcı-ziyalılar barədə qeydləri vardır. Gündəliklərdən qeydlər götürürəm.

–...İnsanın arzusu, ideyası böyük olmalıdır. Böyük arzu, böyük inam olmadan, böyük adam, böyük şair, böyük alim, böyük sərkərdə olmaq mümkün deyildir. Yaxın, xırda arzu adamı xırdaldır, tarixinə yaxınlaşdıqca unutdurur. Füzuli nə üçün böyük idi. Çünki onun sevgisi snvgiyə çatmaq üçün məsafəsi böyük idi, onu vətəndan böyük məsafə ayırdı. Koroğlunu böyük edən onun intiqam eşqi idi...

– Xəlil Rzadan məktub almışam. O yazır: "Cəsur qardaşım Qəşəm Aslan! Məktubun bizi sevindirdi. Əzizim, 50-dən artıq azəri ilə əlaqə yaratmağınız təqdirəlayiq bir işdir. Qoy əlini sıxdığın 50-dən artız azəri həndəsi silsilə ilə artsın. Bizim də işlərimiz pis deyil. Bu gün Basarkeçərə telefon etmişəm. Dədəmlə danışdım... "Yoldaşlarınla mehriban ol, dostluq elə". Məni xeyirxahlığa, alicənablığa səsləyir. Dədəmin səsi gümrahlığından xəbər verir. Eşq olsun sənə, sənin mənəviyyatına. Vəzifən böyük olmasa da, böyük, işıqlı ürəyin var. Kaş mən də insanlıqda sənin yüksəkliyinə qalxa biləm, sənin kimi ali duyğular sahibi olam, dədə!

– Moskvaya gəldiyim 50 günlə 53-cü məktubu alıram. Və sair və ilaxır. Bu gündəliklər yaşanmış böyük bir ömürdən xəbər verir. Mükəmməl, nəsihətamiz kəlamlarla, şərəfli niyyətlərlə dolu bu yazılar sanballı neçə kitabın xammalıdır. Aydın fikirlər, sağlam arzular, ali ideyalar, saf duyğular – ən yüksək insani əxlaq bu yazılarda cəmlənib. Bunları nəzərdən keçirdikdə fikrimdə Qəşəm müəşşimin yaşadığı, yaratdığı ömün-həyat yolu canlanır. O,

Şuşada birinci katib işlərkən böyük quruculuq işləri aparmış, maarif və mədəniyyət sistemində, tikintidə, tarixi abidələrin, yolların, içməli su xətlərinin çəkilişində və bərpasında, eləcə də digər sahələrdə illərlə yığılıb qalmış problemləri, çətinliklə də olsa həll etmişdir. Günü bu günə qədər də Şuşanın namuslu övladları Qəşəm müəllimi hörmətlə, sevgiylə, əsl Azərbaycan təəssübü çəkən Vətən oğlu təki xatırlayırlar.

İsmayıllıda işlədiyi müddətdə bərbad yolları düzəltdirdi, ucqar kəndlərə yol çəkdirdi, körpülər tikdirdi. "Qəşəm körpüsü", "Qəşəm bulaqları" o illərinin xatirəsi oldu. O, el karına gələn humanist bir insan kimi sevilib, sevilir.

İsmayıllıda xeyli əvvəl baş vermiş bir hadisə artıq əfsanələşib: qoca bir kişi qışın oğlan çağında üz tutur meşəyə. Gücü çatan bir ağacı baltalayıb yanı üstə yıxır. Kol-budaq edir, tutarlı bir odun şələsi düzəldir və gəldiyi cığırla yönəlir evinə. Meşəbəyi bu mənzərəni görcək dəli olur, qırdırma yolla odunçunun başının üstünü kəsir: nə deyir, nə demir, ürəyi soyumayır, kişini şələsi qarışıq gətirir hökumət binasının qabağına. Hay-küyə hamı çölə çıxır. Hadisəni bilən hökm sahiblərinin hərəsi qocaya qarşı bir cəza növü buyurur: min manat cərimə olunsun; var-dövləti müsadirə olunsun; həbs edib iki-üç il iş kəsilsin və s. Bunları eşitdikcə qoca bədbəxt qorxusundan tir-tir əsir. Elə bu vaxt katib Qəşəm Aslanov gədib çıxır. Əhvalatdan xəbər tutur: sağ-sodda gəzişənlərin "fərmanlarına" qulaq asır. Meşənin "qoruq" kimi qorunması əmrini imzalayan katib Qəşəm Aslanov bir az fikirləşir və meşəbəyini yanına çağırır: "qocanı burax, evinə getsin. Min manatı olsa, gedib özünə odun-oduncaq olar, soyuqda meşəyə üz tutmaz, müsadirə olunası əmlakı varsa, kasıb yaşamaz, iki-üç illik həbs edib iş kəsçək, bəs evdəkiləri kim dolandıracaq? Bu kişinin ordusunu ver getsin. Yaz açılcaq isə qapısını döyərsən və ona bir ağac əvəzi on ağac əkdirsən və üç il həmin ağacların qulluğunda durmasına göz yetirərsən".

Yekun fərmana sevinən qocanın gözləri yaşarır. O, gözəl

jurnalist, Vətən qədri bilən bacarıqla yurd başçısı, millət dərdinə, qayğısına can qoyan həssas, humanist insan idi.

Qəşəm müəllim sonrakı illərdə də xatirə-gündəliklər yazıb: yüzəcən qalın dəftərlərə köçürülmüş o yazılar bütöv bir nəslin əxlaq dərsi, həyat yolu olası duüğularıdır, hadisələrdir, faktlardır. O dəftərlərin arasından xırdaca bir kağız əlimə keçir:

–...Anamsız keçən bir ilim. Elə bilməyin ki, körpəyəm anamın südünə möhtacam, yaxud tələbə də deyiləm ki, ondan sovqat, xərclik gözləyəm.

Ana məhəbbətli duyğular ürəyimi yuxaldır, kövrəldir.

Qəşəm müəllim gözəl ailə sahibi olub. Oğlu Rövşənin arxivdən götürdüyü kassetə qulaq asıram:

1979-cu il. İsmayıllı rayonu. Yuxularla dolu bir axşam. Qəşəm müəllim ailəsini – balalarını başına yığıb söhbət edir. Öz ata məhəbbəti ilə onlara boy verir, ürəklərini açır, onları sevindirir, sabaha cəsarət dərsi keçir. Ömür-gün yoldaşı Cəvahir xanım da yanında oturub uşaqları haqqında deyilən sözlərə şərik çıxır, ürəkdən gülür, ana kimi sevinir. Onda xoşbəxt günlərinin biri idi: Hə, indi gəlin görək kim necədir? Xatirə lentdən Qəşəm müəllimin səsiylə nələri eşidirik?

Xəzər öz ağıllığı, təmkinliliyi, dərrakəliliyi ilə uşaqlara nümunədir. Yaşının balaca olmasına baxmayaraq hərəkətlərində bir müdriklik, bir böyüklük, bir dahilik hiss olunur. Ona görə uşaqların hamısı onu ürəkdən sevir, onun dedikləri ilə razılaşırlar. Hətta yaşlılar da müəyyən məsələlərdə Xəzərlə məsləhətləşirlər. dədəsi ona "dədəbalası" deyir...

Maqsud hafizəmdir, oxuduqları yadımda qalır. Az oxuyur, çox bilir. Lakin verilən suallardan 9-dan 6-sına belə cavab verir: öz kitablarında bunlar yoxdur. Bizim kitablara bu barədə indi müəyyən şeyləri yazmırlar. Maqsudun yaxşı cəhəti bir də odur ki, musiqiyə böyük həvəsi var. Bütün çalğı alətlərində gözüyumulu çala bilir...

Rövşən dərsi bildi bilmədi – həmişə istəyir ki, ona yüksək

qiymət yazılsın. ...Rövşən texnikaya, dəqiq elmlərə böyük həvəs göstərir. Hələ balacalığından ixtiraçılıqla məşğul olub. Müəyyən alətlər yığır, maşınlar düzəldir.

Kəmaləni musiqidə, riyaziyyatda Xəzərin müəllimi sayümaq olar. O, Bakıya "Musiqi-79" festivalında iştirak edib.

Nəcabətə Xəzərin oxşar xasiyyəti odur ki... çox yeyir.

İsmayıl çox iştəngi uşağa oxşayır. İndidən özündən böyüklərə, o cümlədən Xəzərə hərbə-zorba gəlir.

Qeyrət də ki... Bakıda təhsil alırdı onda.

Lent kəsilir, sonra körpə səsi eşidilir. Bu hələ onda dünyaya gəlməyi sonbeşiyi Cavanşirin sçsinə oxşayır. Bir də gələcək nəvələrinin... Qəşəm müəllim ailəsinin – nəslinin körpə qığıltısı əskilməsin... Qəşəm ocağına layiq oğullar olsunlar.

Bəlkə də adi lent yazısına oxşayır. Amma diqqət yetirəndə görürsən ki, yüksək dövlət məsələləriylə məşğul olan bir şəxs üçün bu böyük ailə tərbiyəsidir. Ailə qədrini bilən el qədri dünəndən biləcək. Təəssüf ki, Qəşəm müəllim balalarının sonrakı talelərindən – boya-başa çatan illərindən çox uzaqlarda qaldı. Amansız, qəfil ölüm çox şeylərə nöqtə qoydu... 1984-cü il. Onda Qəşəm müəllim Abşeiron rayonunun birinci katibi idi. Xeyli abadlıq, quruculuq işlərinin bünövrəsini qoymuşdu...

Şəxsiyyətinə, yaradıcılığına sonsuz məhəbbətim olan istedadlı qələm sahibi, görkəmli dövlət xadimi Qəşəm Aslanovun əlimə keçən hər yazısını, hər sözünü öz dünyagörüşüm üçün qənimət bilmişəm. İndi təqdim etdiyimiz bu kitabı "Məğlub ölüm"ü yüz dəfə o üz-bu üzə vərəqləmişəm, həyatda rastlaşdığım dözümsüzlüklərin, dolaşıq düyünlərin açmasını sanki o shifələr arasında da axtarmışam. Elimizin-obamızın hər qara günündən söhbət açılanda Qəşəm müəllimdən oxuduqlarımı düşümüşəm. Dostlarına yazdığı məktubların hər biri min illər bundan əvvəl qayalara, daşlara yazılmış Dədə Qorqud öyüdlərinin əks-sədasıdır. Qəşəm müəllimin böyüklüyü onda olub ki, yazdıqları, dedikləri əməlləri ilə, fəaliyyəti ilə üst-üstə düşüb. Nə düşünübsə, ona da

əməl edib. Elə bilirəm ki, Qəşəm Aslanovun ürəyində, canında olan vətən sevgisi, vətəndaşlıq omalı, torpaq çırpıntısı mənim həyat məktəbimdir, qeyrət simvolumdur. O, Azərbaycanın azadlığı uğrunda şəhid olan nakam, gənc Ülvimin ruh qardaşıdır.

Böyük və səmimi şəxsiyyət kimi sevdiyimiz Qəşəm Aslanov çox-çox insanları qəlbində bu gün də Azərbaüycanına pərvanə vurğunluğu ilə yanan oğul kimi əzizlənir, sevilir. Sağlığında gördüyü işlərin, tutduğu əməllərin, etdiyi xeyirxahlıqların əvəzi olaraq o, heç vaxt unudulmayacaq, yaddan çıxmayacaq – xatirəsi daim anılacaqdır. Bu sevgi hissləri Cəvahir xanımın da, sonbeşik Cavanşirin də..., Aslan müəllimin də, bacıları Sona xalanın da, Cuna və Zafta xalanın da ürəyinə təsəllidir.

1967-ci ildə yazdığı bu sətirləri uzaq, soyuq Moskvadan Bakıda yaşayan dostu, professor Məhəmmədhəsən Qafarova yazı göndərib:

"...Apzum, diləyim vətən torpağına ayaq basmaq, vətən övladlarının xoşbəxtliyi naminə heç olmasa xırdağa bir fədakarlıq göstərmək, bir dəstə adamasa nümunə olmaq, yanmaq, yana-yana səcdə etdiyim müqəddəs torpağa gömülməkdir. Vətən, vətən torpağı mənim idealımdır. Bu torpağın hər qarışı mənim Kəbəmdir. Onun şoranlığına, daşlığına baş qoyub can vermək mənim üçün ən böyük səadətdir... Mənim ziyarətgahım vətən torpağıdır..."

Qəşəm müəllim yaşadığı 50 illik ömründə arzuladığı bu diləklərinə sahib oldu, hələ çox diləklərə də sahib olacaqdı. "Məğlub ölüm" kitabındakı yazılar, duyğular barədə söz demədim. Belə bir tale yiyəsinin ədəbi-bədii düşüncələrini özünüz oxuyun, duşunün.

*"Məğlub ölüm" kitabına ön söz.*
*Bakı,1997,səh.3-7*

## ONU XATIRLAYANDA ÇÖHRƏLƏRƏ TƏBƏSSÜM QONUR:

Qəşəm Aslanov. Nasir, publisist, jurnalist, ictimai-siyasi xadim... Bunlardan əvvəl isə səmimi, qayğıkeş, zəhmətkeş, bir insan – yaşadığı cəmi 50 illik ömründən qalan xatirə izlər, sözlərdir. 50 illik ömür – onun arzularının, istəklərinin, tutacağı, düzüb-qoşacağı, yaradacağı əməllərinin miqyası yanında çox azdır. Moskvada Ali Partiya Məktəbini bitirib (1966-68) Bakıda Mərkəzi Komitədə işə qəbul edildi. 1971-ci ildə "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru təyin olunanda o, hələ gənc idi. Gənclik eşqi, təravəti, gücü, idrakı qəzetin milli ruhda dərc olunmasında özünü göstərdi. Baş redaktor işlədiyi bir-iki ildə Qəşəm Aslanov imzası "Azərbaycan gəncləri" qəzetinin tarixinə bacarıqlı, peşəkar jurnalist kimi yazıldı və bu təpəri – yenilikçi, gecə-gündüz çalışan, milli ruhlu bir insan olması o vaxtkı respublika rəhbəri cənab Heydər Əliyevin diqqətindən yayınmadı.

Çox keçmir ki, Qəşəm Aslanov Şuşaya birinci katib təyin olunur. Beləcə "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru Qəşəm Aslanov bacarıqlı, savadlı, geniş dünyagörüşlü bir şəxs kimi Şuşa rayonuna göndərilir. Şuşayla bağlı illərə nəzər yetirəndə ona göstərilən etimadı necə şərəflə doğrultduğunun şahidi olursan.

Qəşəm Aslanov 1934-cü il aprelin 10-da Göyçə mahalının Kəsəmən kəndində doğulmuşdur. Yeddillik məktəbi həmin kənddə tamamlamış, sonra Xanlar rayon Pedaqoji Məktəbini bitirmişdir (1948-1953). Yenidən doğulduğu kəndə qayıdıb məktəbdə müəllim və tədris hissə müdiri kimi ilk əmək fəaliyyətinə başlayır (1953-1968), eyni zamanda Basarkeçər rayon qəzetində ədəbi işçi, şöbə müdiri vəzifəsində çalışır. İşlədiyi bu illər ərzində o, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində qiyabi təhsil alır (1955-1960). Qəşəm müəllim ali təhsilini bitirəndən sonra Basarkeçər rayon komsomol komitəsinin I katibi, həm də rayonlararası

"Sevan" qəzetinin redaktoru vəzifəsində çalışır. 1962-1966-cı illərdə Basarkeçər rayon partiya komitəsinin katibi işləyir və 1966-cı ildə Moskvaya ali partiya təhsili almağa göndərilir.

Bu qısa tərcümeyi-haldan da görünür ki, o, məhz öz işgüzarlığı, intellekti ilə yüksəlib. Qəşəm müəllim o dövrdəki fəaliyyəti ilə onu tanıyan insanların qəlbində xoş, unudulmaz xatirələrlə yaşayır. Göyçə, Kəsəmən adları gələndə istər-istəməz Qəşəm Aslanov adı xatırlanır, çöhrələrə xoş bir təbəssüm dolur. "Heyf Qəşəmdən ki, bu dünyadan tez getdi, Allah ona rəhmət eləsin. Dağı dağ üstə qoyan adam idi" – bu sözləri dəfələrlə eşitmişəm.

Qəşəm Aslanov Basarkeçərdə işlədiyi illərdə publisist, satirik qələm sahibi kimi də tanınmışdı. Yazıları – məqalələri, satira və yumorları, hekayələri daim rayon qəzetində, eyni zamanda "Sovet Ermənistanı" qəzetində, İrəvanda nəşr olunan ədəbi məcmuələrdə çap olunurdu. "Saymazovun salamı" (1968) adlı ilk satirik yazılar toplusu məhz o illərin xatirəsidir.

Qəşəm Aslanov müxtəlif illərdə Şuşa (1972-75), İsmayıllı (1975-82) rayon partiya komitələrinin birinci katibi vəzifələrində çalışmışdır. Çətinlikləri, narahatçılıqları başdan aşan bu dağ rayonlarında Qəşəm Aslanov qurub yaradan, səmimi, xeyirxah insan kimi ad-san çıxardı. İnsanlara xidmət, onlara qayğı göstərmək əsas işi oldu. O, çalışdığı Şuşada böyük quruculuq işləri aparmış, maarif və mədəniyyət sistemində, tikintidə, tarixi abidələrin, yolların, içməli su xətlərinin çəkilişində və bərpasında, eləcə  də digər sahələrdə illərlə yığılıb qalmış problemləri çətinliklə də olsa həll etdi. Eləcə də İsmayıllı rayonunda apardığı quruculuq işləri: Girdman çayı üstündən körpü, Lahıca gedən maşın yolu, İsmayıllı-Şamaxı yolunun çəkilişi, tikintilər, kənd təsərrüfatı sahəsindəki yeniliklər,o cümlədən mütərəqqi üsulla əkilib-becərilmiş üzüm plantasiyaları, daha nələr, nələr... Qəşəm Aslanov bu rayonların abadlaşması üçün can qoyub. Özünün bir sözü vardı: "Tanınmış rayona getməyə çalışma, getdiyin rayonu tanıt". Onun məqsədi, amalı bir olub.Harada işləyirsə işləsin

Vətəninə, torpağına, mənsub olduğu millətə şərəflə, namusla xidmət göstərmək. Çalışdığı bütün yerlərdə qurub-yaradıb, biri min edib, ünsiyyətdə olduğu insanların qəlbində vətən sevgisi,vətən məhəbbəti göyərdib.İnsanlara xeyirxahlıq etməkdən yorulmayıb.

Qəşəm Aslanov 1982-ci ildə Azərbaycan KP MK-da təbliğat-təşviqat şöbəsi müdirinin I müavini təyin olunur. Lakin, görünür, uzun illər idi ki, rayonlarda quruculuq işləriylə məşğul olduğundan kabinet iş üsulu onun ürəyincə deyildi. Bəlkə də bu səbəbdən o, yenidən Abşeiron rayonuna I katib təyin olunur. Lakin burada cəmi bir neçə ay işlədi. Qəfil və amansız ölüm Qəşəm Aslanovun dünyasını dəyişdirdi. İndi o vaxtdan 20 il ötüb. İşlədiyi illərdə o dövrün böyük mükafatlarına – "Lenin", "Oktyabr inqilabı", "Şərəf nişanı" ordenlərinə layiq görülmüşdür. Ən böyük mükafatı isə xalq məhəbbəti, el istəyi olmuşdur.

Qəşəm Aslanovun 70 illik yubiley günüdür. Onu sevən, onu xatırlayan insanların qəlbindən daim bir hiss keçir. Onun adını əbədiləşdirmək. 60 illik yubiley günlərində onun əsərlərindən ibarət "Məğlub ölüm" kitabını dərc etdirəndə də bu hisslər yaşanıb – bu arzunun reallaşacağı günə inanırıq. Örnək ömür yaşamaq haqqını özü qazanmış Qəşəm Aslanovun ruhunu şad etmiş olarıq.

*"Xalq qəzeti"*
*8 aprel 2004-cü il*

## “BU TORPAĞIN HƏR QARIŞI MƏNİM KƏBƏMDİR”

*Hörmətli və mərhəmətli, hamıdan sədaqətli Məmmədhəsənə salamlar! Truskovesdən yazdığın məktubu alıb, yolunu gözlədim. Gəlmədiyini hiss edib, cavab yazıram.*

**Özüm haqqında:** Kişinin sözü də özü kimi bir olar, yenə də səhhətim əla, işlərim yaxşı, oxumağım ortadır. Deyə bilərsən ki, niyə belə? Cavab verirəm ki, özümdə sabitlik, dönməzlik, yenilməzlik tərbiyə edirəm.

Dərsdənkərar vaxtlarımın bir qismi Moskvanın mədəni həyatını öyrənməyə, qalanı isə Lenin adına kitabxanada keçir. Mirzə İbrahimovun publisistikasına aid materiallar toplayıram. Belinskinin “Böyük adamların həyatını seyr etmək həmişə (gözəl) tamaşadır” sözlərini oxuduqdan sonra məşhur olduqlarını şüurlu qaydada dərk etmək üçün müasir ədəbiyyatın nəhəngləri olan M.Şoloxov, R.Həmzətov, Ç.Aytmatov və başqalarının mənəvi xəzinəsinə baş vurmağa başlamışam. Məsləhət edərdim ki, Ç.Aytmatovun heç olmasa azərbaycanca olan “Köşək gözü” (povestləri) kitabı ilə tanış olasan. Qəhrəmanları sadə peşə sahibləri olan bu əsərləri ürək döyüntüsü ilə oxuyursan. Çaykovskinin ev-muzeyində olmuşam. Keçən bazar da Tula şəhərinin 15 km-də olan Yasnaya-Polyanaya getmişdim. L.Tolstoyun malikanə-muzeyindən çox şey öyrəndim. Lenin adına kitabxanada hər gün onlarla azərbaycanlıya rast gəlmək olur. Onlar elmin ən mühüm problemlərilə məşğul olur, böyük ümid doğururlur. Onların fərqlənən cəhəti bir də “vətən”, “xalq” məfhumlarını çox düzgün başa düşmələrindədir. O.Sarıvəllinin oğlu Rafiq (aspirant-fizik), əslən kəlbəcərli, şair-tərcüməçi (ingilis dili üzrə) Ənvər Rza mənə xüsusilə yaxşı təsir bağışlayıb. Gündəliyimdən onlara oxuduğum bir parçanı sənin üçün köçürürəm.

“...Keçən ilin bu günü Borodina çölündə, sonra da yolüstü

Zoya Kosmedemyanskayanın edam olunduğu yerdə-muzeydə olmuşam. Bu gün isə Yasnaya-Polyanada... Zoyanın edam ayağında dediyi: ”Mən onunla fəxr edirəm ki, xalqımızın səadəti yolunda, mübarizədə ölürəm" sözlərini xatırlayıram. Təəccüb edirəm, Bakıda, Gəncədə oturub qarnını şişirdən, boynunu piyləndirən, şairin ifadəsilə desək, “evini-həyətini vətən, qohum-əqrəbasını millət bilən”, vətənin firavanlığı naminə daşı-daş üstə qoymayan, övladlıq borcunu unudan bizim bəzi “qabaqcıllarda” nə üçün bir qızın qeyrəti olmasın? Göygölə, İstisuya, Xoşbulağa niyə qayğı çəkilməsin? Klassiklərimizə özlərinə layiq abidə qoyulmasın, adları, xatirələri əbədiləşdirilməsin? Gənclik H.Zərdabi, N.Nərimanov, Ü.Hacıbəyov, R.Axundov və H.Hüseynovun fədakarlığını təkrar etməyə ruhlandırılmasın? Altı hər gür sərvətlə dolu, üstü min bir nemətlə zəngin ana torpağın köksü əfsanələrdə təsvir olunan cənnətə döndərilməsin?"

...Təlatüm keçirirəm. Təsəvvür edin. Həmişəlik mənəvi sərxoş bu gün fiziki cəhətdən də süstləşir. Daxili aləmim məni hər şeydən ayırır. Başqalarının dodaqlarından mahnı, mənim qəlbimdən isə uzaqlara axan Bakı qanı süzülür... Arzum, diləyim vətən torpağına ayaq basmaq, vətən övladlarının xoşbəxtliyi naminə heç olmasa xırdaca bir fədakarlıq göstərmək, bir dəstə adamasa nümunə olmaq, yanmaq, yana-yana səcdə etdiyim müqəddəs torpağa gömülməkdir.

Vətən, vətən torpağı mənim idealımdır. Bu torpağın hər qarışı mənim Kəbəmdir. Onun şoranlığına, daşlığına baş qoyub can vermək mənim üçün ən böyük səadətdir. Xoşbəxtliklərin zirvəsini fəth etməkdir. Mənim ziyarətgahım vətən torpağıdır.

...Belə güman etməyin ki, əsrlər boyu yağıların ayaqları altında tapdalanan bu torpaqlar siyasətçilərin min bir kələyi nəticəsində mənəviyyatca da parçalanan, tənhalaşan, təklənən (bax, “Aslan və Öyük”), biri digərinin üstünə salışdırılan, aslanın tikəsinə çevrilən vətən övladının kim olduğu mənə bəlli deyil. Xeyr! Həmin adamların, özümüzünkülərin əlindən dönə-dönə

zərbə almış, səndələmiş, müvazinətimi itirmiş, çətinliklə ayaq üstə qala bilmişəm. Dəfələrlə onlar məni quyunun dibinə atmaq istəyiblər. Mənə ölüm tələsi qurub, hər şeydən əlləri çıxdıqda haqqımda şaiyələr yayıb rəqiblərin əlinə şans veriblər... Mən heç kəsdən, “özümüzünkülər”dən aldığım qədər dağ, acı, kötək almamışam. Lakin bunlar mənə ixtiyar verir, haqq qazandırırmı ki, onlara nifrətlə baxım? Yox! Mən, bunların mənbəyini çox aydın dərk edirəm. Aslana öküz lazımdır. Öküz ətinə isə ancan onları təklədikdə nail olmaq olar. Mən özümü özümünkülərdən müdafiə edə-edə müdafiə olunduqlarıma bizi bu hala salanları tanıtdırmalıyam, Aləmə car çəkməliyəm ki, avamlığımızdan, nadanlığımızdan istifadə edib bizi bir-birimizlə boğuşdurur, didişdirir, çeynədir, yollarına davam edirlər. Özü də əliboş keçmir, qanımızı, iliyimizi sorub aparırlar. Biz isə can hayındayıq...

Biz rus xalqından hər şeydən əvvəl vətənpərvərlik nümunəsi götürməliyik. Bütün xalq vahid halda vətənpərvərdir. Onun yolunda heç nəyini əsirgəməz. Rus qadınının qadınlıq məharəti nə qədər yüksəkdirsə, kişilərində vətəndaşlıq hissi ondan da artıqdır. Onlarda Vətənə ən həssas canlılarda olandan artıq sədaqət vardır. Bəhram Gurun sonradan anladığı sədaqət!...

Özün haqqında yaz. Səhhətin necədir? Uşaqlar özlərini necə hiss edirlər? Kimlərlə görüşürsən? Bakı həyatı necədir? Şixəli (Şıxəli Qurbanov – A.Y.) büstələri gülə dönə bilirmi, yoxsa qınında, qabığında qovrulur? Hamıya salam yetir. Mənə tez-tez məktub yazın.

Dərin ehtiramla: Qəşəm ASLANOV.

1968. MOSKVA.

*"Yeni Azərbaycan"*
*1997-ci il*

## AZƏRBAYCANA PƏRVANƏ VURĞUNLUĞU İLƏ YANAN OĞUL:

Şuşanın ermənilərə təslim edilməsini eşidəndə nədənsə o vaxt ilk gözümün qabağına Qəşəm Aslanov gəldi. Bu hadisəni onun necə qəbul edəcəyini bir anlıq xəyalımda dolandırdım. Öz-özümə üşürgələndim. Və tezcə xatırladım ki, artıq 8 ildir Qəşəm müəllim həyatda yoxdur (1935-1984). Fikrim yenidən Şuşa faciəsinə qarışdı. Həmin faciədən düz 20 il əvvəl – 1972-ci il mayın 10-da tanınmış yazıçı-publisist, "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, Ali partiya məktəbinin məzunu (1966-1968-ci illərdə Moskvada təhsil alıb) Qəşəm Aslanov Şuşa rayonuna birinci katib təyin olunmuşdu. Qəşəm müəllim işlədiyi müddətdə Şuşada böyük quruculuq işləri aparmış, maarif və mədəniyyət sistemində, tikintidə, tarixi abidələrin, yolların, içməli su xətlərinin çəkilişində və bərpasında, eləcə də digər sahələrdə illərlə yığılıb qalmış problemləri, çətinliklə də olsa, həll etmişdi. Özünün "Ömürdər səhifələr" publisistik qeydində yazır: "Ölümlə mən çoxdan çarpışırıq... Sən mənim özümü cismən məhv edə bilərsən, buna sənin qüdrətin çatar! Lakin məni tanıyanların, mənimlə əl-ələ verib füsunkar Şuşanı – Azərbaycanın bu zümrüd qaşını cilalayan, pardaqlayan Vətən övladlarının qəlbindən silə bilməyəcəksən. Sən bunu bacara bilməyəcəksən, ölüm!" Günü bu günə qədər də Şuşanın namuslu övladları Qəşəm müəllimi hörmətlə, sevgiylə, əsl Azərbaycan təəssübü çəkən Vətən oğlu təki xatırlayırlar.

Qəşəm Aslanov daha sonralar İsmayıllı və Abşeiron rayonlarının birinci katibi işləyib. Eyni zamanda müxtəlif ictimai vəzifələri yerinə yetirib. Amma məqsədi, amalı bir olub. Harada işləyirsə işləsin. Vətəninə, torpağına, mənsub olduğu millətə şərəflə, namusla xidmət göstərib. Çalışdığı bütün yerlərdə qurub-yaradıb, biri min edib, başlıcası, ünsiyyətdə olduğu insanların qəlbində Vətən sevgisi, Vətən məhəbbəti göyərdib. İnsanlara

xeyirxahlıq etməkdən yorulmayıb. Ürəyində, qanında gəzdirdiyi ana Göyçə məhəbbətini heç kəsdən, heç yerdən əsirgəməyib. Mərhum oğlu Qeyrət Qəşəmoğlunun tərtib etdiyi, amma hələ çapı başa çatmayan "Məğlub ölüm" kitabındakı şeirlərindən, hekayələrindən, publisistik yazılarından da, Vətəndaşlıq duyğusu qələminin mürəkkəbi olub. Amansız, qəfil ölüm Qəşəm Aslanovun ömür yolunu yarıda kəsib...

30 il əvvəl yazdığı bir neçə məktubu təzədən oxudum. Biologiya elmi sahəsində böyük nailiyyətlər qazanmış, professor Məmmədhəsən Qafarova göndərdiyi məktublardakı Vətənə sevgi hissi, elə-obaya məhəbbət coşğunluğu adamı riqqətə gətirir. Bu günümüzə gərəkliyi duyulur: elə o hisslərin də, Qəşəm Aslanovun da. Həmin məktublardan birini oxuyuruq:

*Hörmətli Məmmədhəsən, salam!*

Lvovdan yazdığın məktubu aldım. Onu da, Xəlil Rzanın şeirini də oxudum. Hər ikisi üçün minnətdaram. Bilirsənmi, adam doğma yurddan, minbir tellə bağlı olduğu el-obadan nə qədər uzaqlaşırsa, Vətən, Vətən övladının həsrəti daha dərindən hiss edilir. Adi bir məktub, cansız kağız parçası sənin üçün ən qiymətli bir şeyə çevrilir. Heç güman ki, mən sizin məktubunuzu adi, cansız kağız parçası hesab etmirəm. Sizin hər bir məktubunuzu – böyük ehtiramın kağız üzərində əks olunan nişanəsini – geniş səhrada suya həsrət çəkən bir adamın tapdığı həyat çeşməsinə, həyatdan ümidini üzməkdə olan xəstəni xilas etmək naminə uzanan şəfalı təbib əlinə, illərlə işığa can atan adamın üstünə doğan günəşin şüalarına bərabər bilirəm. Dostlardan aldığım məktublar məni daha mənalı ömür etməyə, həyatı insan kimi başa vurmağa sövq edir, ümidlərimi, arzularımı qanadlandırır.

Eyni vaxtda İsmayıl İsmayılovda da məktub aldım. Kitabçamın mətbəəyə göndərilməsi münasibətilə məni təbrik edir...

Yazırsan ki, nə düşüncələrlə yaşadığımı söyləyim. Düşüncəm, qayəm, idealım birdir: Vətənim, mənsub olduğum xalqın yolunda fədakarlıq göstərmək üçün qanadlarımı bərkitmək, daha

yüksəyə uçuşa hazır, səfərbər vəziyyət almaq. Necə deyim, mən indiyə qədər bu ideal naminə yollar axtarmışam. Bir də təkrar edirəm: yol axtaranın büdrəmələri, səndələmələri də olur. Düşünürəm ki, bundan sonra elimə-obama pərvanə vurğunluğu ilə xidmət etmiş olum... Bilirsən ki, mən mənsəb düşkünü deyiləm. Fəqət mənsəbdən də qaçmıram. Düzünü deyim, imkanım olsa, xalqımın daha böyük gələcəyə doğru müzəffər yürüşünə başçılıq etmək səviyyəsinə də yüksələrəm.

Əgər sən insansansa, qeyrətin varsa, nə üçün mənsəbin qüdrətindən istifadə etməyəsən?! Mənsəbin yüksəldikcə, sənin məqsədinə çatmaq imkanların da artır, genişlənir. Şübhəsiz ki, bir nazirin – mən namusu olan naziri nəzərdə tuturam – xalqa xidmət etmək imkanı adi kənd müəlliminin imkanlarından çox-çox genişdir...

Çox təəssüf ki, bəzən biz ali rütbəyə çatdıqdan sonra hansı millətə mənsub olduğumuzu da unuduruq. Böyük şairimiz Bəxtiyar Vahabzadə deməli, öz evimizi Vətən, qohum-qonşunu isə millət hesab edirik. Və... Haqsız-muzdsuz, ordensiz, mükafatsız xalqa böyük xidmətlər göstərən, məktəb, mədəniyyət ocağı açan, qəzet çıxaran, yol çəkən, su gətirən Zərdabinin, Nərimanovun, Üzeyirin, Natəvanın, Firudin bəyin övladları olduğumuzu yadımızdan çıxarırıq.

Tale yar olsa...

Buna tam inan ki, artıq özümün yaşamağım üçün zərrə qədər düşünmürəm. Onsuz da adi bir insan ömrünü yaşamışam. Doğulmuşam, böyümüşəm, doyunca yeyib-içmişəm, ev-eşik sahibi olmuşam, çoxlarının yetmiş illik ömründə çata bilmədiyi şöhrətə çatmışam, nəşənin və kədərin hökmünü qismən duymuş, əyrini və üfunəti hiss etmişəm...

Bundan sonra başqalarını yaşamasına səbəb ola bilməyəcəyəmsə, onda daha artıq yaşamağın, təbiətin, insan əməyinin nemətlərini, təmiz havanı korlamağın nə mənası?! Belə güman etmə ki, bəlkə mən bədbinliyə qapılmışam. Əksinə, hisslərim

həyata tam nikbin baxışlarıma dəlalət edir. Mən ölümdən qorxmuram. Və onu dönə-dönə qapımdan qovmuşam. Bir həqiqət var: ölüm də həyasız adam kimidir. Adamı aciz gördümü yaxasından əl çəkən deyil. Odur ki, ona həmişə müqavimət göstərməli, üzü sərt, amansız olmaq lazımdır. Səni yenilməz gördükdə irişməyə, özünü dost istəyən kimi göstərməyə çalışır... Hər halda sən ondan üstün olmalısan, əks təqdirdə qılıncını işə salmağa hazırdır... Ölümün bir şeyi, bir tərəfi dəhşətlidir. Vay o gündən ki, mən öləndə hamı "yazıq, filan oldu" deyib, bir anlığa sükuta qərq ola. Mən ölümü onda ölüm hesab edərəm ki, ölümümə ürəkdən kədərlənənlərlə yanaşı, ürəkdən sevinənlər, şadlananlar da ola.

Baxırsan ki, daha doğrusu, eşidirsən ki, biri o birinə "sənə uzun ömür arzu edirəm, yüz yaşa" deyir. Mən isə heç kəsə uzun və mənasız ömür arzulamıram. Qaratikan, partpatı, qanqal da bənövşədən daha çox ömür sürür. İnsan əzab çəkmək üçün doğulmayıb, nə də başqasına əzab, işgəncə vermək üçün... Mən bahar ömürlü, bənövşə ömürlü olmaq istərdim...

Son günlər Sumqayıt Xalq Teatrı Kreml teatrında S.Vurğunun "Fərhad və Şirin" pyesini göstərdi – 27 may 1967. 29 mayda Moskvanın ən məşhur teatrlarından birində – hansına ki, azəri balası başçılıq edir – C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi keçirildi. İkisində də iştirak etdim. Hər ikisi əla keçdi. Bu barədə bax: "Literaturnaya qazeti" – 31 may, N 22; "Literaturnaya Rossiya" – 2 iyun, N 23. Yubileydə dünyanın bütün guşələrindən iştirakçılar var idi. N.Tixonov, Hind yazıçısı Krişan Çandr, Amerika yazıçısı Cozef Nort və başqaları çox səmimi sözlər dedilər Cozef Nort (o keçən illərdə Bakıda olub) dedi: "Kak veliko çeloveçestvo, esli ono porodila takie talantı! – kak Mark Tven, D.Mammedkuluzade..." Rəsmi hissədən sonra Elmira Rəhimova, Lütfiyar İmanov, Ədalət Nəsibov (saz), Habil Əliyev (kamança), İbrahim Cəfərov (moskvalı)... məharətlə çıxış etdilər. Ədalət və Habil xüsusilə hərarətlə qarşılandılar. Yanımda

oturan bir nəfər moskvalı "adicə saz və ya kamança böyük bir orkestrdən qüdrətlidir" dedi...

Yaxın günlərdə Moskvada Azərbaycan həftəsi keçiriləcəkdir. Hər halda hamısında iştirak edəcəyəm. Lakin Şıxəli Qurbanovun yoxluğu məni bir daha ağladacaqdır. Şıxəli deyil, kaş mənsəbcə ondan yüksəkdə duran qeyrətsizlər yox olaydı. Son günlər M.S.Ordubadinin "Qılınc və qələm"ini oxuyuruq. Mənim təşəbbüsümlə onun müzakirəsini keçirəcəyik. Məqsəd Nizamini yetirən bir eli olduğu kimi yaşatmaqdır. Məktub yaz. Məndən bütün dostlara,tanışlara, ailə üzvlərinə salam yetir.

Ehtiramla: Qəşəm ASLANOV,
Moskva, 1967.

*"Yeni Azərbaycan"*
*1997-ci il*

## TƏRAVƏTLİ, XOŞ NİYYƏTLİ

Nəriman Həsənzadə poeziyasını səmimi hisslərinə, kövrək duyğularına görə könül yatırıb həmişə oxumuşam, bəzi misraları isə əzbər qalıb yadımda.

*Eşq oduna yandı ürək,*
*İndi mən də yanam gərək.*
*Yar yorulub, bir din görək,*
*Saz, qadanı mən alaram.*

(1957-ci ildə mətbuatda dərc olunmuş bu şeiri müəllifin heç bir kitabına düşməyib).

Şairin şeir səmimiyyətinə pənahlanıb onun poeziyasını izlədikcə orada böyük bir nisgil də duymuşam. Görmüşəm ki, bu nisgil şairin həyatı boyda, torpağı boyda, Vətəni boyda, bir də bəşəriyyət boydadır. Elə bundandır ki, şair "ürəyində gəzən ağrıları" narahat, kədərli bir ruh üstə kökləyərək nisgilli misralarla boy-boya düzərək nəğməyə çevirib.

*Qanadlı bir quşdu ömür sən demə,*
*Tez sınar, bu qanad o qanad deyil.*
*Hardasa qəm gəldi mənim şeirimə,*
*Qəm də, sevinc kimi mənə yad deyil.*

N.Həsənzadənin ilk poeziyası ilə tanış olan oxucular, yaradıcılığının geniş mövzu dairəsi olmasına baxmayaraq, onun poeziya miqyasında bir ülvi duyğunu və xətti daha aydın hiss edərlər. Səmimiyyət və nisgil.

Bu xətt nəyinsə həsrətini çəkən, nisgilini yaşadan poeziyadır. Yaradıcılığının ilk illərində bu nisgil, bu həsrət kiçik bir dairəni əhatə edirdisə, şair şeirdən-şeirə, nəğmədən-nəğməyə inkişaf etdikcə həmin xətt böyüyüb Azərbaycanın, torpağının, xalqının, ümumiyyətlə bəşəri bir nisgilinə, kədərinə, qəminə çevrilməyə başlamışdı.

"Neyləyim, həyatım bir az sərt olub"... deyə "elə nisgilliyəm düzü o vaxtdan"... – misralarını yazdı. Əvvəllər şəxsi həyatında

olan nisgil böyüyüb ayrı-ayrı düşmüş bir xalqın ("Tək söyüdün nəğməsi" və s.) nisgilinə çevrilib, daha sonra bu nisgil bəşəriyyətin taleyi haqda – bir nisgilə çevrildi.

*NATO-nun qərargahı,*
*uzaq deyil kilsədən,*
*Yüz addım aralıda*
*pozulur mehr, ülfət*
*Ölümlə hədələnir,*
*dünyada bəşəriyyət*
*nədir onun günahı.*
*Raketlər,*
*generallar*
*tanımırlar, allahı.*

Səmimiyyət və nisgil hisslə bağlı olan faktorlardır. Səmimiyyətə o vaxt inanırsan ki, sənin özünü səmimiləşdirir. Şeirin gərək ayrı-ayrı misralarında, sözlərində yox, daxili qüvvəsində, təsirində, anlamında səmimiyyət, zəriflik olsun. N.Həsənzadə şeirində hətta eyhamla acı ştrixlər, sərt misralar verilsə də, bütövlükdə orada səmimiyyət var, aydın bir təmas var, kövrək bir yanğılı doğmalıq var.

N.Həsənzadənin son dövr yardıcılığı mərhum həyat yoldaşı Sara xanımın xatirəsiylə bağlı şeirlərlə zənginləşib, bu poeziya çələngini acılığı ilə, kədəri ilə, yası ilə, kövrəkliyi ilə bəzəyib.

*Mən səni sevəndə yaz havasıydı*
*Neyləyim taleyin gözü tökülsün.*
*Həyatın əlində quş yuvasıydı,*
*Quran özün oldun, uçuran özün.*

Və həmin kədər çələngi yeni çap olunmuş "Mənim nigahımı pozdu təbiət" kitabında baş-başa çatılıb. Dünya boyda ağrının yükünü çiynində götürən misralar şair qəlbinin hayanıdır, təsəllisidir. Sanki yan-yana düzümləriylə şair kədəri qarşısında baş əyirlər, toxtaqlıq verirlər.

*Sənin ürəyini o duyur, oğlum,*

*Bu eşqi yaşatsın qoy bu duyğular.*
*Ata şərəfini qoruyur, oğlum,*
*Ana tərəfində olan oğullar.*

Bütün bu hisslərin "Ağrı", "Qalx", "Dözüm", "Daşı sevməliyik bu indən belə", "Mənim nigahımı pozdu təbiət" və onlarca şeirlərində poetik əksi çəkilmişdir. Kitabda "Bacımın xatirəsi" adlı Gəncədən yazılmış şeirində də böyük bir ağrı var. Ata yadigarı, ana əvəzi olan bacısının itkisi qəlbini göynətsə də, misralarıyla hönkürüb ağlasa da, səadətini tapdığı, gəncliyini yaşadığı evdə yas qurulsa da, təpədən-dırnağa nisgilli olan şeiri oxuyub başa çatdıqdan sonra qəlbinin səmimi hisslərlə də dolduğunu görürsən. Bəlkə də "lirik mən"in Gəncə həyatını, gənclik həvəsini bu ağrıların izindən seçmək olur, bəlkə də ən səmimi duyğuları Gəncəylə bağlılığındandır. Şeirdə Gəncəyə olan məhəbbətindən doğan səmimiyyət dünyasını dəyişmiş bacısının yas nisgili ilə qoşa addımlayır. Bəli, onun şeirlərindəki səmimiyyət böyük qüvvəylə şair qəlbindən vulkan kimi püskürür, adamın üzünü qarsayır.

Yuxarıda qeyd etdiyimiz faktorlr əsasında köklənmiş bu poeziya nümunələri yaddaqalandır, düşündürücüdür, həyatın amansız ayrılıq anlarında keçirdiyi hisslərin poetik ifadəsidir. Şair özünün ilk baxışda şəxsi hissləri əsasında ad qoyduğu – "Mənim nigahımı pozdu təbiət" kitabında şəxsi hisslərdən çox-çox geniş mənada hiss-nisgil çatdırır.

*Arada ağlayan bir məhəbbətdir,*
*Yasdığın müqəddəs, yerin müqəddəs*
*Dövlət vəsiqəsi rəsmi sənəddir –*
*Möhürü, imzası bir şeyə dəyməz!*

Əslində təbiətin pozduğu bu nigah ər-arvad münasibətindən çıxıb bir xalqın öz torpağına, öz taleyinə olan nigahının pozulması təsirini bağışlayır.

*Nisgil ürəyimi sıxdı əbədi...*

deyəndə milli hissi güclü bir varlıq kimi qəlbində qururla gəzdirərkən həmin bu hiss – məhəbbət nigahının pozulması

qayğısındadır.

N.Həsənzadə poeziyası məncə, iki qanad üstə qurulmuş poeziyadır. İnsan psixologiyasına doğmalılığı ilə bu şeirlər adamı düşündürür. Düşündürücü poeziya olduğundan emosiyaya qapılan hisslərlə deyil, təbii hisslərlə toxunmuş çələngdir.

*Analara qurban, –*
*oğul doğurlar,*
*Oğullara qurban, –*
*şəhid olurlar...*

N.Həsənzadə yaradıcılığında nisgil adlı bir xəttin qalın cizgiylə keçdiyini qeyd ediriksə, 19-20 yanvar faciəsinin, üç ildən artıq torpağımız üstdə gedən bir tərəfli müharibənin dəhşətli-ağrılı aqibəti onun şeirlərindən yan ötə bilməz. Şair qəlbinin səmimiyyətinə inandığımızı deyiriksə, bu ağrı, faciələr onun həyatından izsiz keçəmməz. Bu hisslərini publisistik yazılarında, şeirlərində yana-yana, ağlaya-ağlaya yazır. Qəlbi də ağlayır, misraları da. Həm də şəhid analarına toxtaq verən imkanlar yaradır yaralarına məlhəm bağlamaq üçün bütün imkanlardan istifadə etməyə çalışır və edir. Başçılıq etdiyi bir xalqın milli mənəviyyat qəzetində qara yanvar faciəsini vaxtaşırı geniş səpgidə dərc edir. Materialların çoxunu özü arayıb-axtarır.Xalq üçün, sınmış qəlblərə təsəlli üçün, tarixə yaddaş üçün, şair borcundan çıxmaq üçün, vətəndaş mövqeyindən çıxış etmək üçün, milli ağrıların ürəyindən keçdiyi üçün.

N.Həsənzadə – xalq şairidir, el şairidir, torpaq şairidir. Torpağının, xalqının dözülməz bir bəlaya düşdüyü anda xalq sediyi, ümid bağladığı şairini özünə elçi seçdi. Respublika parlamentində xalının qəlbindən keçirdiyi narahatçılığı səmimi anlamla yuxarıda oturanlara yetirmək, onlarla bölüşdürmək, həlli yollarını tapmaq, xalqı ağır günlərdən qurtarma üçün, azadlıq yoluna iz açmaq üçün.

*Bir şeyə inandım mən bu dünyada,*
*Bu bir həqiqətdi – üzə deyilmir.*

*Elin arxası var – şairdir o da*
*Şair yas tutanda – el dözə bilməz.*

Bu ümiddi xalqı ona, onu xalqa bağlayan N.Həsənzadə 40 ildən çoxdur ki, poeziya aləmində çalışır. Yüzlərlə şeirlər, pyeslər, poemalar, povest, publisistik məqalələr yazıb və yazır. Oxuculrının dim diqqətindədir. Çap olunmuş bütün kitabları "göydə götürülür", şeirləri "bir su içiminə" oxunur, sevilir. Nəhayət yaxşı ki, şairin mənəvi duyğuları oxuculrından nisgilli deyil. Əsl şair xoşbəxtliyini qazana bilib: zəhmətiylə, istedadı ilə. Belə xoşbəxtliyi olan şair ömrünün 60-ında xalqının – torpağının, oğlunun-qızının azadlığı – xoşbəxtliyi ilə nisgilinin itməsini, daim nikbin ruh üstə köklənmiş səmimi hissli yeni şeirlər, nəğmələr yazması arzusundadır – bütün oxucuları və mən.

Azərbaycanın görkəmli şairinin 60 yaşı tamam olur. Xalq ağır günlər keçirsə də, qəlbini səmimi, xoş, ali duyğularla açıb şairini təbrik edir, yaradıcılığında, ictimai fəaliyyətində böyük uğurlar arzulayır. Bu xoş arzulara, təbriklərə səmimi hisslərlə qoşulan –

*"Respublika"*
*.2  mart 1991-ci il*

## ÇİÇƏK NƏFƏSLİ NƏĞMƏLƏR

Gəncliyimizin titrək, kövrək çağlarında Nəriman Həsənzadənin sevgi dolu, məhəbbət dolu şeirləri əl-əl gəzərdi. Xırdaca vərəqlərə köçürülmüş bu misralarla qaynar ürəklər ovunar, oxşanar, sevilərdi. İki qəlbin körpüsünə çevrilərkən pıçıltıya dönən şeirlər o bəxtəvər anların yeganə şahidi olardı. Yaş üstə yaş gələndə həmən misralar yeni gəncliyin ömrünə-gününə dolardı. Beləcə Nəriman Həsənzadə şeirləri əbədi gənclik nəğməsinə dönən qu səsi idi.

Nəriman Həsənzadənin şeirləri ilə yenidən cəbhə zonalarında, döyüşən əsgərlərin arasında rastlaşdım. Qəribədir ki, ağır döyüşlərdən qayıdan gənc əsgər oğullar həsrət sevgilərinə onun şeirləriylə ovunardılar. Eləcə öz-özlərinə zümzümə etməklə, pıçıltıyla. Bütün bunlar Nəriman Həsənzadənin şair ömrünün sevincidir, məhəbbətidir.

O böyük sənətkarlıqla tarixi mövzularda yazılmış "Atabəylər", "Bütün şərq bilsin", "Pompeyin yürüşü", "Zümrüd quşu" kimi dram əsərlərin, "Midiya sarayı", "Vətənsiz", "Kimin sualı var", "Həsrət", "Bəyanat" və s. adlı poemaların, gözəl poetik tərcümələrin, böyük vətəndaşlıq hissiylə dolu neçə-neçə publisistik məqalələrin müəllifidir. Lirik, səmimi şair kimi minlərlə oxucusu olan qələm əhlidir. Geniş qəlbiylə poetik gözəllik dünyası yaradıb. Bu dünyaya bir baxışla saflaşırsan, durulaşırsan, ilahiləşirsən. Bəxtəvər dünyana qapılaraq özün olursan, Nəriman Həsənzadənin lirik yaradıcılığı haqqında söhbət açmaq, söz demək ehtiyacında olsam da, bu qeydimdə onun son dövr yaradıcılıq əhval-ruhiyyəsini açıqlamaq istərdim. Daha doğrusu, günümüzün ovqatını Nəriman Həsənzadənin şeirlərində köklənmiş anlarla bölüşmək istərdim. Ancaq elə bu ovqat üstündəcə onun həyatının bir parçası olan qəzetçilik fəaliyyətindən yan keçmək mümkün deyil. Nəriman müəllimin "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor kimi (1978-1992) fəaliyyətinin

dəyəri ömrünün əzəmətli qürurunda, səmimi bəxtəvərliyində, dizi bükülməz naşirlik zəhmətindədir. O illərdə "Ədəbiyyat qəzeti" ədəbi məktəb meydanına çevrilmişdi. Orijinal səhifələr, yeni tapıntılar, maraqlı təəssüratlar məhz Nəriman Həsənzadənin əvəzolunmaz, yorulmaz səyi nəticəsində hasilə gəlirdi. Ədəbi istiqamətlər hər nömrədə yeni axarda, təzə deyimdə zənginləşirdi. Sərhədlərin bağlı olduğu zamanda bu qəzet sərhədləri aşaraq çox-çox uzaqlara gedib çatdı. Dünyanın əksər ölkələrindən – İngiltərədən, Almaniyadan, Amerikadan, Fransadan, İraqdan, İrandan, Türkiyədən məktublar, məqalələr aldı, çoxlu dostlar qazandı. Bütün bunlar öz zamanında nəhəng addımlar sayılırdı. Gəncliyin sözünü, dövrün ab-havasını öz səhifələrində yaşayan bu mətbu orqan onun redaktorluğu döründə böyük nüfuz sahibi, söz sahibi oldu. Bu qəzetdə işlərkən Nəriman Həsənzadənin vətəndaşlıq hissi daha da möhkəmləndi. Azərbaycan azadlığı mübarizəsi Nəriman Həsənzadənin ədəbi və ictimai həyatının əks-sədasına çevrildi. Sevgi, məhəbbət sətirli bənövşə şeirləri mübarizə, vətən ağrılı şeirlərlə əvəz olundu. İçində Azərbaycan harayı çəkən misraları qaçqınlıq, köçkünlük, didərginlik, itkinlik, şəhidlik dərdinə boy biçdi. Vətəni bürüyən qara yellərdən baş açmağa imkan edə bilmədi. "Ala paltar, daş batınka, dəmir papaq" geyən işğalçı qənimləri tarixin haqq-hesab kürsüsünə çəkdi. Bir işıq ucu,ədalət məqamı tapmayanda pıçıltıya döndü -

*Nə ağırdı bu torpağın heysiyyatı,*
*Dərdin alım, dərdlər eyni biçimdədi,*
*Fərqi varsa, ağrısını çəkəndədi.*

Çəkdiyi ağrısının elə dəhşətli məqamları oldu ki, bütün dünyanı, millətləri ağı deməyə çağırdı, düşmənə beynəlxalq məhkəmə qurmaqdan çəkinmədi, erməni quldurları Bağanıs-Ayrım kəndinin külünü göyə sovurarkən iki aylıq bir çağanın – Hafizin millət oğlu kimi tonqala çatılıb yandırılmasını eşitmək, görmək yaman zülm oldu. Millət yolunda, Vətən yolunda həlak olan çağanın ölümünü şair dünyaya haray etdi. Qərənfil üstdə

təhvil olan ilə (1990) bayatılar düzümlədi, oxucunu, dinləyicini müqəddəs səcdəgah kandarında bir anlıq sükuta çağırdı:

*Dayanın, Şəhidlər Xiyabanıdı,*
*Yas toya qarışıb, toy yasa burda.*
*Qızıl qumaşlarda qara xonçalar,*
*Nişan gətiriblər bir qıza burda.*

Yaşadığımız günün çətinliklərindən, məşəqqətlərindən baş açа bilməyəndə ömrü kədər kələfində dolaşan şair Hadinin nakam taleyini hoyuna çağırdı. Hadi dərdi bu günkü Azərbaycan dərdinə necə də oxşar, necə də bənzərdi. İyirminci ildə silah dolu atlar, toplar, maşınlar Bakıya soxulanda Bakının bağrı qana bələndi, 1990-cı il 20 yanvar gecəsində olduğu kimi. Ağır batınkalarda tapdanan torpaq iniltisindən Hadi divanəyə döndü, səfil, ac, işsiz həyat yaşadı. Şeirlərini satıb çörək pulu qazandı. Qızıl qəfəsdə bəxtəvər yaşamaqdansa belə həyatı üstün tutdu. Dağlara yayılan ahı, fəryadı istiqlal marşı bildi. Azadlığı dağılmış Azərbaycanda isti nəfəs, doğma ürək görməyəndə şeirə, sözə hörmət duymayanda üz tutdu tərkidünyalığa. O, müqəddəs niyyətləri tək öz dünyasındaca ucaltdı, eşqiylə duyğulaşdırdı, sedi, əzizlədi, nəhayət həyatını qurban etdi. Heç nədən çəkinmədi, könlünə rahatlıq gətirən duruluqlara qulaq asdı:

*Nədir əlindəki o qanlı silah?*
*Azadlıq qan üstə qurulur, allah.*
*Azadlıq, azadlıq, hm, hm, azadlıq,*
*Azadlıq içində qırıldıq, batdıq.*
*Alman azadlığı istəmiyorum,*
*Düşmən azadlığı istəmiyorum.*
*İstemem ingilis azadlığını,*
*Mənim azadlığım sanma çörəkdir,*
*Azərbaycan azadlığı gərəkdir.*

Nəriman Həsənzadənin Hadinin diliylə hayqırdığı bu mübarizəsi onun varlığıdır, taleyidir. Azərbaycan azadlığı və demokratiyası uğrunda döyüşdə şair daha mətin, daha müba-

rizdir, "Prometey", "Qafqaz" şeirlərinin gur səsi, bir döyüş meydanını xatırladır. Azərbaycan ərazisinə düşmən, işğalçı niyyətlə soxulan qonşu xəyanətkarlardan təəssüf hissiylə danışan, "lirik mən" Babək nəslinin tükənməz qəhrəmanlığını xatırladır, "qan qanla yuyular" deyə düşmən məkrli niyyətindən çəkindirməyə çalışır. Torpaq pay deyil ki, hər əl açana verilsin. Torpaq namusdur, qeyrətdir, anadır. Bu müqəddəslikləri qorumaq iqtidarında olan oğullar da Vətəndə əskik deyil. Şair inam belədir. O, azadlıq eşqiylə döyüşən millətin əvəzsiz, ucalıqlarda dayanan məğrur oğullarından biridir. Hər səhər üzünü günəşə tutub söylədiyi –

*Salam, Azərbaycan, qərbinə qurban,*
*Salam, Azərbaycan, şərqinə qurban.*
*Məlalına qurban, dərdinə qurban –*

– duyğuları qan yaddaşıyla köklənən milli mənliyidir. Beləcə Vətən,

Azərbaycan hissli şair eşqi yaşayır, yaradır, milli mübarizələrimizin önündə gedir. Azərbaycan azadlığı və demokratıyasının gerçəkləşdiyi zamanın həsrətiylə çırpınan ürək yenə də sevgi dolu, məhəbbət dolu nəğmələr yazan ovqatına yetəcək gününü gözləyir –

*Bu həyatdır, sərtdir üzü,*
*sınaqlardan keçiririk*
*özümüzü-günümüzü.*

Nəriman Həsənzadə yaradıcılığı haqqında açdığımız bu söhbəti məhəbbət ünvanlı nəğməylə bitirməsək Tanrı qınar bizi. Bir vaxtlar çiçək nəfəsli aşiqanə misralar yazan müəllifin nə acı ki, indiki məhəbbət şeirləri kədər bükümlü, qəm ləçəklidir. Ömür gününün bəzəyi, evinin isti nəfəsi, çiçəklərin ət ətirlisi Sara xanımın əbədi ayrılığı onun baharını qışa döndərdi, nurunu zülmət eylədi. Hər addımda onun yerini duydu, gözəl gül çöhrəsi gözündən getmədi. Ürəyinə dolan məhəbbət nəğmələrini gəncliyində olduğu kimi Sarasına ithaf etdi. Bu dəfə ağı-laylay düzdü yana-yana:

*Güzgü kimi zərif idi gül üzün,*
*İnsafdımı torpaq altda çürüsün?*
*Duman gəlsin qəbristanı bürüsün,*
*Duman sənə örpək olsun, a laylay,*
*Torpaq sənə döşək olsun, ay laylay.*

Dünyanın işi belə, dözümü çətin olsa da, "Duman içində bir gözəl itirən" şair "oğul, dağıt evimizin qəm-kədərini" deyə bilir. "Qoy sənin taleyin üzünə gülsün" deyimi ata alqışı, şair duası nikbinliyin baxışını bir dəstə çiçəklə qarşılayır:

*Qarla qarışıq çıxıb,*
*Təzə novruz gülləri*
*Torpağın bu nəğməkar,*
*Amma lal bülbülləri,*
*Bu bahar elçiləri.*

Təki bu novruz gülləri Nəriman Həsənzadənin Azərbaycan torpağının aranında, dağında, düzündə, Şirvanında, Qarabağında, Lənkəranında, Şimalında, Cənubunda, evində-eşiyində, kəndində -ocağında baş qaldırsın. Ətri azadlıq eşqinə sevgi bəzəsin.

*"Dəli Kür" qəzeti,*
*1 iyun 1995 –ci il*

## "BIR NƏĞMƏ YAZIRAM... YAŞAYIRAM MƏN..."

Tanınmış şair, nasir, tərcüməçi, xadim Hidayət ömrünün 60 illik yubileyi ərəfəsindədir. Qədirbilən dostlar, ədəbi-mədəni mühit, pələsəng olmuş bir yurdun qəhrkeş övladları... həmişə hörmətli-urvatlı tutduqları bu qələm-qəlb adamının xoş ovqatına qoşulurlar, nikbin xatirələr çözələyində kövrək duyğular yaşantısına dolurlar – yubilyara yeni yaradıcılıq uğurları, gözəl günlər–illər arzulayırlar.

Hidayət Xuduş oğlu Orucov 1944-cü ildə Zəngəzur mahalında doğulmuşdur. Bu mahalın Meğri rayonunun Maralzəmi kəndində doğulub-böyüsə də orta məktəbi qızıl medalla Aldərə kəndində bitirmişdir. Elmə, sənətə qəlbən bağlı olan gənc Hidayət BDU-nun filologiya fakültəsində ali təhsil almışdır (1963-1968). Təhsil illərində o, həm də doğulduğu kəndin ibtidai məktəbinin müdiri işləmişdir (1964-1966).

İlk dəfə "Nəyim var?" adlı şeiri 1963-cü ildə "Ədəbi Ermənistan" almanaxında çap olundu. Bu sevinc onun həyatında ciddi dönüş yaratmaq fürsəti oldu. Kənddəki iş yerini şəhərdəki yeni işlə əvəz etdi – "Sovet Ermənistanı" qəzetində ədəbi işçi vəzifəsində çalışdı (1966-1968). Həyata nikbin baxışlı gənc müəllim Hidayət jurnalist taleyi yaşamağa qərar verdi. Əslində insan yaşadığı taleyi özü düzüb-qoşmur. İçində yaşanan həyat eşqi onu qadir olduğu, istedadının gücü yetən işəcən çəkib aparır. Özünü tapdığın yerə çatınca narahat hisslər burunlağında dolaşırsan.

Jurnalist Hidayət iki il qəzet işçisi kimi fəaliyyət göstərdi, lakin burada da qərarlaşmadı. Çünki o, qəzet işçisi olduğu müddətdə İrəvanda yaşayan – həm mərkəzdə, həm də kəndlərdə olan azərbaycanlılara qarşı münasibəti daha yaxından gördü, dərk etdi. Onların ədəbi-mədəni həyatına qarşı olan diqqətsizlik, qərəzçilik gözündən yayınmırdı. Neçə on illiklər ömür yaşamş İrəvan Azərbaycan Dövlət Dram Teatrına biganəlik isə lap qəlb ağrıdan idi. Azərbaycanda erməni dilində aylıq ədəbi jurnal,

ayrı-ayrı müəllif kitabları istənilən qədər çap olunsa da, İrəvanda təkcə "Sovet Ermənistanı" qəzetində hərdən bir "Ədəbiyyat səhifəsi" ayrılardı. Bu isə o vaxt orada yaşayan yarım milyonluq – əhali üçün çox-çox azlıq edirdi. İl ərzində 15-20 çap vərəqi həcmində kitab nəşri nəzərdə tutulurdu. Bütün bunları gənc Hidayət öz ömründə yaşadı. 1968-ci ildə İrəvan Azərbaycan Dövlət Dram Teatrına direktor təyin olundu. Onda cəmi 24 yaşı var idi. Amma teatrın ağırlığına çiynini verərək çox yetkin işlər gördü. Teatrın kollektivini bir yerə topladı. Yeni mövsüm üçün pyeslər yazdı. Teatrı dirçəltdi. Repertuarda bir tamaşa tamamlanan kimi rayonlara – azərbaycanlılar yaşayan kəndlərə qastrol səfərlərinə çıxdılar.

**Haşiyə:** O illərdən yaddaşımızda yaşanan xoş günlərdən biri də İrəvan teatrının kəndimizə gəlişləri olardı. Bir neçə gün əvvəl kənd klubunun qabağına əllə yazılmış afişalar vurulardı. Camaat həmin gün yetişənəcən biri-birinə dəyərdi. Sevincdən yerə-göyə sığmazdılar. "Kəndə teatr gəlir. Azərbaycan dilində tamaşa göstərəcəklər". Bu, o qədər qiymətli, o qədər dəyərli yaşantılar idi ki, sözə sığışası, sözlə ifadə olunası deyil. Həmin gün yetişəndə isə – axşam saat 6-da başlayacaq tamaşaya baxmaq üçün insanlar gündüzdən klubun qabağına yığışardılar. Kəndə gələn teatr işçilərinə hərə bir cür qonaqpərvərlik göstərərdi. Həyət-bacalardan qucaq-qucaq qızılgül yığılardı. Aktyorlar kənd camaatını sevindirdikləri qədər camaat da onları sevindirərdi. Hamı bayram sevincinə bələnərdi. Afişalarda Hidayətin adını oxuyardıq. Həm oynanılan əsərin müəllifi kimi, həm də teatrın direktoru kimi. Uşaq sadəlövhlüyü, uşaq səmimiyyəti ilə dönə-dönə bu ucaboylu dramaturqa, teatr müdirinə baxmaqdan çəkinməzdik. O vaxt Hidayətin, sən demə, cəmi 24-25 yaşı varmış...

Hidayət 16 il bu teatra rəhbərlik etdi (1968-1984). Eyni zamanda İrəvandakı Azərbaycan ədəbi dərnəyinin sədri idi (1980-84). Orada yaşayıb-yaradan azərbaycanlıların ədəbi mühitində də canlanma göründü. İrəvan yaradıcı ziyalılarının

(azərbaycanlıların) ümumrespublika konfransının keçirilməsi birbaşa Hidayətin zəhməti idi. Hidayət bu uğurları zəhmətiylə, istedadıyla qazanırdı. Hər bir işi başa çatdırmaq üçün ermənilərlə döş-döşə gəlirdi. Hər şeyin sonu olduğu kimi Hidayət də yoruldu, usandı və günlərin birində Bakıya yola düşdü.

*Zəngəzurda doğuldum,*
*İrəvanda yaşadım,*
*Bakıda öləcəyəm ...*

– deyən Hidayət bu misralardan əvvəl "Gərək kəndimizdən çıxmayaydım heç" şeirini yazmışdı. Dərd dolu dünyanın ən təmiz səması, sən demə, elə doğulduğun kəndin göyləriymiş. Şeir havasıyla dünyanı dolaşmaqdansa bir baba ocağını közərtmək daha mənalıymış. Coşub-çağlayan qəlbin bu etirafı da elə şeir səmimiyyətidir.

Bakıya yol alanda Hidayət artıq 40 yaşına dolmuşdu. Şair kimi sevilirdi, nasir, dramaturq, publisist, tərcüməçi kimi tanınırdı. Hidayətin o illərki şair qəlbinin yaşantısını ötən il nəşr olunmuş "Ömrümün çəhlimləri" kitabında bir daha vərəqləyirik. Bu kitab əslində şairin poetik tərcümeyi-halıdır. Müəllifin həmin şeirlərə, bir daha qayıtması, onları yenidən nəşrə hazırlaması bəlkə də o həyatının – təbii, saf duyğulu həyatının, günlərinin işığı ilə bu günkü dünyanın narahatçılıqlarına çıraq tutmaq üçündür. Yaşayanda gərək elə ömür yaşayasan ki, sonradan, yaşın ahıl çağında ötənlərdə qoyduğun səhvlərdən, günahlardan, çirkinliklərdən ytanmayasan. İnsan olan kəs hər ötən gününü saf-çürük etməyi bacarmalıdır. Haqq nahaqq tapdağına atılanda şair ürəyi ağrıyar, dözə bilməz, sözə, misralara sığınar. Şair, bəlkə də, bu ehtiyacdan "çoxdankı" şeirlərinə üz tutub və yenidən oxucularının mühakiməsinə verib – "nə yaşamışamsa, alnıaçıq, sadə, halal yaşamışam. Budur, mənim tərcümeyi-halım". "Lirik mən" ideal obraz yaratmaq fikrində deyil. Sadəcə, təbii və mənalı, ictimai ağrılarla dolu bir ömrü özünün-özünə hesabatı kimi oxucuyla birgə vərəqləyir – uzaq bir kənddə doğulub boya-başa çatıb, təbiət

ətirli uşaqlıq həyatı keçirib. Özüylə birgə doğulmuş bir sevdanın – şeir eşqilə kənddən üz tutub qərar tutunca gedib. Burada "Məni səsləyəndə" (1970), "Məhəbbət qocalmır" (1977), "Bir az gözləyin məni" (1977), "Dənizi harayladım" (1978), "Eviniz analı olsun" (1981), "Zirvə cığırı" (1982), "Qatarda məktub" (1986), "Qaynaq" (1986) adlı şeir və poemalar, "İrəvanda xal qalmadı" (1984) adlı nəsr, publisistik qeydlər və pyeslərdən ibarət kitablarını nərş etdirdi. "Məhəbbət yaşayır hələ", "Mənzil əhvalatı", "Məni qınamayın" pyeslərini yazdı. Bu əsərlər İrəvan, Bakı, Naxçıvan, Ağdam teatrının səhnələrində tamaşaya qoyuldu. V.Şekspirin "Yaxşı qurtaran iş yaxşıdır" pyesini, H.Biçer-Stounun "Tom dayının koması" romanını və digər əsərləri dilimizə çevirib çap etdirdi. Bu işlər onu yormadı.

Əksinə, həyat eşqini artırdı. Şair qəlbli bu vətənpərvər insan daşnaklarla üz-üzə gəlməkdən, yersiz hücumlardan, düşmən məkrindən cana doyan və günlərin birində hər şeyi kənara qoyub Bakıya yol aldı. Bakı şairin bir hovur rahat nəfəs aldığı məkan oldu. Buradakı təzyiqlər daşnak məkrli deyildi, burada açıqladığı fikirlərinə siyasi-milli rəng verib qara yaxmırdılar... Şair qəlbi elə bil dünya dolusu nəfəs almaq sərbəstliyi tapmışdı. Bütünlüklə şeir – kitablar aləminə qatılmaq imkanını Bakıda tapdı – indi də naşir ömrü yaşamağa başladı. Yeddi il "Gənclik" nəşriyyatında istedadlı yazarların kitablarının çapı ilə məşğul oldu. Ürəyi doyunca müxtəlif müəlliflərin şeirə, sözə, dilə yatımlı şeir kitablarını dərc etdi. 1988-92-ci illər arasında milli müstəqillik mübarizəsinə qoşularaq ən vacib, ən dəyərli, milli ruhlu tarixi kitabların nəşrinə çalışdı. Bu sahədəki xidməti əsl vətəndaşlıq nümunəsi idi. 12 ildən çoxdur ki, o, dövlət aparatında məsul vəzifədə çalışır. Milli məsələlər üzrə dövlət müşaviridir.

Hidayət qeyrətli vətəndaş ömrü yaşayıb. Vərəqlədiyimiz ömürlükdə nəfsdən, şöhrətdən uzaq sadə bir insan həyatı görunür, şair ürəyi döyünür – Vətən üçün, el-oba üçün, Azərbaycan üçün

*Qəlbin arzuları – tər çiçək-çiçək,*
*Çiçəkli nəğmədən doyarmı ürək?!*
*Kövrək uşaqlıqdan qocalığadək*
*Şeir dəftərimi daşıyıram mən –*
*Belə yaşayıram...*
*Yaşayıram mən!...*

*"Xalq qəzeti"*
*11 iyul 2004-cü il*

# ŞAİR – VƏTƏNDAŞ

Hidayət ilk şeirlər kitabını ("Məni səsləyəndə") 1970-ci ildə "Hayastan" nəşriyyatında nəşr etdirib. Daha sonra "Məhəbbət qocalmır" (1973), "Bir az gözləyin məni" (1977), "Dənizi haray-ladım" (1978), "Eviniz analı olsun" (1981), "Zirvə cığırı" (1983) kitablarını müxtəlif nəşriyyatlarda çap etdirmişdir. Bu kitablar geniş oxucu kütləvi tərəfindən hərarətlə qarşılanmışdır.

Hidayət ədəbi aləmdə təkcə şair kimi yox, həm də dramaturq, nasir, publisist kimi tanınır. "Məhəbbət yaşayır hələ", "Məni qınamayın", "Bu dünyanın adamlarına" pyesləri və bir neçə nəsr əsəri "İrəvanda xal qalmadı" (1984) kitabında toplanmışdır. Hidayətin dünya ədəbiyyatından etdiyi tərcümələr diqqətəlayiq yaradıcılıq nümunələridir.

Yaxın günlərdə "Yazıçı" nəşriyyatı şairin "Qatardan məktub" kitabını çapdan buraxmışdır. Kitaba müəllifin son illərdə yazdığı şeirləri daxil edilmişdir. Kitab xalq şairi Nəbi Xəzrinin ön sözüylə açılır. Burada hansı şeiri oxusaq, lirik qəhrəmanın

*Bir az qaya dəyanətli,*
*Bir az bulaq xasiyyətli,*
*Bir az dəmir,*
*Bir az polad,*
*Bir az şair təbiətli –*

- uşaqlıq çağlarından bu günəcən keçdiyi yolda ürək döyüntüsünü eşidir, cığırlarda izini görürük.

"Qatardan məktub" kitabı "Ömrüm çatacaqmı o şeiri yazam", "Gərək kəndimizdən çıxmayaydım heç", "Hələ bilməyəydim dünyada nə var", "Şair, tənha qalsan, vuqarla dolan", "Xoş gəldin, ad günüm, xoş gəldin", "Bu məktubum yolda itsə yaxşıdır", "Vətən yer üzündən böyük görünür" başlıqları altında toplanmış şeirlərdən ibarətdir. Hidayət şair-vətəndaşdır. Vətəninə, el-obasına məhəbbət onun poeziyasında əsas qüvvədir, mövzudur.

"Şair, tənha qalsan vüqarla dolan" bölməsində "Yerevan-

dan ayrılarkən" silsilə şeirləri toplanmşdır. Bu silsilədəki "Vida anları", "Köhnə evimə", "Ömür monoloqu", "Dağlar, sahillər", "Soruşma haralıyam" şeirlərini həyata göz açdığı ata-baba yurdundan ayrılarkən yazmışdır:

*Qaldı zirvələrin bitməyən yolu,*
*İtər yoxuşlarda izlərim, dünya.*
*Hər yan təbəssümlə, gülüşlə dolu,*
*Bəs niyə dolubdur gözlərim, dünya?*

Cənub mövzusu – cənub həsrəti təkcə cənublu şairlərimizin yox, o taylı – bu taylı bütün ədəbi sənətkarlarımızın yaradıcılığında mühüm yer tutur. İkiyə bölünmüş bir qəlbin göynərtisi getdikcə alovlanır. Yaradıcılığa başladığı ilk vaxtdan bu aktual mövzuya dönə-dönə müraciət edən şair təzə kitabına cənub mövzulu şeirlərindən də daxil etmişdir. Şeirlərinin birində kövrək hisslərlə deyir:

*Araz, qırağında doğuldum...*
*Suyundan bir ovuc içə bilmirəm.*
*Neçə çay adladım qürbət eldə mən.*
*Səni bircə kərə keçə bilmirəm.*

"Gözü yolda qalan anaların görüşünə çatmaq üçün Araza qoşulub axmaq istəyirəm" – deyən şair yana-yana gileylənir. Gəncədə dahi Nizaminin ev-muzeyinin açılışı münasibətilə yazdığı "Gələn əsrlərlə yarışan insan" şeirində də Təbriz həsrəti duyulur.

*Səni yormaq üçün gəlmişik bəlkə?*
*Babamın bu səhər qonağı çoxdur!*
*Qapısına gəlib böyük bir ölkə,*
*Bircə Təbrizindən gələni yoxdur...*

Bütün bu şeirlərindən aydın olur ki, Hidayət vətəninin, xalqının taleyini hər an düşünən, qayğısına qalan vətəndaş şairdir.

"Qatardan məktub" kitabında Hidayətin doğulub boya-başa çatdığı kəndinə, oradakı yaxın adamlarına, doğma təbiətə, halal zəhmətdən yoğrulmuş əməyə, narahat dünyamızda baş verən ictimai-siyasi hadisələrə həsr etdiyi şeirləri də verilmişdir. "2x2=6", "Macal", "Gərək kəndimizdən çıxmayaydım heç", "Doğmalıq",

“Rəhim çoban, düzünü deyim...”, “Çoxdan bura düşməmişdi...”, “Həsrət”, “Səhərin on yaşı”, “Xəzərin ad günü” və s. şeirləri bu qəbildəndir.

Kitabdakı “Vətən yer üzündən böyük görünür” başlığı altında toplanmış şeirlər səfər təəssüratlarıdır. Şair xoş niyyətlə “kəndlərdən şəhərlərə, şəhərlərdən ölkələrə, ölkələrdən qitələrə baharlı-qarlı yollarla uçaraq” sovet həqiqətini bütün dünyaya yaymağa tələsir. “Pani Lyudmila” şeirində Çexoslovakiya səfərindən söhbət açır:

*Dedin: “Azərbaycan – Günəş ölkəsi,*
*Dünyaya səs salan bir ulu yurddur".*

Uzaq çex torpağının qızı pani Lyudmilanın dilindən doğma Azərbaycan haqqında eşitdiyi xoş sözlər lirik qəhrəmanın gözlərini fərəh yaşıyla doldurur. Hələ “neçə-neçə görməli şəhərlər, məbədlər, muzeylər, qəsrlər gəzməliykən” fikrin ağlagəlməz sürətiylə, yellərə, sellərə qoşulub “ən kəsə yolla, payi-piyada” Vətənə yetmək istəyir.

*...Sənin vətənini sevdim ürəkdən,*
*Sevdim ilk addımdan, ani baxışla.*
*İsti qucağına çağırır Vətən,*
*Həsrətim qor olub, məni bağışla!*

Bu bölmədə “poeziya əşrəfi” adlandırdığı məşhur macar şairi Şandor Petefiyə həsr olunmuş “Petefi ilə söhbət” şeiri də maraqlıdır. “Dostum yad diyardan”, “Bu yol”, “Praqada qar”, “Balatondan məktub”, “Salamat qal”, “Tanımadım”, “Vətən həsrəti”, “Nənə, bir nağıl söylə...” şeirlərini də müəllif səyahətdə yazmışdır.

“Qatardan məktub” kitabını oxuyanda hiss edirsən ki, şeir sənətinin zirvəsinə qalxan cığırda şair addımları məğrur və yorulmazdır. İnanırıq ki, Hidayət oxucularını daha gözəl və dərin məzmunlu əsərləri – pyeslər, nəsr əsərləri, tərcümələri və şeirləri ilə həmişə sevindirəcəkdir.

*"Sovet Ermənistanı",*
*14 mart 1987-ci il*

# “HƏSRƏTİMİN İLK PIÇILTISI VƏTƏNDİR...”

XX əsrin poetik kəhkəşanında Azərbaycan azadlığının romantikasından, Azərbaycan azadlığının gerçəkliyindən şehlənmiş çiçək misralar gecənin qaranlığında yanan ulduzlar kimi görünür. Bu görüntüdə hər misrası Azərbaycan istiqlalı, milli mədəniyyət mücadiləsi, haqq gerçəkliyi uğrunda mübarizədə döyüşən, vuruşan Söhrab Tahir poeziyasının da öz parlaqlığı var. O, Azərbaycan azadlığı mübarizəsinə gənclik illərindən – ömrünün ən xoş, saf, təmiz, ülvi çağlarında, dünyanın min bir nəfsindən uzaq, qaynar həyat eşqiylə dolu bir zamanda atılıb. Gənclik urcahına çıxan ilk sevgisi Azərbaycanın istiqlal mübarizəsi olub. Bu eşqin oduna böyük Azərbaycanın – ikiyə bölünmüş Azərbaycanın o tayından bu tayına pənahlanıb. Bu taya dözüm dərsi, fədakarlığı, mətinləşməyi, bərkiməyi, azadlıq mübarizəsinin isti-soyuq yollarının möhkəm iradəylə keçməyi öyrənməyə gəlmişdi. Fələkmi, irticaçılarmı geriyə dönən yollarını qana döndərdi, tikanlı məftillərlə səddləydi, kilidləydi, açılmaz sirli düyünlə bağladı. Və o taydan bu taya üz tutan azadlıq mücahidi düz 50 ildir ki, mühacirat ömrü yaşayır. “Hər gün həsrətimin ilk pıçıltısı Vətəndir, Vətən” – deyən Söhrab Tahir “Vətənin azadlıq gününə doğru” addımlayır.

*Əziz Vətən, doğma diyar.*
*Vuruşuram sinəndəki*
*Qan yerini silənədək.*
*Vuruşaram azadlığım*
*Başım üstə gələnədək.*

Təbrizdə doğulan şair Bakıda yaşayır və böyük Azərbaycanın bütöv taleyini, azad taleyini düşünür, bu həsrətlə yanır, qoşulduğu mübarizədən çəkinmir. Fikrində dolandırdığı, içində ağladığı həsrətinin başına pərvanədək dolanır. Amma, bu da bir yazıdır – ata-ana, bacı-qardaş həsrətindən də böyük, uca Vətən azadlığı niyyətini ürəyində əziz tutub. Bəlkə də şair taleyinin

uğurudur ki, sovet Azərbaycanın şairlərindən fərqlənərək mühacir taleyiylə baş-başa qalıb Azərbaycanı üçün nə diləyibsə, açıq-aşkar yana deyə bilib, ağı-nəğməyə düzə bilib:

*Üsyanların hamıdan çox,*
*Qurbanların hamıdan çox,*
*Zindanların hamıdan çox,*
*Qan tarixin daha çoxdur.*
*Neçə ildir ki, bu millətin*
*Hələ milli haqqı yoxdur.*

Söhrab Tahir bu şeiri hələ 20 il bundan əvvəl Cənubi Azərbaycana ünvanlayıb yazırsa, əslində bütöv Azərbaycanın taleyidir: 20-ci illərin, 37-ci illərin, 45-ci illərin, 79-cu illərin, 80-ci illərin taleyidir. "Mən əkinçiyəm, Azadlıq becərirəm ürəklərdə" deyən istiqlal mühacidi təkcə 36 milyonluq cənublu ürəyinə yox, bütün türk dünyasının ürəyinə işıq salıb azadlıq meydanını hərarətləndirir. Kövrək, həsrət dolu nəğmələriylə cəmi Azərbaycanın taleyinə könül yandırıb, ömründən-günündən, duyğularından, ürəyindən, canından-cismindən ocaq çatıb. "Məslək, vətən, bir də ki, xalq, bu üçlüyə bağlıyam mən" deyir. 80-ci illərin axırlarında başladığım Azərbaycan müstəqilliyi cəbhəsndə illərlə mübarizədə olan ədəbi sənətkarların, onların sırasında həmişə öndə gedən Söhrab Tahirin misraları, həsrətli nəğmələri yolumuza, Azadlıq meydanına bələdçi oldu. Vətənin bu tayında qazanılmış azadlığı şair bağrına basdı. Qəlbini o taya xoş mücdəylə uçurdu. Amma düşmən bu azadlıq sevincini onu da ürəyincə sevinməyə qoymadı. Yol alıb torpaqlarımızı, Qarabağ obasını basmağa, yerlə yeksan edib talan etməyə gəldi. Şair sözünü silahlayıb işğalçı düşmən üzərinə mərmitək ələdi. "Ana Vətən alovda yanır, fəryadı, harayı ərşə dayanır" – çağırışıyla cəbhəyə yol aldı. Vətənin cəbhəyə dönən çəmənliyində bənövşəni dərən, bulaqlara enən gözəlləri görmədi. Ceyran sürülərinin izini, çöl toyuğunun qaqqıltısını, quzuların nəfəsini duymadı. Nəm barıt iyli güllərin, qız bulaqların pıçıltısından, səngər evlərin duruşun-

dan cəbhə xəttini tapdı. Yolları "qanlı, yamacların küsülü, dərələri dərdli, buludları kövrək, al rəngini itirmiş laləni" görüb şair könlü Allahdan güc, dözüm istədi. Nəfəsimlə –

*Qradları, minaları göyə sovurram,*
*Köksüm üstə qorğa kimi güllə qovurram,*
*Üstümüzə gələn tankdan xəmir yoğurram.*

– dedi. Cəbhə xəttində çox igid oğullara rast gəldi, vətən divarına qala kimi dayaq oğullar gördü. Onlara şeiriylə, nəğməsiylə, yaralı ürəyiylə hayan olmağa çalışdı. Qayıdanbaş hər əsgər anasına əl boyda məktub yetirdi. Bu məktublar "Vətənə səngər əsgər oğlundandır" – dedi.

Vətən eşqiylə 18 yaşında yola çıxan Söhrab Tahir indi 70 yaşın astanasındadır. 70 yaşında daha mübariz, daha ötkəm, daha inadkar olub. İndi onun Vətən sevgisinə, bağrı qan Vətəninə olan eşqinə əlmi yetirmək olar? Uca, uca dağlar başından aşıb, nurlu dərələr boyunca yayılıb, milyonlarla ürəkdən keçən yollar uzunluğu boyuna dolub. Yoluna uğur şair, ürəyindən günəş işığı əskik olmasın, Vətən mücahidi kimi niyyətinin, arzunun sahibi olasan. Allah eşqinə, torpaq eşqinə, Vətən eşqinə sevgin daim çiçək açsın.

## MÜƏLLİM UCALIĞI SEHRİNDƏ

Ata-anam qədər müqəddəs, şirin bildiyim müəllimimi özüm də hiss etmədən hər an xəyalımda, gözümdə dolandırmışam. Müəllim könlümün ən əzizi, həyatım boyu ehtiyacını duyduğum kəsdir. Professor Vaqif Arzumanlı, – ürəyimdə əzizlədiyim, hörmət etdiyim belə müəllimlərimdən biridir, birincisidir. Vaqif müəllim Bakı Dövlət Universitetində oxuduğum illərdə bizə SSRİ xalqlar ədəbiyyatından dərs deyirdi. Auditoriyada hamımız onu çox istəyirdik. Son dərəcə həssas, mehriban və müdrik, nurani görünərdi. İndi fikirləşirəm ki, sən demə, onda Vaqif müəllimin cəmi 33-35 yaşı varmış. İş elə gətirdi ki, Vaqif müəllim Akademiyada burada Milli Münasibətlər İnstitutunda da mənim müəllimim, elmi rəhbərim oldu. Mən o illərdə onda duyduğum səmimiyyəti, mehribançılığı, ən yüksək insani münasibəti indi də gördüm. Çox güman ki, o illərdə Vaqif müəllimin yadında qalmamışam. Minlərlə tələbədən biri də mən idim. Amma əziz bir müəllim kimi uzun illər  qəlbimdə dolandırdığım bu insanla yenidən rastlaşdım. 1992-93-cü illərdən bu institutdayam. Əvvəlcə dissertant, sonra isə elmi işçi kimi. Bu illərdə mən onun həm müəllim kimi səbrinə, həm də bir insan kimi böyüklüyünə, əzəmətinə, həm də institut rəhbəri kimi qayğıkeşliyinə, alicənablılığına heyran qalmışam. Onun mənim həyatımda yandırdığı işıq, bəlkə də həyata yenidən qayıtmağımdır. Ülvi itkisindən ağrıdığım, göynədiyim illərdə Vaqif müəllim böyük qəlbiylə mənə hey etdi. Hey kimin ata-anamın, doğmalarımın, iş yoldaşlarımın, qələm dostlarımın qayğısına, təsəllisinə ovunmadığım, toxtamadığım halda Vaqif Arzumanlının müəllim sözünə, müəllim qayğıkeşliyinə sığındım. Əlimin işə-gücə, yazı-pozuya o qədər uyuşmadığı məqamda o, məni işə cəlb etdi. Milli müstəqillik uğrunda mübarizə tariximizdən, bu mübarizənin XX əsr konteksində azadlıq poetikasından və bu xüsusda Ülvi ömürlüyündən, Ülvinin poetik dünyasından yazmağıma tapşırdı. İnstitutun elmi iş planına daxil etdi. Tez-tez, hər

həftə, hər ay maraqlandı, tələb etdi və məni işə-gücə qaytardı, dərd fikir-xəyalından ayırdı. Və... bir də gördüm o vaxtacan – iki il idi ki, gözümdə qaralan günüm-güzəranım durulaşır, həyatda aydınlıq sezirəm. Söhbətim heç kəsi darıxdırmasın. Şəxsi xarakterli danışıq fikrində deyiləm. Vaqif müəllimin adi  bir insana, jurnalistə, 20 yanvar faciəsində əzizini itirmiş bir adama etdiyi xeyirxahlıqdan, böyük insanlığından danışıram. Bu böyüklük kiçik bir konteksdə görünürsə, deməli o ürək, o insan hər cür yüksək böyüklüyə qadirdir. Dəniz suyunun dadı bir damladan bəlli olur, söz o deyil ki, bütöv dənizi dadasan.

Vaqif müəllimin təkidi, qayğıkeşliyi ilə çox qısa müddətə elmi işimin müdafiəsini başa çatdırdım. Sonra həmin işə Vaqif müəllim ön söz yazaraq kitab halında nəşrinə kömək etdi. Bütün bunları o, çox adi bir iş kimi, amma böyük ehtiramla görürdü. Vaqif müəllim onu da bilirdi ki, mən hər gün Şəhidlər Xiyabanına – Ülvinin ziyarətinə gəlirəm, ağrıyla geri qayıdıram. O, buna da əlac tapdı. Şəhidlər Xiyabanının yaxınlığında yerləşən institutumuzda məni işə dəvət etdi.

– Qızım onsuz da Şəhidlər Xiyabanı ağır yoldur. Bura, institutumuza da dönüb bir-iki kəlmə yoldaşlarla söhbət etsən fikrin dağılar. Və mən burada elə istiqanlılıq, mehribançılıq gördüm ki, sonralar daha çox instituta can atdım. İş məsuliyyəti və yeni yoldaşlar arasında səmimiyyət mənə yüngüllük gətirirdi.

Heç yadımdan çıxmır. 20 yanvara yaxın günlər idi. Hava çox soyuq və küləkliydi, üstəlik də qar sovururdu. Bir yazıyla əlaqədar direktorun – Vaqif müəllimin yanına getdim.O əvvəlki qaydada məni çox böyük ehtiramla qarşıladı, yazıma baxdı, sonra "gələndə Şəhidlər Xiyabanına dəymisənmi? - deyə soruşdu.

– Yox, indi gedəcəm.

Az sonra mən institutdan çıxıb gələndə onun da geyinib düşdüyünü gördüm. O boranlı gündə Vaqif müəllim mənimlə birgə Ülvinin qəbrini ziyarət etdi. Əyilib qəbrin üstünün qarını  tökdü, şəklini sildi, fatihə oxutdurdu. "Qızım, soyuqdur, çox durma,

gedək" – deyə məni aradan ötürdü. Özü isə yenə işə qayıtdı. Yolboyu bu insanın kövrək qəlbinə, insani ucalığına, vətəndaş qeyrətinə heyran qalmışdım. Aradan 7 ildən çox keçsə də o hadisəni unuda bilmirəm. Qəlbim o ucalıq qarşısında böyüdükcə böyüyür. Ülvinin nəşr olunmuş kitabları haqqında alim sözünü, ədəbiyyatşünas sözünü, vətənpərvər sözünü əsirgəmir. Ən çox da bir şəhid ruhunu sevindirmək, bir ağrıyan qəlbi ovundurmaq xatirinə Vaqif müəllim belə insandır.

O, gözəl ədəbiyyatşünas alimdir. Pribaltika ədəbiyyatını bizə sevdirib – o xalqların ədəbiyyatını bizim dilə, bizim ədəbiyyatı o dillər ilk dəfə tərcümə edib. Xalqlar arasında ədəbiyyat ünsiyyətçisi olmaq böyük şərəfdir, böyük zəhmətdir. Vaqif müəllim bu haqları özü qazanıb. O müqəddəs bir müəllim kimi, qayğıkeş bir alim kimi, səmimi, saf bir insan kimi, alicənab, xeyirxah bir direktor kimi, həssas duyğulu bir ədəbiyyatçı kimi mənə çox əziz bir şəxsdir. Ondan öyrənmək görüb-götürməli çox keyfiyyətlər var. Tanrı, o ucalığı qəlbimizə sehrləsin.

Vaqif müəllimin yubiley günüdür. Bu yubiley bizim üçün bayramdır, sevincli günə qatıldığımız məqamlardır. Mən burada konkret bir istiqamətdən danışsam da amma Vaqif müəllimin böyük tədqiqatçı alim kimi, ədəbiyyatşünas kimi xidmətləri ədəbiyyatımız da, elmimizdə xüsusi yeri, xidmətləri vardır.

O, gözəl ədəbiyyatşünas alimdir. Pribaltika ədəbiyyatını bizə sevdirib – o xalqların ədəbiyyatını bizim dilə, bizim ədəbiyyatı o dillərə ilk dəfə tərcümə edib. Xalqlar arasında ədəbiyyat ünsiyyətçisi olmaq böyük şərəfdir, böyük zəhmətdir. Vaqif müəllim bu haqları özü qazanıb. O, müqəddəs, qayğıkeş bir alim kimi, cəfakeş bir alim kimi, səmimi, saf bir insan kimi, alicənab, xeyirxah bir direktor kimi, həssas duyğulu bir ədəbiyyatçı kimi mənə çox əziz bir şəxsdir. Ondan öyrənmək, görüb-götürməli çox keyfiyyətlər var. Tanrı o ucalığı qəlbimizə sehrləsin.

*V.Həbiboğlu "Azərbaycanı dünyaya tanıdan alim"*
*kitabından.səh.173-175.*

# ÖMRÜNDƏN NUR PAYI AYIRAN MÜQƏDDƏSLƏR

Ötən günlərin birində telefonumuz zəng çaldı. Dəstəyi qaldırdım. Səmimiyyətlə hal-əhval tutsaq da, səsi tanımadım.

– Danışan Murğuz müəllimdir – dedi.

Bir anlıq dəstək əlimdə dondum. İç dünyamda həmişə andığım, qoruduğum, əzizlədiyim müəllimlərimdən biri idi...

...Dəstəyi qoyandan sonra fikirləşdim. Bu il Murğuz müəllimin 60 yaşı tamam olur. İstər-istəməz dünyalarca sevdiyim, "Əlifba"nı mənə öyrədən İsfəndiyar müəllimi düşündüm. Heç bilmirəm onun 60 yaşı nə vaxt ötüb. Kənd-kəsək, el-oba dağıldı. Qurulu dünyamız uçulub töküldü. Hamı biri-birinin yaşını da unutdu, səsini də. Hadisələr, faciələr o qədər üst-üstə düşdü ki, bir vaxtlar sənə əziz olan çox şeylər yaddaşından öz-özünə silindi.

Axırıncı dəfə, 1984-cü ildə oxuduğum ikimərtəbəli, işıqlı, yaraşıqlı məktəbimizdə keçirilən "Məzunlarla görüş"də hamıyla görüşüb ayrılmışdım. İndi budur, o vaxtdan 13-14 il ötüb. Uzaq tarixi zaman olmasa da, başımıza gələn dəhşətlər çox xatirələri, çox olmuşları, çox tarixləri fikrə-xəyala gətirməyən qatlara ötürüb. Onunçün də indi mənim daxili dünyamda belə əziz olan bir çox kəslərin bayram günləri, hətta doğma səsləri də yaddaşımda dolaşır.

Murğuz Novruzov 1937-ci ildə Göyçə mahalında Kəsəmən kəndində anadan olub. Orta məktəbi doğulduğu mahalda bitirib. H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində ali təhsil aldıqdan sonra (1953-1957) kəndə qayıtmışdır. 1988-ci ilin noyabr ayına kimi orada fizika-riyaziyyat müəllimi işləmişdir. Bütün bu dövr ərzində o, bir çox mükafatlarla da təltif olunmuşdu. Murğuz müəllimin dərs dediyi şagirdlərin çoxu indi müxtəlif ali məktəblərdə elm xadimi kimi tələbələrə mühazirələr oxuyur, istehsalat müəssisələrində ali

təhsilli mütəxəssis kimi yüksək vəzifələrdə çalışırlar. Dövlət idarələrində işləyirlər. Yüzlərlə müəllim, mühəndis, həkim ixtisaslı mütəxəssislər məhz onun dərs keçdiyi siniflərdən ötüblər. Budur, 60 yaş gəlib çatıb. Bu yaşın 40 ili gənc nəslin təlim-tərbiyəsinə həsr olunub. Ömründən nur payı ayırıb onların gələcək talelərinə calayıb.

Murğuz müəllim 60 yaşın 10 ilini qaçqın taleli ömrə qatıb. 1988-ci ilin noyabrında bütün göyçəlilər də öz yurd-yuvalarından məcburi çıxarıldılar, qovuldular. Hərə bir yana, bir kəndə, bir şəhərə üz tutdu. Kimin harada bir simsarı vardısa, ailəlikcə o tərəfə yan aldı. Murğuz müəllimi də ailəsi ilə birgə tale gətirib Tərtər rayonunun Bəyimsarov kəndinə çıxardı. İlk illər həmin kənddə yerləşən orta məktəbdə direktor işlədi (1990-1994). Sonra isə təlim-tərbiyə işləri üzrə direktor müavini kimi fəaliyyətini davam etdirir. Bilirəm ki, o, yenə də həmin məhəbbətlə, məsuliyyətlə sinfə daxil olur, gənclərin sabahkı talelərinə arxa dayanır.

Müəllimlərimizin hamısı müqəddəsdir, hamısı əzizdir, ömrümüz boyu onlara olan minnətdarlıq hissimiz tükənməyəcəkdir. 60 yaşını təbrik etdiyimiz Murğuz Novruzov da o sıradandır.

*"Xalq qəzeti"*
*15 iyun 1997-ci il*

## SƏMİMİ POEZİYA

Göyçə ədəbi mühitində yaşayıb-yaradan el sənətkarlarından biri də Eldar İsmayıldır. Onun yaradıcılığını qismən əhatə edən iki kitabı – "Ulu Göyçə" və "Allah Amanatı" kitabları əlimizdədir. Hər iki kitab Göyçə erməni tapdağında viran olandan sonra nəşr olunub. Bəlkə də əsas səbəb budur ki, oxuculara təqdim olunan bu toplulardakı poetik nümunələrdə kədər motivi, qəm laylası daha qabarıq görünür. Axı, Göyçə göyçək gorunuşüylə dünyanın bütün obalarından, yurd yerlərindən seçilən mahal olub. Söz yox ki, bu gözəllik, bu zəriflik şair qəlbini riqqətə gətirib, onun ilhamında maya olmasın.

*Ulu Göyçə, ululardan ulusan,*
*Çəmənlisən, çeşməlisən, sulusan.*
*Ələsgərin gövhəriylə dolusan,*
*Dünya boyda bu xəzinən var olsun,*
*Bar gətirən bəxtin sənə yar olsun.*

Eldar İsmayıl Göyçə mahalının Ağbulaq kəndində dünyaya göz açıb. Özünün etiraf etdiyinə görə, şair kimi doğulmasında babasının "folklor xəzinəsi olması" böyük rol oynayıb. "Babam o qədər nağıl, dastan, bayatı bilirdi ki, danışmaqla başa gəlmirdi. Onun bu xalq xəzinəsindən söyləmələri ürəyimdə söz misralamağın sehrini, tutumunu cücərtdi, sonra da el-oba, torpaq-Vətən sevgisi o cücərti gözə nəfəs verdi, həyat verdi. Və bir də gördüm ki, içimdə bir pıçıltı dolanır. Bu, Vətənimə, Göyçəmə, doğulduğum Ağbulaq kəndimə eşq pıçıltısı idi".

*Doğma Ağbulağım, dağlar dilbəri,*
*Günəşli gündüzüm, səhərim mənim.*
*Göyçədə ən kiçik kəndim mənim,*
*Dünyada ən böyük şəhərim mənim.*

Eldar İsmayıl Göyçədə mətbuat sahəsində – Krasnoselo rayon qəzetində redaktor kimi çalışıb. Vaxtaşırı şeirləri, müxtəlif səpgili yazılarıyla mətbuatda görünüb. Göyçə ədəbi birliyinin

ətrafında toplanan qələmdaşlardan biri olub. Eldə-obada sayılan-seçilən ziyalı, ağıllı söz sahibi idi. İlk şeir toplusunu da hazırlayıb İrəvan nəşriyyatlarının birinə təqdim etmişdi. Lakin Göyçənin, İrəvan obasının bütün yazarlarının şeir-söz qovluqları kimi bu qovluq da orada it-bat oldu. İşıq üzü görmədi. Doğulmamışdan məkrli düşmən boğub qaranlıq bəxt verdi o yazılara, o misralara.

*Ulu Göyə, şeir-sənət maraqlı.*
*Miskin Abdal, Dədə Alı soraqlı,*
*Dilqəm ünlü, Misri-cəngi yaraqlı,*
*Bu ünvanın eşqi, andı belədi...*
*Saza baxdım, məni oda bələdi.*

Belə bir obanın torpağından, suyundan doğulan şair qəlbini, bu qaranlıqlar boğa bilməz, susdura bilməz, haqq yolundan çəkindirə bilməz. Bu misraların düzümləndiyi duyğulu könüllər dağlarda qaynayan saf bulaqlar kimi təbiidir, büllurdur.

Şairin bütün şeirlərində görünən qırmızı xətt Göyçəyə sonsuz bağlılıq hissindəndir. Ancaq buo demək deyil ki, şair Göyçədən özgə, sevgili şəhər, yurd yeri tanımır, sevmir, könül vermir. Hələ Göyçədə yaşayarkən Bakıda olan, bacısına ünvanladığı "Bacım Yasəmənə məktub" şeirində yazır:

*Özün bilirsən ki, Bakı dünyamdı,*
*Mənim Bakı adlı dünyamdan danış.*
*Bu adla qoşadı anamın adı,*
*Mənə məktubunda anamdan danış.*

Bu onun bütöv Azərbaycan sevgisidir. Eldar İsmayıl 1988-ci il noyabr ayının axırlarında Göyçədən Bakıya pənah gətirib. 10 gündən sonra 6 ili tamam olacaq o tükürpədici, dəhşətli gecədən keçən illərdən, günlərdən geniş danışmaq çətindir, ağrılıdır. Eldar İsmayılın könül işığına toplaşdığımız bu məclisə acı xatirələri çözələməklə ağırlıq gətirmək istəmirəm. Şair ilhamını aldığı dağından, daşından, gülündən, çınqılından, gölündən, qumundan, ağacından, torpağından, yurdundan, evindən qovulursa, onun könlü xoş yaşaması çətin olur. Nikbin duyğular içindən, düşüncə-

sindən perik düşür. Eldar İsmayıl belə bəxt sahibi olanlardan biridir. İsmixan Məmmədov, Alqayıt Məmmədov, Haqverdi Ələsgərov, Yusif Kəsəmənli, Tərlan Göyçəli, Məcnun Göyçəli, Zəki İslam və onlarla Göyçə ədəbi məktəbinin davamçıları kimi. Allah rəhmət eləsin. İsmixan Məmmədov deyəndə, Göyçənin nəhəng bir sütunu gözümüz önünə gəlir. Yurd nisgili, kənd ağrısı o haqq sənətkarı yedi, ömrünü yedi, bir ovuc torpaq elədi.

Eldar İsmayıl şeirlərindən çox danışmaq olar. Mübaliğəsiz deyə bilərəm ki, hər şeirində, hər misrasında oxucunu ayaq saxlamağa məcbur edən bir hiss, duyğu, fikir, məna, sirr var, hər misrada doluxsunur, kövrəlirsən. O misralar pünhan bir sevgiyə bülənc edir səni. Onun "Ulu Göyçə" adlı poemasına gəldikdə isə, bu əsər Göyçənin etnoqrafik, coğrafi, mənəvi xəritəsidir, poetik ziyarət karvanıdır. Böyük bir xalqın ulu tarixi, qədim adət-ənənəsi bu poemada nəğmələr boyunca Şəhriyarsayağı elə misralanıb ki, birnəfəsə oxuyub başa vurammayınca doya bilmirsən. Göyçənin Novruz bayramı gözəl keçirilərdi. Dörd çərşənbə axşamı bütün xırda etnoqrafik detallarıyla belə qeyd olunan bu bayram axşamları ruha sevinc, xoşbəxtlik gətirərdi. Bayram gələcək yumurtanı boyardın,

*Vuruşdurar, sonra qatar qoyardıq.*
*Beş uduzar, təkdən bir udardıq,*
*Bayram ayı təzə paltar geyərdik,*
*Özümüzü, Allah, necə öyərdik!*

Bu poemanın hər misrasında min bir hikmət, min bir sirr qapısı açılır. Bu şair qəlbinin sevgi uğurundandır. Ancaq o, 1989-cu ilin Novruz gecəsi belə bir şeir yazdı: "Göyçə bir də bayram etməyəcəkdir". Şairin "Nəcəf" poemasında el aşığı Nəcəfin faciəvi taleyindən danışılır. Bu qeydlərim Eldar İsmayılın 50 yaşı tamam olan vaxta təsadüf edir.

Yurd sevgili nəğmələrim dünya boyunca könüllərə yayılsın!

18.XI.94.

*"İki sahil"*
*14 mart 1995-ci il*

# QƏLBİNDƏKİ ŞEH DAMCISI - EŞQ PIÇILTISIDIR

*(jurnalist Telli Pənahqızı haqqında)*

İrəvanlı jurnalist qızlardan söhbət düşəndə ilk olaraq Telli Pənahqızı, Mənzərə Sadıqova və Flora Xəlilzadənin yaradıcılıq taleləri gözümün qabağından keçir.Çünki bu qızlarda yüksək yaradıcılıq qabiliyyəti, talant olduğu kimi, qəlbdən doğan və məsuliyyətli vətəndaşlıq, vətəncanlılıq hissləri də güclüdür. Bəlkə də bu ştrixlər onların yaradıcılıq dəstxətlərində o qədər həssaslıqla duyulur ki, oxucunun, tamaşaçının diqqətini tez cəlb edir və uzun müddət qarşı fıkrə hakim kəsilirlər.

Telli Pənahqızını bəlkə də üç onillikdən çoxdur ki, hamımız televiziyada görürük. Yəni onunla hər kəsin tanışlığı televiziyadan başlayıb. Ədəbiyyat - mədəniyyət verilişlərdə, "Xəbərlər"də və s. proqramlarda – Telli xamm bütün tamaşaçı auditoriyasını yuxarıda qeyd etdiyim keyfiyyətləri ilə ələ almağı bacarıb. Mən inanmıram ki, bir vaxtlar kimsə Telli xanımın verilişlərinə biganə qalıb televiziyanın başqa bir kanalına keçsin. Çünki ölkəmiz son az qala iyirmi ilə yaxındır elə bəlalarla üzləşir ki, hər kəs özünə bir həmdərd, həmdəm axtarır . Telli xanım qısavaxtlı verilişləri ilə o boşluğa hayan çıxmağı bacarıb. İnsanları üzən yurd ağrısı, torpaq hissi onun da həyatının bir hissəsidir. O yaşantılarda Tellini həmin insanları içəridən duymağa kömək edib. Bundan başqa Telli xanımın gözəl ekran görünüşü, şirin, gülümsər çöhrəsi, qara uzun saçları, qaynar baxışları tamaşaçını bir anlıq ayaq saxlatdırıb, danışıq üslubu, sözə ehtiyatlı toxunması, dərin mənalı, məntiqli fıkri ilə vaxtın ötdüyünü ona hiss etdıiməyib. Tamaşaçı qazancı o olub ki, öz narahat dünyasından qopub bu dərdə həmdəm qızla baş- başa qalıb, bir hovur ürəyini dincəldib.

Son illər "Qocalar evi"ndən apardığı silsilə görüş – verilişləri onun böyük humanizm duyğularından pöhrələnib. Bu artıq fədakarlıqdır – kimlərisə ola-ola kimsəsizə çevrilən vali-deynlərə – qocalara qəlbinin odunu əsirgəməmək doğrudan da

əvəzolunmaz xidmətdir. Onlara maddi köməklikdən çox-çox yuxarıda dayanan mənəvi rahatlıq, ruhi sağlamlıq, söz-nəğmə nəşəsi bəxş edir.

*Bayatısı yetim, laylası yetim,*
*Əbədi sandığı dünyası yetim.*
*Yaman kövrəkdir burda nənələr.*

Görünür Telli xanım çox ürəyiyuxa insandır. İllərlə uzaqdan-uzağa da olsa tanıdığım bu qızın şairlik – söz qoşmaq qabiliyyətinə heç şübhə olmayıb. Hətta 10-15 il əvvəl qələm dostum bir xanımın ilk şeir kitabına ön söz yazanda da bu məqama toxunmuşdum. Dağ qızı olduğumdan bilirəm ki, bulağın gözünü nə qədər sıxsan da nə vaxtsa qum-çınqıl qarışıq qaynamalıdır. Özünə axar tapandan sonra isə o bulaq göz yaşı kimi dumduru suyuyla təbiətin gözəl bir guşəsinə çevrilir. Telli xanım bəlkə də həmişə şeir yazıb, amma üzə çıxarmayıb, guman ki, bu yolun zəhmindən, nəhəng yolçularından ehtiyatlanıb. Həyat insanı bəzən elə bir imtahana çəkir ki, onda başqalaşmağa məcbur olursan. Daha doğrusu, xarakteri olan hər kəsin digər müsbət bir keyfiyyəti üzə çıxır.

Telli xanımın – tanınmış, barmaqla sayılacaq iki-üç telejur-nalistdən biri kimi – nüfuzu kifayət edir ki, o, şərəfli, mənalı yaradıcılıq yolundadır. Elə bu məqam Telli xanım ekranda, efirdə, mətbuatda şairə – nəğməkar şairə kimi göründü. İlk poetik gəlişi də uğurlu alınmışdı. Görünür söz bənd-bərəsinin qabağını kəsə bilmədiyindən sısqa bulaq kimi yox, qaynar çeşmətək şeir aləminə daxil oldu. Təbiətən şair doğulan bu qız təbiət şairi kimi yox, könül, sevda nəğməkarı kimi çağladı.

İnsanı fani və rnhi dünyada eşq yaşadır. Bu aksiomadır. Söhbət təkcə ondan getmir ki, kiməsə aşiq olasan və ya kimsə sənə aşiq olsun. Söhbət insanın özünün eşqdən yaranmasında- dır, dünyanı eşqlə dərk etməsindədir. Eşqlə doğulanlar elə eşqin bir çınqısıdır. Telli misralı dünyasında bütövlükdə məhəbbətdir.

Onun bir-birinin ardınca bir neçə şeir kitabı çapdan çıxdı.

“Ömrün qoşa izi”, “Tanrımla söhbət”, “Ayrılıqdan sonra çəkilmiş şəkillər”, “Səsində ay işığı var”. Həcmcə də sanballı olan bu kitabları vərəqlədikcə Telli xanımm daxili xarakterini, içindəki dünyasının fəlsəfəsini, mənasım çox asanlıqla duymaq olur. Özü də sən demə, onu misralarında daha tez tanımaq olurmuş. Nə qədər kövrək, həssas, uşaqtək sadəlövh, səmimi...

*Həsrətdən doğulmuş*
*Bir daınla şehsən*
*Kirpiyimdə sən.*
*Birdən gözümə*
*Dönüb tökülsən*
*Neylərəm görən?*
*İndi qorxuraın*
*Kirpik çalmağa.*
*Qorxuram sənsiz*
*Ağlamağa da.*
*Qorxıuram birdən*
*Qopub düşəsən*
*Buz yanağıma,*
*Sən üşüyəsən.*

“Tanrımla söhbət” kitabını ortadan açdım və rastıma ilk çıxan bu şeir oldu. İlk altı sətrini oxudum. Qəlbimə doldu. Lirik “mən”in poeziya fəlsəfəsini, mənasını aramadan – kövrək, bir az da eşqə söykənəcək mərhəmi pomantik ovqatımı tutmuşdu. Sonrakı sətirləri oxumaq istəmədim. Mənə elə gəldi bu şeir elə o qədər olmalıdır.

Amma həmin sətirlərə sonra bir də qayıdanda şeirin sonluğundakı mənanın – sevgiyə körpə qayğıkeşliyinin kövrək duyğularla toxunduğunu gördüm. Bunlar əsas verir ki, deyim, Telli xanım şairlər meydanına birdən-birə atılmayıb. İllərlə sözlərini də, fıkrini də cilalayıb. Həm də zaman məqamı da yaradıcılıqda vacib şərtdir. Telli xanım vətəncanlı qələm adamıdır. Azərbaycanın, ulu dədə-baba torpaqlarımızın ağır taleyi vallah

şair olmayanı da şair edib. Telli xanım publisistikası ilə bu məcraya yerləşə bilmədi. Təbiətən zamamn köklədiyi ovqatdan yarandı - onun şeir dünyası. Telli xanımın çox maraqlı şeir aləmi var. Kəhkəşandakı ulduzlar əvvəlcə eyni biçimdə, eyni parlaqlıqda görünsə də, sonra diqqət edəndə hərəsinin öz biçimi, öz nuru olduğu bəlli olur. Bu poeziyadakı sevgi nəğmələrini oxuyanda həmin biçim, həmin nur görünür. Elə ki, iki-üç şeirdən sonra o sevginin içinə daxil olursan, aman allah, aradan çıxmaq istəsən də çıxa bilmirsən. Ağrılı-məlhəmli, şirinli-acılı, cansıxıcı aləm-sonsuz kəhkəşan... nələr yoxdur burada. Mənə elə gəldi ki, buradakı konkret sevgi obrazı elə lirik “mən”in öz məhəbbət təxəyyülüdür.

Təxəyyülün yaratdığım fani dünyada aradıqca-arayırsan, nəhayət, yenə öz eşq dünyana qayıdırsan. Sözlə oyun oynayanda hisslərə sığal çəkilirsə, bu bir ayrı yaşantıdır. Telli xanım bu sirrini deməyə öz şair qəlbi qədər incə, zərif obraz seçə bilib –

*Ömrü gödək, gözü xal-xal bənövşəm,*
*Sirrimi tək sənə söyləyəcəm.*
*Birini sevmişəm, oda düşmüşəm...*
*Adını soruşma... deməyəcəyəm.*
*Çiçəksən, bilirəm, sirr saxlayansaıı,*
*Mənim tək nə qədər sevən görübsən.*

Telli Pənahqızının şeir topluları ilə yanaşı daha bir kitabı da qarşımdadır – “Sizi sevən Sərdaram”. Kitab unudulmaz dostumuz, sevimli tibb xadimi, saz-söz əhli, gözəl insan, nakam Sərdar Kərimov haqqındadır. Telli xanım bu kitabda Sərdara həsr etdiyi – Sərdar ömürlüyünə bağladığı duyğularını, hisslərini, xatirələrini 77 hekayətlə nağıllayıb. Bu nağıllarda müəllif Sərdarın dostlarının, yaxınlarının fikirlərinə söykənib. Kitabı bir nəfəsə oxumaq çətindir. İşıqlı bir ömrü dərd dastanına sığışdırmaq, sonra da oxumaq çox çətin imiş. İllahdakı tanıdığın, xətrini əziz bildiyin, bir qonşuluqda böyüdüyün kəs haqda ola. Telli xanım bu kitab üzərində işlərkən ürəyini sanki yanar şişə çəkib. Sətirlər,

sözlər, fikirlər, duyğular, məhəbbət dolu dostluq münasibətlərindəki hənirtilər adamın içini oyur. Sərdar mənim doğulduğum kənddə məndən 5-6 il əvvəl doğulub. Bir məhəllədə – qonşuluqda böyümüşük. Sona xalanın “Sərdarım” deyə öyündüyü günlər bu kitabı vərəqlədikcə gözümdə yenidən canlandı. Onun necə istedadlı olduğunu kənddə hər kəs bilirdi və fəxr edirdi. Telli xanım Sərdarla bağlı bu kitabı o qədər məhəbbətlə, qaynar istəklə, kövrək duyğuyla, ürək dolu ağı-bayatıyla işləyib ki, mənə elə gəldi evimizin digər tərəf qonşuluğunda da yaşayan Telli xanımdır. Bir məhəllədə böyümüş, bir çeşmədən su içmiş, bir çəməndən cül üzmüşük. Qəlblər doğma olanda qan da bir-birinə qaynarmış.

Telli xanım poetik yaradıcılığı ilə ədəbi üfüqdə gec görünsə də məhsuldar işləyir. 300 səhifəlik “Tanrımla söhbət” kitabındakı şeirlərinin əksəriyyəti 1998-1999-cu illərdə yazılıb.Təkrar etsəm də yenə deyirəm ki, uğurlu kitabdır. Sadəlikdə böyüklük aramaq əsl qələm adamlarına xasdır - Telli xanım necə yazsa da özündən razı qala bilmir -

*Nə yazıramsa ürəyimcə olmur,*
*Ürəyimdən tikan çıxarmır,*
*Ürəyimin qanına bələnmir,*
*Ürəyimdəki sözlər,nəğmələr.*

Sənə göylər dərinliyində, saf, qarşılıqlı sevgi dolu şirin yaradıcılıq ömrü arzulayıram. Sözlərin nəğmətək ürəklərə dolursa, hər şeyə haqqın çatır. Sənə yurd - od qonşusu tək üz tuturam –

*Qoru qönçə tutan çiçəyiini də,*
*Qoru şeh görməyən ləçəyini də.*

*2005, aprel*

## SƏN ÖZÜN ELƏ ŞEİRSƏN

Onu ilk dəfə Axundov adına Dövlət kitabxanasında görmüşdüm. 1985-ci il olardı. Kitabxananın biblioqrafiya şöbəsinin əməkdaşı – gözəl insan, qayğıkeş dost, həssas qəlbli vətəndaş kimi sevdiyim Səadət xanımın tanışlıq üçün dediyi sözlər indi də yadımdadır. – Mənzərə xanım İrəvandan gəlib. Akademiyanın Ədəbiyyat İnstitutunda dissertantdır. Elmi iş müdafiə etmək istəyir. Çox zəhmətkeş, ağıllı qızdır. Dediyində inadcıldır. Özünə qarşı çox tələbkardır.

Elə o vaxtdan həmişə gözümlə o qoçaq qızı axtarmışam. Müxtəlif qəzet-jurnallarda imzasını görəndə yazılarına diqqət etmişəm. Mənzərə Sadıqova Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib doğma İrəvana qayıtmışdı. Bir müddət müəllimə işləsə də yaradıcılığa olan həvəsi onu "Sovet Ermənistanı" qəzetinə gətirib çıxarmışdı. Redaksiyada uzun illərin jurnalistləri sırasında özünə yer tapdı, imzasını tanıtdı, oxucular qazandı. Hələ bununla razılaşmayaraq dissertasiya üzərində işləmək marağını da yəqinləşdirmişdi. Çətin bir mövzu üzərində işləyirdi. Gərək ki, Azərbaycan dram əsərlərinin erməni səhnəsində oynanılmasına həsr olunmuş mövzu idi. O, çətinliklə olsa da İrəvan dövlət arxivini bir-bir araşdırmış, bütün materialları əldə edə bilmişdi. Hər ilki növbəti görüşümüzdə o işini tamamladığını və tezliklə müdafiəyə başlayacağını bildirirdi. Onun ciddiyyəti, tələbkarlığı məndə belə bir inam oyatmışdı ki, Mənzərənin toxunduğu mövzu yüksək səviyyədə başa çatmalıdır. Və günlərin birində Qarabağ mövzusu ortaya atıldı. Qarabağın qara günləri İrəvan torpağından ayaq açdı. Orada yaşayan bütün azərbaycanlılar yurd-yuvalarından perik salındı. Mənzərə xanım da yurdundan, evindən, işindən didərgin olunmuşdu. Hər şey arxada qalmışdı.

Təzədən binə salmalıydı – ev-eşik, dolanışıq, iş-güc qurmalıydı. Hər şey ilkdən başlamalıydı. Çox illərin yorğunluğuyla,

ağrısıyla hər şey yoluna düşdü. Amma necə... Bir dəfə Mənzərə xanım məni evlərinə qonaq dəvət etmişdi. Anası Rübabə xanım gözəl süfrə açmışdı, plovun ətri liftəcən gəlirdi. Ananın narahatçılığı hər gün yadımdadır." Allah hamını qorusun, mənim tək balamı da onların içində. Bir-birinizdən muğayat olun. Mənzərəni tək qoymayın. "

Rübabə ana qızının yüz oğula dəyəsi ağlı, fəhmi, savadı, qoçaqlığı, mərdliyi olduğunu bilsə də, onu hamıya etibarlayırdı.

Mənzərə xanım didərgin həyatına öyrəşdi. Yenə də yaradıcı işə bağlandı. "Azərbaycan qadını" jurnalındakı fəaliyyəti unudulmazdır. Radiodakı vətənpərvər yaradıcılığı lentin yaddaşında çox güman ki, qızıl fondda saxlanır. Nəhayət, televiziyaya – Az TV-nin "Xəbərlər" proqramına gəlib çıxdı. Talenin işidir. İndi Azərbaycanda bu adı hamı tanıyır. Mənzərə Sadıqova. Onun səsi eşidiləndə hər kəs ciddi, səmimi bir informasiyanı dinləyəcəklərinə əmin olurlar. Mənzərə xanım bir vaxtlar qəzet- jurnalda özü üçün oxucu auditoriyası topladığı kimi, televiziyada da tamaşaçı məhəbbəti qazandı.

Nəhayət o, 1996-cı ildə çoxdan tamamladığı elmi işini yenidən səhmanlayıb Ədəbiyyat İnstitutunda müdafiə etməyi qərarlaşdırdı. Sənədlərini təqdim etmişdi. O gün Mənzərə çox həyəcanlı idi. Bir az narahatçılıq keçirirdi. Mövzusu çətin iş idi – onu qəbul edənlər, etməyənlər iclas otağına yığışmışdı. İndiki kimi gözümün qabağındadır. Mənzərə tribunada çox alovlu, bir az da ciddi, tələbkar görkəmdə dissertasiya işini müdafiə edirdi. Sonra opponentlərin iradlarına eyni səviyyədə cavab verdi. İnsafən opponentləri Mənzərənin müdafiə etdiyi sahənin materiallarına bələd olduqlarından işin diqqətəlayiq-liyini dəyərləndirməkdən çəkinməmişdilər. Amma yer-yerdən haqsız iradlar, hücumlar. Mənzərə qətiyyən əhvalını pozmurdu. Məntiqli cavablarıyla hamını susdururdu. Nəhayət çətinlikli olsa da o, qalib gəldi.

Filologiya elmləri namizədi Mənzərə Sadıqova həm də insanpərvərlikdə əvəzsizdir. Yadımdadır, 1991-ci ildə Aktyor evin-

də bir tədbir keçirilirdi. Az TV-dən çəkiliş dəvət olunmalıydı. Amma elə bil qəsdən bütün yollar bağlanmışdı. Mənzərə xanım onda həm də radioda işləyirdi. Onun qətiyyətli tərpənişiylə hər şey yoluna düşdü. O tədbir çox yüksək səviyyədə TV-də dəfələrlə işıqlandırıldı. Burada onun yoldaşlıq münasibətindən də irəlidə vətənpərvərlik mövqeyi dayanmışdı.

İllər ötür. Zaman dəyişir. Amma işıqlı, zəhmətkeş insanlar daha da mətinləşir, nurlanırlar. Rəhmətlik Rübabə ananın ürək çırpıntısıyla dediyi, – "Allah hamını qorusun, mənim tək balamı da onların içində" – sözlərini həmişə xatırlayıram. Bəlkə də bu yazı o ana ruhunun diqtəsiylə araya-ərsəyə gəldi.

Mənzərə xanım Sadıqova illər, günlər kimi hər gün qaçaqovdadır. İstəyərdim ki, o da bir hovur dayansın və bir azca da özü, öz taleyi üçün yaşasın. El-oba, vətən taleyini hər şeydən üstün tutanlar özlərini həmişə unudurlar. Onlara da Allah yardımçı olur.

*Sənə şərqi qoşum, şe'r nədir ki,*
*Ovunsun ürəyin, ovunsun təki.*
*Sən özün şe'rsən, elə şe'r ki,*
*Şairlər heyrətdən ay həsəd çəkir.*

## NUR ÇİÇƏYİ

Tamella xanım mənim üçün zərif, məsum bir çiçəkdir. Və inanıram ki, kim onu tanıyırsa, bu səmimiyyətimi təsdiqləyəcək, sonra da xoş duyğuyla ürəyində təkrarlayacaq ki, o, həm də dünyanın ən gözəl çiçəyidir. Hər görüşündə, hər danışığında ovqatımıza işıq, nur səpən Tamella xanım haqqında çoxdandır nəsə yazmaq, söz demək istəyirdim. Amma sözün düzü bilmirdim ki, (heç indi də bilmirəm) onu oxucuma ilk olaraq həkim kimi, yoxsa şairə-publisist, səmimi insan, qayğıkeş övlad, müqəddəs ana, gözəl dost kimi təqdim edim. Tamella xanım Ağayevanı mənimlə işlədiyimiz redaksiyada dünyalarca hörmətim, məhəbbətim olan əziz dostum şairə-jurnalist Kamilə xanım Nemət tanış etmişdi. Bu tanışlıq 1988-ci ilin axır vaxtlarına təsadüf edir. Onda o gözəl qadın "Ədəbiyyat və incəsənət" qəzetinə şeirlərini təqdim etməyə gəlmişdi. Bu görüşdən az sonra qəzetimizdə "Tamella Şəfəq" imzasıyla lirik, səmimi duyğulu şeirləri dərc olundu. Günlərin birində də Kamilə Nemət bildirdi ki, oftolmatologiya üzrə bacarıqlı və istedadlı mütəssis olan Tamella Ağayeva Moskvada dissertasiya işini müdafiə edib alimlik dərəcəsi alıb. Birgə gedib təbrik edərik. Sözləşdik, razılaşdıq, fikrimizi görüşəndə özünə də açdıq. O, çox sevindi və bizi gözləyəcəyini dedi. Günü günə satdıq, gedib çıxa bilmədik ki, bilmədik. O, isə hər dəfə bizi görəndə hələ gözlədiyini deyirdi. "Hökmən gələn həftə sənin qonağınıq" – dedik. Bu dəfə isə dediyimiz həftədə "20 Yanvar qırğını" oldu. Və hər şey, hamı yadımdan çıxdı. Bütün əlaqədə olduğum insanlarla, dost-bilişlərlə münasibətim yaddaşımdan silindi (bu da bir ayrı faciəm oldu), hər kəslə sanki təzədən tanış olurdum. Bu dəfə Tamella xanım ilk əvvəl dərdə şərik, qayğıkeş, həssas insan kimi ürəyimə daxil oldu. Vətən dərdli, torpaq ağrılı şeirlərinin ilk oxucularından biri mən oldum. Hər dəfə bu şeirlərə telefonda qulaq asdıqca Tamella xanım gözümdə ikiqat ucalırdı.

Ondakı, o zərif məxluqdakı belə qeyrətli, təpərli ürəyə heyran qalırdım, vətənin hər ağrıyan daşının, ağacının, torpağının ağrısı sanki onun içindən keçirdi. 1990-cı ilin müsibətini o, hər an, hər gün əzabla yaşadı. Vətən, torpaq eşqinə şəhid olanların qızıl qanına boyanan böyük imperiya dəyənəklərinin ağrısını mənən Tamella Şəfəq çəkirdi, "ruhumuzu ilan tək çalan dəyənəklər" nifrin oxudu:

*Bir gün tonqallara qalandı meydan,*
*Dəyənək altında qalandı meydan.*
*İgidlər qanına boyandı meydan,*
*Matəm havasını çaldı dəyənək.*

Tamella xanım "Qanlı 20 yanvar gecəsi", "lay-lay" şeirləriylə ağı deyib göynədi də.

Ancaq mətin iradəsi, Vətən sevgisi onu əyilməyə qoymadı, dosta qəmdaş, neçə-neçə yaralı əsgərin dərdinə həmdəm oldu. Gözlərinə nur payladı. Göz həkimi kimi fəaliyyətində sıravi əsgərə döndü. Neçə-neçə insanların xəstə gözünə, nuru tükənmiş gözünə qəlbindən, xoş münasibətindən, səmimi hisslərindən işıq, günəş işığı verdi. Əli yüngüldür. Kim üstünə gəlirsə, ümidlə, sevinclə qayıdır. Tamella xanım Vətən səngərində belə dayanıb. Redaksiyadan cəbhə bölgələrinə ezam olunanda narahat olardı, qayıdanda "gedib-gəlincə lap ürəyimi üzdün" deyə ilk halımı xəbər alan Tamella xanım olub. Hər cəbhədən dönəndə mənə bir şeir yazardı: "Güllələr altında həyat gəzən qız", "Almaz" və s. nəğmələri bir ana narahatçılığından, həkim qayğısından, şair qəlbinin kövrəkliyindən misralanıb.

Tamella xanım qayğıkeş övladdır. Xanımlar xanımı saydığı anasının son anacan qulluğunda özü dayanıb, qardaş-bacılarının hoyuna yetişən birinci o olur. Müqəddəs ana tək övladlarının – Samirlə Səidənin nazını çəkir. Təhsilləriylə maraqlanır, qayğılarına şərik çıxır, bir sözlə balalarına atadır, anadır, dostdur, yoldaşdır.

Tamella Ağayeva Göz Xəstəlikləri İnstitutunun aparıcı

elmi işçisidir, müalicə etdiyi xəstələrini çox vaxt özünün kəşf etdiyi dərmanıyla sağaldır. Səmimi, qaynar məhəbbətli şeirlərinin, narahatlıq doğuran problemlərdən bəhs edən publisistik qeydlərin, xeyli sayda elmi məqalələrin müəllifidir. Minlərlə insanın, dost-tanışın qəlbində sevilən gözəl insandır. Hər gün səmimiyyətinə, qayğısına, isti münasibətinə ehtiyacımız olan dostdur.

Bu qeydlərim Tamella Şəfəqlə oxucularım arasında tanışlıq körpüsüdür və bu körpüdən onun haqqında çox söz karvanı keçəcək.

# ƏLLƏRİ ŞƏFALI TELMAN HƏKİM

Rzayev Telman 1958 – ci ildə Qərbi Azərbaycanda \Göyçə mahalının Hacı Qərib kəndində anadan olub. 1976 –cı ildə orta məktəbi bitirib N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olub, 1982-ci ildə həmin fakültəni bitirib.1982-ci ildə həmin fakültəni bitirib. 1982-1988-ci illər arasında keçmiş Qazaxıstan SSRİ-nin \indiki Qazaxıstan Respublikası\ Cambul və Alma-Ata şəhərlərində Şəhər Klinik Təcili yardım Xəstəxanasında \4 il\ və Qazaxıstan Elmi-Tədqiqat Onkologiya və Radiologiya İnstitutunda \2 il\ cərrah işləmişdir. Qazaxıstanda işlədiyi dövrdə 4000 – ə qədər qarın və döş boşluğu orqanlarında mürəkkəb əməliyyatlar yerinə yetirmişdir.

1988-ci ildən indiyə qədər akademik Mir-Qasımov adına Respublika Klinik xəstəxanasında cərrah işləir. Azərbaycan Respublikasında işlədiyi dövrdə 2500-dən çox qarın və döş boşluğunda mürəkkəb əməliyyatları uğurla aparmışdır. Azərbaycanın erməni işğalçılarına qarşı apardığı müharibə illərində hərbi səhra hospitallarında,Mərkəzi rayon xəstəxanasında və Respublika klinik xəstəxanasında 800 – dən çox yaralıya uğurlu əməliyyatlar parmışdır.

Keçmiş Sovetlər Birliyinin ən iri elmi-praktik cərrahlıq mərkəzində təcrübə keçmişdir; 1988-si ildə Kurqan elmi-Tədqiqat klapanlı qastroenteroloji cərrahiyyə üzrə prof.Vitevskinin yanında təcrübə keçib;

1988-ci ilin payız aylarında Kiyevdə Elmi-Tədqiqat cərrahlıq mərkəzində akademik Şəlimovun yanında qara ciyər, öd yolları, mədəaltı vəz cərrahiyyəsi üzrə təcrübə keçib; 1991- ci ildə Moskvada Ümumittifaq Elmi- Cərrahlıq Mərkəzində Portal hipertenziyanın cərrahi müalicəsi üzrə təcrübə keçib;

Medikal Senterdə – Medodist, Sant Zük, Ben Taib hospitallarında və M.D. Anderson Kanser Mərkəzdə qida borusu

cərrahlığı üzrə təcrübə keçmişdir.

Hal – hazırda qida borusu cərrahlığı ilə Respublikada fəal məşğul olan tək-tək cərrah-lardandır. 1995 –ci ildən Respublika Səhiyyə Nazirliyinin Ali Attestasiya Komissiyasında Ali Dərəcəli cərrah ixtisasına layiq görülüb. 1997-ci ildə "Mədə-12 barmaq bağırsağın xora xəstəliyinin cərrahi müalicəsinə müasir aspekdən yanaşma" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.20 – yə qədər elmi məqalənin müəllifidir.

Güclü vətənpərvər və öz millətini çox sevəndir. Mənsub olduğu İslam dininin mənəvi dəyərləri ilə ideyaca silahlanan cərrah müsəlman olması ilə fəxr edir,qürur hissi duyur və özünü xoşbəxt sayır. Boş vaxtını yalnız mütaliə ilə keçirir. Tibb ədəbiyyatı, Azərbaycan tarixinə dair kitablar daim maraq dairəsindədir.Qurani-Kərim stolüstü kitabıdır. Azərbaycan ədəbiyyatında ən çox sevdiyi şairlər – Nizami Gəncəvi və Hüseyn Caviddir.

## İLMƏLƏRİN NAĞILI

Mahirə İsmayılova gənc, şux görünüşlü, ağır təbiətli bir qızdır. Hər kəlməbaşı gülsə də, çöhrəsindən, gözlərindən nur tökülsə də gözlərinin lap dərinliyində bir kədər görünürdü. Şirin danışığına diqqət kəsilməyə bilmədim.

– 15 ilə yaxındır ki, xalça toxuyuram. Sözün açığı, əvvəllər buna adi bir iş kimi baxırdım. Orta məktəbi əla qiymətlərlə başa vursam da, sadə bir maraqla qonşu qızlara qoşulub xalça fabrikinə yollanmışam. Sonralar gördüm ki, ilmələrsiz həyat mənasız görünür. Ürəyimdə yaşatdığım dünyanı ilmələrlə naxışlara düzmüşəm. O naxışlarla çiçəkli yaz çəmənliyi toxumuşam, min illərdən bəri gələn çeşnilərə təzə ömür vermişəm. Hər çeşnidə xoş məna axtarmışam, sevinc, bəxtəvərlik aramışam. Nə istəmişəmsə də, elə o duyğularla da əlim əriş-arğacda, ilmələrdə oynayıb. Tale bunları mənə çox gördü. Yağılar kəndimi-kəsəyimi, dağımı-düzümü darmadağın etdilər. İlmələrimin kələfini dolaşdırıb bəxtəvərliyimizin əl-ayağına çidarladılar. Baş götürüb yurdumuzdan didərgin düşdük. Gəncədə təzədən ev-eşik qurduq. Burada da xalça fabrikinə getdim. Yenə xalça toxuyuram. İndi hansı çeşniyə əl atıramsa, kədərli, qəm-qüssəli alınır. Bu ovqatla uzun müddət yaşamağın çətinliyinə dözə bilmədim. Xarakterimdəki mübarizliyi naxışlarıma düzmək qərarına gəldim. Mübariz oğullar obrazını ilmələrdə yaratmağa başladım. Son iki-üç ildir ki, siyasi portretlər toxuyuram. Azərbaycanı bu dərddən, bəladan xilas edə biləcək mərdlik, cəsurluq əzəmətini ilmələrə düzürəm. Bu günəcən 40-a yaxın siyasi portret toxumuşam. Əlamətdar günlərdə hədiyyə edilən portret-xalçaların əksəriyyətini mən toxumuşam. Yəqin televiziyada görürsünüz, onları deyirəm.

Mahirə danışdıqca özü də bilmədən qəlbində qaynayan sevincə bülənd olurdu. Bu qız sadəcə xoş həyat axtarır. İlmələrin, naxışların sirrində öz bəxtəvər taleyini arayan Mahirə xanıma yenə də yaz çiçəkli xalçalar toxumağı arzulayırıq. *Gəncə-Bakı.*

*"Xalq qəzeti" 25 may 1997-ci il*

## 2 –ci HİSSƏ

## SÖZ SÖZÜ ÇƏKƏR

*……….*
*…………….*
*İnsan kimdir?*
*Sinəsində ovuc boyda*
*Ürək saxlayan bir varlıq.*

*Vicdan nədir?*
*O ürəyi ürək kimi*
*döyündürən,*
*çırpındıran bir ucalıq.*
*Vicdan-ucalıq, ucalıq,*
*Vicdan ömür kələfinin*
*kövrəkdən kövrək ucudur.*
*Vicdan hər kəsin özünə*
*Olan borcudur, borcudur.*
*1986*

# DÜNYANIN SƏHMANI POZULAN GECƏ

Tarix yazmaq çox ağır məsuliyyətdir. Bəzən elə hadisələr olur ki, onları vaxtında yazıya almaq həm xalqın, dövlətin tarixi, həm də tarixin yaddaşı üçün olduqca əhəmiyyətlidir. Çünki isti-isti qələmə alınmayan hadisələr sonralar kimlərinsə mənafeyinin qurbanı olur, təhriflə yazılır. 20 yanvar hadisələrindən 15 il keçib. Hamımızın şahidi olduğumuz, yaşadığımız faciəvi və şərəfli, qəhrəmanlıqlarla dolu tarixdir. 1990-1991-ci illər arasında respublika rəhbərliyindən bəzən bu tarixin təhrif formada yazılması, təbliği tələb olunurdu – Moskva, rus imperiyasına sərf olunan səpgidə tarix yazıları sifariş edilirdi. Lakin ölümdən, mübarizədən çəkinməyən qəhrəman oğul-qızlar təbliğat döyüşündən çəkinmədilər. Tarixə baxış həqiqət meyarları ilə ölçülməlidir. Belə gərgin bir vaxtda "20 yanvar" qəzetinin fəaliyyətini xüsusilə önə çəkmək istərdim. Bu qəzetdə 20 yanvar hadisələrinə baxış olduğu və göründüyü kimi qələmə alınırdı. Bəlkə də bunlar əsas olaraq həmin qəzetin baş redaktoru və ailəsi naməlum adamlar tərəfindən evindəcə öldürüldülər. (Onlar da "Şəhidlər Xiyabanı"nda dəfn olundular).

Həmin günlərdə "20 yanvar" qəzetində (1991, dekabr) dərc olunmuş bir yazını olduğu kimi yenidən oxucuların diqqətinə yetirmək istərdik.

***

Yanvarın 19-dan 20-nə keçən gecə azərbaycanlı gənc ana və ixtiyar qoca, rus kor əlil, yəhudi həkim, ləzgi yanğınsöndürən, tatar inşaatçı, habelə tələbə, milis işçisi, alim, təqaüdçü, bir sözlə 2 milyonluq dünya şöhrətli Bakı şəhəri və onun ətraf kəndlərinin sakinləri, öz halal zəhməti ilə yedirib-içirdiyi, geyindirib-silahlandırdığı zəhmli ordunun amansız qırğınına mübtəla oldu...

Şərqdə yeni cəmiyyət quruculuğunun ilk çarçısı, mizan-tərəzi qurmadan öz sərvətlərini ölkənin qan damarlarına axıdan, faşist Almaniyası üzərində tarixi qələbənin təminatçılarından biri

sayılan Azərbaycan Respublikası paytaxtının tarixi xidmətləri, əvəzi ödənilməmiş nemətləri, gecəli-gündüzlü səyləri qəfil müdaxilə, qurquşun güllələr, zirehli hərbi texnika, qaydasız kütləvi atəş, dinc əhaliyə qarşı çevrilmiş aşkar zorakılıqda "qiymətləndirildi".

Bəli, haqq-sayın və duz - çörəyin tapdanıldığı, dünyanın nizamının pozulduğu o dəhşətli gecə, Azərbaycan xalqı üçün Mərkəz-respublika münasibətlərinin axırıncı sınaq imtahanı oldu. Çünki həmin gecə dostluq və yoldaşlıq haqqında bəşəri anlayışlara, 1922-ci il İttifaq Müqaviləsinin müddəalarına, insan hüquqlarına dair beynəlxalq sazişlərə elə kobud və həyasız bir zərbə endirildi ki, millətimizin bu faciəni heç vaxt unutmağa haqqı yoxdur. Milli təhlükəsizliyinə zərbə vurulan, ləyaqəti təhqir olunan, böhtan və iftiralara məruz qalan, övladları tankların tırtılları altında tikə-parça edilmiş namuslu bir xalq öz dostlarını və düşmənlərini, tərəfdarlarını və əleyhdarlarını hökmən tanımalıdır. "Kimlə oturub-durduğunu de ki, sənin necə adam olduğunu bilim" – məsəli demək olar dünyanın bütün xalqlarının dilində bu yaxud digər şəkildə vardır. Biz şübhəsiz kimlərlə dostluq, yoldaşlıq, əməkdaşlıq etdiyimizi, müqavilə və sazişlər bağladığımızı təkcə dəyişkən siyasi iqlim, yaxud hüquqi sənədlər baxımından deyil, ilk növbədə milli taleyimiz, tarixi məsuliyyətimiz, uzunmüddətli perspektivlərimiz, hərtərəfli ictimai-siyasi, iqtisadi-sosial, mənəvi-mədəni sərvətlərimizin müqəddəsliyi baxımından dəyərləndirilib qiymətləndirməliyik...

Və məhz bu mənada, hələ indiyədək hərtərəfli siyasi qiymətini verməyə cəsarət etmədiyimiz qanlı yanvar hadisələri, istər sırf milli daxili, istərsə də beynəlxalq ümumbəşəri meyarlar baxımından elə bir böhran nöqtəsidir ki, həmin andan, yəni tariximizin kədərli "Şəhidlər səhifəsindən" sonra biz başı daşlara dəymiş şahidlərin öhdəsinə, azəri türklərinin qeyrətinə və şöhrətinə layiq səhifələr yazmaq kimi olduqca məsuliyyətli bir vəzifə düşür. Bunun üçün isə nə qədər çətin və acı olsa da, görünür biz hələ dəfələrlə o müdhiş yanvar gecəsinə, onun

səbəblərinə, vasitələrinə, nəticələrinə, nəyahət ən başlıcası isə ibrət dərslərinə qayıdacağıq.

Müsahibimiz, Şəhidlərin dəfnini təşkil etmiş ictimai komissiyasının sədri, Azərbaycan Respublikası EA İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Qüdrət Yaqub oğlu Əbdülsəlimzadədir.

– Qüdrət müəllim, dünyanın qara getdiyi o gündə "Dəfn komissiyası" yaratmaq təklifini kim irəli sürdü və həmin komissiya necə yaradıldı?

– Bu komissiya yanvarın 20-də səhər Mərkəzi Komitə qarşısında keçirilən ümumxalq etiraz mitinqinin hökmüylə yaradılmış və Şəhidlərimiz üçün məzarlar qazan minlərlə adamın iradəsinə onun tərkibi dəqiqləşmişdir. 11 nəfərdən ibarət dəfn komissiyasının üzvlərini qəzetimizin oxucularına təqdim etməyi özümə borc bilirəm: 1.Allahşükür Paşazadə – Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, 2.Azər Nəbiyev – Bakı Dövlət Universitetinin elmi işçisi, 3.Xəliyəddin Xəlilov – Azərbaycan Dövlət İncəsənət İnstitutunun müəllimi, 4.Bağır Bağırov – "Kommunist" nəşriyyatının fəhləsi, 5.Rəhim Qasımov – Azərbaycan Politexnik İnstitutunun müəllimi, 6.İbrahim Əliyev – Bakı 8 N-li tikinti idarəsinin mühəndisi, 7.Nəriman Əliyev – Azərbaycan EA Memarlıq İnstitutunun şöbə müdiri, 8.İsmayıl İncəli – filoloq-jurnalist, 9.Malik Mehdiyev – "Bərpaçı" idarəsinin rəisi, 10.Xalid Muxtarov – respublika hidrometteorologiya xidməti idarəsinin işçisi.

Dəfn komissiyasının xahiş və tələbləri Azərbaycan SSR Ali Soveti, Bakı şəhər Sovetinin İcraiyyə Komitəsi, Azərbaycan Xalq Cəbhəsi, Dağüstü parkın müdiriyyəti, şəhər kommunal təsərrüfatı işıqlandırma və qaz idarəsi, avtomobil müfətişliyi tərəfindən müəyyən çətinliklərlə rastlaşsa da əsasən yerinə yetirilmişdir.

Bakının və Sumqayıtın ali, orta ixtisas, ümumtəhsil və texniki eşə məktəblərinin kollektivləri, taksimotor parklarının sürücüləri, mebal fabriklərinin işçiləri, rəssamlarımız, həkimlərimiz, tibb bacılarımız, Abşeiron kəndlərinin camaatı, respubli-

kamızın bütün rayonlarının sakinləri, ölkənin müxtəlif şəhər və respublikalarını təmsil edən nümayəndələr, xarici ölkələrdən gəlmiş mətbuat və kütləvi informasiya vasitələrinin əməkdaşları, əcnəbi qonaqlar bu kədərli matəm mərasiminin, Şəhidlərimizin ölməz ruhlarına layiq bir səviyyədə aparılmasında iştirak etmişlər. Dəfn Komissiyasının adicə bu işarəsini, yaxud da "lazımdır" sözünü – "borcumuzdur" kimi qəbul edib gündüzü gecəsinə qatan, əlləri soyuqdan keyləşən, xəstəxanaların meyidxanalarından babalarımızı axtarıb tapan, ana və bacılarımızın fəryadları altında onları torpağa tapşıran, çox vaxt axşama qədər çay içməyə belə macal tapmayan, ən gərgin anlarda belə hisslərini cilovlamağı bacaran, tez-tez gözlənilməz vəziyyətlə rastlaşan minlərlə həmvətənlilərimizin dəyanəti qarşısında hörmətlə baş əymək şərəfdir...

– Fəaliyyət göstərdiyi ilk günlərdən dəfn komissiyası hansı çətinliklərlə rastlaşmışdı?

– Fövqəladə vəziyyət şəraitində, hərbiçilərin əhatəsində, müəyyən təşkilatların nəzarəti, hətta aşkar və gizli yollarla fitnəkarlıqlara əl atdıqları, xalqın qəzəbinin coşduğu, hər ehtiyatsız addımın acı nəticələr verə biləcəyi bir vaxtda, yüz minlərlə adamın iştirakçısı olduğu ümummilli matəm məclisini idarə etmək məsuliyyətini Allah heç kəsə qismət eləməsin...

Hərbi komendantın hədələri və maneəçiliklərini, gecə qəbr qazmağa icazə verməməsini, Mərkəzin pozucu fəaliyyətini, əslində olmayan yerli hakimiyyət orqanlarının işi müxtəlif üsullarla pozmaq cəhdlərini, "olmadı elə, oldu belə" çürük fəlsəfi-əqidə ilə yaşayanların küt müqavimətini, "gözləmə mövqeyi" tutmuş adamların ehtiyatlı etinasızlığını, yersiz məsləhətlərini düzü elə ilk anlardan başlayaraq 42 gün ərzində həmişə böyük narahatlıqla hiss etmişik.

Lakin müsbətli günlərdə bir daha bütün varlığımla inanmışam ki, ən çətin anlarda belə Azərbaycan xalqı özünün göz yaşlarını qəlbinə axıdıb milli ləyaqətini və qürurunu hifz etməyi bacaran nadir xalqlardan biridir.

Xatırlamaya blmirəm, yanvarın 20-də soyuqlu havada, külək, duman Dağüstü ərazidə dırnaqları ilə Şəhidlərimizə qəbir qazan adamlara çay vermək məsələsi ortaya çıxan kimi tanımadığımız, adlarını bilmədiyimiz adamlar təcili surətdə bu tapşırığı yerinə yetirdilər... Abşeiron kəndlərindən gəlmiş 8-9 yaşlı uşaqların kişi mətanəti ilə məzar qazanlara köməyini, məktəbli oğul-qızların "Şəhidlər Xiyabanı" ərazisində səliqə-sahman yaratmalarını, Abşeiron kəndlərindən buraya fasiləsiz axıdılan qırmızı qərənfil selini, el-obamızın Şəhidlərin qəbrlərinə çilədikləri gülab ətrini, ixtiyarsız axan göz yaşlarını yumruqları ilə silənləri... unuda bilmirəm.Və bu da görünməmiş hadisədir ki, 42 gündə 20-22 milyon nəfərin ziyarətə gəldiyi, müqəddəs torpağa çevrilmiş "Şəhidlər Xiyabanı" ərazisində, heç bir qanun pozuntusu olmamışdır. Burada ara-sıra eşidilən atəş səsləri, hərbçilərin fitnəkarlıqları nəticəsində əsəblər son dərəcə gərilmiş, saçlarını yolan anaların, üzlərini dırnaqları ilə cıran bacıların, səssiz göz yaşları yanaqlarına axan aqsaqqalların fəryadı ərşə dirənmiş, lakin təkrar edirəm, heç bir qanun pozuntusu olmamışdır. Bu təsadüfdürmü? Yox! Mənim xalqım çılqın olduğu qədər də müdrikdir. O yaxşı dərk edirdi ki, qanunsuz fövqəladə vəziyyətə "haqq qazandırmaq" üçün səbəb axtaranlara bəhanələr üçün imkan yaratmaq, millət önündə, torpaq qarşısında, Şəhidlərin ruhu hüzurunda bağışlanılmaz günah olardı. Adamlar təkcə özlərinə yox, bir-birlərinə də qayğıkeşliklə nəzarət edir, ürək-dirək verir, səbrli olmağa çalışır və çağırırdılar. Belə bir xalq qarşısında baş əymək şərəf, onun xeyrinə-şərinə yaramaq şan-şöhrətdir. Öz xalqımıza şər atmaq, Mərkəz qarşısında quyruq bulamaq, xalqla rəhbərlik arasında müvazinəti saxlamaq üçün Orduya arxalanmaq, rəhbər olmaq istəyənə və Qafqaz kişilərinə xas olan sifət deyildir. Millətindən qorxan və ehtiyat edən siyasi xadim, yaxud dövlət məmuru şələ-şüləsini də götüüb başının hayına qalmalıdır.

*– Söhbətimizin gedişi özü dəfn komissiyası ilə respublika rəhbərliyi arasındakı münasibətə gətirib çıxarırdı. Bu barədə nə*

*deyə bilərsiniz?*

– Əvvəlcə yanvar faciəsindən sonra xalqla rəhbərlik arasındakı münasibətə toxunmaq istəyirəm ki, dəfn komissiyası ilə onun arasındakı əlaqələr daha aydın olsun. Əlbəttə, müqayisə üçün yox, fikrimcə qəzetinizin oxucuları və Azərbaycan xalqı ilə bölüşmək üçün deməliyəm ki, qonşu Gürcüstan respublikasında məlum aprel hadisələrində həlak olanların sayı bizdəkindən qat-qat az olduğuna, şəhər sakinlərinə və təsərrüfatına müqayisə olunmayacaq dərəcədə zərər vurulduğuna baxmayaraq, bütövlükdə partiya, dövlət hökumət rəhbərliyi özü istefa verdi.

Bizdə isə yanvar qırğını və faciəsindən sonra "yuxarı dairələrdə" hakimiyyət uğrunda didişmə başlandı...

Rəhbərliyin və ona yaxın adamların, habelə ailə üzvlərinin yanvar ayının ikinci yarısında haralarda gizləndikləri və işlədikləri, qohum-əqrabalarını ezamiyyətə və səyahət adı altında Bakıdan uzaqlaşdırdıqları, onların şəhərdən çıxıb qaçmaq üçün necə hazırlaşdıqları, hətta müəyyən istiqamətlərə təyyarə biletləri aldıqları, yaxud sifariş verdikləri faktları məlumdur.

Bəli, bizim şərəf və istiqlaliyyətimizin qurbanları olmuş Şəhidlərimiz – Milli Qəhrəmanlarımızdır.

Dəfn komissiyası ilə bilavasitə respublika rəhbərliyi arasında münasibətlərə gəldikdə isə onu baş vermiş faciə və Şəhidlərimizin ruhu naminə səmimi bir zəmində qurmaq mümkün olmadı. Köhnə təfəkkür tərzi ilə yaşayan və yanvar faciəsindən sonra da əli Mərkəzin ətəyində olan bu rəhbərlik heç cür özünə bağışlaya bilmirdi ki, necə yəni dəfn komissiyasına "onların adamları" rəhbərlik etmir, nə üçün bu komissiya rəsmi qeyd olunmaq istəmir, doğrudanmı "sifarişlərə" məhəl qoymur, müxtəlif fitnəkarlıq addımlarını hay-küysüz aradan qaldırır və xalqın ümumi köməyinə arxalanaraq, öz çətin işini ardıcıllıqla davam etdirir.

*– Qüdrət müəllim, rəhbərliyin Şəhidlərimizin 40 günü mərasimində iştirak etməməsini necə izah edirsiniz?*

– Yəqin ki, o vaxt Moskva icazə verməyib, yaxud səs-

sorağın oralara gedib çatacağından qorxublar. Deməliyəm ki, mart ayının 1-nə və 2-nə təsadüf edən sonuncu Cümə və Qırx günü, camaatın arzusu ilə bu işi Şəhidlərin ruhuna layiq qeyd etmək üçün müəyyən hazırlıq işləri görməyə başladıq. "Şəhidlər Xiyabanı"nda rəssam və dizaynerlərimiz ərazisinin Qırxgün mərasiminə uyğun tərtibi ilə məşğul oldular, məktəbilər burada təmizlik işləri aparıb səliqə-sahman yaratdılar, işıq sistemi qaydaya salındı, Xiyabana girəcəkdə qaz idarəsinin işçiləri qısa bir müddətdə məşəl düzəltdilər. Eyni zamanda, həmin günlərdə buraya ziyarətə gələnlərin hərəkətini nizama salmaq və rahatlıq yaratmaq məqsədilə hərəkət marşrutlarında dəyişiklik aparıldı, milis, avtomobil müfəttişliyi, təcili yardım, ictimai iaşə idarələrinə müəyyən göstərişlər verildi, köməkçilər dəstəsi qarşısında əlavə tapşırıqlar qoyuldu və 40 gün ərzində olduğu kimi yenə də "Şəhidlər Xiyabanı" ərazisində qayda-qanunun gözlənilməsi məsuliyyəti onlara həvalə edildi. Lakin bir neçə məsələ ilə əlaqədar, dəfn komissiyasının Bakı şəhəri və respublika rəhbərliyi ilə əlaqə saxlanması zəruriliyi qarşıya çıxdı. Əvvələn, Cümə axşamı və Qırx günlərində Bakı şəhərinə gediş-gəliş hərbi komendantlıq tərəfindən məhdudlaşdırıldığından, bu matəm mərasimlərinin birbaşa radio və televiziya ilə respublika əhalisinə transilasiya edilməsi; ikincisi, "Şəhidlər Xiyabanı"nda ucaldılmış məşəlin yaxınlığından keçən qaz xəttinə birləşdirilməsi üçün maneçilik törədən hərbçilərdən icazə alınması; üçüncüsü, respublika rəhbərliyi adından xalq qarşısında çıxış edib, yanvar hadisələrinə qiymət verilməsi. Oxucularımızı yormamaq üçün müxtəsər deməliyəm ki, dəfn komissiyasının Azərbaycan SSR Ali Soveti, Azərbaycan SSR Nazirlər Soveti, Bakı şəhər partiya komitəsi, Bakı şəhər Sovetinin İcraiyyə Komitəsi ilə söhbət və görüşləri heç bir nəticə vermədiyindən, ağsaqqalların məsləhəti ilə keçmiş Mərkəzi Komitəyə müraciət etdik:

– ... Dövlət telefonu vasitəsilə katiblərdən biri ilə danışa bildim... Çətinliklərimizi dedim... Bir qədər susduqdan sonra

cavab verdi ki, bunları yalnız birinci katib həll edə bilər, o isə Neft daşlarına uçub və hələ qayıtmayıb... Siz "Şəhidlər Xiyabanı"nda gözləyin, biz hökmən xəbər verəcəyik.

Mart ayının 1-də gecə saat 11-ə qədər gözlədik, lakin üzdən-iraq rəhbərliyin təqsirindən Şəhidlərin qırxında Şəhidlərimizin şərəfinə nə məşəl yandıra bildik, nə mərasimi, televiziya, radio vasitəsilə xalqa çatdıra bildik, nə də rəhbərliyin xalq qarşısında yanvar hadisələrinə qiymət verilməsinin şahidi olduq...

Buna baxmayaraq Qırxgün mərasimi ləyaqət və şərafətlə, hörmət və izzətlə keçdi. Kədər məclisi olsa da, el-obamız öz saysız-hesabsız xonçaları, qərənfil seli, gülab ətri, habelə titrək şölədən yaranmış şam dənizi ilə həmin günü milli tariximizin məğrurluq, ləyaqət, nəciblik səhifələrindən birinə çevirdi.

– Yəqin ki, "Şəhidlər Xiyabanı"nda keçirdiyiniz 42 gün ərzində şahidi olduğunuz hadisələr arasında elələri var ki, heç cür unutmaq mümkün deyildir...

– Doğrudur, belə hadisələr olub və sanki yaddaşımda donub qalmışdır. Saçlarını yonan anaların ahı, sinələrini dırnaqları ilə didib-parçalayan gəlinlərin hönkürtüsü, özlərinə divan tutan bacıların fəryadı, həyasına qısılan nişanlı qızların hıçqırıqları, əzizlərini el bayatıları ilə oxşayanların səsi, atasının qəbri üstə gəlmiş boynubükük balaların yetim çöhrələri, Şəhidləri torpağa tapşıran kişilərin öz göz yaşlarını gizlətməyə çalışmaları, arasıkəsilmədən eşidilən yanıqlı "Yasin" sədaları, minlərlə adamın rəhmət və dua pıçıltıları, dəfn komissiyasının bütün xahiş və tələblərinin hamı tərəfindən "borcumuzdur" deyə danışıqsız yerinə yetirməsi, – şübhəsiz unudulmazdır, tarixi anlardır, milli ləyaqətimizin təsdiqidir.

Atalar haqlı deyiblər ki, insan həyatında elə hadisələr olur ki, qəbrinin üzərində bir qarış ot bitsə də onları unutmur...Yağışlı-yağmurlu yanvar günlərindən biri idi. Qaş qaralırdı. Çox pərişan və nimdaş geyimli, 15-16 yaşlı oğlan uşağı göz yaşları içərisində dəfn komissiyası üzvlərinə yanaşaraq, həlak olmuş və bir həftədir

ki, axtardığı kor, əlil atasını nəhayət meyitxanada tapdığını söylədi. Xəstə anası evdə yatdığından və bacısı kiçik yaşlı olduğundan gümanı bizə gəlirdi.Dəfn komissiyasının üzvləri və köməkçilərimiz təcili surətdə meyitxanaya yollandılar, böyük qayğı və ləyaqətlə B.V.Yermiçyevin cənazəsini "Şəhidlər Xiyabanı"na gətirdilər. Qaranlıq havada, tez-tez sönən işıqları əvəz edən titrək şam şöləələri altında, hamımızın alt paltarına qədər islandığı həmin gün bu kor rus əlinin dəfni doğrundan da bizi sarsıtmış və kişilərə xas olmayan bir tərzdə kövrəltmişdi.... Lakin ən son anda Boris Vasilyeviç Yermiçyevin oğlunun atasını azərbaycanlı Şəhidlər kimi müsəlmansayağı basdırılması təkidi hamımızı ağlatdı... Komissiya üzvlərindən kimsə astaca dedi: "Oğlum, bəlkə anan razı olmadı?". O qətiyyətlə bildirdi: "Yox, mən atamın tabutda deyil, məhz azərbaycanlılar kimi dəfn olunmasını istəyirəm"! Hamı bir anlığa susdu. Mən dilləndim: "O böyük oğul kimi indi evin kişisidir. Onun sözü bizim üçün qanundur".

Axşamdan xeyli keçmiş, məsciddə şeyx həzrətlərinin və onun əhatəsindəkilərin hüzurunda, mən üst-başım yaş, paltarım bulaşmış vəziyyətdə başqa məsələlərə yanaşı, kor rus əlilini necə dəfn etməyimiz barəsində danışdıqda, hamı dərindən mütəəsir olaraq, böyük kədər içərisində mərhumun ruhuna dua oxudu. Şeyx həzrətləri isə fikirli-fikirli dedi: "... Amma bizi "islam təməlçiliyində" günahlandırırlar. İlahi, millətimizi böhtan və şərdən qoru, onun nəcibliyini və böyüklüyünü hifz et, pak dinimizə, xeyirxah əməllərimizə, saf niyyətlərimizə özün qüvvət ver. Amin..."

Yadımdadır, Əhmədli qəsəbəsindən iki tələbə qardaşın həlak olması xəbərinin kədəri altında "Şəhidlər Xiyabanı"nda onları qoşa dəfn etmək üçün bir sıra zəruri hazırlıq işləri görür və bu faciənin mətbuat, habelə kütləvi məlumat vasitələrində işıqlandırılmasına yollar axtarırdıq. Lakin, Şəhidlərin ailəsi ilə razılaşdıraraq müəyyənləşdirdiyimiz vaxtda tələbə qardaşları dəfn olunmaq üçün gətirmədilər... Bir neçə gündən sonra həmin Şəhidlərin

yaxın qohumu, yaşlı bir kişi xiyabana gəlib dəfn komissiyasından üzr istədi ki, onları öz əzizlərini izdihamlı şəkildə son mənzilə yola salmaq fikrindən aşkar daşındırmaq üçün naməlum (?) şəxslər hüzr evinə gələrək, "xeyirxahlıqla" bildirdilər ki, onsuz da yaxın vaxtlarda "Şəhidlər Xiyabanı" dağıdılacaq (?!) və orada dəfn olunanları indiki qəbrlərindən çıxarıb, kim bilir harada, ayrı-ayrı yerlərdə basdıracaqlar... Bəli, dəfn komissiyası belə bir şəraitdə işləmişdir. Başqa bir şeyi də xatırlamaq yerinə düşər. Şəhidlərimizin axırıncı Cümə axşam və 40 günü mərasiminə hazırlıq ərəfəsində xəbər verdilər ki, istintaq orqanlarından iki nəfər təkidlə mənimlə görüşmək istəyir. Onlar bildirdilər ki, istintaq naminə Şəhid qəbirlərindən bir-ikisini açmaq lazımdır və mən də bu mərasimdə iştirak etməliyəm. Qəti etiraz edərək dedim ki, belə bir işi görmək təkcə Şəhidlərin ruhunu incitmək yox, həm də millətimizə qarşı təhqirdir və bizdə olan materialların dürüstlüyünə heç bir şübhə ola bilməz, çünki onlarla adam bunu təsdiq etməyə hazırdır.

Lakin istintaq orqanlarının nümayəndələri heç cür razılaşmayaraq, bir qədər keçdikdən sonra öz rəisləri ilə yenidən "Şəhidlər Xiyabanı" ərazisinə gəldilər...

Onlara son sözüm belə oldu: "Mən sizin ata-ananızı tanımıram, amma əminəm ki, baba və nənələrinizin ruhları belə bir bədxah niyyətiniz üçün sizi, övladlarınızı həmişəlik lənətləyərlər. Biz, Şəhidlərimizlə yanaşı yatmağa hazırıq, lakin onların qəbirlərinə toxunmağa qoymarıq". Qətiyyətimiz qarşısında dinmədilər, soyuq və küt baxışlarıyla dedilər: "Baxarıq..." İlahi, sən mənim xalqımı manqurta çevrilmiş bu yuvasına, hökmən düz getməlidir, çünki, öncə Vətəndir. Bunu unutmaq şərəfsizlik və yarandığın torpağa üzüqara qayıtmaq deməkdir, əgər beş-on qarış torpaq o kəslərə qismət olsa...

– "Şəhidlər Xiyabanı" ərazisinin abadlaşdırılmasını və müqəddəs yerdə Şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsini necə təsəvvür edirsiniz?

– Mənim "Şəhidlər xiyabanı"nı necə təsəvvür etdiyimə gəldikdə adamlarla görüş və söhbətlər əsasında onların təklif, arzu tələblərini ümumiləşdirərək demək istəyirəm ki, gələcəkdə bütün Şəhidlərimizin məskəninə çevirəcək bu ərazi, açıq səma altında Azərbaycan xalqının tarixinin, habelə taleyinin səhifələrini əks etdirən Vahid Xatirə Kompleksinə çevrilməlidir.

Fikrimcə, ictimaiyyətin və yaradıcılıq təşkilatlarının səyləri ilə, müsabiqədən keçmiş və camaatın bəyəndiyi liyihə əsasında, bu ərazidə 1918-ci il hadisələri, 20-50-ci il təqib və sürgünləri, Böyük Vətən müharibəsi dövrü, Əfqanıstan müharibəsinin qurbanları, qonşu respublikaya köməyə tələsən övladlarımızın faciəli taleyi, nəhayət milli faciəmizin zirvəsi kimi Qanlı Yanvar günlərinin Şəhidləri üçün Vahid Xatirə Kompleksi çərçivəsində öz təkrar olunmaz cizgiləri ilə seçilən ayrı-ayrı guşələr abidələr yaradılmalıdır. Həmin Vahid Xatirə Kompleksi tərkibində "Şəhidlər məscidi", muzey-sərgi zalları, kinolektoriya, yaradıcılıq studiyaları, kitabxana, oxu zalı, "sərbəst xalq tribunası" daimi fəaliyyət göstərməli; tariximizə, taleyimizə, aktual inkişaf problemlərimizə dair müxtəlif görüşlər, diskussiyalar, söhbətlər keçirilməli; kitab-qəzet köşküləri, milli üslubda çayxanalar, fəvvarələr, istirahət güşələri olmalıdır. Qoy yeni ailə həyatı quran gənclərimiz, Vətənin keşiyində durmağa hazırlaşan oğullarımız, uzaq səfərə yola düşən müsafirlərimiz, xeyirxah bir iş başlamaq istəyənlərimiz, orta məktəbi başa vuranlarımız, aspiranturaya daxil olanlarımız, müdafiə edənlərimiz, ad günü keçirənlərimiz xeyir-dua almaq, sədaqət andı içmək, kim olduğumuzu dərk etmək tariximizi xatırlamaq üçün məhz buraya, əbədi ziyarətgahımız sayılan məkana gəlsinlər. Gənclər, görsünlər, düşünsünlər və əbədi xatırlasınlar: biz kimik, haradayıq və yolumuz necə olmalıdır.

Gələcəkdə "Şəhidlər Xiyabanı" ərazisində – yerli, ölkə və beynəlxalq turizm marşurutlarının keçməsi də məqsədəuyğundur.

Şübhəsiz, belə bir ümummilli arzunun və son dərəcə məsuliyyəti vəzifənin həyata keçirilməsi hamımızın, eləcə də hər

birimizin qeyrət borcudur. Fikrimizcə, Şəhidlərimizin xatirəsini əbədiləşdirmək kimi müqəddəs bir işi eldən-obadan pul toplamaqla etmək, onların məqrur ruhunu incitmək demək olardı. Xalqın ümumi məqsəd və amalı uğrunda, haqq və ədalət işi uğrunda canlarından keçənlərin xatirəsinin əbədiləşdirilməsi, millətin ümumi gəliri hesabına da həyata keçirilməlidir.

Bunun üçün Şəhidlərin adına müxtəlif ölkələrdən ayrı-ayrı təşkilat və idarələrin hesabına daxil olmuş vəsait vahid bir fonda cəmlənməli, abidənin məqbul layihəsi işlənib hazırlanmalı, mütəxəssislərin, habelə ictimaiyyətin fəal iştirakı, habelə ciddi nəzarəti altında həyata keçirilməlidir. Əgər rəsmi dairələr maddi çətinliklərlə rastlaşsalar, unutmamalıyıq ki, Böyük Vətən müharibəsi illərində hamılıqla sərvətini, nənləri kəmərlərini, ana-bacıları sırqalarını qız-gəlinlər üzüyünü qələbəyə qurban verən Azərbaycan xalqı, şübhəsiz Milli Qəhrəmanları olan Şəhidlərin müqəddəs xatirəsinin əbədiləşdirilməsi yolunda aciz qalmayacaqdır.

Allah şəhidlərimizə – Milli Qəhrəmanlarımıza rəhmət eləsin!
Məğrur və ölməz ruhları şad olsun!
Nakam qəlbləri nurla dolsun! Amin!

*"20 yanvar" №12,№13,№14,1991-ci il*
*"Xalq qəzeti" 20 yanvar 2005-ci il*

*(Bu mövzuda professor Qüdrət Əbdülsəlimzadə ilə"Qanına boyanmış günlərin axarından"-"Müxalifət" 19 yanvar 1993-cü il və "Yanvar faciəsi və parlament"- "Ədəbiyyat qəzeti"13 mart 1993-cü il müsahibələri də çap olunmuşdur)*

## AZADLIQ MÜBARİZİ ŞAİR XƏLİL RZA ULUTÜRK İTTİHAM OLUNUR...

## ŞAİR ZİNDANA SIĞMAZ

1988-ci ilin axırlarında qədim İrəvan xanlığında artıq bir nəfər də olsun azərbaycanlı qalmadı. Erməni-rus vəhşiliyi ilə böyük bir elat öz dədə-baba yurdundan, Dədə Qorquddan o yana sahib olduqları torpaqlarından qovuldular: Yollarda qanlarına boyana-boyana, qar-çovğunda qırıla-qırıla, qol-qıçları şikəst ola-ola, bütün varidatlarını itirə-itirə, bir nəsil yarıdan yarı qala-qala, ürəkləri üzülmüş halda gəlib Azərbaycana çatdılar. 207 mindən çox evsiz-eşiksiz qalan bu yarımcan xalq bəs harada yerləşməlidir? İş ki, belə oldu, onda ermənilər ölə-ölə yox, elə sağ-salamat, var-dövlətlərini vaqonlara yükləyərək kefi-xoşluqla arın-arxayın getsinlər həmin azərbaycanlıların abad qoyub çıxdıqları ev-eşiklərə yiyələnib, mal-mülklərinə sahib olub yaşasınlar. Tarix-Allah özü zülmlərinin əvəzini versin. Qərar qətidir. Ermənilər Bakıdan, Azərbaycandan çıxsın. Çıxsınlar... çıxsınlar...

Söz demək başqa, icrasını məcbur edib həyata keçirmək başqa. Xəlil Rza Ulutürk belə dar günümüzdə ayağa qalxanlardan birincisi oldu. Ürəyi üzülmüş, ev-eşiksiz, imkansız xalqa mənəvi arxa oldu. Ermənilər Bakını təcili tərk etsinlər... etsinlər... Xəlil Rzanı o günlər tanımaq olmurdu. Dəli aslana dönmüşdü. "Qırılmamış, ölməmiş, rədd olun torpağımızdan". Ermənilər isə hələ gözləyirdilər, gözlərini dikmişdilər Moskvaya – rus qardaşlarının azərbaycanlılara növbəti qara-təpməcələrini gözləyirdilər.

Ancaq "ac qarın qılınc kəsər" deyiblər. Təhqir olunmuş bir eli susdurmaq olardımı? Yox... yox... yox... Azərbaycan ayaq üstəydi. Xəlil Rza ayaq üstəydi. Nə gecəsi vardı, nə gündüzü. Bakı ermənilərdən xeyli təmizlənmişdi, hələ təmizlənirdi də. Rusun başqa əlacı qalmadı. Dəhşətli, ağlasığmayan vəhşilik törətdi – 20 YANVAR gecəsini qızıl al-qan içində səhərə yetirdi – bütün

Azərbaycanı, dünyanı qəddarlığıyla heyrət içində dondurdu.

Xəlil Rza hayqırtısı Şəhidlər Xiyabanının yuxarı başında eşidildi. Bu səsin susmadığını görən, eşidən Moskva Xəlil Rzanın qollarını qandallayıb zindana atdı. Təyyarə ilə Lefortovo zindanına aparılan Xəlil Rza göylərdə ilk Ulutürk imzalı şeirlərini yazmağa başladı. Qandallı əlləriylə yazdı o şeirləri. O gedən düz 8 ay Lefortovo zindanının soyuq divarları arasında qaldı. Amma orada da susmadı. Azərbaycanın istiqlaliyyət mübarizəsinə şeirlər yazdı, dünya ədəbiyyatından tərcümələr etdi. Xəlil Rza Ulutürk o günlər ədəbi, ölməz, tarixi ömür yaşadı. Xalqının ağrısını varlığında duyan, yaşadan şair öz canının ağrısını qandalların ağırlığını, zindanın soyuqluğunu hiss etmədi. Onun aləmində xalq eşqi can eşqindən çox-çox ucalarda dayandı. Xəlil Rzanın Bakıda yoxluğu hər an hiss edildi. Xalq ayağa qalxdı. Cild-cild kitablara bağlanan imzalar toplandı. "Xəlil Rzaya azadlıq... azadlıq... azadlıq" – deyə dediklərindən dönmədilər. Prokurorluq orqanlarında "Xəlilov Xəlil Rza oğlu" adında başlanan cinayət işinə kim baxacaq? Haqq məhkəməsini kim ayırd etməlidir! Ya elə bir kəs ki, rusların, ermənilərin, imperiyaya qulluq edən dövlət aparatı orqanlarının dediyini, ya da elə bir kəs ki, xalqın dediyini – Azərbaycanın azadlıq mübarizini müdafiə etməlidir. O qovluq əldən-ələ çox gəzdi, az gəzdi bilinmədi. Axır ki, ürəyi, qanı, vicdanı xalqıyla olan bir oğul xalqın hayına yetdi.

Aradan neçə illər ötüb. Hər kəsin marağı olan həmin xalq hakimini soraqlayıq tapdıq və Abşeiron rayon məhkəməsinin sədri vəzifəsində işləyən möhtərəm hakim İlqar Abbasovla görüşüb söhbət etməyi qərarlaşdırdıq.

---

*Abbasov İlqar Eyvaz oğlu əvvəllər hüquq-mühafizə orqanlarında müxtəlif vəzi  fələrdə çalışmış, hakim işləmiş, 1987-ci ildə Şəhər məhkəməsinin üzvü seçilmişdir.*

*İlqar Abbasov çətin və şərəfli peşə olan hakimlərə xas bütün cəhətləri özündə*

*cəmləşdirən hüquqşünasdır. Belələri bizdə hələlik azdır. Öz üzərində çalışan, ixtisasını sevən-sevdirən yüksək mədəniyyətli mütəxəssisdir.*

*Ona daima dövlət əhəmiyyətli, mürəkkəb və çətin işlərə baxmaq həvalə olunmuş və o bu işlərin öhdəsindən layiqincə gələ bilmişdir. Onun məhkəmə proseslərini aparmaq bacarığı, düzgün nəticəyə gəlmək məharəti, qanunun aliliyini gözləməsi yüksək insani keyfiyyətlərilə bahəm, nüfuzunu artırmış və sözün əsl mənasında püxtələşmiş hakim kimi tanıtmışdır. Beləlirilə işləmək xoşdur. Belələri barədə fikir söyləmək fərəh doğurur.*

*Bu, mənim qəlbimdən gələn sözlər olsa da, İlqarın özünün qazandıqlarının nəticəsidir.*

*İkram KƏRİMOV,*
*Bakı şəhər məhkəməsinin sədri.*

---

*– İlqar müəllim, xalq şairi Xəlil Rza Ulutürk dəmir qəfəslikdən – zindandan azad olunduğu gün yadınızdan çıxmayıb ki?*

– Bilirsiniz, 15 ildir ki, mən hakim vəzifəsində işləyirəm. Bu illər ərzində çoxlu və müxtəlif səpkidə işlərə baxmışam. Lakin elə bilirəm, ömrüm boyu 1990-cı ilin 20 oktyabr günü xatirimdən və gözlərimin qabağından çəkilməyəcək. Həmin gün məhkəmənin ilk günü idi və o gün Xəlil Rza həbsdən azad olundu.

*– İlqar müəllim, nə üçün Xəlil Rzanın işinə məhz siz baxdınız. Deyirlər, bu işə baxmaqdan bir neçə hakim boyun qaçırıbmış. O dövrdə bu çox məsuliyyətli iş idi. Bəs siz qorxmadınızmı, belə bir qərar qəbul etdiniz?*

– O vaxt mən Bakı şəhər məhkəməsinin cinayət işləri 1 instansiya kollegiyasının üzvü idim. Xəlil Rzanın da barəsindəki cinayət işinin tərəfimdən baxılmasında qeyri-adi bir şey yoxdur. həmin işin nə səbəbə məhz mənə tapşırılmasını və kimlərin bu işə baxmaqdan imtina etməsini isə siz məhkəmənin sədri İkram müəllimdən soruşa bilərsiniz. Bununla belə deyə bilərəm ki, bir çox xalq iclasçıları həmin işə baxılmasında iştirak etməkdən

imtina etdilər. Nəhayət, iki cəsarətli xalq iclasçıları qadınlar, – Bədən Tərbiyəsi İnstitutunun və hansısa elmi-tədqiqat institutunun əməkdaşları razılıqlarını verdilər.

*– İlqar müəllim, "yuxarılardan" bir tapşırıq var idimi ki, Xəlil Rza tutulsun və yaxud buraxılsın?*

– İşə baxmamışdan əvvəl məhkəmənin sədri İkram Kərimovla şərtləşmişdik ki, əgər kimsə, hardansa zəng edib, iş üzrə bu və ya digər qərar qəbul olunması barədə tapşırıq versə, o bu haqda mənə heç nə bildirməyəcək. Həqiqətən də o, sözünə axıra kimi əməl etdi və olan söhbətlərin, sifarişlərin, təzyiqlərin heç birini mənə bildirmədi. Bunlar hökm elan olunandan sonra mənə məlum oldu. O ki, qaldı qorxu məsələsinə, Xəlil Rzanın barəsində həbs qəti imkanı tədbirinin dəyişdirilməsini müşavirə otağında müzakirə edəndə xalq iclasçılarının hər ikisi dedi ki, oğul, sən nə təklif etsən, biz ona razı olacağıq, sən cavansan, özünü qoru. Xəlil Rza xəstə idi. On aydan artıq idi ki, həbsdə saxlanılırdı, fikirləşdim ki, onu azadlığa buraxanda onsuz da çoxlarının xoşuna gəlməyəcək, nə deyirlər qoy desinlər, ən əsas odur ki, qəbul edilən qərar qanunidir və hər hansı böhtan, o cümlədən belə hallarda həmişə olduğu kimi, "rüşvət aldı, ona görə belə etdi" sözləri də inandırıcı olmayacaq. Bir halda ki, bu inanılası deyil, oradan o tərəfə deyilənlər də boş şeylərdir. Beləcə, həmin otaqda özlüyündə qəti qərar qəbul etdim ki, Xəlil Rzanın barəsində həbs qəti imkan tədbir dəyişdirilsin. O, həbsdən elə bu gün azad olunsun. Bu qərarla da zala qayıtdıq və rus dilində qərarı elan etdim. Zalda toplaşanların çoxu hüquqi terminləri və rus dilini, görünür, bilmədiklərindən əvvəl hay-küy qaldırdılar. Gördüm bunlar məsələnin nə yerdə olmasını hələ anlamayıblar. Polis işçiləri isə heyrətlənib, Xəlil Rzanı buraxmaq istəmirdilər. Xəlil buraxıldı. Bundan sonra aləm dəydi bir-birinə, hay-küy, sevinc səsi, gül-çiçək yağışı və s.

*– İlqar müəllim, Xəlil Rza nədə ittiham olunurdu? Həmin ittihamnamələri indi xatırlaya bilərsinizmi*?

– Birinci ittiham! Xəlil Rza Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə – millətlərarası münasibətləri qızışdırmaqda ittiham olunurdu. Onun meydandakı çıxışlarının hamısı videokasetlərə yazılmışdı. Xəlil Rzanın özü də bu çıxışlarından və orada söylədiyi nitqlərindən imtina etmirdi. Məhkəmədə aydınlaşdı ki, Xəlili o tribunaya çıxaran ölkədə yaranmış hakimiyyətsizlik nəticəsində dədə-baba ocağından qovulmuş camaatın haqqını tələb etmək istəyi imiş. Camaat meydana yığışmışdı ki, bu işləri sonu hara gedəcək. Hərə çıxıb orada bir fikir söyləyirdi. Xəlil də yaranmış vəziyyətdən çıxışı ermənilərin Bakıdan çıxmasında görmüşdü. Deməli, bu işdə Xəlil Rzanın şəxsi marağı yoxdur və o, millətlərarası münasibətləri qızışdırmamışdır. Sadəcə bu hadisəyə öz münasibətini belə bildirmişdir.

İkinci ittihamı nədir? Azərbaycanı şimala-cənuba bölən tikanlı məftillər sökülüb, aradakı sərhədin açıldığına Xəlil Rza sevinib. Məhkəmə bu ittihamı rədd etdi. Bəli, sərhəd aradan götürülüb. Kiminsə gördüyü bu işə Xəlil Rza sevinir. Arzuyla sevinc, eləcə də kədər cinayət tərkibi yaratmır. Bir xalqın iki yerə bölünməsi cinayət sayılmayıbsa, onda həmin xalqın birləşməsinin arzu olunması necə cinayət hesab oluna bilər?

Üçüncü ittiham. Xəlil meydanda deyib ki, imperiya, Moskva, Azərbaycan torpaqlarını viranə qoydu, sökdü, dağıtdı. Buna görə o ittiham edilirdi ki, o, bu sözlərlə rus xalqını təhqir edib. Məhkəmə belə qərara gəldi ki, əvvəla, bu təhqir yox, tənqiddir. İkincisi, o Moskva hökumətinin kənd təsərrüfatı sahəsindəki yarıtmaz siyasətini tənqid edib. Üstəlik, Moskvanı tənqid etmək rus xalqını təhqir kimi qiymətləndirmək olmaz. Çünki Moskva rus xalqı deyil, ora ümumi respublikaların paytaxtıdır. Vətəndaşın da hökumətin hər hansı bir sahədə apardığı yarıtmaz siyasəti tənqid etmək hüququ var.

Dördüncü ittiham. Xəlil yanğınsöndürmə idarəsinin qabağında mitinq təşkil edib və orada işləyən ermənilərin işdən azad

olunmasına nail olub. Məhkəmədə müəyyən olundu ki, Xəlil Rza həmin gün küçədə gedərkən görəndə ki, mitinqdir, dayanıb. Camaat Xəlili tanıyır və onu nümayəndə kimi idarə rəhbərliyi ilə danışmağa göndərir. Xəlil Rza etiraz etmir. İçəri daxil olur. Söhbət zamanı məlum olur ki, bir neçə gün əvvəl mitinq edənləri yanğınsöndürən avtomaşınlarla sulayan idarədə işləyən 20-dən çox erməni millətindən olan şəxslər özləri artıq işdən çıxıblarmış, Xəlil Rza isə toplaşanları sakitləşdirmək üçün işdən çıxanların siyahısını alıb elan edib ki, onlar işdən azad olundular.

Beləliklə, əslində qəzəblənmiş adamların həmin binanı dağıtmaqlarının qarşısını alıbmış.

Beşinci ittiham. Azərittifaqın milliyyətcə erməni olan müavininin işdən çıxmasına bais oldu. Məhkəmə prosesi zamanı müəyyən edildi ki, həmin şəxsin əmri orada keçirilən mitinqdən bir neçə gün əvvəl verilibmiş.

Altıncı ittiham. Xəlil Rza Respublika Prokurorluğunun qarşısında mitinq edib və orada işləyən erməniləri işdən qovdurub. Xəlil Rza deyir, yalandır. Mənim evim həmin səmtdədir. Evimə gedərkən həmin yerdə mitinqi görüb dayanmışam.

Bu ittiham rədd edildi. Prokurorluqda işləyən ermənilər isə, müəyyən olundu ki, öz ərizələrit ilə işdən azad olunublarmış. Beləliklə, Xəlil Rzanın əməllərində cinayət tərkibi müəyyən edilmədi.

– *Bəs qorxmurdunuzmu? Azı, bu işin arxasında Moskva, Qorbaçov dayanmışdı. Sizi ən azı işdən çıxara bilərdilər.*

– Almaz xanım, əslində normal adam qorxmalıdır. Vəzifə, dövlət orqanının özünün hər hansı bir funksiyasının icrasını konkret şəxsə inam, etibar edibö tapşırması deməkdir. Hər bir etibarı qazanıb, onu qorumaq şərəfli və məsuliyyətli işdir. Bununla belə vəzifəni itirmək qorxusunun qulu olmaq lazım deyil. Vəzifəni qorumaq üçün daxilən hər an onu itirməyə hazır olmalısan. Bu işə görə məni işdən çıxarda bilərdilər. Fikirləşdim, nə olar, qoy çıxarsınlar. Bir tikə çörək qazanıb ailəmi – iki

uşağımı böyüdə bilməyəcəyəm? Hakim işlərəm, vəkil işlərəm. İndi, işdən çıxarılacam deyə haqsız qərarımı çıxarmalıydım? Yox, bu mənlik deyil. Üstəlik də ittiham olunan adam xalqının vəziyyətinə ağlayırdı. Xalq təhqir olunmuşdu. Mənim, sənin, onun ürəyindən keçənləri meydanda o çıxarıb ucadan deyirdi. Günü bu gün hesab edirəm ki, Xəlil Rzanın əməllərində 67-ci maddənin tərkibi yoxdur. Bu adam millətlərarası münasibəti qızışdıran olmayıb.

*– İlqar müəllim, üzr istəyirəm, eşitdiyimə görə bu işə görə sizə yüksək rütbə veriblər.*

– Keçən il noyabr ayında mənə növbəti rütbə verildi. III dərəcəli hakim idim, indi II dərəcə almalıydım. Bu məsələyə Milli Məclisdə baxılanda xalq deputatı Mikayıl Mirzə təklif etdi ki, mənə Xəlil Rzanın məhkəməsini apardığıma, işə obyektiv baxıldıbına görə I dərəcəli hakim (general rütbəsi uyğundur) rütbəsi verilsin. Deputatlar belə qərara gəldilər ki, Milli Məclisin təklifi ilə Ədliyyə Nazirliyi və Ali Məhkəməyə bu haqda təqdimat göndərsinlər.

Ədliyyə naziri də, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri də bu təqdimatı hazırlamışdılar. Lakin mən həm onlara, həm də Milli Məcliaə dərin minnətdarlığımı bildirib, rütbədən imtina etdim.

*– Niyə?*

– Çünki mən hakiməm. Borcum bütün işlərə obyektiv baxmaqdır. Müttəhim kim olursa-olsun, hakimin borcu işə ədalətli baxmaqdır. Xəlil Rzanın barəsindəki cinayət işi də digər işlər kimi baxılmış işdir. Mən sadəcə vəzifəmi yerinə yetirmişəm.

*– Möhtərəm hakim, sizcə öz vəzifəsindən, taleyindən narahat olan, qorxan adama bu iş tapşırılsa idi, Xəlil Rzanın işində cinayət tərkibi tapılardımı?*

– Nə deyim, vallah. Bu iş yekunlaşandan sonra Şəhər Məhkəməsinin sədri İkram Kərimovla təxminən elə bu mövzuda söhbətimiz oldu. Məhkəmə ərəfəsində hökmü elan edəndə zalda

işıqlar sönmüşdü. Qaranlıqda yoldan ötən maşınların işığına əlyazması halında olan hökmü oxumuşam. Səhər işə gələn kimi, müavin bildirdi ki, Mərkəzi Komitədən təcili olaraq hökmün surətini istəyirlər. 14 səhifəlik hökmü gecəynən harda çap etdirəsiydim? Qısa arayış göndərdim. Məlum olur ki, Xəlil Rza həbsdən buraxılan kimi dərhal Mərkəzi Komitədən ayrı-ayrılıqda üç mötəbər vəzifə sahibi zəng edib ki, o hakim kimdir, dəlidir, ya nədir, bu nə oyundur, nə hərəkətdir? Niyə həbs qəti imkan tədbirini dəyişib.

*– "Xəlil Rza həbsdən azad olunsun", bu səda zalda necə qarşılandı?*

– Çox yaxşı. Azərbaycan məhkəməsi tarixində ilk dəfə idi ki, siyasi məhbusa, bilavasitə SSRİ DTK-sı tərəfindən və SSRİ Prokurorluğu tərəfindən təsdiq edilmiş ittihamla aparılan iş üzrə siyasi məhbusa bəraət hökmü verilərək birbaşa zaldan azad olunurdu. Bu günə qədər hələ belə hökm olmamışdır. Prokurorluq orqanları ittihamı müdafiə edib ona həbs təyin olunmasını xahiş etmişdilər. Xəlil Rza da bunu bilirdi və hesab etmişdi ki, cinayətkar kimi ona iş kəsiləcək. Elə Xəlil Rza üçün də, onun vəkilləri şairlər – Qabil, Qasım Qasımzadə, Ramiz Duyğun üçün də məhkəmənin qərarı gözlənilməz olmuşdu.

Beləcə, öz oyunları ilə dünyanı dəhşətə gətirən DTK-nın ən professional müstəntiqlərinin 9 ay müddətində topladığı "sübutlar" və SSRİ Baş Prokurorluğunun təsdiq etdiyi ittihamnamələrin bu günümüzün qeyrət simvolu olan hakim İlqar Abbasov tərəfindən necə böyük peşəkarlıqla, məntiqlə, yüksək təfəkkürlə dağıdılması məndə qürur hissi oyatdı. Moskvadan göndərilən və üzərində "Xəlil Rza" – "Əbədi saxlansın" yazılmış ittihamnamələr qovluğu beləcə məhv edildi.

Xalq hakimi İlqar Abbasov danışdıqca onun öz peşəsinə vurğunluğu, ehtiramı, bütöv bir xalqın əzizlədiyi azadlığı, müstəqilliyi uğrunda mübarizədə cəfakeşliyi adamın ürəyini dağa döndərirdi. Nə yaxşı ki, bir-birini tamamlayan oğullarımız var.

Xalqın, torpağın namusu, şərəfi belə oğulların çiynində ucalır, nəsillərdən-nəsillərə, əsrlərdən-əsrlərə ötürülür.

Yolboyu düşündüyüm bu gerçəkliyin qürurundan yerə-göyə sığmırdım. Nə yaxşı Azərbaycanın azadlıq mübarizi, sevimli şairi Xəlil Rza Ulutürk kimi oğulun – igidin zindan taleyi özü kimi qeyrətli, ensiklopedik biliyə malik, dəmir kimi möhkəm, hüquqi məntiqi, ağlı olan, ürəkli bir hakimin əlində öz haqqına qovuşub. Belə oğullar ölməzlik ömrü yaşayanlardır

*"Prometey" jurnalı,*
*c.,№1,1998,səh20-26.*

# YARADICI ZİYALILARIMIZIN VƏTƏNƏ BORCU VAR

*– Yazıçı zamanı qabaqlamalıdır. Yaradıcılığınıza və ya konkret bir əsərinizə bu prinsiplə yanaşmaq olarmı?*

– Yazıçı həqiqətən zamanı qabaqlamalıdır. Bu gün çap olunan klassik ədəbiyyat nümunələrində də bunu görürük. Ədəbiyyatda daha çox bu gün yox, sabah əks edilməlidir. Hətta tarixi mövzuda yazılmış ədəbiyyatın da ünvanı sabah olmalıdır. Yəni oxucunun gəldiyi qənaət onu həm bu günə, həm də sabaha hazırlamalıdır. Ədəbiyyatda əsas ölçü o olmalı deyil ki, qələmə alınan hadisə həyatda bu gün və ya indiyəcən olubmu? Əlbəttə, – mahiyyətinə görə bu da şərtlərdən biri sayıla bilər. Ancaq mənə elə gəlir ki, əsas ölçü başqadır: həyatda belə bir hadisə ola bilər. Dünən, bu gün olmayıb, sabah ola bilər. O ki, qaldı mənim yaradıcılığıma və ya konkret bir əsərimə bu baxımdan yanaşmağa, bunu oxucular deyə bilər. Ancaq illər bundan qabaq yazılan şeirlərim bu gün də oxunur. Son vaxtlar naşir dostlarım müxtəlif illərdə yazdığım şeirlərdən ibarət bir toplu hazırlayıb mənə təqdim etdilər. Deyirlər ki, maraqla oxunur. Yaxud da "perestroyka deyilən" illər, – illərin özündə də ona "perestroyka deyilən", ya da "perestroyka"nı dırnaq içində demişəm. Azərbaycanca hətta "yenidənqurma" kimi işlətmişəm – çox şeyi dağıtdı, uçurdu, ictimai münasibətləri pozdu. Böyük istehsalat özülləri, iqtisadiyyat dağıldı. Amma, mənim fikrimcə, "perestroyka"nın vurduğu ən böyük zərbə insani münasibətlərə oldu. Ona görə də mən "perestroyka"nı heç vaxt bağışlamıram.

*– Bəs "perestroyka" ədəbiyyatda necə hiss olundu?*

– Özünü öymək kimi çıxmasın, o vaxt "perestroyka"nın dağıdıcı xarakterini görürdüm. Sürətlə gedən proseslər məni vadar edirdi ki, daha çox publisistika yazım, "perestroyka"nın dağıdıcılığından, bunun gələcək üçün də böyük təhlükə olduğundan

yazırdım. İllər sonra bir neçə qəzet o vaxt çap olunmuş bir neçə yazımı yenidən dərc etdim. Məsələn, iki-üç il qabaq "Həyat" qəzeti əvvəllər "Yeni fikir" qəzetində dərc olunmuş və "Şahidlər" kitabında getmiş "Biz hələ ki, şəhid deyilik" yazımı, yaxud "Azərbaycan" qəzeti "Ə.Vəzirova məktub"umu yenidən çap etdi. Və hər iki redaktor mənə dedi ki, bu yazılar sanki indi yazılıb. Oxucu zəngləri də çox idi. Publisistikada uzunyaşarlılığı, xüsusən ictimai proseslərdən bəhs edən yazılarda uzunyaşarlılığı saxlamaq çətindir. Mən bunu öyünmək üçün demirəm, sadəcə, mənim tərcümeyi halımdır, yazılarımın taleyidir. O vaxtlar bu proseslərə çox obyektiv baxmağa çalışmışam. Düzdür, subyektiv münasibətsiz yaradıcılıq mümkün deyil. O mənada ki, zamanı insan öz içindən keçirəndə subyektiv hisslərdən, münasibətlərdən xali ola bilmir. Ancaq mən o yazıların hamısını bu gün yenidən çapa verməyə hazıram. Belə bir iş də başlanıbdır. Əslində beş-altı il bundan qabağın yazıçısıyam. Son beş-altı ildə mənim yalnız bir neçə publisist yazım olub, müsahibələr vermişəm. Ancaq o vaxt ciddi maraq doğuran, yuxarıları çox narahat edən onlarca yazım mətbuatda dərc olunub. Senzuradan keçərək müəyyən ixtisarlarla çap edilib. Bu gün onları bir toplu şəklində nəşr etdirmək qərarına gəldim. İndi həmin kitabı hazırlayıram. Mən orada heç nəyi dəyişmirəm. O vaxtlar ki, redaktorlar, senzorlar ən kəskin yerləri ixtisar etmişdilər, bax, onları da bərpa etmədən, mətbuatda necə dərc olunubsa, eləcə topluya daxil etmişəm. "Sözün vaxtı" adlandırdığım bu toplunun "Ön söz"ü "Nədə yanılmışam?" adlanır.

– *Nədə yanılmısınız?*

– Bunu qoy oxucu desin. Sağlıq olsun, o toplu dünya işığına çıxanda diqqətlə oxusun və açıq desin: nədə yanılmışam? On il, on beş il bundan qabaqkı publisist yazılar, müsahibələr üçün bu günün baxışlarıyla veriləcək qiymət mənə indi, on il, on beş il bundan qabaqkı vaxtdan daha qiymətlidir. Təxminən on beş il bundan qabaqdan başlayaraq yazılmış bu yazılar mənim ictimai-siyasi proseslərlə, Azərbaycanın çağdaş vəziyyəti, problemləri və

gələcəyi, eyni zamanda ədəbiyyatımızın və incəsənətimizin müxtəlif məsələləri, hətta futbolumuzun qayğıları ilə bağlı düşüncələrimdir.

*– Zamanı qabaqlayan yazıçının zamana zamanında deyiləsi sözü nədir?*

– Bu, əslində çox maraqlı bir söhbət üçün istiqamətdir. "Yenidənqurma" illərində məni ən çox qorxudan Azərbaycanın dağılması idi. Təəssüf ki, o illərdə Azərbaycanı müdafiə edə bilmədik. Bu gün isə məni ən çox düşündürən müstəqil Azərbaycanın qorunması, suverenliyi, ərazi bütövlüyünün bərpa olunması və əbədi olaraq müstəqil ölkə kimi yaşamasıdır. Ədəbiyyat, mənim aləmimdə, indi buna xidmət eləməlidir. Məsələn, bizim 23 aylıq Xalq Cümhuriyyəti dövrünün ədəbiyyatına baxanda o mürəkkəb zamanda görürsən ki, xeyli maraqlı işlər, sanballı poeziya, nəsr, musiqi nümunələri var. Əlbəttə bu təkcə 23 ayın məhsulu deyil, şübhəsiz bu proses bir qədər əvvəlki illərdən başlayıb, iyirminci ildə ölkəmiz yenidən işğal olunandan sonra isə mühacirətdə olan ziyalılarımız bu istiqamətdə fəaliyyət göstərdilər. 7-ci ildir ki, artıq müstəqillik, müqayisədə götürəndə bu sahədə indi xeyli boşluq hiss olunur. Yaxud 1917-20-ci illərdə erməni təcavüzü nəticəsində Qərbi Azərbaycandan qaçqınlıq başlayanda, azərbaycanlılara qarşı soyqırım törədilində yaradıcı ziyalılar buna birmənalı münasibət bildirirdilər, əsərlər yazırdılar. Nəşriyyatda işləyərkən H.Cavidin kitabını tərtib edirdim və böyük şairin qaçqın qıza necə gözəl şeir həsr etdiyini gördüm. 1941-45-ci illər müharibəsi illərində də o hadisələrlə bağlı xeyli ədəbiyyat, musiqi əsərləri yarandı. Bu baxımdan ötən doqquz ildə yaradıcı ziyalılarımızın vətənə borcu var. Bu sahədə xeyli boşluq hiss olunur. Əlbəttə, müəyyən uğurlu əsərlər yaranıb, lakin bunlar ötən dövr və başımıza açılan müsibətlər müqabilində qənaətedici deyil.

*– Bu boşluq sizcə nədəndir? Əsrin əvvəllərində ədəbiyyatda görünən böyük vüsətin elə bil indiki ədəbiyyata dəxli yoxdur. Bəlkə yaradıcı ziyalılarımızın içində hələ də 37-i qorxusu var.*

– Bilirsən, hər bir yazıçının buna öz baxışı ola bilər. Səbəblərdən biri, dediyimiz kimi, əsrin əvvəllərində böyük vüsət almış ədəbiyyat əsl ədəbiyyat üzərində köklənmiş, zəngin poeziya xəzinəmiz üzərində formalaşırdı. Əsrin əvvəllərində artıq dünyaya müəyyən pəncərə var idi. Yəni dünya ədəbiyyatında gedən proseslər müşahidə oluna bilirdi. 70 illik sovet dövründə isə Yazıçılar İttifaqları, MK-nın ideoloji şöbələri ədəbiyyat üçün müəyyən "konsepsiya" hazırlayıb ədəbiyyatı bu konsepsiyadan kənara çıxmağa qoymayıbdır. Azərbaycanda Cavidin, Müşfiqin və ya Heydər Hüseynovun faciə sonluqlu həyatlarını xatırlayaq. Bunun digər səbəbləri də ola bilər. Ancaq mənim fikrim budur ki, hər bir yaradıcı adam əsas yaradıcılıq qayəsini Azərbaycanın tarixi, keçdiyi yolları, "azərbaycanlı" anlayışı, xalqımızın mentaliteti ilə bağlı mövzulara həsr eləsə, bu boşluqlar olmazdı və əsl ədəbiyyata keçid dövrü ki, var, o, daha ahəngdar gedərdi, daha qısa vaxtda başa çata bilərdi. Ədəbiyyatın özündə də keçid dövrüdür. Doğrudur, 70 ildə Azərbaycan ədəbiyyatında dəyərli əsərlər var. Ancaq birdən-birə böyük imperiyanın hər altı ayda, ildə bir dəfə olan MK qərarlarından çıxıb azad, demokratik, dünyəvi bir ölkədə düşünmək əlbəttə müəyyən vaxt, müəyyən stereotiplərdən aralanmaq tələb edir.

*– Hidayət müəllim, dünyaya səs salmış rus imperiyasının özündə rus yazıçısı dissident olduğu, öz imperiyasına etiraz olaraq yazılmış əsərlər – sandıq ədəbiyyatı ortaya gəldiyi halda onun müstəmləkəsi olan fzərbaycan yazıçısının sandığından isə heç bir əsər ortaya çıxmadı. Qəribə görünmürmü?*

– Mənim mənsub olduğum nəsil 60-cı illərin ikinci yarısından ədəbiyyatda görünməyə başladı. Bu nəsil son dərəcə sərbəst oldu. Bir dəfə H.Əliyevdə soruşdular ki, necə oldu ki, sizdə heç bir dissident olmadı. O, cavab verdi ki, biz dissident axtarmırdıq. Doğrudan da sözün əsl mənasında Azərbaycanda o vaxt dissident axtarılmayıb. Məsələnin başqa tərəfi də bu fikri təsdiq edir: Son illərdə Rusiyada və ya başqa respublikada

sandıqdan çıxarılıb dissident ədəbiyyatı adı altında çap olunan yazılar yetmiş-səksəninci illərdə Azərbaycanda çap olunmuş ədəbiyyatdan daha kəskin, daha sanballıdırmı? Əlbəttə, yox. "İpə-sapa yatmayan" Bəxtiyat Vahabzadənin, Xəlil Rzanın vətəndaş qayəli kəsərli poeziyası, Anarın "Qobustan" toplusundakı, Əkrəm Əylislinin "Azərbaycan" jurnalındakı fəaliyyətləri və bir çox başqa yazıçılarımızın sərt əsərləri və çıxışları o vaxtın Mərkəzinin, onun xüsusi xidmət orqanlarının diqqətindən kənarda qala bilməzdi. Heydər Əliyevin sayəsində bu yazıçılar hər cür repressiyadan qorundular. Bəli, Azərbaycan yazıçıları nə yazıblarsa, nəyə qadirdilərsə, onu göstəriblər və yazdıqları əsərlər çap olunub. Bu, Azərbaycanda ictimai-siyasi ab-havadan və o vaxtkı Azərbaycan rəhbəri H.Əliyevin bütün Sovet İttifaqındakı nüfuzundan irəli gəlirdi. Məsələn, o vaxt mən başqa respublikada yaşayırdım, burada, Azərbaycanda bir neçə yazıçıya, bəstəkara, rəssama Sosialist Əməyi Qəhrəmanı adı verildi. Bu, o vaxtlar böyük hadisə idi və Ermənistanda çox qısqanclıqla qarşılanırdı. Onda Ermənistandan isə bircə nəfərə verildi. O da Ermənistanda yox, Moskvada yaşayan bəstəkar (Aram Xaçaturyan) idi. Ondan da qabaq M.Saryan almışdı. O da dünya şöhrətli rəssam idi. Müqayisə edək və nəticə çıxaraq. Nəhəng imperiya səviyyəsində belə yüksək qiymətləndirilməsinə nail olunan mədəniyyətimizin daşıyıcılarının repressiyalardan, ciddi təqiblərdən qorunması Heydər Əliyev üçün əslində çətin iş deyildi. Ona görə də hamı özünü sərbəst hiss edirdi, nə yazılırdısa, çap olunurdu. Azərbaycanda keçmiş dissident ədəbiyyatının ortalığa çıxmamasının başqa səbəbləri də var. Ancaq mən çox sevinirəm ki, 60-cı illərdə ədəbiyyata gələnlərə Azərbaycanda demək olar ki, qırmızı işıq olmayıb. O ədəbiyyat Azərbaycanda çox iş görüb.

*– Hər bir yazıçının yaratdığı əsər öz taleyidirmi?*

– Şübhəsiz. Mən yazılarımın birində demişəm ki, yazıçının yaratdığı əsər bir binadırsa və bu binanın dörd divarı

varsa, bu dörd divardan azı biri onun öz tərcümeyi-halıdır. Əlbəttə, burada söhbət ondan getmir ki, bədii əsərdə təsvir edilən hadisələr, yaşamalar, münasibətlər – bunlar yazıçının həyatında olubmu və ya həyatında olması mümkündürmü? Söhbət yazıçının düşüncələrindən, dünyagörüşündən gedir, yazıçı hansı kriteriyaları, hansı münasibətləri özünə doğma hesab edir. Mən, taleli ədəbiyyatı, yəni insan taleləri ilə bağlı ədəbiyyatı çox yüksək ədəbiyyat sayıram, o, daha səmimi, daha insani ədəbiyyatdır. Əlbəttə, qeyri-insani əsl ədəbiyyat yoxdur.

*– Əsər üzərində işlərkən təfəkkürün, qan yaddaşının, istedadın rolu böyük olur, yoxsa bu, Allah vergisidir. Çox vaxt oturursan bir şey yazmağa, axırda görürsən ki, tamam başqa şey alınıb.*

– Yaradıcılıqda o komponentlərin hərəsinin öz yeri var. Heç kəs deyə bilməz ki, dünyagörüşündən, dünyanın dəyərli informasiyalarından yazılarında istifadə olunmur. Bu, mümkün deyil. Əlbəttə, qan yaddaşının, ondan da çox istedad yaddaşının rolu böyükdür. Məhz o istedadın özünün taleyidir ki, xüsusən bədii yaradıcılıqda belədir, oturursan bir şey yazmağa, amma ayrı şey yazırsan. Yəni, istedad onu diqtə edir. Bir də bədii əsər o vaxt güclü olur ki, yazıçının deməyə yeni sözü olur. Yazıçını ciddi narahat edən problem olur. Bu, elə sözdür ki, onu deməmək olmur.

*– Müasir gənclik ədəbiyyatına sözünüz?*

– Bugünkü gənclik ədəbiyyatı sabahımızın ədəbiyyatıdır, gələcəyidir. Əlbəttə, bu gün maraqlı şairlər, nasirlər və xüsusilə istedadlı publisistlər var. Ancaq görünür, müəyyən bir dövr lazımdır ki, onlar yeni bir ədəbi məktəb kimi formalaşsınlar. Dövlət də gənclərə bu mənada diqqət yetirir. Ancaq qalan problemlərin hamısı gənclərdən asılıdır.

*– Müasir gənclik müstəqillik uğrunda gedən mübarizənin içində böyüdü, boy atdı. Bütün olanları, tarixi həqiqətləri gerçəkliyiylə öz gözləri ilə gördülər, öz həyatlarında yaşadılar.*

*Amma yaradıcı kimi doğula bilmədilər.*

– Bu, bəlkə bir qədər sonra görünə bilər. Müəyyən mənada istedadla bağlı işdir. Biz də ədəbiyyata gələndə ilk illər çox mükəddər şeirlər yazardıq, hətta Bakıda oturub kəndin həsrətini yazardıq. Bunlar təbii prosesdir. Ancaq onun özündə də güclü vətənpərvərlik olmalıdır, yəni əsl poeziya olmalıdır, əsl ədəbiyyat yaranmalıdır. Məsələ bundadır. Bəlkə də bunlar izah olunmayan bir hissdir. Ancaq gənclikdən daha perspektivli, daha məzmunlu, qüdrətli ədəbiyyat gözləyirik.

- *Elə bilirəm ki, gəncliyin özüylə belə bir geniş söhbətə ehtiyac var. Bu, artıq bir ayrı söhbət olacaq. Ədəbiyyatımızın inkişafında ədəbi tənqidin nə kimi rolu ola bilər?*

– Çox böyük. Amma indi Azərbaycanda ədəbi tənqid yoxdur.

– *Ciddi ədəbiyyat yoxdur onu görəmi?*

– Yox, əksinə. Ədəbiyyat var. Ədəbiyyat yoxdu demək olmaz. Amma zəif ədəbiyyat çoxdur. Azərbaycanda heç vaxt ədəbiyyat ədəbi tənqidə indiki qədər mövzu, indiki qədər problem verməyib. Bayağı şeirlər, bayağı nəsr, kimin imkanı varsa, qəyyum tapa bilirsə, bu vasitələrlə ağına-bozuna – bədii dəyərinə baxmadan çap elədiyi kitablar baş alıb gedir. Bunlar əslində ədəbiyyat deyil. Məhz ədəbi tənqid bu məqamda gərək öz sözünü deyə. Ədəbi tənqid, – tənqidçilər gərək məndən inciməsinlər, – indi yox, bəlkə də on ildən çoxdur ki, yoxdur. İndi ədəbi təqdir var, ədəbi tərif var. Özü də yalnız bu günlərin deyil, son on beş ilin mənzərəsi belədir. Azərbaycanda XIX əsr-dən başlayaraq çox yüksək professional səviyyədə ədəbi tənqid məktəbi formalaşıb, ya sovet dövrünün özündə də, düzdür, sosialist realizmi prinsipləri əsasında idi, ancaq professional ədəbi tənqidimiz formalaşmışdı. Təəssüf ki, bu gün ədəbi tənqid yox dərəcəsindədir.

– *Hidayət müəllim, elə əsəriniz varmı ki, ona tənqidçi münasibəti umursunuz?*

– Normal tənqidi həmişə yaxşı qəbul eləmişəm. Vaxtilə mən də tənqidçi kimi yox, şair-publisist kimi müəyyən tənqidi yazılar yazmışam. Təzə çapdan çıxmış kitablardan, o dövrün ədəbi gəncliyindən yazmışam. Yeni qələm sahiblərinin çoxuna xeyir-dua vermişəm. Mən indi o adları bir-bir sadalamaq istəmirəm. Ədəbi tənqid əsl ədəbiyyata xidmət edir. Yəni ədəbiyyatın zənginləşməsinə, eyni zamanda ədəbi sözün məsuliyyətinə xidmət edir. Bizdə indi sözün dəyəri də itir. Söz gərək öz ucalığını saxlaya. Mətbuatda bu gün ədəbi dilin pintiləşməsi baş alıb gedir. Bayaqdan danışdığımız mövzuların hər biri ədəbi tənqid üçün bir mövzudur, istiqamətdir, sanballı tədqiqatlar mövzusudur. Məsələn, ədəbiyyat və gənclik, ya müstəqil Azərbaycan ədəbiyyatında gedən proseslər, ədəbiyyat və qeyri ədəbiyyat...

*– Son vaxtlar nə oxuyursunuz?*

– Mətbuatda dərc olunan yaxşı publisistikanı, bədii yazıları imkan olduqca oxuyuram. Ümumiyyətlə Azərbaycan ədəbiyyatında üstdə görünən nə varsa, hamısını. Və bir də... vaxt ələ düşəndə, xüsusilə yorğun vaxtlarımda klassik ədəbiyyatı yenidən vərəqləyirəm. Füzulini, Mirzə Cəlili, Sabiri... oxuyuram və onların əbədi olaraq böyük yazıçı kimi qalmalarına heyrətlənirəm.

*– "Gənclik" nəşriyyatında keçirdiyiniz gərgin və gərəkli, məhsuldar illər yaddaşınızda necə yaşayır?*

– "Gənclik" nəşriyyatı o biri nəşriyyatlardan ona görə fərqləndi ki, o biri nəşriyyatların ehtiyat edərək, narahat olaraq, bir az da açıq desək, qorxaraq çap eləmədiyi nə qədər ədəbiyyat vardısa, onları nəşr elədi. Bu "Gənclik" nəşriyyatının bütün kollektivinin əməyidir. 20 Yanvar soyqırımından başlamış Azərbaycan tarixinin, bir çox mürəkkəb dövrləri ilə bağlı, didərginlərə aid bir çox kitabları başqa nəşriyyatlar çap eləmirdi. O illərdə irihəcmli "Didərgirlər" (həm də rus dilində), Rafiq Səməndərin "Şəhidlər", Qulu Kəngərlinin "Qara Yanvar şəhidləri", Vəli Həbiboğluyla birgə nəşrə hazırladığımız "Şahidlər",

Sabir Rüstəmxanlının "Ömür kitabı" (həm də rus dilində) və bir çox başqa nəşrlər dünya işığına çıxanacan nə qədər əsəb gərginliyi yaşayırdıq, yuxarılardan sonsuz təqiblərə məruz qalırdıq, vəzifəmizi itirməkdən qorxmurduq, yorulmurduq, axıracan mübarizə aparırdıq. Bu kitabların hər birinin nəşrində neçə maneə dəf etdik! O başqa dövr idi. Hakimiyyətdə, irili-xırdalı vəzifələrdə oturanların çoxu xalqın başına açılan müsibətlərin aşkarlanmasını istəmirdilər. Qadağalar dairəsi o dərəcədə genişlənmişdi ki, hətta Füzulinin "Hədiqət üs-süəda" əsərini çap eləməyə qoymurdular, dahi şairin incilərindən olan bu poemanı da ilk dəfə "Gənclik" nəşr edib. Möhbət Füzulidən gedir. "Hədiqət üs-süəda"nı o vaxta qədər dini əsər sayıb çap eləməmişdilər. "Gənclik" uşaqlar və yeniyetmələr ədəbiyyatı çap edən nəşriyyatdır. Birbaşa onun profili deyildi. Ancaq o vaxt Əliyar Səfərli Möhsün Nağıyevlə birgə mənə müraciət elədi ki, bu kitabı heç bir nəşriyyat çap eləmir. Mən böyük məmnuniyyətlə çap elədim. Mən böyük məmnuniyyətlə çap elədim.

Yaxud Bəhaəddin Ögəlin "Böyük Hun imperiyası" adlı böyük kitabını nəşr etdik. M.Ə.Rəsulzadənin portretindən, məqalələrindən tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin həyatı ilə bağlı bir çox kitabları "Gənclik" nəşr etdi. Nəşriyyatın öz profili yaddan çıxmamışdı.

Klassik və müasir ədəbiyyatın sanballı nümunələri nəfis şəkildə nəşr edilərək böyüməkdə olan nəsillərə çatdırılırdı. 50 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanasının" nəşr edilib başa çatdırılması, 15 cildlik "Azərbaycan folkloru", 25 cildlik "Fantastika və macəra ədəbiyyatı", 17 cildlik "SSRİ xalqları ədəbiyyatı" kitablarının çapına başlanması, bir sıra seriyaların nəşri çox şey deyir. "Gəncliy"in o illərdə sözün əsl mənasında ritmik fəaliyyəti böyük yaradıcılıq-istehsalat emalatxanasını xatırladırdı. Zaman keçdikcə o illəri xoş təəssüratla xatırlayıram və nəşriyyatda mənlə işləmiş direktorlara, redaktorlara, rəssamlara, korrektorlara – hamıya minnətdarlığını bildirirəm.

Biz Ülvi Bünyadzadəni nəşr etdik. Mən bu haqda xüsusilə demək istəyirəm. Onun indiyəcən dərc olunmuş bütün kitablarını da, "And"ını da oxumuşam. Doğrudan da o, çox böyük insan, çox böyük gənc idi. Onun haqqında hələ 1991-ci ildə "Qələmini qanına batıran şair" adlı bir şeir yazmışam. Orada da dediyim kimi, mən onu sağlığında görməmişəm, sağlığında nəşriyyatımıza gəlməyib. Elə gözəl əsərlərin müəllifi heç bir mətbuata müraciət etməyib. Ondan çox-çox istedadsızlar nəşriyyatın qapılarını döyürdü. Mən Ülvini xatırlayanda nədənsə Şandor Petefi yadıma düşür. Petefi dünya ədəbiyyatına daxil olan çox böyük yazıçılardan biridir. Cəmisi 26 il yaşayıb. Ülvi isə 20 il yaşayıb. Onların həyatı, taleləri arasında çox oxşarlıqlar var. Petefi də gözəl şeirlər, gözəl nəsr əsərləri yazıb, çox tərcümələr edib, publisistika yazıb. Və Ülvi də 20 yaşında onların hamısını keçib. Şeir də, nəsr də, publisistika da yazıb, dünya ədəbiyyatının görkəmli sənətkarlarından tərcümələr edib. Şandor Petefi Macarıstanın azadlığı uğrunda vuruşlarda həlak olub, Ülvi də Azərbaycanın azadlığı uğrunda vuruşlarda həlak olub. O, mənə çox əziz şairdir, əziz bir gəncdir, əziz bir azəri oğludur. Məhz onun həyatı bizim həm ədəbi gəncliyimizə, həm də ümumiyyətlə gəncliyimizə nümunə olmalıdır. O, 1980-90-cı illər ədəbiyyatının, əsl Azərbaycan gəncliyinin simvoludur. O, gənclər tərəfindən belə qəbul olunmalıdır, gənclər onu öyrənməlidirlər. O yaşayacaq – yaradıcı insan kimi də, qəhrəman oğul kimi də.

*"Xalq qəzeti"*
*17 fevral 1999-cu* il

## GÖYÇƏ AŞIQ MƏDƏNİYYƏTİNƏ BİR BAXIŞ

Göyçə mahalı aşıq mədəniyyətimizin yaranış ocağı kimi həmişə yüksək sayılıb. Elə bu maraqla da ustad Aşıq Ələsgər ocağının tanınmış varisi filologiya elmləri namizədi İslam Ələsgərovla "Göyçə aşıq məktəbi" mövzusunda söhbət aparmaq niyyətində olduq.

*– İslam müəllim, bu bir həqiqətdir ki, Azərbaycan aşıq sənəti başqa yerlərə nisbətən Göyçə mahalında daha çox artmış, yüksək səviyyəyə qalxmışdır. Bunun sirri nədədir?*

– Burada təəccüblü elə bil şey yoxdur. Qarabağda muğamat, digər ərazilərə nisbətən inkişaf edib, zirvəyə qalxdığı kimi, Göyçədə də aşıq sənəti böyük yaranış tapmışdır.

*– Hər hansı bir sənətin yaranışı həmin sənətin varlığı üçün təbii şəraitin olması ilə aydınlaşır.*

–XIX əsrin ikinci yarısı və XX əsrin birinci rübü Göyçədə aşıq sənətinin yetkinləşmə dövrüdür. Bundan əvvəlki vaxtlarda olduğu kimi, bu dövrdə də Göyçədə tar, kaman, qaval, qarmon, qoşanağaradan istifadə edilməmişdir (son dövrlərə qədər adlarını çəkdiyimiz musiqi alətləri bu mahalda yox dərəcəsində idi). Qədim türk torpağının bu bölgəsində əsas musiqi aləti saz, zurna, balaban və dəf (nağara) olmuşdur. Toylarda və digər xeyir işlər münasibəti ilə düzəldilən şənliklərdə zurnaçılar dəstəsi ancaq oyun havaları ilə xalqa xidmət etdikləri halda, aşıqlar bununla yanaşı, dastan söyləmək qaravəlli danışmaq, qoşma, divani, təcnis, müxəmməs, gəraylı və digər şeirləri sənətkarlıqla ifa etdiklərinə görə, meydan saza verilmişdir. Onu da demək lazımdır ki, el içində aşıqlara olan tələb, onlara edilən hörmət, eyni zamanda maddi maraq çoxlarını bu sənətə çəkib gətirmişdi. Az bir zaman içərisində Göyçədə onlarla saz sənətkarları yetişmişdir. Şübhə yoxdur ki, hamı bu müqəddəs sənətə eyni səviyyədə yiyələnə bilməzdilər. Bunların içərisində bütün varlığı ilə öz sənətinə bağlı olan, ustadnamələri ilə dinləyiciləri paklığa çağırıb,

onlara saf duyğular aşılayan, məclisi heyran edən, davranışı – əxlaqı ilə el arasında böyük ad-san qazanan aşıq olduğu kimi, belə keyfiyyətlərdən məhrum olan, bu sənətə yalnız bir qazanc mənbəyi kimi baxan, "Çömçənin başına qıl dolandıran"ları da az deyildi.

Aşıqların şöhrətlənməsində əsas meyar tamaşaçıların (dinləyicilərin) tələbinin ödənilməsi idi. O zaman hər "aşığam" deyən şənlik məclisi apara bilməzdi. Çünki çox həssas olan, bu sənətin qədir-qiymətini bilən dinləyicilər yüz dəfələrlə eşitdiklərinə görə, dastanları öyrənmiş, şeirləri əzbərləmişdilər. Dastanları yaxşı danışa bilməyən, sözləri düzgün olmayan oxumayan aşıqların səviyyəsi dinləyicilərinkindən aşağı olduğuna görə, onlar çox zaman şənlik məclislərinə girməyə cəsarət etmirdilər. Beləları ya sazı yerə qoyub, bu peşədən əl çəkməli, ya da aşıqların yanında bir neçə il əməlli-başlı təlim alıb püxtələşməli idilər.

– Göyçə aşıq ədəbi məktəbinin özünü tapmasında Aşıq Alının, xüsusən Aşıq Ələsgərin çox böyük əməyi olduğunu hamı bilir. Siz, həm də onu araşdıranlardan biri kimi, şəxsən Aşıq Ələsgərin bu sahədəki xidməti haqqında nə demək istərdiniz?

– Aşıq Ələsgər öz sənətinin çox məsuliyyətli olduğunu başa düşmüş, öyrəndikcə öyrənməyin vacibliyini ömrü boyu unutmamışdır. Azərbaycan aşıq sənətini bütün incəliklərinə qədər mənimsəyib, onun zirvəsinə yüksələn Aşıq özü haqqında:

*Şəyirdlikdə can çürütdüm,*
*Hərgiz ustad olmadım.*

Yaxud:

*Yazıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım.*

– deyərək, hələ də özünü ustad hesab etmir və öyrənməyə ehtiyacı olduğunu söyləyir.

Aşıq Ələsgər öz şəyirdlərinə qarşı da çox tələbkar olmuşdur. O, şəyirdlərinə həmişə deyərmiş ki, aşıqlıq çox çətin peşədir. Aşığın dilində "bilmirəm" sözü olmamalıdır.

Aşıq Ələsgər hər kimi ki, şəyird götürdü, onu kamil bir aşıq kimi yetişdirməyincə, yanından buraxmaz, təkbaşına aşıqlıq etməyinə icazə verməzmiş. Onun icazəsi olmadan şəyirdi Aşıq Nağının və Aşıq Mikayılın yarımçıq halda aşıqlığa başlaması və rast gəldikləri çətinliklərdən sonra, yenidən qayıdıb bir neçə il Aşıq Ələsgərin yanında bu sənətin incəliklərini öyrənmək cəhdləri böyük ustadın tələbkarlığının nə qədər haqlı olduğunu bir daha göstərir. (Bu barədə "Aşıq Ələsgər Şınıq səfərində" və "Şəmkirli Aşıq Hüseynin Aşıq Ələsgərlə görüşü" adlı dastan-rəvayətlərində daha geniş danışılır). Şəyird qarşısında öyrənmək tələbini çox ciddi şəkildə qoyan ulu ozan, şəyirdin bir aşıq kimi yetişməsi işində ustadın daha çox məsuliyyət daşıdığını göstərir, şəyirddə üzə çıxan hər hansı bir kəm-kəsiri, eyni zamanda, ustadın nöqsanı hesab edirdi. Odur ki, "yarımçıq" aşıqlara qarşı qəzəb ifadə etdiyi bir divanisində onların ustadının kim olması qüdrətli sənətkarı maraqlandırır:

*Soruşur Aşıq Ələsgər:*
*Dərsi kimdən almısız?*
*Əbəs yerə saz götürüb,*
*Elə qovğa salmısız!...*

Çoxları ondan dərs almağa, aşıq sənətinin sirlərinə yiyələnməyə can atırdılar. Hələ XIX əsrin sonlarında dediyi bir qoşmasında 12 şəyird yetişdirib yaxın-uzaq ellərin xidmətinə verdiyindən qürurla söhbət açır. Aşıq Ələsgərdən sonra Göyçədə ərsəyə gələn saz sənətkarları böyük ustadın şəyirdləri və şəyirdlərinin şəyirdləridirlər. Aşıq Ələsgərin adı çəkiləndə Göyçə, Göyçənin adı çəkiləndə Aşıq Ələsgər yada düşür.

*– Aşıq Ələsgərin şəyirdlərindən kimlərin adlarını çəkə bilərsiniz?*

– Aşıq Ələsgərin oğlu Aşıq Talıbın və qardaşı oğlu Aşıq Nəcəfin söylədiklərinə görə, Göyçənin Daşkənd kəndindən Aşıq Nəcəf, Qızılvəng kəndində Aşıq Mustafa və Aşıq Yusif, Hüseynqulağalı (Nərimanlı) kəndindən Aşıq İsa və Aşıq Mikayıl, Zod

kəndindən Aşıq Qasım və Aşıq Ağayar, Böyük Qaraqoyunlu kəndindən Aşıq Əsəd, Böyük Məzrə kəndindən Aşıq Qiyas, Zərzibil kəndindən Aşıq Nağı və Aşıq Sayad, Sarıyaqub kəndindən Aşıq Məhəmmədəli və Aşıq Paşa, Kəsəmən kəndindən Aşıq Nağı, Qızılbulaq (Çaxırlı) kəndindən Aşıq Hüseynalı, Ağkilsə kəndindən Aşıq Qurban... bu qədim, ulu saz sənətinə Aşıq Ələsgərin öyrətməsilə yiyələnmişlər.

*– Bu ocağın bir nümayəndəsi kimi, siz Aşıq Ələsgərin atasının, babasının və Ələsgərdən sonra bu ocaqda dünyaya göz açıb boya-başa yetişənlərin saza-sözə baxışı haqqında nə deyə bilərsiniz?*

– Bu ocaqda saza-sözə maraq Aşıq Ələsgərin babası Allahverdidən gəlir. Aşıq Ələsgərin atası Alməmməd sazla məşğul olmasa da, bir el şairi kimi xalq arasında tanınırdı. Ocaqda ilk dəfə saz götürüb, aşıqlıq edəni Aşıq Ələsgərdir.

Alməmməddən törəmiş olanların heç birini sazdan ayrı, sözdən ayrı görmək olmaz. Hansı ailəyə qədəm qoysan, evdə ilk növbədə saz diqqətini cəlb edər. Bu ocağın nümayəndələrinin əksəriyyəti saz çalmağı bacarmışdır və bacarır. Saz çalanlardan doqquz nəfəri (Ələsgər, Qurban, İman, Talıb, Nəcəf, Musa, Cəmşid, Əli, Haqverdi) aşıq kimi tanınmış və xalqa xidmət etmişdir. Kənddə müəllim işləyən Haqverdi indinin özündə babasının müqəddəs sənətini davam etdirir, sazı-sözü ilə şənlik məclislərimizi zinətləndirir. Aşıq Ələsgərin nəticələri olan Füzuli və Xətai bu sənətə o dərəcədə ürəkdən bağlanıblar ki, sazbəndliyi özlərinə peşə seçiblər. Saz çalması ilə dinləyiciləri heyran edən Füzuli hazırda Xanlar şəhərindəki musiqi məktəbində saz havalarının incəliklərini gənc nəslə öyrədir.

Aşıq Ələsgərin yaxın qohumlarından şeir yazanların sayı 20-dən çoxdur. Bunların bir neçəsinin əsərlərindən bəzi nümunələr 1991-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən buraxılan "Ələsgər ocağı" adlı kitabda oxuculara təqdim edilmişdir.

*– Bəs, bugünkü aşıq məclisləri, radio və televiziyada*

*aşıqlarla bağlı olan verilişlər sizi qane edirmi?*

– İndi toy və digər şənlik məclislərinə dəvət olunan aşıqlar (bunların bəzilərinə "aşıq" deməк qəbahətdir) üçün lazımi şərait yaradılmır. Çox zaman bunlar şənlik süfrəsinin ətrafında çalıb-oxumalı, süfrə başında əyləşənlərin sifarişlərini yerinə yetirməli olurlar ki, bu da aşığın sərbəstliyini əlindən alır.

Məsələ bununla bitmir: çox zaman zövqsüz, yaxud da içkinin təsirindən ağlını itirmiş olan sifarişçilər aşığı "Səkinə", "Dayıqızı", "Lay-lay" təki mahnıları oxumağa məcbur edirlər. Aşıq oxumaq istəməyəndə, təhqirlərə məruz qalır. Belə olduğu halda, hansı sənətdən danışmaq olar?! Onu da qeyd edək ki, aşıq adı daşıyan, pul hərisi olan, fırıldaqçı saz dınqıldadanları belə içki məclisləri çox razı salır. Çünki huşu-başı üstündə olmayan sifarişçiyə nə kimi söz oxusan, qəbuludur. Çox zaman sifarişin yerinə yetirilib-yetirilmədiyindən xəbəri də olmur. Bəzən belə məclislər idarə olunmadığına görə çox uzanır, axırda vəziyyət elə gətirir ki, süfrə başında əyləşənlər əlbəyaxa olurlar; azmış butulka tulamazlısından aşığa da pay çatır. Odur ki, aşıqlar, eləcə də xanəndələr məclisin uzanacağından və nalayıq hərəkətlər törədiləcəyindən ehtiyat edir və çalıb-oxumağa saatla vaxt müəyyənləşdirir; vaxt bitən kimi, haqqını alıb, aradan çıxmağa çalışırlar. Belə bir vəziyyətdən necə razı qalmaq olar?!

Bilmək lazımdır ki, həqiqi aşığın ən böyük zəhməthaqqı, ən böyük mükafatı, ona qoyulan ən böyük hörmət onun sazına-sözünə dinləyicilərin həvəslə qulaq asmalarıdır. Belə olanda aşıq da, əvvəlcə dediyimiz kimi, məsuliyyət hiss edir, sözləri düzgün ifa etməyə çalışır və şövqlə çalıb-oxuyur.

*– Vaxtilə böyük maarifçi Həsən bəy Zərdabi yazırdı: "Bir baxın bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə bir hala gəlirlər ki, bə istilahi-türk: "ətin kəssən də, xəbəri olmaz".*

– Bəli, o vaxtlar aşıqlarımızın keçirdiyi şənlik məclislərində spirtli içki gözə dəymirdi. Aşıq əvvəlcədən haqqını danışmırdı.

Məclisin uzanması heç kəsi narahat etmirdi. Aşığın söylədiyi dastan bir gecədə bitməsəydi, sonrakı gecələrdə də xalq böyük məftunluqla aşığı dinləyirdi.

*– İndi aşıqlarımız iki-üç gecəlik dastanı bir-iki saatda danışıb qurtarır. Maraqlı epizodlar, qiymətli sözlər ixtisar edilir. Beləliklə də, yüz illərdən bəri qorunub saxlanan qiymətli mənəvi sərvətimizi itiririk.*

– Radio və televiziyada saz havalarının vaxtaşırı səsləndirilməsini, son zamanlarda ayrı-ayrı aşıqlarımız haqqında "Ustadnamə" və "Sarıtel" adlı verilişləri qiymətləndirmək olar. Lakin efirə və ekrana gedən dastanlarımız qənaətbəxş deyil.

Dastanlarımızın radio və televiziya vasitəsi ilə bu şəkildə xalqa təqdim olunması xeyirdən çox, ziyan verir. Unudulmamalıdır ki, yarı-yarımçıq şəkildə lentə alınan bu dastanlar (əgər "dastan" demək mümkündürsə) fonetikamızın rəflərində gələcək nəsillərə əyani bir vəsait kimi saxlanılır.

*– Elə isə radio və televiziya verilişlərinin bu sahədəki nöqsanlarını, kəm-kəsirlərini düzəltmək üçün siz nə təklif edərdiniz?*

– Başqa sahələrdə olduğu kimi, xalq dastanlarımızın lentə alınmasında da çox gecikmişik. Gərək maqnitofon respublikamıza gəlib çıxdığı və televizorun Azərbaycanda işə düşdüyü günlərdən dastanlarımızın bütövlüklə lentə yazılması qayğısına qalınaydı. O zaman dastanlarımızın hamısını dəqiqliyi ilə hafizəsində cəmləmiş olan bir çox qocaman aşıqlarımız həyatla vidalaşmamışdı.

Heç olmasa, indi bu işə başlamaq, ustad yanında yaxşı təlim almış qabiliyyətli aşıqlarımızı yaddaşına müraciət edib dastanlarımızı bütövlüklə lentə almaq lazımdır. Qoy nə qədər vaxt aparır-aparsın. Bura toy məclisi deyil ki, sərxoşlar qarışdıra... İri həcmli dastanlarımızı bir neçə seriyada tamaşaçılara göstərmək olar. Televiziyada çox vaxt aparacağına görə narahat olmaq lazım deyil. Bunu açıq-saçıq və bayağı hərəkətlərlə gənclərimizin əxlaqını pozan, tamaşaçılarda ikrah hissi doğuran çoxseriyalı kinolara sərf olunan gen-bol vaxtın bir hissəsi hesabına etmək mümkündür.

*"Ədəbiyyat qəzeti" 30 sentyabr 1994-cü il*

# İÇƏRİŞƏHƏRDƏ YAŞANAN FOLKLOR DÜNYASI

Dədə Qorqud adına "Folklor" Elmi-Mədəni Mərkəzi 1994-cü ilin mart ayından Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərir. 1995-ci ilin yanvarından isə Azərbaycan MEA Rəyasət heyətinin qərarı ilə hüquqi şəxs statusu almışdır. Bir il sonra Mərkəzin strukturunu təkmilləşdirmək, elmi-tədqiqat istiqamətini genişləndirmək və gücləndirmək məqsədilə, Azərbaycan folklor arxivini və fondunu yaratmaq istiqamətində xeyli işlər görüldü. "Azərbaycan folklor antologiyası" silsiləsindən növbəti cildləri hazırlayıb nəşr etmək səlahiyyəti də "Folklor" Elmi-Mədəni Mərkəzinə həvalə edildi. YUNESKO xətti ilə nəşr olunacaq bir cildlik "Azərbaycan folkloru antologiyası" da bu elmi mərkəzdə hazırlanır. 1961-ci ildən nəşrə başlayan "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" seriyasından kitabların daha dörd cildi (XIII-XI) bu Mərkəzdə hazırlanıb nəşr olundu. "Dədə Qorqud" dərgisinin nəşri də Mərkəzin elmi və poliqrafik uğurlarındandır.

Bu və ya digər fəaliyyətləri, səviyyəli işləri əsas yaradıb ki, Mərkəzə – Milli Elmlər Akademiyasının müstəqil institutu statusu verilməsi məsələsi qaldırılsın.

"Folklor" Mərkəzinin direktoru, filologiya elmləri namizədi, folklorşünas Hüseyn İsmayılov gördükləri işlərdən daha ətraflı, əhatəli söhbət açdı:

– *Əvvəlcədən qeyd edim ki, doqquz ilə yaxın olan fəaliyyət dövrümüzdə folklorumuzun toplanması, nəşri, tədqiqi və təbliği sahəsində saysız-hesabsız işlər görmüşük.*

Gördüyümüz bütün işlərdə dövlətin qayğısını həmişə hiss etmişik. Bu isə birbaşa möhtərəm Prezidentimiz Heydər Əliyevin ədəbiyyata, sənətə-sözə, milli-mənəvi varlıqlarımıza olan məhəbbətindən irəli gəlir. Məhz dövlət başçısının bizə verdiyi dəctəkdən – elmə – milli-mənəvi dəyərlərimizə yüksək qiymətdən

ilhamlanaraq canı-dildən çalışmışıq və çalışırıq. Biz İçərişəhərdə yerləşmişik. Qədim İçərişəhərdə də "Folklor" elmi dünyası üçün yeni bina tikilir. Bu uyğarlıq, bu mütənasiblik ancaq yüksək bədii zövqün effekti ola bilər. Bu və bu kimi yüksək nəticə vermiş işlərimizin ilhamvericisi məhz görkəmli dövlət xadimi Heydər Əliyev olmuşdur.

1994-cü ildə "Folklor" Elmi-Mədəni Mərkəzini formalaşdırarkən onun tərkibində şöbələr və folklor arxivi təsis etdik. Bu da tarixi zərurətdən doğan aktual bir problem idi. Çünki folklorumuzun böyük bir hissəsi hələ də toplanmamış, araşdırılmamış və nəşr olunmamış vəziyyətdə qalırdı. Bu illər ərzində apardığımız gərgin və səmərəli işlər nəticəsində folklor arxivi yaradıldı və indi də zənginləşməkdədir. Bu işlər görülən zaman əsas qaynaq kimi aparıcı yeri əməkdaşlarımızın folklor ekspedisiyaları zamanı yazıya alınmış, video və audio lentlərə köçürülmüş materiallar tutur. Bundan başqa ayrı-ayrı fərdi arxivlərdə olan bir çox qiymətli folklor örnəkləri də mərkəzi arxivdə cəmləşdirilmişdir. 1995-ci ildən fəaliyyətə başlayan arxivə bu dövr ərzində 518 qovluq folklor materialı daxil olmuşdur. Bunların arasında təxminən 70 dastan, 700-ə qədər nağıl, külli miqdarda atalar sözləri və məsəllər, tapmacalar, bayatılar, əfsanələr, rəvayətlər, ağılar, alqışlar, qarğışlar, aşıq şeirləri, lətifələr, qaravəllilər, oxşamalar və s. folklor janrına aid örnəklər vardır. Bir cilddə "Dastanlar", üç cilddə isə "Nağıllar" tərtib edilib çapa təqdim edilmişdir. Mərkəzin elmi arxivindən respublikanın folklorşünasları da istifadə edirlər.

Lord Beyts adına Beynəlxalq Folklor Mərkəzinin VI Beynəlxalq elmi simpoziumu "Dədə Qorqud – 1300" yubileyi şərəfinə Bakıda keçirilmiş, Azərbaycan MEA-da İkinci Beynəlxalq Azərbaycan-Türkiyə Kollokviumu toplanmış, respublikanın bir çox bölgələrində folklor müşavirələri təşkil olunmuşdur. Bizim qurum 2000-ci ildə Bişkek şəhərində yerləşən Beynəlxalq Epos Mərkəzinin üzvlüyünə qəbul edilmişdir. 2002-ci ildə

Türkiyənin Selevki şəhərində keçirilən ”Uluslararası folklor simpoziumunda" iştirak etmiş, mərkəzi təmsil edən əməkdaşlar qrupu yüksək diplomla mükafatlanmışlar. Bir sıra xarici ölkələrin oxşar qurumları ilə, o cümlədən YUNESKO kimi mötəbər təşkilatla birbaşa əlaqə yarada bilmişik. Hazırda “Azərbaycan (türk) mifologiyası: nəzəriyyəsi və təcrübəsi”, “Azərbaycan folklorunun toplanması, tədqiqi və nəşri”, “Qorqudşünaslıq: nəzəriyyəsi və təcrübəsi” problemlərini əhatə edən otuza yaxın iş üzərində elmi araşdırmalar aparılmaqdadır. “Koroğlu” eposunun yeni tərtibdə rusca nəşri də uğurlu ədəbi-elmi hadisədir.

Bütün bunlarla yanaşı bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, bu Mərkəzin yaradılmasında ədəbiyyatşünaslıq elmimizdə və ədəbi tənqidimizdə böyük xidmətləri olmuş mərhum akademik Yaşar Qarayevin qayğısı, diqqəti çox olmuşdur.

Yuxarıda da qeyd etdiyim kimi, işimizin aparıcı istiqamətlərindən birini toplama, tərtib və nəşr işləri təşkil edir. 100 cildliyi nəzərdə tutulmuş “Azərbaycan folkloru antologiyası” seriyasından artıq yeddi cild oxucuların ixtiyarındadır. Bu seriyadan 10-12 cild kitabımız da nəşrə hazırdır. Qalan cildlər üzərində isə işlər aparılır. Bir tədqiqatçı-folklorşünas kimi deyə bilərəm ki, ötən doqquz ilə yaxın zamanda gördüyümüz işlər kəmiyyətcə də, keyfiyyətcə də ürəkaçan olmuş, ədəbi tariximizdə xüsusi yer qazanmışdır. Bunlar da əsas verir ki, “Folklor” Elmi-Mədəni Mərkəzi Müstəqil Folklor İnstitutuna çevrilsin.

R.S. Yazı hazırlanan ərəfədə mərkəzin direktoru, folklorşünas-alim Hüseyn İsmayılovdan aldığımız məlumata görə, Azərbaycan MEA Rəyasət Heyətinin qərarına əsasən “Folklor” Elmi-Mədəni Mərkəzinə müstəqil “Folklor” İnstitutu statusu verilmişdir. Bu münasibətlə kollektivi ürəkdən təbrik edirik.

*“Xalq qəzeti”*
*11 aprel 2003-cü il*

# "SARITEL" MƏNƏVİ AĞRILARIMIZIN MƏLHƏMİDİR

,

Hər şənbə günü "Sarıtel"i sevənlər, həftəboyu onun yolunu səbirsizliklə gözləyənlər saat 21.30-da radionun səsini bir az qaldırıb, ona daha yaxın əyləşirlər. Bir an ötür, "Baş sarıtel"in ruh oyadan melodiyası, sonra verilişin daimi aparıcısı, folklorşünas-alim Elxan Məmmədlinin doğma səsi eşidilir:

– Xoş gördük, istəkli dinləyicilər. "Sarıtel" yenə də saz-söz dolu boxçasıyla görüşünüzə gəlib. Gəlib ki, könlünüzü ovutsun, söhbətinizə şəkər qatsın, ötənləri-keçənləri sazın ruh səsiylə yaddaşlarda göyərtsin...

"Sarıtel" düz beş ildir ki, beləcə hər həftə bizimlə baş-başadır. Sonsuz sevgiylə anılan, qarşılanan "Sarıtel"in bayram yaşına biganə qala bilməzdik və nəhayət, folklorşünas-alim, sazın bütün elmini, sənət sirlərini incəliklərinə qədər dərindən bilən, saz aşiqi, həmkar dostumuz Elxan Məmmədli oxucularımızla həmsöhbətdir.

*– Elxan müəllim, saza bu qədər məhəbbətlə, ehtiramla bağlanmağınızın sirri nədədir? Sizin sazla-aşıq sənətiylə bağlı hər söhbətinizi dinləyəndən sonra qənaətim bu olur ki, Elxan müəllimin həyat meyarı sazdır, ruh oynadan, ruh yandıran, ruh sevindirən saz havalarıdır. Bir belə sevgi hardandır?*

– Əvvəla, xoş, sevincli günlərimizə şərik olduğunuz üçün çox sağ olun. Bu ehtiramınızla bayramıma bayram qatırsınız. Saz sevgimə gəldikdə isə, bunun sözlə ölçüləsi deyimi yoxdur. Gözümü dünyaya açandan evimizdə saz görmüşəm. Atamın sazı olub və onu da heyranlıqla dinləməkdən doymamışam. Azərbaycan dastanlarını bütünlüklə sinəsində yaşadan babam olub, nənəm olub. Bundan başqa, doğulduğum Borçalı mahalının Faxralı kəndində adlı-sanlı aşıqlar, el şairləri, dastan biliciləri yaşayıblar. Onların apardıqları məclislərin şahidi olmuşam. Söylənən el ədəbiyyatı nümunələrinə göz qırpmadan qulaq

asmışam. Belə bir əhatədə böyüsəm də, folklorçu olacağımı, ömrümü-günümü folklora bağlayacağımı çox gec başa düşmüşdüm. Babamın-nənəmin bildiklərindən tamsındım, amma tam köçürə bilmədim. Vaxtilə Bakı Dövlət Universitetində təhsil alarkən müəllimimiz, folklorçu-alim Vaqif Vəliyev kənd uşaqlarına yay tətili zamanı evə – kəndə gedərkən orada Orijinal folklor nümunələri toplamağı tapşırdı. Onda iki-üç gecədə babamdan-nənəmdən 1200 bayatı yazdım. Onlardan 400-ü Orijinal idi. Həmin bayatılar sonralar EA Ədəbiyyat İnstitutunun nəşr etdiyi "Azərbaycan bayatıları" (1984) kitabına salındı. Belə bir mühitdə böyüyəsən və saza bağlanmayasan, vallah, günahdır. Xoşbəxtliyim odur ki, mənim sazım var, dünyanın o başından sorağı gələn qədim mədəniyyətim var. Bunlara görə qürurlanmağa, başımızı uca tutmağa haqqımız var.

Hələ tələbə vaxtımdan içimdə bir hayqırtı yaranmışdı ki, sazı geniş yayaq, folklorumuzu yaşadaq. Baba-nənələrimizin yaddaşını töküşdürək, bizə lazım olanı götürək. Atam 1952-ci ildə iri bir saz bağlatdırıb, onu hələ də saxlayıram. Hərdən özü də çalır. Niyə hərdən deyirəm? Çünki atam indi "Dədə Qorqud ensiklopediyası" ilə məşğuldur. Söz ki, düşüb, deyim, atam, tanınmış folklorçu-alim Hüseynqulu Məmmədov Dədə Qorqudla bağlı sanballı monoqrafiya hazırlayıb. Çox güman ki, indi keçirilən yubiley günlərində həmin əsər nəşr olunacaq.

Universiteti bitirən illərim idi. Məndə belə bir fikir qətiləşdi ki, xalqın milli folklor ədəbiyyatını özünə çatdırmaq üçün nə isə etməliyəm. Həmişə minnətdarlıqla deyirəm ki, bu istəyimin çin olmasında tanınmış yazıçımız Mövlud Süleymanlı, onun yaratdığı "Bulaq" (1971) verilişi əsas rol oynayıb. "Bulağ"ın təxminən üçüncü sayında Mövlud Süleymanlı məni bu verilişdə dinləyicilərə təqdim etdi. İlk verilişimi babamın-nənəmin səsiylə hazırladım. Beləcə, mütəmadi olaraq düz on il "Bulağ"ın ayda bir verilişini mən yazdım. Sonra Mövlud Süleymanlı bu sahədəki işimlə bağlı həyatımda ikinci bir dönüş yaratdı. O, Azərbaycan

televiziyasında "Ustadnamə" verilişini aparmağımı təklif etdi. Bir ildən artıq davam edən bu verilişdə tamaşaçılara aşıqlarımızı təqdim etdim. Elə bu ara Mövlud Süleymanlı teleşirkətin sədr müavini (radio üzrə) təyin olundu və məni yenidən radioya dəvət etdi. Birlikdə belə qərara gəldik ki, xalq sənətinə üz tutan söhbət-verilişlər quraq – "Sarıtel" belə yarandı.

*– Maraqlıdır, bu verilişi niyə məhz "Sarıtel" adlandırmısınız?*

– "Sarıtel" elə bir saz havasıdır ki, orada qəmlə dəm paralel gedir. "Baş sarıtel" sevənə də, sevilənə də, sevinənə də, kədərlənənə də – ruha doğmadır. Bu hava insanın daxili aləminin hər cür vəziyyətini əks elətdirə bilir. İstəyirsən qəmli ol, ya da dəmli, fərqi yoxdur. Bax, o havanın böyüklüyü bundadır. Bir aparıcı kimi də bu saz havası məni ruhlandırır və verilişin ruhuna tam kökləyir. Ona görə də "Sarıtel" nə qədər yaşayacaqsa, verilişin əvvəlində də, sonunda da o hava səslənəcək. Yeri gəlmişkən bir daha xatırladım ki, həmin ifa aşıq Xanlar Məhərrəmovundur. İlk müsahibim isə aşıq Mahmud olub. Verilişimizə xeyir-duanı o kişi verib. "Sarıtel" efirə hazırlanan gün təsadüfən radioya gəlmişdi. Neçə illərdir ki, yaradıcı münasibətlərimiz var, dostluğa, sənətə halal adamdır.

*– Elxan müəllim, yəqin özünüz də xəbərdarsınız ki, "Sarıtel" populyar, özü də dinləyicilərin ehtiyac duyduğu radio verilişlərimizdən biridir. Elə isə sənətkarlar üçün "Sarıtel"ə "düşmək" çətindirmi?*

– Mən müsahiblərimi, demək olar ki, verilişlərim vasitəsilə dəvət edirəm. Özü də dəfələrlə, adla çağırıram. Əksər vaxt belə olur. Yeri gəlmişkən, "Sarıtel" aşıq qismi arasında böyük bir dostluq, körpü yaradıbdır. Bir misalla fikrimi daha da aydınlaşdırmaq istəyirəm. Təsəvvür edin ki, sənətin də özünün iqlimi var. Göyçədə, Borçalıda saz balabanladırsa, Şirvanda qoşa nağara, nağara, qara zurna, balabanladır. Bunların da qanunauyğunluğu var ki, niyə belədir. Ona görə də bu barədə mübahisə

edənlərə başa salmaq lazımdır ki, bu sənət dədə-babadan belədir. Əgər Şirvanda yaşayan əhalinin estetik zövqünü saz belə ifadə edirsə, belə oxşayırsa, ona niyə ağız büzülməlidir. "Sarıtel" bölgələr arasındakı fərqi izah edərək, dostluq meydanı qurub.

Doğrusu, indiyəcən 15 aşıq öz sənət möcüzəsiylə məni heyrətləndirib: Aşıq Sadiq Sultanov, Xındı Məmməd, Əmrah Gülməmmədo, Hüseyn Saraclı, Əkbər Cəfərov, Aşıq İmran, Mikayıl Azaflı, Ədalət, Hüseyn Cavan, Nurulu Teymur... Elə sənətkar var ki, söz-sənət yükü ağırdır. Yükü olan sənətkarla danışmaq asandır. Müsahib də var ki, gözəl çalır, gözəl oxuyur, amma danışmaq qabiliyyəti yoxdur. Ona təkcə çalmaq, oxumaq azdır. Babalarda gəlmə dastan ənənəmiz var. Özündən əvvəlkiləri mükəmməl biləndə sözün, fikrin çox olur.

*– "Sarıtel" dinləyicilərinin ona olan münasibətindən xəbər tuta bilirmi?*

– İndiyəcən "Sarıtel" ünvanlı 2 minə qədər məktub almışam. Bunların arasında qəribədir ki, qaçqınların yazdığı məktublar daha çoxdur. Vətən, yurd, ev-ocaq itirənlər sanki saz aclığı keçirirlər. Haradasa saz onları ovundura bilir və bu hiss hamımıza doğma və təbii görünür. Elə məktub ar ki, məni ağladr. Sadəcə olaraq, oxuya bilmirəm. Çadırlarda yaşayanlar yazırlar. Bir dəfə bir qaçqın qız yazmışdı ki, "mən "Sarıtel"ə həmişə qulaq asmışam. Evimiz, kəndimiz qrad yağışına tutulanda kənddən çıxdıq. Qaçarkən radiomuzu yerə basdırdım. Bir gün eşitdim ki, kəndimizdə erməni yoxdur. 20 km yolu gecəynən edən xəbərsiz kəndə qaçıb getmişəm, radionu basdırdığım yerdən çıxarıb yenə çadırımıza qayıtmışam. İndi yenə "Sarıtel"ə həmişəki kimi qulaq asıram". "Baş Sarıtel"də fikir verin, qaçqınlıq, didərginlik, ağır gün-güzaran ovqatı, yurd göynərtisi duyulur.

*– Elxan müəllim, söz yox ki, ötən beş ildə çox sənətkarlarla söhbətdaş olmusunuz. Onların səs-söz-sənət boxçalarını töküb-töküşdürmək fürsətindən gen-bol istifadə etmisiniz. Hər halda bir söhbət üçün 55 dəqiqə efir vaxtı az deyil. Maraqlı,*

*yaddaqalan xatirələrin, günlərin, söhbətlərin şahidi, təşəbbüs-karı, yaradıcısı olmusunuz. Üst-üstə toplasan, mükəmməl bir antologiya materialı artıq hazırdır. Bu istiqamətdə işlər nə yöndədir, ötüb-keçən söhbətləri qoruya bilibsiniz, yoxsa...*

– Yaralı mövzuya toxundunuz. Deyim ki, radionun özündə təchizat çox çətindir. Çox vaxt lent çatışmazlığından gözəl verilişlər pozulur. Bu nə verilişin aparıcısından, nə lentə məsul adamlardan, nə hə heç kəsdən asılı deyil, sadəcə, texniki təchizat sarıdan yaranan böhrandır. Mən elə ilk gündən "Sarıtel"in qorunub saxlanması üçün belə bir çıxış yolu seçdim: Bütün verilişlərimi hazırda istifadə etdiyimiz reportyorla adi kassetlərə yazırıq. Veriliş efirə gedəndən sonra həmin kassetləri Dölət Səsyazmalar Arxiinə təhvil verirəm. Onlar da uzunömürlü lentlərə köçürürlər. Orada əbədiləşir və Dövlət əmlakı kimi qorunur. Həmin lentlərin tam təhlükəsizliyi üçün hər 4 ildən bir üzü təzədən köçürülür. Radiofondda da elə lentlər var ki, vaxtaşırı istifadə olunduğundan heç kəsin haqqı yoxdur ki, onları pozsun. Bu günlərdə saymışam – radiofondda "Sarıtel"in səksən verilişi mühafizə olunur. Qalanı isə, dediyim kimi, Dövlət Səsyazmalar Arxivindədir. Eyni zamanda bütün verilişlərin kartotekasını yazaraq kassetlərdə şəxsi arxivimdə saxlayıram. Xatırladım ki, indiyəcən 240 verilişimiz efirə gedib. Onun da qoy lap qırxı təkrar olsun. Deməli, bu günəcən 200 sənətkarı – aşığı, el şairini, zurnaçını, sazbəndi dindirmişəm.

*– Elxan müəllim, düz beş ildir "Sarıtel"i mütəmadi olaraq izləyirəm. "Sarıtel" mənəvi ağrılarımızı, mənəvi narahatçılıqla-rımızı müəyyən zaman müddətinə yüngülləşdirir, son 8-9 ilin hadisələriylə başımıza gələn dərd-sərimizə şərik olur. Evimizin həmsöhbətinə çevrilən "Sarıtel"ə bu mənada minnətdarıq. Bir məsələ də var ki, "Sarıtel"ə qulaq asdıqca, aparıcı Elxan Məm-mədlinin müsahiblərinə verdiyi sualları dinlədikcə, saz-söz vur-ğunu kimi mənim də içimdə sizə verəcəyim xeyli suallar yara-nır... Görəsən, Elxan Məmmədlinin özü saz çala bilirmi? Elxan*

*Məmmədli "Sarıtel"in beş illik yubileyi günündə hansı havanı çalıb-oxuyar? Heç olmasa, aşıq müsahibləriylə deyişmək meylində olurmu və digər saysız-hesabsız suallar arasında itib-batırsan. "Sarıtel"in hansısa bir sayına qonaq gəlib, bu suallarımı sizə verəcəyim əminliyini də içimdə yaşatmışam. Çünki efirdən də olsa, belə hiss edirəm ki, özünüz də "Sarıtel"in bircə dəfə müsahibi olmaq fikrində dolaşırsınız. Həssas dinləyici kimi bunu duymuşam.*

– Doğrusunu deyim ki, belə şey fikrimdən keçməsə də, ola bilsin söhbətlərimdə belə ehtiyac öz-özünə yaranır, sadəcə olaraq, mən hiss etmirəm. Amma indi görürəm ki, belə bir söhbət doğrudan da maraqlı olar. Bu verilişdə hansı havanı çala bilərəm – bəri başdan deyim – "Baş kök"dən aşağı düşə bilmərəm. "Baş Sarıtel"də o kökdədir və elə o havanı oxuyaram.

*– Bəlkə qalan sual-cavablarımızı "Sarıtel"in növbəti verilişinə saxlayaq. Sizə isə uğurlar, xoş söhbətlər, maraqlı, zəngin təəssüratlı sənətkarlarla görüşlər arzulayırıq.*

*"Xalq qəzeti"*
*26 dekabr 1997-ci il*

## NECƏSƏN, İRƏVAN TEATRI?

C.Cabbarlı adına Yerean Azərbaycan Milli Dövlət Dram teatrının 115 illik tarixi həyatından yazmışdıq. Bəs teatrın bu günkü vəziyyəti necədir, daha doğrusu, didərginlik həyatını necə yaşayır? Teatrın direktoru, əməkdar artist Vidadi Əliyev redaksiyamızın qonağı olarkən bu barədə söhbət etdik.

– Vidadi müəllim, bəlkə söhbətimizə teatrın 117 illik qısa tarixi xronologiyası ilə başlayaq. Elə bilirəm ki, söhbətimizin indiki məqamında bəzi tarixi faktları xatırlamağımız yerinə düşərdi.

– 1882-ci il aprelin 2-də göstərilən Məşədi İsmayılın "Tamahkarlıq düşmən qazanr" pyesinin tamaşası ilə İrəvan teatrının tarixi hesablanır. Əldə olan məlumata görə, İrəvan gimnaziyasının müəllimlərinin iştirakı ilə oynanılan bu tamaşa teatrın ikinci tamaşasıdır. Birinci tamaşa haqqında məlumat yoxdur. Azərbaycanlılarn müxtəlif dövrlərdə, eləcə də teatrın üç dəfə – 1918, 1948, 1988-ci illərdə deportasiya olunması teatrın tarixi haqqında məlumatların zəngin olmasına gətirib çıxarır. 1885-ci ildə İrəvana işə göndərilən F.B.Köçərli İrəvan teatrında tez-tez tamaşalar hazırlanmasına kömək edir. Bu dövrdə gimnaziyanın tələbəsi Rzayevin yazdığı "Könülsüz nigah" əsərinə tamaşa hazırlandı və dəfələrlə göstərilən bu əsər hər dəfə tamaşaçılar tərəfindən hörmətlə qarşılanırdı. 1895-ci ilədək İrəvanda işləyən F.B.Köçərlinin rəhbərliyi ilə M.F.Axundovun "Müsyö Cordan və dərviş Məstəli şah" və s. tamaşalar xalq arasında teatra böyük həvəs oyadır, yeni həvəskarları truppaya cəlb edirdi. Həmin həvəskarlardan da biri tamaşada Şəhrəbanı rolunda çıxış edən Yunis Nuri olmuşdur. O vaxtdan başlayaraq Y.Nuri əlli il teatrın təşkilatçısı, rejissoru, direktoru, aktyoru kimi fəaliyyət göstərir.

1928-ci ildən başlayaraq Dövlət teatrı kimi fəaliyyət göstərən İrəvan teatrında Yunis Nuri, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Bala Əfəndiyev, Məşədi Rzayev, Əşrəf

Yusifzadə (sonralar Gəncə teatrında işləmiş, xalq artisti) Yusif Ziya, Cəfər Əhmədov, Hüseyn Salmano, Həbib Məmmədzadə, Məmmədbağır Qaraxanov. A.S.Rzayev (həm də rejissor) Fatma Əfəndiyeva, Firəngiz Rzayeva, Fizzə Əliyeva və digər aktyorlar oynamışlar. Sonrakı illərdə yerli gənc kadrlarla yanaşı, peşəkar aktyorlar və rejissorlar da teatra işləməyə gəldilər. K.Kələndərli, Əli, Ətayə Əliyeva, Dağıstanlı, Əli, İmamverdi Bağırov, Məmmədbağır Qaraxanov, Əziz Süleymanov, Cəmil Əliyev, Sara Əliyeva, Gülzar Rəhimova, Abbasqulu Tağıyev, İ.Hüseynov, 30-40-c illərdə göstərilən tamaşalar bunlardır – C.Cabbarlının "Od gəlini", "Sevil", "Yaşar", "1905-ci ildə", Ü.Hacıbəyovun "Arşın mal alan", A.Şirvanzadənin "Qəşəm", D.Furmanovun "Qiyam", Korneyçukun "Polad qartal", A.Ostrovskinin "Günahsız müqəssirlər", Qoqolun "Müfəttiş", C.Məmmədquluzadənin "Ölülər", V.Şekspirin "Otello", S.Vurğunun "Fərhad və Şirin", "Vaqif", M.F.Axundovun "Hacı Qara", M.İbrahimovun "Həyat", S.Rüstəmin "Qaçaq Nəbi", Ə.Haqverdiyevin "Pəri cadu", Ş.Saminin "Dəmirçi Gavə", S.Rəhmanın "Xoşbəxtlər"...

1948-ci ildən sonrakı dövrdə İrəvan teatrı Basarkeçərə köçürülərək – 1967-ci illədək xalq teatrı kimi fəaliyyət göstərmiş, Azərbaycan Dövlət İncəsənət İnstitutunun son kurs tələbələri Vidadi Əliyev, Şamil Dəmirçiyev, Hacı İsmayılov, Qasım Qasımov, Hacı Xəlilov, Ədalət Ziyadxanov, Ramiz Məlikov, Sara Əliyeva, Qurban Ələkbərov, Mərziyə Məmmədbəyli kursun rejissoru Nəsir Sadıqzadənin rəhbərliyi ilə İrəvana işləməyə göndərilirlər. Teatrın qocaman aktyorlarından Cəmil Əliyev və Abbasqulu Tağıyev yeni qruppa ilə işləyirdilər. Az müddət içərisində Bakıdan Tamilla Abdullayeva, Zərnişan Fətəliyeva, Naxçıvandan Aydın Şahsuvarov, Tariyel Qasımov, Mübariz Əlixanov, Zemfira Əliyea, Gəncədən Nisə Rzayeva yerli gənclərdən Elmira İsmayılova və Raya Qafarova teatra dəvət olundular. 21 il İrəvanda ikinci həyatını yaşayan teatr şair-dramaturq Hidayətin rəhbərliyi (16 il) ilə özünün ən yüksək pilləsinə çatdı, 1988-ci

ilədək olan dövrdə 80-dək tamaşa hazırlayıb uğurla oynadı.

*– Sonra 1988-ci il hadisələri düşür. Nəhayət, səhnə sevgisi, teatr həvəsi, istəyi yenidən hamını bir yerə cəmləyir. Teatr tam heyətdə toplanır və üz tutur Mədəniyyət Nazirliyinə.*

– Bəli, bu zaman artıq 1989-cu ilin yayı idi. İrəvan teatrı əmlakı talan edilmiş bir vəziyyətdə Mədəniyyət Nazirliyinin qayğısı ilə Xırdalan Mədəniyyət Evində teatr-studiya şəklində, özünümaliyyələşdirmə şərtləri ilə işə başlayır, dağılmaqdan qorunur. Əvvəlki heyətdən əməkdar artist Vidadi Əliyev (bədii rəhbər və direktor), aktrisalar Elmira İsmayılova, Telli Məmmədova, Süleyman Nəcəfov, Ramiz Məşədiyev, Səmayə İsmayılova, Nizami Qurbanov və Əli Quliyev, yenicə teatra dəvət olunmuş Ramiz Əliyev, Əcdər Zeynalov (vaxtilə teatr onu ali təhsil almaq üçün Bakıya göndərmişdi) və Vüqar Əliyev az zaman içərisində G.Xuqayevin "Mənim qayınanam" və P.Pançevin "Əkizlərin nağılı" tamaşalarını bərpa edib 107 illik tarixini davam etdirdilər. Sonra İ.Hüseyovun "Şəppəli", H.Əzimzadənin "Nəsrəddin" pyesləri tamaşaya hazırlandı. İstedadlı rejissor, əməkdar artist Vaqif Əsədov teatra dəvət olundu və Z.Yaqubun "Göyçə dərdi" poemasını səhnələşdirib dörün ən böyük problemi olan qaçqınlıqdan bəhs edən "Didərginlər" tamaşasını hazırladıq. Bu tamaşa dəfələrlə Azərbaycan televiziyası ilə də göstərildi. 1993-cü il dekabrın 21-dən 1994-cü il yanvarın 16-dək İrəvan teatrı İran İslam Respublikasının dəvəti ilə S.Rəşidinin yazdığı (rejissor V.Əliyev) "Allah rəhmət eləsin" əsəri ilə Təbriz və Ərdəbil şəhərlərinə qastrol səfərinə yola düşür. 1990-cı ilin hadisələrini teatr dili ilə aləmə car çəkən tamaşa şəhidlərin – Ülvinin, Larisanın və İlqarın obrazları tərəfindən Azərbaycanın azadlıq və müstəqillik bayrağını ucaldanda tamaşaçı salonundakı hönkürtü sevinc dolu göz yaşlarına çevrilirdi. Təbriz də, Ərdəbil də, azadlıq qurbanları verib amma uğrunda mübarizəyə nail olmamışdılarsa da bu tay Azərbaycanın şəhidlərinə ağlayır, azadlığına sevinirdilər. Çadraya bürünmüş qadınlar "Koroğlu" uverturasının

sədaları altında yumruqlarını kişi tamaşaçılardan daha tez göyə qaldırırdılar.

İfaçılardan Elmira İsmayılova, Ramiz Əliyev, İntiqam Soltan, Vidadi Əliyev, Əcdər Zeynalov və Vüqar Əliyev öz sənətkarlıqları ilə tamaşaçıları heyran etdi, bəlkə də bu uğurlu oyun, finalda dalğalanan üçrəngli bayrağımız və zalda ucalan yumruqlar Tehrana qədər davam edəcəyi nəzərdə tutulan qastrol səfərimizi 25 gündən sonra dayandırmağa səbəb oldu. Qəribədir... Sonra Tehran televiziyası sonrakı vaxt tamaşanı bütünlüklə göstərdi. Həmin ilin yanvarın 19-da İran səfirliyinin sifarişi ilə tamaşa yenidən Bakıda oynanıldı, əlbəttə ki, İranda göstərilən şəkildə – geyimlərdəki xüsusi şərtlər yerinə yetirilməklə. Tamaşadan sonra bütün iştirakçılar İran səfiri tərəfindən mükafatlandırıldı.

Teatrımız Bakıda çalışdığı dövrdə 17 əsəri tamaşaya hazırlamışdır. Sonuncu işimiz V.Əsədovun yeni quruluşda hazırladığı dramaturq Hidayətin "Məhəbbət yaşayır hələ" tamaşasıdır. Teatrın repertuarındakı Tuncer Cücenoğlunun "Kor döyüşçü", İ.Vəlizadənin "Abbasqulu bəy Şadlinski", Ş.Başbəyovun "Dəmir qadın", M.Musabəyovun "Di oğlu div" tamaşalarının da özünəməxsus yeri vardır. Bu gün isə M.B.Marinyenin "Oğru" pyesini teatra dəvət olunmuş Röşən Almuradlı tamaşaya hazırlayır. Tamaşada aktyorlardan Azər Şabanov, Dilarə Murtuzəliyeva, Süleyman Nəcəfov, Ramiz Əliyev, Vidadi Əliyev, Aybəniz Əhmədova və Pikə Abbasova oynayacaqlar.

*Yarandığı gündən problemlər içində yaşayan 117 yaşlı İrəan Teatrına hər kəsin, hər bir təşkilatın, dövlət orqanlarının diqqəti gərəkdir. Onlar belə bir qayğının ehtiyacını çəkirlər və bizdən umurlar.*

*"Xalq qəzeti"*
*2 mart 1999-cu il*

# GÖZ BƏDƏNİN POEZİYASI,
# POEZİYA İSƏ ƏDƏBİYYATIN GÖZÜDÜR

– Almaz xanım, tanış ol – dostum, qardaşım, həkim Paşa Qəlbinurdur. Professor həm də gözəl şairdir.

(1991-ci ilin mayında "Aktyor evi"ndə keçirilən "Ülvi gecə-si"nin sonunda foyedə dostum, qardaşım, qonşum, həkim Sərdar Kərimov professoru mənimlə belə tanış etdi).

– Mən Almaz xanımı tanıyıram.

*– Mən Paşa Qəlbinuru tanıyıram.*

Təxminən eyni məqamda deyildi bu sözlər. Təbii ki, bizim çoxdankı "tanışlığımız" intiusiv tanışlıq idi. O an ürəyimdə özüm-özümü danladım ki, gərək iki il əvvəl – 1998-ci ildə onun əlimə keçən və poetik məzmunu ilə məni tutan şeirlər – "Payız məktu-bu" kitabına yazdığım məqaləni tamamlayıb dərc etdirəydim. Bəzən elə yazılar olur ki, illərlə ürəyində, beynində gəzdirərsən, amma onu yazıb qurtara bilmirsən. "Payız məktubu" – Paşa Qəlbinur poeziyası da fikrimdə hələ belə yaşanır. Aradan illər ötüb. O yazıya və ondan sonra şairin dərc olunmuş şeirlər kitablarına ("Rəngli göz yaşları", "İtmiş həsrət kimi") bir də, bir də... qayıtmışam. Tədqiqatçı-alim dostum Aybəniz xanım Əliye-vanın "Paşa Qəlbinur", yazıçı-alim Altay Məmmədovun "Paşa Qəlbinur poeziyası XXI əsrin astanasında" monoqrafiyalarında onun insan kimi, həkim kimi, şair kimi, vətəndaş kimi aliliyinin, səmimiliyinin, sadəliyinin şahidi olmuşam.

Və beləcə fikirlərimə fikir calana-calana günlərin birində (düz on il sonra) professor Paşa Qəlbinur işlədiyi xəstəxanaya yolum düşdü. Məşhur göz həkimi kimi dünyaya səs-sorağı yayılmış bu insana bir qızın ağrılı taleyinə çarə axtarmaq üçün pənah aparmışdım. Həyatımda bu qızın ağır, taleyinin ağrısının bir payını da mən də öz ürəyimdə yaşayıram. Əsil adı Nərgiz alan bu qızı "evimə işıqdı, çıraqdı, fənardı" – deyə körpəliyindən babası belə sevələyib. Beləcə adı Fənar kimi çağrılan bu qız

böyüyəndə nə danışa bilib, nə də eşidə. Amma qoçaq, od-alov, min bir işi dağdan aşıran qız olub. Güclü hissiyatı, isti duyğuları, insanlığa böyük sevgisi və ehtiyacı var. İllər ötüb. Günlərin birində Fənarın gözlərində görmə zəifliyi müşahidə olundu və getdikcə tamam tutulmaq təhlükəsi ilə üz-üzə qaldı. Gözləri də tutulsa Fənarın həyatla əlaqəsi ancaq hissiyatı vasitəsi ilə olacaqdı. Belə bir ağır və dəhşətli zamanda Allah-təala Fənarın taleyini professor Paşa Qəlbinurun şəfasına, mərhəmətinə bağladı. Professor onun gözlərini müayinədən keçirəndən sonra bildirdi ki, əlimizdən gələni edəcəyik ki, gözlər tam tutulmasın və ən azı indikindən on faiz yaxşı görsün. Müalicədən iki ay ötdü. Fənarın yanına gedib səhhətini soruşdum. O, üz qabığında professor şəkli olan kitabı doğmalıqla sinəsinə tutdu. Bu, Fənarın professora minnətdarlığı idi. Onun böyük ehtiramını professor Paşa Qəlbinura çatdırmağı özümə borc bildim. Fənarın bu istək məqamından istifadə edərək professorla qəzetimizin "Zamanın sözü-sözün zamanı" rubrikası üçün də söhbət hazırlamaq istəyində oldum.

Vədələşib getdim. Ora çatanda professorun təcili cərrahiyyə əməliyyatı apardığını bildim. Az sonra o, əməliyyat "formasında" kabinetə gəldi. Üzrxahlığını bildirərək söhbətə başlağımızı təklif etdi:

*– Bəlkə söhbətimiz başqa vaxtı qalsın.*

– Mənim onsuz da rahat, boş vaxtım olmur. Söhbətimizi başlaya bilərik.

*– Elə isə, professor, belə cərrahi əməliyyatdan sonra ilk anlar psixoloji gərginlikdən necə azad olursunuz?*

– Əslində mən hələ əməliyyatdan çıxmamışam, iki əməliyyatın arasındayam. Adətən, bu vaxt əməliyyat otağında oluram. Sadəcə indi iki əməliyyat arasında olan 20-25 dəqiqəlik vaxtımı Sizinlə söhbətə sərf edirəm. İki cərrahi əməliyyat arasında olduğumdan mən hələ əməliyyat dünyasındayam. Xəstələrə bilavasitə bıçaqla işıq aradığım, işıq verdiyim dünyadayam... İndi mən gərək əməliyyat dünyasından çıxış keçəm bu söhbətimizə,

oradan da bir addım atam ki, ədəbiyyat-poeziya dünyası haqqında öz təsəvvürlərimi açam. Bu cür söhbət müsahibə həyatımda ilk dəfədir ki, baş verir. Qəribədir, 13 yaşında yazdığım şeirin adı "Gözlər" olub. Bu şeiri yazanda gördüm ki, başqa bir dünyadam. O dünya ki, onu uşaqlığımızda televiziyadan gördüyümüz kosmik çəkisizlik şəraitinə bənzətmək olar. Sonralar göz həkimi olmaq üçün ali məktəbə daxil oldum. İnstitutun axırıncı illərində artıq cərrahi əməliyyatda idim. Və gördüm ki, bu da bir başqa dünyadır. Beləcə o vaxtdan özümü üç dünyada görürəm. Müqayisə etsək, üçün də gözəl dünyalardır. Ancaq həm poeziya dünyasında həm də işıq cərrahı dünyasında tək oluram, Tanrımla üzbəüz qalıram. Ədəbiyyatda-poeziyada tam tək oluram, oftolmologiyada ətrafımda adamlar-həkimlər, assistentlər, şəfqət bacıları, bir sözlə köməkçilərim olur. Onların isə üzünü görmürəm, yalnız ətrafımda hiss edirəm, əllərimin hərəkəti ilə bir-birinizi başa düşür və işimizi uğurla aparırıq. Orada mən, Tanrım və xəstə olur. Bu birisi-hamının yaşadığı dünya ki, var, orada bəzən çirkinlik, haqsızlıqlar görürəm. Orada insanlar bəzən əl-ayağıma o qədər dolaşırlar ki, Tanrımla təkbətək qalmağa can atsam da məsafə çox böyük olur.

*– Professor, əməliyyat zamanı poeziya da köməyinizə yetirmi?*

– Deməli, harada olsam belə, hər an xəyalıma poetik fikir gəlir, misra gəlir, – yalnız əməliyyat otağından başqa. Əməliyyat otağında ədəbi dünyadan da, bütün dünyalardan tam aralı oluram. Yaxşı üzgücü özünü suda necə doğma hiss edirsə, mən də əməliyyat otağında özümü o cür hiss edirəm. Ədəbi dünyamda isə onların ikisinin də ünsürləri olur. Düzdür ədəbi dünyam da tək qalıram, amma orada xəyalıma xəstələrimin taleyi-gözlərin taleyi gəlir, ədəbi obyekt kimi fikrimə dolur. Həmin talelər poetik dünyama nüfuz edir. Konkret deyim ki, şeir dünyama oftolmologiya nüfuz edir. Poetik qanadlarım isə cərrahiyyə otağında əməliyyat uçuşuma güc verir.

*– Cərrahi, yoxsa poetik dünyada yaşamaq bir az rahatdır?*

– Belə deyək ki, üç övladın üçünün də yanında yaşamaq mənə xoşdur. Amma hansının yanında daha çox qalmaq istəyirəm – bu artıq mənim sirrimdir.

*– Burada, iş otağınızda, daha çox ədəbiyyat kitablarıdır. Dünya şöhrətli bir həkimin iş həyatında bu bir təzad deyil ki?*

– Mənim çox zəngin kitabxanam var. Bu otaq daha çox istirahət – özümə qapıldığım otaqdır. Cərrahiyyə otağı isə iş otağımdır. Ona görə də burada ədəbiyyat kitabları çoxdur.

*– Siz Yazıçılar Birliyinin üzvüsünüz. Yolunuz heç Yazıçılar Birliyinə düşürmü?*

– Çox az. Müəyyən tədbirlər olanda can atıram ki, ora gedəm. Təəssüf ki, ürəkdən istədiklərimin hamısına belə vaxt tapıb gedə bilmirəm. Qarşımı oftolmologiya kəsir.

*– Yeri düşmüşkən, bir qurum kimi bu birliyin vacibliyi hiss olunurmu?*

– Bu barədə çoxdandır, müxtəlif fikirlər söylənilir. Əlbəttə onun olmağa daha yaxşıdır, amma necə olmalıdır, bu başqa söhbətdir. Səmimi deyim ki, bu barədə heç fikirləşməmişəm. Belə şeyləri düşünməyə vaxtım da çatmır. Öz dünyalarımı, yaşantılarımı ancaq vaxtlaşdıra bilirəm. Həm elmi, həm bədii yaradıcılıqlarla, həm cərrahiyyə ilə məşğulam (cərrah ömrü isə ayrıca bir ömürdür), həm də pedaqoji fəaliyyətdəyəm.

*– Zaman çəkinkənliyindən ürəyimizdə, qələminizdə söz ilişib qalıbmı? Belə deyək ki, zamanını gözləyən sözümüz çoxmu olub?*

– Bəlkə də bütün dünyada bir on nəfər, on beş nəfər öz sözünü deyən adam varsa, onlardan biri mənəm. Mənim gücüm onda olub ki, heç nə bilməyən tələbəyə-istənilən vəzifədə olan adamın övladına "iki" yaza bilmişəm, buna görə mənə hücum edənləri dəf etmək gücündə olmuşam. Tələbələrimə gün kimi həmişə aydın olub ki, neçəyə bilsələr o qiyməti də alacaqlar, bu da söz deməyin müəyyən bir formasıdır. Könlümdən keçib ki, ideal

təmizlikdə bir kafedra olsun əl basım Qurana ki, bu kafedrada maddiyyət söhbəti yoxdur. Bu da söz deməyin bir formasıdır. Poeziyada da könlümdən keçəni demişəm. Sovet dövründə şeirlərimin müəyyən hissələri var idi ki, zamana uyğun gəlmədiyini deyib kəsib atırdılar. Sonralar mən onları da lal etdirdim. Ürəyimdən keçəni qələmimə, işimə gətirmişəm.

*– Kitabınızı vərəqlərkən cəmi bir misralıq şeirinizi gördüm.*

– Çalışmışam şeiri çox sıxam, qoy bütün suyu getsin, qalsın ruhu, ucalığı, enercisi. Az olsun, yığcam olsun, amma orada şeir görünsün. Bəzən o qədər sıxılır ki, cəmi bir misra qalır. Raket tək uça bilir. İçindəki enerci onu itələyir və o, tək sərbəst uça bilir. Bax o mənada bəzən bir misrada raketin gücü olur.

*– Dünyanın çox ölkələrinin gəzmisiniz. Elmi məclislər həmkarları görüşdürməyin – tanış etməyin yüksək bir vasitəsidir. Bu mənada dünya oftolmoloqları ilə görüşlərinizdə onların içərisindən elmi məzmundan kənar həmsöhbət – poeziya söhbətdaşı tapa bilirsinizmi?*

– Doğrudur dünya oftolmoloqlarının bəlkə də hamısını tanıyıram. Poeziya söhbəti isə elmi tədbirlərimiz başa çatandan sonra müəyyən səyahətlər təşkil olunur. Bax, o gəzintilər zamanı olur. Nədənsə göz həkimlərinin çoxusunun poeziyaya münasibətləri çox yaxındır. Oftolmologiya təbabətin poeziyasıdır. Göz bədənin poeziyasıdır. Poeziya isə ədəbiyyatın gözüdür.

*– Əməliyyat zamanı elə gözlərə rast gəlirsinizmi ki, orada hazırca şeir var, siz isə onu oxuyursunuz və sonra sakitcə həmin şeiri kağıza köçürürsünüz? Belə bir misranızı da xatırlayıram –*

*Mən səni gözündəki xəyala görə sevdim...*

*Bütün gözləri oxuya bilirsinizmi?*

– Bu belədir – yaradıcı insanlar gözü necə oxuyursa, mən də elə. Yanıldığım vaxt da olub, düz olanı da. Cərrahiyyə otağında isə 1973-cü ildən bu yana əməliyyatdayam. On mindən çox cərrahi əməliyyat keçirmişəm.

*– DeməK 21 yaşınızdan əlinizdə cərrah bıçağı olub?*

– Bəli. Son 2-3 ildir ki, əməliyyat zamanı gözü ki, açıram orada o insanın taleyini oxuyuram. Bunun bir elmi əsası da var. Gözün selikli qişasında elə nöqtələr var, buna iridodiaqnostika deyilir. Mənim dediyim bundan da fərqlidir. Daha çox ədəbiyyata, poeziyaya tərəfdir.

*– Professor, bu qədər xeyirxah işlərlə ömür-gün ötürürsünüz. Özünüzü öz dünyamızda rahat hiss edirsinizmi?*

– Bilirsinizmi, mən müəllim kimi auditoriyaya girirəm. Hər dəfə dərsə girəndən qabaq – axşamlar o kitabları bir də oxuyuram, bir də oxuyuram. O qədər həyəcanlı oluram ki, elə bilirəm dünyanını axırıdır. Müəllim kimi də vicdanım safdır. Bilirəm ki, bir dəfə mühazirə dediyim tələbənin taleyinə yızılıram. Ona görə də özümdə böyük məsuliyyət duyuram. Dönə-dönə hazırlaşıram. İstəyirəm hamıdan yaxşı dərs deyim, hamıdan yaxşı əməliyyat eləyim, hamıdan yaxşı kitab yazım, hamıdan yaxşı şeir yazam. Bəzən mənə elə gəlir ki, bəlkə qüvvələrimi çox səpələyirəm. Böyük enercimi konkret bir sahəyə yönəltsəydim, nəticə daha çox olardı.

Sonra fikirləşirəm ki, yox mən auditoriyasız qala bilmərəm, elmi kitab yazmaya bilmərəm, yaxud da əməliyyat eləməməyim mümkünsüzdür və ya mən poeziyadan-ədəbiyyatdan kənarda yaşaya bilmərəm. Bu dörd yük ki, var, mən daşıyıram – içimdə də elə böyük enercim, gücüm var. Bu işlərin hər birində həmin böyük enercimə daxil ola bilirəm. Öz taleyimi yaşayıram. Poeziya xoş və əzablı bir ömürdür və bunu hər an yaşamağa can atıram. Narahat məqamlarım isə... Torpaqlarımızın işğalı, qız-qardaşlarımızdan, uşaqlarımızın əsirlik taleyi məni çox sarsıdır. Bunları çox ağrılı hisslərlə yaşayıram. Nə yaxşı ki, başım çox qarışıq olur. Arı pətəyi dolan kimi mənim də vaxtım iş-güclə doludur. Bir an deyəsən belə sərbəst, asudə vaxtım yoxdur. Beləcə ömür gedir. Bir belə yüklərlə dolu həyatımda Tanrı dərgahında zərrəcə günahım yoxdur. Elə bilirəm ki, bir dəfə günah eləsəm daha şeir yaza bilmərəm. Çox şairlər olub ki, yaza bilmədiklərindən özlərini

öldürüblər. Niyə yaza bilməyiblər sualının cavabı belədir – Tanrı qarşısında, poeziya qarşısında günah işlədiblər. Allah da verdiyini onlardan alıb. Mənim içimdə böyük Allah sevgisi var.

Şair Paşa Qəlbinurla söhbətin sonu tükənməzdir. Böyük enerciyə, həyati sevgiyə bələnmiş bu insanın zəngin təfəkkürü, dünyagörüşü, səmimi duyğuları onu bir daha əməlləri kimi ucaldır, ucaldır, Paşa Qəlbinur dünyanın çox ölkələrinin Elmlər Akademiyasının həqiqi və fəxri üzvüdür, Tibb elminə dair yüzdən artıq elmi əsərin, doqquz elmi kəşfin müəllifidir. Azərbaycan Tibb Universitetinin Oftolmologiya kafedrasının müdiri, professorudur, Dünya Türk Cümhuriyyətləri Oftolmoloji Birliyinin sədridir, gözəl şairdir... Ən ucası Azərbaycan oğlu, Azərbaycan vətəndaşıdır. Və mən bu söhbətə, Paşa Qəlbinurun poeziya dünyası haqqında olan düşüncələrimə nöqtə qoymadan oxucularımızdan ayrılır, şair-həkim Paşa Qəlbinura isə bu söhbətə görə çox sağ deyirəm. Qəlbinin işığı, əlinin şəfası, könlünün nəğməsi göylərəcən ucalsın...

*"Xalq qəzeti"*
*10 iyul 2001-ci il*

## "SONA BULAĞI"NDAN QAYNAYAN ŞAİR ÖMRÜ

*– Əli müəllim, ədəbiyyata gəlişiniz konkret bir hadisə iləmi bağlıdır, yoxsa bir də görmüsünüz ki, ədəbi aləmdəsiniz?*

– Ədəbi aləmə gəlişim indi Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarında keçirdiyim uşaqlıq və gənclik illərimlə bağlıdır. Sözün əsl mənasında məndə ədəbiyyata marağı müəllimim Vəli Orucov, Həbib Səmədov oyatmışlar. Bu işdə Aşıq Ələsgər yaradıcılığı, Göyçə aşıq məkəbi də böyük rol oynamışdır. "Bağlıyam" adlı ilk şeirim isə 1957-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur. Beləcə, ciddi olaraq ədəbiyyat aləminə bağlandım. Bu yolda mənə ilk olaraq kömək edən, müəyyən istiqamət verən iki nəfərin adını xüsusilə qeyd etməliyəm. Ədəbiyyat müəllimlərimdən sonra bu iki nəfər "Sovet Ermənistanı" redaksiyasında təşkil olunmuş ədəbi dərnəyə rəhbərlik edən qəzetin əməkdaşları – şair-jurnalist mərhum Rza Əskərov və ədəbiyyatşünas-alim Teymur Əhmədov olmuşlar. Gənc şair kimi ilk addımlarımı həmin dərnəkdə atmışam. Həftədə bir dəfə keçirilən dərnəkdə yeni əsərlər oxunur və müzakirə olunurdu. Mən də öz şeirlərimi oxuyardım. Oxuduğum şeirlərdən uğurlusu da olardı, uğursuzu da. Onu da deyim ki, ilk şeirimi cürət edib redaksiyaya şəxsən təqdim etməmişəm. Onu zərfə qoyub poçt ilə göndərmişəm. Hərçənd özüm şəhərdə yaşayır və tez-tez redaksiyaya gedib-gəlirdim. Qəzetdə ilk şeirimi görəndə nə qədər sevindiyimi bu gün də xatırlayıram. "Sona bulağı" adlı ilk şeirlər kitabım 1963-cü ildə İrəvanda, mən 25 yaşında olarkən işıq üzü gördü.

*– Əli müəllim, yaradıcılığınızda əsas xətt nədir?*

– Yaradıcılıq dünyası sahilsiz ümmana bənzəyir. Hər bir ya yardıcı bu ümmana baş vurur və oradan götürdüyü töhfəni, seçdiyi incini öz yaradıcılıq süzgəcindən keçirərək oxuculara təqdim edir. Qələm əhli əsas xətt kimi yaradıcılıq üslubunu qorumalı, öz yazıçı, şair "mən"ini təsdiq etməlidir. Mənim yazı-

pozu dünyamda da əsas xətt heç kəsi təkrar etməmək, heç kəsi yamsılamamaqdır.

*– Əgər bu gün arxivinizi araşdırsanız, orada sizin üçün mraqlı görünən nə olar?*

– Arxiv dediniz yaralı yerimə toxundunuz. On yeddi il İrəvanda yaşamaq, sonra Bakıda on üç il Azərbycan Yazıçılar İttifaqının orqanı "Qrakan Azərbaycan" (erməni dilində "Ədəbi Azərbaycan" deməkdir – Red.) jurnalında şöbə müdiri, məsul katib vəzifələrində çalışmaq, eyni zamanda şair-tərcüməçi kimi fəaliyyət göstərmək o deməkdir ki, mənim iki respublika ilə bağlı zəngin arxivim vardı. Bəli, vardı. Lakin 1992-ci il 26 yeral Xocalı soyqırımı zamanı ağrımı, qəzəb hissimi cilovlaya bilməyib arxivimdə ermənilərlə bağlı nə vardısa – kitabları, məktubları, tərcümələri yandırıb məh elədim. İndi dərk edirəm ki, böyük səhvə yol vermişəm.

1973-cü ildə çapdan çıxmış "Əli Şahsabahlı" monoqrafiyamı nəzərdən keçirir və iki müqəddəs insanı xatırlayıram. Bildiyiniz kimi, mən İrəvanda Pedaqoji İnstitutun fizika-riyaziyyat fakültəsini bitirdikdən dörd il sonra, yəni 1964-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinə qəbul olub, 1970-ci ildə oranı bitirmişəm. Əvvəl Tbilisi, sonra isə İrəvan Azərbaycan Dövlət Dram Teatrlarında aktyor-rejissor kimi fəaliyyət göstərmiş Əli Şahsabahlı haqqında elmi iş yazdım. Həmin işə Ermənistan Elmlər Akademiyası İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini, sənətşünaslıq doktoru, əməkdar elm xadimi Sabir Rzayev rəy yazdı. Mən Bakıya köçəndən bir il sonra – 1973-cü ildə həmin monoqrafiya Sabir müəllimin köməyi və Siddiqə Qədimovanın redaktorluğu ilə orada işıq üzü gördü. Sabir Rzayev Moskvada təhsil almışdı. Əsərlərini rus dilində yazırdı. Vaxtında ona sahib durmadıq və Sabiri çox erkən – 1978-ci ildə 54 yaşında itirdik. Qəflətən vəfat etdiyini bildirdilər. Onun ölümündə də erməni xəyanəti öz işini görmüşdü. Artıq dünyasını dəyişmiş Siddiqə xanım da xalqını

ürəkdən sevən görkəmli ziyalı qadınlarımızdan idi.

*– Hansı yazıçılarla dostluğunuz baş tutub?*

– Əslində Azərbaycan Yazıçılar Birliyinin bütün üzlərini, həmkarlarımı özümə yaxın dost, sirdaş sayıram. Amma üç nəfərin adını xüsusi deyərdim – yazıçı Elçinlə, şairlərdən Hidayət və Zəlimxan Yaqubla dostluğumla fəxr edə bilərəm. Bu günlərdə Elçin müəllimin 60 illiyim ilə əlaqədar göndərdiyi teleqramı nəzərinizə çatdırmaq istərdim: "Hörmətli qələm dostum Əli Vəkil! Səni, görkəmli şairimizi və səmimi dostumuzu anadan olmağının 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Sən qəsbkar işğalına məruz qalmış doğma yurddan gələn o ziyalılarımızdan birisən ki, müqəddəs mübarizəmizi qələmində davam etdirirən. Sənin poeziyan və jurnalist fəaliyyətin həmişə xalqımızın təəssübünü çəkən bir vətəndaşın özünüifadəsi olmuşdur. Bir çox illər Azərbaycan Yazıçılar İttifaqında səninlə birgə işlədiyimiz günlərin xoş xatirələri həmişə mənim yadımdadır.

Səni bir daha təbrik edir, sənə uzun ömür, cansağlığı, xoşbəxtlik və yeni-yeni yaradıcılıq uğurları arzulayıram!"

*– Bu günün ədəbi mühiti-ədəbi auditoriyası ürəyinizcədirmi?*

– Həm bəli, həm də xeyr. Bu fikrimə bir az aydınlıq gətirmək istərdim. Həmkarlarım, qələm sahibləri unutmamalıdırlar ki, on il davam edən və hələ də başa çatmayan bədnam Qarabağ hadisələri barədə həqiqəti gələcək nəsillər bu gün yaranan əsərlər, kitablar vasitəsilə öyrənəcəklər. Qeyd etməliyəm ki, 1905-1907-ci illəri, 1918-1920-ci illərin, eləcə də 1948-1953-cü illəri, habelə 1988-ci ilin soyqırımları, deportasiyaları yazıçılarımız tərəfindən hələ ki, layiqincə qələmə alınmayıb. Qarabağ hadisələri, Xocalı soyqırımı, 20 Yanvar faciəsi hər bir yazıçının yaradıcılığında öz bədii ifadəsini tapmalıdır.

*– Nəhayət, belə bir sual: şair Əli Vəkil üçün 60 yaş nə deməkdir?*

– 60 yaş az yaş deyil. 60 yaşın zirvəsindən baxdıqda insan həm kövrəlir, həm də çox böyük məsuliyyət hissi keçirir. 60 yaş

ömrün hesabatı, yaradıcılığının hesabatıdır. Buraxdığın səhvləri düzəltmək, indiyəcən yazmadıqlarını yazmaq üçün xəbərdarlıqdır. Bir sözlə, 60 yaş qarşıdakı illərdə nə edəcəyini müəyyənləşdirmək deməkdir. Qoy tale 60-ı, 70-i, 80-i, 90-ı, 100-ü hamıya qismət eləsin ki, hər kəs o yaşların nə demək olduğunu bilsin.

*"Xalq qəzeti"*
*29 avqust 1998-ci il*

## "QƏM İÇİNDƏ OLMAYASAN, İÇİNDƏ QƏM OLSUN"

*– Flora xanım, ömrü-günü zamandan necə ötürürsünüz?*

– Axşamların, səhərlərin təkəri eyni ahənglə fırlana-fırlana zaman adlı bir atı eləcə dördnala çarpdırır. Və bir də gözümüzü açıb görürük ki, hansı həddinsə, hansı yaşınsa... astanasındayıq. Zamanı ata bənzətsəm də onun üstündə heç kimi görmürəm. O zaman atının yüyəninə mənim də əlim heç vaxt yetmir. Ümumiyyətlə, zamana sığan, zamanla yeriyən adam deyiləm. Təbiətcə kövrək olduğumdan mənim öz zamanım, öz aləmim var. Viktor Hüqonun belə bir sözü yadıma düşür: "Su gəminin kənarında gözəldir, içində fəlakətdir". Bu mənada fikrimdə həmişə bir ifadə dolanır: "Qəm içində olmayasan, içində qəm olsun". İçində qəm yaşadan, qəmlə yaşayan insanlar hamıdan seçilir. Mənim içimdə elə bir qəm var ki, o qəm mənə üstünlük gətirir, məni hamıdan seçir. Həm də içimdəki o qəm fərdi qəm deyil, o qəmin içində hər şey var.

*– Yazılarınıza, danışıqlarınıza inanıb, sizi milli varlığı ucalarda görünən bir qələm sahibi kimi tanıyırıq. Söhbətə başlayanda isə ilk əvvəl Viktor Hüqodan misal gətirdiniz. Dünya ədəbiyyatı ilə tanışlığın çoxmu zəngindir?*

– Fikir verin, adım fransız sözüdür. Qardaşımın da adı fransız adıdır. Bizim ailədə fransız ədəbiyyatına meyl o qədər güclü olub ki, hətta doğulan uşaqlara da fransız adları qoyublar. Bir də elə yazıçılar var ki, bəşəridirlər, dahidirlər. Onlar bir millətə yox, hamıya məxsusdurlar. Viktor Hüqo da o misaldan dünyanın yazıçısıdır və söhbətə ondan başlamağım sizə qəribə gəlməsin. Mən Viktor Hüqonu sevən adamam. O ki, qaldı dünya ədəbiyyatı ilə tanışlığıma... Oxuyanda da şeirlə baş qatıram. Dünya ədəbiyyatı seriyasında gördüyüm, duyduğum Məmməd Arazı mütəmadi oxuyuram.

*– Məmməd Araz poeziyasında dünyanın özünü necə, görə*

*bilirsinizmi?*

– Onun poeziyasında doqquz planetin doqquzu da görünür. Orada həyatı, onun mənasını, fəlsəfəsini görürəm. Qəmin böyüklüyünü görürəm. Onun belə bir sözü var: Kövrəklik olmayan yerdə millət, heyrət olmayan yerdə kəşf yoxdur.

Məmməd Araz hələ kəşf olunmayıb, açılmayıb.

*– Ziyalı sözünə sığındığınız, güvəndiyiniz, inandığınız məqamlar çoxmu olur?*

– Həyatımda çox razı qaldığım bir müəlliməm var – professor Əzizə Cəfərzadə. 1974-75-ci illərdə bizə universitetdə dərs deyirdi. Auditoriyada o, elə kəlmələr, elə sözlər danışırdı, elə adamların adını çəkirdi ki, onlar haqqında ancaq sovet hökuməti yıxılandan sonra hər şeyi dedilər. Aradan on beş il keçəndən sonra soruşdum ki, Əzizə xanım, siz qorxmurdunuzmu, adları belə çəkilməsi qadağan olmuş adamlar haqqında auditoriyada söz açırdınız, məhəbbətlə danışırdınız, bizə bəzi siyasi məsələləri başa salırdınız? Əzizə xanım çox sakitcə cavab verdi – yox, mən onda gəncliyə inanırdım. Sizin gözlərinizə baxıb gözlərinizə inanırdım. Bax, buna görə Əzizə xanıma minnətdaram. O, bizim gözümüzü vaxtından əvvəl açdı. Başqa bir müəllimim – rəhmətlik Qulu Xəlilov deyərdi ki, ədəbiyyat dərsliklərində şairləri kasıb, acından ölən, yetim, yazıq kimi təqdim edirlər. Bunlar yalandır. Hətta o inqilabçılar özləri belə bəy oğlu olublar. Kasıb haradan bilir ki, yaşamaq tərzi nədir? Yaşamağı bilən adam mübarizə aparardı. O cümlədən də yazıçılar barədə danışanda deyərdi ki, bu filan bəydir, filan ağadır, yəni görüb-götürmüş nəsildən çıxıb. Vəli Xuluflu, Hacıkərim Sanılı, Məmmədəmin Rəsulzadə, Əhməd Cavad, Mirzəbala Məmmədzadə barədə ilk məlumatı kitabxanadan yox, o müəllimlərdən almışam. Bu baxımdan indiki günlərimi dindirməli olsam, inanın ki, özümü dəyirman daşının arasında hiss edirəm. Maddi və mənəvi ağrılarımı alt-üst dəyirman daşına bənzətsəm, bax, o daşların arasında sıxılıram.

*– Qələm adamları çox vaxt stol arxasında ürəklərini boşaldırlar. Yazı-pozudan uzaqlaşıbsınız ki, bədbinlik sizi üstələyib.*

– Düz deyirsiniz, adi qələm adamıyam. Vaxtilə nəşr olunan əl boyda yazıma da sevinmişəm. Dönə-dönə oxuyardım, sevinərdim. Həm də ona sevinərdim ki, bu yazımla kiminsə ürəyini almışam, ona xoş duyğular bəxş etmişəm. İndi isə "jurnalistəm" deməyə xəcalət çəkirəm. Çünki indi kim istəsə qəzet çıxarır. Bu zaman peşəkarlıq ölürsə və məqsədli qəzet çıxarırsa, bu faciədən betər ağrıdır. Yazı-pozuma gəldikdə isə, bu günlər daha çox şeir yazıram. Çoxdandır bir yazı barədə də düşünürəm, amma hələ alınmır. Bu gənclərimizlə bağlı söhbətdir. Bilirsiniz, heç bir gənclik indiki keçid dövrünün zərbələrindən öz gücünə sıyrılıb çıxa bilməz. Ona mütləq və mütləq ailədən, məktəbdən təsir lazımdır. Onu başa salmaq, qolundan tutmaq, kömək etmək lazımdır. Belə olmazsa gəncliyə zülm olar. Cəmiyyətin təsirini o duymalıdır. On il bundan əvvələcən qapalı cəmiyyətdə yaşayırdıq, yalnız Sovetlər İttifaqı hüduduna bələd idik. Xaricə gedib-gələnlər isə sovet təbliğatına uyğun olaraq elə yazılar yazardılar ki, deyərdik, elə cənnət buradadır. Sonra hər şey dəyişdi, dünyanın qapıları açıldı, televiziya həyatımıza elə daxil oldu ki, 99 nöqtəylə evin içindəcə dünyanın hər yerini seyr edə bildik. Məişətimizə, elmimizə kompüter daxil oldu. O dövrdə sən uşağı başa salırdın ki, oxusan, Mirzə Cəlil olacaqsan, böyük adam olacaqsan. Yəni millətə, vətənə layiqli bir övlad ola bilərsən. Bu gün uşağı başa sala bilmirsən ki, sən oxusan kim olacaqsan. Uşaq məktəbdə müəllimə baxıb deyir ki, bu, belə gündə yaşayırsa, gör mən necə zülm içində yaşayacağam. Və beləcə yeniyetmələr qalır çaş-baş. Bunun yolu tapılmalıdır, gəncliyi yoluna istiqamətləndirmək lazımdır.

*– Bir ziyalı kimi fikirlərinizdə sizi rahat buraxmayan nəsə varmı?*

– Dünyanın çox ölkələrini gəzmişəm. Qəribə bir müşahidəm olub. Bizdə millətə, torpağa bağlılıq hissi var, amma o

torpağı göyərtmək, onu qorumaq hissimiz yoxdur. Xarici ölkələrdə gördüm ki, onlarda torpağa bağlılıq yoxdur. Amma harada yaşamalarından asılı olmayaraq o, torpağı göyərtməyə, qədrini bilməyə, gözəlləşdirməyə çalışırlar. Bütün bunlarla belə, yaşamaq – mənalı yaşamaq haqqında düşünürəm.

*"Xalq qəzeti"*
*17 mart 1999-cu il*

# TOPONİMLƏR XALQIN TALEYİDDİR

Qərbi Azərbaycan toponimləri-nin öyrənilməsində dilçi-alim İbra-him Bayramovun xidmətləri əvəz-sizdir. O, bu yöndə apardığı axta-rışları ilə bir daha təsdiqləyir ki, Qərbi Azərbaycan toponimikasının öyrənilməsi vacib və aktualdır. Xüsusən də ərazilərimizin müəyyən qisminin işğal altında qaldığı bir məqamda bu məsələ diqqətdən kənarda qala bilməz.

*– İbrahim müəllim, Qərbi Azərbaycan toponimlərini öyrənmək, əlbəttə, çox maraqlı, eyni zamanda məsuliyyətli işdir.*

– Toponimlər xalqın tale kitabıdır. Onun tarixini, dilini və mədəniyyətini öyrənmək üçün yaşadığı əraziyə nəzər salmaq və toponimlərini araşdırmaq lazımdır. Bu baxımdan 1988-ci ilə qədər Qərbi Azərbaycan ərazisi azərbaycanşünaslıq tədqiqinə daxil edilməyib. Tarixçi alim İsrafil Məmmədov bu faktı izah edərək yazır ki, həmin torpaqlarda aborigen əhali olan azərbaycanlıların tarixi haqqında qısa məlumat verməyi belə nə erməni tarixçiləri, nə də Azərbaycan tarixçiləri rəva bilmiş-lər. Erməni olmadıqlarına görə onlar "erməni xalqının tarixi"ndən, Azərbaycanda yaşamadıqlarına görə "Azərbaycan tarixin"dən kənarda qalmışlar. Elə bu maraq mənim də nəzər-diqqətimdən yayınmadı. Ona görə də məsələyə

toponimləri öyrənmək, araşdırmaq səmtindən yanaşdım. Məlumdur ki, ərazinin tarixini öyrənmək üçün həmin ərazidə yaşayan xalqın etnik mənşəyi araşdırılmalıdır. Bunun üçün ən etibarlı mənbə yer-yurd adlarıdır. Xalqın tarixinə dair ən xırda cizgiləri özündə qoruyub saxlayan, zamanın sınağından çıxmış yurd adları dilin ən qədim qatlarını mühafizə edir.

*– İndiyəcən bu yöndə hansı işlər görülüb?*

– Bu məsələnin başqa bir tərəfidir. Çünki bu elə işdir ki, üç-dörd nəfərin fəaliyyəti ilə başa gəlməz. Bunun üçün elmi mərkəz yaradılmalı, tədqiqat dairəsi xeyli genişləndirilməlidir. Mərhum Prezidenti Heydər Əliyev cənablarının imzaladığı

“1948-53-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” (18 dekabr 1997), “Azərbaycanlıların soyqırımı haqqında” (26 mart 1998) və “Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında” (22 avqust 2001) fərmanları belə bir elmi mərkəzin yaradılması üçün mənbə ola bilər. Doğrudur, 1988-ci ildən sonra indiki Ermənistan ərazisi toponimləri ilə bağlı araşdırmalar aparılıb. Lakin Qərbi Azərbaycan toponimlərinin tam öyrənilməsi uzun illərin nəticəsində mümkündür. Ərazi toponimlərinin formalaşmasınba bilavasitə Azər-baycan dilinə məxsus sözlər iştirak edir. Toponimlərin əksəriyyəti burada tarixən yaşamış türk tayfalarının adlarını qoruyub saxlayır: Quqark, Şirak, İrəvan, Gümrü, Ayrım, Qıpçaq... və s. Bu mənbələri tədqiq edərkən erməni mənbələrinə də nəzər yetirmişəm. Çünki Qərbi Azərbaycan öyrənilərkən erməni mənbələrinə istinad etmədən məsələyə tam aydınlıq gətirmək olmaz. Fikir verin, onlar da Qərbi Azərbaycan toponimlərini tədqiq ediblər. Hətta bununla bağlı 1986-cı ildə İrəvanda erməni dilində “Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti” adlı kitab buraxıblar. Bu kitabla bağlı iki mühüm məqama toxunmaq istərdim. Əvvəla, burada “Böyük Ermənistan” ideyası əks etdirilir. Kitabda “ətraf vilayət” deyəndə Zəngəzur, Bakı, Şəki, Dağlıq Qarabağ, Naxçıvan, Gəncə, Şəmkir, hətta İran, Türkiyə, Gürcüstan ilə bağlı yer-yurd adları veriblər. Guya bunlar tarixən erməni ərazisi olub. Sonra, əsərdə türk mənşəli toponimlər təhrif edilir. Onları erməni dili ilə bağlamaq istəyirlər. Bu kitabda azərbaycanlıların çox olduğu kəndlərin adı qeyd olunmur və ya etnik tərkibi göstərilmir.

*– Elə isə bu kitabla özlərinin əvvəlki tədqiqlərini təhrif etmirlərmi?*

– Onlar əvvəlki tədqiqatçıları mənbə kimi vermir, ilkin tədqiqatçı kimi özlərini göstəriblər. Elə bu məqamda bir

məsələni də xatırladım. Simeon İrəvanlının “Cambr” əsərində XVII əsrdə indiki Ermənistanda yaşamış türk tayfaları haqqında ətraflı məlumat verilir. Digər bir mənbədə XV-XVII əsrlərdə bu ərazilərdə azərbaycanlılara məxsus mülklərin Eçmiədzin kilsəsi və ermənilər tərəfindən ələ keçirilməsi haqqında siyahı göstərilib. Bütün bunlar söz yox ki, öz-özlərini inkardır. Elə bu fürsətdən də istifadə edib biz də çox çalışmalıyıq.

1996-cı ildə akademik Z.Bünyadov və N. Məmmədov “İrəvan əyalətinin icmal dəftəri”ni çap etdiriblər. Əsəri Türkiyə arxivlərindən tapıblar. Etibarlı mənbə olan bu dəftər 1728-ci ildə tərtib edilib.

*– İbrahim müəllim, sizin nəşr etdirdiyiniz “Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti” kitabı da çox maraqla qarşılandı.*

– Kitabda həmin ərazidəki Azərbaycan toponimlərinin formalaşmasında iştirak edən söz və coğrafi terminlər izah edilir. Bu söz və coğrafi terminlərlə əmələ gələn toponimlər, onların arealları verilir. Ümumiyyətlə, Qərbi Azərbaycan tarixi, etnoqrafiyası folkloru, hətta dialekt və şivələrinin öyrənilməsi tarixi zərurətdir. Elmi axtarışlarımızı davam etdirmək isə həm də vətəndaşlıq işidir. Bütün bu və digər belə mövzulu əsərlərin nəşrinə isə dövlət himayəsi lazımdır. Lüğətdən sonra nəşr etdirdiyim “Qərbi Azərbaycanın türk mənşəli toponimləri” kitabım da məhz bu yönlü işlərimin böyük bir hissəsini əhatə edir.

*"Xalq qəzeti"*
*29 yanvar 2003-cü il*

# DOLAŞIQ TALEYİMİZ

O müdhiş qaranlıq yanvar gecəsindən artıq üç aydan çox bir vaxt ötüb. Lakin keçən bu vaxt ərzində nə ağrımız yüngülləşib, nə yanğımız səngiyib, nə də göz yaşımızla, ürək ağrılarımızla itirdiklərimizi geri qaytara bilmişik. Nə də... Heç olmasa, şəhidlərimizin ruhlarını şad edə biləcək əməllərimizi çin edəydik. Bu ümidimizin ilacını isə deyəsən, ilahidən gözləməli olacağıq. Bir yandan fikirləşirsən, ümidsizliyə də qapılmaq olmaz, digər tərəfdən isə ürəyin açılmır ki, əlin işə yatsın. Bir an məni tərk etməyən Ülvi müsibətim dözülməzdi. Qopa bilmirəm onun xəyalından: evdə Ülvimlə, yolda Ülvimlə, işdə Ülvimlə, təklikdə Ülvimlə, həmişə, hər yerdə Ülvimlə. Və mənim üçün çox maraqlıdır ki, bu müsibətimdə Ülvimi heç vaxt kədərli görmürəm. Həmişəki gülümsər  çöhrəsini, mübariz xarakterini görürəm. Bəlkə də haqq işi uğrunda şahiddir deyə, Ülvimin ruhu şaddır.

Belə ağrılı günlərimin birində Cənubi Azərbaycanı, daha doğrusu, Ərdəbili, Tehranı, Məşhədi, Xorasanı və bir çox əyalət və kəndləri gəzib dolaşmış, xoş əhval-ruhiyyəli, səmimi münasibətli, qaynar vətənpərvər hissli Adil Əzizovla görüşüb söhbət etməliydim. İlk söhbətimiz tanışlıqla başladı. O, Masallı rayonunda 1 nömrəli orta məktəbin idman müəllimidir, 32 yaşı var. Yoldaşı Xuraman xanımla birgə Xəyal və Röya adlı şirin-şəkər övladlar böyüdürlər. Sonrakı görüşümüzdə Adil söhbətimizə, daha doğrusu, məndə "alınmayan" müsahibəyə əlavə olaraq Tehrandakı yığıncaqların birində yazdırdığı lent yazısı verdi ki, bəlkə karıma gələ. Həmin görüşümüzdə o taydan yenicə iki qonağı gəldiyini bildirdi. Adildən xahiş etdim ki, qonaqları ilə hökmən görüşmək istəyirəm. Və görüşdük. İlk görüşdə doğma, əziz çöhrələri ürəyimi işıqlandırdı. Tanış olduq: Nadir Salami və Gəncəli Pirbədəli. İllərdən bəri həsrətində olduqları Bakıya gəlişlərindən özlərini dünyanın ən bəxtəvər bəndələri sanırdılar. Əziz qonaqlarımız ilk qədəmlərini ülvi duyğulu Ülvilər

ziyarətgahına basdılar. Bütün şəhidlərimizin məzarları önündə baş əydilər. Ülvimin məzarı üstə əyilib göz yaşı tökdülər. "And"ını oxuyub, ürəklərini sızıldatsalar da "torpaq qeyrətli əsl vətən, xalq övladlarıdır" – deyə qürurlandılar. Və neçə gündür ki, baş tutmayan söhbətimiz sanki buradaca istər-istəməz ürəyimdə özünə bir axar tapdı. Axşamüstü görüşmək qismətiylə ayrıldıq. Bu iki aydan bəri idi ki, ilk dəfə ürəyim açıldı. O taylı qonaqlarımızın gəlişi qəm-qüssəmizi dağıtdı. Az qala yadımdan çıxmış ürək sevincim, gülüşlərim özümə qayıtdı, dünyama yeni işıq gəldiyini duydum.

*– Adil, necə oldu ki, o taya keçmək qərarına gəldiniz? Belə bir xoşbəxt qismət göydən endi, yoxsa...*

– Yanvarın 19-da səhər tezdən elan etdilər ki, sərhədlər açıqdır. Kim istəyir keçib getsin, gəzib-dolaşsın, qohum-əqrabası ilə görüşsün. Bu möcüzənin nə ilə nəticələnəcəyi ağlımıza gəlmirdi. Mən də o tayda olanlarımızla görüşmək istəyi ilə getdim. Və düz bir ay qaldım. Dünyada ən böyük var-dövlət saydığım candan əziz çoxlu dostlar qazandım.

*– O tayda ilk anlaşıqlığınız nədən başladı?*

– Bakıya qonaq gəlmiş şair Piruz Dilənçi ilə yol yoldaşı olduq. Bakıda ikən "qardaş" deyə, bir-birimizlə qucaqlaşıb-doğmalaşdıq. Hətta qohum da çıxdıq (qaynanam Tehranın ən böyük Sümərimlilər tayfasındandır). O taya çatan kimi. Germ rayonunda Piruzu tutdular. 7 gün həbsdə qaldı. Axır 42 səhifəlik izahatdan sonra onu buraxdılar. Biz birlikdə Tehrana getdik. Bir günlük qonaqlıqdan sonra mənim gəlişim münasibətilə böyük bir ziyafət təşkil olundu. Eloğlu, Aqşin Ağkəmərli, Pərvanə xanım, Aydın Təbrizli, Piruz Dilənçi və bir çox ziyalılar, şair və yazıçılar o məclisin ürəkaçan söhbətdaşları oldular. Söhbət əsnasında onların həyat tərzi ilə mən, bizimki ilə də onlar tanış oldular. Və söhbətdən çıxardığımız nəticəylə, sonrakı gördüklərim ürəyimdə bir fikri tamamladı. Bizdə yaşayan 7 milyonluq azərbaycanlıların həyat tərzi (geniş mənada) orada yaşayan 23 milyonluq

Azərbaycan xalqının həyat tərzindən min dəfə artıqdır. Bu mənim qəti fikrimdir, gördüklərimin sübutudur. Orada şəhidlər meydanında olarkən milyonlarla şəhidlərin ruhları qarşısında baş əydim.

*– Siz dediniz ki, ziyalıların böyük məclisi yarandı. Bax, o görüşdə söhbətinizin əsas məzmunu nə idi?*

– Çox məzmunda söhbətlərdə olduq. Əsas narahat problem haqda – 23 milyonluq xalqın azadlıq yolunun hansı imkanla mümkün olacağını düşünürdük. Mənim fikrimə görə isə çox çətin və mümkünsüz dolaşıqlıqdadır bu xalq. Çünki ana dilində bir məktəb yox, qəzet yox, oxuyanı yox. Elmsiz isə heç yana gedib çıxmaq baş tutası işə oxşamır. Kor-koranə mübarizə isə qələbəsiz olar. Üstəlik o tayda da, bu tayda da düşmənlərimizin ayaq açdığı bir zamanda.

*– Tanış olduqlarınızın həyat tərzi haqda bir neçə kəlmə.*

– Bax, götürək, Aydın Təbrizlini – çox kasıb, bəlkə də acınacaqlı bir kəziyyətdə dolanır, üstəlik ilk nigahı uğursuz alınıb. İndi bir uşağı ilə ikinci arvadının yanında yaşayır. Eloğlu – çətin şəraitdə dolanır. Təbrizdədir, bənna işləyir. Piruz Dilənçi – atası varlıdır, yaxşı dolanır. Aqşin bəy diş həkimidir. Mənimlə ilk görüşə qızı Maral xanımla gəlmişdi. Sonra dəfələrlə ona qonaq oldum. Deyim ki, mənim hər ora gəlişimi işində tətil elan edirdi, yəni işləmirdi. Qonaqpərvərlikləri haqda yerdən-göyəcən danışaram. Dolanışıq zülmləri ərşə dayanıb.

*– Bir halda ki, 23 milyonluq xalqın məktəbi yoxdur, demək orada hamı ancaq fars dilində yazıb-oxuyur.*

– Elə deyil. Götürək orada olan 400 min erməni. Öz ana dillərində məktəbləri, qəzetləri, jurnalları, xəstəxanaları və sair hər şeyləri var. Geyimləri avropasayağıdır. Mən bir xəstəxanada oldum. Oranın işçiləri ancaq erməni dilində danışırdılar, olduqca yaxşı əhval-ruhiyyədə, şad-xürrəm dolanışıqda idilər. Hətta "Ararat" adlı ayrıca futbol komandaları da var. "Dağlıq Qarabağ" məsələsinə gəldikdə isə bu tayda olan dil-din qardaşları ilə həm-

fikirdirlər.

*– Keçən ürəkaçan faktlara.*

– Toylarda oldum. Maraqlı idi. Xoşbəxtlik dilədim. Səməd Vurğunun “Azərbaycan” şeiri ilə sevgili duyğularımızı bir daha birləşdirdim. Məşhəd şəhərinə getdik. Orada 8-ci İmam Rzanı ziyarət elədim.

*– Demək, oldunuz Məşədi Adil.*

– Bəli, elədir ki, var. Sonra Evin zindanxanasında oldum. Orada Cənubi Azərbaycan yazıçılarının, şairlərinin əksəriyyəti aylarla, illərlə gecələyiblər. Pirus Dilənçini 40 gün gözübağlı orada saxlayıblar. Qum qəbristanlığına getdim. Maraqlıdır, bura kasıblar, varlılar adlı iki hissəyə bölünüb. Qəbiristanlıq boyu hündür, qırmızı kərpiclə tikilmiş hündür sərdabələr varlılara, aşağıda cəmi dörd barmaq boyu hündürlüyündə divarı olan qəbirlər isə kasıblara məxsus idi. Təbrizdə elan olunmamış fövqəladə vəziyyət olduğuna görə ora gedə bilmədim. Səbəb – guya ki, oradakı azərbaycanlılar inqilab edə bilərlər.

*– Gəzdiyiniz şəhər və qəsəbələrdə yadda qalan xatirə?*

– Təkcə Tehran haqda bir kəlmə deyim. O şəhərin doğrudan da “QorxuluTehran” olduğunu gördüm. Mən bunu hər an hiss edirdim.

*– Adil, Cənubi Azərbaycanda bir ay qalmısınız. Bu müddət ərzində evə qayıtmaq üçün darıxmırdınız ki? Ya bəlkə əksinə, orada qalmaq istəyi ürəyinizdən keçirdimi?*

– Orada qalmaq istəyi! – qəti mümkün olmayan və heç ağlıma gəlməyən şeydir. Şimali azərbaycanlılar heç vaxt Cənubi Azərbaycan şəraitində özlərini xoşbəxt hiss etməzlər. Buna nə şərait, nə də ki, münasibətlər uyğun gəlir.

*– Deyəsən, səyahətinizdəki xoş duyğuların, təəssüf hisslərinin hamısını bu qeydimizə yerləşdirə bilməyəcəyik. Ancaq kifayət qədər məlumat da böyük şeydir. Sizə yeni görüşlər, xoş təəssüratlar, işinizdə uğurlar arzulayırıq, sağollaşıram.*

*"Ədəbiyyat və incəsənət" 27 aprel 1990-cı il*

## AĞRI MƏNİMDİR...

Müsahibim *Strasburq – Azərbaycan Kültür Cəmiyyətinin sədri, Fransa Elmlər Akademiyasının fəxri üzvü, Beynəlxalq Sənaye Şirkətinin elmi işlər üzrə məsləhətçisi, Fransa – Almaniya şirkətinin əməkdaşı, kimya-biologiya elmləri doktoru, "Dağlıq Qarabağ"ın tarixi və ona aid olan sənədlər" (Strasburq – Fransa, 1989) kitabının müəllifi Əhməd bəy Təbrizlidir (Mehribani)* .

– Təbrizdən Almaniyaya gedəndə iyirmi yaşım var idi. İndi isə 55-dir. Düz otuz beş ildir ki, qürbətdəyəm. Bu illər ərzində harada yaşasam da, işləsəm də qəlbimdəki Vətənim, xidmətim isə xalqına aid olub. Əhməd bəy Təbrizli yarıkövrək, yarıhəsrət, yarıqəm, yarısevinc dolu hisslərini redaksiya əməkdaşları ilə bölüşdürürdü. Həyatının məzmunlu, mənalı günlərinin acısı da olub, şirini də. Hər ikisi də bir nöqtədə düyünlənib – Vətənə həsrət yanğısında. Öz dilimiz, öz tariximiz, öz sivilizasiyamız var. Kökləri də qədim bir tarixi gedib çıxır. Belə xalqın oğlu olmağmla bütün dünyada fəxr edirəm. Fəxr edirəm ki, azəriyəm. Uşaqlarım Almaniyada doğulub, Fransada yaşasalar da edə ancaq azəricə danışırıq. Qızım Nərgiz slavyan dilləri üzrə dilçi-filoloq, oğlum Rauf isə Beynəlxalq İqtisadiyyat məsələləri üzrə mütəxəssisdir. Hər ikisi, özüm də daxil olmaqla fransız, ingilis, alman, çex, rus, fars, ispan və azəri dillərini (8 dil) bilirik. Yoldaşım Xədicə xanım isə edar qadındır. Hansı dildə danışıb-işləsək də azəricə düşünür, fikrimizi özümüzdə ancaq bu dildə "dindiririk". Bu, hər birimizin qeyrət borcumuzdur. Dilimizi özümüz, ziyalılar qurmalıyıq. Yoxsa, əks təqdirdə, heç bir tarix bunu bizə bağışlamaz. Təsadüfi deyil ki, ana laylası dil uğrunda ən böyük milli inqilabdır.

– *Əhməd bəy Təbrizli ali təhsilini Almaniyanın Berlin şəhərində alıb. 18 il Berlin Ali Elmlər Mərkəzində kimya-biologiya üxrə tədqiqat işi ilə məşğul olub. Sonra Aktiv Fransa*

*Elmlər Akademiyasında çalışıb. İxtisası üxrə böyük mütəxəssisdir. Bakıya gəlişindən həm də kommersiya işləri ilə maraqlanır.*

– Strasburqda – doğma Azərbaycanından, kəndindən didərgin düşmüş əlli ailə yaşayır. Strasburq – Azərbaycan Kültür Cəmiyyətində birləşən azəri ailələrinə cəmiyyətin xüsusi məramnaməsinə yüksək səviyyədə əməl edirlər. Cəmiyyətin adna olan xüsusi hesabımıza hər ay pul keçirirlər (Əhməd bəy Təbrizli özü bu hesaba hər ilin axırında iyirmi min frank pul daxil edir) və bundan da ancaq xeyriyyə məqsədi üçün istifadə edirik. Məramnaməmizin əsas məqsədi belədir.

Biz orada – Strasburqda çoxdan yaşayan, eləcə də təzə köçüb gələn azərilərin – e, maliyyə, iş sahəsindən olan problemlərinə kömək edirik. Cəmiyyət imkan yaradır ki, burada toplaşıb görüşək. Görüşdə əsas məsələlərdən biri də milli xarakter və xüsusiyyətlərimizi, adət-ənənələrimizi qoruyub saxlayır, hətta gənc nəslə yüksək səviyyədə tövsiyyə və əməl etdirməyə nail ola bilirik. Azərbaycan filmləri gecələri keçiririk. İşgüzar danışıqlar, konsertlər, rəssamların əsərlərindən ibarət sərgilər təşkil edirik. Kitablar, bülletenlər və "Savalan" məcəlləsini çap etdiririk. Bütün fəaliyyətimizlə azəri xalqının nəyər qadir olduğunu, onun kültürünü, qədim tarixini, milli adət-ənənəsini, ədəbiyyatını, görkəmli şəxsiyyətlərini dünya ictimaiyyətinə çatdırırıq. 23 milyonluq bir xalqın doğma torpağında, ocağının başında dilini, mədəniyyətini, tarixi köklərini öyrənilməsini qadağan edirlərsə (və biz də məcbur olub vətəni tərk etsək də) yad ölkələrdə bunları şərəflə yaşadır, cəmi İran xalına bəyan edirik ki, biz də bizik. Yaxınlarda daha iki kitab buraxmaq istəyindəyəm. Azərbaycanın Şimal və Cənub yazarlarının seçmə əsərlərindən ibarət toplu və "Azərbaycan qız və oğlan adları" kitablarını. Öz milli tarixi səiyyəmizi ucaltmaq əzmi ilə mübarizəmizi daim gücləndirməliyik.

Azərbaycanda törədilən haqsızlıqdan, ədalətsizlikdən, zülmkarlıqdan baş götürüb dünyanın saysız-hesabsız yerlərinə səpələnmiş minlərlə, milyonlarla azərilər el-obalarının adicə olaraq ətrini

duymaqdan yana çəkdikləri mənəvi ağrının acısını heç kim yox, təkcə azərilər özləri duyurlar. Xalq müqəddəs əməli ilə, ülvi vicdanı ilə həmişə yüksəkdə dayanıb. Düz 170 ildir ki, bu xalq torpağı qarışıq yağlı tikə kimi iki yerə parçalanıb, illər uzunudur ki, igid-igid ərənlərimiz qanlarına-qəltan olaraq şəhid olurlar. Hələ ki, biz də, tarix də səbr edib və dözürük. Qoy Allah özü kömək olsun.

*"Ədəbiyyat və incəsənət"*
*29 iyun 1990-cı il*

## ALMAS İLDIRIMIN OĞLU QONAĞIMIZDIR

*Son illərin hər günü gözlənilməz hadisələr, gözlənilməz görüşlər ünvanıyla xatirəyə dönür, yaddaşlarda silinməz iz qoyaraq tarixə çevrilir. Bu dəfəki gözlənilməz görüşümün səbəbkarları Türkiyədən gəlmiş Azər bəy Almas və yoldaşı Katerina xanm Almas idi.*

– Mən Almas İldırımın ilk, didərgini olduğu torpağının adını daşıyan Azər oğluyam. Sonralar hiss etmişəm ki, atam adımı çəkəndə xəyalən, fikrən mən Azərlə yox, azəri torpağıyla, azəri xalqıyladır. Onun oturduğu stolun arxasından asdığı Türkiyə xəritəsinin üstündə daim Azərbaycan xəritəsi olardı. Yanında isə anamın səliqə ilə üç rəngdə toxuduğu bayraq. Atam çox az danışardı. Onun zümzüməsi hələ qulağımdadır. (Azər bəy bir anlıq hər şeyi unudub xeyli zümzümə çəkdi). Kədər dolu zümzüməli atamı belə daha çox xatırlayıram. Azər bəydən özü haqda, keçdiyi həyat yolu haqqında danışmağı xahiş etdim. O, böyük məmnuniyyətlə razılıq verirdi və o dəqiqə də başlayırdı atasının keçirdiyi ağır günləri, vətən, xalq azadlığının həsrət yanğısını bircə-bircə nəql eləməyə. Elə bil ürəyindəki o ağrılı tikanları nəhayət ki, çıxarıb atmaq istəyirdi. Azər bəy bu faciənin günahkarlarının kimlər olmasını bilsə də danışırdı: Deyirdi ki, üstündə gəzdiyiniz, həm də parça-parça qonum-qonşuya pay tutduğunuz bu torpaq uğrunda atam tək özünü yox, bütün bir nəslin, ciyərparalarının, oğul-uşağının həyatını girov qoyanlardan biri oldu.

Almas İldırım sürgündə olduğu Aşqabaddan Türkiyəyə gedəndə (1933) mən üç aylıq körpə olmuşam. Anam Zivər xanım bu gün də o dəhşətli anları nöqtəbənöqtə xatırlayır. Türkiyədə, dünyaya gəldikləri ilə köçdükləri bir ilə düşən rəhmətlik ekiz qardaşlarım – Eldəgəz və Yurdavardan sonra daha üç qardaşım həyata göz açdılar. Araz (1937), Otqan (1945) və Bakuxan (1950). Atam Elazığ rayonunun Kəban qəzasında nahiyyə müdiri işləyirdi.

Mən 1952-ci ildə gimnaziyanı bitirən vaxt böyrəklərindən xəstə olan atam rəhmətə getdi. Biz artıq kimsəsiz qaldıq. Üstəlik qoyub getdiyi bir xeyli borc da üstümüzdə. Gimnaziyada oxuyan vaxt mən də şeir yazardım. Sonra, özünün yazdığı

*Ey sən Almas, etmə fəryad,*
*Açma könlün dərdini.*
*Sonra peşiman olma sən,*
*Ehsanı böhtandır onun.*

– misralarını oxudu. Evin böyük oğlu kimi üç qardaşımı, anamı dolandırmaq məsuliyyəti üstümə düşdüyündən qələmi yerə qoydum. Pul qazanıb ailə dolandırmalı idim. Atamın, – bir neft quyusunun başçısı olarsan arzusuyla İstambul texnik universitetinin mədən fakültəsinə daxil oldum. Əlaçı olduğumdan dövlət hesabına oxuyurdum. İkinci kursda məni Almaniyaya göndərdilər. Təhsilimi əla diplomla başa vurub İstambula qayıtdım. Tələbəlik illərimdə gecələr işləyərdim. Hazırda İstambulda Milten şirkətinin texniki işlər üzrə planlaşdırma şöbəsinin üzrə planlaşdırma şöbəsinin müdiri vəzifəsindəyəm. İki oğlum var: İldırım Rutil (1969) və Ömər Səlcuq (1972). İki il əvvələcən qohumlarm haqda heç bir xəbər bilmirdim. İndi isə budur, doğma əmimin evində, həsrətini çəkdiyimiz Bakıdayam. Bununla yanaş, məni ən çox sevindirən o oldu ki, atam Almas Yıldırımı burada türk şairi kimi yox, Azəri şairi kimi tanıyırlar. Üstəlik onun yaradıcılığı alimlər tərəfindən tədqiq olunur. Atam Türkiyədə, dərsliklərdə və müxtəlif mətbuat mənbələrində, eləcə də xalq arasında türk şairi kimi məşhurlaşmışdır. Demək, atam torpağının, xalqının haqq oğluymuş.

*"Ədəbiyyat və incəsənət"*
*10 avqust 1990-cı il*

## "SƏNSİZ OLMASAYDIM, YAZA BİLMƏZDİM"

Gözlənilməz gəliş, gözlənilməz görüş. "Ədəbiyyat qəzeti"nə Aydın Təbrizlinin həmişə şeir dolu məktubları gəlirdi, indi özü gəlib. Məktubları qəlbimizə sevinc gətirirdi, özü torpağımıza "İstiqlal" bayramı gətirdi. Sayalı qədəmlərin o tay üçün də uğurlu olsun. Aydın qardaşım! Aydın Təbrizlini yeddi ildir ki, tanıyıram. Məktublarından, şeirlərindən, xətrini əziz tutduğu Ziyafət xanım Murtuzqızına göndərdiyi nəğmələrindən, bir də qələm dostu, şair Piruz Dilənçinin söhbətlərindən. Yeddi illik qiyabi tanışlıqdan sonra Aydın Təbrizliylə gözlənilmədən görüşdük. O məni tanıdı, mən onu. Şeirlərindəki hiss-həyəcan, ağrı-narahatçılıq, ünyetməz düşüncələr, sevgilər müəyyən cizgilərlə sanki üzünə-gözünə yazılmışdı. Həmin ifadələr tanıtdı, Aydını mənə. O taydan gələnləri "qardaş" deyib, qəlbən həminə əziz tutmuşuq, dərdləşmişik, sevincimizin də, kədərimizin də bir olduğunu görmüşük. Aydın Təbrizlinin geniş dünyagörüşünə, zəngin mənəvi aləminə, saf duyğularına, səmimi söhbətlərinə, təmiz dünyası olan şair qəlbinə heyran kəsildim.

Aydın Təbrizli ilə oxucularımız üçün də söhbətlər apardıq.

*– Aydın bəy, xoş gəlmisən. İlk gəlişin olsa da, oxucularımız sizi çoxdan tanıyırlar. Şeirlərindən hiss olunur ki, sizin də qəlbinizdə bizim yerimiz var. Bütün bunlarla yanaşı, maraqlıdır* ki, Bakıya ilk dəfə ayaq basanda hansı hisslərlə yaşamısınız? Mənə elə gəlir ki, ondan kövrək anınız indiyəcən ola bilməzmiş.

– İlk dəfə olaraq Bakıya gəlirəm. Dediklərimi xurafat və mövhumla hesablamayın. Bakıya gəlməyimə on gün qalmış Bakını necə var, eynən o cür yuxuda gördüm. Ancaq bu yuxudan da qabaq uzun-uzaq illər, həmişə Bakı mənim evimdə-eşiyimdə, gözümdə və ürəyimdə yaşayıbdır. Mən Bakıya daxil olanda elə bilirdim ki, ömrümün əvvəlindən bu şəhərdə olmuşam. Bakının mənə heç bir təzələyi yox idi, amma məni hədsiz-hüdudsuz kədərləndirdi, kövrəltdi. Mən, həmişə ürəyimdə yaşatdığım

Bakını toza batmış, solğun və kədərli gördüm. Nə yaxşı ki, xoşbəxtlikdən bu solğunluq xəzan fəslində olsa da, İstiqlal baharı ilə və xalqın azadlıq əldə etməsi ilə taysız misala çevrildi. Arzu edirəm ki, bu bahar, necə deyərlər, xəzansız bahar olsun.

*– Hər halda ətraflı tanışlıq naminə özünüzü oxuculara təqdim etmənizi xahiş edirəm. İndiyəcən keçdiyiniz həyat yolunuz haqda söhbət açasınız. Bütün bunlar eyni zamanda Cənubda yaşayan şair və yazıçıların həyat tərzini, şairə, sözə o tayda verilən üstünlükləri açıqlayır və ya əksinə.*

– Təbriz şəhərində doğulmuşam. İbtidai orta məktəbi və təhsilim yarımçıq qalmış Universiteti Təbrizdə oxumuşam. Şeir aləminə qədər qoyduğum anlardan həyatım səhifələnib. On bir yaşımdan Təbriz radiosunun o zaman fars dilində erilən uşaqlar üçün verilişi ilə əməkdaşlıq eləmişəm. Sonra Təbrizdə və bütün Azərbaycanda "İttilaat" qəzetinin uşaqlar üçün nəşr etdiyi "Doxtorən və pesarən" ("Qızlar və oğlanlar") jurnalının müxbiri, daha dəqiq desək, baş müxbiri olmuşam. Sonralar "Cəvanan" ("Gənclik") jurnalının, "İttilaat" həftəlik jurnalı və "İttilaat" qəzetinin yaxın əməkdaşı olmuşam. Neçə-neçə məqalə və hekayələrim fars dilində bu mətbuat orqanlarında çap olunub. Təbrizdə nəşr edilən "Azər-abadeqan" qəzetinin baş redaktor müavini olmuşam. On bir il bu qəzetlə əməkdaşlıq etmişəm. Bu qəzetin nəşri dayanandan sonra iki il rəhmətlik Seyid Cavad Peymanın "Füruği azadi" ("Azadlıq şöləsi") qəzetinin baş redaktor müavini işləmişəm. 1963-cü il Təbriz radiosuyla neçə il əməkdaşlıq edəndən sonra, bir rejissor kimi ora daxil oldum və Təbriz radiosunun Azərbaycan dilində gedən verilişində işə başladım. Bu verilişlərdə yazıçı-müxbir rejissor-diktor-montaccı işimi davam etdirdim. Cənubi Azərbaycanda yaşayan aşıqların bu illərdə başçılığını öhdəmə almışdım. İndi isə on ildir ki, Tehranda yaşayıram və əsil işim, – müxtəlif avtomobillərin mexanikliyini bacarıram. Mətbuatda və radio-televiziyada fəaliyyətimi davam etdirirəm. Ailəliyəm. Otuz səkkiz yaşım var.

Üç oğul atasıyam: Əfşin, Anar, Aydın. Xalqla, torpaqla bağlı mənəvi kədərlərimi nəzərə almasaq, xoşbəxt yaşayıram.

*– Mənə elə gəlir ki, dünya yaranan gündən Şərq dünyası poeziyanı yüksəkdə tutub, şairə məclislərin başında oturmağı buyurub, qəlbindən axan sözləri məclisinin nuru, işığı sanıb. Bilmək istəyirəm, həmin o qədim ənənəni rəhbəriniz olan dindaşlarınız sizin üçün əsirgəməyiblər ki? Bir az da dəqiqləşdirsək, Cənubi Azərbaycanda şairə verilən meydan. Bayaq bildim ki, həm də mexanik sənətiniz var, şair-mətbuat işçisi hara, mexaniklik hara.*

– Mexanikliyə çox sonralar gəlmişəm. Bu maddi maraqla, dolanışıq vəziyyətimlə əlaqədar olub. Cənubi Azərbaycanda şeirlə ailə dolandırmaq çətindir. Əgər taleyimi əvvəldən bağladığım mətbuatdan ayırmasaydım, indiki Aydın Təbrizlidən, – üzr istəyirəm, min qat artq Aydın Təbrizli olardım. Şeirə – sənətə həvəsim, – ürək yanmasa, göz ağlamaz. Ürəyimin alovu-yanğısı, məni deməyinə aciz olduğum sözləri yazmağa vadar edib. Bəlkə də bir istək, bir sevgi məni yazmağa çağırıb, necə ki, şeirlərimin birinin bağlamasında gəlibdir:

***

*– Aydın bəy, oxucularımız üçün də maraqlı olar, ailənizdə sizdən başqa da şeir yazan var, yoxsa şeir meydanında təksiniz?*

– Mən bu iki-üç ildə təzə kəşf eləmişəm ki, atamın babası Quluxan kişi Qaradağın Bəzz qalasında (Babək qalasında) yaşayıb, sonra oradan Təbrizin yaxınlığına köçüb. Qəlbi şeirlə-sözlə doluymuş, şeirləri hələ də xalq dilində gəzir. Ağa Mirtağı Abusaleh Pərişan təxəllüslü şeirlər yazan bir şairin dediyinə görə, ustad Şəhriyarın "Heydərbabaya salam" şeirinin formasında ilk dəfə adını çəkdiyim Quluxan babam şeir yazmışdır. İndi isə böyük oğlum, 16 yaşlı Əfşin "Səməd Ölməz" təxəltüsü ilə şeir yazır.

*– Şimali Azərbaycan ədəbiyyatını cənublular necə əldə edə bilirlər? Eyni zamanda orada nəşr olunan kitablara, müxtəlif mətbuat orqanlarına bizim əsərlərimizdən nümunələr daxil edirsinizmi? Ümumiyyətlə, ədəbiyyatımızın Cənubda təbliği və sizin bu sahədə fəaliyyətiniz?*

– Arazın o tayına sizin qəzet-jurnallar az yetişir. İrana səfər edən müsafirlər kitablar gətirirlər, onlardan istifadə edirik. İranda nəşr edilən qəzet və jurnallar geniş surətdə Bakıda, Bakının dörəsində olan rayonlarda nəşr edilən materiallara yer verirlər ki, bizim oxucularımız onlara daha artıq maraq göstərirlər. Şairlərdən, hörmətli dostum N.Həsənzadənin, Nüsrət Kəsəmənlinin, mərhum Atif Zeynallının şeirlərini, Səyyarə xanım Zeynalovanın "Ömürlər" kitabını, möhtərəm yazıçı dostum Cəmil Əlibəyovun "Sınaq" romanını köçürüb çap olunmaq üçün nəşriyyatlarımızın birinə təqdim etmişəm. İndi isə xalq şairi B.Vahabzadənin "Doşana qaç, tazıya tut" və "Şəhidlər" poemasını köçürüb çapa verməyə başlamışam.

*– "Ədəbiyyat qəzeti" öz qardaşlıq ənənəsinə sadiq qalaraq Cənubi Azərbaycan ədəbiyyatına vaxtaşırı yer ayırır, məqalələr, şeirlər, nəsr əsərləri, şəkillər verirlər. Əlimizə keçən Cənub imzalı istənilən bir yazını çap edirik. Üstəlik seimli şairimiz Nəriman Həsənzadənin redaktor olduğu dövrdə qəzetimizin "Ədəbi Təbriz" adlı xüsusi buraxılış nömrəsi oldu. "Ədəbi Təbriz" səhifəsi dərc edirik. Bütün bunlar Cənubda necə qarşılanır və sizin fikriniz, münasibətiniz?*

– Mən "Ədəbi Təbriz"i tərifdən qabaq, tənqid etmək istəyirəm. Sizin təkcə "Ədəbi Təbriz" səhifəsində yox, bəlkə bütün səhifələrində, həm də Arazın bu tayında çıxan qəzet və xurnallarn əksəriyyətində qrafik və foto-sənəti nəhayət dərəcədə zəiflədir.

*– Tehranda olarkən burada kimlərlə görüşmək həsrətindəydiniz? Yolboyu artıq həmin siyahını yəqin* ki, xeyli artırmısınız və dəqiqləşdirmisiz? Sirr deyilsə...

– O adamların görüşünə fikir etdim ki, uzun illər ürəyimdə Bakını yaşatdığım kimi, onlar da mənim ürəyimdə yaşayıblar. Kimi ilk olaraq görmək istərdim? Onları ki, radio-televiziya və mətbuat vasitəsilə adlarını görüb, əsərləri ilə tanış olmuşduq, ancaq özləri ilə maddi aləmdə də görüşüb, deyib-danışmaq arzusunda olmuşdum. Necə deyim, uşaqdan böyüyəcən hamısını. B.Vahabzadə, M.Murad, H.Hüseynov, Ə.Məmmədov, B.Hüseynoğlu və bir çoxları ilə olan görüşlərim isə unudulmazdır.

*– Aydın bəy, şair dostlarınızla, daha doğrusu, şeir-sənət haqda söhbətlərinizi, görüşlərinizi hansı şəraitdə keçirirsiniz?*

– Bizim Təbrizdə, Tehranda, Xoyda, Zəncanda, Səlmasda, Mərənddə və onlarla Azərbaycan dilində danışan adamlar yaşayan şəhərlərdə saya-hesaba gəlməyən şeirseərlərimiz var. Onlar üçün rəsmi şəkildə, daimi olaraq bir yığıncaq yeri olmasa da, ara-sıra bir-birimizin evimizdə yığışıb ədəbi gecələr tərtib edirik. Şeir gecələri və öz aramızda yubileylər keçiririk. Şeir saatlarında ədəbiyyat haqqında fikirlər söyləyirik, şeirlərimizi oxuyuruq, təhlil və tənqid edirik.

*– Aydın Təbrizli Cənubda şair kimi necə tanınır?*

– İki şeir toplusu nəşr etdirmişəm. "Sənsizlik" adlı ikinci şeir toplumdan böyük bəstəkar, ustad Səfərəli Cavid radio-televiziya verilişləri üçün çoxlu musiqi bəstələyib. Təbrizdə bir neçə şeirimə hörmətli bəstəkar və diricor Kambiz Rəhimi musiqi yazıb. Onlarla şeirlərimi Cənubi Azərbaycan aşıqları, o cümlədən aşıq Rəsul Qurbani, aşıq Həbib Aşiqi, aşıq Abbas Rəncbər, aşıq Bulud Cavadi, rəhmətlik aşıq Qəşəm, aşıq Qulu Türkədari, aşıq Cəbrail, Nadir Cəvadi, aşıq Əbdüləli və onlarla başqaları sazla oxuyublar.

*"Ədəbiyyat və incəsənət"*
*8 noyabr 1991-ci il*

## "ARAZI YARA-YARA"

*Qonağımızla görüşəndə ilk andaca üzündə qəribə duyğular oxudum. Elə bil nə özünə, nə də gördüklərinə inanmırdı. Hardan-hara gəlib, kimlərlə görüşüb hal-əhval tutur – taleyinin bu qismətinə bəlkə də ürəyində o an dönə-dönə şükür oxuyurdu. Ancaq bütün bunlar doğru idi. Cənublu Bağır Yəzdani Qasid qardaşımız Bakıda, özü də mənəviyyat ocağımızda – "Ədəbiyyat qəzeti" redaksiyasında oturub – illərlə həsrətini çəkdiyi bu taylı qan qardaşlarıyla söhbət edirdi. Verilən suallara diqqətlə qulaq assa da, bəzən həmin an qəlbindən keçirdiyi hisslərindən, narahatçılıqlarından danışırdı. Həyatından danışdı, ata-babalarından eşitdiklərindən söylədi, qəlbinin şeir boğçasından açıb-tökdü. Doğmalığını, səmimiyyətini bizə sanki bir daha inandırırmış kimi Bakıya düşərkən ilk anda nələr düşündüyünü uşaq sadəliyi ilə nağılladı.*

– İstanbulu görmüşəm, Londonu görmüşəm... Dünyanın çox şəhərlərini gəzmişəm, görmüşəm. Hara getmişəmsə də, qəlbimdə Bakı həsrətiylə gəzmişəm. Bu yurdu görmək istəyim hüdudsuz olub. Nəhayət... çox şükür ki, gəldim, yetdim. Bakı da Bakıdır. Adamlarını yüksək səviyyəli tanıdım. Və ən böyük xoşbəxtlik o oldu ki, Bakınn, bu tay Azərbaycanın İstiqlal gününü Bakıda gördüm, qarşıladım, qəlbən bağrıma basdım. İstiqlal qazanmış Bakımız təki daha gözəl olsun!

*– Olsun qardaşım, olsun! Bu istiqlal havayı qazanılmayıb, qorunması da yəqin o qədər ağır olacaq. Dörd ildir müharibədəyik, torpağımızda günahsız qanlar tökülür. Uşaqlar, körpələr dəhşətli həyatla üzləşiblər. Şəhidlərimizin sayı günü-gündən artır. Bu istiqlalın mayası 20 Yanvar faciəsindən yoğrulub. Ülvilər, Fərizələr, Azərlər, İlhamlar, Rüstəmlər, İlqarlar, Yusiflər itirmişik, itiririk. Bu istiqlalı qazanınca torpaq, vətən şəhidi, Fərizənin timsalında məhəbbət fədaisi olmağı dünyaya göstərdik. Onu da deyim ki, oğullarımızın torpaq şəhidi olması Fərizə-*

*lər məhəbbətindən güc-qüvvət alır.*

– Tərcümeyi-halıma istərəm onu da əlavə edim ki, Atatürk dövründə Türkiyədən qaçan ermənilər, özü də əlisilahlı ermənilər bizim Səlmas şəhərinə soxulmuşlar, dinc, silahsız, xalqı – azəriləri qırıb töküblər. Ata-babalarımız bu vəhşiliyi ömürləri boyu bizə danışıblar. Onlardan eşitdiyim söhbətləri: ermənilərin bizə qarşı etdiyi dözülməz qırğınları, müsibətləri eynilə indi də sizlərdən, bu taydan eşidirəm. Bu ağrılarınızı qəlbən duyuram, qəlbən ağrıyıram, yanıb-yaxılıram. Ata-babalarım Səlmas faciələrinin şahidi olublar, onlardan eşitdiklərimi olduğu kimi yazıya köçürmüşəm. İnşallah, çapa vermək fikrindəyəm.

Özüm Səlmas şəhərindənəm. 35 yaşım var. Sənətim yol-inşaat mühəndisliyidir. Orta məktəbi Səlmasda bitirdikdən sonra Ali təhsil almaq üçün İngiltərəyə yollandım. Faranburu şəhərində Texniki Universitetə daxil oldum. Və az zamanda orada tələbələrin "Azərilər cəmiyyəti"ni yaratdıq. 70 nəfərə qədər üzvümüz var idi. Cəmiyyətin "Şanlı Azərbaycan" adlı qəzetini çıxarmağa nail olduq. Maddi və mənəvi cəhətdən bütün işlər 17 nəfərin üzərinə düşürdü. Hər halda üzvü olduğum vaxtlar fəaliyyətimiz dəyərli oldu. Cəmiyyətin əsas məqsədi orada yaşayan azərbaycanlıları tez-tez bir yerdə görüşdürmək, ana dili və ədəbiyyatımızın təbliğini genişləndirmək idi.

*– Mühəndis Yəzdanini şeirə görəsən hansı duyğular gətirib? – deyə öz-özümə düşünürəm. Şairlik həvəsimi, yoxsa... Qəlbimdən keçirdiyim "yoxsa"ların cavabını müsahibim açıb-tökürdü. Sən demə, onun şeirləri millət yanğısından yaranırmış. Bütün azərilərin qəlbindən keçən qırmızı xətt – qardaş qardaşa, vətən vətənə həsrət, həsrət... xətti onun da qəlbini parçalayırmış.*

– Yuxarıda qeyd etdiyim kimi, yol-inşaat mühəndisi olsam da, qəlbim ki, şeirdən yoğrulub. Bu aləmə gəlişimin tarixini yaxın vaxtlardan hesablayıram. Fikir verin, təhsilimiz fars dilində olur, eyni zamanda təbii ki, fars ədəbiyyatını öyrətdirirlər. Azərbaycan ədəbiyyatına olan həvəsimizi, marağımızı sirli bir boğça kimi

qəlbimizdə gizləyirik, ta məqam yetişənəcən. Sonra... Əvvəlcə kiril əlifbası öyrənirik, sonra ədəbiyyat axtarıb tapırıq və nəhayət, öz istəyimizlə çəkilirik öz Azərbaycan ədəbiyyatımıza. Füzulini, Nəsimini, Əliağa Vahidi oxumuşam və müasir ədəbiyyatımıza da hədsiz maraqlıyam. Ara-sıra "Qasid" təxəllüsüylə şeirlər yazıram. Qəlbim daha çox dolanda çəkilirəm qəzəl guşəsinə. Sərhədlərin ilk dəfə açılan döründə iki yol maraqlandım ki, keçəm bu taya. Sizləri görmək üçün, torpağınızı öpmək üçün, Xəzərin bu başından doyunca içmək üçün, gözlərinizdəki yaşı silmək üçün, qəlbinizin Şəhidlər ağrısına şərik çıxmaq üçün. Sərhədəcən gəldim, amma bütün bu istəklərim talenin qismətiylə bu günəcən qəlbimdə qaldı. Kövrəldim o vaxtlar. Sərhəddən kor-peşiman geri dönüncə bu bayatı qəlbimdən axıb pıçıltıya döndü:

*Əzizim yara-yara,*
*Vurmusan yara yara.*
*Bir qonaq gəlir sizə*
*Arazı yara-yara.*

Ədəbi-bədii məclislərdə iştirak edirəm. Həftənin bir günündə – cümədə şeirsevərlər, musiqisevərlər bir yerə, şeir gecələrinə yığışırıq. Gözəl bəstəkarımız, qırx üç ildir Tehran radio-televiziyasının Azərbaycan orkestrinin rəhbəri olan ustad Səfərəli Cavidlə olan görüşlərimiz daha yaddaqalan, daha mənalı keçir. Ədəbi aləmdəsə qəlbimi rahatlaya bildiyimdən xoşbəxtəm.

Allah sizli-bizli, o taylı – bu taylı hamımızı xoşbəxt eləsin. Bir göy altda bir olan Vətənimizi iki yerə bölən düşmənlərimizin tanrı özü versin cəzasını. Bu taydakı İstiqlalımız ayağısayalı olsun. Allahımız bir, göyümüz bir, dənizimiz bir, Arazımız bir, torpağımız bir olduğu kimi, Vətənimiz də bir olsun! Həsrətli günlərimizin sonu yetsin!

*"Ədəbiyyat və incəsənət"*
*8 noyabr 1991-ci il*

# MODA CƏMİYYƏTDƏKİ PROSESLƏRİ QABAQLAYIR

### İNSAN OVQATI, GÖRÜNÜŞÜ İLƏ ƏTRAFA XOŞ TƏSİR BAĞIŞLAMALIDIR

(Modelyer Fəxriyyə Xələfova ilə söhbət)

Gözəllik sirll aləmdir – ondan nə göz ötürmək olur, nə də doymaq – bir andaca bu sehrin ovsununa düşürsən. Heç o ovsundan – “əsarət”dən çıxmaq üçün tələsmirsən də. Dünyanm hər üzünü unudub o anın bəxtəvərliyində mələk kimi uçursan, uçursan... Bir göz qırpımı ömrü olan gözəllik ovsununun təəssüratını isə xeyli yaşamalı olursan...

Beş - altı ilin sözüdür. Televiziyada bir qız “peyda” oldu. Danışığına bir az da şirin Türkiyə ləhcəsi qatıb gözəllik aləmindən – modadan söz açmışdı. Bir-iki dəfə belə “görünəndən” sonra bir dəstə “mələk kimi uça-uça yeriyən” qızlarla səhnəyə çıxdı. Belə deyək ki, “moda” göstərirdilər. Elə - beləcə görüntüləriylə, söhbətləriylə özünə xeyli tamaşaçı, oxucu auditoriyası topladı. Moda haqda maraqlanan hər kəs onun gördüyü işlərinə, yeni fikirlərinə, təsvirlərinə diqqətlə yanaşdı. Budur, həmin qız – indi hamının tanıdığı, modelyer Fəxriyyə Xələfova ilə söhbətimiz oxucularımız üçün də maraqlı olar.

– *Fəxriyyə xanım, bəlkə moda aləmi haqda bizdəki ilkin təəssüratı xatırlayaq.*

– Modanın öz adət-ənənəsi, inkişaf yolu vardır. Bununçün müəyyən şərtlər, imkanlar da yaranmalıdır. Yaxın keçmişə nəzər salsaq, təəssüf olsun ki, bunlar moda sahəsində yox dərəcəsindədir. Sovetlər dövründə yalnız bir yerdə – Moskvada Ümumittifaq Modalar evi deyilən qurum fəaliyyət göstərirdi. Bütün moda qəlibləri (ölçüləri) orada hazırlanır və yerli təşkilatlara, o cümlədən Azərbaycana daxil olurdu. Elə bu ölçülərlə də yerlərdəki fabriklərdə geyim istehsal edirdilər. Bu zaman milli zövqlər, adət-ənənələr nəzərə alınmırdı.

Hətta iqlim şəraitinə belə diqqət yetirilmirdi. Axı hər ölkənin öz iqlimi var. Tutaq ki, üst geyimi – paltoları götürək. Bu paltoları Azərbaycanda geyinmək mümkün deyildi. Amma həmin paltolar bizdə hər dükanda satılırdı, heç kəs də onları almaq istəmirdi və bunlara alternativ paltolar da yox idi. Problem də onda idi ki, Sibir üçün nəzərdə tutulan geyimlər bizə də göndərilirdi, istehsal olunurdu və dükanlarda qalaqlanıb qalırdı. Bu məsələlərə hələ o vaxtdan öz baxışlarım olub. Xarici ölkələrdəki sosialist dövlətlərində bu problem yox idi. Bəs bizdə niyə belə idi? Çünki bu qədər böyük Sovetlər İttifaqını əhatə etmək üçün Mərkəzi Modalar evində ortaq bir variant seçilirdi. Bu isə artıq fərdi olmurdu. SSRİ modası ona görə də digər sosialist dövlətlərindən geridə qalırdı – hələ heç kapitalist ölkələrini demirəm. Bütün bunlar illərlə məni düşündürüb, lap gerçəyi narahat edib. Günlərin birində əlimə gözəl bir şans düşdü. Uşaqlıq, gənclik arzuma sadiq qalaraq Türkiyəyə moda üzrə təhsil almağa yollandım. 1997-ci ildə moda peşəsi üzrə təhsilimi tamamlayıb Bakıya qayıtdıqdan sonra eynilə oxuduğum məktəb kimi bir moda məktəbi açmaq istədim. Bu məktəbin digər ali məktəblərdən fərqi nə idi? Burada konkret bir sənətin bilicisi olursan – həm elmə, həm də peşə ustalığına yiyələnirsən. Belə məktəblər məşhur moda adamlarının – müəllif məktəbləri olur.

*– Avropa mədəniyyətini mənimsəmiş zəngin bir Şərq ölkəsində təhsil almısınız. İllərlə ürəyinizdə gəzdirdiyiniz arzunuza çatmısınız.*

– Orada həm oxuyurduq, həm də praktik peşə həyatı yaşayırdıq. Bax onda çox şeylər öyrənirdik. Bakıya qayıdandan sonra əvvəl işə başlamaq çox çətin idi. Bəzən fikirləşirdim ki, bəlkə orada – Türkiyədə qalaydım. Buna imkanlarım çox idi. Amma əvvəldən də dediyim kimi problemlərimizi görür, dərk edir və narahat olurdumsa, demək burada çalışmağım lazım idi. İndi də o problemlər var. Amma bu gün istədiyimiz paltonu ala bilirik. Çünki iqtisadi bazar genişlənib, seçim çoxdur. O vaxtlar isə

gülünc forma var idi – ya istidən bişirdin, ya da soyuqdan donurdun. Adicə məktəb paltarlarını götürək. Qalın yun parçadan don geyərdik və soyuq ölkələr üçün nəzərdə tutulmuş o paltarda burada – odlar yurdunda istidən bişərdik. Nə isə. Şükür ki, ötüb keçdi o günlər. Azad, müstəqil ölkədə yaşayırıq.

– *Nədən başladınız işə?*

– Əvvəl təbliğat məsələləri ilə məşğul oldum. Kolleksiyaların zahiri tərəfi – yaranması, nümayişi, təqdimat mərasimləri bir az sonra oldu. Moda barədə söhbətlərimi, fikirlərimi televiziya vasitəsilə deyirdim. Bu rubrika milli televiziyamızda ilk qaranquş idi. Dörd-beş il əvvəl moda mövzusu daha az yayılmışdı. Mövzu ilə bağlı kassetləri Moskvadan əldə edirdim. Orada maraqlı bir proqram var – onun kassetləri satılırdı. Mən onları alıb bir az da üstündə işləyib, müəyyən montajlardan sonra televiziyada nümayiş etdirirdim. Bunlar insanlara maraqlı görünürdü. Bu verilişlərə baxırdılar, valeh olurdular, nəyi isə götürməyə çalışırdılar. Ecazkar, gözəl bir aləmə baxmaqdan adam doymur.

– *Bayaq dediniz ki, moda cəmiyyətdə gedən prosesləri qabaqlayır.*

– Bu, modanın əsas keyfiyyətlərindən biridir. Modanı yaradan insanlar başqalarından çox fərqlənirlər. Modelyerlər, modanm fəlsəfəsi, nəzəriyyəsi ilə məşğul olanlar bu prosesləri başlayırlar və 4-5 ildən sonra görürsən ki, cəmiyyətdə bu müşahidə olunur. Modanın rolu bundadır – cəmiyyəti irəliyə aparır, bu dəyişikliklərlə istər-istəməz nə isə cəmiyyətdə dəyişir.

– *Modanın tarixi hansı illərə gedib çatır? Söz yox ki, Azərbaycan kontekstində nəzərdə tuturam.*

– Təəssüflər olsun ki, bizim moda tariximiz tədqiq olunmayıb. Bizdə Azərbaycan milli geyim anlayışı var. Yəni ki, stereotip bir forma – görünüş olub. Onların formalaşması XVI-XYIII əsrə təsadüf edir. XVIII əsrdə tam formalaşıb indiki görkəmini alıb – bu dövrdə "Azərbaycan milli geyimi" anlayışı, forması və məzmunu bitkinləşib. Və son bir nöqtəyə gəlib ki, hamımızın geyi-

mində o görünüşün müəyyən çalarları qalıb. Sonra nə oldu? XIX əsrdə bu geyim üslubu dəyişməyə başladı. Avropa modası Azərbaycana gəldi.

– *Bu nəylə bağlı oldu?*

– Bu moda ümumi ticarət yoluyla gəldi. Ticarət, neft sənayesi inkişaf etdi. Avropaya gediş-gəliş oldu. Avropa geyiminin Azərbaycana daxil olması prosesi çox rahat getdi. Əsasən də kişi geyimləri çox tez dəyişdi. Qadın geyimləri isə yarbaıyarı dəyişdi. Belə deyək ki, bir mərasimə Avropa geyimi, digər mərasimə milli geyimlə getdilər. Amma hər ikisi? qadın və kişi Avropa geyimləri artıq gündəlik həyatımıza daxil oldu. O ki qaldı Avropa geyim tərzinə. Bu geyim üslubu XII-XV əsrlərdə formalaşdı, XVI-XVIII əsrlərdə isə artıq öz zirvə nöqtəsinə gəldi. XIX əsrdə artıq universal – bəlkə də müasir geyim növləri icad olundu. Müasir geyim Avropanın müxtəlif ölkələrinə yayılaraq təkmilləşdi və nəhayət beynəlxalq geyim üslubu yarandı. Nəzərdən qaçırmayaq ki, Avropa; geniş anlayışdı. Onların da öz geyimləri, adət-ənənələri var.

– *Çox maraqlı, diqqətçəkən bir tarixi araşdırdıq. Bütün bunlardan xəbərdar olan, onu bir elm kimi mənimsəyən Fəxriyyə Xələfova milli konteksdə bir iş görmək fikrini qətiləşdiribmi?*

– Ümumiyyətlə, nəzəriyyə ilə məşğul oluram – Azərbaycan milli geyim problemi məni çox maraqlandırır. Deyə bilmərəm ki, tədqiqatlar aparmışam. Amma mən araşdırmalar içərisindəyəm. Moda aləmində maraqlı bir fikir var. Nə vaxt ki, əsas məsələdən damşırıq xırdalığı unutmamalıyıq, nə vaxt da ki, xırdahqlardan danışırıq əsas məsələni unutmamalıyıq. Həmişə əsas məsələdən danışıram. Amma xırdalıqlardan – tikmələrdən danışmağa bir az çətinlik çəkirəm. Araşdırmada bu hissəcikləri – xırdalıqları tapa bilmirəm. Bir neçə ay əvvəl bir tikmə növü ilə tamş oldum. Çox maraqlı və fərqli üslubda idi. Rəng palitrası xüsusilə seçilirdi. Halbuki belə bir üslubu Avropadan gəlmə kimi fikirləşirdik. Sən demə milli tikmələrimizdə belə şeylər olub.

– *Bu günlər konkret nə işlə məşğulsunuz?*

– Bir neçə istiqamətdə işlərim var. Əvvəla, modanın nümayişi sevdiyim işdir. İmkanım olsa hər gün edərdim. Fikir verin, gözəl musiqi... rəngbərəng işıqlar... yüksək əhval-ruhiyyə... mələk kimi süzən qızlar ... bunlar hamısı fantaziyadır. Mövsüm dəyişdikcə – vaxtaşırı bunları edirəm. Bəzən isə istəsəm də edə bilmirəm. Bu işlər çox baha başa gəlir. Amma bu arada boşluq yaratmıram. Sənədli bir televiziya filminin ssenarisi üzərində işlərim başa çatmaq üzrədir. Filmdə əsasən Azərbaycan milli geyiminin formalaşması, mükəmməlləşməsi əks olunacaq. Modaya dair elmi, fəlsəfi ədəbiyyatlarla mütəmadi tanış oluram. Qiraətim daha çox internetlə bağlıdır. Daha sonra qadınlarımız üçün aksessuarlar hazırlamaq üzərində düşünürəm. 60-cı illərdən elm kimi formalaşmağa başlayan dizaynla (fundamental elm olmasa da) maraqlamram.

– *Modelyerlər arasında iş prinsipi necə qurulur. Modanın təbliği, yayılması, formalaşması sahəsində ilk qaranquş hesab edilsəniz də indi modelyerlər, moda haqda verilişlər, yazılar, söz-söhbətlər çoxalıb. Bilmək olarmı, Sizlərin arasında rəqabət meydanı necə qurulur?*

– Əvvəla deyim ki, modayla məşğul olmaq fərdi işdir. Onlar arasında rəqabət olmur. Ona görə ki, mənim zövqümü seçənlər mənimlə olur, digərinin zövqünü seçənlər onunla. Moda aləmi olduqca maraqlıdır. Onun iki tərəfi var. Sənət və biznes. Sənət tərəfi göz önündə olur, onun şou hissəsidir. Bu hissədə insanları maraqlandırırsan – əyləndirir, röya dolu bir dünyanın səyyahına çevirirsən, zövqlər o an daha aliləşir. Bu hissədə rəqabət olmur. Yüksək səviyyədə kolleksiyaların təqdimatını keçirirsən. Əgər xoşa gəlməsə ikinci məclisinə gələn olmayacaq və öz-özünə sıranı tərk edəcəksən.

Biznes tərəfində isə insanlara keyfiyyətli, rahat, gözəl geyim təqdim etməlisən ki, bazarın alınsm. Geyim istehsalında rəqabət var. Modanın sənət tərəfində yox, istehsalında rəqabət var.

Tanınmış modelyerlərin bir yüksək moda nümayişi var, bir də gündəlik geyim istehsalı. İkinci tərəf birinci tərəfi irəli aparır. Biz əsasən insanları geyindirməklə məşğul oluruq. Yanımdan ötən hər qadın məni düşündürür. Elə etməliyəm ki, bu qadın daha yaxşı, daha rahat geyinsin. Ozümüzdən asılı olmayaraq bu məsuliyyəti daşıyırıq. Bir faktı xatırladıram ki, yaradıcı insanlar – yazıçılar, memarlar, rəssamlar, musiqiçilər, modelyerlər ali zövq sahibləridirlər, onlar dünyanın görünən səmtini dəyişdirir, gözəlləşdirirlər. Bütün bunları dərk etmək, düzgün adaptasiya etmək, zənginliyi ilə diqqət çəkmək, fərqlənmək üçün fəlsəfi, psixoloji elmləri dərin bilməlisən, bu elmlərlə hər gün məşğul olmalısan. Bir faktı yekunda təkrarlamaq istəyirəm ki, insan öz ovqatı, görünüşü, əhval-ruhiyyəsi ilə ətraf mühitə daim xoş təsir bağışlamalıdır. Hər kəs buna çalışmalıdır.

– *"Fəxriyyə Xələfova firması"ndan olan paltarları nə vaxt görəcəyik, geyəcəyik. Bu haqda heç düşünübsünüzmü?*

– İnşallah. Əlbəttə bunları istəyirəm. Sadəcə bu illər ərzində bilmək istədim ki, mənim fıkrim, üslubum insanları maraqlandırırmı? Deyəsən zaman öz sözünü deyir. Bir halda oxucum, tamaşaçım, məni tanıyan, bilən hər kəs bu problemlə düşünürsə, nə isə gözləyirsə onda işlərimi sürətləndirərəm.

Zəngin dünyagörüşlü, intellektual səviyyəcə yüksəkdə dayanan, maraqlandığı elmlərin dərinliyinə can atan, cyni zamanda xoş əhval-ruhiyyə, gözəl ovqat yaratmağı bacaran şirin sözsöhbətli Fəxriyyə Xələfova fəlsəfi, psixoloji düşüncələri ilə də maraqlı müsahib idi.

*"Xalq qəzeti", 16 oktyabr, 2002-ci il.*
*"Atilla", 2004-cü il səh.43-45.*

# TARİXİN YADDAŞI KİTABLARDIR

***Baxışları  sirli nağıl***
***Gözlərindən alov yağır.***
***Tez-tez sola-sağa baxır,***
***Bu qız görən hara gedir?***

***Dabanları asfalt dəlir,***
***Birdən durur, birdən gülür.***
***Bu qız görən hardan gəlir?***
***Bu qız görən hara gedir?***

***Elə bil ki, dağ çayıdı,***
***Çay nədir ki, selə taydı.***
***Kaş xatası çıxmayaydı,***
***Bu qız görən hara gedir?***

***Ülvi B.***

# XALQIN TALE İTKİSİ

***"Didərginlər" kitabı***

Göyçə torpağına, Göyçə camaatına vaxtilə (elə indi də) etdiyi maddi və mənəvi köməkliyi sayəsində o ellərin doğması kimi sevilən Hüseyn Arifin "Göyçəlilər, dağılmayın Göyçədən" misrası ilə başlanan məşhur şeir-müraciətindən bir müddət sonra ictimai-siyasi tarixin bəlası kimi ürək parçalayan bir "Didərginlər" kitabı yazıldı, ikisi, üçü də yazılacaq, min kitablıq isə içimizi doğraya-doğraya nağıl təki ötürüləcək nəsillərdən-nəsillərə. Yaddaşlardakı xatirələri sökdükcə ürək tab gətirməyəcək, qəlblər ağrıdan daşa dönəcək, söz demək əvəzinə sızlayacaq, inləyəcək.

"Didərgin" mövzulu ədəbiyyatın təşəkkül tarixi, daha dəqiq desək, Azərbaycan torpağının parça-parça bölünərək paylanması vaxtına təsadüf edir. İmperiyanın köməkliyinə arxalanan daşnakların haqsız iradları ilə coğrafi xətlər dəyişilmişsə, canlı şahidlər – yerlilər öz torpaqlarından qovulmalıymış. Artıq bu həqiqətə hazırkı ictimai-siyasi tarixin gedişatına əsaslanıb inanıram. Zamanın haqsızlıqlarına, insan hüquqlarının tapdalanmasına görə bu faciələr vaxtında yazıya alınmayıb, tarixləşməyib, – əfsanələşib, nağıllaşıb, dildən-dilə, nəsillərdən-nəsillərə söyləmələrlə keçib. Və o səbəbdən də bəd ayaqda düşmən qarşısına dəlil-sübut üçün bir şey qoymağa çətinlik çəkirik. Ümumiyyətlə, bu mövzulardakı yazılarla yaddaşlarımızdakını tərəziyə qoysaq, nə qədər ağır ədəbi-tarixi itkilərimizin olduğunu görərik və o da bəlli olar ki, "didərgin" mövzulu ədəbiyyat el ədəbiyyatı kimi "yaşamış" və nəhayət yeni ictimai-siyasi şəraitin ədəbi mühitə də verdiyi imkanlar daxilində yazılı mənbələrdə artıq köklənir. Təkcə XX əsrdə başımıza açılan oyunların tarixlərini yadımıza salsaq, hər şey təzədən çözələnər, saysız-hesabsız ədəbi ağrılı qaynaqlar üzə çıxar. Bu müddətdə xalqın itkisi torpağı olub,

yurdu-yuvası olub, tarixi olub. Xalqın tale itiyi isə lap dəhşətdir. 1905-1906, 1915, 1918, 1920 və Sovet hökuməti dövründəki (hər ilki pərən-pərənlikdən əlavə) 1948-52-ci illər, nəhayət, 1988-89-cu illər milli tariximizdə qara xətlərlə yazılacaq, kədərlə xatırlanacaq, unudulmayacaq, zaman gəldikcə xalq haqqını tələb edəcək. 1948-52-ci illər köçürülmə siyasəti nə qədər dəhşətli olubsa da bir o qədər də ört-basdır edilib. Nə ədəbiyyatın, nə geniş kütlənin ixtiyarı olmayıb ki, "didərgin", "qaçqın" sözünü dilə gətirsin, bu haqda düşünsün, nəsə yazıb sənədləşdirsin. Bütün bunların günahı mənə elə gəlir ki, ictimai-siyasi tarixdə olubsa, özümüzdə də olub. İctimai-siyasi səbəblərə görə çap olunub üzə çıxarılmaq mümkün deyildisə, yazıçı arxiv materialı kimi bu gün milli ədəbi tariximizin hayına yetərdi. Yazıçı Ə.Cəfərzadənin "Didərginlər" kitabına daxil edilmiş məqaləsində deyildiyi kimi, "hələ keçən əsrdən peyda olan daşnak planının nəticəsində Ermənistandan qovulan didərginlərimizin acılı-ağrılı günlərini sənətin hansı növündə tarixə salmışıq?". Müəllif tarixi fakt kimi etiraf edir ki, öz taleyimizə biganəliyimizdən, laqeydliyimizdən başımıza açılan fəlakətlərdən ayılmamışıq, bu da son, bu da nəhayət. Nə yaxşı ki, nəhayətdəsə bu kitab yarandı, daha doğrusu cığır oldu.

Ülvimin bir şeiri var:

*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdadır.*

"Didərginlər" kitabı belə qeyrət dolu cığırdır. Kitab faciəvi 1988-89-cu illər tarixi ilə bağlı yazılsa da, 1918-20, 1948-52-ci illər itkiləri də xatırlanır, yada salınır. Tərtibatçı toplunu nəşr etdirmək təşəbbüsündə olarkən əsas bir məqsədi – xalqın doğma torpaqlarından erməni daşnakları tərəfindən zorla qovulmasını, onların başlarına açılan oyunları, faciəvi hadisələri, gördükləri dəhşətləri hələ həqiqət kimi anlamayaraq etdikləri qeyri-adi söhbətləri, şahidi olduqları vəhşilikləri bircə-bircə yazmağa, toplamağa çalışmışdı.

"Gənclik" nəşriyyatının ötən ilçapdan buraxdığı "Didərginlər" kitabı (tərtibatçı şair-publisist Hidayətdir) həm ictimai-tarixi, həm də bədii dəyəri baxımından diqqətəlayiqdir. Və deyək ki, "didərgin" mövzulu ilk bədii-tarixi topludur (son illər ayrı-ayrı mətbuat səhifələrində bu mövzuda daha çox yazılar və bu vacibdir). Kitabda toplanmış yazılarda milli faciənin dəhşətindən sarsılırsan, könülə yatan təkcə o olur ki, bu faciələr daha yazılır, hər kəs öz sahəsində köməkliyini əsirgəmədiyi kimi, ədəbiyyat da bu "yardım"dan kənarda qalmayır (əslində, ədəbiyyatın öz ağrısıdır). "Didərginlər" kitabı ötən o günləri tarixləşdirib, yaddaşlardan kağıza köçürməyə imkan tapıb. Kitabın əsas məziyyətlərindən biri də odur ki, faciəni də buradan oxuyursan, təsəllini də buradan tapırsan. Xalq yazıçısı İsmayıl Şıxlının kitabda gedən yazısında ermənilərin törətdikləri cinayətlərdən belə bir məzmunda söhbət açılır: "Bizim xalq torpağa, vətənə bağlı xalqdır. O hər saatda yurdundan, yuvasından ayrılan deyil! Onları ayırdılar, zorla, fitnə-fəsadla!". Bu tarixi gerçəkliyin bədii əksidir. Düşmənə cavabını da yazıya başlıq seçməsi təsadüfi deyil: "Su axan yerdən bir də axar". Yəni o torpaqlar – Göyçə də, Zəngəzur da yenə də od oğullarının ocağı ilə hənirlənəcək.

Topluya 31 müəllifin – şahidlərin, publisistlərin, yazıçıların məqalələri daxil edilmişdir (bu yazıların çoxu mətbuat səhifələrində dərc olunub). Azərbaycan xalqının başına açılan misli görünməmiş dəhşətlərin, tarixi həqiqətlərin bədii ifadəsini oxuduqca diqqət mərkəzində bir şey dayanır: Dinc xalqın – doğma torpağın faciəli taleyi. Ayrı-ayrı məqalələrdə verilmiş epizodlar nə qədər acı, şirin maraq doğursa da, insan taleyinin müəyyən anındandır.

**Haşiyə:** O günlər anamın keçirdiyi narahatçılıqlar: A bala, çörəyi bişirmişdim və süfrə üstə sərmişdim ki, içini çəksin. Sonra tavağa yığım, yığammadım, sərilicə qaldı süfrədə; Bir də inəyi sağdım, nə südü süzdüm, nə də ağzını örtdüm. Turşuyacaq, baxma, hər ikisi bərəkətdi, allaha xoş getməz.

Yeri Gəlmişkən: Son köçürülmə, qovulma siyasəti 1988-ci ildən yazılırsa, bir şahid kimi deyim ki, o torpaqda doğulub yaşadığım 23 il ərzində hər an düşmən tələsini görürdük, düşmən fitnə-fəsadı ilə üzləşirdik. Yadımdadı, rayonumuzun adını dəyişib Vardanis qoyanda kənd camaatının üzüntülü günlər keçirdiyi... Azərbaycana üst-üstdən nə qədər teleqramlar vuruldu. Elə bil quyuya daş atırdın. Camaat hər yerdən əlini üzüb naəlaclıqdan bir az sakitləşən kimi kəndimizin qədim Kəsəmən adını əvvəlcə İliçovka qoymaq istədilər, kənd camaatının üsyanını görüb rayonun böyükləri yığıncaqdan qaçıb getdilər. Bir aydan sonra kəndin girəcəyindən 3 kilometr aralıda bir dirək basdırdılar, üstünə "Bahar" yazılmışdı. Sahə milisi Muradyan bəlkə də bir aydan çox o dirəyin yanında yatıb-durdu. Sonra yenə də sakitlik. Və beləcə, Basarkeçər Vardenis, Kəsəmən Bahar oldu. Ancaq hələ də o kənddən heç kəs nə Vardanis sözünü deyir, nə də Bahar. "Bahar" siyasəti bütün kəndlərdə aparıldı, eyni gündə, eyni anda: Qanlı, Çaxırlı, Qızılvəng, Qaraiman, Canəhməd və sair kəndlər dönüb oldu Torfavan, Sovetagerd, Makenis, Akunk, Lusakunk və sair.

"Didərginlər" kitabında tarixi faktlara istinadlanaraq şahid kimi gördüklərini yazan Hidayətin "Didərginlərə məktub"u tarixi əhəmiyyəti baxımından dəyərli sənəddir. Bu məktub taleyimizin faciəvi tarixli anından yazılı mənbədir. Bu məktub həqiqətləri aşkarlayan, tarixləşdirən sənəddir. "Ermənilərin didərginlik "kampaniyası" nə dünənin söhbətidir, nə bu günün. Yüz ildən çoxdur ki, bizi qədim torpaqlarımızdan, isti ocağımızdan qol zoruna, silah gücünə, mənəvi və fiziki repressiya gücünə, ölümlə... qovurlar. İlk didərgin dəstələri keçən əsrin axırlarında ulu yurdlarını tərk eləmişdilər. Bircə onu demək kifayətdir ki, Rusiyaya birləşdiriləndən İrəvan xanlığı əhalisinin 73,8 faizi azərbaycanlılar idi. ..."Daşnaksütun" partiyası yaranan gündən (1890) azərbaycanlıları "Ermənistan vilayəti" deyilən ərazidən qovmaq məsələsi başlıca məqsəd kimi qarşıya qoyuldu. Və budur, nəhayət müəyyən şeyləri sona çatdırdılar, bu gün İrəvan

torpağında bir nəfər də azərbaycanlı yoxdur. Müəllif, daşnakların bütün mənfur niyyətlərini açıb tökmüş, onları lənətləmişdir.

*Ruhu məni bağışlasın Qəşəmin,*
*Göyçə söndü, sönməsiylə o şəmin,*
*Sonu çatdı fərəhimin, nəşəmin,*
*Qoç oğluyla elə qiymət qoyarlar,*
*Hər qapını yiyəsiylə sayarlar.*

Məmməd Aslanın kitaba daxil olmuş şeirindən bir bənddir. Və bu misraları oxuyanda mərhum Qəşəm Aslanovun bacısı Sona xalanın hərbçilər kənd camaatının başının üstünü kəsdiyi vaxt dediyi sözlər yadıma düşdü: "Ay Qəşəm, bir bax, camaatın pərən-pərəndir. Yiyə duranı, hayına yetəni yoxdur, kəndin dağılır. Bütün Göyçə torpağının əzizi Qəşəmin ruhu o anda qəm-qüssəylə – kəndin üstündə dolanırdı, bəlkə də haqdan imdad diləyirdi. Onu bilirəm ki, o torpaqlara biz ruhlarımızın köməkliyi ilə, haraylarıyla qayıdacağıq, mən buna əminəm. "Didərginlər" kitabındakı məqalələri oxuduqca hiss edirsən ki, Tahir Talıblı, Bilal Muradov, Məmməd Oruc, Qulu Kəngərli o yazıları başa vurunca, üzüntülü anlar yaşayıblar. Hamısı kəskin, hamısı dolğun, hamısı ağlamalı, hamısı yaşanmış tarixin müəyyən anı... Və təəssüf ki, bütün yazılar haqda fikir söyləməyə imkan yoxdur.

"Didərginlər" kitabı hər bir didərgin ailənin stolunun üstündədir. Öz ağrılarına oxşar sətirləri kitabın səhifələrində tapanda təsəlli tapırlar ki, onların bu faciələrini duyan, ağrıyan var. Bu kitabın ən əhəmiyyətli cəhəti odur ki, vaxtında biganə qaldığımız xalq – torpaq taleyi tarix boyu unudulmayacaq. Bu kitab sənəddir. Bu kitab təsəllidir. Bu kitab tarixdir. Bu kitab ictimai-siyasi tarixin ağrılarından doğan milli-ədəbi izdir.

*" Ədəbiyyat qəzeti"*
*30 avqust 1991-ci il*

# BİR OVUC VƏTƏN TORPAĞI

"Silinməz adlar, sağalmaz yaralar..." kitabı hər an ürəyimin başında titrəyən, köynəyən doğma İrəvandan – ulu Göyçəmdən gətirilmiş bir ovuc Vətən torpağını xatırlatdı. Toplunun üz qabığında əks olunan Göyçə gölü gözümdə aşıb-daşaraq düzüdünyanı öz suyuna qərq edən qəm dəryasına döndü. İstər-istəməz ötənlərə, keçənlərə qayıtmalı, narahat, səksəkəli yaşadığımız, ağrıya-ağrıya, yana-yana yaşadığımız günlərin, illərin havasına köklənməli olursan...

Savadı, qabiliyyəti, ağlı ilə seçilib üzə çıxan hər bir ziyalı erməni qərəzçiliyindən, böhtanından, daşnak dözülməzliyindən bezərək, üzülərək son məqamda öz elindən baş götürüb gedirdi. Mərkəzdə – qədim İrəvan şəhərində vəzifədə barmaqla sayıla biləcək ziyalılarımız qalmışdı. Uzun illər ad-sanlarına qürrələndiyimiz, xətir-hörmətlərinə güvəndiyimiz, mənən darıxan məqamlarda arxa bilib söykəndiyimiz bu ziyalıların – elm, sənət adamlarının, yüksək vəzifələrdə çalışanların hansı sıxıntılar girdabında işləmələrini də bilirdik, duyurduq. Ona görə də üz çevirib gedənlərdən heç kəs inciməzdi, küsməzdi. O da hamıya gün kimi aydın idi ki, kim hara yön alsa da, yenə öz vətənpərvər mövqeyində, el-oba qayğıkeşliyində, ürəyinin səngiməyən yurd hayında-hoyunda olacaqdır. İllah da ki, vətən, torpaq qoruna için-için yanasan. cecmaq olarmı? Çağlar bulağın gözünü nə qədər bağlasan da, axıb bir başqa səmtdən qaynayacaq.

Zəhmətkeş jurnalist ömrü yaşayan, ağır salğarlı bir elin, xalqın taleyinə yanan, ağrı-acılarına hay olan, indi məni o illərə qaytaran "Silinməz adlar, sağalmaz yaralar..." kitabının müəllifi Həbibl Rəhimoğlu həmin ziyalılarımızdan, ürəyi təpərli vətən oğullarımızdan biridir. Həbib Həsənovun imzası İrəvan bölgəsində hər kəsə həmişə doğma, yaxın bir ad olub. Zəhmətə, elmə, savada, insanlığa dəyər verən insan kimi hər kəsin diqqətində ucalarda dayanıb. Bir faktı da indi xatırladım ki, onun haqqında

bəlkə də ən isti, ən məhrəm fikirləri, duyğuları həyat idealım saydığım, əvəzsiz insan Qəşəm Aslanovun "Xatirələr" əlyazmasında oxumuşam.

"Silinməz adlar, sağalmaz yaralar..." kitabı ilk baxışda adi oxucular nəzərində tarixi-coğrafi məzmunlu ensiklopediyadır, yazılı xəritədir – vaxtilə İrəvan xanlığı kimi tanınan, ondan da irəli əzəli qədim oğuz yurdu olaraq tarixləşən ərazilərimizin sui-qəsd olunmuş taleyinə həsr edilmişdir. Rus imperiyasının məkrli siyasəti ilə ötən 160-170 il müddətində yerli əhalinin sıxışdırılaraq əvəzində ermənilərin yerləşdirilməsi və nəticədə indiki Ermənistan deyilən dövlətin yaradılması tarixini araşdıran, aşkarlayan bu kitab konkret faktlar, sənədlər, tədqiq materialları əsasında hazırlanmışdır.

Kitabın "Azərbaycanlılar keçmiş Ermənistan SSR ərazisində" adlı bölməsində həmin ərazidə Azərbaycan xalqının qədimdən ta son illərəcək (1989) yaşadığı dövrlər müəllif qruplaşdırması konteksində oxuculara təqdim olunmuşdur. Belə dövrü ayırmaları tarixi, ictimai-siyasi hadisələr axarında müəyyənləşdirmək toxunulan məsələyə tədqiqatçının bütün varlığıyla bağlanması müqabilində uğurlu alınmışdır. O, həmin illəri İrəvan xanlığının süqutuna qədərki (1828), 1828-ci ildən 1917-ci ilə və nəhayət, 1917-ci ildən 1989-cu ilədək olan dövrlərə ayırmışdır. Bu qruplaşdırma Rusiyanın hakim dairələrinin birbaşa həyata keçirdikləri tarixi münasibətləri, mənfur fəaliyyətləri çərçivəsində müəyyənləşdirilmişdir. Hər üç dövrün xarakteristikası, Azərbaycan xalqının taleyində baş vermiş ağrılar, faciəvi məqamlar rəqəmlərin dili ilə kitabda aydın və dəqiq yazılmışdı. Hər üç dövrün səciyyəvi anları ayrı-ayrılıqda izah olunmuş, eyni zamanda iki xəritə əlavə edilmişdir. Rusiyanın məlum tarixi siyasətinin (XIV əsrdən başlayaraq) əsasında aparılan bu mənfur oyunların mərkəzində Qafqazın bütünlüklə istilası dayanmışdı. "Böyük Ermənistan" ideyasının bu məqsəd çərçivəsində "əlverişli kart" kimi ortaya atıldığı da məlumdur. Təbii ki, erməniyə

diqtə edilmiş bu ideya Rusiya ərazisinin genişləndirilməsi planında heç vaxt gerçəkləşməyəcək və axmaq ermənilər də neçə illərdir ki, bunu dərk etmirlər. Və bir dəfə yeni faciəvi iğtişaşlara səbəbkar olur, günahsız insanların lənətini qazanırlar. Rusiya isə müstəmləkiçilik hökmranlığı və öz geniş ərazi iddiasında hər oyuna əl atıbdır.

Həbib Həsənoğlu bu bölmədən sonra oxuculara təqdim etdiyi "Son söz əvəzi"ndə ondan əvvəlki məqalədə bütün təfərrüatı ilə açıb tökdüyü rus-erməni niyyətindən nəticə çıxarmağa, törədilmiş qanlı tarixi hadisələri, faciələri unutmamağa çağırır. Çünki hər növbəti unutqanlıqdan sonra daha dəhşətli hadisələr törədilir və budur, artıq qədim İrəvan torpaqları öz əzəli sakinlərindən tamamilə boşaldılıb, düşmənlər indi ələ keçirmək astanasında olduqları Qarabağ bölgəsinin həndəvərində, içində vurnuxurlar. Bu kitab hər bir vətəndaşı tarixi ayıq-sayıqlığa dəvət edir, torpaqlarımızın taleyinə başdansovdu münasibətlərlə yanaşmamağa çağırır. Yaşadığımız ağrıların bir daha təkrar olunmamasına çağırır.

Bu gün azərbaycanlıların İrəvan torpaqlarından faciəvi ağrılarla çıxarılması hələ o torpaqlara nöqtə qoyulması demək deyil. Üzü Dədə Qorquddan bu yana sədası gələn torpaqlar öz yiyəsinin intizarında, həsrətindədir. Müəllifin bu inamı qeyrət harayıdır. Bu kitab isə o harayın dastanıdır.

"İndi Ermənistan adlanan ərazidə azərbaycanlılar yaşamış kəndlər" bölməsində həmin bölgədə azərbaycanlılar yaşamış 700-ə yaxın kənd haqqında qısa məlumat verilir. 1831-ci ildən bu yana siyahısı verilmiş kəndlər Ermənistanın inzibati ərazi bölgüsünə əsasən, ayrı-ayrı rayonlar üzrə təsniflənmiş və bu rayonların hansı qəzalara aid olduğu qeyd edilmişdir. Bütün bu faktlar-rəqəmlər rəsmi dövlət sənədləri əsasında hazırlandığından dəqiqliyi şübhə doğurmur. Amma bir faktdan da qaçmamalıyıq ki, rus-erməni siyasətinə uyğun olaraq orada yaşayan

azərbaycanlı əhalinin sayı ildən-ilə azaldılıb, bəzən gizlədilib, bəzən də saxta rəqəmlərlə qeyd edilib.

Haqqında yazılmış kəndlərin hər biri haqqında qısa aydınlaşdırma-məlumat kitabın sanbalına böyük təsir göstərir. Adları əlifba sırasıyla təqdim olunan hər bir kəndin neçənci ildə yaşayış ocağına çevrilməsi, hansı rayonun tərkibində olması, mərkəzdən nə qədər məsafədə yerləşməsi, əhalisinn sayı, daşnak azğınlığı nəticəsində camaatının neçə dəfə pərən-pərən salınması, yandırılması, hər yeni hücumdan sonra kənd adlarının dəyişdirilməsi və digər məlumatlar rəqəmlərlə, konkret göstəricilərlə qeyd olunmuşdur. Bu işin son dərəcə gərgin və diqqətli əmək tələb etdiyi göz qabağındadır.

Kəndlərin siyahısından sonra azərbaycanlılar yaşamış rayonlar da eyni təsnifat üzrə araşdırılmışdır. Bu hissədə 26 rayonun tarixinə qısaca nəzər salınmış və tarixi faktlarla aydın təsviri verilmişdir. Həmin ərazidə 1996-cı ildə yaradılmış yeni inzibati-ərazi bölgüsünə görə, əvvəlki rayon qurumları əvəzinə 10 vilayət və vilayət hüququ olan mərkəzi şəhər qurumu təşkil olunub. İrəvan xanlığı dövrünün inzibati-ərazi bölgüsünə uyğun olaraq, mahallar əvəzinə vilayətlər yaradılıb. Məsələn, Krasnoselo, Basarkeçər, Martuni, Kamo, Sevan rayonlarından ibarət ərazinin indi Keğarkunik vilayəti (əvvəlki Göyçə mahalı) adlandırıblar. Buradaca xüsusi qeyd etməyi vacib bilirəm ki, Həbib Rəhimoğlu Ermənistan deyilən ərazidə bu günəcən gedən bütün hadisələri, dəyişiklikləri izləmiş və haqqında söhbət gedən kitaba daxil etmişdir. Kəndlərin də, rayonların da, yeni yaradılmış qurumların da ilkin, sonradan dəfələrlə dəyişdirilmiş və indiki adlarına bir-bircə nəzər salmışdır. Bütün bunlar düşünməyə əsas verir ki, qəlbən, fikrən heç vaxt öz yurdundan, ocağından ayrılmayan müəllif qədim türk torpaqlarımızdan əlini, ümidini üzməyib, o faciəvi ellərin taleyini öz taleyi kimi yaşayır.

Tədqiqatçı 220 səhifəyə yerləşdirdiyi, ensiklopedik tarixi publisistik oçerki əlavə olaraq 26 səhifəlik təsnifat cədvəlinə

düzmüşdür. Bu cədvəli o, "kəndlərin qədimdən rəsmi adı", "1918 -ci ildən sonra bu kəndlərin taleyi", "1831, 1873, 1886, 1905, 1914, 1931-ci illərdə (hər dəfə ermənilər tərəfindən törədilmiş soyqırımdan sonra) bu kəndlərdə yaşamış azərbaycanlıların sayı" və "kəndlərin coğrafi koordinatları" adları altında qruplaşdırmışdır. Nəticə etibarilə demək mümkündür ki, zərgər dəqiqliyi ilə o torpaqların tarixi taleyini araşdıran müəllif son dərəcə böyük vətənpərvərlik nümunəsi göstərmişdir. İstifadə olunan ədəbiyyat siyahısı da əsərin bitkin və mükəmməl məzmununa aydınlıq gətirir:

"Silinməz adlar, sağalmaz yaralar..." əsərini "yaddaş kitabı" adlandıran Hidayət Orucov kitaba maraqlı, səmimi ön söz yazmışdır. Ön sözdə konkret, cəmi bir neçə epizodla qələmə alınmış Həbib Rəhimoğlu taleyi İrəvan torpaqlarının taleyinin bir hissəsi kimi verilmişdir. Belə bir tale sahibinin ərsəyə gətirdiyi kitab milli mübarizəmizə qiymətli töhfədir. Bu kitab başdan-başa üzüntülərlə, ağrılarla doludur, ermənilərin törətdikləri faciələrin, soyqırımların, tariximizə təcavüzlərin, işğalçı hücumların əksidir. Amma bütün bu hadisələrin, deyimlərin, təsvirində, deyimində, yozumunda qələmə gətirilməmiş dərin bir sevgi duyulur: torpaq, yurd sevgisi. Kitabı birnəfəsə oxutduran da həmin hissdir, duyğudur. Dərdlə yoğrulmuş bu sevginin izləri, kökləri dərindir, silinməzdir. Fikrimizdə, ürəyimizdə əbədi olaraq daşlaşan silinməz adların, sağalmaz yaraların loğmanı yaddaşımız, mübarizəmiz, mətinliyimiz, Vətən məhəbbətimiz olmalıdır. Həbib Rəhimoğlunun bütöv şəkildə bizə təqdim etdiyi dərd-sevgi yaddaşı hər birimizin stolüstü kitabımız olmağa layiqdir.

*"Xalq qəzeti"*
*4 dekabr 1997-ci il*

## FOLKLORŞÜNAS ALİMİN "AŞIQLAR" KİTABI

Tanınmış folklorşünas alim – tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Qara Namazov nəşr etdirdiyi "Aşıqlar" (I kitab) kitabında ilk dəfə olaraq ozan və aşıqlarımızın həyatını səhifələmişdir. Bu toplu bioqrafik məlumat xarakterində tərtib olunmuşdur. Şərəfli alim ömrü yaşayan Qara Namazovun irihəcmli "Aşıqlar" kitabını vərəqlədikcə nə qədər böyük zəhmətin, axtarışların, tapıntıların şahidi olursan. Burada adlarını bildiyimiz və bilmədiyimiz, el arasında əlinə saz götürüb şənliklər aparan sənətçilərin, eləcə də orta əsrlərdə saz üstə köklənən şeirlər yazan el şairlərinin həyat və fəaliyyətinə – 500-ə qədər aşıq, ozan, el şairinin ömürlüyünə bələd olursan.

“Aşıqlar" bioqrafik məlumat kitabına müəllif geniş "Ön söz" yazmışdır. Burada o, aşıq sənətinin tarixindən, xalq ruhuna hakim olması sirlərindən bəhs etmişdir. "Ön söz"dəki bəzi sətirlərə nəzər yetirək: "Aşıq sənəti xalqın ruhundan doğmuş, ruhundan qidalanmış, ruhundan pərvazlanmışdır. Xalq ruhundan pərvazlanan sənət xalqın ruhuna qida vermiş, könlünü oxşamış, qəlbini ehtizaza gətirmiş, onu mənəvi cəhətdən kamilləşdirmişdir. Bu sənət qədim və orta yüzillərdə dilimizi, milli mədəniyyətimizi ilkin təmsil etdiyi kimi, həm də insan ləyaqətini, bəşəri hissləri, dəruni duyğuları təbliğ etmişdir". Aşıqlar haqqında yazılan bu bilgi kitabı AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunmuşdur. Kitabın redaktoru filologiya elmləri namizədi Hüseyn İsmayılov, rəyçiləri isə filologiya elmləri namizədləri Elxan Məmmədli, Əziz Ələkbərli və A.Kərimlidir.

Xatırladım ki, professor Q.Namazov "Aşığın sazı və sözü", "Azərbaycan aşıq sənəti", "Azərbaycan uşaq ədəbiyyatı", "Azərbaycan sovet ədəbiyyatı" və s. elmi-tədqiqat və dərs vəsaitlərinin müəllifidir. Ömrünün 75-ci ilini yaşayan zəhmətkeş alim uzun illərdir ki, Bakı Dövlət Universitetində tələbələrə dərs deyir.

*"Xalq qəzeti 19 dekabr 2004-cü il"*

# GÖYÇƏDƏN BAŞLAYAN FOLKLOR

Yorulmaz folklor tədqiqatçımız, filologiya elmləri namizədi Hüseyn İsmayılovun son dövr elmi-yaradıcılar fəaliyyəti ədəbiyyatşünaslıq üçün faydalı olmuşdur. Onun bir-birinin ardınca nəşr etdirdiyi folklora dair kitabları çoxlarının stolüstü kitabına çevriləcəkdir. Bu fikri deyərkən irihəcmli "Göyçə folkloru"nu daha çox düşündüm.

***"Göyçə folkloru".*** (Azərbaycan folkloru antologiyası) III cild. 764 səhifəlik bu antologiyada Göyçənin ab-havasını, daş-torpağının rəngini, çəmənliklərinin ətrini, ulularının ruhunu, Şah dağlarının qürurunu, şır-şır çaylarının axarını duyursan. Kitabın hər səhifəsində 1001 Göyçə hikməti açılır. Bu antologiyanın hazırlanıb araya-ərsəyə gəlməsi özü böyük zəhmətdir. Çünki Göyçə üçün indi əlimiz uzanıqlı, ürəyimiz çırpıntılı qalıb. Göyçə, sanki, bizim üçün dünyanın başlanğıc günü, başlanğıc nöqtəsidir. Göyçə folklorun beşiyidir, saz isə laylasıdır. Ona görə də milli-mənəvi həyatımızı – tariximizi, ictimai-siyasi keçmişimizi, bütöv torpaqlarımızın döyünən ürəyini Göyçəsiz təsəvvürə gətirmək mümkün deyil. Bu kitab faktdır. Birnəfəsə 764 səhifəni vərəqləsək, dediklərimizin-söylədiklərimizin hamısını orada görərik. "Göyçə folkloru" bizsiz qəribsəyib yurdunda – evində qəribə dönən Göyçəmizin iç dünyasıdır. Bəlkə, bu antologiyanı başdan-başa bir də, bir də, bir də... vərəqləsək, qılıncımız parlayar... ya qismət, Ya Allah...

"Göyçə folkloru"nun, belə deyək ki, ilk nüsxəsi və ya ilk variantı ilə hələ 1993-cü ildə "Vətən qürbətdə qaldı" kitabında görüşmüşdük. Tədqiqatçı alim, yorulmaz insan Hüseyn İsmayılov Göyçənin zəngin və təkrarsız folklor incilərini bu almanaxlara cəm edərkən qəlbində Göyçə sevgisi göyərdə–göyərdə çalışmışdır. Ona görə də səhifələr arasında görsənən od-alov adamın qəlbini-ruhunu qarsalayır, hərdən göz edir, külə döndərir. Kitabın redaktoru mərhum akademik Yaşar Qarayev topluya şirin,

elmi dərinliyi ilə əhatəli ön söz yazmışdır. "Xəritəmiz yalnız folklorumuzda dəyişməyib, bütün qalıb. Kərküklə və Təbrizlə, Göyçə ilə və Qarabağla, Dərbəndlə və Borçalı ilə indi də bir yerdə, bütövdə yaşadığımız mənəvi məkanın adı – folklordur... Sehrli və müqəddəs folklor ərazisindən bir sətri, bir qarışı da Qorqud və Koroğlu, Oğuz xan Boz Qurd, Xıdır Nəbi... yada, qəsbkara güzəştə getməyib". O, öz fikrini – elmi məntiqini belə bir cümləylə tamamlayıb: "Göyçəyə qayıdan yol-folklordan keçir".

Doğrudan da, əsarətdə olan torpaqlarımızı unutmamaq, yadırğamamaq üçün folklor, folklor topluları ən etibarlı, ən müqəddəs yaddaşdır, silahdır. Düz 80 ildir ki, Göyçə əsarətdədir. Əvvəlcə, 1923-cü ildən Rusiyanın müstəmləkəsində, 1988-ci ildən isə Ermənistanın müstəmləkəsindədir. Nəsil ötür, yeni nəsil gəlir. Göyçəni heç bir dəfə də görməyən nəsil böyüyür, onların qəlbində Göyçə odu gözərəcəkmi? Bax, onda bu və ya belə kitablar o qəlblərə məşəl olacaq, od saçacaq, nuru qılınclarımızda parlayacaq.

"Uzaq etnik mənşəyin, yaxın milli gələcəyin indi qürbət Vətəni – Göyçə" adlı elmi tədqiqat yazısı antologiyanın tərtibçisinə aiddir. O, kitaba daxil edilən hər bir bölmə haqqında ətraflı söhbət açır, elmi məzmunda şərh edir, folklor irsimizi bir-bir vərəqləyir, bir daha oxucuya fikir aydınlığı gətirir, onu düşündürür, keçmişinə qaytarır – gələcəyinə səsləyir. Alim topluya nələri – hansı folklor nümunələrini daxil etmişdir?

Miflər. Mifoloji nağıllar və rəvayətlər – el söyləmələridir. İnanclar – el yaddaşından süzülən maraqlı rəvayətlər – fikirlərdir. "Mövsüm və mərasim nəğmələri" silsiləsindən "Qodu -qodu nəğməsi", "Holavarlar", "Sayar sözləri", "Eydirmələr", "Vəsfihallar", "Xalq mahnıları" – bu gün hamının sevə-sevə zümzümə elədiyi "Almanı dərən", "Sallana-sallana"... mahnıları. Alqışlar, Qarğışlar, Əfsanələr. Göyçənin yer-yurd adları – çayı-gölü, düzdüzəngahları, dağ-dərəsi, çay-bulağı, otu-suyu, gülü-çiçəyi...

haqqında xalqın düzüb qoşduğu əfsanələr, rəvayətlər. Xalq təbabəti – yaddaşlarda yaşayan Göyçə loğmanı. Türkəçarələr. Babaların, nənələrin uydurduğu nağıllar. Haqq aşıqlarına – haqq aşiqlərinə qoşulmuş dastanlar. Atalar sözü və məsələlər, lətifələr, tapmacalar, bayatılar, ağılar. Uşaq folkloru nümunələrindən beşik nəğmələri, nağıllar, yanıltmaclar, cırnatmalar, sicilləmələr, oyunlar.

"Kitabda uşaq folklorunun bir sıra başqa nümunələri ilə yanaşı, uşaq oyunlarına da geniş yer verilmişdir. İndiyə qədər folklorşünaslığımızın diqqətindən yayınmış, çox nadir hallarda müraciət edilmiş bu janrda dünənimizin, mənəvi keçmişimizin, çox böyük həqiqətləri yaşamaqdadır... Özü də bunlar, sadəcə olaraq, "vaxt keçirmək, baş qatmaq" vasitəsi olmamışdır. Xalq müdrikliyindən qidalanmış onun bədii təfəkkürünün düşüncə və həyat tərzinin qüdrətini özündə ehtiva etmiş, bu günümüzə qədər gəlib çatdırmışdır" (H. İsmayılov).

Azərbaycan folklorunun – aşıq yaradıcılığının beşiyi, vətəni Göyçədir. Bu nəhəng kitab Göyçə folklorunun yalnız bir qismini özündə cəmləyib. Bu seriyadan "Göyçə əfsanələri", "Göyçə nağılları", "Göyçə dastanları", "Göyçə bayatıları" ayrıca kitab şəklində oxuculara çatdırılacaqdır. "Göyçə aşıqları və el şairləri" kitabı antologiyanın növbəti cildlərindən biri olacaq. Aşıq poeziyası ilə bağlı hər hansı bir poetik nümunənin bu topluda əks olunmamasının səbəbi budur. – Bütün bunlar tərtibçi-müəllifin oxuculara sözüdür.

***"Göyçə dastanları və aşıq rəvayətləri".*** Ulu Göyçənin zəngin aşıq ədəbiyyatı nümunələrindən – dastan və rəvayətlərdən ibarət 700 səhifəlik iri topludur. Toplu genişhəcmli – "Göyçə dastanları: türk enik sistemində dastan informasiyasının fasiləsizliyi" adlı giriş sözüylə açılır. Hüseyn İsmayılov dastan janrının inkişaf tarixindən elmi məzmunda ətraflı təhlillər aparmış – öz fikir və mülahizələrini əvvəlki araşdırmalara isnad edərək, Azərbaycan və türk ədəbiyyatı tədqiqlərindən faydalanaraq

təkmilləşdirmiş, elmi yeniliklər əlavə etmişdir. Kitab ilk növbədə öz oxunaqlılığı ilə diqqəti cəlb etsə də, əslində yorulmaz alimin böyük uğurudur. Bu əsərlərin janr tarixinə elmi kontekstdə yenidən yanaşmaq, maraqlı faktlarla zənginləşdirmək ədəbiyyatşünaslıq üçün də faydalıdır.

Topluya 26 dastan-rəvayət daxil edilmişdir. Bu dastan-rəvayətlər Göyçə aşıq məktəbinin, eləcə də Azərbaycan aşıq ədəbiyyatının ustadlarının adına bağlanmış yazılardır.Bu dastan-rəvayətlər yüz illər ötürüb gəlib bizə – XXI əsrin astanasına yetişmişdi. Aşıq yaradıcılığı şifahi xalq ədəbiyyatı nümunəsidir. Ağızdan-ağıza, aşıqdan-aşığa ötürülərək, təkmilləşərək bizim əlimizə çatmışdır. Elmin, texnikanın inkişaf etdiyi zamanda isə bu ədəbiyyat nümunələri göründüyü kimi yazıya köçürülür, ustad aşıqların ifasında lentlərə yazılır, ədəbiyyat-tarix arxivlərinə ötürülür.

Kitabda oxuculara təqdim olunan ilk üç dastan Göyçənin dövrünə görə sayılıb-seçilən ziyalılarından biri, Şah İsmayıl Xətai sarayında nüfuzlu, hörmətəşayan bir zaman ötürən, Bağdadda, Şamda, Dağıstanda, Azərbaycanın bəzi vilayətlərində siyasi missiyalar həyata keçirən, gözəl şeirlər müəllifi Miskin Abdala həsr olunmuşdur. Dastanlar Göyçənin tanınmış aşığı Hacı Bayramovdan, Aşıq Hüseyndən yazıya alınmışdır. Həmin dastanlar "Miskin Abdalnan Sənubər", "Asdan şahnan İrvahamın nağılı" və "Miskin Abdalnan Şah İsmayıl" adlanır.

Məşhur Aşıq Alının ustadı Ağ Aşıqla bağlı "Ağ Aşıq və Süsənbər" (Aşıq Qədir Vəliyevdən yazılıb) dastanı, eləcə də "Aşıq Alının Türkiyə səfəri" dastanı illərlə el arasında məclis qurulub aşıqlar tərəfindən söylənilmişdir.

Ustad Ələsgərin, Göyçə aşıq məktəbinin yaradıcılarından olan Dədə Ələsgərin adına bu kitabda 15 dastan-rəvayət bağlanmışdır. Kitabın sonluğundakı "Qeydlər və izahlar" bölməsində bu dastan – rəvayətlərin kimlər tərəfindən yazıya köçürülməsi barədə ətraflı şərhlər verilmişdir. Bu kitab aşıq

yaradıcılığımızın inkişafı üçün, tədqiqatçılar üçün, eləcə də aşıq ədəbiyyatı ilə maraqlanan hər bir oxucu üçün əvəzsiz hədiyyədir.

Xatırladaq ki, kitabdakı dastan-rəvayətləri toplayan, tərtib edən, öz sözün, qeyd və izahların müəllifi filologiya elmləri namizədi Hüseyn İsmayılov, redaktoru isə akademik Yaşar Qarayevdir.

***Miskin Abdal.*** Kitab beş əsrdir ki, mənəvi ömür yaşayan, övliya kimi sitayiş olunan, mürşidi Şah İsmayılın yaxın dostu və məsləkdaşı, qüdrətli el sənətkarı Miskin Abdalın unudulmaz sənət dühasına xoş bir hədiyyədir. "Tanrı miskini – haqq carçısı" adlı irihəcmli giriş sözündə tərtibçi Miskin Abdalın ömür yoluna, yaradıcılığına, ictimai-siyasi fəaliyyətinə çıraq tutur, əsrlərin arxasında qalmış şair ömürlüyünə nur çiləyir. Dünyalarca sevdiyi böyük bir şəxsiyyət – Şah İsmayıl Xətai onun şeirlərində dönə-dönə xatırlanır, böyük məhəbbətlə yad edilir. Miskin Abdal uzun illər Şah İsmayıl Xətainin şah sarayında yüksək mənsəb sahibi olmuşdur. Yalnız 1524-cü ildə – Şah Xətainin vəfatından sonra o, sarayla birdəfəlik vidalaşır, doğma yurduna – Göyçə mahalının Sarıyarub kəndinə qayıdır. Bu o kənddir ki, Miskin Abdal orada doğulub böyümüşdü. O kənddir ki, Şah Xətai tərəfindən xüsusi fərmanla şairə bağışlanıb, ətrafdakı beş kəndin vergisi də şahın xüsusi fərmanı ilə onun üçün ayrılıbmış (hər iki sənəd bu günümüzəcan gəlib çatıb). Ancaq bununla belə "ömrü boyu pay almayıb, pay verən dərvişlərdən olan Miskin Abdalın müqəddəs ruhu, ölməz poetik dühası bu gün də qəlbimizə, ruhumuza öz müqəddəs nurunu saçaraq, bizi mənəvi ucalığa, paklığa, saflığa, haqqın ulu dərgahına yönəldəcəkdir". Miskin Abdal 1535-ci ildə təxminən 105 yaşında vəfat etmiş və doğulduğu kənddə dəfn olunmuşdur.

Onun gəraylı, qoşma, divani və təcnisləri milli şeirimizin gözəl nümunələrindəndir. O şeirlərin sətirlərində ötən tariximiz yaşayır. Tərtibçi "Miskin Abdal" kitabına şairin şeirlərindən – gəraylılarından, qoşmalarından, təcnis və divanilərindən,

deyişmələrindən nümunələr daxil etmişdir. Miskin Abdal ömründən müəyyən səhifələr onun adına bağlanmış dastanlarda əks olunmuşdur. Həmin üç dastan bu kitaba daxil edilmişdir. Çünki dastanlardakı söyləmələr xalq-aşıq təxəyyülünün məhsulu olsa da, şeirlər – gəraylılar, qoşmalar, deyişmələr... Miskin Abdala məxsusdur.

Kitabın sonunda təqdim olunan "Qeydlər və izahlar" bölməsində topluya daxil edilmiş əsərlərin haradan toplanması barədə şərhlərdir. İllərdir ki, ədəbiyyatçı alim kimi ömür-gününü folklora bağlayan Hüseyn İsmayılov "

***Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri"*** adlı elmi monoqrafiyasını da nəşr etdirmişdir. Monoqrafiyada Azərbaycan aşıq sənəti, onun genezisi və inkişaf mərhələləri, Azərbaycan mədəniyyət tarixindəki rolu, türklərin əski dini və sufi təriqətləri ilə bağlılığı, görkəmli nümayəndələri və onların yaradıcılığı araşdırılır. Dastan və xalq şeirinin poetikası məsələləri yeni elmi-metodoloji baxımdan tədqiq olunur. Kitabın "Aşıq sənətinin sistemi: invariat strukturu və funksional diaxron elementləri" – ön sözünü AMEA-nın müxbir üzvü Nizami Cəfərov və tədqiqatçı alim Ağaverdi Xəlil yazmışlar. Burada hər iki müəllif əsərin məziyyətlərini, aktuallığını açıqlamışlar.

Bu tədqiqatda Azərbaycan ədəbiyyatında xüsusi rolu və mövqeyi ilə seçilən bir neçə fəaliyyət sistemi kompleks şəkildə təhlil edilmiş, dəyişən və dəyişməyən elementləri müəyyənləşdirilmiş, bununla da aşıq sənətinin invariant strukturunu hazırlayan mükəmməl bir konsepsiya hazırlanmışdır. Bununla yanaşı qeyd edək ki, aşıq sənəti və ədəbiyyatının inkişaf mərhələlərinin öyrənilməsi istiqamətində H. Araslının, F. Qasımzadənin, M. Təhmasibin, Ə. Axundovun, Ə. Qarabağlının, M. Seyidovun, M. İbrahimovun və başqalarının fikir və mülahizələri İ. Babayev, R. Əfəndiyev və V.Vəliyevin folklor dərsliklərində ümumiləşdirilmişdir. Kitabın digər bir bölməsi – "Göyçədə dastan yaradıcılığı" "Miskin Abdal və Sənubər" dastanı əsasında araşdırılır.

"Göyçə dastanları: türk epik sistemində dastan informasiyasının fasiləsizliyi" bölümü də elmi məzmunu ilə aktualdır.

"Tanrı Miskinin – haqq qayğısı", "Miskin Abdalın şəxsiyyəti və taleyi", "Miskin Abdalın sənət dünyası" kitabın maraqlı bölmələridir. Bu bölmələr əsasən XV əsr tariximizin unudulmaz el şairi Miskin Abdalın həyat və yaradıcılıq fəaliyyətinə həsr olunmuşdur. Miskin Abdal haqqında bu qədər geniş və zəngin elmi-ədəbi material ilk dəfədir ki, araşdırılır. Bu, müəllifin həm də ədəbiyyatımız, aşıq yaradıcılığı tədqiqi konteksində uğurudur.

"Göyçə aşıq mühitində Ağ Aşığın mövqeyinə dair", "Aşıq Alının şəxsiyyəti və irsi", "Dədə Ələsgər poeziyasının sufi mühiyyətinə dair" bölmələri də diqqətəlayiq araşdırmalardır. Elmi yöndə tədqiq olunan bu üç ustad sənətkarın – Ağ Aşıq, Aşıq Alı və Dədə Ələsgərin yaradıcılıqlarına monoqrafiyada bir daha nəzər yetirilir. Üç ustad – şagird bir-birinə bağlı, bir-birinə ehtiramlı sənətkar olublar.

Müəllif Hüseyn İsmayılov bu monoqrafiyası ilə də folklor-aşıq yaradıcılığına yeni tövbə bəxş etmişdir.

*"Xalq qəzeti"*
*27 aprel 2003-cü il*

## "ULU GÖYÇƏ" QƏZETİ

"Bir haqq yolu, işıq ucu tapan kimi gələcəyəm" – epiqrafı ilə açılan "Ulu Göyçə" qəzetini qərib könüllər bircə andaca öpüb bağırlarına basdılar. Qəzet yurdumuzdan ayrı (və müvəqqəti) ötən bu çağlarımızda könlümüzə məlhəm olacaq: Göyçənin göyçək günlərindən, gərəkli bəxtindən, ilahi büsatından, dağılmış tifaqından, arxası yerə gəlməz oğullarının şərəfli ömründən yazacaq. Sazından-sözündən deyəcək, nağıllı-nəğməli ömrünü vərəqləyəcək. Və yaşadığımız hər anın tarixləşdiyi bu məqamları beləcə öz səhifələrində tarixə salacaq. "Göyçə ədəbi məktəbi"nin yanar ocağı sanılacaq. Ürəyi şeirlə dolub daşan, bir həsrət "Göyçə gülü" axtaran, min bir dərdlə könül məlhəmi gəzən "Ulu Göyçə"nin qapısını döyərək "qərib könlümü ovundur", deyəcək.

*"Ədəbiyyat qəzeti"*
*4 iyun 1992-ci il*

## İRƏVAN ZİYALILARINA ABİDƏ

"Dumanlı keçmişlərdən üzü bəri Ermənistanda dünyaya göz açan, boya-başa çatan görkəmli adamları arayıb-axtarsaydılar, ehtimal ki, cild-cild kitablar yazılardı. Ədəbiyyatşünas alim Əsgər Zeynalov öz oçerklər toplusunda yalnız İrəvanda doğulmuş, boya-başa çatmış, əsli-nəsəbi o yerlə sıx bağlı olmuş müasirlərinin həyatı və ictimai fəaliyyətini araşdırmağı, onların bir növ ədəbi-tarixi portretini yaratmağı qarşısına məqsəd qoymuşdur".

Oxuculara təqdim edilən "İrəvan ziyalıları" kitabı professor Teymur Əhmədovun bu sözləri ilə başlayır.Bu kitab müəllifin yurd, torpaq, ocaq sevgisindən, təəssübkeşliyindən yaranmış, iç yanğısından, oba həsrətindən göyərmiş Orijinal əsəridir. "Xəyal məni hər gün hər qarışına "beş barmağım" kimi bələd olduğum İrəvana aparır. İndi o yerləri hər gün həsrət dolu kövrəkliklə xatırlayıram". Vaxtı ilə Əsgər müəllimin bir məqaləsini oxumuşdum – "Bəlkə kəndimiz də bir yuxu idi?..." Həmin yazı belə başlanır: "Tez-tez kəndimizi xatırlayıram... Yox, tez-tez yox, hər gün! Bəli, hər gün içimdə bir tonqal yanır, ancaq bilmirəm tüstüm görünür, ya yox. Uşaqlığımın, gəncliyimin, ömrümün ən gözəl çağlarını keçirdiyim doğma Yuxarı Necili kəndinin həsrətiylə..."

Bu sözləri İrəvana da şamil etmək olar. "İrəvan ziyalıları" kitabı Vətən həsrətiylə yanan tonqalın alovu, məşəlidir. "İrəvan ziyalıları" sözün əsl mənasında bütöv xalq üçündür, xüsusilə torpaq həsrətilə yaşayan, o yerlərdən ötrü burnunun ucu göynəyən insanlar üçündür. Ə.Zeynalov vətəninə, elinə bağlı, onun təəssübünü çəkən bir ziyalıdır. Onun dəfələrlə Murovdağda, Tərtərdə, Ağdərədə görüşlərdə olması, əsgərlərin qarşısında çıxış etməsi də bunu təsdiq edir. "İrəvan ziyalıları" kitabının da məhz belə vətənpərvər ziyalı tərəfindən yazılması təbii görünür. Onu yaxından tanıyıb, xarakterinə bələd olanlar bunu təsdiq edər.

"İrəvan ziyalıları" ağır zəhmətin, gərgin axtarışların

məhsuludur. Akademik Budaq Budaqovun dediyi kimi, hamı torpaqdan, millətdən danışır, ancaq Əscər Zeynalov belə danışıqları işi, əməli ilə görmüşdür. İrəvanda elə nəsillər olmuşdur ki, onlar 150-170 ildir ziyalı yetirir: Mirbabayevlər, Qazıyevlər, Erivanskilər, Məmmədzadələr, Muğanlinskilər, Makinskilər... Bu torpağın yetişdirdiyi ziyalılar Azərbaycan elminin, mədəniyyətinin inkişafında qüdrətli rol oynamışlar: akademik Mustafa Topçubaşov, akademik Heydər Hüseynov, akademik Əhməd Rəcəbli, bəstəkar Səid Rüstəmov, şair Əhməd Cəmil, ictimai xadimlər Maqsud Məmmədov, Həsən Seyidov, Əziz Əliyev, Bağır Seyidzadə, ədəbiyyatşünaslar Cəfər Xəndan, Mirəli Seyidov, rəssamlar Mirzə Qədim İrəvani, Həsən Haqverdiyev, hazırda yaşayıb-yaradan Kamil Əliyev, Cabbar Quliyev... Müəllif bu kitabı ilə bir daha təsdiq etmək istəyir ki, İrəvan azəri türklərinin əski yaşayış məskənidir, Azərbaycan torpağının əzəli və ayrılmaz bir hissəsidir. Kitabda bir həsrət, kövrəklik var, ancaq sızıltı yoxdur. Orada belə bir inam görürük: "Biz o yerlərə qayıdacağıq".

Bizcə, zəhmətkeş tədqiqatçı Ə.Zeynalovun "İrəvan ziyalıları" kitabı sözün əsl mənasında İrəvan ziyalılarına, İrəvan torpağına ədəbi abidədir.

*"Xalq qəzeti"*
*11 iyun 1999-cu il*

# DOĞMA TORPAQLARIMIZIN YAZILI HEYKƏLİ

"Qərbi Azərbaycan" oncildliyinin ikinci cildi çapdan buraxılmışdır. Mətbuatdan məlum olduğu kimi, xeyli vaxtdır ki, tədqiqatçı-alim, Əziz Ələkbərli Qərbi Azərbaycan (indiki Ermənistan) torpaqlarının tarixi, coğrafiyası, mədəniyyəti və s. ilə bağlı kitablar-oncildlik üzərində işləyir. Budur, həmin silsilədən Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarına (Zəngibasar, Qəmərli və Ellər rayonları) həsr olunmuş növbəti kitab "Ağrıdağ" nəşriyyatında çap edilmişdir. 735 səhifəlik kitab olduqca zəngin tarixi materiallar əsasında işlənmişdir. Müəllif müxtəlif mənbələrdən – qədim arxiv sənədlərindən istifadə edərək topladığı faktları, o cümlədən həmin obaların bu gün didərgin düşmüş nurani, sinədəftər ağsaqqal – ağbirçəklərindən, ziyalılarından eşitdiyi tarixi hadisələri ayrı-ayrı başlıqlarda oxuculara təqdim etmişdir.

Kitab "Görkəmli şəxsiyyətlər və mənbələr ermənilər haqqında" bölməsiylə açılır. Burada, bölmənin də adından göründüyü kimi, bədfel, oğru, riyakar, ürəyi xıltlı, ağasına düşmənçilik edən mənfur ermənilərin hiyləgər xarakterləri barədə müxtəlif tarixi sənədlərdən qeydlər verilmişdir. "Qərbi Azərbaycan" ağrımız məhz bu mənfur millətin və onun himayədarlarının zorakı və şərəfsiz niyyətləri ucbatından yaranmışdır. Əsrlər boyu torpaqlarımız yağlı tikə kimi güclü dövlətlər tərəfindən hərraca qoyulub, parça-parça edilib paylanıb, xalqı, əhalisi isə zülm, əziyyət içində qalıbdır. Belə işğalçılıq faktları kitablarda özünə yer tapmayıb, geniş əhali kütləsinin yaddaşında yaşaya biləcək səviyyədə deyilməyib, təbliğ olunmayıb. Belə tarixi hadisələrin, faciələrin şahidləri başqa nəsillə əvəz olunan kimi digər növbəti hücum, talançılıq, işğalçılıq hadisələri törənib. Xalqımıza xas olan ədəbi unutqanlıq da özünəməxsusluğu ilə düşmən işinə həmişə rəvac verib. Bu kontekstdən yanaşanda filologiya elmləri namizədi Əziz Ələkbərlinin zəhməti, gördüyü işin dəyəri əvəzsizdir.

Kitabda Zəngibasar, Gəmibasar və Qırxbulaq mahallarının

ayrı-ayrılıqda hər birinin ərazisi və coğrafiyası, qısa tarixi, əhalisi, iqtisadiyyatı, təsərrüfat və məişət həyatı, adət və ənənəsi, təhsili, tarixi abidə, qala, dini ocaq və ziyarətgahları və s. barədə lap qədim tarixə gedib çatan faktlara isnadən əhatəli (100 səhifəyə yaxın) giriş-oçerk yazılmışdır. Sonra bu mahalların kəndləri (202 kənd) haqqında tam təfsilatlı məlumat-oçerklər, eyni zamanda mahallar üzrə adı çəkilən, lakin yeri müəyyənləşdirilmədiyindən həmin mahalların kəndləri siyahısına daxil edilməyən toponimlər kitaba daxil edilmişdir. Həmin mahallarda vaxtilə işlədilən sözlərin dialektoloji lüğəti, toponim və etnonimləri, folkloru (rəvayətlər, deyimlər, əhvalatlar) da xüsusi elmi maraq kəsb edir. Tədqiqatçı alimin bu sahədə gördüyü işin məntiqindən hiss olunur ki, nə qədər ağır və məsuliyyətli zəhmət çəkib. Tarixin yaddaşı olan toponimləri – dağ, yaylaq, dərə, qaya, təpə, yarğan, aşırım, mağara, meşə, düzənlik, bağ, qışlaq, otlaq, biçənək, göl, çay, arx, bulaq, qala, məbəd, dəyirman, ziyarətgah və s. adları kitabın səhifələrində oxuduqca kövrəkməyə bilmirsən. İnsana, insan ruhuna doğma, isti, yaddaşlardan heç vaxt silinməyəcək o yer-yurd adlarının istiliyini canında, qanında duyursan. Bu kitablar o yerlərin – o torpaqların yazılı heykəli, tarix səhifələrindən silinməyəcək yaddaşıdır. Mahalların qədim tarixi və sonrakı deportasiyalar dövründə ərazisi – kəndləri barədə tarixi materiallara əsasən yazılmış məlumatlar böyük maraq doğurur.

Bu kitab o qədər zəngin işlənib ki, kiçik bir qeyd-yazıda onu əhatə edən mövzuların hamısına toxunmaq qeyri-mümkündür. Müəllifin İrəvan əyalətinin müfəssəl dəftəri (1550), "İrəvan əyalətinin işğal dəftəri" (1728), SMOMRK (1884) və s. ötən əsrlərdə nəşr olunmuş belə ədəbiyyatlardan və yaddaşlara güvənərək araya-ərsəyə gətirdiyi bu sanballı tədqiqat əsəri torpaqlarını itirmiş insanların, alimlərin stolüstü kitabına çevriləcəkdir. Gələcək nəsil üçün isə yazılı yaddaş olacaqdır. İşğal altında olan torpaqlarımız xilas edilənədək.

*"Xalq qəzeti" 29 sentyabr 2002-ci il*

## AĞBABA FOLKLORRU

Ağbaba uğrunda öldüyümüz, dizin-dizin süründüyümüz müqəddəs Torpaq, Vətəndir . Uca-uca dağlar arasında min illərin od-ocağı ilə binələşən, isinləşən bir yurd var... O yurda Ağbaba elləri deyilib. Ağbaba ellərinin könül qoru ta qədimdən türk nəfəsiylə isinib, türk hənirtisiylə şenlənib. Ulu təbiətin sirli-sehrli havasından, suyundan yoğrulmuş, doğulmuş türk övladları Tanrı ruhuna, Tanrı sevgisinə doğma, məhrəm olublar. Nə əməl sahibi olublarsa, Allah yolundan, iç dünyalarında ülviləşən Allah eşqinə dönük çıxmayıblar. Elə o eşqin hikmətiylə pöhnələniblər, kökü torpağa işləmiş ağacın qol-budaqları tək şaxələniblər, bütöv bir nəsil olaraq öz ellərinə yurddaş olublar. Gözdoymaz gözəlliklər məskənində ömürləşmiş bu insanlar adına Ağbaba dedikləri məskənin təbiəti ilə qaynayıb-qarışıb bir cana dönüblər.

Xoş günlərində ocaq çatıb, könül nəğmələri qoşublar –

*Arı suyun arısınnan,*
*Duru suyun durusunnan,*
*Üç gözəlin birisinnən,*
*Oğradaydım yaylıx, səni.*

Bir gözəl gəlinin ayna qabağından səsi eşidilib –

*Ayım, ıldızım, ay qız,*
*Ciyar, çıldızım, ay qız.*
*Gəl alım qardaşıma,*
*Olum baldızın, ay qız.*

Elin ağsaqqal-ağbirçəyi bu nanayı "ürəyinin payını yeyə-sən" gəlin, "papaxlına qıyan qıymasın", "qardaşın sağ olsun", "Allah murazına çatdırsın" gəlin, – deyə minbir alqışla naxış-layıblar. Beləcə, Allah işığıyla qorlanmış bu ocaqdaşlar, Ağbaba yurd sahibləri öz bayatılarını, nəğmələrini, deyimlərini, tapmaca-larını, lətifələrini, nağıllarını, qaravəllilərini, xalq oyunlarını, ata-lar sözlərini, zərb-məsəllərini – bir sözlə folklorlarını yaratdılar, yaşatdılar: gündəlik məişətlərində, toy-bayramlarında, inam mə-

qamlarında... Hər gecə saz tutub, şeir qoşduqları aşıq məclislərində bu deyimləri ruhlarda, ürəklərdə bir daha sınaqdan keçirib yaddaşlara köçürdülər. Aşıq Şenniklə saz götürüb deyişən Aşıq Sumannı imzalı şeirlərdə ocağa, yurda söykək ilahi bir sevgini duymamaq mümkündürmü?

Ədəbiyyatı, elmi folklordan başlayan xalqın kökü, söz yox ki, zamanın dərinliklərindən xəbər verir. Belə folklor nümunələrində etnoqrafik elementləri gözdən keçirdikcə, bu dərinliyin sonsuzluğa gedib çıxdığının şahidi olursan. Xalq yaddaşından, xalq həyatından doğulan folklor nümunələri illərdən illərə ötürülüncə, tarixi ictimai mədəni həyatımızdakı inkişafla bağlı yaddaşların alt qatına keçir, unudulur,... və son anda yenə qan yaddaşına güvənirsən. Bu iş bir də qalır alimlərin, folklorçu tədqiqatçıların boynuna. El-el, oba-oba, oymaq-oymaq, ev-ev gəzəsən, hər söz deyən ağızdan bir deyim, bir duyum götürəsən, hər saz səsində bir ruhu dinləyəsən, yaddaşın ötən yeddi babadan da o yana olan qatını töküb-töküşdürəsən – bir nəğmə, bir oxşama, bir alqış, bir qarğış deyimi toplayasan. Belə bir işin məsuliyyətinə qatlanmaq – iynəylə gor qazmaq qədər çətindir, ürəyinimn parasıtək sevgilidir, dərin bilik, iti ağıl, türk kökü bütövlükdə mənsub olduğun xalqının qanına, ruhuna, bağlı olmalıdır. Ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alıb, sevgiylə əfsunlanıb gəzəsən, gəzdiyin, gördüyün yerlərdəki insanları dindirəsən.

"Azərbaycan folkloru antologiyası" seriyasından buraxılmış III kitab – "Ağbaba folkloru"nun müəllifi, toplayıcısı məhz belə bir məsuliyyətli işi şərəflə haqqına qovuşdurub. Qədimdən qədim, uludan ulu Ağbaba mahalının, Şörəyil bölgəsinin folkloru bütöv toplu halında yazılaraq əlimizdədir.

Bəri başdan bildirmək istəyirəm ki, bu toplunun elmi təsdiqi məşhur folklorşünas alim, professor Qara Namazovun redaktəsində möhürlənib, söz-sovunu "Redaktordan" girişində deyib: "Sürəyya xanımın Ağbaba folklor toplusunu oxuduqdan sonra elə bil Ağbabanı qarış-qarış, oba-oba, oymaq-oymaq

gəzdim. Bir diyarın mənəvi sərvətini öyrənmək elə o yerlərin adamlarını, təbiətini öyrənmək deməkdir."

Qara müəllimin sözünə qüvvət, toplunu başdan-başa oxuyandan sonra Ağbaba elinin təbiətinə də bələd oldum, insanlarının xarakterinə də. Sıldırım qayalarının mətinliyini Ağbaba folklorunu yaradan xalqın iradəsində, zirvəsi qarlı dağlarının vüqarını adamlarının əyilməzliklərində, çiçəkliklərində qaynayan bulaqlarının saflığını dinən qəlblərində, güllərinin ətrini deyimlərinin nəfəsində duydum. Folklorşünas tədqiqatçı Sürəyya Ağbabalının təqdim etdiyi bu əsər hər şeydən əvvəl adının çəkisi, sambalı ağırlığıyla çox mətləbləri açıqladı.

"Ağbaba folkloru" – burada folklorun bütün növləri, formaları, ayrıca başlıqlarda toplanmışdır: bayatılar, ağılar, nəğmələr, oxşamalar, sayaçı sözləri, tapmacalar, nanaylar, alqışlar, açıqlamalar, qarğışlar, ayamalar, deyimlər, andlar, atalar sözü və məsəllər, sazlı, sözlü Ağbaba, duvaqqapma, lətifələr, qaravəllilər, məişət nağılları, sehirli və mifik nağıllar, əhvalatlar, əfsanələr, toponomik əfsanələr, boranlar, sınamalar, yuxu yozmaları, toy, yas mərasimləri, xalq təbabəti, uşaq folkloru, uşaq oyunları. Bunlar bütövlükdə xalq təfəkkürünün el yaddaşında qorunub saxlanmış, illərin sınağından keçmiş mənəvi sərvətindən ibarət mükəmməl bir əsərdir. Sürəyya xanımın bütün ömrünə ziyası düşən müqəddəs bir kitab.

Bu kitabın toplayıb yazanı folklorçu alimdir, deyəni, söyləyəni isə ağbirçək nənələr, ağsaqqal babalar, sözün qədrini, təəssübünü çəkən sinəsi sazlı aşıqlardır. Elə necə deyiblərsə, necə danışıblarsa da tədqiqatçı da o deyimdə, o danışıq dilində verib. Ağbaba elinin xalq danışıq dili ulu türk folkloru dilidir. Sürəyya xanımın bu yöndə xeyirxahlığı təkcə Ağbaba folkloru toplamaq yox, həm də elə bu danışıqda qələmə alması Azərbaycan folklorunun elmi tədqiqi, təhlilidir.

*Eləmi, ay incəli,*
*Ay dağlar, ay incəli.*

*Səni görməyən gözüm,*
*Nə durur, nə dincəli.*

*Ağbaba dağları çən,*
*Çəndən görünməz çəmən,*
*Fələk bir püşk tulladı,*
*Qürbətə döndü Vətən.*

*"Xalq qəzeti"*
*15 yanvar 1998-ci il*

## "PARALANMIŞ BORÇALI"

Belə bir haqq inamla bağlaşıb yəqinləmişəm ki, oğuz övladının bəlkə də ilk dəfə ocaq çatıb, od saldığı yurd – Göyçədən ta Borçalıyacan uzanan torpaqlar olub. Və dünyaya göz açandan da yaradanının qüvvətinə-qüdrətinə sığınıb: dünyasını oduyla işıqlandırıb, qopuzuyla ağını-qarasını anşırdıb, andını-amanını "işıq haqqı", "ocaq haqqı" – deyə kəsib. Tale payından içində ürək əvəzinə doğulduğu oddan da bir çınqı köz qalıb. Köksünü yandıran o közün qorunu-alovunu almaq üçün isə sinəsinə qopuz-saz verib. Kim bilir, bəlkə də. Həqiqət tək Tanrıdadır. Onu bilirəm ki, bu millət – oğuz övladı yarandığı gündən indiyəcən Tanrının ona bəxş elədiklərini qismən qoruyub, saxlayıb. Bəs torpaqlarını?

Niyə bunları andım? Cavan alim Şurəddin Məmmədlinin "Paralanmış Borçalı" (Azərnəşr, 1991) kitabını oxuyanda bu hisslər, duyğular həndəvərində dolaşdım. Kitab ötən tariximiz, yurdumuz haqqında olan bilgilərimi silkələdi, gözüm-könlüm bir anda yağı tapdağında qalmış torpaqlarımızda gəzdi, göynədi. Və müəllifin dərdinə şərik çıxaraq, – təkcə Borçalılı parçalanmışdır? (və bu gün yenə də başı üstdən qılınc asılmışdır, bəlkə də şah damarını üzmüşdür) ondan da qarabəxtli Göyçə, Zəngəzur obaları indi yoxdur, əlimizdən çıxmışdır. Ümumən İrəvan yurdumuz "qeybə" çəkilmişdir, – deyə kədər pıçıltısına dönürəm. Əslində bütün bu faciələr – xaraketerimizdəki laqeydlikdən, biganəlikdən törənib. Bu səbəblərdən torpaqları vermişik düşmənə. Budur, növbəti qurbanlığımızı öz əlimizlə hazırlamışıq: "Dağlıq Qarabağ problemi" yurdumuzun, millətimizin düz ürəyindən saplandı, iti xəncərdən də betər. "Allah!" – deyib oğul, qız şəhidlik ucalığınacan qalxmışıq, təki yurd xilas olunsun! Yəni bir qarış da kiməsə torpaq haramlığı etməmişiksə, bizə edilən haramı da qəbul etməməliyik. Dədələrimizin ötürdüyü torpaqları eynilə gələcəyə ötürməliyik. Yoxsa yaşamağa mənəvi

haqqımız yoxdur! Bütün bunlar yanaşı, "yurd qayğısı" məsuliyyətini bu gün tam mənası ilə anlaya bilirikmi? Şurəddinin "Paralanmış Borçalı" ağrısı fərqinə varmadığımız adiliklərin mürəkkəb düyününü açdı; yurd başçısının əxlaqı, mədəniyyəti, biliyi, dünyası, ünsiyyəti, varlığı, yediyi xörəyi, geydiyi paltarı, andı-qəsəmi kökünə bağlı olmalıdır. Oddan doğulmuş oğul olmalıdır. Yoxsa adı millət oğlu, varlığı qeyri millət oğludursa, o, bu torpağın oduna, suyuna, sazına uyuşmaz. Binədən bu bir həqiqətdir.

1990-cı ilin sentyabrında publisist – şairə Kamilə Nemətlə Borçalı ağrısını eşidib, yurddaşlarımızın hoyuna yetmək istədik. Bircə faktı yenidən xatırladım ki, Bolnisi rayonunda olan 950 ailədən cəmi 4-5 ailə qalmışdı, onlar da küçələrdə, yalın-yalavac vəziyyətdə. Elə bilirəm ki, "Paralanmış Borçalı" həmin ağrılara əks-səda kimi yazılıb, özü də birnəfəsə. Yazı – sənəd isə tarixin canıdır.

Şurəddin Məmmədlinin tarixçi kimi yox, filoloq-alim kimi tanıyır, rastıma çıxan yazılarını hörmətlə oxuyuram. "Məhəbbətin gücünə dağ aşırmaq olar" – deyib dədələr. "Paralanmış Borçalı" – kitabını da Şurəddinə yazdıran hiss ocağına-yurduna istəyinin gücüdür. Tariximizin xəbis niyyətlə, qara əllərlə çözələnmiş taleyini araşdırır. Və bununla da Borçalı tarixini yurdlaşdığı dövrdən üzü bu yana bircə-bircə öyrənməyə – "ağır yola" cığır açıb. "Paralanmış Borçalı"da təkcə yurd tarixindən araşdırmalar yox, həmçinin əsrin ən dəhşətli canlı mikrobunun – erməninin murdar niyyətini göstərən gürcü mənbələrindən faktlar da cəmlənib. Bir fakt: 1918-ci il 26 may tarixdə Gürcüstan müstəqil Xalq Cümhuriyyəti (demokratik respublika) bəyan edilərkən... N.Cordania təbrik sözündə dedi: "...Bizlən qıraqda və bizdəki millətlərlə qonşuluq etmək və yaxın əlaqədə olmaq istəyirik. Ələlxüsus, biz bir millətin faciəsinə diqqət yetirməliyik. Bu, erməni millətidir, hansı ki, öz dövlətini yaratmaqdan ötrü öz müstəqil ərazisi yoxdur... Biz bilirik ki,

müsəlmanlar da bizim kimi hərəkət edəcəklər: öz ərazisində yeni dövlət yaradacaqlar...

...Təəssüf ki, "öz dövlətini yaratmaqdan ötrü öz müstəqil ərazisi olmayan" erməni millətinin qonşu dövlətlərdən – Gürcüstandan və Azərbaycandan torpaq qoparmaq, ərazi qamarlamaq hesabına özünə ərazi, vətən qurması planları bölgədə (güneyqafqazda) rahatlığı pozdu".

"Paralanmış Borçalı" – başdan-başa bu cür dəlil-sübutlara, faktlara isnadlanaraq yazılmışdır. Gərgin zəhmətlə araşdırılan bu sənədlər milli tariximizin yaşanmış ömründəndir.

*"Ədəbiyyat qəzeti"*
*14 avqust 1992-ci il*

## "QARS MÜQAVILƏSI"
## VƏ TARIXIN ÖTƏN SƏHIFƏLƏRI

"Antanta dövlətlərinə arxalanan daşnak Ermənistan 24 sentyabr 1920-ci ildə Türkiyə ilə müharibəyə başlayır. Turk ordusu ilə qarşı-qarşıya gəlməkdən daha çox dinc əhaliyə divan tutmağa üstünlük verən daşnaklar Qarsda, İrəvanda, Şərur-Dərələyəz və b. bölgələrdə yaşayan türk-müsəlman əhalini qırmağa başlayır. Türk ordusunun əks-hücümu daşnak ordusunun darmadağın olması ilə nəticələnir. Türkiyə ilə müharibə daşnakların planlaşdırdığı kimi uzun sürməsə də, nəticəsi onlar üçün gözlənilməz oldu: həmin ilin 18 noyabrında daşnaklar məğlub olduqlarını etiraf etməyə məcbur olub, 2 dekabr 1920-ci ildə Gümrü müqaviləsini bağlayırlar. Daşnaklar xəyallarında qurduqları "Böyük Ermənistan"ın ərazisinin İrəvan və Göyçə gölü rayonu ilə məhdudlaşdığını təsbit etmiş və müqaviləyə imza atırlar..."

Azərbaycan Dövlət Tarix arxivindən götürülmüş bu və digər materialları "Qars müqaviləsi" kitabının tərtibçi müəlliifi Hüsaməddin Məmmədov (Qaramanlı) diqqətlə nəzərdən keçirmiş, adı qeyd olunan kitaba sənədlərə söykənən maraqlı "Ön söz" yazmışdır. Müəllifin "Ön söz"ü elmi-tarixi tədqiqat əsəri dolğunluğundadır. Ötən 80 il ərzində bu mövzu belə dəqiqliyi, əhatəliyi və elmi məzmunu ilə ilk dəfədir ki, nəşr olunur. Çoxsaylı dövlət sənədlərinə üz tutaraq yazdığı bu elmi məqalədə müəllif çox mətləbləri aşkarlayır. Tarixi faktlarla göstərir və sübut edir ki, düşmən daşnaka qarşı hər an ayıq-sayıq olmaq lazımdır. Bunu tarix deyir, tarix təsdiqləyir.

"Rusiya və üç Cənubi Qafqaz respublikalarının Türkiyə ilə münasibətlərində həlledici danışıqlar mərhələsi 26 sentyabr-13 oktyabr 1921-ci ildə Qars şəhərində keçirilmiş konfrasda olmuşdur. Uzun sürən danışıqlardan sonra Türkiyə və Rusiyanın iştirakı ilə üç Cənubi Qafqaz respublikası (Azərbaycan, Ermənistan və Gürcüstan) arasında 13 oktyabr 1921-ci ildə 20 maddə və 3

əlavədən ibarət Qars müqaviləsi imzalanır." Lakin bu gün, həmin müqaviləyə nəzər yetirərkən, vəziyyət necədir? Naxçıvan Muxtar Respublikasının dövlətlərarası Qars müqaviləsi ilə təsbiq edilmiş ərazisinin təqribən 15 faizi Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilmişdir? Deməк düşmən öz məkrli niyyəti ilə həmişə pusqudadır və girəvə axrarır. Zəhmətkeş tədqiqatçı əməyi ilə hasilə gəlmiş "Qars müqaviləsi" kitabında 13 oktyabr 1921-ci ildə imzalanmış müqavilə bütünlüklə nəşr edilmişdir. Qars müqaviləsinin mətninin rus, türk və fransız dillərində orijinalının və eləcə də müqavilənin ana dilimizə edilən ilk tərcüməsinin toplu halında nəşri oxucular üçün, hər kəs üçün maraqlıdır.

Qars müqaviləsinin bu şəkildə hazırlanmasının ideya müəllifi millət vəkili Azərbaycan Atatürk Məkəzinin müdiri, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovdır.

"Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində" kitabını tərtib edəni və ön söz yazanı tədqiqatçı Hüsaməddin Qaramanlının bu işi elmi-ictimai məzmunu ilə aktual və diqqətəlayiqdir.

*"Xalq qəzeti"*
*10 dekabr 2004-cü il*

# TOPONİMLƏR TORPAQ YADDAŞIMIZDIR, TARİXİMİDİR

“1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Prezident Heydər Əliyevin 1997-ci ilin 18 dekabrında imzaladığı fərmanı Qərbi Azərbaycan torpaqlarını öyrənən elmi mərkəzin yaradılması üçün real zəmin ola bilər.

Tarixi həqiqətdir ki, indi Ermənistan adlanan ərazi Azərbaycanın tarixi torpaqları – Azərbaycan türklərinin tarixi etnik torpaqları olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu əraziyə kütləvi surətdə köçürülən ermənilər rus imperiyasına güvənərək yerli əhalini – Azərbaycan türklərini sıxışdıraraq deportasiya etməyə başlamışlar. Bu proses illərlə davam etmiş, nəhayət ağır, dözülməz təcavüzlərlə üzləşən əhali 1988-ci ilin sonlarında öz tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşlar. 1991-ci ilin avqustunda isə axırıncı kənd – Meğri rayonunun Nüvədi kəndi soyqırıma məruz qalaraq dağıdıldı və həmin günü ermənilər “Türksüz Ermənistan” bayramı kimi qeyd etdilər. Bir daha vurğulamaq istərdim ki, bütün bu deportasiya əməliyyatları – soyqırım, vəhşilik, didərginlik aktları amansız sovet imperiyasının birbaşa rəhbərliyi və daimi himayəsi ilə həyata keçirilibdir. Xalqın, onun torpaqlarının belə ağır taleyi isə on illərlə qələmə alınmamış, tarix səhifələrində öz yazılı yerini tutmamışdır. Bunlar da məhz hökmran imperiyanın siyasətinin bir hissəsi olmuşdur. Azərbaycan milli müstəqillik mübarizəsinə qalxdıqdan sonra bu istiqamətdə müəyyən işlər görülməyə başladı.

Akademik B.Budaqov, tanınmış alimlərimizdən Q. Qeybullayev, H.Mirzəyev, Ə.Rüstəmov, Q.Məşədiyev, A.Bayramov... həmin ərazilərin yer-yurd adları ilə bağlı dəyərli tədqiqat əsərləri nəşr etdirdilər. Lakin Qərbi Azərbaycan toponimlərinin öyrənil-

məsi işində bir-iki əsərlə kifayətlənə bilmərik. Bütövlükdə bu məsələ ilə məşğul olmaq üçün elmi mərkəz yaradılması zamanının diqtə zəruri tədbirdir. Ölkə Prezidenti Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı belə bir elmi mərkəzin yaradılması üçün özül daşı ola bilər.

Bu günlərdə tədqiqatçı-alim İbrahim Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı sanballı (43,5 çap vərəqi həcmində) əsəri çapdan buraxılmışdır. Kitaba akademik Budaq Budaqov "Həyatın torpaq yaddaşı" adlı ön söz yazmış və əsərin mahiyyəti, mənası, elmi tutumu barədə fikirlərini açıqlamışdır.

Ermənistanda olan coğrafi adlar əsərdə müqayisəli tədqiqat üsulu ilə nəzərdən keçirilmiş müəllif onları linqvistik baxımdan həm də yeni zəngin dil materialları ilə izah etmiş, kəmiyyət göstəricilərini vermişdir. "Qərbi Azərbaycan toponimlərində zəngin tarixi, coğrafi, linqvistik, folklor, arxaik sözlər, terminlər baxımından zəngin materialların olmasını nəzərə alaraq, onları ardı-arası kəsilmədən tədqiq etmək gələcək nəslin də qarşısında duran mühüm elmi problem olaraq qalır." Akademik Budaq Budaqovun bu qeydi daim tədqiqatçıların diqqət mərkəzində durmalıdır.

Müəllif "Giriş" hissəsində qələmə aldığı əsərin xalqımız üçün, torpaqlarımızın gələcək taleyi üçün, qan yaddaşımız üçün nə qədər vacib və aktual olduğunu izah edir. Deportasiya tarixinə nəzər yetirilməsi, yüzlərlə ədəbiyyata isnad edilməsi, əsərin sanbalını daha da artırır. Müəllifin qeyd etdiyi kimi, indiki Ermənistan ərazisindəki toponimlərin tədqiqi aydın şəkildə sübut edir ki, indi Ermənistan adlanan Qərbi Azərbaycan Azərbaycanın tarixi torpaqlarıdır.

Əsərin "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı xüsusi hissəsində (645 səhifəlik) 29,8 min kv.km ərazini

əhatə edən indiki Ermənistanın türk mənşəli mikro və makro toponimləri tarix, coğrafiya və dilçilik sintezində ilk dəfə olaraq araşdırılır. Burada eyni zamanda hər bir toponimin coğrafi mövqeyi, tarixi mənbələrdə qeyd edilən adları, toponimlərin müxtəlif fonetik formaları göstərilməklə yanaşı, yaşayış məntəqələrinin taleyi, əhalinin etnik tərkibi tarixi faktlar və statistik rəqəmlərlə verilir. Azərbaycan türklərinin deportasiyası və ermənilərin bu ərazilərə, hansı kəndə nə vaxt köçürülməsi, əsasən, erməni mənbələrinə istinad edilərək şərh olunur və yekun olaraq, tarixən bu ərazinin toponimlərinin 95 faizinin türk mənşəli olması elmi əsaslarla izah edilir.

Kitabın "Nəticə" bölməsindən sonra "İstifadə olunmuş ədəbiyyat" siyahısı oxuculara təqdim olunmuşdur. Müəllif Azərbaycan, rus və Avropa dillərində 439 ədəbiyyata müraciət etməsi təqdirəlayiqdir.

Tədqiqatçının qənaətlərindən biri də budur ki, Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin öyrənilməsi elmi əhəmiyyət kəsb etməklə yanaşı, siyasi mahiyyət də daşıyır. Ərazinin toponimləri aydın şəkildə göstərir ki, Azərbaycan türkləri qədimdən bu ərazidə yaşamışlar. Bu da Azərbaycan türklərinin indi Ermənistan adlanan ərazinin aborigen xalqı olduğunu təsdiqləyir.

*"Xalq qəzeti"*
*29 yanvar 2003-cü il*

# "GÖYÇƏ AŞIQLARI: AŞIQ ŞİRİN, AŞIQ İDRİS"

Azərbaycan aşıq sənətinin inkişafında Göyçə aşıq mühitinin müstəsna rolu olmuşdur. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının qərarına əsasən dərc olunmuş "Göyçə aşıqları. Aşıq Şirin, Aşıq İdris" kitabı Göyçə aşıq məktəbinin tədqiqi və öyrənilməsi baxımından maraqlıdır. Kitabdakı materialları toplayıb nəşrə hazırlayan Əlyazmalar İnstitutunun əməkdaşı Rübabə Bahadurqızıdır. Kitabın məzmunu, materialların dəyəri göstərir ki, müəllif bu işi can yanğısı ilə, məhəbbətlə görmüşdür.

Kitabın "Aşıq Şirinin həyat və yaradıcılığı haqqında" bölməsində maraqlı, faktlara söykənən məlumatlarla tanış oluruq. Aşıq Şirin Göyçədə doğulub, yaşayıb-yaratmışdır. O, indiyə qədərki tədqiqatlarda ifaçı aşıq kimi təqdim olunmuşdur. Lakin kitabın müəllifi, aşığın nəticəsi Rübabə Bahadurqızı onun yaradıcı sənətkar olduğunu tutarlı faktlarla sübut edir. Elə bu kitabda da onun şeirlərindən bir neçəsini daxil etmişdir. Yuxarıda da qeyd etdik ki, Aşıq Şirin ifaçı sənətkar kimi daha çox ad-san çıxarmışdır. Bu kitaba daxil edilmiş "Qafar və Teymur", "Gürcü qızı", "Maral", "Nadir şah", "Kərəmxan Sərtibi", "Qulam Kəmtər", "Azərbaycan dastanları" da onun söyləmələri ilə bu günümüzə yetmişdir. Burada maraqlı bir məqam da var ki, aşığın söyləmələri ilə bu dastanlar 1939-cu ildə qələmə alınmışdır və həmin dastanlar haqda böyük Hüseyn Cavidin oğlu Ərtoğrul Cavid ayrı-ayrı rəylər yazmışdır. Müəllif həmin rəyləri Ərtoğrul Cavidin əlyazmaları nüsxələrində aşkarlamış və fotosurətlərini kitaba daxil etmişdir.

Kitabın digər bir bölümündə "Aşıq İdrisin həyat və yaradıcılığı" tədqiq olunmuşdur. Aşıq İdris yuxarıda haqqında bəhs etdiyimiz Aşıq Şirinin oğludur. O da uşaqlıqdan sənətə meyl göstərmiş və 12 yaşından atasından ustad dərsi almış, Aşıq

Ələsgərdən, Aşıq Musadan saz-söz elminin incəliklərini öyrənmişdir. Müəllifin qeyd etdiyinə görə, o, 80-dən artıq saz havasını ifa edirmiş, 35 dastanı isə mükəmməl bilirmiş. Arxiv sənədlərinə əsasən, Böyük Vətən müharibəsinə gedənə qədər Basarkeçən rayon "Aşıqlar birliyi"nin sədri olub. Aşıqları I və II qurultaylarında iştirak edib, İncəsənət xadimi adına layiq görülüb, 1941-ci ildə müharibəyə gedib və qayıtmayıb. Kitab müəllifi bildirir ki, aşıq haqqında geniş məlumatı Dədə Şəmşirin "Qulağımdan getmir səsi" adlı məqaləsindən alırıq. Məqalədən xeyli hissəni isə tədqiqatçı kitaba daxil etmişdir.

Aşıq İdrisin də şeirlərindən seçmələr kitaba daxil edilmişdir. Eyni zamanda arxiv sənədlərinin – arayışların da fotosurətləri burada əks olunmuşdur.

Kitaba daxil edilmiş bütün faktlar, şeir nümunələri, dastanlar ilk dəfə çap olunur.

Gənc tədqiqatçı Rübabə Bahadurqızının bu kitabı düşünməyə əsas verir ki, o, gələcəkdə də böyük işlərin, tədqiqatların müəllifi kimi tanınacaqdır. Soy-kökü ilə yaradıcı, zəhmətkeş nəslə mənsub olması da fikrimizin gerçəkləşməsinə zəmindir.

*"Xalq qəzeti"*
*15 fevral 2004-cü il*

# "AĞRI DAĞI QƏDƏR AĞRILARIM VAR..."

## Səni anaram, andiqca yanaram, Göyçəm!

"Səttar oğlu", "Göyçənin qisası qalır", "Mən burada qərib, yurd orda qərib", "Vətən dedi İbrahim", "Ermənistan türklərinin 1988-ci il soyqırımı", "Allah amanatı"...

Bu kitabların müəllifi istedadlı qələm ustası, tanınmış şair, gözəl nasir Eldar İsmayıldır. Eldar İsmayıl bu irihəcmli povest və romanları, şeir və poemalar toplularını cəmi 2-3 il ərzində yazıb oxucularına çatdırmışdır. Yazıçının belə gərgin və məhsuldar işləməsinin, ürəyindəkilərin tükənmədən qaynayıb-çağlamasının əsas səbəblərindən biri doğulduğu yurdun işğal ağrısıdır, həsrətidir. Ulu türk obalarından olan Göyçənin düşmən erməni tapdağında qalması, könlü isti ana torpağı üçün döyünməsi onun ruh rahatlığını əlindən almışdır. Bir sözlə, bu boyda gen dünyanı özünə dar edən qələm qardaşımız sözlə ovunur. Bir hovur dincliyini söz dünyasında tapır, ana torpağın, Şahdağın iyini, göz açandan orada gördüyü, mehr saldığı insanlarla ünsiyyətini yazdığı əsərlərdən alır. Bir oxucu kimi isə deməliyəm ki, Eldar İsmayılın kitabları birnəfəsə oxunur. O yazıların – kitabların içində tarixi gerçəkliklər, əski həyatımızın xronikası, bu günün düşüncələri, yaşantıları, problemləri, dünyamızı narahat edən hadisələr öz əksini tapır. Eldar İsmayılın hər təzə kitabını oxuyanda uşaq qədər kövrəlirəm, saflaşıram, səmimi hisslərə doluram. Sonra da qələm götürüb ürəyimdən keçən ən əziz, isti sözləri, xoş duyğuları, doğma sətirləri bu kitablara ünvanlamaq istəyirəm...

Eyni yaşantıları yazıçının təzəcə çapdan çıxmış "Ağrı dağı qədər ağrılarım var..." kitabını oxuyanda bir daha keçirdim. İrihəcmli, olduqca nəfis tərtibatda, yüksək poliqrafik üsulda buraxılmış publisistik-ensiklopedik toplu neçə əsrin yaddaşı, qədim bir obanın tarixi, o tarixin sirdaşı olan igid, aqil insanların

ömürlüyüdür. Daha dəqiq desək, bu kitab yerə-göyə sığmayan bir sevgidir. Kitabın yaranmasının baiskarı, Göyçənin qeyrətli və namuslu oğlu İmdad Kərim günlərin biri ürəyindəki istəyi yazıçı Eldar İsmayıla açır: – Göyçənin tarixi, Kəsəmən kəndinin tarixi, yer-yurd adları, alimləri, şairləri, tanınmış şəxsiyyətləri barədə bir kitab yazmağını istərdim. O kitabda şair Musa Kərimovun əldə olan əsərləri də olsun.

Qətiyyətlə, inamla, sevgiylə, yurd ağrısıyla deyilən bu sözlər tezliklə "Ağrı dağı qədər ağrılarım var..." gerçəkliyinə çevrildi. Kitabı başdan-başa vərəqlədikcə şair qəlbli İmdadın deyimini, sözünü-söhbətini, xatirələrini Eldar İsmayıl qələmində, yazıçı duyumunda oxuyursan. Qəribə bir sehrə çulğalanırsan. Üzü Dədə Qorqud boylarından səslənən Göyçə elinin adına-sanına, şərəfli insanlarına heyran kəsilməyə bilmirsən. Burada Göyçə folkloru, mədəniyyəti, elmi, ustad aşıqları, sərkərdələri milli tariximizin ilk səhifələri kimi görünür. Kitabın ən isti, səmimi sətirlərini "Kərimli" bölməsində oxuyursan. Bir nəslin tarixi, bir nəslin yaddaşı bütöv bir xalqın soy-kökündən xəbər verir. Bu nəslin sərkərdəsi, ziyalısı, dodağı folklor deyimləriylə dolu ağbirçəyi, sözü daşdan keçən el ağsaqqalı xatırlanan, əzizlənən şairi, sinədəftər, şeir duyumlu ərənləri, qız-gəlinləri, dünyəvi biliklərə yiyələnən gəncləri var. Bütün bunlar minillik yaşı-yaddaşı olan ulu bir xalqın tarixi köklərinə gedib çatır.

Başlıcası isə bu kitab yurd-yuvasından perik düşmüş bir el üçün kövrək, həzin bir xatirədir, bir damcı göz yaşıdır, bir bənd layladır, nəğmədir, bir ovuc vətən torpağıdır, Göyçəyə doğru yön alan bir körpənin ayaq izləridir.

"Ağrıdağ" nəşriyyatında çapdan buraxılmış "Ağrı dağı qədər ağrılarım var..." kitabına ön sözü filologiya elmləri namizədi Əziz Ələkbərli yazmışdır.

*"Xalq qəzeti"*
*22 iyun 1999-cu il*

# GÖYÇƏNİN QİSASI QALIR...

Şair Eldar İsmayıl bu il daha iki kitab – "Göyçənin qisası qalır" və "Səttar oğlu" tarixi romanlarını nəşr etdirmişdir. Xatırladaq ki, Eldar İsmayıl dövri mətbuat yazılarından əlavə, "Ulu Göyçə", "Allah amanatı", "Vətən dedi İbrahim" və "Ermənistan türklərinin 1988-ci il soyqırımı" şeir və publisist kitabları ilə də oxuculara çoxdan tanışdır.

"Göyçənin qisası qalır" tarixi-sənədli romanı qədim Oğuz yurdunun – İrəvan xanlığının Göyçə mahalının tarixi keçmişindən, eləcə də əsrin əvvəllərində burada torpaq uğrunda baş verən qanlı hadisələrdən bəhs edir. Təsvir olunan bütün əhvalatlar, demək olar ki, konkret faktlardan və real həyatdan götürülmüşdür. Qəhrəmanlıqları barədə danışılan adamlar da yaşadığımız əsrin əvvəllərinin görkəmli, şöhrətli şəxsiyyətləridir. Bu qəhrəmanların adları, igidliyi illər boyu Göyçə camaatının dilindən düşməmiş, nəsildən-nəsilə ötürülmüşdür. Romanın məziyyətlərindən biri də odur ki, əsərdə Göyçə mühiti – əhalinin yaşayış tərzi, adət-ənənəsi, folkloru, etnoqrafiyası, el-elat məclislərinin təfərrüatı olduğu kimi oxucuya təqdim olunur. Göyçə ruhu, Göyçə nəfəsi romanın əvvəlindən axırınacan duyulur, görünür. Məhz bu xətt əsəri oxucusuna daha da doğmalaşdırır, birnəfəsə oxumaq imkanı yaradır. Tarixən torpaq namusu, torpaq şərəfi igid qanından, qılıncından əziz tutulub. Cığal Həsən, Topal Oruc kimi el qəhrəmanlarının apardığı mübarizələrdə bu hisslər daha qabarıq, canlı və faktlar əsasında qələmə alınmışdır. El qəhrəmanlarının da mübarizəsi, torpaq, yurd uğrunda qanlar axıtmaları məhz bu səbəbdən baş vermişdir.

"Səttar oğlu" tarixi-sənədli romanı da bu ruhda yazılmış əsərdir. Hələ keçən əsrin ortalarından imperiyanın qədim Oğuz yurdlarında planlı şəkildə erməniləri yerləşdirməsini xalq hiddət və nifrətlə qarşılamışdır. Bu mübarizələrin bir qolu da Vedi torpağına gedib çıxır. 1905-1920-ci illərdə İrəvan xanlığının

Vedi mahalında baş verən torpaq davasından bəhs edən bu əsər aktuallığı, məzmunu ilə diqqətəlayiq və gərəklidir. Göstərilən illərdə Vedi obalarında gedən canlı vuruşmalarda iştirak edən oğulların – Abbasqulu bəyin, Məhərrəmin, Musanın, Kərbalayı İsmayılın, Eyyub ağanın, Qəmlonun, Bəhlulun, Aşıq Xudayarın və digər görkəmli şəxsiyyətlərin ruhu xatırlanır, igidliklərindən danışılır, ən başlıcası isə bu yurdun imperiyaya və onun erməni əlaltılarına elə-belə havayı verilmədiyi tarixi faktlarla açılıb göstərilir. Əsərdə, adından da göründüyü kimi, Vedi mahalının adlı-sanlı igidlərindən biri – Səttar oğlu Musanın həyatı və döyüş yolu daha qabarıq tərzdə oxucuya təqdim olunur. Səttar oğlu Musa doğulduğu yurdun bir qarışını belə düşmənə təslim etməyən oğullardandır. Düşmənlə mübarizə, haqq savaşında sərkərdə kimi öndə getmək əsərdə Səttar oğlu taleyinin əsas xətti kimi götürülmüşdür.

Eldar İsmayılın qələmə aldığı hər iki sənədli-tarixi roman həm də ona görə qiymətlidir ki, qeyrət, haray səsimizin məğlub olduğu zamanda əlimizə yetib. Bu əsərləri oxuduqca adamın ürəyi coşur, düşməni qılıncının kəsərində, atının təpiyində qovmağa can atırsan, hər şeydən əvvəl isə ruhunla qan yaddaşı, qan qeyrəti qaynayır. Yaşanmış ötən tarixin olaylarında bu gününü süzgəcdən keçirirsən, faktlara, hadisələrin gedişatına əsasən qalib düşmənin əsrlər boyu apardığı qanlı siyasətin əzəlinə – başlanğıcına gedib çıxırsan, ötən günlər səhifələndikcə mübarizə yolları, üsulları seçirsən və sabahkı haqq davasına ruhən, qəlbən özünü hazırlayırsan. El qəhrəmanlarının – məhz torpaq uğrunda vuruşaraq, qan tökərək ad almış xalq qəhrəmanlarının yolunu yurd taleyinə çıraq tutmaq ümidi qəlbində oyanır.

*"Xalq qəzeti"*
*21 sentyabr 1997-ci il*

## ELDAR İSMAYILIN
## YENI KITABLARI NƏŞR EDILMIŞDIR

Tanınmış şair-publisist Eldar İsmayılın bu günlərdə iki yeni kitabı çapdan çıxmışdır.

"Ömür itiririk yaş qazanınca" kitabına şair müxtəlif illərdə yazdığı kiçikhəcmli şeirlərini toplamışdır. "Eldar İsmayıl poeziyasının əksər nümunələrini Vətən və vətənpərvərlik duyğularının şairdə doğurduğu emosional ovqat və bu ovqatın təsiriylə yaranan şeirlər təşkil edir". Kitabın "Ön söz"ündən götürdüyümüz bu sətirlər topludakı əksər şeirlərin ruhunda duyulur. Şeir dünyasına ehtiyatla, ehtiramla qədəm qoyan şairin gənclik illərində yazdığı və bu kitabına daxil etdiyi poetik sətirlərə nəzər salaq

*Şeiriyyət aləmi pərdə-pərdədir,*
*Nizami, Füzuli yüksəklərdədir.*
*Vurğun ürəklərdə yuva salıbdır,*
*Şeirin ən gözəli Ələsgərdədir.*

40 il bundan əvvəl bu misraları yazan şair indi də şeir dünyasına ciddiyyətlə yanaşır. "Eldar İsmayıl poeziyası insanın ağlına, düşüncəsinə təsiretmə gücünə malik analitik poeziyadır. Onun şeirlərində Vətən təsviri də, bu təsvirin şairdə doğurduğu emosionallıq da sonda analitik bir nəticənin-əxlaqi-estetik konsepsiyanın meydana çıxmasına səbəb olur".

"Sənsizlik nə yaman çətinmiş, Sərdar" adlı digər kitabı isə tanınmış tibb xadimi, istedadlı söz-qələm əhli Sərdar Kərimovun əziz xatirəsinə həsr olunmuşdur.

Müəllif kədərli notlarla sətirlənmiş bu kitabına həyatdan vaxtsız köç etmiş Sərdar haqqında publisist qeydlərini və şeirlərini daxil etmişdir. Mərhumun keçdiyi ömür yoluna Eldar İsmayıl publisistikası bələdçilik edərək oxuculara ətraflı məlumatlar verir. Sərdarın uşaqlıq illərindən ta ömrünün 49-cu illinə – qanuna qədər maraqlı, layiqli izlərini bu kitabda görmək mümkündür. Ömrün müxtəlif illərinin bir anını kağıza köçürən

şəkillər kitabı daha da zənginləşdirib. "Sənsizlik nə yaman çətinmiş, Sərdar" kitabına unudulmaz Sərdarın yaxın dostlarının, iş yoldaşları-həkimlərin xatirə dolu kədərli məqalələri, şeirləri də daxil edilmişdir. Kitabın "Səni dinləyirik, Sərdar" adlı bölməsində isə mərhumun şeirlərindən nümunələr verilmişdir - Gördü öz işini ömür də, vaxtdı,

*Qayıtma geriyə, qayıtma, daha.*
*Ötənin, itənin dalınca baxma,*
*Qayıtma geriyə, qayıtma, daha.*

Eldar İsmayılın nəşr etdirdiyi bu kitablar sayca onun 22-23-cü əsərlər toplusudur.

*"Xalq qəzeti"*
*7 noyabr 2004-cü il*

# ŞAİR SÖZÜ İLƏ UCALDILMIŞ HEYDƏR ƏLİYEV HEYKƏLİ

Mayın 11-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində tanınmış şair Eldar İsmayılın böyük şəxsiyyət Heydər Əliyevə həsr olunmuş "Böyük öndər" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə akademik Teymur Bünyadov açdı: "Bu kitabda Eldar İsmayıl Göyçəsiz illərdə yaşadığı ağrılı-acılı duyğularından, özünün və eyni taleyi yaşayan həmvətənlərinin doğma Azərbaycanımızı məhvolma təhlükəsindən min bir fəlakət və məhrumiyyətlərdən xilas eləmiş, ulu türkün keşməkeşli tarixində ədəbi yaşamaq haqqı qazanmış böyük oğluna – görkəmli dövlət xadimi Heydər Əliyevə sonsuz sevgisindən danışır. "Böyük öndər" şair qəlbindən doğan sözlərlə ucaldılmış Heydər Əliyev heykəlidir.

"Böyük Öndər" əsəri haqqında millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov maraqlı çıxış etdi: "Azərbaycan yazıçılarının "Son 2-3 il ərzində Heydər Əliyev haqqında çoxlu sayda əsərlər yazıldı, kitablar nəşr olundu. Bu haqqı ulu öndər öz zəhməti, xalqına olan xidməti ilə qazandı. Eldar İsmayıl müasir ədəbiyyatımızda ciddi qəbul olunan şairdir. "Böyük öndər" kitabı isə qədim Göyçə, bütöv Qərbi Azərbaycanda yaşayan hər kəsin qəlindən keçən, könlündə yaşatdığı duyğularının əksidir. Bu əsər səmimi hisslərlə yazıldığından çox doğma və əzəmətli görünür. Heydər Əliyev haqqında yazılan əsərlərin içərisində sayılan, seçilən unudulmaz xatirə yazısı, bədii əsərdir. Müəllifin yaratdığı Heydər Əliyev obrazı tarixi şəxsiyyət kimi tarixlərdə əbədiləşəcəkdir".

Millət vəkili, YAP-ın icraçı katibinin müavini Mübariz Qurbanlı da kitabın məziyyətlərindən danışdı və xüsusi qeyd etdi ki, tarixi şəxsiyyətlərin obrazını yaratmaqla həm də öz tariximizi

əbədiləşdiririk. Fransız tədqiqatçısı qeyd etmişdir ki, Fransanın tarixi Fransa krallarının tarixinə bənzəyir. Hər bir xalq öz tarixi şəxsiyyətlərini üzə çfıxarmaqla tarixini yaşatmış olur. Eldar İsmayılın bu əsəri həm də bu baxımdan çox dəyərlidir, çox böyük əhəmiyyət kəsb edən bir əsərdir. Burada mən Heydər Əliyev şəxsiyyətinə həsr olunmuş poemanı maraqla oxudum. Əsərdə Heydər Əliyevin real obrazını–qüdrətli sərkərdə, böyük siyasətçi obrazını gördüm.

Akademik Əli İnsanov öz çıxışında qeyd etdi ki, Eldar İsmayılın bu kitabdakı yaşantılarını eyni ilə mən də yaşamışam. Qərbi Azərbaycan adlandırdığımız o torpaqlarda doğulub böyüyən hər bir kəs Heydər Əliyev adıyla öyünüb, Azərbaycan adıyla fəxr edib. Biz daim Azərbaycan və Heydər Əliyev dühasına sığınmışıq, qürur duymuşuq. Düşmənlə mübahisə, mübarizə edə-edə bərkimişik. Ona görə də elə bilirəm ki, biz Heydər Əliyev nəhəngliyini yetərincə dərindən duyan insanlarıq. Həyat mübarizəmizi də Heydər Əliyev zirvəsi ilə öyünərək, güvənərək ucalmışıq.

Akademik Əhliman Əmiraslanovun çıxışı hər kəsin qəlbində kövrək duyğuları oyatdı: "Böyük Aşıq Ələsgərin qəbri tanınmaz bir vəziyyətdə idi. 1972-ci ildə Aşığın 150 illik yubileyində böyük büstü hazırlandı və qəbrinin üstündə ucaldıldı. Moskvada, Bakıda, Göyçədə 150 illik yubileyi el bayramı kimi keçirildi. Aşıq Alının çox insanlar adını da bilmirdi, qəbri isə it-batda idi. Heydər Əliyev xüsusi komissiya yaratdı. O qəbri də tapdırdı, üstündə büstünü də qoydurdu. Yenə də Moskvada, Bakıda, ulu Göyçədə Aşığın 180 illiyi el bayramı kimi qeyd olundu. Bunlar ədəbiyyat qayğısı, xalq, torpaq qayğısı idi. Ona görə də Heydər Əliyevin obrazının ədəbiyyatda belə möhtəşəm obrazının yaradılması çox təbiidir. Eldar İsmayıl vətənpərvər şairdir. Böyük Heydər Əliyev obrazını yüksək səviy-yədə yaratması onun bu şəxsiyyətə hədsiz məhəbbətindən, parlaq istedadından irəli gəlir. Eldar İsmayıl Tibb Universiteti-

nin "Təbib" qəzetinin baş redaktorudur. Ləyaqətli, layiqli jurnalist kimi də fəaliyyəti çox təqdirəlayiqdir".

AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elmləri namizədi Hüseyn İsmayılov bu kitabın İnstitutun Elmi Şurasının qərarı ilə çap olunduğunu labüdlüyünü xüsusi vurğuladı. Eldar İsmayıl qələminin qüdrəti ilə araya-ərsəyə gəlmiş "Böyük öndər" kitabının ədəbiyyat tariximizdə özünəməxsus yer tutacağına əminliyini bildirdi.

Publisist-yazıçı Xeyrəddin Qoca Heydər Əliyevlə bağlı xatirələrini yada saldı.

Aktyorlar Ağalar Bayramov və Fərxunə Atakişiyeva əsərdən parçaları məclis iştirakçılarının diqqətinə çatdırdılar.

Tədbirin sonunda müəllif Eldar İsmayıl tədbir iştirakcılarına öz minnətdarlığını bildirdi "Böyük öndər" kitabı Heydər Əliyevin bir epiqrafı ilə açılır: "Mən həyatda yalnız üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə və bir də xalqıma".

Kitabda dərc olunmuş "Böyük öndər" – ümummilli lider" adlı öz sözün müəllifi tanınmış iqtisadçı alim Vaqif Hüseynovdur.

İrihəcmli bu kitabın xeyli hissəsi bədii-publisistik formada qələmə alınmışdır. Qalan hissəsi isə "Zəmanəyə heyrətimdi Heydərim" adlı geniş poemadan ibarətdir. Əsəri qələmə alarkən müəllif Göyçədə yaşadığı illərdə Heydər Əliyev adıyla, dühasıyla öyündüyü məqamlara xüsusi toxunmuşdur. Və bu hisslər o yurdda yaşayan hər kəsə aiddir, hər kəsin qəlbindən keçən hisslərdir.

*"Xalq qəzeti"*
*12 may 2004-cü il*

# UĞURUNA QURBAN, FLORA!

Taleyimin bəxtəvər səhifəsi açılıb: həyat qədər işıqlı, mənalı görünən Flora Xəlilzadənin şeirlər kitabında sözüm, qəlbimin səsi yazılacaq, yaxud istəkli dostumun hər gün ürəyində mənə yazdığı məktublarından birinə cavab olacaq bu duyğularım. Təsadüfənmi, ya niyəsə (?) neçə vaxtdır ki, Floranın bu məktubunu (28.VII.92) tez-tez oxuyuram və üç səhifəlik məktubun sətri məni həyəcanlandırıb, kövrəldib: "Əzizim Almaz! Ürəyimdə neçə dəfə yazdığım məktublardan birini sənin üçün köçürdüm... Bu əsrin, bu zamanın adamı deyiləm. Özümü bu duyğularımı anlayandan duymuşam. Ya çox gec doğulmuşam, ya da tez. Həyatda tez-tez üzləşdiyin hallar var ki, heç cür qəbul edə bilmirəm... Bu uzun-uzadı "Tarixi-Nadirdən" sonra nə demək istəyirəm?! Sən mənə gərəksən! Övladlarımın məhəbbəti boyunda dayanan – üçüncü balam kimi. Anamdan sonra üzümü tam çılpaqlığı ilə yetim hiss edirəm. O qadında duyduğum istəyi elə itirdim ki, kiminsə məni ürəkdən istəyə bilməsinə inamım qırıldı. Və birdən-birə bu mehri Bəhruzun mənə sığınan nəfəsində duydum. Sonra da mənə elə gəldi ki, sən də anamın nişanəsisən. Bəzən bu duyğuların əlində çırpına-çırpına qalıram. Üzmə məni, Almazım, çox istəklərimin ünvanısan". Elə bilirəm həyatım boyu bu qədər dərin, yer-göy boyda belə sevgim olmayacaq. Floranın təsəvvürümə gətirə bilmədiyim hisslərlə, həyəcanlarla yazdığı bu sətirlər qaynar köz olub ürəyimə basılıb. Və Flora istəyi-doğmalığı orda sinəmdə öz qaynar hərarətindədir həmişəlik, ya da bəlkə, əbədilik. Bu, Floranın öz böyüklüyüdür. Allah, özü də nə uca böyüklükdür!

İndi Floranın kitabına bax, o istəklə, bilmirəm üçüncü balası kimi, ya ana nişanəsini xatırladan bir adam kimi xeyir-dua, qaynar, təptəzə, səmimi sözlər yazmaq istəyirəm. Qəribə xatirələr burulğanında ilişib qalıram.

Florayla ən uca, əlçatmaz bir nöqtədə daha çox yaxın oluruq, bir oluruq, kövrək oluruq. İkimiz bir yurd itirmişik. Daha doğrusu, yurdumuzu yağı basıb. Heç bilmirik necə ovunaq, necə qərarlaşaq bu ağrıdan. O yurdun sevgisi bəxtinə bütün İrəvan şeirsevərlərini bir məclisdə görməyi arzuladıq. İrəvan yurdunu İrəvandan uzaqlarda genəltmək məqsədiylə, o yurdun əbədiliyi naminə. Könlümüzün dolub-boşalan günlərinin birində əvvəlcə məsləhət qrupu təşkil etdik. Ora gələnlərdən biri də istedadlı telejurnalist, mənim həmişə öyündüyüm Telli Pənahqızı idi. (Nədənsə tam əminəm ki, Telli həm də şeir yazır, özü də elə-belə cızma-qara yox, əsl şeir). Heç yadımdan çıxmaz. O görüşü "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında – mənim iş otağımda təşkil etmişdik. Söhbət ha uzandı, bir hasilə, bir nöqtəyə cəmləşmədi (çox təəssüf). Çox qəribə səbəbdən belə alındı. O gündən – 21 avqust 1992-ci il tarixdən qalan xatirə isə əziz oldu. Razılaşdıq ki, "Ədəbi İrəvan" səhifəsi aparaq vaxtaşırı. Hərə bir yazı boyun oldu ordaca. Söhbətin yayınan, dağılan məqamında bir bayatı yarandı. İki misra Telli, iki misra Flora naxışladı, sonra kağıza köçürdülər. Mən də yazdım:

*Əzizim, Ağrı dağı,*
*Sinəmdə ağrı dağı,*
*Yanımdan necə keçdin,*
*Görmədin bağrı dağı.*

O görüşdən sonralara – bu günə araya gələn bayatı qaldı. Orda vəd edilən yazılar yazılmadı. "Ədəbi İrəvan" arzumuz isə hələlik "Ədəbi Göyçə" səhifəsində göyərir.

Flora Xəlilzadəni publisist – jurnalist kimi mətbuatda tanımışam və yazılarını da həmişə böyük qibtəylə oxumuşam, tanımaza-bilməzə həsəd aparmışam ona, bəzən qələminə qısqanmışam duyğularını. Tanrının yazısıyla dünyamızın çalxalanan günlərində, yeri-göyü Ülvi işığı oda-alova bürüdüyü zamanlarda mənə doğmalaşanlardan biri də Flora oldu. Ülvimi mənim qədər sevdi, əzizlədi, yandı, ağladı, ucaltdı, ülviləşdirdi. Onda qibtə

etdiyim Flora indi mənə böyük insan, kövrək şair, həssas ana, gözəl dost, yurd ağrı-acısından alışıb-yanan vətəndaş və Azərbaycanını azad, bütöv, bəxtəvər görmək istəyən qaynar ürəkli türk qızı təki əzizdir. Flora qəribə duyğularla ötürür günlərini. Elə bil dünyanın ən narahat, ən ağrılı günlərini yaşamaq onun taleyinə yazılıb. Və qəribədir ki, bu qədər narahatçılıq içində çırpınan Floranın bircə damcı sevgiminin, bircə qırıq gülüşünün, bircə kəlmə təskinliyinin acıyam. Bunları hər gün, həmişə Floradan umuram, gözləyirəm. Və Flora mənim qədər ərköyün qızın həssas çırpıntılardan, qayğılardan üzülən kəsin nazıyla oynayır. Bu istəklər onun isti səmimiyyətindən, saflığından göyərir. Əsirgəmə sevgini, gülüşünü, həssas təskinliyini məndən, Flora!

Floranın şeir qəlbinin dəlisiyəm. Şeir düzən könlü dağ çeşməsi tək dumduru çağlayır. Şeir yazanda, şeirlə dolanda elə başqalaşır ki, təkcə öz dünyasının səsini eşidir. Heç kimə qulaq asmır, özündə olur.

Bu qeydlərimdə Floranın şeirləri haqda fikir söyləmək məqsədində deyiləm. İstəyirəm ilk söz Floranın oxucularının olsun. İlk kitabın uğurlu olsun, əzizim Flora! Elə bu uğuruna da dünya boyda sevinmişəm!  Allah həmişə sənə, könlünə yar olsun!

*F.Xəlilzadə."Ruhumun ehtiyacı"*
*kitabına ön söz.Bakı.1994.*

## KÖKSÜNDƏKİ DƏRDİN MƏNƏ TANIŞDI..."

M. F. Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasında istedadlı jurnalist, tanınmış publisist, şair Flora Xəlilzadənin "Yuxular" adlı yeni şeirlər kitabının təqdimatı oldu. Tədbirdə ilk olaraq sevimli qələm dostumuz – jurnalist, publisist, şair Telli Pənahqızı Flora Xəlilzadənin yaradıcılığından, onun dost kimi, insan kimi, ziyalı kimi yüksək keyfiyyətlərindən danışdı. Akademik Bəkir Nəbiyev öz çıxışında Floranın şeirlərinin məziyyətlərini açıqladı. Onu daha çox "nisgil şairi, həssas şair" kimi diqqətə yetirdi. Yaradıcılığında isə mövzu rəngarəngliyi, forma zənginliyi arzuladı. Tanınmış jurnalist Zemfira Məhərrəmli həm də tələbə yoldaşı olmuş Flora xanımın gənclik dövründən indiyəcən keçdiyi şərəfli, qürur dolu ömürlüyünü vərəqlədi.

Flora Xəlilzadənin yeni kitabının təqdimatı məclisinə hamımızın tanıdığımız yaradıcı ziyalılar toplanmışdılar. Şairlərdən Zivər Ağayeva, Fəridə Ləman, Eldar İsmayıl, Fəridə Hacıyeva, Xuraman İsmayılova, Mənsur, Əvəz Lələdağ, incəsənət nümayəndələri – Ağalar Bayramov, Lütfiyar İmanov, Səmayə İsmayılova, Laləzər Mustafayeva, diktor Nailə İslamzadə, bəstəkar Mətanət Dadaşova, rəssam Mübariz Əliyev, tədqiqatçı Firəngiz Ulutürk, professor Maarifə Hacıyeva, əmək qəhrəmanı Tərlan Musayeva və başqaları o məclisdə Flora qələminin sehrindən, məhəbbətindən, kövrəkliyindən, həssaslığından söz açdılar.

Deyilən bütün xoş sözlər qəlbdən doğan saf duyğulardan cilalanırdı. Flora şeirindəki böyük vətəndaşlıq hissləri məclisi kövrək nota kökləmişdi –

*Üzüm dirəndi qəmə, Gözüm öyrəndi nəmə,*
*Ocaq çatdım, aş süzdüm, Özgələr qoydu dəmə.*
*Gözümün ağı qaldı, Sinəmdə dağı qaldı.*
*Zülüm ilə ev tikdim, İçində yağı qaldı.*

Ôëîðà Õÿëèëçàäÿ ãÿëáèíÿ, ãÿëÿìèíÿ âÿòÿí âöñàëëû íÿüìÿëÿð àðçóñóéëà
*–"Õàëã ãÿçåòè"28 íîéàáð2004-úö èë*

## FLORA XƏLİLZADƏNİN "YUXULAR" DÜNYASI

Qələm dostumuz, istedadlı publisist Flora Xəlilzadənin “Yuxular” adlı irihəcmli yeni şeirlər kitabı “Araz” nəşriyyatında çapdan buraxılmışdı Kitaba müəllif müxtəlif illərdən bəri yazdığı şeirlərini toplamışdır. “Ön söz”də Flora xanım oxucularına üz tutaraq yazır: “Şeiri göndərən Allah, yaşadan ürək, yazan əldir. Onu kağızlara köçürməyə vaxt tapa bilmədim. Vaxtı olmayan qələmimin yolu eləcə publisistikaya tuşlandı. Açmadan solan gül kimi köksümdə qovrulan misraların yanğısı çəkdiyim nisgillərin harayında əridi”. Və belə günlərin birində Floranın şeirlə döyünən ürəyi fırtınaya döndü. Pıçıltı nəğmələri yazıldı, oxucularına yetdi. Mahnıya uyğarlı şeirləri bəstəkarların diqqətindən çəkilmədi – müğənnilərin dodaqların-da – qəlblərində gəzdi.

“Mən şair deyiləm. Məni şairlərlə müqayisə etməyin, şeir yazdığım üçün də məni qınamayın”. Elə bilirəm ki, Flora xanım bu sözləri təvazökarlıq hissinə dolaraq yazmışdır. İllərdən bəridir ki, Flora Xəlilzadə şeir yazır. Beləcə sözdən-sözə, fikirdən-fikrə cilala-naraq şeir-sənət aləmində bərkimə-yə cəhd göstərmişdir. Bu duyğular Flora Xəlilzadənin həm də qan yaddaşından pöhrələnir: “Bizim nəslin Məmməd Araz adlı bir xan çinarı var. O Məmməd Araz ki, anası Cahan xanım mənim doğmaca bibimdir”.

Flora Xəlilzadənin ürəyini ovlayan mövzulara nəzər salanda publisist Flora Xəlilzadəylə yanaşı getdiyini hiss edirsən: Vətən eşqi, yurd məhəbbəti, dost-tanış qayğısı, Ana narahatçılığı. Yolun uğurlu, qələmin sevincli olsun.

## BÖYÜK SEVGİDƏN YOĞRULMUŞ XOŞ ANLAR :

*Vətən mənə oğul desə nə dərdim*
*Mamır olub qayasında bitərdim.*

Məmməd Araz poeziyasının nadir incilərindəndir – bu sətirlər. Vətən anlamını dərk edən hər kəs bu misraları yəqin ki, əzbər bilir. Bəlkə də gündə neçə dəfə dodaqaltı zümzümə edir. Məmməd Araz şeirinin qüdrəti budur: İnsanların qəlbində heykəlləşən duyğuları, sadə dillə, adi ifadələrlə, fəlsəfi duyumla şeirə köçürmək. Bir həqiqəti də nəzərə çarpdırmaq istəyirəm ki, Məmməd Araz şeirlərinə daha çox 1988-ci il hadisələrindən sonra ehtiyac duyduq, onu dərk etdik. Azərbaycanın dar günündə Məmməd Araz şeirlərinə əl atdıq, Azərbaycanın ilk müstəqillik günlərində, illərində Məmməd Araz poeziyasını vərəqlədik. Bir sözlə, şükür ki, xalqın uman-güman yeri nə yaxşı həmişə olub. Məmməd Araz şeirlərindəki vətən məhəbbəti, vətən istəyi, Azərbaycan sevgisi o qədər ilahi, o qədər dərin, o qədər səmimidir ki, sanki hər kəsin içindən gəlir.

Oktyabrın 14-ü sevimli şairimizin 70 yaşındır. Şeirsevərlər, ədəbi aləm, Məmməd Araz poeziyasının pərəstişkarları şairi bu xoş günündə qəlbən anır, ona cansağlığı diləyirlər. Məmməd Araz poeziyasına yüzlərlə rəylər yazılıb, monoqrafiyalar, kitablar bağlanıb. Bu sıradan olan "Məmməd Araza məktub" kitabı xalq şairinin anadan olmasının 70 illiyinə istedadlı və zəhmətkeş qələm dostumuz Flora Xəlilzadənin hədiyyəsidir. Burada müəllif müxtəlif illərdə dövrü mətbuatda dərc etdirdiyi yazılarını toplamışdır. Zaman baxımından araşdıranda publisistin Məmməd Araz ünvanlı ilk yazısı 1980-ci ilə – 23 il bundan əvvəlki tarixə gedib çatır. "Vətən mənə oğul desə..." adlı bu məqalə şairin poeziyası haqqında müəllifin lirik düşüncələridir. "Məmməd Araz poeziyasını uca bir dağa bənzətsək, mənim dediklərim çox

olsa-olsa o dağın ancaq kiçik bulaqları haqqında səmimi ürək sözləridir" – bu qeydlər Flora Xəlilzadənin həmin yazısının sonluğudur. Buradan da görünür ki, onun qəlbində, şeir dünyasında Məmməd Araz ünvanlı poeziya zirvəsi var. Kitabı vərəqlədikcə bu istəyin, bu bağlılığın ildən-ilə, yazıdan yazıya möhkəmləndiyini görürük. Özü də bu istək o qədər güclüdür ki, istər-istəməz orada nə isə başqa bir hissin də dayandığını duyursan. Bunun da cavabını elə həmin yazılardan tapmaq olur. Qan qohumluğu – bir babanın, bir nənənin nəvələri – *Məmməd Araz və Flora Xəlilzadə*. "Ot kökü üstə bitər" – buna deyiblər.

"Şair bütün varlığı, ağrı-acısıyla birlikdə – Azərbaycanın özü deməkdir. Şeirlərində yurdumuzun portretini çox sərrast və təsirli yaradan şairimizin özü də elə taleyi göynərtili torpağımızın eynidir". Bu ılıq duyğular Flora Xəlilzadənin kitaba yazdığı ön sözdəndir. Kitaba 26-ya qədər müxtəlif səpgili, müxtəlif məzmunlu yazılar daxil edilmişdir. İlk əvvəl poetik qəlbini kökləyərək "Məmməd Araza məktub" ünvanlı şeirlərini oxuyursan. "Nişançı özümüz, hədəf özümüz", "Arzuya bələdçi, şərə kəmənd şairimiz", "Fırtınaya tor atan şair", "Yarımadın heç nədən, yarımadın nə yaxşı..." məqalələrində isə müəllif şairin yaradıcılıq nümunələrinə isnad edərək onun şeir dünyasına varır, qəlbini cuşa gətirən məqamlarında oxucuyla həmsöhbət olur, dünya poeziya səhifələrində Məmməd Araz səhifəsi arayır. Bu publisistin müəllif haqqı, məhəbbət payıdır.Məmməd Araz şeirlərinə baş vuran hər kəs əlbəttə nə isə bir dünyəvilik axtarır. Bunlar təbii və doğma duyğulardır. Kitab maraqlı ovqatıyla da Məmməd Araz yaradıcılığı haqda oxucunu məlumatlandırır. Burada şairin şeirlərinin gözəl ifaçıları Ağalar Bayramov, Laləzar Mustafayeva yaradıcılıqlarına nüfuz edilir, mahnılar müəllifi Niyaməddin Musayevə üz tutulur və s., şairi cəbhə bölgələrində də aramaq mümkündür, onun publisistik yaradıcılığına F.Xəlilzadənin "Sözlə yanan işıqlar" yazısında bələd olursan. Eyni zamanda professor İsa Həbibbəylinin albom-monoqrafiyası

(xalq şairinin həyat və yaradıcılığından bəhs edən) haqqında maraqlı məqalədə zəngin materiallarla tanış olursan.

“Məmməd Araza məktub” kitabında şairin yaradıcılığı barədə qısa da olsa ensiklopedik məlumatlar almaq mümkündür. Bu məqamda “Ömrün illəri” bölməsini xüsusi qeyd etmək istəyirəm: 70 illik ömrün tərcümeyi-hal tarixləri ardıcıllığıyla oxucuya təqdim olunur. Ümumiyyətlə, bu kitab böyük sevgiylə yaranmış xoş bir andır. O an ki, illərdən bəri yoğrulmuş və yazıya köçürülmüş, ədəbi nümunəyə çevrilmişdir. 70 illik ömrün çiçək bəzəyidir.

## NƏM SƏTİRLİ NƏĞMƏLƏR :

Flora Xəlilxadəni jurnalist kimi tanıyanlar – sevənlər çoxdur. İmzası mətbuatda bir azca gec görünəndə onun üçün darıxanlar da olur. Flora xanımın publisistikasından da aydın görünür ki, o, şeir adamıdır. "Yuxalmış ürəyim sözdən asılı" deyən müəllif elə sözün qüdrətiylə də misralar biçib nəğmələr bəzəyir. Dağ ətəyində yamyaşıl çəmənlikdə sakitcə axaraq ətrafa əsrarəngiz gözəlliklər bəxş edən bulaq kimi.

*Gözləmək nə yaxşı, necə şirindi,*
*Ürəklər ümidlə dolar, çağlayar.*
*Gündüzlər nəğməli, gecə şirindi,*
*Qələmim eşqindən dastan bağlayar.*

Floranın ömrünü qurban etdiyi Vətən eşqidir. "Özü atəş ola-ola" Vətən odunda külə dönən Flora Xəlilzadə bir vətəndaş kimi göynəmələr içində çırpınır:

*Tozluqda cücərən çiçək çox olar,*
*Küllükdə gül çələng hörən olmayıb.*
*Ağrıdan, acıdan ürək tox olar,*
*Sevincdən toxluğu görən olmayıb.*

Son dövrün şeirində və nəsrində ağır bir iztirab, üzüntülü bir dərd çox qabarıqdır. Söhbət Vətən torpaqlarının bir hissəsi düşmənlər tərəfindən qəsb edilməsindən gedir.

Oba, ocaq itkisinə dözməyib şəhid olan anasının cismən yoxluğundan sinəsi dərd-qəm ocağına dönən müəllif "Anam" şeirində öz nəsil tarixini vərəqləyir. Yurddan didərgin, dağlara, düzlərə həsrət ana bir vaxtlar öz anasının yaşadığı ömrə qayıdır. Dünyaya gəlişi ah-amanlı günlərə düşən ananın dünyadan gedişi də tufanlı günlərə təsadüf edir. "Anan qaçqın olub sən doğulanda, Yenidən qovuldun qarda, dumanda, Qırıldı həyatın... el dağılanda". Bir vaxtlar ulu nənə didərginliyə dözməyib dünyasını dəyişmişdi. İndi eyni taleyi bu ana da yaşadı.

Flora ömrünə düşən bu tale payını şəxsi həyatından ayırıb

vətən boyda dərdinin bir parçası hesab edir. "Didərginəm obamdan, könlüm Vətən haraylar", – deyə didərgin ruhlu bayatılar söyləyir:

*Üzüm dirəndi qəmə,*
*Gözüm öyrəndi nəmə.*
*Ocaq çatdım, aş süzdüm,*
*Özgələr qoydu dəmə.*

Lakin yurd itiyindən qəmə mübtəla olub tərki dünyalıqdansa, mübarizə ğeşqini ruhunda şövqləndirən müəllif "hələ vətənə gərəyəm" deyir.

Nikbin ruhdan doğan bu duyğuları gül-çiçəkli dağların sevdası dilləndirir. Artıq görünməz olan ucalıqlara yan çevirən müəllim, –

*Eşqim ona əyan olsa,*
*Ürəyimi duyan olsa,*
*Dağlar özü həyan olsa,*
*Qəmlər məndən perik düşər.*

– deyə "dünya boyda bu diləyinə" fürsət axtarır. Bu millibəşəri faciə ilə bağlı beli qara kəmərli "Səməni" sehrindən ümid göyərdir qəlbində: "Gülü, çiçəyi qışın əlində" qalsa da, yazın açılacağına inanır, bir gün bahar gülər düzümüzə, həsrət bizdən əl çəkər", – deyir.

F.Xəlilzadənin bu günlərdə yeni bir şeirlər kitabı dərc olunub: "Ürəyim aldatdı məni". Amma bu qeydlərimə onun ilk kitabı "Ruhumun ehtiyacı" kitabı sirdaş oldu, bələdçi oldu. Müəllif kitabına daxil etdiyi bütün şeirlərini bir xətdə qovuşdura bilib. Bu, yuxarıda söhbət açdığımız kimi, Flora qəlbində olan Vətən ağrısıdır.

*Bir fəryad çəkərəm dağ-daş əriyər,*
*Mənim çiçəyimi qoparan olsa.*
*Naləmə yad yanar, sirdaş əriyər,*
*Mənim sevincimi aparan olsa.*

O xoşbəxt günü, azadlıq və müstəqillik uğrunda mübarizə yolumuzda tikan olan düşmənlərimiz üzərində qələbə qazanacağımız günü hamımız gözləyirik: nakam şəhidlərimizin ruhu da, Vətən, torpaq deyə alova dönən oğullar da, qız-gəlinlərimizin titrək ürəkləri də, ata-analarımızın kövrək, təlamlı anları da, nişanlı gənclərimiz də, sənin Elnur, Bəhruz balaların da, ruhumda, varlığımda daim narahat dolanan Ülvim də, mən də...

*"Ekspress"*
*10-11noyabr 1998-ci il*

# ANALAR

Mən qəhrəmanlarımı həmişə sevə-sevə vəsf etmişəm. Ünvanına xoş sözlər dediyim insanların arasında ən çox seçilən, sevilən məhz qadın olub. Bu zərif varlıqların çiyinlərində, ürəklərində çəkdikləri yükün, əzabın ağırlıqları məni hey düşündürüb. Qadının təbiətindəki toxluq, xasiyyətindəki mehribanlıq, həyata, insanlara münasibətindəki səmimilik, eşqindəki fədakarlıq, fəaliyyətindəki yorulmazlıq, mövqeyindəki dönməzlik, fikrindəki qətiyyətlilik, duyğularındakı həzinlik, yaradıcılığındakı istedad məni həmişə özünə çəkib". Oxuculara təqdim olunan "Analar" kitabı da yuxarıdakı sətirlərin müəllifi, istedadlı jurnalist Flora Xəlilzadənin məhz belə düşüncələrinin məcmusudur. Kitabda ilk yazını müəllif öz anasına – müqəddəs Gözəl anaya həsr edibdir. "Mənim adı Gözəl, özü gözəl anam! O laləli dağların, süsənli çəmənlərin ətri sənin nəfəsinə hopmuşdu, anam mənim". "Yurd həsrətli anam" adlı bu məqalə eyni zamanda müəllifin də ömründən bir yarpaqdır. Flora xanımın öz anası haqqında dediyi müqəddəs duyğular, sevgilər bütün analara yaraşır. Məhz buna görə də onun analara olan can yanğısı, söz bəzəyi səmimidir, istəklidir, nurludur. "Analar" kitabının qəhrəmanı kimlərdir? Hər biri "Ana" adı daşıyan bu ədəbi qəhrəmanlar övlad qayğısı içində ömür-gün əridən adi insan, sinəsi söz-söhbətlə dolu əli qələmli şair, mahnıları ilə dünyaya səs salan müğənni, ədliyyə generalı, xalq hakimi, həyatını bir şair ömrünə köz edən qadın, dodaqları zümzüməli bəstəkar, insanlara yenidən həyat bəxş edən həkim, doğma ana qədər əziz, müqəddəs sayılan müəllim, üzlərə-gözlərə gülüş bəxş edən aktrisa, yazı-pozu zəhmətində əriyən yazıçı, söz xiridarı jurnalist... Və bu sənət sahiblərinin hamısının bir adı var – "Ana!"

Analar haqqında söz demək üçün gərək özün də ana olasan, qadın olasan – o hissi, o müqəddəsliyi ürəyincə, qəlbincə duyasan, yaşayasan. Onda inamla deyə bilərsən ki, anaya

bəzədiyin söz layiqlidir, ananın özü qədər şirindir. Qələm dostumuz Flora Xəlilzadənin "Analar" kitabı məhz bu şirinlikdə, bu layiqdədir. Müəllifin elə bu uğuruna, bu sevincinə də qoşulub deyirik – "Ana" adın həmişə mübarək olsun.

*"Xalq qəzeti"*
*11oktyabr 1998-ci il*

## SEVGİN DƏ, SEVİNCİN DƏ MƏNİMDİR.

Flora Xəlilzadəni jurnalist-publisist kimi mətbuatda tanımışam və yazılarını da həmişə böyük qibtğə hissiylə oxumuşam. Tanrının hökmüylə dünyamızın çalxanan günlərində, yeri-göyü Ülvi işıfğı oda-alova bürüdüyü zamanlarda mənə doğmalaşanlardan biri də Flora xanım oldu. İndi o mənə həm də böyük insan, kövrək şair, həssas ana, gözəl dost, yurd ağrı-acısından alışıb yanan vətəndaş və Azərbaycanı azad, bütöv, bəxtəvər görmək istəyən qaynar ürəkli türk qızı təki mənə əzizdir. Flora qəribə duyğularla ötürür günlərini. Elə bil dünyanın ən narahat, ən ağrılı günlərini yaşamaq onun taleyinə yazılıb. Və qəribədir ki, bu qədər narahatçılıqlar içində çırpınan Floranın bircə damcı sevgisinin, bircə tikə gülüşünün, bircə kəlmə təskinliyinin acıyam Bunları hər gün Floradan umuram, gözləyirəm. Bu istəklər onun isti səmimiyyətindən, saflığından göyərib dillənir. Əsirgəmirəm sevgini, gülüşünü, həssas təskinliyini, Flora!

Floranın şair qəlbinin dəlisiyəm. Şeir düzən könlü dumduru çeşmə tək çağlayır. Şeir yazanda, şeirlə dolanda elə başqalaşır ki, təkcə öz dünyasının səsini eşidir. Heç nəyə, heç kəsə qulaq asmır. Özündə olur. Ol, Flora, amma istəmirəm şeirlə çox baş-başa qalasan. Bəhruzun, Elnurun sənə şeirindən, könlündə dolandırdığın fırtınadan daha yaxın olsun!

Çoxdandır iki şeirin əlimdədir. Bunları düşüncələrimlə birgə "Ulu Göyçə"yə təqdim edirəm. "Ulu Göyçə" qoy sənin, mənim, yurd göynərtisiylə dolub-boşalanların ərklə üz tutduğu ocağı olsun, közərtili çınqılları dağa-daşa, düzə-dünyaya səpələnsin, günəş boyda tonqala çevrilənəcən!

*"Ulu Göyçə"*
*22 iyun 1993-cü il*

## "GÖYÇƏNİN TONQALI SİNƏMDƏ YANIR"

Əli dağlarına uzalı şair qəlbi, kövrək duyğular dözə bilərmi bu hicrana? Sükutla ötüşməyən dərdə yurd-yuva ağrılılar hicran od-ocağından ürəklərində öz dünyaları boyda tonqal çatıb, dodağı minbir bayatılı zümzümə kələfi çözələyirlər. –

*Kaş aşaydım gədiklərdən,*
*Duman dağı bələməmiş;*
*Qara bulud kölgə salıb,*
*Leysan yağış ələməmiş.*

Zəki İslam sinəsində qaladığı Göyçə tonqalını beləcə kövrək düzümlü misralardan çatıb. Dediklərini, yozduqlarını, pıçıltılarını yığıb-yığışdırıb bir kitab bağlayıb: "Göyçənin tonqalı sinəmdə yanır" (1993). Bu "Tonqal"ın işığında dərin göynəmli düşüncələrlə sirli-görünməz bir dünyaya – iç dünyana qapılırsan:

*Səsim çatmır, yoxsa cavab verərdi,*
*Güllərinnən başa çələng hörərdi.*
*Nə olsun, sevincim qəmdi, kədərdi,*
*Telli sazım "Göyçə gülü"n axtarır.*

Və bəlkə də Zəki İslam doğulduğu ocağından bəndində-bərəsində böyüdüyü dağlarından, dumanlı sıldırımlarından qoparılmasaydı, heç kitab bağlamağı fikrinə də gətirməzdi. Toylu-qaralı məclislərdə yenə bədahətən şeirlər deyər, gününü başa verərdi. Könlü şeir sevgililər elə oradacada yerindəcə söylənən nəğmələri əzbərlər, yığnaqdan-yığnağa, obadan-obaya ötürərdilər. Elində-obasında şair Zəki kimi tanınmış, sevilmişdi. Göyçənin xoş günlərindən, yaraşıqlı mənzərələrindən, dağda-daşda ürkək-ürkək gəzən ceyranlarından, kəklikli-qırqovullu oylaqlarından, şeh öpən gül-çiçəkli çəmənliklərindən-düzənliklərindən şair könlü ilhamlanıb coşardı, ipə-sapa düzdüyü misralarla oxşardı. Aşıqlar məclis bəzərdi bu nəğmələrlə.

Göyçəyə qonaq-qara gəlişi əziz bayrama çevrilərdi, hamı sevinərdi: oba da, oba quranlar da. Bal-qaymaq, isti lavaş süfrə-

dən əskik olmazdı. Hər sevgili yaylaq, şahyana gözəllər bulaqları qarış-qarış ziyarət olunardı:

*Unutmaynan Təkağacı,*
*Güneydə axtar Turacı;*
*Leyli bulağıdır, tacı, –*
*Gör hələ sən, ağrın alım.*

Zəki İslamın kitaba topladığı bu duyğulu, bu dünyalı şeirlərindən ayrılıb didərgin ağrılı sətirlərə keçmək əzabdır. Yəni, milli adət-ənənələri olduğu kimi qorunub saxlanan, yaşanan qədim bir türk obasının tarixi gözünün önündəcə ağ səhifədə qara səhifəyə çevrilir. Bir vaxtlar Şah Xətainin at sürüb meydan suladığı türk məmləkəti gavur tapdağına düşür. Miskin Abdal, Dədə Ələsgər, Ələsgər ocağının sinədəftərləri, Aşıq Alı, Aşıq Nəcəf şəninə deyilən nəğmələrdən sonra yurd, şəhid ağrılarını oxuyursan. Bütün bunlar ürəyini qana döndərir.

Zəki İslamı bu ağrı, bu nisgillər qubarlandırıb sinəsini Göyçə boyda tonqal yerinə verib. Allah bilir, minlərlə sinələrdə çatılmış beləcə oxşar tonqallar nə vaxtsa sönəcəkmi? Ürək dözə biləcəkmi bu atəşə, oda? Kitabda yaşanası, yanılası misralar həyəcanlıdır:

*Övladının sorağını*
*Hər qitədən alan Göyçə.*
*Qəm-qüssəli, dərd-kədərli,*
*A gözləri dolan Göyçə.*

Zəki İslam bu kitabla özünə, göyçəlilərə təskinlik tapır. Həm də o yurdun danılmaz, dağılmaz tarixini yaşadır. Və misralar qanadında üzü Göyçəyə gedir.

*"Ədəbiyyat qəzeti"*
*4 iyun 1993-cü il*

## "BİR ÜRƏYİN DUYĞULARI..."

*Aləm bilir hər hörmətim sizədir,*
*Dədə-baba məhəbbətim sizədir.*
*Mən Arifəm, vəsiyyətim sizədir,*
*Göyçəlilər, dağılmayan Göyçədən.*

El ustadı Hüseyn Arifin bu şeiri bir vaxtlar Göyçədə əl-əl gəzdi. Bu poetik haray qəlblər kövrəldib ürəklər qubarlandırdı. Elə bil haqq şair ürəyi duymuşdu. Duymuşdu ki, lalə yanaqlı, gəlin bəzəkli, sinəsi sazlı, torpağı sözlü-söhbətli, göyçək üzlü, mavi gözlü Göyçə elinin başında qovğalar olacaq. Eli-günü pərən-pərən düşəcək, yer-göy də bundan dəhşətə gəlib yerindən oynayacaq. Bu şeirə cavab olaraq, şair könüllər Hüseyn Arifin həssas qəlbinə toxdaq olan nə qədər misralar dedilər...

*Bulaqlarda nənələrin gözü var,*
*Hər daşın da söhbəti var, sözü var.*
*Özümüzdə Ələsgərin özü var, –*
*Hüseyn Arif, dağılmarıq Göyçədən.*
*(M.Göyçəli).*

El səsiylə, bu qəflət haraydan diksinmiş narahat ürəklərə sanki su çiləndi. Az müddət keçdi. Və birdən-birə qovğalı, yanğılı günlər başladı. Deyir, "sən saydığını say, gör fələk nə sayır (fələyinmi işi oldu?). Fələyin bu müsibətinə görə zamandanmı, tarixdənmi aman istəyək? M.Göyçəlinin "Göyçə yallısı" adlı şeirlər kitabını əlimə götürəndə o yanğılı hisslər məndə bir daha yenidən alovlandı. "Göyçədə doğulan duyğular" səmimiyyəti, təbiiliyi, əlvanlığı ilə o yerlərin daşına, torpağına necə də oxşar gəldi. Məcnun Göyçəlinin imzası oxucularına dövri mətbuatdan tanışdır. İndi isə ilk şeirlər toplusu ilə oxucusunun "görüşündədir".

*Şeirim qəm ovutsa, bir könül alsa,*
*Sinəm çiçəkləyər qışın qarında.*
*Mən də bir körpəyəm, düzünə qalsa,*

*Təzəcə bərkiyər addımlarım da.*

Bu misralarda, ədəbi aləmə ilk addımlarını atan şairin təbii hisslərdən doğan narahatçılığını duymamaq mümkün deyil. "Göyçə yallısı" kitabında toplanmış şeirlərdə məhəbbət hissi daha güclüdür: Ata-ana, övlad məhəbbəti, torpaq-el-oba məhəbbəti, bir də Vətənin özü boyda Vətən məhəbbəti. Şair öz poetik təfəkkürünün gücü ilə əlvan məhəbbət çələngi toxuya bilmişdir.

*Ürəyim bilmişəm doğma elimi,*
*Mən onun toyuyam, onun yasıyam.*
*Hara yollansam da Göyçə gölümü,*
*Qara gözlərimdə aparasıyam!*

"Bir sönməz həsrətəm", "Ana vətən sünbül-sünbül bütövləşdi", "Göyçədən", "Göyçə gölü", "Obam-dünyam", "Arpaçay" və bir çox bu qəbildən olan şeirlərinin leytmotivini el-oba istəyi, Göyçə istəyi təşkil edir.

M.Göyçəlinin poeziyasında qadın-ana mövzusu hədsiz məhəbbətlə, minnətdarlıqla tərənnüm edilmişdir. Ana ünvanlı min-milyon nəğmə yaranıb, şeir yazılıb. Hamısı müqəddəs istəkdən, saf məhəbbətdən doğulub. Hamısı da gözəldir, şirindir bu nəğmələrin.

M.Göyçəlinin şeirlərindəki "yaz nəfəsli" qadınlarımız, ana-bacılarımız "bəşərin dözümü, səbridir", "həyatımızın döyünən qəlbidir".

*Qeyrətlə ucaldar ömür mülkünü,*
*Ölər namusunu itirə bilməz.*
*Bir qadın qəlbinin qayğı yükünü*
*Min kişi yığıla, götürə bilməz.*

Dünyaya gətirdiyi andan ulu laylaları ilə övladlarına xoşbəxtlik diləyən analara şair öz məhəbbət hissini "Anama", "Ana əlləri, əsgər oğullar", "Qadın" və s. şeirlərində poetikləşdirmişdir. M.Göyçəli də bir azəri oğlu kimi "Cənub yanğılı, Cənub həsrətli" ağrılı duyğulardan yan ötə bilməyib. Bu qayğıyla "Araz

qırağında düşüncələrə dalır". O taylı qardaşımızı, "ümid, həsrət çırağını ürəyindəcə söndürdükləri" Səməd Behrəngini xəyalına gətirir. Onun əzəməti qarşısında baş əyir.

*Vətən! – dedi, millət! – dedi,*
*Qoy yox olsun zülmət! – dedi.*
*Vətən! – dedi, anasını ağlatdılar,*
*Millət! – dedi, millətini dağlatdılar...*

Cənub mövzusu öz poetik düzümü ilə şair qəlbinin əks-sədasıdır.

"Göyçə yallısı" kitabında toplanmış, – bu qeyddə adlarını çəkdiyimiz və çəkmədiyimiz şeirlərin heç də hamısı poetik dolğunluğu ilə, fikir aydınlığı ilə, mövzu tutumu etibarilə tutarlı şeir səviyyəsində deyil. "Təzəcə bərkiyən addımlar"ın məsuliyyəti şair zəhməti bahasına möhkəmləndiriləcəyinə inanırıq.

Kitabı örtəndən sonra, bu yazıya əlavə bir fikir məni özünə çəkdi. Maraqlıdır, şair "Göyçə yallısı"nın davamını haradan başlayacaq? Göyçə məhəbbətilə tutuşan ilk addımlarını "Göyçə yanğısı"ylamı möhkəmləndirəcək?

*"Ədəbiyyat və incəsənət"*
*1 sentyabr 1989 –cu il*

# GÖYÇƏNİN TƏRLAN QIZI

Uşaqlığında Göyçə gölünün gözəlliyi, duruluğu qəlbinə hopmuş ürkək bir qız idi. Fürsət tapan kimi evlərinin bir addımlığında olan gölün sahil qumluğuna qaçardı. Qəlbi nəğmə dolu duyğularla narın qum dənələri üzərində gəzişər, sirri-sehri bilinməz Göyçə gölünə, zirvəsi daim qarlı olan Şahdağına baxdıqca baxar, doydum deməzdi. Qənirsiz təbiət gözəllikləri ağuşunda sevincdən qəhərlənər, xumar gözlər dolar-boşalar, dodaqları şeir pıçıltılı ovqatla evə dönərdi. Beləcə, romantik günlər ötürən Tərlan qız sonalar bulağından su içən vədələrində ürəyində, dodağında olan nəğmələrini, gözlərindəki gözəlliklərlə cilalayıb kağıza köçürdü – bununla da qəlbində, sözündə bir rahatlıq tapdı.

Günlərin birində seçib-seçmələyib 3-4 şeirini "Sovet Ermənistanı" qəzetinə göndərdi. Heç çap olunmağına əmin də deyildi, elə özündə bir sakitlik yaratmaq üçün o şeirləri poçta atmışdı. On gün ötmüşdü ki, redaksiyadan məktub aldı: "Hörmətli Tərlan xanım, göndərdiyiniz şeirləri aldıq və müzakirə etdik. Redaksiya heyəti şeirlərinizi bəyəndi. Xahiş edirik, yazılarınızla birgə çap olunmaq üçün şəklinizi də göndərin". Tərlan o gecəni yatmadı, yerə-göyə sığmadı. Qanadı olsa İrəvana özü uçardı...

Bir neçə gündən sonra adi bir kənd qızı olan Tərlan İmamverdiyevanın şəkli və şeirləri həmin qəzetdə dərc olundu. Tərlan xanım nə qədər sevincək olsa da, özündə qəribə bir ovqat yarandığını duydu: elə bil narahatçılığı çoxalmış, məsuliyyət hissi artmış, yaradıcılıq məsələlərinə daha ciddi münasibətlə yanaşmağa çalışırdı. Beləcə, özü də bilmədən sözün-sənətin çətin olaylarına qədəm qoydu...

Göyçənin qışı sərt keçərdi-qar, çovğun, boran yol-izi bir müddət bağlardı. Belə vədələrdə el-oba əhli bir yerə yığışar, çarthaçartla yanan odun sobalarının həndəvərində aşıq məclisləri

qurular, sübh açılana qədər dastanlara qulaq asardılar, arabir meydan tutan aşıqların deyişmələri ovqatlarını təzələrdi. 1953-cü ilin "ayaq aparan" bir sübh çağında – aşıqlar axşamdan başladıqları dastanı bağladıqları ərəfədə dünyaya bir qız uşağı göz açdı. Körpənin qulağına dəyən ilk səs-səda saz havası oldu. Bir anlıq sükutdan sonra o, bir qışqırtı, bir haray qopardı ki, gəl görəsən... ağladı, səsi-ünü dünyanı başına götürdü... axırda olan-olmazla barışıb səsini kəsdi, qulağına dəyən ilk səsin-sazın sehriylə yuxuya getdi. Ayılanda ana laylasına qarışıb gümüllənən o səsi qulağı yenə aldı, ana südünün ətrində də o səsin sehrini daddı... Çənmərək (Krasnoselo) rayonunun Şorca kəndində doğulan körpə qız boy verib böyüdükcə, ürəyini misralar közü yandırdıqca o səsə sığındı, hər yerdə həmişə saz səsi eşitdi.

Butası saz-söz olan Tərlan xanım şeirin, aşıq sənətinin bütün incəliklərini dərindən öyrənməyə cəhd göstərdi, sevgi dünyasına yollar-izlər aradı. 1984-cü il idi. "Aşıq Pəri" məclisinin təşkilatçısı Narınc Xatundan gözləmədiyi məktub aldı. Narınc Xatun Tərlan xanımın şeir dünyası, saz aləmi ilə bağlı olduğunu mətbuatdan, onun həmyerlisi şair Eldar İsmayıldan öyrənərək məktub vasitəsilə onu "Aşıq Pəri" məclisinə üzv dəvət edirdi. Aradan bir az keçmiş ünvanına Respublika Aşıqlar Birliyinin sədri şair Hüseyn Arifin imzasıyla dəvətnamə gəldi. "Aşıq Pəri" məclisinin açılış mərasiminə dəvət olunurdu. Tərlan xanım onda ilk dəfə Göyçə gölü sahilindəki kəndindən Bakıya yol aldı. Respublika Yazıçılar İttifaqının Natəvan klubunda keçirilən, neçə-neçə görkəmli elm və mədəniyyət xadimlərinin iştirak etdiyi bu məclisdə bir çox tanınmış sənət adamlarıyla, şair və ədiblərlə, o cümlədən sinəsi sazlı-sözlü qız-gəlinlərlə tanış oldu. Bir şairə kimi o da öz şeirlərini məclis əhlinə oxudu. Elə həmin gün Yazıçılar İttifaqının sədri, hörmətli yazıçımız İsmayıl Şıxlının xeyir duasıyla açılan "Aşıq Pəri" məclisi Tərlan kimi xanımların sazından-sözündən boy tutub həyata qədəm qoydu. Bir-birinin

dalınca Gəncə, Mirbəşir, Kəlbəcər, Ağdam, sonra Gürcüstanın Dmanisi (Baş Keçid) obasında keçirilən görüşləri, mavi ekran çıxışları məclisə yeni ruh verdi. Gözəl günlərin birində "Aşıq Pəri" qızları yazıçı-jurnalist Əzim İsmayıllının dəvəti ilə Tiflisdə fəaliyyət göstərən "Dan ulduzu" ədəbi birliyinin qonağı oldular. 1986-cı ilin bu yaz səhəri Tiflisdə qurulan məclisdə "Aşıq Pəri" qızları bir-bir tamaşaçılara – məclis iştirakçılarına təqdim olunurdu. Növbə Tərlan xanıma çatanda ədəbi birliyin sədri "İndi də söz Göyçəli Tərlan xanımındır" – dedi. Bu təxəllüs elə Narınc Xatunun da ürəyindən idi. Elə o zamandan Tərlan xanım oldu "Tərlan Göyçəli". Məclislərdə, mətbuatda bu imzayla tanındı, seçildi. "Aşıq Pəri" qızlarıyla el-el dolaşan Tərlan Göyçəlinin sinəsi söz bulağına çevrildi. Məhəbbət, eşq dolu misralarla qaynadı, doldu-daşdı.

*Çəkəmmirəm nəzərimi,*
*Vurulmuşam sizə, dağlar.*
*Könül istər hər gün, hər an*
*Dolaylarda gəzə, dağlar.*

Gəzdiyi olayların şeir-söz bilicilərinin həyatı, fəaliyyəti Tərlan Göyçəlinin bir söz əhli kimi diqqətini çəkirdi. Onları öyrənmək, tədqiq etmək arzusunu hər an fikrində dolandırırdı. Zaman aşıran ölməz sənətkarların taleyini öz yaradıcı həyatının bir parçası bildi. Üz tutub məclis qurduqları Laçın elində Sarı Aşığı, sevgilisi Yaxşını öyrəndi, ondan yazdı. Şəkidə Molla Cümadan yazdı, Cəbrayılda Aşıq Pərini ziyarət etdi. Borçalı mahalında yazıb-yaradan, çalıb-çağıran ustadları yad etdi, qələmə gətirdi. Göyçənin azman sənətkarlarından yazmağı isə daha kamil bir vaxtına saxladı.

Qarlı, çovğunlu bir gün Göyçə eli kafirlərin kələyiylə, qərəziylə yerindən oynadı. Göyçə dağıldı, el pələsəng olub hərə bir yana üz tutdu.

Tərlan Göyçəli Göyçə üçün darıxdı, göynədi. Heç harada qərar tuta bilmədi. Sinəsi söz boxçalı olaylara üz çevirdi. Qərib,

itkin düşmüş Göyçə sənətkarlarının izini-tozunu aradı, harada nə gördüsə, nə eşitdisə qələmə aldı.

*Gəl toxunma qaysaq atan yarama,*
*Mənim dərdim el dərdidi, eloğlu.*
*Yaralarım göyüm-göyüm göynəyir,*
*Mənim dərdim el dərdidi, eloğlu.*

Miskin Abdaldan, Dədə Ələsgərdən, Aşıq Əsəddən, Xəstə Bayraməlidən... yazdı. 50-dən çox elmi-publisistik məqaləylə mətbuatda çıxış etdi. Radioda Göyçə Aşıq yaradıcıları haqqında silsilə verilişlər hazırladı: dəfələrlə "Musiqi", "Xalq yaradıcılığı" redaksiyalarının, "Sarıtel" musiqili verilişinin, televiziyada neçə-neçə ədəbi-bədii, o cümlədən "Göyçə həsrəti" silsiləsindən olan "Yurd" verilişlərinin qonağı oldu, ürəyi soyumadı ki, soyumadı. Yazdıqlarını, tədqiq etdiklərini cəmləyib bir toplu bağladı: adını "Göyçə aşıq məktəbi" qoydu. Belə kitablar hələ çox yazılacaq, çox oxunacaq-hamısı da təzə-tər görünəcək, oxucu üçün, Göyçə suyu içən hər kəs üçün əziz olacaq, müqəddəs sayılacaq. Aşıq sənətiylə bağlı bütün saz-söz məclislərində iştirak edən, söz söyləyən Tərlan xanım Göyçəli bu kitabı-publisistik elmi məqalələr toplusunu hazırlamağa mənəvi cəhətdən haqlıdır. Bir vətəndaş kimi onun borcudur. Çəkdiyi yükün qiyməti isə ölçüyəgəlməz dəyərdədir.

Tərlan Göyçəli başladığı bu yolda özü də böyük amallara, dərin sevgilərə bülənddir. Təki göyü aydın, torpağı yaşıl olsun. Göyçən özünə yetsin, bu kitabın Göyçənə ərmağan olsun, bacım.

*T.Göyçəli. "Göyçə aşıq məktəbi"*
*kitabına ön söz. 1998.səh.3-6.*

## "ŞƏHİDLƏRİN QANI, ALİMLƏRİN MÜRƏKKƏBİ..."

### 113 şəhidin dastanı

Ulu Göyçədə doğulub boya-başa çatmış sütül-sütül oğullar əllərinə silah alıb Azərbaycana göz dikən, onu tikə-parça edib bölüşdürmək istəyən, Qarabağ torpaqlarını işğal edən azğınlara qarşı müharibəyə yollanmış, öz vətəndaşlıq borclarını şərəflə ödməyə çalışmışlar. Bu döyüşlərdə yaralanan, itkin düşən, əsir götürülən, şəhid olan oğullarımızın sayı hələ heç dəqiqləşməyib də.

"İşıq" nəşriyyatında buraxılmış "Göyçə şəhidləri" kitabını ürək ağrısıyla vərəqləsək də, o vərəqlərə adları həkk olunan oğulların hər bir biri bu torpağa səngərdir, qaladır. Basarkeçər bölgəsinin yüzlərlə igid, qorxmaz oğullarının tərcümeyi-halı, keçdiyi döyüş yolları əks olunan şəhidlər toplusu cəmi göyçəlilərin stolüstü, bütün Azərbaycan övladlarının isə həyat kitabı olacaqdır.

Yazıçı-jurnalist Qədir Aslanın böyük zəhmət və can yanğısıyla qələmə aldığı, topladığı, tərtib etdiyi "Göyçə şəhidləri" kitabı eyni zamanda müəllifin vətənpərvərlik duyğularının təcəssümüdür. Qədir Aslan içində yurd göynərtisi gəzdirən qələm əhlidir. Onun döyüş bölgələrindən yazdığı məqalələr də, müharibə mövzusunda nəşr etdirdiyi kitab və plakatlar da iç dünyasında dolandırdığı ağrılarının əks-sədasıdır. Bütün bunlarla yanaşı "Göyçə şəhidləri"ni hazırlayıb araya gətirmək Qədir Aslanın həm də mənəvi borcu, vətəndaş məsuliyyətidir.

Kitab şair Əli Vəkilin "Ön söz"üylə açılır. Sonra, təqdim olunan "Basarkeçərin tarixi" (professor S.Musayev) məqaləsi də oxucular üçün maraqlı mənbədir. Beləliklə, şəhidlər... düzümü açılır: ilk öncə "Milli Qəhrəmanlar", sonra müxtəlif mükafatlarla təltif olunanlar, nəhayət, Vətənə xidmət borcunu yerinə yetirən ərəfədə ruhu göylərə uçan oğulların qəhrəmanlıqlarından bəhs

edən məqalələr, xatirələr... 113 şəhid haqqında dastan...

Kitabın "Müəllifdən" adlı hissəsində yazılır ki, "müəyyən səbəblər üzündən Basarkeçərin çox şəhidlərini kitaba daxil edə bilmədim. Təkcə Zod kəndindən 50 şəhid oğulun siyahısı var. Belə olanda "Göyçə şəhidləri"nin ikinci hissəsinin də yazılmasına bir tələbat duyulur".

*"Xalq qəzeti"*
*14 avqust 1997-ci il*

## ABŞERON ŞƏHİDLƏRİ

Filologiya elmləri namizədi Əziz Ələkbərlinin bu günlərdə sayca dördüncü kitabı "Ağrıdağ" nəşriyyatında çapdan buraxılmışdır. Müəllifin yeni kitabı, 1988-ci ildən başlayaraq bu günə qədər Azərbaycanın azadlığı mübarizəsində və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan və ya itkin düşmüş Abşeiron igidlərinin taleyinə həsr olunmuşdur.

"Şəhidlərin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümün qarşısına gəlir. Lakin torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən müqəddəs vəzifədir..." Prezident Heydər Əliyev cənablarının bu kövrək, titrək duyğulu fikirləriylə açılan kitab Abşeirondan Vətən səngərinə oğul yola salan hər bir ailə üçün əvəzsiz, əziz xatirədir. Milli namus və şərəf işimiz uğrunda şəhid olan oğullarımızın faciəvi ömürlərini əks etdirən toplunun Abşeironda böyük quruculuq işləri başlayan rayon icra hakimiyyətinin başçısı Kərbəlayı Adil Nağıyevin yazdığı ön sözündə xalqımızın başına açılan oyunların mətləbləri açıqlanır. Tarixi "gəzişmələr"lə erməni oyunbazlarının əzəl illərinə nəzər yetirilir. (Yeri gəlmişkən, kitab Adil Nağıyevin təşəbbüsü və himayədarlığı ilə işıq üzü görmüşdür.)

"Abşeiron şəhidləri" kitabına 130-a qədər şəhid oğul haqqında bioqrafik xarakterli müəllif məqalələri daxil edilmişdir.

*"Xalq qəzeti"*
*29 sentyabr 2002-ci il*

# MİLLİ OYANIŞ VƏ ÖZÜNÜDƏRKETMƏ YOLUNDA NİKBİN FACİƏ

İqtisad elmləri doktoru, professor, 20 yanvar şəhidlərinin dəfnini təşkil etmək üçün yaradılan ictimai komissiyanın sədri Qüdrət Əbdülsəlimzadənin nəşr etdirdiyi növbəti kitab "Qanlı Yanvardan 15 il keçdi..." adlanır. Qeyd edim ki, müəllif özü bu kitabını ötən il çap olmuş "Nikbin faciə – Qanlı yanvar düşüncələri" toplusunun davamı kimi dəyərləndirir. "Qanlı Yanvardan 15 il keçdi..." kitabında ötən on beş il ərzində müəllifin müxtəlif mətbuat orqanlarında – "Xalq qəzeti"ndə, "Azərbaycan"da, "Azadlıq"da, "20 yanvar"da, "Səhər"də, "Ədəbiyyat qəzeti"ndə, "Bakı"da və s. dərc etdirdiyi məqalələri cəmləşdirilmişdir. Həm də bu məqalələr oxucuya xronoloji qaydada təqdim olunur.

"1990-cı ilin qışında, Şərqin astanasında yerləşən qədim Odlar Yurdunda vəhşi bir qəddarlıqla törədilmiş qanlı 20 yanvar faciəsindən, həm də milli oyanış və özünüdərketmə xarakterli nikbin faciədən 15 il, yaxud 5.479 gün keçir... Azərbaycan xalqının uzun illər apardığı aşkar-gizli milli azadlıq mübarizəsi tarix yolunun yeni bir oyanış mərhələsi kimi səciyyələnən 20 yanvar hadisəsi və onun şəhidləri, son 15 ildə müstəqil dövlətçilik salnaməmizin şərəfli səhifəsinə, ləyaqət-qeyrət rəmzinə, müqəddəs and yerinə və ziyarətgaha çevrilmişdir". Bu sətirlər professor Q.Əbdülsəlimzadənin kitaba yazdığı "Giriş" hissəsindən götürülmüşdür. Əlavə şərhə ehtiyac duymadan artıq məlum olur ki, müəllif bu hadisəyə hansı fikir və düşüncələrlə yanaşıb. Eyni ruh kitabdakı bütün məqalələrdə öz əksini tapmışdır. Bu məqalələr tarixi məqamlara, baş vermiş olaylara vaxtında bildirilən münasibət, hadisələri olduğu kimi yaddaşlara ötürmək üçün dəyərli və gərəkli mənbələrdir. Bütün bu işlər professorun böyük vətəndaşlıq qeyrətinin təcəssümüdür. Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istərdik. 1990-cı il yanvarın 20-də Bakı ağır vəziyyət içində idi. Küçələri şəhid

qanıyla boyanmışdı, imperiya tankı-topu qabağına çıxan hər şeiri darmadağın etmişdi. Əhali çaşqınlıq, həm də qəzəb içində idi. Gözlər, ürəklər qan ağlayırdı. Ən dəhşətlisi isə o idi ki, ölkənin "rəhbərləri" bu hadisələrin törədilməsi üçün şərait yaradıb aradan çıxmışdılar... Şəhidlər dəfn olunmalı idi. Bax belə bir məqamda ictimai dəfn komissiyasına sədr seçilən Qüdrət Əbdülsəlimzadənin göstərdiyi böyük vətəndaşlıq nümunəsini nəinki unutmaq olmaz, hətta örnək kimi tarixin yaddaşına köçürmək gərəkdir. O, beyni qanla dolu, intiqam hissiylə yanan, bütün günü Şəhidlər Xiyabanına axışan Bakı əhalisini nizam-intizama, səbrli olmağa, növbəti bir faciə üçün zəmin yaradılmamasına çağırırdı. Xalq onun ziyalı böyüklüyünə, vətəndaş qeyrətinə inanıb səsinə səs verdi. Şəhidlərin 40 günü ləyaqətlə, əmin-amanlıqla yola verildi. Çünki o günlər – ondan sonrakı uzun günlər, aylar da şəhər əli avtomatlı imperiya keşikçiləri ilə dolu idi, hər an nə isə baş verə bilərdi...Kitab haqqında yekun fikrimizi müəllifin öz qeydləri ilə tamamlamaq istərdik. "Düşünürəm ki, gələcəkdə o günləri hərtərəfli əks etdirən sanballı elmi tədqiqatlar aparıldıqda, həmin hadisələrin şahidi olmuş müəllifin tarixi ardıcıllıq prinsipi ilə aparılmış bu subyektiv qeydləri o proseslərin obyektiv mənzərəsinin yaradılması üçün müəyyən qədər faydalı ola bilər".

*"Xalq qəzeti"*
*20 yanvar 2005-ci il*

## “AZƏRBAYCAN HARAYI”NIN MİSRALARDA İZİ

Respublika Xatirə Kitabı Redaksiyasının nəşr etdirdiyi “Azərbaycan harayı” toplusu milli mübarizə tariximizə həsr olunmuş şeirlərdən ibarətdir. Bu toplu yaxın tariximizin qanla yazılmış bədii yaddaşı, “Azərbaycan harayı”dır. Kitaba cəmlənmiş poetik nümunələr “dərd və ağrıların, olmazın müsibətlərin bir növ iştirakçısıdır, öz axarını dərdli-niskilli anaların göz yaşlarından, Vətən şəhidlərinin tökülən qanından, igid əsgərlərimizin döyüş rəşadətindən, dağılan dədə-baba yurdlarımızın ah-naləsindən almışdır. İnanırıq ki, yaddaşlara köçəcək bu əsərlər ağrılı-acılı günlərin harayı, çağırışı kimi xalqımızı hər zaman ayıq-sayıq olmağa, doğma yurdun keşiyində durmağa səsləyəcəkdir”. Bu qısa sətirlərlə “Azərbaycan harayı” toplusu öz məna və məqsədini oxucusuna çatdırır. Antologiyaya daxil edilmiş poetik nümunələrin hamısı müxtəlif zamanlarda – yazıldıqları tarixdə dövrü mətbuatda dərc edilmişdir. Milli mübarizə tariximizin poetik salnaməsi kimi bu toplunun əhəmiyyəti böyükdür. Gənclərimiz torpaqlarımız uğrunda döyüşlərin, sovet ordusunun törətdiyi qanlı yanvar gecəsinin, yandırılan-dağıdılan kənd-kəsəklərimizin, el-obalarımızın ağrılı tarixini bu sətirlərdə görəcəklər, böyük milli tarixi araşdırmaq üçün bu misralardan iz tutacaqlar. Azərbaycan həqiqətlərini yaşatmağa çalışacaqlar.

“Azərbaycan harayı” toplusunu tərtib edən və çapa hazırlayan yazıçı-publisist Nahid Hacızadə, ön sözün müəllifi xalq şairi Bəxtiyar Vahabzadə, redaktoru isə şair İlyas Tapdıqdır.

*“Xalq qəzeti”*
*25 yanvar 2005-ci il*

## “AZADLIĞIM ÜÇÜN İSƏ MƏHƏBBƏTİMDƏN DƏ KEÇƏRƏM”

Azərbaycan Yazıçılar Birliyində tanınmış yazıçı-publisist Yusif Kərimovun yeni nəşr olunmuş “Qarabağ şikəstəsi” kitabının müzakirəsi keçirildi. Kitaba nasirin “Səni mənə verməzlər...” romanı və “Qu nəğməsi” povesti daxildir.

Müzakirədə ilk sözü İB-nin katibi, xalq şairi Fikrət Qoca dedi. O, yazıcını yeni əsərinin nəşri münasibətilə Yazıçılar Birliyi adından təbrik etdi, Yusif Kərimovun yaradıcılıq uğurlarını məclisə toplaşanlara bir daha xatırlatdı, ona yeni-yeni müvəffəqiyyətlər arzuladı. Yazıçılar Birliyinin nəsr bölməsinin rəhbəri, professor Gülhüseyn Hüseynoğlu yazıçı-publisist Yusif Kərimovun bu əsərinin mövzu aktuallığı ilə xüsusi səciyyə daşıdığını qeyd etdi və belə əsərlərin müzakirəsi, təqdimatı üçün toplanmağın vacibliyini vurğuladı. Nə qədər ki, Qarabağ yad əllərdədir, onun uğurunda ideoloji mübarizə də davam etməlidir.

Macar xalqının şəhid şairi Şandor Pötefinin “Məhəbbətim üçün hər şeydən keçərəm, Azadlığım üçünsə məhəbbətimdən də keçərəm...” sözlərini Yusif Kərimov bu kitabına, daha doğrusu, “Səni mənə verməzlər...” romamına epiqraf seçmişdir.

Bu epiqrafın mənası, məzmunu, elə bilirəm ki, romanın açarıdır və ya romanın məzmunu, məqsədi haqqında ilkin sözdür. Yusif Kərimov müasirimizdir. Qarabağla əlaqədar son 15 ildə baş verən bütün hadisələrin şahididir, bir vətəndaş oğul kimi iştirakçısıdır, publisist kimi hadisələri yazıya alan, yazıçı kimi isə Qarabağ müharibəsini tarixləşdirən romançıdır. Kitabdakı “roman iki gəncin nakam məhəbbəti fonunda Azərbaycan xalqını 1990-cı ilin 20 yanvar faciəsinə məruz qoyan, qəlbimizi əbədi olaraq ”şəhid dərdi" ilə yükləyən mürəkkəb ictimai-siyasi olaylardan bəhs edir. Kitabın adı təsadüfən “Qarabağ şikəstəsi” qoyulmayıb. Ötən əsrin son onilliyində başımıza gələn müsibətlərin hamısı ermənilərin, onların havadarlarının ucbatından

olmuşdur. Kitabın müzakirəsində filologiya elmləri doktoru Qurban Bayramov, xalq yazıçısı Hüseyn Abbaszadə, şairlərdən Oqtay Rza, Əli Səmədəli, Ramiq Muxtar, tənqidçi Vaqif Yusifli... məzmunlu əhatəli çıxışları ilə əsərin məziyyətlərini araşdırıb məclis iştirakçılarının diqqətinə yetirdilər.

Yusif Kərimov müxtəlif illərdə "Yollar...", "Bir buta gül", "Tavridada şimşək çaxır", "Üçbucaq", "Gün ötər, geri dönməz", "Qırmızı sahil", "Kəpənək ömrü", "Pərişan eşqim", "İtkilər və ümidlər", "İçimə açılan pəncərə" adlı kitablarını nəşr etdirmişdir.

*"Xalq qəzeti"*
*4 iyun 2003-cü il*

## “ƏBƏDI DÜNYA” HIKMƏTLƏRI

Şairlər söz möcüzələri, hikmətləri, bəşəri məhəbbətləri, poetik varlıqları ilə əbədi dünya haqqı qazanıblar. Bəlkə də təsadüfi seçimdir ki, şair Əli Vəkil 65 illik yubileyi günlərində nəşr etdirdiyi kitabını “Əbədi dünya” adlandırıb.

Əli Vəkil özünəməxsus şair taleyi yaşayıb. İrəvan İnstitutunu tamamlayandan sonra İrəvan radiosunun azərbaycanca olan proqramının diktoru kimi uzun illər çalışıb. Radio mühiti onun yaradıcılıq fəaliyyəti üçün uğurlu şanslar yaradıb. Yazıb-yaradan ziyalılarla tanışlığı, onlarla yaradıcı münasibət qurması, dostluq əlaqələrini genişləndirməsi imkanları Əli Vəkilin şair kimi püxtələşməsində mühüm rol oynamışdır. O, radio işi ilə yanaşı mətbuat səhifələrində də görünürdü. Gərgin əməyinin nəticəsi idi ki, İrəvanda yaşadığı illərdə – “Sona bulağı”, “Zəfər çələngi”, “İki günəş” və Əli Şahsabahlı" kitablarını çapdan buraxdırdı.

Əli Vəkil ağrı-acı dolu uşaqlıq həyatı yaşayıb – uşaq ikən valideynləri dünyasını dəyişib. Həyat hikmətidir ki, Allah öz bəndələrini haqq sınağına çəkir və nə vaxtsa onun da bəxtinə günəş işıqları səpələyir. Əli Vəkil ömrünə günəş işıqları onun İrəvan həyatından düşməyə başlayıb. Onun böyük şəhər mühitində yerləşməsi, gənclik duyğularını pərvazlandırıb geniş üfüqlərdə boy atması, püxtələşməsi, tanınması üçün ilk vəsiqəni verən insanı bu mənada o, unutmur. Aradan 40 ildən çox vaxt ötüb. Amma o illər, o anlar Əli Vəkilin şair xəyalında daim dolanır. İndi oxuculara təqdim etdiyi “Əbədi dünya” poemasını həmin insana – Azərbaycan xalqının ləyaqətli, nüfuzlu, qeyrətli, Vətənini sevən, partiya və dövlət xadimi, nəsillərə örnək olan Tapdıq Muxtar oğlu Əmiraslanova, onun mənalı həyatına həsr etmişdir. T. Əmiraslanov elmin, maarifçiliyin inkişafında əvəzsiz xidmətləri olan unudulmaz bir şəxsiyyətdir. Poema boyu onun insanlar, Vətən qarşısında gördüyü işlər sadalanır. Ensilopedik

savada malik olan bu şəxs maraqlı, tanınmış şəxsiyyətlərlə, yazıçı-şairlərlə səmimi münasibətdə olmuşdur. Bu isə onun maarif sahəsində gördüyü işlərə müsbət təsirini göstərirdi.

T. Əmiraslanov Vətənə layiq övladlar böyütmüşdür. O, Vətənə dünya şöhrətli cərrah-onkoloq, AMEA həqiqi üzvü, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov kimi Vətənə oğul vermişdir. Akademik Əhliman Əmiraslanovla bu gün bütün türk dünyası öyünür...

Şair irihəcmli bu poemasında şərəfli bir ömrün-ailənin ömürlüyünü poetik səpgidə oxuculara çatdırır.

1972-ci ildən ömrünü Bakıyla bağlayan Əli Vəkil Yazıçılar Birliyində, Dövlət Nəşriyyatında çalışmışdır. On beşə qədər kitabın müəllifidir. Yazıb-yaratmaq eşqi isə çağlayır.

*“Xalq qəzeti”6 iyul 2003-cü il*
*"Aşıq Nəcəf" –*
*"Xalq qəzeti" 22 aprel 2003-cü il*

## AŞIQ ƏLƏSGƏR OCAĞININ YETIRMƏSI

Aşıq Ələsgər irsinin araşdırıcısı, folklorşünas İslam Ələsgər "Göyçəli Aşıq Nəcəf" adlı yeni kitab nəşr etdirmişdir. Kitaba Aşıq Nəcəfin şeirləri – qoşmaları, təcnisləri, gəraylıları, divaniləri, müxəmməsləri, deyişmələri, qəzəlləri daxil edilmişdir Aşıq Nəcəf Göyçədə hörmətlə yad edilən sənətkarlardan olub. O, Aşıq Ələsgərin qardaşı oğludur. İ. Ələsgər kitabın ön sözündə yazır ki, "molla yanında yazı-pozu öyrənən Nəcəf saza böyük maraq göstərirdi. Aşıq Ələsgərlə qardaşı Xəlilin evi divar – divara idi. O, əmisinin evində keçirilən saz-söz məclislərinin daimi iştirakçı sı idi. Gələcəkdə görkəmli bir aşıq kimi şöhrət qazanan bu uşaq be lə bir mühitdə püxtələşirdi". Beləliklə, onun qəlbində aşıqlıq odu közərmişdi. Ayrıca ustad yanında dərs almasa da, Ələsgər ocağının saz-söz havası öz işini görmüşdü.

O, hələ gənc ikən xalq arasında aşıq kimi tanındı, sevildi, məclislər apardı. Aşıq sənətinin xüsusiyyətlərinə uyğun olaraq əlinə saz götürdüyü gündən şeir aləminə də qatıldı. Onun zəngin şeir nümunələri indi əlimizdədir. Qohumlarının təşəbbüsü və yaxından iştirakı ilə həmin şeirlər illər uzunu idi ki, toplanırdı. Nəhayət, İslam Ələsgər həmin işi yekunlaşdırıb şairin ruhunu sevindirən kitabını nəşr etdirdi. Aşıq Nəcəf 68 yaşında dünyadan köçüb və Göyçənin Ağkilsə kəndin-də dəfn olunmuşdur. Tədqiqatçının yazdığına görə, Aşıq Nəcəfin 420-yə qədər şeiri məlumdur. Anadan olmasının 100 illiyi ilə əlaqədar hazırlanmış bu kitaba aşığın 5000 misradan artıq şeiri daxil edilmişdir. Xatırladım ki, o, aşıq şeirinin bütün şəkillərində yazmışdır, onun qəzəlləri də vardır.

*"Xalq qəzeti"*
*22 aprel 2003-cü il*

## ANALARIN ÜRƏYI VƏTƏNIN BAŞ SƏNGƏRI

Elman Həbib Naxçıvan elində yaşayıb-yaradan ziyalılarımızdandır. O, qələm əhli kimi ömür-gününü televiziyaya – Naxçıvan televiziyasına bağlayıb. Şair adı isə Azərbaycan torpağının hər səmtində,hər bölgəsində çəkilir, tanınır. Bəlkə də üç onillikdən çoxdur ki, şeirləri mətbuatda çap olunur. Bir faktı xatırladıram ki, sovetlər dövründə mərkəzi qəzetlərdə dərc olunmaq nə isə uğurlu bir gələcəyin sədası kimi səslənirdi. Elman Həbib imzalı şeirlər o vaxtdan oxucularının diqqətindədir. Sonra "Günəş qatarı" adlı ilk şeirlər kitabı (1981) "Yazıçı" nəşriyyatında nəşr olundu. Yeri gəlmişkən, digər bir faktı da xatırladım ki, o dövrdə "Yazıçı" nəşriyyatında nəşr olunmaq da böyük ədəbi hadisə kimi dəyərləndirilirdi. Beləcə, illər-illəri əvəz etdi, Elman Həbib imzalı şeirlər kitabdan-kitaba artdı, özünün çoxsaylı oxucularını, oxucularının məhəbbətini, istəyini qazandı. "Duzlu uşaqlar", "Yoluma çıx", "Nar və gilənar", "Ömrümün göy qurşağı", "Həqiqət günəşi", "Ömrüm,günüm mənim", "Hərənin öz işi", "Sevən ömrü", "Sənli,sənsiz günlərim" kitablarına yığıb – yığışdırdığı şeirləri şair könlünün – sevinc-kədərini, od-ocağının, həsrət-məhəbbətinin əks sədasıdır.

Şair bu günlərdə nəşr olunmuş "Allah salamı" kitabıyla yenə oxucularının görüşündədir. Əvvəla, qeyd edim ki, o, kitabına uğurlu ad seçib. İnsan bir-biriylə görüşəndə "Ya Allah" deyib təmənnaşır. Elman Həbib də məhz oxucusuyla "Allah salamı"yla təmənnaşıb könül söhbətinə başlayır. Kitabdakı şeirlər şairin axır bir ildə yaşadığı yaşantıların poetik görüntüsüdür. O, torpaq oğludur. Torpağı, Vətəni işğal olub – onun vətəndaş narahatlığı elə bundan başlayır. Neçə ildir ki, belə bir narahatçılıq içində dolaşır. Yollar arayır, məqam gözləyir, gücü-imkanı yetən səmtə üz tutur – Vətəni xilasa can atır. "Qarabağ dahilərinə məktub" silsiləsində yazdığı şeirləri bu

qəbildəndir. O, ulu ustadlara – Qasımbəy Zakirə, Xan qızı Natəvana, Üzeyirbəyə, Bülbülə, Xan Şuşinskiyə, İbrahim xan və Ağa Məhəmməd Şah Qacara xitabən yazdığı məktub – şeirlərdə Qarabağ ağrısından, Qarabağ torpağının işğalından danışır və tarixi araşdırmalara nəzər yetirərək Vətənin əsgər oğlu kimi qərar verir .

*Düşmənə düşməntək*
*cavab verməsək*
*Qurtara bilmərik*
*biz Qarabağı.*

Bəlkə də bu hisslər onu gecə-gündüz şeirlə baş-başa qalmağa vadar edir. Axı, o, haqq adamıdır, məhəbbətlə ucalan insandır. Gözü-könlü dünya malına biganədir, bu dünyadan umacağı torpağında azadlıq, havasıdır, qəlbində sevgi duyğularının saflığıdır, ucalığıdır.

*Sevməkdən özgə sabahım yox,*
*Sevməkdən özgə günahım yox.*

Elman Həbib ruhunun göylərdən qoparıb gətirdiyi nəğmələrlə, könül eşqiylə cilaladığı Vətən məhəbbətiylə baş-başa qalmaq üçün "Allah salamı" kitabını oxumaq, düşünmək lazımdır.

# ONU SEVGİ ŞAİR EDIB

Azəri qızına olan məhəbbəti onu həm də türk dilini öyrənməyə təhrik eləyib.Hamı ona sadəcə Givi deyir. Özü də bu ad elə səmimi, elə isti səslənir ki, istər-istəməz adamın qəlbi ılıq hənirtiylə dolur.

Givini iki ildir tanıyıram. Amma iyirmi ilin dostu-yoldaşı kimi hal-əhval tutur, dərdləşirik. Bir gün yenə redaksiyamıza gəlmişdi. Ədəbiyyatdan, günün ağrılarından xeyli danışdıq. Axşam isə evə zəng vurdu ki, mənim bir şeirlər qovluğum var, xeyirxah bir insan onun nəşr işini boynuna çəkib. İstəyirəm ki, o şeirlərə baxasan. Xoşuna gəlsə, "Ön söz" yazarsanmı?

Givinin qovluğunu – "Mən yaşayacağam" toplusunu vərəqləyir, şeirlərini oxuyuram. Elə bil onu təzədən tanıyıram. Hər misrada, hər sətirdə səmimi hisslərlə, sevgiylə dolu bir qəlbin səsini duyuram. Və... birdən heyrətimdən donuram...

Axı, Givi milliyyətcə gürcüdür. Amma o, bizim ana dilimizdə elə danışır ki, şirin ləhcəsinə mat qalırsan. İndi də bu qovluq məni heyrətləndirdi. Givi bu şeirləri lap Səməd Vurğunun dilində yazıb. Bu dilə bir belə sevci görəsən haradandır? Öz-özümə verdiyim bu qəfil sualın cavabını əslində, şeirlərində duymuşdum, ancaq qane ola bilmirdim. Ona görə də, sözün əslini Givinin özündən soruşmağı qərarlaşdırdım. Sən demə,türkcəyə olan bu sevgi dəli bir eşqdən doğulubmuş.Bu haqda bir az sonra...

Givi gürcü balası olsa da, doğulduğu torpağın – Azərbaycanın vətəndaşıdır. O, bununla öyünür və elə qaynayıb-qarışıb ki, çox vaxt türk balası olur. Bu, Givinin bəşəri insani duyğusu, bəşəri yaşantısıdır. "Qarabağ dərdi xalqımın göynəm yeridir" – deyən Givinin misralar arasında səsini eşidirəm.

Qarabağ – xalqımın qeyrət damarı,
Qoymayaq damara balta çalınsın.
Haydı igidlərim-düz Qarabağa,
Qeyrət məqamıdır, ayağa qalxın!

Növbəti görüşlərimizin birində Gividən Azərbaycana, türk dilinə, türk övladına qarşı ürəyində əzizlədiyi bu sevginin sirrini soruşdum.

– Gizlətmirəm. Gülzar adlı bir qıza olan eşqimdir ki, məni bu xalqın oğluna çevirib. 17 yaşınacan bu dildə bir kəlmə də bilmirdim. 10-cu sinfə keçər-keçməz bir sinifdə oxuduğum Gülzarı sevdim. Dili bilmədiyimdən eşqimi izhar edə bilmirdim. O yay tətili vaxtı rayona – doğulduğum Qaxa getmədim. Şəhərdə qalıb günümü kitabxanada keçirdim. Kitablarla başımı qatdım və cəmi üç aya bu dili – Gülzarın ana dilini öyrəndim. Sentyabrda dərsə gələndə o qıza deyəcəyim sözlərimi də hazırlamışdım, üstəlik bir sevgi şeiri də yazmışdım. Bu, mənim ilk şeirim oldu, özü də başqa dildə – türkcədə.

*Səni sevməyimi sənə deməyə*
*Qələmim lal olur, sözüm lal olur.*
*Əlimdən gələrmi səni aldatmaq,*
*Gülzar, niyə qəlbin şübhəylə dolur?*

*Çiyələk açıbdı dodaqlarında,*
*Gözlərin dənizdən alıbdı rəngi.*
*Sən yaşıl yarpaqsan, gözəlliyinlə,*
*Eşqin ürəyimdə göyərib sənin.*

*Səsinin bulaq tək pıçıltısından,*
*Eşqinin odundan məst olur ürək.*
*Yerişin qəlbimin döyüntüsüdür,*
*Dinləyə-dinləyə məst olur ürək.*

–az qalıram deyəm ki, Givinin o qıza məhəbbəti Şeyx Sənanın sevgisinə bənzəyir...

Qiya Paçxataşvili (Givi) gürcü dilində də, rus dilində də şeirlər yazır. Rus dilinə gözəl tərcümələr edir. Amma bu gün şair dostumuzun ilk kitabı eşqini dindirən dildə – türk dilində nəşr olunur.

*Deyirəm vüsalın nə azmış ömrü,*
*Gedirəm, əlvida, gözəl, əlvida.*
*Gəlmişəm son dəfə biz qoşa gəzək.*
*Bizdən qalan qoşa izə, əlvida.*

*Bu yerlərdən bahar çağı keçərdik,*
*Çiçəklikdən sənə çiçək seçərdik.*
*Ovuc-ovuc bir çeşmə su içərdik,*
*Ağ suyunda üzən buza, əlvida.*

*Mən Ülviyəm, ülvi sözə aşiqəm,*
*Saf ürəyə, büllur üzə aşiqəm.*
*Gözlərin tək ala gözə aşiqəm,*
*Sevdiyim o ala gözə, əlvida.*

## ELEGIYA

### F Ə N A R

*Fənar bacımı didərginlik ağrısı –*
*kəndimizin,doğulduğu evimizin dərdi öldürdü.*

Bu dünyaya vida günündən bir il ötdü. Bu bir ilimizin naxışı sənsizlik həyəcanı, sənin xiffətin oldu. Evə gələndə üzünə-gözünə, bir hovur nəfəsinə, küskün baxışına, qılıqlı gülüşünə, bizdən-bəxtindən incik görüşünə həsrət-həsrət səni aradıq, gözaltı səni axtardıq. Birdən adama elə gəlirdi ki, indi otaqdan çıxacaqsan. Gəlişimizə ilk andaca sevinəcən, əl-ayaq edib çay-çörək təklif edəcəksən. Bir az ötəndən sonra isə söhbətimizə, dərd-sərimizə şərik ola bilmədiyindən, söhbətini, dərd-sərini deyə bilmədiyindən əsəbləşəcək, nəyi isə bəhanə edib küskünləşəcək, Sonra da kövrək-kövrək, ərköyüncəsinə bizə anlayardın ki, hamınız birsiniz mən təkəm. Mən də ölüb çıxıb gedəcəm. Sonra da tezcə sənə olan istəyimizi gözlərimizin kədərindən, ürəyimizin ağrısından o dəqiqə duyardın və bərkdən gülərdin: ürəyimizi ovudardın – zarafat edirəm - deyərdin. Ürəyimin bir parçası, anam mənim, bacım mənim, zarafat-zarafat üzünü çevirib getdin. Ölüb getdin Cismin öldü. Ruhun canımızda, qəlbimizdə, fikir-xəyalımızdadır. İnan Fənarım. Səni unuda bilmərik; heç birimiz nə anan – dədən, nə də qardaş-bacıların. Səni səndən də çox istəyirikmiş. Vallah dərdinə əlac edə bilmədik. Dərdin dərmansız idi. Elə gücümüz ona çatırdı ki, ağrılarını dərmanlarla keyləşdirək, çox göynəməyəsən. Kərəminə şükür, İlahi! Yaranan gedərgidir. Sənin də bu dünyadan karvanın tələsdi. Yaradanın məsləhəti beləymiş. Ruhun şad olsun!

Düz bir ildir sənin haqda nə isə yazmaq istəyirəm, alınmır. Alınmır deyəndə səninlə dərdləşməyə qorxuram gücüm yetməyə. Nəhayət, nəhayət... səndən bir nişanə olsun deyə ürəyimə təpər

topladım. Deyirlər ki, uşaqlıqda çox dəcəl olmusan. Heç kimi saya salmadan sənə güc göstərəni yerindəcə oturtmusan. Məhəllə uşaqları “dava-dava” oynayanda onlara qoşularmışsan. Belinə də taxtadan qılınc bağlayıb ağına-bozuna baxmadan qabağına çıxanı yerə səpərmişsən. Səndən yaman qorxarmışlar. Bunları mənə Leyli danışıb. Mənim isə uşaqlıq yaddaşımdan nə qalıb: Bizim – Pərzadın, mənim, Həqişin saçlarımızı darayıb qoşa hörük hörərdin, paltarımızı ütüləyib geydirib məktəbə yola salardın. Dərsdən qayıdan da qabağımıza gələrdin. Bizə dəyib-dolaşan olmadığını soruşardın. Biz isə ərköyünləşib, gözümüzə dəyən bizdən böyük uşaqları sənə göstərərdik ki, onlar bizi incidiblər. Əlinə keçənə bir-iki qapaz ilişdirərdin, keçməyəni isə daşa basardın. Sonra bizi sakitləşdirmək üçün deyərdin ki, sabah onlar buradan dərsə gedəndə gör onları neyləyəcəm. Və edirdin də. Fənar, onda ağlıma gəlmirdi gözlərinə baxım ki, bizi məktəbə yola salanda, özün hansı duyğuları, istəkləri yaşayırsan. Fikrimdən keçirirdim, amma gözlərinə baxmırdım... İndi o günlərin, məktəbə gedən yaşına ürəyim ağrıyır. Təpədən-dırnağa dərd bacım.

Uşaq vaxtından – yaşıdlarını döyüb bir-birinə qatdığın vaxtdan, hamıya qalib gəldiyindən adına Qacar dedilər. Qacar kimi qoçaq idin, cəld, od-alov idin. Qolun bükülməz, dizin qatdanmaz idin, xətrinə dəyən olmayıb deyə dəli-doluluq etmisən. Ömrüm-ünüm, sən elə qurd qız olmusan ki, heç nədən qorxun-ürkün olmayıb.

Cicim deyir ki, on iki – on üç yaşı olardı. Bir gün başa düşdü ki, o, yaşıdları uşaqlardan fərqlənir. Onlar kimi cəmiyyətə qarışa bilmir, danışmır - eşitmir. Yanaqları qıp-qırmızı alma Fənar bunu dərk edəndən sonra gül kimi soldu, pisikdi. Qanadı qırılmış quşa döndü. Elə bil gücü-qüvvəsi azaldı, bir müddət süstləşdi. Anan ölsün.

Sonra... bir müddət sonra taleyiylə barışdı. Dava-dava oyunlarına vida deyib, evin dirəyinə çevrildi. Evi-ailəni dolandıran böyüklərin sırasında dayandı. Evdə ev işini aşırdı, çöldə çöl işini. Bax, bu illərin gözümün qabağındadır. O illərini yazıya köçürsəm,

inan Allaha, ürəyim tablamaz. Qəhrəman idin, cəngavər idin. Cicimlə bərabər bizə ana oldun. Bizi balan kimi, qardaş-bacın kimi sevdin, köy-nəyinə saldın. Ömrün uzunu isə gözlərində kədər oldu. Hamımızdan ağıllı-kamallı idin, tərtəmiz səliqən vardı. Elə bil gül idin, çiçək idin. Çiçək bacım - Nərgiz bacım.

1951-ci ilin 19 avqustunda doğulmusan. Şir bürcündən idin. Şir gücün, şir özümün vardı. Çiçəyə bənzədiyindən adını Nərgiz qoyublar. NƏRGİZ çiçəyi. Sonra... gəlişinlə evə işıq-nur elədiyindən səni Fənar çağırıblar. Evin fənarı, işığı olmusan. Bir neçə yaş ötürəndən sonra dəli-doluluq etdiyindən, hamıya güc göstərdiyindən adına QACAR deyiblər. Yadımdadır, biz hələ məktəb uşaqları idik. Sənə gah Qacar deyərdilər, gah da Fənar. Bir dəfə biz dərslərimizi hazırlayanda sən də yazı yazmaq istədin. 15-16 yaşın vardı. Qağam sənə "Fənar, duz, çörək, su, ana kitab, alma" və s. sözləri yazmaq öyrətdi. Üç-dörd gün məşğul oldun, sonra bezdin. Daha oxuyub-yazmaq istəmədin. Sənin daxili əzablarını duyduğundan qağam da bənd olmadı. O illərdən ömrünün axırınacan bircə "Fənar" sözünü yadında saxladın. Sayı-hesabı isə əzbər bilirdin. Elmin-fəhmin iti idi. Həyatı bizdən də dərin dərk edirdin, bizdən də gözəl bilirdin. Və hamımız həmişə səni çox istəmişik - ürəyimizin nuru bilmişik. Özün də bilirdin. Hamımıza ərkin çatırdı. Ağlın-kamalın imkan vermirdi ki, kimi isə özündən incidəsən, ya kimisə çarnaçar qoyasan. Yox, elə olmadın.

19 yaşın gözümün qabağındadır. Elə gözəl idin. Uzun saçların, ağ bənizin, alma yanaqların, dolu bədənin səni huri-nəriyə, mələyə oxşadırdı. Gözəllər gözəli idin. Özün də bilirdin ki, gözəlsən. Nazından-qəmzəndən qalmırdın. O illər bəxtin də açıq idi. Bir-iki yerdən elçilərin oldu. Cicim qıyıb evlərə verə bilmədi, səni. Sözünü-söhbətini anlada bilməz gülüb araya qoyarlar, qız pisikər, ayaq üstəcə ölər. Sevinci bir damcı olar, kədəri bir dərya. Necə ki var, qoy yanımda otursun. Ərköyün doğulub-böyüyüb, ərköyün də yaşa dolsun. Ya Allah! Qardaş-bacısına ərki də yetər, hökmü də! Yad evlərdə özünə yer tapa bilməzsə, yerim-göyüm,

ünüm yanar. Yanar qovrularam. Beləcə Fənarın bəxtini ana öz bəxtinin ucuna düyünlədi. Allah bilən məsləhət oldu.

Həə... 19 yaşında Cicim sənə gözəl bir paltarda tikmişdi. Şahanə qız idin, Şahanə bacım. Kənd, doğulduğun Kəsəmən kəndi sənə doğma idi. Kənddə hamını tanıyırdın. Kənddə hamı sənin xətrini çox istəyirdi. Halallığının, təmizliyinin paklığının, namus-qeyrətinin, həyanın vurğunu idilər. Hələ bir el sözü də yaranmışdı. “Fənar Qasım müəllimin evinin qızıl dirəyidir.  Güləbatın onsuz bir işi ötürə bilmir”. Bax, Fənar belə qız idi. Fənar, yadıma düşüb bunu da deyəcəm. Gözəl səsin vardı. Xəlvətcə öz-özünə oxuyardın. Kədərli, gileyli mahnılar oxuyardın. Allaha üz tutub yanıqlı səslə oxuyardın. Öz mahnıların idi. Gözəl oynamağın vardı. Sənin bu sirlərinə bələd idim. Bir-iki dəfə sənə dedim ki, mən sənin mahnı oxumağını bilirəm. Həm utandın, həm də açıqlandın. Sonra fikirləşib çiyinlərini çəkdin – “bəs, mən neynim”. Neyniyəcəkdin – insan idin, bunlar da sənin öz haqqın-hüququn. Könlün nə istəyir edirdin.

Bizimlə domino, şaşki-dama, kart oynayırdın, hər dəfə də udurdun. Elə oyunlar var idi ki, sən bizə öyrədirdin. “Çapayev” oyunundan xüsusi ləzzət alardın. Nərd-taxtanın üstündəki xanaları axıracan udub gələrdin, sonra bərkdən gülüb deyərdin, “mən daşları axırıncı xanaya düzürəm, sən də apar eşiyə düz”

Zarafatı duzlu, məzəli bacım. Vahidi, Leyliyi qol gücünə yan üstdə qoyardın. Aradakı xəttdən bir az da gendə durub əlini uzadardın ki, mən tək əlli olum, siz isə iki əlli - çəkişək. Birinci hücumdaca xətti keçirib onları düz yanına çəkərdin və bərkdən gülərdin. Hamıya deyərdin ki, bunların mənə gücü çatmır. O məqam ürəyində dünya dolu məhəbbət olardı. Gözlərin kədər dəryası olsa da,həyat eşqin güc-lü idi.

İştahalı yeyib-içməyi vardı. Hər dəfə motal pendirini – şoru isti çörəyə bükəndə səni anacan, beçə balı dadanda səni anacan, qovurma qızdıranda səni anacam – sevimli yeməklərin idi. Sən yemək yeyən-də özünə də nuş olurdu, baxana da  – iştahalı

yeyərdin. Halal-halal xoşun olsun! Dağlardan gül-çiçək dərməyin, ot yığmağın, qazayağı, yemlik, quzuqulağı yığmağın nağıla dönüb. Qurbanəlinin bulağı, cüt bulaqlar, Ağ daşın qoynu, Gözələr, Qumluq... ayağının izi qalan dağlar da sinəsi dağlı qalıb. Yad tapdaqlarda döyü-lürlər. Əsrlərlə çağrılan adlarına həsrət dağlar. Erməni nə bilir o dağların ayrı-ayrı adlarını. Sən o dağlardan ötrü qovrulduğundan, o dağlar da qovrulur, səndən, məndən – hamımızdan, elindən-elatından ötrü.

1988-ci ilin soyuq noyabrında kənddən vertolyotla çıxdın. Həqişi, səni və bir neçə balaca nəvələri qağam, cicim erməni əlindən vertolyotla Azərbaycana yola saldılar. İlk illər çox darıxdın. İri otaqları – böyük evimizi, məhəlləmizi, doğma kənd-kəsəyi qoyub Bakının balaca evlərinə sığa bilmədin, darıxdın, çırpındın. Sonra sakitləşdin. Ülvi dağı gördük. O illər kəndi də unutduq. Sonra yenə "kənd" deyə ölüb-dirildin. Bir dəfə işdən gəldim, evə keçəndə gördüm ki, qağamın ayaqlarında oturub ağlaya-ağlaya göynəyirsən ki, gəlin kəndə gedək. Canına qurban olum, küskün bacı, nə idi səni ora çəkən, oradan ötrü niyə göynəyirdin? Anandədən, qardaş-bacıların yan-yörəndə deyildilərmi? Bir ovuc kənd torpağı demə bizdən də əziz imiş sənə. Səni anlamamışıq, səni sən qədər duymamışıq, bağışla. Amma başqa əlacımız-yolumuz da yox idi. Cicim sənin ağrına-istəyinə dözməyib ağlayırdı ki, bu qız kəndi istəyir, mən neynim? Bir təhər səni ovutduq, Fənar. Gəzməyə apardım. Bu Dağüstü park, bu bulvar, bu ayrı-ayrı gəzməli yerlər, kino, teatr, – bir-bir gəzib dolandıq, çoxlu şəkillər çəkdik. Bir hovur hər şeyi unutdun. Gəzməyi xoşlayırdın – amma mənə çox da qıymırdın. "İşdən gəlibsən, yorğunsan. Bazar günü gedərik dənizə". "Baş üstə, Fənar". Nə yaxşı, nə yaxşı, nə dedisə, "baş üstə" dedim, könlünü almaq istəyirdim. Onda özümdə dünya xoşbəxtliyi duyardım. Tək mən yox, Həqişə, Pərzad da sənin könlünü almaqdan yorulmazdılar. Kənddə külfət böyük idi. Bir istədiyini geyə bilirdin, birini yox (hamımız kimi). Şəhərdə isə nə istədin, könlün nə döydüsə hüzuruna hazır etdik. Özünü onda xoşbəxt

sayırdın". Mən də qızıl istəyirəm" – dedin. Nə böyük şeydir ki, ürəyimin yuxa parçası, qızıldan da gözün-könlün doydu. Sən demə o da böyük şey deyilmiş. Gözündə-könlündə istəmədik nəsə qalsın. Onda sap-sağlam idin. Könlün qırıq idi deyə balan olub başına dolanardıq. Yenə balalarıq. Sənin ruhunu həmişə şad edən, yad edən, anan balalarınıq. Sən anamız - bacımız olmusan.

Toyum olanda sevindin. Sonra narahat oldun ki, o oğlan səni yaxşı tanıyırmı, bilirmi sən hamıdan-hamıdan böyüksən, güclüsən? Fənar məni dünyada hamıdan uca və şaha layiq bilərdi. İndi də ona görə narahat idi. Mən onu arxayınlaşdırdım. Arada hərdən gəlib bizdə qalırdı. Gözaltı hər şeyə fikir verərdi - sonra bildirərdi ki, şükür, hər şey yaxşıdır. Dünyadan köç günün idi. Səhər tezdən gəlmişdim. Atilla əllərini sığalladı. Hənirindən bildin ki, kimdir. Solğun gözəl simana güc-bəla təbəssüm gətirdin - məhəbbət təbəssümü idi. Baxışlarınla izah etdin ki, bu uşağı otaqdan aparın istəmədin sənin köç anını uşaq görsün.

Fənarın ürəyinin təpəri bu idi – yuxa qəlbliydi. Ərki çatan anasına, bacılarına dərdini bölüşərdi - əsəbini, dünyadan acığını, bəxtinin gileyli hirslə-hikkəylə deyərdi, deyərdi, sonra da özü də yanar tökülərdi, bizi də yandırardı. O məqam yanmış kösövə dönərdim, Fənar. Bilmirdim ki, səni necə ovudum, necə könlünü alım. "Qadan alım, başına dönüm" deyərdim, "vur məni öldür" deyərdim. Ürəyin tezcə yuxalardı. Üzünü çevirib yatardın. Ürəyin-beynin sakitləşəndən sonra ayılardın və guya heç nə olmayıb. Cicimdən çox küskün idin."Niyə mən beləyəm" deyə onu qınayardın. Onun ana dərdi özünə bəs edirdi. Sənə də qulaq asırdı və içindən asılı qalırdı. Həə... Nə isə, özün demişkən, "neyniyək, bizdən asılı olmayan şeylər idi, fikir eləmiyək, gəl ya televiziyaya baxaq, ya da harasa gedək" deyib çiyinlərini çəkərdin. Baş üstdə, Fənar! Baş üstdə, Fənar!

Atlaza anamın (Qizbəs nənəmizin) qızı deyərdin. Evdən tez köçdüyündən fikrində dəqiqləşdirə bilmirdi ki, Atlas cicimin, ya anamın qızıdır. Sonralar bilsə də adına elə "anamın qızı" dedi.

Yusif dünyada hamıdan əziz, istəklisi idi və o, guya (Fənarın fikrincə, elə mənim də fikrimcə) hamıdan elmli, biliklidir. Leyli tay-tuşuydu. Onunla daha çox bəhsləşirdi. Hüseyni hamıdan güclü həkim bilirdi. Sonra, evin 5-ci uşağı özü idi. Özünü hamıdan gözəl və qoçaq sayardı. Şəkibəyə gəlincə xətrini istəyirdi, darıxanda Şəbəni çox arzulardı. Vahidi özündən kiçik qardaş kimi çox istəyərdi və göz dəyməsin deyə ehmalca deyərdi ki, qoy o da yaxşı həkim olsun. Pərzad dizinin dirəyi, ərki çatan hayanı idi. Həqişlə Raufu evin bapbalacası, əzizi, istəklisi, körpəsi bilərdi. Yadımdadır ki, uşaq vaxtı onlara xüsusi qayğıkeşliklə yanaşırdı. Raufu çox vaxt kürəyinə bağlayardı ki, guya ayağı yerə dəysə uşağa soyuq olar. Əlinə keçən əziz tikəsini Raufla Həqişə verərdi. Son illər isə Həqişə daha çox bağlı oldu. Onu ümidi-pənahı bildi. Raufu isə o qədər əziz bilərdi ki, həyatının ən dəhşətli məqamını onun xətrinə bağışladı. Xətir-hörmət, abır-həya, namus-izzət, böyük-kiçik, qardaş ucalığını son nəfəsinəcən qorudu. Səndən, sənin xarakterindən öyrənməli, götürməli çox məqamlar, çox ştrixlər var, Fənar. Sən doğrudan da çiçək idin. Çiçək kimi də soldun, şehli çəmənə üz qoydun. Canım Fənar, sənin məhəbbətin ölüncə qəlbimdədir. Əslində sənin yaşadığın həyatı illəri, tarixləri, hadisələri... bir-bir qələmə almaq fikrində deyiləm. Əvvəla, buna gücüm yetmir. İkincisi, bu, sadəcə mümkün deyil – ağır xatirələrin illərinin vərəqləri arasında qalması daha uyğarlıdır. Üçüncüsü, bir insan haqqında roman, povest, hekayə yazmaq fikrindən uzaq olub, sadəcə bu dünyada mənə əziz bir insan haqqında bəzi duyğuları kağıza köçürürəm hamımıza xatirə üçün. Nəhayət, bu duyğular da elə qırıq-sökük, elə ordan-burdan könlümə dolur ki, razılaşıb eləcə də kağıza köçürürəm. Səni sən kimi təsvir etmək çox çətindir. Ayrı-ayrı fikirlərdən, məqamlardan, notlardan sənə əziz insanlar nə dediyimi tutacaqlar, anlayacaqlar. Təki belə olsun.

2002-ci il iyunun əvvəli idi. Döşündə daş kimi bərk vəz yaranmışdı. İnad etdin ki, bu vəz məni incidir, yata bilmirəm. Xəlvət bir gündə anan evdə olmayanda əzrayıl qara iblis donuna

girib səni qorxutdu, hövləndirdi. Qulaq eşitmir, göz görmür, dil danışmır. Əlinin havasına iblislə əlbəyaxada olmuşdun. Amma sən elə qorxmuşdun ki,üzün-gözün, döşlərin şişdi vəzə döndü. Bilmirəm kim qalib gəldi. O dəhşətli gündə, Allahmı, iblismi? Gəldim sizə. Dərdini həyət uşaqları danışdılar. Gözlərinə nur gəlsin deyə gicgahlarına zəli qoyulmuşdu, indi Zəlinin yara yerini də iblisin dırnaqları qopartmışdı, "qanım kəsmir deyə inildədin" – yandırıb tökdün məni, Fənar. Mən neyniyə bilərdim. Allah, sənə güvənirik, sənin varlığına şükür. Pərzad, Hüseyn sənə yardım etdilər. Həkimlərə göstərdilər. Hüseyn tam inandı ki, ciddi şey deyil. İyunun 14-ü cərrahi əməliyyatla vəz götürüldü. İki ay yaxşı oldun. Sonra, sonra hər şey bizə agah oldu. Sən isə heç nə bilmirdin. Ağrılarını keyləşdirmək üçün dərmanlar alındı, iynələr vuruldu. Çox şeyi bilmədin. Amma ağrın tutandan tutana qovrulurdun. O məqam biləndə ki, qardaşların sənin otağındadırlar, çınqırını çıxarmazdın ki, qoy onlar kövrəlməsinlər, ürəkləri üzülməsin. Ürəyi rahat idi ki, Hüseyn gecələr onlarda qalır, o biri otaqda yatır, onu sağaldacaq. Rauf gələndə ürəyinə buz qoyulurdu. Dərindən nəfəs alırdı ki, Rauf buradadır, yaxşılayacağam. Vahid gələndə deyirdi ki, qoy qolum sağalsın, sənə yenə gücümü göstərərəm.Yusifin də gəlişinə şad olardı. Cicimdən küsürdü, dərdini çox bildirməyə qıymırdı, ürəyini alırdı və deyirdi,bu otaqdan çıx". Bacılarına isə Pərzada, Leyliyə, Şəbəyə, Atlaza körpə kimi sığınırdı, onlara pənahlanırdı. Həqiş isə ona ana oldu. Körpənin anaya ehtiyacı nə idisə, Həqiş Fənara elə gərəkliydi. "Mən nə vaxt qurtaracağam" soruşardı. Vaxt qoyardıq. O isə deyərdi ki, baxın, bayrama – lopa, yumurta, tonqal bayramına nə qədər qalıb, bax onda qurtaracam. Son günlər isə ölümünü duymuşdu. Özü-özünə ağı deyib ağlayırdı. Biz də xəlvətcə ona qoşulardıq. Sonra özümüzü ələ alıb yaxınlaşardıq, danlardıq ki, bəsdir. Bir-iki həftəyə qurtaracan."Dəyməyin, mənə, qoy dərdimə, bəxtimə ağlayım".Ağla,ağla və bu dünyaya – sənin üçün kar, kor, lal dünyaya vida de. Get, üç göylərə, yeni həyatını, işıqlı, ağ

həyatını yaşa. Bax, bəxtinin bu məqamında fikrinə şərik olurdum. Amma qardaş - bacı, qohum – qonşu məhəbbəti, istəyi səni bu dünyadan asanca köçməyə qoymurdu. Ürəyin, sapsağlam, qurd ürəyin bizi deyirdi. Bizim həsrətindəydin, bizdən ayrılıb getməyə ürəyin gəlmirdi, bizsiz darıxacaqdın, elə bilirdin bizsiz ölərsən. Ölüm ayağnın altında, Fənar.

Fənar, vallah hər anın,hər məqamın, yadımdadır. Təkcə son ayların, günlərin yox, özümü qanandan, səni dərk edəndən bəri bütün hər şey. Qələmə ala bilmirəm, ürəyim dağılır. Gör oxuyan nə çəkər.Ruhun şad, bacım!

Qəbri nur,bacım! 2002-ci il, 4 dekabr.

O gecə necə də ağır, çətin ayrılıq gecəsi idi. Gözümüz görə -görə, gördüyümüzü dərk edə-edə səni yola salırdıq.Ömür karvanını bu dünyadan yola salırdıq, Allah izni ilə. Sənə qurban olum Fənar – özünə də, köçünə də – O gecəni hər dəfə yaşadıqca təpənədən dırnağacan soyuluram, ruhum bədənimdən çırpınıb çıxır. Nə qəribə an, nə qəribə məqam idi. Sən ağır-ağır nəfəs alırdın. O nəfəs gün ərzində ayağından tutmuş yavaş-yavaş gül bədənini tərk edirdi. Barmaqların saraldı, dabanın da soldu, ayaqların, dizlərin... Nəhayət qarın hissən də nəfəsin xeyli töyşüdü, sonra... Sonra ürəyinin başına çatdı. Gözlərimin işığı hamımız hər anını duyurduq, yaşayırdıq, görürdük. Axşam 10-na qalmış nəfəsin boğazına yığışdı. Sonra da bir andaca körpə quş kimi ağzından çı-xıb uçdu göylərə-nəfəsini deyirəm, ruha dönmüş nəfəsini. Saat 11-in yarısı idi. Göylərə bir anlığa dəyib yenə otağa qayıtdım. Hələ bizlə tam xudahafizləşməmişdim. Nura bələnmiş quş idin, əvvəl çarpayının başına qondun. Doyunca cavan, gözəl, yaraşıqlı,maya bədəninə, boy-buxununa tamaşa etdin, sonra bizi bir-bir nəzərdən keçirdin, Cicimə baxıb ürəyin yandı, ürəyin yox - o, artıq donmuşdu - ruhun üşüdü. Axı cicim qovrulurdu. Sənə yanırdı - 51 illik ömrünə çətin ömrünə, yığvalı puç ömrünə,bir də indiki ölümünə.

Pərzad başının üst tərəfində oturmuşdu.Bütün günü sənin yanını kəsib oturmuşdu. Leyli deyəsən nə isə duydu. Onsuz da o

da gün ərzində səninlə idi. İndisə gəlib əlindən tutdu. Birdən için-için göynədi. Hacı Rauf əlini gətirib sənin alnına qoydu. O da birdən içindən yandı. Mən yaxına gələ bilmirdim. Hacı məni gözündən almışdı, – hər dəqiqə məni özümdən alınca çımxırırdı, məni sənin köç gecənin küskünü etdi, Fənarım. Ona görə əlimi sənə son məqam toxundura bilmədim,qorxdum həyəcanım səni yolundan ləngidər. O məqam əcəl tərin bədənini çimdirirdi. Bacın ölsün. Və sən uçdun çiçək ətirli bacım. Hamı evin bir səmtinə sıralanıb oturmuşdu. Sənə baxırdıq, səni yola salırdıq, köçünü tuturduq, köçünə yol açırdıq. Getdin, getdin. Amma bunların hamısını görürdün, – duyumunla, hissiyatınla. Qağam, Cicim, Tərlan bibim, Atlaz, ... hamımız sənin köçünə baxırdıq. Yaylıq üçün o biri otağa keçdim. Qayıtdım ki, Hüseyn artıq mələfəni üzünə çəkib. Ruhun şad! Allah rəhmət eləsin sənə, Fənar! Heç kimə borcun qalmadı. Sənə borclu qalındı ki, sən heç kimə borclu olmadın. Hamımızın üstündə haqq sayın var, halal eylə, halal Fənarım.

Getdin, təzə yurd elədin. Yurdun nur dənizinə bələnsin! Səni ölüncə anacağıq. Göyçəyə yolum düşsə sənin torpaq payını gətirəcəm qəbrinə-yurduna səpəcəm, çiçək kimi, torpaq kimi, hava, su kimi, Günəş kimi. Göylərin ki, sərhədi yoxdur. Yəqin Göyçəyə-Kəsəmənə hər gün baş çəkirsən. O torpaqlara, göylərə bizdən salam de, salavat çək! Bizdən də sənin ruhuna, Nərgiz-Fənar-Qacar adına salavat.

Allah rəhmət eləsin, sənə, Fənar!

Ağdaşın qoynundan yığdığın bir dəstə gülün-çiçəyin ətri burnuma dəydi, yuxun şirin, Fənarım!

# YAZ OVQATI

*Bahar nə şirin şeymiş,*
*Ətri bənövşədəymiş.*
*Ömrüm sənin eşqindi,*
*Eşqin də bənövşəymiş.*

*Bənövşə dağ döşündə,*
*Üşüyər şeh düşəndə.*
*Bənövşəyə bənzəyər,*
*Aşiqlər küsüşəndə.*

***Ülvi B.***

# TƏNDİR GÜNÜ

Şamxorun dağ kəndlərinin birində təzə yurd-yuva salmaq istəyən xalamgilə gəlmişdim. Gəlmişdim ki, yer –yurdundan olmuş qohum-əqrabalarımıza dəyim. Həm də hər gün eşitdiyim, ərşə çatan zülmlərin xatirəyə dönmüş söz-sovlarından bir az aralanım. Sən demə, hər yan yanırmış. Tüstüsü yoxdur deyə, kənardan çətin duyulur. Xalamgilin yurd salmaq istədiyi dağ kəndində 60-65 ailə yerləşmişdi. Hərə bir eldən, hərə bir obadan, hərə bir mahaldan toplanıb olublar bir kənd əhli. Təzədən ürək qızındırıb doğmalaşacaqlar qaynayıb qarı-şacaqlar, ürəklə-rindəki qövrü yaşada-yaşada. Kəndin təbii, gözəl mənzərəsi var. Hələ dam – daşda oturuşma-ğa macal tapma-mış ağbirçəklə-rimiz, ağsaqqal-larımız artıq doğma kəndi-mizdəki kimi bir dolanışığın binəsını qoymaqda idilər. Bu yeni yurdda bütün kəndin bircə təndiri vardı. Həmin gün təndirin başına köçkün ailələri toplaşmış, od salmışdılar. Orada –doğma Göyçənin sərin yamaclarındakı kəndimizdə də "təndir günü"müz olardı. İndi yurd-yuvasından olmuş xalalar bu yurdda, Şamxorun Yasamal yamaclarında indiyədək heç vaxt olmadıqları, görmədikləri bir kənddə "təndir günü"nə yığışmışdılar. Köçkünlər odun-ocaq qurub, od salıb burada təndir alovlandırmışdılar, çörək bişirəcəkdilər. Doğma elə qovuşsalar da, bu çörəyin hər tikəsində, hər loxmasında onların başına gəlmiş müsibətin acıları qalacaqdır.

"Səksənə yaxın yaşım var. Kənddə hamı mənə ağbirçək, əlisayalı, türkə çarə bilicisi kimi hörmət edirdi. İndi isə ötəri baxışlar altında ömrümü başa vurmalıyam. İsti evimdən, doğma kəndimdən-kəsəyimdən, mehrimi saldığım əziz qonşularımdan zorla didərgin oldum. Hərəmiz bir yan- bucağa düşmüşük. Hələ ki, bilə bilməmişik bir – birimizdən həyanlıq. Təzədən harada bucaq isitməliyik? O istiyə də min bir ağır əziyyətlə böyütdüym

uşaqlarımı və hər birinin ailəsini cəmləməliyəm. İlahi, niyə belə oldu ? Yer qarğıdı, yoxsa göy çaxdı ? İndiyəcən yığıb-yığışdırdığım əyaqlar altında heç-puç olmalıydımı ? "Qardaş", "kirvə" deyib bağrıma basdığım nankorlar didərgin eylədi məni, isti evimdən, ulu, qədim torpağımdan. Ata-anamdan, baba-nənələrimin, əcdadlarımın qəbri olan torpaqlarımızdan. Bu sinnimdə təzədən heçdən başlayıb evmi qurmalıyam, yarandığım torpağa niyə qarışmamalıydım?" Bu naləden, haraydan,bu ağıdan, bu söhbətdən hamı kövrəlmişdi. Bu, təndir başında oturanların hamısının ürəyindən qopan yanğılardan bir çınqı idi. Gözlərim dolmuşdu. Xala, səbr et, hər şey, inşallah, öz qaydasına düşəcək, deyə toxtaqlıq vermək istədim. Eh, ay sənə qurban olum, bala, o şeyləri ki, biz gördük, şahidi olduq, çətin düzələ. Kim düzəldəcək, axı, düzəldən idilər, niyə dağıdırdılar ? O nə fitva idi, o nə qoyma – hay idi,ağrın alım sənin ?

-Necə oldu ki, axı, birdən-birə 2-3 gün ərzində kəndinizdən çıxmaq qərarına gəldiniz ? Sizi nə məcbur elədi ? Kim sizi qovdu ev-eşiyinizdən ?

-Bir ilə az qalmışdı ki, gecələr yuxu nə oldüğünü bilmirdik.Körpəmizdən ta qocamıza tək. Gecə - gündüz keşik çəkərdik. Hamı narahat, hamı səksəkədə. Hayımıza həyan verən yox idi. Gündə neçə kərə bir dərsdə azğın gəlib hədə-qorxu gələrdi. Havaya atəşlər açardılar, küçələrdə, yollarda maşını üstümüzə elə sürərdilər ki, aləm toza qarışardı. Xəstələnənlərimiz evdə sağalsa sağalardı, sağalmasa ölürdü. Gün – güzəran qeybə çəkilmişdi. "Qoy qış qapını alsın, görək nə edəcəksiniz, hamımızı bir-bir qıracağıq" desələr də, qorxmurduq, inanmırdıq. Çünki bilirdik ki, biz Sovet ölkəsirndə yaşayırıq. Özbaşınalıq yoxdur bu hökümətin qanun-qaydasında. Sən demə… hər şey başdan imiş. Kəndin üstündə fırlanan bir vertolyot axır ki, kəndə girəcəkdə yerə endi. Vertalyotu görən bir yığın uşaq böyüklərdən əvvəl ora qaçdı. İçindən çiyni avtomatlı hərbçilər düşdü. Əl-qollarını ölçə–ölçə nə dedilər,nə demədilər, uşaqları ağlaşa-ağlaşa doldurdular

vertolyota. Hərbiçilər böyükləri inandırmağa çalışırdı ki, 2-3 günə kəndlərə dəhşətli hücum olacaq. Uşaq-ları,qadınları hələ ki,çıxartmalıyıq.Əks tədqirdə… komen-datın əmri belədi. Gündə 2 vertolyotun hər biri 5-6 dəfə reys etdi. Eyni vaxtda hər kəndə belə "qulluq" göstərilirdi Dağın o biri üzü "pənahgahımız" biz tərəfi-Güneyi, Kəsəməni, Məzrəni, Qaraimanı və s. Gədəbəyə, Gəncəyə, o biri – Zod, Nərimanlı tərəfi isə Kəlbəcərə daşıyıb tökdülər. Əvvəl uşaqları, sonra qadınları, sonra da heç kəsi qoymadılar ki, orada qalsın. Hamını əliboş, qurumuzca öz evindən çıxarıb vertolyotla atdılar dağın bu biri üzünə.

Vaxtında elin bütün başbilən, adlı-sanlı oğullarını dartdılar Azərbaycana, ora-bura.Kənd-oba, mahal qaldı ziyalısız.Camaat yetim tək ortada tək qaldı.Əl uzadan olmadı.İllər uzunu təpələri döyüldü.Kimsəyə deyə bilmədin ki, günümüz- güzərənımız belədir.Desək, nə olasıydı? Bu yandan biri gələndə elə bilərdik, əstəğfürullah, Allah gəlib.Televiziya bilməzdik ki, azərbaycanca danışır.Moskvadan ildə bir, ya iki dəfə azərbaycanca veriliş olanda şirin- şəkər düzərdik süfrəyə.Hansını deyim?Deyirsən, dili yanır,demirsən, için yanır. Kəndlərin birindən bir dəstə adam, növbəti hədə-qorxudan cana doymuş, üzüyuxarı dağa çıxırlar ki, bir müddətlik meşələrə çəkilsinlər. Noyabr, soyuqhavalı günlər. Qış qapı ağzında. Yolda hamilə gəlinin ağrısı tutur. Təzəcə dünyaya göz açan uşaq da ölür, gəlin də. Yanında olan qoca qayınatası oturur başı üstündə. Faciənin dəhşətindəmi, imkansızlıqdan abır-həyanın tapdandığındanmı, tanrının zülmündənmi oradaca keçinir. Qalan adamlar isə çarə axtarırlar ki, neyləsinlər. Qar isə bir ucdan yağır, altına alır onları. Ağ kəfəni olur o nakamların… Hər gün həyatımda yaşadığım bu müsibətləri bir daha eştdikcə varımdan yox olurdum. Təndir başındakı xalaların söhbəti uzanır, şahidi olduqları ürək yandıran hadisələrdən elə hey danışırdılar. Göyçəli xalaların nə ürəkləri boşalır, nə də yanğıları azalırdı…

*"Ədəbiyyat və incəsənət"*

*22 sentyabr 1989-cu il*

# ÇİÇƏYİ SOLMAZ DAĞIM

Adətən daş-qaya dibində bitərdi. "Yeddi qardaş ilanlar qayası"nın, bir də "Daşlıq" dediyimiz düzün daş-çınqıllarının yan-yörəsində koma-koma olardı. Az qala sarmaşıq kökü kimi bir-birinə ilişikli boy atardı. Torpaqdan bir azca qalxan kimi təzədən torpağa yatar, sonra qönçələrindən rəngbərəng, sərt ləçəklər xırdaca bükümlə açılardı. (Ləçəklərinin, həm də ətrinin sərtliyi bəlkə də daş-qaya sərtliyindən irəli gəlirdi). İlk baxışdan görünüşü o qədər də diqqəti cəlb etməzdi, gözəlliyi də tez gözə dəyməzdi. Elə ki, uşaqlıq şıltaqlığıyla əl atıb bir-iki qoma yığdın, onda da tutarlı bir dəstə tutmayınca əl üzmək olmurdu. Bir kök üstdə yeddi-səkkiz özək tutuşardı. Çiçəkləri sarı, xurmayı, narıncı, açıq qırmızı, xınayı, bənövşəyi, yaşıla çalan qəribə rənglərdə olardı. Adına solmaz çiçəyi deyərdik.

Qəribədir, solmaz çiçəyi dərimini çobanaldadan quşunun qovularaq tutatut məqamına oxşadardım. Hər ikisi bir göz qırpımında baş verərdi.

Solmaz çiçəyi haqqında ilk dəfə nənəmdən eşitmişdim. Harada bitdiyini, hansı dərdlərin dərmanı olduğunu, hətta neçə illər boyu solmayıb dərildiyi kimi qaldığını biləndə ona marağım başımdan çıxmadı. Və bir gün canımı dişimə tutub üz tutdum "Daşlığa". Oralarda ilan, kərtənkələ olduğunu bilirdim. Onunçün qorxu canımı almışdı. Üstəlik də qəbiristanlığın lap bir addımlığında idi.

Nə isə. Beləcə "qəhrəmanlıq" göstərərək çiçək dəriminə getdim. Tutarlı bir dəstə bağlayıb şər qarışan vaxtı evə döndüm. Təzədən ətəyimə töküb özəklərinin torpağını ustufca bir-bir təmizləyib dəstə bağladım. "Qoçaqlığımı" tay-tuşlarıma möcüzə kimi danışdım. İki-üç gündən sonra isə məhəlləmizin uşaqlarını başıma toplayıb "solmaz çiçəyi dərimi"nə getdik. Hərəyə əməlli bir dəstə bağlayandan sonra evə qayıtdıq. Sözsüz ki, iki-üç

kərtənkələ tutub öldürdük, bir ilan tapıb quyruğunu, başını basıb dırnaqlarımızı dərisinə sürtdük ki, "cırtdanquşu" olmasın.

Amma bu bizim ilk çiçək dərimimiz deyildi. Ondan əvvəllər tez-tez böyük uşaqlara qoşulub dağlara – "Gözələr"ə, "Ağ daşın qoynu"na, "Cütbulaq"a gedib bulaqlar qaynayan yan-yörədən ətrindən doymadığımız cürbəcür, gözəl gül-çiçəklər dərərdik. Özü də düz bir qucaq. Evdə suya qoyardıq. 5-10 gün ötərdi, görərdik, çiçəklərin rəngi dəyişir, soluxur, yenidən dağlara gedib bir qucaq çiçəklə evə dönərdik.

O vaxtdan 25 ilə yaxın vaxt keçir. O çiçək dəstələrini necə bağlamışamsa, eləcə də durur. Düzdür, sonralar 10-11 yaşımıza dolanda daha tez-tez gedib yığardıq. Amma onları şəhərdən gələn qonaqlarımız aparardı.

Ancaq ilk dərdiyim dəstələr durur. Həmişə də harada olmuşamsa, özümlə götürmüşəm. Son vaxtlar diqqət etdim ki, dəstələrdən birinin rəngi sanki qaralıb. Əhvalım ayazıdı. Hər halda uşaqlığımın canlı, xoş xatirələridir, dağlarımızdan, kəndimizdən əziz nişanədir. Sonra dərk etdim ki, yəqin hər gün evdə gedən yurd-yuva ağrılı söhbətlərdən bu dəstə beləcə qaralıb. O birisinin isə rəngi bir azca qaçsa da, təravətini itirməyib.

Ötən yeddi-səkkiz ilin dağı çiçəyimi beləcə dağlayıb. Mənim solmaz çiçəyim, bir də çiçəyi solmaz dağım!

*"Xalq qəzeti"*
*27 fevral 1997- ci il*

# GÖYÇƏDƏ NOVRUZ

Yaz hava-sının duyulduğu bu günlərdə - indi düşmən tapdağında əzilən yurdumda Novruz bayraının qarşılanması və keçirilməsi mərasimlərinin etnoqrafiq detalları bircə-bircə könlümdə vərəqlənir.Qədim oğuz yurdu Göyçədə Novruzun gəlişi torpağın qar əriyən tala-tala yerlərindən ətrafa yayılan ətriylə duyulardı. Torpağın ruha can verən ətri hər yanda qəribə canlanma yaradardı. Bu məqam Novruza üç-dörd həftə qalmış bir vaxta təsadüf edirdi.

*İlk* bayram əhval-ruhiyyəli **çərşənbə axşamı "zibil təki"** (Göyçə obalarında çərşənbə axşamı gününə "tək" deyilirdi) adlandırılaraq yır-yığış, səliqə-səhman, gözəllik, təmizlik yaratmaqla başlardı. Həmin gün ev-eşiyin, hər künc-bucağın toru-tozu silinər-təmizlənər, paltar-palazı yuyular, şaxtalı qış günlərində həyət-bacaya atılıb qalmış kömür-çınqıl, taxta-odun, ot-ələf tör-töküntüləri yığışdırılar, evdamının tüstüdən qaralmış pərdiləri silinər və urvalanardı. Ev-eşikdən yığılmış köhnə parça-paltardan ilk bayram lopaları (məşəlləri) hazırlanıb, qablara iri, qırmızı buğdalar səməni üçün qoyulardı.

**İkinci çərşənbə axşamı "ölü təki"** (qara bayram) kimi qeyd olunardı. Səhər tezdən oba- kənd əhli bir yerə toplaşar və sonra qəbiristanlığa gedərdilər. İlk əvvəl hamı bir yerə – ötən bir il ərzində dünyasını dəyişmiş şəxsin, sonra hər kəs öz rəhmətliyinin qəbrini ziyarət edər, dualar oxuyar, fatihə verərdilər. Qadınlar isə evdən hazırlayıb apardıqları bayram xonçalarını açar və elə oradaca kəndin əlsiz-ayaqsızlarına, kasıb-kusublarına paylayardılar. Bu mərasim iki-üç saat çəkərdi. Sonra geri qayıdanbaş hələ bir ili ötməmiş yaslı evlərə dəyərdilər. Ev sahibi isə əvvəlcədən hazırladığı ehsan yeməkləri tez süfrəyə düzər, heç kəsi qoymazdılar ki, yeməmiş geri qayıtsın. Beləcə həmin ilin yaslı ailələrinə baş çəkilər və həmin axşama hər kəs

öz evində halva bişirər, qazan asardı. Gecə isə qəbiristanlıqda iri tonqallar yanardı.

**Üçüncü çərşənbə axşamı "ilinaxır təki" idi**. Həmin gün yer-göy təp-təzə bəzənərdi. Qız-gəlinlər qırmızı paltar geyinər, təzə örpəklər bağlardılar. Ağzı yaşmaqlı gəlinlər əllərinə, saçlarına xına qoyardılar. Bu çərşənbə axşamına "yeddilövün" gecəsi də deyilərdi. Süfrəyə yeddi növ yemək bişirib düzərdilər. Təbii ki, başda plov buğlanardı. Cürbəcür şirni-konfetlər, fətir-kətələr, əydək-fəsəlilər, qoğallar, noğul-badamlar, xurma, qoz-fındıq, alma-armud süfrənin bəzəyi olardı. Gün batar-batmaz başlayan sulaşma ta səhərəcən davam edərdi. Bu mərasim gecəyarısı daha da qızışardı. Hamı bir-birini ilinaxır suyuyla sulamağa çalışardı. Nişanlı qızın oğlan evindən xonçaları gəlirdi. Hər həyətdə tonqal qalanar, od lopalar göydə ulduz-ulduz görünərdi. Hər şeydən əvvəl isə Göyçəni öz əhatəsinə almış Şahdağın zirvəsində bütün mahal boyunca böyük, əzəmətli tonqallar qurular, şər vaxtı ötüncə od vurulardı. Cəmi Göyçə mahalı o anda sanki od tutub alışırdı. (bu tonqallar həm də məhz erməni gavırların acığına belə çatılırdı) Xalqın ürəklə, məhəbbətlə yanaşdığı bu adətə düşmən gözü də çıxsa mane ola bilmirdi. Qızlar çilləçıxarma gecəsinə toplaşardılar. "Lal su" (bulaq başına gedib-gələn yolboyu danışmadan gətirilən suya "lal su" deyilərdi) gətirib iynə atar, bəxt sınayardılar. Qapı pusub eşitdikləri ilk sözlə o ilki talelərini izlərdilər. Oba əhli o gecəni yatmazdı. Səhər o başdan isə hamı bulaq başına toplanardı. Təzə gəlinləri qaynanası , qayın-baldızları bayram xonçalarıyla,toy-düyünlə bulaq başına çıxarardılar. Gənc qızlar al-qırmızı, ipək örpəkli bəzəklə bulaq başında oğlanlara naz edər, oğlanlar isə bu fürsəti əldən verməz, gözaltı tapar, bayram axşamınacan elçilərini göndərərdilər.

Bayram axşamından bir gün əvvəl "baca-baca" günü keçirilərdi. Hər bir evdə həddi-buluğa çatmamış uşaqlar özlərinə bayram torbası tikdirər və qonşu qapılara atardılar ki, bayram

paylarını alsınlar. Kimin qapısında daha çox bayram torbası atılardısa, o bir neçə gün öyünərdi ki, bütün gecəni uşaqlara bayram payı vermişəm.

**Nəhayət, bayram axşamı Qırmızı bayram** yetişərdi. Bayram axşamı hamı bir-birini təbrik edər, öpər, bayram sevincini bölüşər və bayram aşının ətrafına toplaşardılar. Beli qırmızı toqqalı səməni süfrənin başına qoyulardı. Bütün küsülülər hökmən barışdırılardı. Eyni zamanda bütün qohum-əqrəba bir-birinin evinə bayramlaşmağa gedər, kənd ağsaqqal-ağbirçəklərinə bayram xonçaları göndərilərdi.

Beləcə, xeyli müddət bayram ovqatından ayrılmazdıq.

*"Xalq qəzeti"*
*7 mart 1997-ci il*

# DAĞLARDA ÇƏN OLAYDIM

Neçə vaxtdır ürəyim göynəyir, heç bir anlıq da ayazımır. Kəndimiz yaman yadıma düşüb, yaman! Fikrimdən dağıda bilmirəm onu. Gündə min dəfə öldürüb-dirildir məni bu əlçatmazlıq, bu həsrət. Həm də kəndin içindən çox dağlarımız gözümdən, könlümdən çəkilmir: nağıllardakı "Gülüstani-İrəm"ə bənzətdiyim Cütbulaqlar, Ağ daş, Gözələr, Yurdun ətəyi, Sarı nər, Ağ qaya, Qumluq, Daşlıq, Yeddi qardaş ilanlar qayası, Bəndin dərəsi, Yastana, Ocağın dərəsi, Bağırın bulağı... adı olan-olmayan hər təpə, qaya, çınqıl, başı göyə dəyən dağlar...

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə, qan ağlaram,
Yaman çağımdı mənim.

Ocağın dərəsi dikinəydi. Əslində başı göyə dəyən nəhəng dağı sel aşağıya – Ağsu dərəsinə şırımlayıb Ocağın dərəsini yaratmışdı. O dərəylə də yuxarı çıxmaq çox çətin idi. Enli şırımın – dərənin o tərəf, bu tərəfi uçurum idi, tikanlı, gəvən kollu idi. Gəvən kollarının dibində isə hökmən ilan, kərtənkələ yuvası olardı. Ümumiyyətlə, o ətraf da çox olmasa da ilan, kərtənkələ olan yer idi. Uçurumdan çıxmaq çətin olsa da, ilan, kərtənkələdən qorxsaq da, dağın başına mütləq çıxmalı idik. Uşaqlıq dünyamızı yaşayırdıq onda: inadımız bu idi ki, adam dediyindən dönməz. Lap ölüm olsa belə. Ocağın dərəsinin lap başında bitən şirinikanı, yemliyi, süpürgəsaqqızını, quzuqulağını, bənövşəni, üzüm güllərini... yığmalıydıq. Təxminən bir saata qalxardıq dağın başına. Sonra, sanki cənnətməkan açılardı üzümüzə: hər yan gül-çiçək, çəmənlik, otluq, nə istəyirsən buradan yığ ətəyinə, apar. Ala-bəzək quşların cəh-cəhindən qulaq tutulardı. Çobanaldadan bir əl uzadımına qonardı. Əl uzandıqca bir boy qabağa tullanardı və beləcə adamı aldada-aldada dağı dörd dolandırardı. Sonra uçub gözdən itərdi. Bir də başımızı qaldırardıq ki, qaranlıq, budu

hey... yurddan sürünüb gəlir. Qabaqda ağ duman, dalınca qaranlıq pərdə. Ağ-qara dünyanın dal-dala düşüb sakitcə sürünə-sürünə düz üstümüzə gəlməsi adamın bağrını çatladacaq gözəllik idi. Çox vaxt da çobanaldadana fikir verməzdik. Pencərəmizi, gülümüzü, çiçəyimizi yığıb qayıdardıq. Amma hökmən Ocağı ziyarət edərdik. Orada 20-30 dənə orta biçimli, ağappaq daşlar var idi. Üstündə müxtəlif cür işarələr, xırdaca uşaq ayaq izləri və qəribə (əslində dərindən diqqət yetirməmişdim) şəkillər. O daşların hamısı müqəddəs sayılırdı. Yerindən qaldırmaq olmazdı. Yoxsa guya dünyanın günahları onu yerindən götürənin boynuna yazılardı. Kəndin qocalarından eşitmişdik ki, ora hansısa imam övladının yurd-binə yeri, ocağı olub. Heç Ağ daşların altındakı zəhərli ilanlar da adamı vurmaz. Eləcə min illərdir oraların keşiyini çəkirlər. Ona da böyüklü-kiçikli dəqiq inanmışdıq ki, o daşların içində qızıl var. Son imamlarımız dünyaya gəlməmişdən əvvəl dünyanın başqa bir din-inam işarəsi (xaç) olub. Bax, bu daşlar elə o illərdən qalandır. Nəsillər min illərdir qoruyub bir-birinə ötürə-ötürə gəlib çatıb bu vaxta. Maraqlıdır, heç kəsin nəfsi gətirməzdi ki, o "qızıllı daşları" oğurlasınlar. Ziyarət başa çatcaq "Bismillah" deyib dalı-dalı geri çəkilərək üzüaşağı uçurumdan enərdik. Deyərdilər ki, a bala, oralar gavır ayağı götürməz. (Gavır erməniyə deyərdik). Son zəng qabağı o dağı-daşı bircə-bircə gəzib -dolaşmağı qərara aldıq. Ocağın dərəsinə də qalxdıq. Ocaq daşları yox idi. Dəli olduq. "Hanı daşlar?" Axı bunlar bizə qənim olacaq, kim götürüb? – deyə hay-haray saldıq. Yaxınlıqdakı çobana yaxınlaşdıq. "A bala, o irəli –il, il yarım olar, erməni gavırlar buralarda xəndək qazarkən götürüb apardılar. Hər dəfə birini-ikisini. Dedilər, – buralardan kəşfiyyatçı geoloq kimi nümunələr götürürük, – bax, onda aparırdılar. Nə illah elədim, eşitmədilər məni. Heç kəndin böyükləri də əhəmiyyət vermədilər". Bunları çoban dedi.

Kənd uşaqları yığışıb gedərdik gül yığmağa. Hərə bir qucaq yığardı. Hərdən pendir-çörəyimiz qurtaranda kənddən üç kilometr uzaqda olan dağ ətəyində salınmış kolxozun meyvə bağına

girərdik. Elə şirin gələrdi o gömgöy, kal alma-armudlar. Bütün günü mahnı oxuyardıq. Cütbulaqların bumbuz suyunda çimərdik, gün altında dərimizi yandırardıq ki, qoy qışda naxoşlamayaq. Nəhəng Yeddiqardaş İlanlar qayasının üstünə çıxıb dincələrdik. Sonra qayanın üstündə bitən xınanı isladıb daşla əzərdik, əllərimizi qıpqırmızı xınalayardıq ki, qoy həm gözəl görünsün, həm də dırnaqlarımızın dibi möhkəm olsun, "cırtdanquş" qalxmasın. Hər Novruz həftəsi gavırlara "dağ" çəkərdik. Şah dağının ən uca, əlçatmaz zirvələrinə, qayaların üstünə gündüzdən köhnə təkərlər çıxarardı uşaqlar. Şər qovuşan kimi benzin töküb od vurardılar, o təkərlər səhərəcən yanardı. Düz 7 gün dalbadal edərdik bunu. Bütün kəndlər ellikcə qoşulardı bu adətə. Nəhəng lopalar düzəldərdik. Ucunu yerə sancıb "Novruz" sözü yazardıq. Yeddi dağ başında yeddi dənə yeddi dəfə – cəmi o mahal yeddi gün oda, bayram ocağına bələnərdi: baca-baca gəzərdik, təzə il suyu ilə sulaşardıq, oğlanlar yumurta döyüşdürərdilər. "Adı tutulan qız"lar yığışıb çilə çıxarardılar, biz də maraqla baxardıq. Qapı pusub bəxtimizi, gələcəyimizi eşitdiyimiz sözlərlə izlərdik. Qoşalülə quş tüfəngimizlə atam bizə atəş açdırardı ki, qoy qorxu-hürkümüz, ağrı-acımız bu güllələrlə sovuşub getsin. Qəribə inamımız vardı hər şeyə. Elə qəribə, şirin uşaqlığımız keçib kənddə. Qonşumuz Nəcəf əminin sazını, ölərəm, unuda bilmərəm. Zil səslə oxuyardı. Bu bir adət idi ki, Novruzda hökmən ocaqlar, tonqallar baş-başa çatılardı. Sazın səsi bu obadan o biri obaya getməli idi. Bu bizim dünyaya doğuluşumuz, yaşayışımız idi. Göyçə belə yaranmışdı, belə də yaşayırdı.

Kənddə Möhsün kişi vardı. 7-8 oğul-qız atası idi. İliç lampaları dünyanın gözünü belə qamaşıqlı qoyduğu vaxtda o, evinə işıq çəkdirmədi. Yəni razı olmadı ki, kəndin "montyoru" gəlib o evə işıq çəksin; onun daxmasında böyüyən "sovet balaları" "babalarının işığı" ilə dünyanın nuruna bələnsinlər. Elə bircə sözü də bu idi ki: "A camaat, a kişilər, əl çəkin məndən, etibar etmirəm o məftillərə". 1988-ci ildə məftillərlə axıb gələn "İliç toku

qurtardı". Ermənilər bütün xətləri qırıq-qırıq etdilər, dirəklərini isə yanı üstə yıxdılar. Kənddə hamı işıqsız qaldı. Təkcə Möhsün kişi gözünü açandan indiyə qədər yandırdığı "nöyüt fənarı" ilə komasını işıqlandırırdı. Bəlkə bu da bir körk idi. Heç bilmirəm indi o kişi harada yaşayır. Balalarını quduzların əlindən çıxarıb bir ocaq başına cəmləyə bilibmi? Və indi dünyasını hansı işıqla seçir, bələdləyir.

Kəndimiz düzəngah yerdə salınmış gözəl, yaraşıqlı, bağlı-bağatlı, meyvəli, urzalı bir oba idi. Sərv boylu söyüdlər göz işlədikcə uzanardı. Bapbalaca, qorxaq sərçələr cik-ciki ilə ürəyimi oyardı. Kəndimiz arxasını dağa – Şah dağına söykəmişdi. Bax o dağlar üçün darıxıram. Sağalmaz bir göynərti keçir bağrımdan:

*Hanı mən gördüyüm qurğu busatlar?!*
*Dərdiməndlər görsə, tez bağrı çatlar.*
*Mələşmir sürülər, kişnəmir atlar,*
*Niyə pərişandır halların, dağlar?*

Əvvəllər yuxuma girməyən kəndimizi, evimizi, dağımızı indi yuxumdan uzaqlaşdıra bilmirəm. Hər gün, gözümə çimir enməmiş ruhum uçur oralara. Əsməri, Sevili, Zərnişanı, İlqarı, Baratı görürəm orda. Əvvəlki istəyimlə onları istəyirəm, sevinirəm onlarla, söhbətləşirəm. Ayılıram... Bakı. Ülvi əfsanəsini bizə yaşadan, canımızda od-ocaq dərdi çatan Bakı. Kəndimizdən baş götürüb dünyamızı aramağa çıxdığımız Bakı. Uşaqlığımızdan sıyrılıb nəhəng Bakıya oxumağa, iş qulpundan tutmaq üçün sənəd almağa, böyük dünyanı bilmək üçün gəlmişdik, əfsanəvi dərd qazanmağa yox. Ya Allah! Qaytar, qaytar dağımı, düzümü, uşaqlığımı... hər şeyimi.

*Dağlar, mənə qar göndər,*
*Əsirgəmə, bar göndər.*
*Ya dərdimə şərik ol,*
*Ya dərmanın var, göndər.*

*"Ədəbiyyat qəzeti" 21 avqust 1992-ci il,*
*"Xalq qəzeti" 20 mart 2005-ci il*

## GÖZƏLLIKLƏR GÖZÜNDƏ ÇIMƏNDƏ

*Kəpəzin zirvəsindən* qopub üzüaşağı yumalanan ağ sal-sal daşlar, iri qayalar gözəllik mücəsəməsitək göz oxşayır. Elə bil dağ döşünə iri mirvari dənələri səpələmisən. Bu daşların, qayaların dibindən, yan-yörəsindən pöhrələnib göyə millənən ağaclar sanki mələk ovsununda onları yağışdan, istidən-sazaqdan qoruyur. Hələ... Hələ bir də görürsən budu eyy... duman-çən sürünə-sürünə gəlib hər yeri ağ örnəyinə bələyir. Elə bil ona baxanlardan utanan "gəlin təbiət" ağ kəlağayısıyla yamşaqlanır. Az sonra bu örpək sakitcə yığşırılıb qeyb olar-olmaz başqa aləm açılır – bülbüllərin cəh-cəhi, torağayın nəğməsi, ağacdələnin tıqqıltısı, rəngbərəng quşların koldan-kola, budaqdan-budağa hoppanışı, zümzüməsi insan ruhunu qartal uçuşuna kökləyir. İstəyirsən bir anlıq uçub hər ağaca, hər daşa-qayaya, hər çiçəyə əl vurasan, yavaşca könlünü oxşayıb soruşasan ki, Kəpəzin zirvəsində xoşbəxt idin, yoxsa çiçəklərin, otların sinəsində. Qartalın ayağında sevgili idin, yoxsa bülbüllərin – minbir nəğməli quşların ağuşunda.

Təbiətin yaratdığı bu səhnədə bütün "dekorasiyalar" yerli-yerindədir. Elə bil dünyanın gözəlliklərini görüb-götürmüş, zəngin təfəkkürlü bir rəssam əliylə ustufca quraşdırılıb. Daşlı-qayalı dağların ətəyində şirin sulu, əsrarəngiz Göy göl. El misalıdır – "gözəl bir də onda gözəldir ki, öz gözəlliyindən, məftunediciliyindən halidir". Göy göl də gözəlliyindən nazlanan, xumarlanan möcüzədir. Yamyaşıl meşəli dağlar qucağında – göylərin də rəngindən sürmələnib özünü təbiətin bəxtəvəri sayır. Oradan bir az yuxarıda ayrı aləm açılır. Dağlardan özünə gərdək tutan, ağzı yamşaqlı, qayaları xınalı bir ayrı göl – Maral göl. İnsan könlü valehedici bir coşğunluqla ixtiyarsız gölə üz tutur. "Yan-yörəndə ceyran, cüyür, maralın o qədər çoxmudur ki, sənə Maral göl deyiblər". Ləpələrin nazlı pıçıltısını ürəyindəcə eşidirsən: "Yox, eyy... O dəhşətli zəlzələ gecəsindən sonra Ağsu çayından irili-xırdalı doqquz göl yarandıq. Ən böyüyümüz Göygöldür.

Sonra mənəm. Gözəlliyim Maral misallı olduğundan adıma Mara göl dedilər. Təbiət isə meşəli dağlarla məni gərdəkləyib ki, az gözə görünüm, yoxsa nəzərlənərəm".

Bir belə gözəlliklər Kəpəzin ətəyində cilvələnir. Kəpəzin zirvəsi isə bomboz, yaralı, çalın-çarpazlıdır. Fələyin bu divanından doqquz yüz ilə yaxın zaman ötsə də elə bil hər şey yaxın vaxtların işidir. Amma üzbəüz qədim dağlar, möhtəşəm qayalar min-milyon illərin izidir, nəfəsidir. Bu ululuq çiçəklə

rin ətrində, otların tərpənişində, minbir rəngli güllərin boy-boya duruşunda sezilir. Ən möcüzəlisi isə o göllər, çiçəklər, quşlar ağuşunda bir körpə nəfəs duyursan. Dağlar qoynundakı gözəlliklər gözündə çiməndə o boyda sıralanan Göyçə dağlarından gələn ilıq nəfəsi, çiçək ətrini ruhum daddı.

Kiçik Qafqaz sıra dağlarının Yasamal döşündən dolana – dolana baş alıb gedən yollar gözəlliklər ağuşun-da nazlanan, sığalla-nan bəxtəvərləri xatırladır.Bu yollar yalqız deyil.Sağında–solunda daşlaşmış kəhər izləri,nağıl qədər sirli daş – qayalar,çəmən–çəmən çiçəklər, dərdlər əlacı otlar,yarpaqları bayatı pıçıltılı ağaclar,kol – kos…təbiətin yaratdığı minbir möcüzəili aləm bu yolların həyanıdır.Ürək dolusu sevgini dağlar duycaq utanar,bir də görərsən sakitcə ağ dumanıyla yaşmaqlandı.Bu dağların göz – gözə baxdığı aləm isə bir ayrı sehrdir.Dayandığın Yasamal ətəyindən arxaya çönüb göz yetirdiyin Böyük Qafqaz sıra dağlarının şahanə duruşu, əzəmətli, üfüq boyu ucu – bucağı görünməyən düzümü,yay – qış boya – boy ağappaq qarla örtülü əlyetməz zirvələri adamı doğrudan da öz aləmindən qoparır,əl – ələ tutduğun təbiət gözəlliklərinin ovsu-nundan çıxırsan,xəyal körpüsüylə əl uzadıb görünən zirvələrdən bir ovuc qar qamarlayırsan.Sonra zirvəsi qarlı dağlardan göz endirib bomboş düzəngahlıqdan – Ceyrançöl düzündən keçib dəli - dolu Kürə çatınca dayanırsan.Yasamal döşündən görünən Kür çayı elə o səmtdə də nur dəryasına dönüb. Düzü – dünyanı işığa qərq edincə Kür dəryası dolur – daşır,sonra yenə qız hörüyütək öz

axarınca uzanır…Kürün nur dəryasına oxşadığı yerlə Yasamal dağları arasında qədimdən – qədim,uludan – ulu bir şəhər görünür.Bu tarixi daş kitabələrə yazılan ŞƏMKİR şəhəridir…

*"Atilla"*
*2004, №1, səh.22.*

## GÖRÜŞ YERİMİZ - ALLAH QİBLƏGAHI, ATA OCAĞI

1942-ci ilin xoş, bəxtəvər bir günü idi. Bir evdən başqa bir evə gəlin köçürdü. Heç bilmirdi sevinir, yoxsamı... Müharibənin qızğın vaxtı idi. Elin çox oğulları cəbhəyə yollanmışdı.



Bacısınm nişanlısı da vuruşmada idi. Bu qarmaqarışıqlıq içindən ovqat tapıb nəşəyə bələnmək bir az çətin idi. Qohum olsalar da Qanlıdan Kəsəmənə 15-20 km yol var idi. Amma birindən baxanda uzaqdan-uzağa o biri görünürdü. Beləcə yollar, qohumluq əlaqələri üstündən yeni bir körpü salındı. Möhkəm və kövrək, sərt və yuxa, səmimi və səmimi. Babışın oğlu Qasım müəllimdir— qalstuklu, kostyumlu, bər-bəzəkli formada bura qız bəyənməyə gəlib. Eşidən - bilən qonum-qonşu qızlar bəzənib düzəndilər. Müəllim oğlanın gözü qabağından bir dəfə də olsa o yan bu yana ötdülər. “Bəlkə məni bəyəndi” - qismət arzusuyla. Amma Fin müharibəsindən qayıtmış müəllim oğlan bəzəksiz, bu görüşə əhəmiyyət verməyən qızı-əsmərbənizli Güləbətini seçdi, bəyəndi, sevdi və toy eliyib evinə apardı. O vaxtdan 63 il ötüb. Özlərinə neçə-neçə toylar ediblər... ağac toyu, mis toyu , qızıl

toyu,... 7 qız və 4 oğul— ana zəhməti, ana narahatlığı, ana qayğısı, ana əziyyəti, ata diqqəti, ata nəzarəti ilə el-obaya gərəkli övladlar böyüdüblər. Baba-nənə olublar - 25 nəvə, 15 nəticə yiyəsidirlər.



Bu ailədə həkimlər, mühəndislər, alimlər, geoloqlar, dərzilər, tərcüməçilər, şairlər, iqtisadçılar miihasiblər, yazıçılar, müəllimlər, qəhrəmanlar, - vətən şə- hidləri, vətən döyüşçüləri yetişib, köklü-köməcli nəsil vaıanıb. Hərənin öz evi, öz ocağıdır. Qasım müəllimlə Güləbətin anamn hərarəti, isti ürəyi, səmimi duyğuları bu ailənin üzvlərini bir-biriylə bu ocaqda görüşdürür. Bu ocaq böyük məktəbdir, pirdir, nurdur, tərbiyə ocağıdır. Bura gəlib dəyib, sonra öz evinə qayıdanda Allahın qibləgahından dönmüş kimi özünü hiss edirsən. Özündə bir güc, inam duyursan.

Göyçənin Kəsəmən kəndindən qorlanıb yanan bu ocağın közü tükənməsin. Qasım müəllimlə Güləbətin ananın Brilyant toyu üç il əvvəl ötdü. Gələn ildən, Allah qoysa, Dəmir toyları (65 illik) başlayır.

## DÜNYAMIZIN SEVGİ GÖZƏLLİYİ

Şərq filosofu Rudaki sevgini mavi göylərdəki günəşə bənzətmişdir. Başqa bir filosofsa, ona dünyanın səkkizinci möcüzəsi demişdir. Əslində sevgi özü bütün möcüzələrin əzəlidir, başlanğıcıdır, yaradıcısıdır. Həqiqətdir ki, bütün gözəlliklərin fövqündə sevgi dayanır. Elə bu məqamdaca bir anlıq xəyalımızda dolandıraq: Dənizə baş vuran ağ qağayıların "zümzümə"si qundaqdakı bəbənin qığıltısını xatırladır. Günəşdən bərq vuran dalğalı sulara tamaşa edərkən də içində ılıq bir nəfəs duyursan. Gül-çiçək kollarının yan-yörəyə yayılan ətri dənizin havasına qarışarkən ana südünün çoxusunu dadırsan. Daddığımız, duyduğumuz bu hisslər, gözəlliklər görüntüləri söz yox ki, sevgidən yaranır, sevgidən yoğrulur. Dünyanın-insanın, insanlığın, təbiətin gözəlliyi qəlb sevgisinin əksidir. Sevgi – cəmiyyətin beşiyidir. Qəlbində sevgi işığı varsa, gözəlliklər göz qabağındadır, ruhundadır. İnsanlar arasındakı səmimiyyət, humanizm, xeyirxahlıq, məhəbbət məhz sevginin təzahürüdür. Sevgi əbədi olaraq bütün insanları düşündürüb: "Dünyada ən ali dindir" (Balzak O.) ,İnsanlığın maraqlı və tam bağışlanan səhvidir (Dikkens Ç.), O, elə Məşəldir ki, ən uca yolu işıqlandırır (Nitşe) , Dünyanı dərketmənin bir üsuludur (Solcenitsin S.), Xoşbəxt andır (Derçaçev E.), Ürəkdə diş ağrısıdır (Heyne H.), Ali cəmiyyətin bünövrəsidir (Avdeyev V.) . Bir başqa filosofsa onu cənnət və cəhənnəmə bənzədib. Mavi dənizə tilov atan balıqçının sevgi dünyasında sular daha coşğundur.

Bir belə sevgili misralardan sonra duydum ki, sevgi bəbədir, ılıq duyğudur, ana südüdür, dünya işığı və bir də gözəlliyin görüntüsüdür.

*"Atilla"*
*2004, №1, səh.22.*

# KİTABIN İÇİNDƏKİLƏR


Azərbaycan eşqi –Azərbaycan ağrısı (ön söz əvəzi).................. 6
Göyçəm – Göy Çiçəyim........................................................ 13
Itirilmiş yurdum.................................................................... 14
Ülvi B. Hələ səbr edirəm (şeir)............................................. 16
Göyçə elim, yurd yerim......................................................... 18
Göyçə sevgili düyğularla baş-başa.......................................... 19
Atilla.................................................................................... 22

**ÜLVİ DÜNYA**

Ülviləşən Ülvim ........................................................ 34
"Ülvi duyğularım"a sözüm ........................................ 38
“Ömrüm sənin eşqindi”............................................................ 43
“Yanırsan, məni də yandırmaq üçün”........................................ 49
Mən qorxmuram uzaq yola çıxmaqdan...................................... 60
Yaman darıxıram, Ülvi ............................................... 62
“Ölümün acığına”....................................................... 64
“Həyat üçün doğulmuşuq”......................................... 68
“Bilin, daşdan deyil mənim ürəyim” ........................... 69
Gənc şair Ülvinin 26 yaşı....................................................... 73
Ülvim mənim, gəncliyim mənim............................................. 74
Günəşinə qovuşan Ülvim......................................................... 76
Ülvi ünvanli məktublar... Ülvinin şeirləri.......................... 86
"Xalq ordusu" qəzetinə........................................................... 87
Səksən dönüb yüz olacaq........................................................ 88
Mənim Ülvi dünyam bir ayrıdır............................................... 90
"Ulduz"a məktub..................................................................... 92
Nənəmin nağılı–tarixin nağılı.................................................. 94
Almaz.................................................................................... 100

**QARABAĞ DƏRDİM – MƏLHƏMIMIZ QARABAĞ TORPAĞIDIR**

Oljas Süleymanov ................................................................ 102

Fəxrəddin əfsanəsi ........................................................................ 102
Göynəkli günümüzdən ..................................................................... 108
Tarixi yaralarımız ........................................................................... 111
Sərhəd rayonları .............................................................................. 112
Qazax: torpaq namusumdur ............................................................ 113
Yuxarı Əskipara .............................................................................. 121
Goranboy ........................................................................................... 122
Çaykənd: haqq yerini tutar ............................................................. 132
Füzuli: torpaq sevgisi həyatdir ....................................................... 137
Borçalı mahalındakı narahatçılıq yerdən-göyəcəndir ................ 142
Xocalının diri tarixi (Səriyyə Müslümqızına məktub)............ 148
Ağdam: Nigaran gözlər ……………………………………….. 150
Şəki – hüsnün gözəlsə... ……………………………………….. 154
Şəki: el-elə qovuşar....................................................................... 157
Beyləqan – yurd hikməti ………………………………………. 161
Daşkəsən – Ülvi məkan ……………………………………….. 167
Cəbrayil: “Ağ yol”un yoxuşunda.............................................. 173
Şuşa faciəsi – şahidlər deyir ……………………………………. 178
Məlhəmimiz Qarabağ torpağıdır …………………………….... 182
Dünyaya baxdım, gözlərim doldu (Çingiz Mustafayev)……..... 186
İgid Rüstəm – Şəhid Rüstəm …………………………………… 189
Gədəbəy-Başkənd döyüşləri: qəhrəman Məzahir ....................... 193
Türk ocağının közərtisi ………………………………………….. 196
Şəhid Həzi ……………………………………………………….. 197
Bacı cavab gözləyir ……………………………………………… 198
Yoxa çıxmış təbəssümlər............................................................ 200
İstiqlalçı Gülhüseyn müəllim.......................................................

## QƏLƏM DƏ BİR SÜNGÜDÜR

“Vicdanımızın sevdiyi dildari-vətəndir”.................................... 204
“Hər bülbülü-qəmpərvərə gülzar vətəndir”................................ 208
Tale poeziyası ............................................................................... 212

Şəhidlik zirvəsi ........................................................................ 217
Mənəvi ağrılar dünyasında........................................................ 221
Ümmügülsüm – ağır taleli şairə ................................................ 228
Sevgiləri Azərbaycan azadlığı ................................................. 233
Fəlsəfi düşüncələr poeziyası................................................... 233
Torpağa bülənd sevgi ............................................................... 236
Vətəni özündən başlayan şair .................................................. 241
Şairliyindən də ucada dayanan nəhəng vətəndaş........................ 243
Məmməd Araz poeziyası ruhumuzun nəğməsidir ...................... 245
Cavad Qəmli ............................................................................ 248
Dünya ayrılıqlar dünyası imiş .................................................. 251
Bir ovuc bulaq suyu ................................................................. 254
Ölüncə biləcəm sənin qədrini ................................................. 256
Torpaği öpən şeh...................................................................... 259
Yurd ağrısından öllәm, ay ellər…............................................. 260

**HƏYAT ÖZÜ BIR SƏHNƏDIR**

Didərgin İrəvan teatrı ............................................................. 263
İrəvan teatrına kömək lazımdır ................................................. 269
"Məhəbbət yaşayir hələ"........................................................... 271
Səmayə İsmayılova: Yad ölkədə çıraq yandırmaq olmaz ......... 272
Səmayə İsmayılova: Seyr etmir köksündə türfə gözəllər........... 275
Əlinin teatr dünyası .................................................................. 277
Sarıköynək Günəşi necə gətirdi?............................................... 280
Dava qəhrəmanı – partizan İbrahim Bayramov........................ 282

**DƏRDİMİ SAZA DEDİM, SAZA DA OD DÜŞDÜ**

Ələsgər ünlü bir qərinəlik xatirələrə dalınca............................... 296
Heç demirsən, Ələsgərim hardadir? I yazı ................................ 289
Heç demirsən, Ələsgərim hardadir? II yazı .............................. 299
Dədə Ələsgərin yubileyi............................................................ 301
Yorulmaz tədqiqatçi, saz – söz aşiqi ......................................... 302
Bir "Misri" harayla, aşıq........................................................... 304

Könül sevgimiz  göylər qədər safdır ........................................ 308
Ulu Burla Xatun yaşına dolmuş Narınc Xatun............................ 312
Sazın sehri, Narınc Xatun məhəbbəti, el qədri............................ 315
Yetsə  qulağına Şəmşirin səsi...................................................... 316
Ay qız , vəsməli gəlin (Aşıq Gülarə Azaflı)................................ 320

**MÜƏLLİM UCALIĞI SEHRİNDƏ – SÖZ SEHRİ  ZIRVƏSİNDƏ**

Fəlsəfi fikir tariximizin şəhid alimi........................................... 325
Susmuş ömrün yaşıl yarpağı – ürəklərdəki məhəbbətdir............ 332
Qəşəm Aslanov: Göylər təki sevgili................. ...................... 336
Qəşəm Aslanov: Həyat məktəbi, qeyrət simvolu....................... 339
Qəşəm Aslanov: Onu xatırlayanda çöhrələrə təbəssüm qonur.... 346
Qəşəm Aslanov: Bu torpağın hər qarışı mənim Kəbəmdir......... 349
Qəşəm Aslanov: Azərbaycanına pərvanə vurğunlüğü ilə............. 352
Təravətli, xoş niyyətli..................................................................... 357
Çiçək nəfəsli nəğmələr.................................................................... 362
Bir nəğmə yazıram... yaşayıram mən........................................... 367
Şair – vətəndaş ............................................................................... 372
Həsrətimin ilk şərqisi Vətəndir..................................................... 375
Müəllim ucalığı sehrində ............................................................... 378
Ömründən nur payı ayıran müqəddəslər........................................ 381
Səmimi poeziya ............................................................................. 383
Qəlbindəki şeh damcısı - eşq pıçıltısıdır
(jurnalsit Telli Pənahqızı haqqında)............................................ 386
Sən özün elə şeirsən (jurnalist Mənzərə Sadıqova)...................... 391
Nur çiçəyi ........................................................................................ 394
Əllər şəfalı Telman həkim.............................................................. 397
İlmələrin nağılı................................................................................. 399

**SÖZ SÖZÜ ÇƏKƏR**

Dünyanın səhmanı pozulan gecə ……………………………… 401
Azadlıq mübarizi şair Xəlil Rza Ulutürk ittiham olunur:
şair zindana siğmaz ........................................................................ 413

Yaradıcı ziyalılarımızın vətənə borcu var .................................. 422
Göyçə aşıq mədəniyyətinə bir baxış........................................... 432
İçərişəhərdə yaşanan folklor dünyası......................................... 438
"Saritel" mənəvi ağrılarımızın məlhəmidir................................... 441
Necəsən, İrəvan teatrı?.............................................................. 447
Göz bədənin poeziyası, poeziya isə ədəbiyyatın gözüdür …….. 451
"Sona bulaği"ndan qaynayan şair ömrü ……………………… 458
Qəm içində olmayasan, içində qəm olsun ……………………. 462
Toponimlər xalqın taleyidir.................................................... 466
Dolaşıq taleyimiz ……………………………………………… 469
Ağrı mənimdir......................................................................... 473
Almas İldırımın oğlu qonağımızdır …………………………… 476
Sənsiz olmasaydım yaza bilməzdim......................................... 478
Arazı yara-yara ………………………………………………….. 483
Moda cəmiyyətdəki prosesləri qabaqlayır (modelyer Fəxriyyə Xələfova)...................................................................................... 486

**KİTABLAR TARİXİN YADDAŞ SALNAMƏSİDİR**

"Didərginlər" – xalqın tale itkisi.......................................... 493
Bir ovuc vətən torpağı.......................................................... 498
Folklorşünas alimin "Aşıqlar" kitabı..................................... 503
Göyçədən başlayan folklor.................................................... 504
"Göyçə folkloru"................................................................... 504
"Göyçə dastanları və aşıq rəvayətləri".................................... 506
Miskin Abdal......................................................................... 508
Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri"............... 509
"Ulu Göyçə" qəzeti................................................................. 511
İrəvan ziyalılarına abidə ....................................................... 512
Doğma torpaqlarımızın yazılı heykəli.................................... 514
Ağbaba folkloru..................................................................... 516
Paralanmış Borçalı ............................................................... 520
"Qars" müqaviləsi və ya tarixin ötən səhifələri.................... 523

Toponimlər torpaq yaddaşımızdır, tariximizdir................. 525
Göyçə aşıqları: Aşıq İdris, Aşıq Şirin.................................. 528
Ağrı dağı qədər ağrılarım var ................................................ 530
Göyçənin qisası qalır........................................................... 532
Eldar İsmayılın yeni kitabları.................................................... 534
Şair sözü ilə ucaldılmış Heydər Əliyev heykəli........................... 536
Uğuruna qurban, Flora ……………………………………… 539
Köksündəki dərdin mənə tanışdı................................................ 542
Floranın “Yuxular” dünyası....................................................... 543
Böyük sevgidən yoğrulmuş xoş anlar......................................... 544
Nəm sətirli nəğmələr................................................................. 547
Analar........................................................................................ 550
Sevgin də, sevincin də mənim ………………………………… 552
Göyçənin tonqalı sinəmdə yanır................................................. 553
Bir ürəyin duyğuları………………………………………… 555
Göyçənin Tərlan qızı ………………………………………… 558
Şəhidlərin qanı… alimin mürəkkəbi (Göyçə şəhidləri)....... 562
Abşeron şəhidləri ..................................................................... 564
Milli oyanış və özünüdərketmə yolunda nikbin faciə........... 565
Azərbaycan harayının misralarda izi.......................................... 567
Azadlığım üçün isə məhəbbətimdən də keçərəm........................ 568
Əbədi dünya hikmətləri ............................................................ 570
Ələsgər ocağının yetirməsi......................................................... 572
Anaların ürəyi vətənin baş səngəri............................................. 573
Onu sevgi şair edib.................................................................... 575
Fənar (elegiya)……………………………………………….. 578

**YAZ OVQATI**

Təndir günü ………………………………………………..… 589
Çiçəyi solmaz dağım ………………………………….…….. 592
Göyçədə Novruz Bayramı ………………………………….…. 594
Dağlarda çən olaydım ……………………………………..…… 597

Gözəlliklər gözündə çiməndə....................................................... 601
Görüş yerimiz - Allah qibləgahı ata ocağı................................... 604
Dünyamızın sevgi - gözəlliyi....................................................... 606
Kitabın içindkilər......................................................................... 607

**Almaz Ülvi**

(Binnətova-Süleymanova Almaz Ülvi Qasım qızı)

# Müharibə ağrılarım

*(ədəbi qeydlər, sənədli publisistik düşüncələr)*

**I kitab**

Bakı - 2005

Texniki redaktoru
və dizayneri: İbrahim Ömərov

Kompyüter tərtibçisi: Asim Hüseynoğlu
Vüqar Əsgərov

Kompyüterdə yığdılar: Günay, Gülbəniz, Səadət

Korrektoru: Həqiqət, Günay
Rəssami: Sədaqət Kamil qızı Quliyeva

